**Rəbiyyət Aslanova**

# XXI əsr:
# Yeni mədəniyyət məkanına inteqrasiya

**Bakı – «Nurlan» - 2 0 0 7**

***Aslanova R.N.***
**XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya.**
**Bakı, "Nurlan" nəşriyyatı, 2007 – 440 səh.**

*Müasir dövrdə hər bir dövlət özünün milli inkişafına, maraq və mənafeyinə uyğun siyasətini həyata keçirir. Eyni zamanda, dünya dövlətlərinin xarici siyasətində bir ümumi xətt – inteqrasiya istiqaməti də aydın sezilməkdədir.*

*XXI əsrdə dövlətlərarası qarşılıqlı əməkdaşlıq münasibətləri, "qloballaşma" adlandırılan çoxşaxəli, ümumplanetar proseslərlə səciyyələnir. Qloballaşmanın yalnız inkişaf səviyyəsi baxımından deyil, ən başlıcası təkrarsız və özünəməxsus mədəniyyətlərin daşıyıcısı olan ən müxtəlif ölkələri də əhatə etməsini nəzərə alsaq, hesab etmək olar ki, mədəni inteqrasiyanın mükəmməl modelinin axtarışları müasir dünyada öz həllini tələb edən taleyüklü problemlərdən biridir.*

*Mədəni inteqrasiya bəşəriyyətin mənəvi potensialının qorunması, inkişafı və sintezini təmin etmək baxımından dünya birliyi qarşısında duran humanitar və sosial problemi kimi çıxış edir.*

*Fəlsəfə elmləri doktoru, professor Rabiyyət Aslanovanın təqdim olunan kitabı yeni yüzillikdə hansı mədəniyyət məkanında yaşadığımızı inteqrasiyanın nə kimi mədəni-mənəvi faktorlarla şərtləndiyini ətraflı təsəvvür etmək istəyən geniş oxucu auditoriyasına ünvanlanmışdır. Kitabda inteqrasiyanın baş verdiyi "böyük məkanlar" nəzəriyyəsi, həmçinin, onun praktiki konsepsiya kimi Avropada tətbiqi faktları ilk dəfə diqqətə çakilir. Kitab məkanda yolgöstərən olmağa deyil, yol yoldaşı kimi məkanı birlikdə tanımaq arzusuna xidmət edir.*

**ISBN 978-9952-809-87-9**

**© Rəbiyyət Aslanova, 2007**
**© «Nurlan», 2007**

## *MÜNDƏRİCAT*

*Müəllifdən* ........................................ 6

**I Bölmə. Mədəniyyətlərarası inteqrasiya strateji inkişafın imperatividir**

§ 1. Böyük ideya ........................................ 10
§ 2. Avropada sosial-mədəni inteqrasiya məkanının kəşfi .. 13
§ 3. "Avropa üçün ruh" - mədəni inteqrasiyanın XXI əsr üçün strateji layihəsi ........................................ 21
§ 4. "Böyük məkanlar" nəzəriyyəsi və inteqrasiyanın məna tutumu ........................................ 29
§ 5. Bir zaman və çeşidli inteqrasiya məkanları ........................................ 35
§ 6. Yeni mədəniyyət məkanının spesifikası ........................................ 49
§ 7. Mədəni məkan, qlobal rəqabət və mədəni müqavimət ........................................ 53
§ 8. Dünyanı dəyişən inqilablardan dünyagörüşü dəyişdirən texnologiyalara ........................................ 59
§ 9. Mədəniyyətin elektron əsri və mədəni analitika ........................................ 76
§ 10. Mədəni inteqrasiyanın humanitar mexanizmləri və konsepsiyaları ........................................ 82
§ 11. Azərbaycan: universal inteqrasiya modeli və milli praktika ........................................ 106
§ 12. Avrasiya mədəni inteqrasiya modeli kimi: real və potensial imkanlar ........................................ 113

**II Bölmə. Azərbaycan XXI əsrdə: milli-mənəvi intibahın və mədəni inteqrasiyanın genişlənən üfüqləri**

§ 1. Ümummilli lider Heydər Əliyevin siyasəti mədəni müqəddəratımızın qarantıdır........................130
§ 2. Şərqin də, Qərbin də etiraf etdiyi siyasət və dovlət lideri..............................................................146
§ 3. Heydər Əliyevin yaratdiği tarixin beş məqamı üzərində düşüncələr....................................155
§ 4. Heydər Əlitev irsi, milli suverenlik prinsipi və dünyaya inteqrasiya..............................................169
§ 5. Heydər Əliyev və Azərbaycanda siyasi elita ............190
§ 6. Azərbaycanda milli intellektual elita və qlobal innovasion cəmiyyətə inteqrasiya məsələləri............202
§ 7. Azərbaycançılıq mədəni inteqrasiyanın milli və universal modeli kimi..............................................231
§ 8. Milli varlığın əbədiliyi, mənəvi dəyərlərin varlığı, əbədiyaşarlığı qədərdir ................................244
§ 9. Azərbaycanda çoxpartiyalılıq: dünya təcrübəsinə və sistemli modelə doğru ..........................................261
§ 10. Azərbaycan inkişafın yeni mərhələsində .................283
§ 11. Mədəniyyətin gender ölçüsü......................................303
§ 12. Azərbaycan qadını mənəviyyat və ülviyyət simvoludur ..................................................312
§ 13. Hüquq mədəniyyəti və vahid hüquq məkanı.............317
§ 14. İnsan hüquqları və azadlıqları sahəsində milli qanunvericiliyin inkişaf perspektivləri......................321
§ 15. Uşaq hüquqlarının təminatı – bəşəriyyətin gələcəyinin təminatıdır.............................................334
§ 16. Azərbaycanda mükəmməl qanunlar və şərait mövcuddur ............................................................340



**III Bölmə. İnteqrasiya prosesləri, tolerantlıq və din amili. İslam Avropa məkanında**

§ 1. Müasir insanın dünyəvi və dini dəyərlər seçimində tolerantlıq meyarı......................................346
§ 2. Demokratiya mədəniyyətin ali meyarı kimi................356
§ 3. İslam və qadın hüquqları: universal və milli aspektlərin praqmatik konsensusu .............................362
§ 4. Qloballaşma və islam dininin dialoji potensialı.........369
§ 5. İslam mədəniyyəti və qlobal cəmyyət.........................381
§ 6. İslam və milli mədəniyyət..........................................397
§ 7. Sivilizasiyanı sülhə aparan yol tolerantlıqdan keçir ...416
§ 8. İslam Avropa məkanında ............................................426

*Son söz əvəzi*..................................................................431
*Mənbələr* ........................................................................433

## *Müəllifdən*

Mədəniyyətimizdən qürur duymaq, mənəvi irsimizlə fəxr etmək hər birimizə xas olan təbii hissdir və haradan gəldiyimizi cavablandıran mövqedir. Onun harada olduğunu və hara gedəcəyini aydın təsəvvür edə bilirikmi? Bu istiqamətdə dövlətimizin apardığı uğurlu, çoxşaxəli fəaliyyətə yardımçı ola bilirikmi?

Bu gün Azərbaycan cəmiyyəti qarşısında həyatın bütün sahələrinin dünya inkişafının müasir meyillərinə və intensiv ritminə uğunlaşdırması ən zəruri məsələ kimi durur. Əhatədəki sosial, iqtisadi, psixoloji, mədəni reallıqların təsəvvürəgəlməz sürətlə dəyişməsi, əvvəla, cəmiyyətin, o cümlədən də hər bir vətəndaşın qarşısında fasiləsiz təkmilləşmə, mədəni, professional, sosial və şəxsi keyfiyyətlərin daim yüksəldilməsi və inkişaf etdirilməsi vəzifəsini irəli sürür. XX əsrin yeni mədəniyyət məkanının mövcudluğu şərtlərinə, fərqli tələblərinə, çoxşaxəli təsirlərinə həssas olmaq və ona adekvat fəaliyyət tərzi yaratmaq ayrılıqda hər bir insanın mövcud vəziyyətə dair real biliklərə malik olmasını, müvafiq qərarlar qəbul etməsini, şəxsi qabiliyyət və keyfiyyətlərinin səfərbər edilməsini tələb edir. Bu məsələlər ictimai elmin qarşısına konkret vəzifələr qoyur.



Yalnız yaşanılan məqamın bütün fərqli və yeni xüsusiyyətləri barədə əhatəli məlumata malik olan insanlar, xüsusilə də gənc nəsil, bu gün onun şüuruna ünvanlanmış bütün formal və qeyri-formal mənbələrdən qaynaqlanan məlumatı öz təhlil süzgəcindən keçirə, ondan səmərəli faydalana bilər.

Məkanın adi şüur səviyyəsində "bəsit" fəlsəfəsi mövcuddur. İnsan ilk dəfə gördüyü bir məkana qədəm qoyanda sövq-təbii olaraq əhatəsinə boylanır, məkanı tanımaq, özünə doğmalaşdırmaq istəyir. Bu məkanda gedəcək yol və cığırların bütün istiqamətərini tanımaq, naməlum döngələrin, uçurumların onu harada gözlədiyinə bələd olmaq, onları dəf edəcəyinə əmin olmaq istəyir.

Məkan fəlsəfəsi, mövzusu hələ mifoloji yaradıcılığın da diqqət mərkəzində olmuşdur. Xalq nağılında Cırtdan da "işıq gələn", yoxsa "səs gələn" tərəfə getmək seçimi qarşısında durudu. Hələ mif vaxtlarından parodoksal olsa da, bir məsələ qəti aydın idi: dayanmaq vəziyyəti movcud deyil! Hökmən getmək, yolu qət etmək lazımdır, nəyin bahasına olursa-olsun, doğru istiqamətə getmək lazımdır.

Yaşadığımız qlobal reallığı dərk etmək üçün onun şərti olaraq, siyasi, iqtisadi, sosial, informasiya, elm, hüquq və s. məkanlara bölünərək təhlil edilməsi qəbul edilmişdir.

Müstəqil dövlətin tarixi inkişaf dinamikasında mədəniyyət və mənəviyyat məsələləri təməl rolunu oynayır. Ölkəmizin dünya birliyinə inteqrasiyası, mədəni-mənəvi oriyentirlərini müəyyən edən ideya və konsepsiya olmadan XXI əsrin fövqəlmürəkkəb məkanlarında uğurla irəliləmək çətindir. Suveren Azərbaycanın mədəni yüksəliş və intibahının Heydər Əliyev tərəfindən müəyyən edilmiş kursu bu gün dövlətin siyasətinin əsasını təşkil edir, mütərəqqi inkişafın real mexa-

nizminə çevrilir. Qədəm qoyulan hər növbəti il qloballaşmanın məkanlarının daha da genişlənməsini və çulğaşmasını şərtləndirir və yaxın perspektivlər üçün daha konkret məqsədləri hədəfə almağı zəruri edir.

Qlobal sosial-mədəni dinamikanın tədqiqatçıları hesab edir ki, Şərq sivilizasiyası, Qərbə nisbətən texnokratik-praqmatik düşüncə tərzinə daha az "yoluxmuşdur" və bu cəhət gələcəyin "humanist cəmiyyət" perspektivləri baxımından böyük əhəmiyyətə malikdir. Yeni dövrün problemlərini həll edə biləcək mədəni-etik paradiqmanın formalaşmasında bu müsbət start imkanları kimi qiymətləndirilməlidir.

Eyni zamanda bu gün hər bir ölkənin tərəqqisi, bütövlükdə güclü, rəqabətədavamlı mədəni informasiya məkanının formalaşmasından, humanitar potensialın hərtərəfli reallaşdırılmasına şərait yaradan mədəni mühitdən birmənalı şəkildə asılıdır.

Bununla əlaqədar müasir sosial–mədəni reallığın gerçək mənzərəsini formalaşdırmaq, mahiyyət fərqlərini izah etmək, tarixi baxımdan əhəmiyyətini geniş şərh etmək üçün ictimaiyyatşünaslıq üzərinə düşən məsuliyyəti dərk etməlidir. Yalnız bu halda – hansı zamanda və hansı məkanda yaşadığımızı dərk etdiyimiz halda, harada olduğumuzu, yeni dünya nizamında nə kimi yer tutduğumuzu və nələrə nail olmaq istədiyimizi aydın dərk edə bilərik.



*I BÖLMƏ*

# MƏDƏNİYYƏTLƏRARASI İNTEQRASİYA STRATEJİ İNKİŞAFIN İMPERATİVİDİR

## § 1. Böyük ideya

*XX əsrin sonlarına qədər bəşər tarixi lokal, milli tarixlərdən ibarət olmuşdur.*

*XXI yüzillikdə ilk dəfə dünya ölkələrinin vahid taleyi, qlobal tarixi "yazılmaqdadır". Deməli, bu vaxta qədər milli mədəniyyətlərin daşıyıcısı olan hər bir xalq indi bu vahid mədəniyyət zamanı və məkanında özünə yer tutmalıdır. Əks təqdirdə, süqut taleyi yaşayan böyük sivilizasiyaların acı təcrübəsi təkrarlana bilər.*

Yəni, vahid mədəniyyət məkanının sakinləri olmayanlar XXI əsrin tarixindən silinmək qorxusu ilə üz-üzədir. Buradan təcrid olunmaq qeyri-mümkündür, istisnadır. Burada başqa mədəniyyətlərlə bərabər hüquqlu tərəflər kimi ünsiyyətə və dialoqa gəlməyin, inteqrasiyanın alternativi yoxdur. Deməli, mədəniyyət məkanına inteqrasiya – XXI əsrdə inkişafın strateji inperatividir.

Bəşəriyyət bu secimi etmək üçün geniş mənada iki min il yol gəlməli olub.

Mədəniyyətin insan varlığının heç nə ilə müqayisə olunmayan invariant təməli olduğunun tək-tək dahilərin deyil, əksər dünya dövlətlərinin dərk etməsi üçün zaman-zaman yaradılmış bütün maddi və mənəvi sərvətlərin məcmusunun, bəli, məhz mədəniyyətin ən ali nümunələri məhv edilib, dağıdılıb, yandırılıb. Və hər dəfə yenidən yaratmaq əzminə rəğmən yenidən məhv etmək kimi paradoksal mövqelər savaşıb.



Bu savaşın kulminasiya nöqtəsinin harada, tarixin hansı məqamında yaşanıldığını demək çətindir. Görəsən, Babil qülləsinin çökməsi mədəniyyət üçün daha böyük faciə idi, yoxsa 11 sentyabrda Dünya Ticarət Mərkəzində əkiz "qül-lələrin" çökməsi daha böyük fəlakət idi? Bəşəriyyətin dağıtmaq üçün deyil, yalnız qurmaq üçün, yaratdıqlarını birlikdə qorumaq üçün daha neçə "qüllələr" yıxılacaq?

Hər halda bəşəriyyət bir məsələyə münasibətdə yekdil qənaətdədir: tənəzzül, süqut taleyini yaşayan möhtəşəm mənəviyyat nümunələri, çökmüş qüllələr tarixdə kifayət qədərdir. Onları yenidən ucaltmaq mümkündür. Lakin onları yenidən uçurmaq – artıq vahid taleyi formalaşan dünya binasını uçurmaq demək olardı. Əmin olmaq istərdik ki, 11 sentyabr – son tarix olacaq.

Müqayisə edilsə, XX əsr də "çökmə simvolu", "Titanik"in məhvi, Birinci dünya müharibəsinin dəhşətləri ilə başlanmışdı.

Ümumi qəbul olunmuş fikrə görə, ötən əsr bəşər tarixinin ən faciəli əsrlərindən biri olmuşdur. İki dünya müharibəsi, Xirosima, sovet həbs düşərgələri. Əsrin sonlarında davam edən süqut fenomeni: sovetlərin, Berlin divarlarının süqutu.

XX əsrin əvvəllərinin tarixi, sosial-mədəni ovqatını ifadə etməyə çalışan alman filosofu O.Şpenqler yazırdı: "İnsanlarda nə isə bir narahatlıq gözləntisi var idi. Bu faciələr sanki gözlənilən idi. Bütün bunlar Böyük Böhrandan xəbər verirdi. Dünya sanki necə yaşamağı, birlik üçün nə etməyi izah edən Böyük İdeya axtarışında idi".

Bəhs olunan faciələrin, müharibə dəhşətlərinin baş verdiyi məkan – Avropa məkanı idi.

Yəqin ki, məhz bu acı tarixi təcrübənin hec vaxt təkrar olunmaması arzusu, faşizm kabusunun külə döndərdiyi xarabalıqlar üzərində bu gün ölkələrarası inteqrasiyanım unikal modelini – Avropa Birliyini yaratmağı şərtləndirən ən mühüm amil olmuşdur. Avropa xalqları Böyük İdeyanı – inteqrasiya ideyasını həyata keçirərək minillərin arzusu kimi mövcud olan layihəni həyata keçirmək əzmini ortaya qoymuşdur.

İkinci dünya müharibəsindən sonra Qərbi Avropada gerçəkləşməyə başlayan inteqrasiya prosesləri ötən yüzilliyin sonlarında müasir dünyanın bütün regionlarına yayılmağa başladı. Nəinki Avropa bölgəsinin, hətta bütün dünyada inkişaf və qarşılıqlı əməkdaşlığın başlıca – qlobal meyillərinədən birinə çevrildi. XXI əsrdə "Avropa Birləşmiş Ştatları" ideyasını həyata keçirəcəyi "Böyük Avropa"nın təşəkkül tapacağı perspektivləri artıq o qədər də şübhə doğurmurdu.

Lakin Avropada inteqrasiya proseslərinin zirvə nöqtəsi, inteqrasiyanın simvolu olan vahid Avropa Konstitusiyasının qəbul edilməsi ilə bağlı olan proseslər bu modelin də hələlik optimal, universal model olmadığını gündəmə gətirdi. Ötən əlli il ərzində ilk baxışda nəzərə alınmayan, inteqrasiyanın həlledici istiqaməti kimi diqqət mərkəzində olmayan problemlər bütün ciddiliyi ilə ortaya çıxdı.



## § 2. Avropada sosial-mədəni inteqrasiya məkanının kəşfi

*"Polad və daş kömür birliyindən mədəniyyətlərin birliyinə doğru".*

*XXI əsrin əvvəllərində həm bütün dünyada, həm də Avropada baş verən sistemli transformasiyalar, qloballaşma proseslərinin geniş vüsət alması, inteqrasiya modelində özünəməxsus strategiyanın ayrı-ayrı dövlətlər, bölgələr, mədəni və milli birliklər üçün optimal olan variantın axtarışını sürətləndirdi.*

İlk dəfə mövcud olan inteqrasiya proseslərinin bütün istiqamətlərini, tiplərini, qarşılıqlı təsirin mexanizmlərini yenidən nəzərdən keçirmək imkanı əldə edildi. 1951-ci ildə, aprelin 18-də altı dövlətin (Belçika, İtaliya, Luksemburq, Niderland, Fransa, Almaniya Federativ respublikası) Parisdə, "Avropa daş kömür və polad istehsalı birliyi" yaratmaq haqda müqaviləsindən başlayan, hələlik dünyada gənc olan inteqrasiya tarixinin məqamları, uğurları və ziddiyyətlərinin təhlili sadə həqiqətləri üzə çıxarır. Hamının qəbul edə biləcəyi ümumi, universal təcrübə ilə yanaşı, artıq sınaqdan çıxmayan layihələrin, inteqrasiya meylinə əks olan dezinteqrasiya hərakatını doğuran səbəblərin aradan qaldırılmasına böyük zərurət yaradır.

"Dəmir pərdələri, Berlin divarlarını" yıxan insanları birlik ideyası, bu ideyanın təntənəsi olan vahid Avropa Konstitusiyasının qəbul edilməsinə necə mane ola bildi? Bu və buna bənzər suallar qloballaşmanın doğurduğu problemlərlə bağlı xüsusilə aktuallaşmışdır. Yarım əsrdən çox qət edilmiş yolun, tarixlə müqayisədə çox gənc, dünyada ilk təcrübə almaq baxımından çox böyük olan Avropa inteqrasiya modelinin, mövcud əməkdaşlıq mexanizmlərinin əhatəli təhlili çox vacib məsələdir.

Bu illər ərzində ilk əvvəl inteqrasiyanın iqtisadi, siyasi, hüquqi mexanizimləri həyata keçirilmişdir. Yeni yüzillikdə inteqrasiyanın Avropa modelinin ən önəmli istiqaməti – mədəni-mənəvi mexanizmlərin hərəkətə gətirilməsi, dünya ölkələri ilə vahid sosial-mədəni məkanın formalaşdırılması ən prioritet məsələ kimi irəli sürülmüşdür.

İlk baxışda elə görünə bilər ki, bu problemlər yalnız bəhs edilən məkanla bağlıdır. Əlbəttə ki, yox. Məsələ burasındadır ki, iqtisadi, siyasi, hüquqi inteqrasiya sahəsində səmərəli təcrübəsini bütün dünyada tətbiq edilən hüquqi dövlət quruculuğunun, liberal bazar iqtisadiyatının yüksək inkişaf etdiyi qabaqcıl ölkələrdə inteqrasiyanın qarşısında duran problemlər bu gün, ümumiyyətlə, Qərb demokratiyasının optimal model olduğunu, onun həyatiliyini sübut etmək üçün ən ciddi sınağa çevrilmişdir. Bir qədər dəqiq desək, iqtisadi və siyasi məkanların birliyi Avropada mexaniki mədəni, mənəvi məkanların da qovuşmasını təmin edə bilmişdir.

Mövcud problemlərin həllinin sadalanan sahələrdə bütün mexanizmləri, infrastrukturu formalaşdırılsa da mədəniyyətin inteqral potensialı arxa planda qalmışdır. Nəticədə Avropa iyirminci yüzilliyin əvəlində də, uzaq keçmişdə olduğu kimi həqiqi birlik idealından hələlik çox uzaqda olduğunu dərk etmişdir. Bunu yalnız sosial-mədəni, mənəvi amillərdən qaynaqlanan kütləvi iğtişaş və qalmaqallar deyil, həm də ictimai rəy sorğuları da aşkar göstərmişdir. Avropa sakinlərinin problemə münasibətdə bədbin və nikbin mövqelərdə demək olar ki, bərabər bölünməsi inteqrasion modelin tənqidini gücləndirdi.



Ziddiyyətlərin zahiri təzahürünü beynəlxalq hüquqla milli hüquq sistemləri arasındakı uğursuzluq şərtləndirdi. Böyük Avropa Konstitusiyası yaradıcıları tərəfindən, inteqrasiya prosesinin iştirakçısı olan bütün dövlətlərin milli qanunvericiliyində artıq mövcud olan demokratik prinsiplərin daha dolğun ifadəsi kimi səciyyələndirilir. Ən başlıcası isə, rəsmi bəyanatlarda deyildiyi kimi, Avropanın insan hüquqları sahəsində əldə etdiyi əsas uğurlar burada tətbiq olunmuşdur. Qlobal iqtisadi, siyasi və s. təsirlərə qarşı duran səmərəli mexanizmlər sistemi yaradılmış, nəhayət, yeni şəraitin idarə olunması üçün zəruri olan əlaqələndirici institutlar təsis edilmişdi. Avropa Konstitusiyasının yaradılması üsulu doğrudan da spesifik haldır. Onun əsasında milli hüquq deyil, beynəlxalq müqavilələr və beynəlxalq hüquq durur.

Dünya inkişafının tamamilə yeni xüsusiyyətlərlə səciyyələnməsini göstərən əlamətlər çoxdur. Bu gün yalnız tarixən, uzun müddət mövcud olan birgəyaşayış formalarının dəyişməsi baş vermir. Hətta yaşı cəmi yarım əsri haqlayan inteqrasiya prosesinin Avropa modelinin də artıq səmərəli tətbiqi üçün çox ciddi əngəllər olduğu ortaya çıxmışdır. Bu da öz növbəsində həmin modelin, inteqrasiyanı monolit birliyə çevirən bağların hansı həlqəsindən zəifləməsini, həqiqi birlik üçün hansı amilin nəzərdən qaçırıldı-

ğını, dərk və təhlil etməsinə kəskin sosial sifariş yaratmışdır.

Bəşəriyyətin vəhdəti, sarsılmaz birliyi arzusu tarixin bütün dönəmlərində mövcud olmuşdur. Lakin bu arzunun gerçəkləşməsinə ən böyük ümidin bəslənildiyi müasir dövrdür. Bir tərəfdən, qloballaşma prosesləri dünyanın maddi (iqtisadi və informasiya bağlılığı) vəhdətini reallığa çevirmişdir. Digər tərəfdən isə, tarixdə siyasi dövlət, milli dövlət quruluşları ilə yanaşı, ilk dəfə sosial dövlət forması həyata vəsiqə almışdır. Avropa Birliyi və inteqrasiyanın Avropa modeli, insanların bütün (maddi, mənəvi, sosial və s.) imkanlarının təmin olunmasını, ümumi rifahın yüksəldilməsini gerçəkliyə çevirən sosial dövlət quruluşunun təməlini qoymuşdur. Bununla yanaşı, qulaqlarımız üçün yeni olan "Avropa identikliyi" sivilizasion inkişaf yolunun seçimində tam vüsətlə özünü büruzə verir.

Bu məkanda inteqrasiya ideyaları qədim tarixi köklərə malikdir. Bu mövzudan bəhs ediləndə Qədim Roma imperiyasının, Böyük Karlın imperiyasının, təcrübəsi (müqəddəs Roma imperiyası), Napoleonun fəth siyasəti, Avropa Birləşmiş Ştatlarının yaradılmasına dair çoxillik diskussiyalar yada düşür.

İkinci dünya müharibəsindən sonrakı intensiv inteqrasiya proseləri, Maastrixt (1992), Amsterdam (1997) və Nits şəhərində imzalanmış (2001) müqavilələr birliyini şərtləndirən obyektiv proseslər olmuşdur. Sonrakı mərhələlərdə, birliyin simvolu olan konstitusiya timsalında Avropa identikliyində, inteqrasiyanın bu qlobal layihəsində nə isə çatışmayan bir həlqənin olduğunu qabarıq şəkildə nümayiş etdirdi.



Sosial dövlət quruculuğu ideologiyasından çıxış edən inteqrasiyanın başlıca məntiqinə görə, bu obyektiv bir layihədir. Çünki insanların hüquq və azadlıqlarını, iqtisadi baxımdan əlverişli üstünlük əldə edilməsini, bütövlükdə Avropa üçün təhlükəsizliyi təmin edir.

Lakin layihənin reallaşdırılması başqa mövqelərdən də qiymətləndirilməyə başladı: Avropanın birləşdirilməsi liberal dəyərlərin itməsinə səbəb olsa, fundamental dəyər və hüquqların – milli identikliyin, sosial, mədəni, şəxsi hüquqlar, büdcə təminatı, milli və mədəni azlıqların hüquqları, immiqrasiya və sığınacaqların verilməsi, artıq vahid olan vizaların verilməsi və s. bütün bunlar milli dövlətin və hökumətlərin nəzarətindən kənarda həll olunacaqsa, vəziyyət necə ola bilər?

Əsas problem məhz Avropa identikliyi, milli və Avropa suverenliyinin nisbəti, inteqrasiya prosesinin bu aspektdə strategiyasının nədən ibarət olması idi. Fransada və Hollandiyada referendumların baş tutmaması inteqrasiya modelinin ən ciddi ekspertizasına təkan verdi. Artıq özünə yer almış "avropessimizm" yaxud "avrooptimizm" kimi mövqelərdən yox, "avrorealizm" gerçəkliyindən çıxış edilməsi gündəmə gəldi.

Qərbi Avropadan fərqli olaraq, Şərqi Avropa bölgəsində demokratik ümumi konstitusiyanın qəbul edilməsi ilə milli identiklik axtarışlarının eyni vaxta düşməsi xüsusilə destruktiv faktor kimi özünü göstərdi. Millətçilik ruhunun yüksələn xətt üzrə getdiyi Şərqi Avropada paradoksal istiqamətli proseslər gedirdi. Bir tərəfdən, milli identiklik Almaniyanın birləşməsinə və inteqrasiya prosesinə təkan verilməsinə səbəb olurdusa, digər tərəfdən, dezinteqrasiya

meyilləri çox günlü idi və ayrı-ayrı dövlətlərin parçalanmasının hüquqi şəkildə təsbit olunmasını şərtləndirirdi (Çexoslovakiya, Yuqoslaviya).

Millətçiliyin, milli dövlət ideyasının, sosial dövlət vətəndaş cəmiyyəti konsepsiyası ilə ziddiyyətə girməsi məhz bu ərəfəyə təsadüf edi.

Vahid konstitusiya və inteqrasiya modelinin tənqidi gedişində, birliyə mane olan prinsiplər və meyarlar sistemi problemin yalnız prosedur və prosessual icra məsələsində deyil, hər şeydən əvvəl, mədəni, sosial, tarixi amillərə dayaqlandığı məlum oldu.

Başlanmaqda olan dezinteqrasiya proseslərinin səbəbləri kimi mühüm parametrlər aşkara çıxarıldı:

- hər şeydən əvvəl, Avropa identikliyinə əngəl olan mühüm maneənin, mədəni-milli müxtəliflik və özünəməxsusluğunun gələcəyindən doğan narahatlıq olduğu bəlli oldu, (multikulturalizm problemi);
- Avropa identikliyi və suverenliyi ilə milli suverenliyin hüquqi, siyasi nisbətinin müəyyən olmadığı ortaya çıxdı;
- sosial dövlət və insan hüquqları ideologiyasının prioritet hesab edilməsinə rəğmən, inteqrasiyaya mane olan destruktiv faktorlardan (mədəni identikliyin itməsi, marginallaşma, immiqrasiya, ucuz işçi qüvvəsinin rəqabəti və s.) səmərəli müdafiənin hüquqi mexanizmlərinin olmaması arasında ziddiyyət kəskin şəkildə durur;
- Avropa sərt seçim qarşısında qalmışdır: sosial dövlətin, iqtisadi üstünlüyün saxlanılması, insan hüquqları ideyasına sadiq qalmağı, yoxsa ziddiyyətlərin həlli mexanizmləri tanınana qədər, ikili standartlar xeyrinə onlardan imtina etməli;
- Avropa məkanı xarici aləmə qapalı olmalı, yoxsa sosial mədəni inteqrasiyanın çevik, işlək mexanizmlərini, sivil formalarını yaratmalıdır;
- gələcək inteqrasiyanın inkişaf strategiyası demokratik institutların dondurulması, yoxsa mövcud sosial gərginliyin artırılması fonunda onların dəstəklənməsi önəmlidir;
- inteqrasiya yönündə ciddi əngəllərdən biri də müasir Avropada (həm də bütün dünyada) klassik parlamentarizm institutlarının kütləvi cəmiyyət şəraitində effektiv işlənməsi imkanlarının maneələrlə üzləşməsidir. Mədəni səviyyənin və təhsilin keyfiyyətinin arzuolunan şəkildə formalaşmaması bir tərəfdən, ictimai şüurun manipulyasiyası vasitələrinin çoxalması isə digər tərəfdən, siyasi elitaların strateji qərarlar qəbul etməsinə mane olur, parlamentarizmin zəifləməsinə səbəb olur.

Bütün bu və çoxsaylı digər amillər Avropa inteqrasiya modelində böhran doğuran səbəbləri, onun strateji istiqamətlərini yenidən nəzərdən keçirməyə, müxtəlif parametrlər arasında səmərəli konsensusa nail olmağa sövq etmişdir.

Avropada "kömür və polad birliyinə dair müqavilə"dən başlayaraq, ümumi idarəetmə strukturu altı ölkənin imzaladığı və vahid valyutanın yaranmasına, insanların, kapitalın, malların və xidmətlərin azad hərəkətinin təmin edilməsinə, millətüstü qurumların təşkilinə, əlaqəli xarici siyasət yeridilməsinə doğru addımlayan Avropa Birliyi bu gün

25 dövlətin və yaxun perspektivdə onların sayının daha da artırılması istiqamətində inkişaf edir.

İnteqrasiya modeli baxımından bu bəşəriyyətin bütün tarixi boyu əldə etdiyi ən böyük nailiyyətdir. Lakin bu nailiyyətin möhkəmləndirilməsində ən ciddi ziddiyyətlər mövcuddur. Bu ziddiyyətlər kövrək "Avropa identikliyini, Avropa immunitetini" yoxa çıxara bilər.



## § 3. "Avropa üçün ruh" Alyansı - mədəni inteqrasiyanın XXI əsr üçün strateji layihəsi

*Bu gün 500 milyondan çox əhalini birləşdirən Avropa məkanı "dünənə qədər" bir-birini vətəndaş müharibəsində qana qərq edən dünya müharibələrinə meydan olmuşdur. Birlikdə yaşamaq və inkişaf etməyin yolunu ilk əvvəl iqtisadi təməllər üzərində qurulmasında görmək təbii və məntiqi bir qərar olmuşdur. Gələcək münaqişələrə son qoymaq arzusu ilə siyasi və hərbi məkanların inteqrasiyası həyata keçirilmişdi. Lakin yarım əsrdən çox müddət ərzində bunların kifayət olmadığı, inteqrasiyanın səmərəli və universal sayıla bilən modelində daha bir istiqamətdə yaxınlaşmanın zəruriliyi dərk olunmuşdur.*

İnteqrasiyanın mükəmməl modelinin axtarışları bütövlükdə Avropanın qlobal islahatlar sisteminin üzvi tərkib hissəsidir. Bu baxımdan Avriopa Birliyinin sədri Karel De Quxtun sözlərini yada salmaq istərdik: "Avropa məkanında inteqrasiya sahəsində islahatların başlıca məramı, ilk növbədə, "Üç zənbil" adlandırılan – hərbi-siyasi, iqtisadi və humanitar-mədəni islahatlar istiqamətlərinin tarazlaşdırılması məqsədinə xidmət edən tədbirlər sisteminin həyata keçirilməsidir.

"Avropanın inteqrasiya modeli yalnız o halda uğur qazanacaqdır ki, iqtisadi və siyasi məzmunlu məqsədlərdən

daha möhtəşəm olan mədəni dəyər və ideallann, mədəni potensialın birliyi və səfərbər edilməsi təmin olunsun. Avropalılar üçün həmin sarsılmaz vəhdəti yalnız onun vətəndaşlarının mədəniyyəti, mənəvi energetikası yarada bilər. Onun etibarlı gələcəyini yalnız Avropa ailəsinə üzv olan xalqların mədəni ahəngdar inkişafı təmin edə bilər.

Bəli, ilk əvvəl Avropada birliyin iqtisadi və siyasi təməli qurulmalı idi. Növbəti mərhələ daha məsuliyyətli və çətin mərhələdir. İndi sosial və milli birliyin mədəni əsaslar üzərində, ardıcıl və məqsədəuyğun olaraq möhkəmləndirilməsinə başlamalıdır. Ərazi, əhalinin tərkibi, mədəni və milli müxtəlifliyin miqyasına görə bu sözsüz ki, tarixdə misli görünməmiş bir vəzifədir" (*Диалоги об идентичности. M., 2005, s. 81.*).

Bu sözlər Avropa Komissiyasının prezidenti Xose Manuel Barrozu tərəfindən Berlində keçirilmiş konfransda deyilmişdir.

Konfrans maraqlı deviz və ad altında: "**Avropa üçün ruh**" (*"Soul for Europe"*) keçirilmişdi. Avropa Komissiyasının prezidenti X.M.Barrozu Berlində 2006-cı ildə keçirilən konfransın memorandumunda bir daha vurğulamışdır: "Avropa Birliyi öz inkişafında elə mərhələni qət etmişdir ki, artıq mədəniyyət faktoruna biganə qala bilməz. Birliyimizin gələcəyi üçün mədəniyyəti hərəkətverici qüvvə kimi inkişaf etdirməliyik. Avropanı birləşdirən inteqrasiya proseslərinə yalnız zahiri, maddi irəliləyiş deyil, həm də mədəni, mənəvi tərəqqini, keyfiyyət yüksəlişini təmin etmək üçün ruh, qəlb gərəkdir. Gələcək üçün Avropanın mədəni enerjisi səfərbər edilməlidir. Bunsuz sabitliyə nail olmaq qeyri-mümkündür.



2004-cü il noyabrın 17-19-da Avropanın siyasi, iqtisadi, mədəni həyatının, vətəndaş cəmiyyətinin nümayəndələri, dövlət rəsmiləri "**Avropa üçün ruh**" adlı üçgünlük konfransda toplanmışdır. Hər iki ildən bir daimi keçirilməsi nəzərdə tutulan konfrans "mədəni inteqrasiya" faktorunun Avropa və dünya ictimaiyyətinin diqqət mərkəzinə gətirilməsi vacibliyindən çıxış edir.

Konfransın ümumi məqsədi bu məkanda inteqrasiyanın mükəmməl modelinin formalaşması üçün mədəniyyətin hərəkətverici qüvvə statusundan istifadə etməkdir. Konfransın və "Avropa üçün ruh" layihəsinin təşəbbüskarları hesab edirlər ki, Avropanın gələcəkdə rəqabətə davamlılığı və təhlükəsizlik meyarının təmin olunması, sarsılmaz inteqrasiya modelinə keçid alınması üçün yeganə yoldur.

"Avropa üçün ruh" mədəni inteqrasiya layihəsinin yaranması gərgin axtarışların nəticəsi olmuşdur. Avropa konstitusiyası ilə bağlı referendumun uğursuzluğundan sonra vətəndaş cəmiyyəti qurumlarından, siyasətçi, iqtisadçı, sənət adamları və intellektual təbəqənin 300-dən çox nümayəndəsinin apardığı gərgin müzakirə, fikir mübadiləsi nəticəsində bu möhtəşəm layihə ərsəyə gəlmişdir. Ən vacibi odur ki, "Avropa üçün ruh" layihəsi bu məkanda siyasi münasibətlərə çox mühüm təsir göstərə bilir.

Berlin konfransından sonra daimi "Berlin prosesi" başlanğıcını götürmüşdür.

2006-cı ildə keçirilən II Berlin konfransında "Mədəniyyətin Avropada birlik və rifah üçün intensiv istifadəsi" təşəbbüsü irəli sürülmüş və həyata keçirilməkdədir. Həmçinin, Avropa Komissiyasının prezidenti bu konfransda 2008-ci ili "Mədəniyyətlərarası dialoq ili" olacağını və

növbəti konfransın keçiriləcəyi müddəti bəyan etmişdir.

"Avropada rifah üçün mədəniyyətin töhfəsi" layihəsi mədəniyyətlərarası inteqrasiyanın konkret məqsədlərini müəyyən etmişdir.

Bu ən vacibi:

– Avropanın birliyi ideyasının rifahı və onun can atdığı son məqsədin rifahı üçün;

– Avropa nizamının: demokratiya, qanunun aliliyi və mədəniyyətlərin sülh ilə yaşaması prinsiplərinin gerçəkləşməsi prosesində bərqərar olan Avropa sivilizasiyasının rifahı üçün;

– Avropanın öz mədəni təcrübəsinin dünyada təqdim və təsdiq etmək üçün yeritdiyi xarici siyasətin rifahı üçün mədəniyyətin potensialının indiyə qədər olduğundan daha səmərəli və intensiv istifadə etməyi nəzərdə tutur.

"Avropa üçün ruh" layihəsi mədəni inteqrasiyanın möhkəmlənməsi naminə, bu layihəyə maraqlı olan bütün ölkələrin, bütün mədəniyyətlərin "Bərabərhüquqlu Alyansını" yaratmaq məqsədinə xidmət edir.

Layihənin gerçəkləşdirilməsi ən ciddi tədbirlərlə müşayiət olunur. Ildə iki dəfə Avropada parlamentlərin sədrləri, nazirlər, mədəniyyət sahəsinin rəsmiləri layihənin gedişatına dair hesabatları nəzərdən keçirirlər. Strateji inkişafın mədəni amillərinin səfərbər edilməsi üçün ümumavropa monitorinqi keçirilir, sonrakı fəaliyyət üçün ideyalar mübadiləsi aparılır.

Dünyanın və cəmiyyətin idarə olunmasının daha da mürəkkəbləşdiyi müasir dövrdə "Avropa üçün ruh" layihəsinin təşəbbüskarları hesab edirlər ki, sülh və, nizam məsuliyyəti, siyasət və mədəniyyət arasında, deməli siyasətçilər-



lə, mədəni dəyərlərin daşıyıcısı olan vətəndaş cəmiyyəti arasında bərabər paylaşmalıdır.

Avropa Birliyi ikiqat legitimliyə malikdir. O yalnız suveren dövlətlər birliyi deyil, həm də Maastrixt (1992) müqaviləsindən sonra fövqəlmilli Avropa vətəndaşlığına malik olan xalqların ittifaqıdır.

Məhz bu iki müstəvi arasında təmas nöqtəsinin axtarılmasında mədəni inteqrasiya nicat yolu kimi çıxış edə bilər. "Bu gün Avropanın vətəndaşlarının gələcəyi və bizə meydan oxuyan problemlərin həlli bizdən mədəni yanaşmanı önə çəkməyi tələb edir. insanlar yalnız zərurət, ehtiyac üzündən birliyə "hə" deyirlər, bu ehtiyacı böhran və problemlər zamanı daha çox duyurlar. Bu gün insanların mədəni ünsiyyət ehtiyacına biz cavab verməliyik və böhranı aradan qaldırılmalıyıq" *(А.Турен. Способны ли мы жить вместе? М., 1999, s.84-88).*

Avropa Birliyinin rəsmi siyasi və iqtisadi qurumları ilə vətəndaş cəmiyyəti arasındakı özgələşmə hissi, mədəni inteqrasiya layihəsinin irəli sürülməsinin səbəbləri sırasındadır. Geniş əhali arasında keçirilən 2006-ci ilin rəy sorğuları, Avropa Komissiyasının "Mədəniyyətə dair informasiya xəbərləri"nin hazırlanması təhlilini gündəmə gətirdi. Bu "Xəbərləri"n əsas məramı Avropa mədəniyyət üçün nə edə bilər və mədəniyyət Avropa üçün nə edə bilər?" suallarını cavablandırmaq idi. Bu cavab isə hər bir mədəniyyətin təməli olan, onu universal mədəni irsin tərkibinə çevirən bəşəri dəyərlərin səsləşməsini, ortaq nöqtələrini üzə çıxarmaq, özünəməxsus nüfuzu təmin edən inteqrasiya məkanının yaradılması ola bilər. Avropada mədəni innovasiya və yaradıcılıq sektorunda inkişaf dinamikasının izlənilməsi,

layihənin real nəticələri və müşayiət edildiyini göstərir. 2003-cü ildə Avropada ÜDM-də mədəniyyət və yaradıcılıq sektoru 2,6 faiz, 2004-cü ildə 5,8% təşkil etmişdir. Bu da həmin sektorda məşğul olan insanların sayının 1999-2003-cü il arasında 12,3 faiz artdığına dəlalət edir.

"Avropa xalqları bir-birini və bütün dünyanın mədəniyyətlərini daha yaxından tanımalıdır, mədəni inteqrasiya və dialoqu möhkəmləndirməlidir" (*Yenə orada*).

Layihədə irəli sürülən məqsədlər arasında ictimaiyyətlə siyasətçilər arasında "emosional – mənəvi özgələşmənin" aradan qaldırılması kimi məsələ də vurğulanır. Bu məqsədlə dünya və Avropanın intellektual–mədəni elitasının nümayəndələrinin siyasi elita ilə ardıcıl debatlarının keçirildiyi forumlar diqqəti cəlb edir. Yerli və regional mədəni tədbirlərin həyata keçirilməsi rolu ilə sosial sabitliyin davamlı şəkil almasına səy göstərilir. "Regional inkişaf üçün mədəniyyət" adlı xüsusi layihə icra olunur. Ən vacibi odur ki, "Mədəni inteqrasiya ya göstərilən kömək – Avropanın gələcəyinə göstərilən kömərkdir" devizi çox şaxəli, üfüqi və şaquli istiqamətlərdə fəaliyyət planının qurulmasına xidmət edir. "Avropa üçün məsuliyyət" daşıdığını göstərir. "Bütün iştirakçılara bərabər hüquqlar, müxtəlif partnyorlara çeşidli imkanlar" şüarı layihəyə qoşulmaq istəyənlərin inamını artırmaq məqsədi güdür.

"Avropa üçün ruh" layihəsinin nəticələrinin ən böyük təhlili və yekunu, 2008-ci – mədəniyyətlərarası dialoq ilində aparılacaqdır. Məhz 2008-ci il Avropanın mədəni inteqrasiyanı reallaşdırmaq arzusunu və qətiyyətini, bu qlobal dialoqun himayədarı statusunu", gələcək əməkdaşlığın istiqamətlərini müəyyənləşdirəcəkdir. Avropada mədəni



müxtəlifliyin və mənəvi irsin qorunması dialoqun məzmununu təşkil edir. İstər Avropa Birliyinə, Avropa Şurasına üzv olan ölkələr, istərsə də bütün dünya xalqları öz mədəniyyəti və ədəbiyyatlarını bu dialoqda səsləndirməlidirlər. Son nəticədə isə Avropanın mədəniyyətlərarası dialoq məkanı kimi bərqərar olmalıdır.

Beləliklə, inteqrasiyanın dünyada nisbətən ən "qədim" modeli – Avropa modeli bu gün həyatiliyini və yaşarılığını sübut etmək üçün gərəkli olan ən başlıca amili – mədəni inteqrasiyanın potensialını kəşf edə bilmişdir. "Vahid Avropa" ideyasının addım-addım reallaşdığı vaxtdan bəri bu demək olar ki, ən ciddi sınaqdır. Belə ki, Avropa xalqlarının ailəsi milyonlarla miqrantların gəlişi ilə genişlənməkdədir. Bu baxımdan çeşidli mədəniyyətlərin məkanı olan vahid Avropa layihəsi – bənzərsiz, qeyri-adi məqsədlərdəndir. Tarixdə bu cür miqyaslı vəzifələrin həllinə cəhd edən layihələr olmuşdur. Onların sonuncusu, iştirakçısı və şahidi olduğumuz "sovet" layihəsi idi. Milli identikliyə və mədəni özünəməxsusluğa biganəlik göstərilməsi yolu ilə "sosial-mədəni harmoniya" yaradılması cəhdləri nə keçmişdə uğur qazanmış, nə də gələcəkdə müvəffəqiyyətli ola bilməz.

Mədəniyyət kimi təməl varlığın hər hansı vahid ideologiya ilə əvəzlənməsi cəhdləri həmişə puça çıxmışdır. Yalnız sovetlərin deyil, tarix boyu mövcud olan bütün imperiya və diktaturaların aqibəti bunu sübut edir.

Dünyada mədəni inteqrasiyanın reallaşması yolunda maneələr həmişə olduğu kimi bu gün də çoxdur. Lakin mədəniyyət faktorunun iqtisadi və siyasi amillərlə yanaşı, hətta onlardan üstün qüvvə kimi etiraf edilməsi, konkret

addımlar atılması çox böyük ümidlər verir. «Bu gün Avropanın, Avropa mədəniyyətinin daşıyıcısı o kəslər deyil ki, öz sivil mənşələri barədə hamıdan uca bağırışırlar, o kəslər deyil ki, "biz asiyalı barbarların qarşısını alan millətik" deyirlər. "Avropa ruhu" yaxud "ruhun Avropası" o yerdədir ki, orada insanların əziz saydığı dəyərlərə hörmət edirlər, əxlaqi-etik normalara riayət edirlər, Avropa ruhu elmi kəşflərin baş verdiyi, məktəb və universitetlərdə, ən yaxşı təhsil imkanlarının verildiyi, sülh musiqisinin və sülh himnlərinin yazıldığı məkanlardadır. Bu ruh məkanında sərhədlər yoxdur (*Теми Браг. Европа, Римский путь. М., 1995, с.156*).



## § 4. "Böyük məkanlar " nəzəriyyəsi və inteqrasiyanın məna tutumu

*Yeni zamanın tarixdə analoqu olmayan inkişaf meyilləri ilə müşayiət olunduğunu təhlil və dərk etmək üçün elmi dövriyyəyə çoxlu yeni ifadələr daxil olmuşdur. "Qloballaşma, mondiallaşma, internasionallaşma, transnasionallaşma, inteqrasiya" və s. anlayışlar bu qəbildəndir. Bəzən bu sözlərin ifadə etdiyi proseslər ümumilikdə qloballaşmanın tarixi, məqsədəuyğun mərhələləri kimi təhlil olunur. Bəzən belə fikrə rast gəlmək olur ki, inteqrasiya müasir dünyada qloballaşmanın ən ali, son səviyyəsidir.*

Sadalanan anlayış və konsepsiyalardan fərqli olaraq "böyük məkanlar" nəzəriyyəsi nisbətən az təhlil olunmuşdur. Nəzəriyyənin tarixi köklərini müasir alman fəlsəfi fikrində axtarırlar. Almaniyalı alim Fridrix List "Böyük iqtisadi məkan" kontekstini əsas götürərək, ilk növbədə, gömrük ittifaqının yaradılmasının nəzərdə tuturdu. Ondan fərqi olaraq Karl Şmitt imperiya ekspansiyasına haqq qazandıraraq, onu insanların birliyə, sintezə və inteqrasiyaya təbii, məntiqi meyil kimi izah etməyi üstün tuturdu. K.Şmittə görə, Böyük məkan – Böyük ideyaya – qüvvəyə malik olan dövlətin hökmranlığı altında ola bilər.

Müasir geosiyasətdə və beynəlxalq münasibətlərdə böyük məkanlar nəzəriyyəsi, liberal demokratik ideyanın üstünlük etdiyi Birləşmiş Avropa, Amerika Sivilizasiyası timsalında "sivilizasiya-dövlət" yaxud "sosial dövlət" (etnik, milli və siyasi dövlətdən fərqli olaraq) yaratmaq kimi cəhdlərdə müşahidə oluna bilər.

Bütövlükdə "məkan fəlsəfəsi" üzərində qurulan bu nəzəriyyə çoxölçülü "simvolik" məkanların fəthini hər bir dövlətin inkişafı, möhkəmləndirilməsi və milli təhlükəsizliyinin ən mühüm strateji resursu hesab edir.

Xüsusilə də diqqəti cəlb edən "çoxölçülü mədəniyyət və ünsiyyət məkanı"dır. Belə ki, burada məkan yalnız coğrafi interpretasiyaya malik deyil. Ən mühümü odur ki, bu məkanın sərhədləri insanın mədəniyyət, mənəviyyat və ruh "landşaftından" keçir.

Məkanlar nəzəriyyəsinin müsbət cəhəti odur ki, ənənəvi geosiyasi konsepsiyalarda mövcud olan "Şimal-Cənub", "Mərkəz-Periferiya" bölgülərindən fərqli olaraq, çoxölçülü, sonsuz ölçülü məkanları nəzərdə tutur. Digər məsələ isə, məkanın "qütbləri" məsələsidir.

Məlumdur ki, məkan olan yerdə qütblər də mövcuddur. Əgər ənənəvi geosiyasət fəlsəfəsində "qüvvələrin qütbü", "iqtisadi və texnoloji qütblər" fərqləndirilirdisə, böyük məkanlar nəzəriyyəsində konkret qütbləri təyin etmək qeyri-mümkündür. Çünki simvolik məkanlar insanların dünyagörüşündən, mədəni identiklik sərhədlərindən formalaşır. Bu yanaşma İ.Kantın "çoxölçülü dünyalar" barədə təsəvvürlərinə yaxındır və Avropa fəlsəfi ənənəsinə uyğun gəlir. Çoxölçülü məkanlarda hər bir məkan, o cümlədən mənəvi məkan da öz qütbünə malikdir.

Buna görə tam əsasla demək olar ki, çoxölçülü mədə-



niyyət məkanında bəşər sivilizasiyasının məhz mənəvi qütbü də mövcuddur və onu coğrafi mənada "lokallaşdırmaq" qeyri-mümkündür. Bəzi tədqiqatçılar şərti olaraq, burada Avratlantik və Avrasiya məkanları – qütblərinin mövcudluğu fikrini irəli sürürlər.

Böyük məkanlarda yalnız sivilizasiya-dövlətlərin dayanıqlı olmasına dair ideyalar da maraqlıdır. Hesab edilir ki, bü gün mövcud olan üç "sivilizasiya-dövlət": Birləşmiş Avropa, Amerika Birləşmiş Ştatları və Çin iqtisadi və texnoloji baxımdan "qütblər" statusundadır. Bu dövlətlərdə siyasi, sosial-mədəni və konfessional məkanların sərhədləri üst-üstə düşür və buna görə də onları siivilizasiya-dövlət hesab etmək olar. Birləşmiş Avropa qərb sivilizasiyasınını nüvəsi olması ilə, Amerika bütün dünyaya öz hərbi-siyasi, iqtisadi, mədəni və informasiya ekspansiyasının təsir gücü ilə sivilizasiya-dövlət hesab olunur. Çin belə dövlətlərin ən klassik nümunəsidir. Yeri gəlmişkən, keçmiş SSRİ də bu qismə aid edilirdi.

Maraqlı məqamlardan biri də budur ki, böyük məkanlar nəzəriyyəsinə görə qloballaşma – obyektiv prosesdir, lakin bir şərtlə, yalnız Böyük məkanlar çərçivəsində! Çünki hətta dünya dinləri belə böyük mənəvi məkanlar yaratmışlarsa da "mütləq qloballığa" iddialı ola bilməmişlər. Eyni məntiqdən çıxış edərək liberal-iqtisadi qloballaşmanın da çoxölçülü məkanlarda universal alternativ ola bilməsi istisna edilir.

Qeyd olumalıdır ki, "böyük məkanlar " ideyası yalnız nəzəri deyil, həm də artıq praktiki proqram kimi aspektlərə malikdir. İstər Avropa Birliyinin, istərsə də NATO-nun Şərqə doğru genişləndiyi indiki zamanda Brüsseldə "Avropanın çoxölçülü kommunikasiya məkanları" konsepsiyası irəli sürülmüşdür. Həmin məkanlar aşağıdakılardır:

- demokratiyanın və insan hüquqlarının ümumi məkanı;
- mədəniyyət, elm və təhsil məkanı;
- azadlıq, təhlükəsizlik və hüquq-ədalət məkanı;
- iqtisadi məkan;
- xarici təhlükəsizlik sahəsində əməkdaşlıq məkanı;
- nəqliyyat-kommünikasiya və infrasruktur məkanı;

*(Лапкин В.В., Пантин В.И. Геоэкономическая политика и глобальная политическая история. М, "Олита", 2004, s. 97.)*

Demokratiya və insan hüquqlarının ümumi məkanı Avropa Şurasının təsiri altında formalaşdırılır.

Böyük məkanlar ideyasını inkişaf və təhlil edən tədqiqatlara əsasən hazırda dünyada mövcud olan məkanlar ümumilikdə belə qruplaşdırılır:

- böyük sivilizasiya məkanları;
- böyük mədəni-mənəvi məkanlar (dünya dinləri və mədəniyətlər);
- böyük demoqrafik məkanlar (Çin, Hindistan, Avropa);
- böyük dünya diasporları məkanları;
- böyük geosiyasi məkanlar;
- böyük iqtisadi məkanlar (Avropa İttifaqı və s.);
- böyük dil məkanları;
- böyük enerji resursları məkanları;
- böyük ekoloji məkanlar (Saxara, Himalay və s.);
- krininal iqtisadiyyatın böyük məkanları;

Diqqət çəkən məsələlərdən biri də bu sırada böyük "universal imperiya mifləri" məkanlarının mövcudluğunun hesab edilməsidir. Burada həmin məkana iddialı olanlar aydın



vurğulanır: "Böyük Rusiya", Böyük Ermənistan", "Böyük Serbiya"! Əlavə olaraq onu qeyd etmək olar ki, bu məkanlar qeyd olunduğu qədər də "mifoloji "səciyyə daşımır və Azərbaycan bunun gerçək nəticələri ilə əsrlərdir ki, üz-üzədir.

Bir məsələ də önəmlidir ki, böyük məkanlar zaman və coğrafi hüdudlar çərçivəsində dəyişə, trasformasiyaya uğraya bilər. Məsələn, sovetlərin çökməsindən sonra yeni böyük məkanların formalaşması prosesi getmişdir.

Bütün hallarda hesab edilir ki, böyük məkanlar dünya nizamının və sabitliyin təməli, qarantı rolunda çıxış edir. Hər bir dövlət özünə etibarlı saydığı müvafiq məkana inteqrasiya siyasətini müəyyənləşdirir, öz məkanını fasiləsiz genişləndirməklə, özü də yeni məkan formalaşdırmağa cəhd edir. Buna nə dərəcədə nail olduğunu isə zaman göstərir.

İnteqrasiya proseslərinin geniş vüsəti, onun baş verdiyi məkanlar barədə müxtəlif baxışlara bələd olmağı bu aspektdən çox aktual və zəruri edir.

Bütün hallarda ümumi, analoji prosesləri əks etdirsələr də, "inteqrasiya" anlayışının yuxarıda sadalanan terminlərdən fərqi odur ki, burada siyasi, iqtisadi, hərbi, mədəni, elmi, texnoloji və s. istiqamətlərdə gedən münasibətlər mütləq dövlətüstü, fövqəlmilli səviyyələrdə institusional mexanizmlərlə möhkəmləndirilmiş, rəsmi sənədlərdə əksini taparaq təşkilatlanma və təsisolunma kimi həyata keçirilən kontrakt tədbirləri nəzərdə tutur.

Yeni tarixi, mədəni-mənəvi şəraitə uyğunlaşmaq üçün dünya xalqları ayrı-ayrılıqda deyil, birlikdə fəaliyyət göstərməlidir.

İnteqrasiya nədir?

İnteqrasiya latın dilində "integer" – "bütöv, bütövləş-

mə" deməkdir. Əslində, sözün etimologiyası inteqrasiyanın siyasi proses kimi məzmunu və missiyasını daha aydın ifadə edir. "İnteger" sözündən yaranan "inteqratio" sözu də latın dilində "bərpa, tamamlanma" mənasını verir.

İnteqrasiyanın ifadə etdiyi istiqamət, aspekt və çoxçalarlı məzmun nə qədər sonsuz olsa da (iqtisadi, siyasi, sosial-mədəni, elmi və s. inteqrasiya sahələri) onun ümumi mənası bütün hallarda eyni, bənzər proseslərdən xəbər verir. Müxtəlif insanlar, cəmiyyətlər, dövlətlər, siyasi və s. sistemlər arasında qarşılıqlı əlaqə və bağlılıqların daha da artması; onların bir-birini tamamlaması və qəbul etməsi; müstəqil subyektlər arasında optimal, sıx əlaqələrin qurulması; onların getdikcə daha bütöv, monolit sistemə çevrilməsi, ümumi maraq və mənafe ətrafında birgə fəaliyyət göstərməsi; həyatın və bəşər varlığının davamlı formalarının təmin edilməsi, təhlükə və sabitliyə əngəl olan qüvvələrə qarşı uğurlu birliyin təmsil edilməsi və s. məzmunlu inkişaf proseslərini ifadə etdirir.

Göründüyü kimi, inteqrasiya bəsit mənalı proses deyildir. Tarixdə "inteqrasiya xatirinə inteqrasiya" vəziyyəti ola bilməz. Yalnız konstruktiv məqsədlər naminə, hansısa maneə və təhlükəyə qarşı birləşmək naminə, qarşılıqlı maraq və mənafelər naminə inteqrasiya ola bilər.

İnteqrasiya prosesi, bu sözün mənasında gözəl ifadəsini tapan, "çatışmayan nəyinsə tapılması, zənginləşməsi, bütövləşməsi naminə" həyata keçirilir, qarşılıqlı bəhrələnmə üçün gerçəkləşdirilir. Məhz belə başa düşülən inteqrasiya proseslərindən kənarda qalmaq, fəaliyyətin, siyasətin hansısa bir qismində natamam qalmaq demək olardı. İnteqrasiya bir dünyaya, bir bəşəriyyətə mənsub olmaq hissindən doğan təbii bir meyildir.



## § 5. Bir zaman və çeşidli inteqrasiya məkanları

*XX əsrdə ölkələrarası inteqrasiyanın çoxsaylı konsepsiya, nəzəriyyə və modelləri geniş təhlil edilmişdir. Ədəbiyyatda onun müsbət faydalı proses kimi qiymətləndirilməsindən başlanmış, inteqrasiyanın qərbin qlobal ekspansiya siyasətinin təzahürü olmasına qədər mənfi dəyərləndirmələr də özünə yer almışdır. Bütün bu məsələlərə hər il minlərlə konfranslar, simpozium və seminarlar həsr olunur. Universal, optimal, səmərəli inteqrasiya modeli axtarışları davam edir.*

Bu axtarışlar gedişində inteqrasiyanın "poliloji" və «monoloji kimi səciyyələndirilən formaları fərqləndirilir. Poliloji model inteqrasiya subyektlərinin bərabər hüquqlu mövqedə durmasını, prosesdən hər bir tərəfin özü üçün bəhrələnə bilmək imkanlarını müəyyənləşdirməyi ifadə edir.

"Monoloji" adlandırılan inteqrasiya isə, hər hansı bir konkret tərəfin (subyektin) məqbul hesab etdiyi münasibətlərin unifikasiya kimi başqa tərəfə qəbul etdirilməsini nəzərdə tutur.

Müasir dünya dövlətləri inteqrasiyanın çeşidli məkanlarında qarşılıqlı münasibətləri müəyyənləşdirirlər.

Bu aspekti nəzərə alaraq "inteqrasiya məkanları konsepsiyasının da mövcudluğunu söyləmək olar. Belə ki, məsələn, beynəlxalq inteqrasiyaların "qlobal təhlükəsizlik və əməkdaşlıq məkanı", "iqtisadi əməkdaşlıq məkanı", eləcə də "mədəniyyət,

elm və təhsil" məkanları mövcuddur.

"İnteqrasiya məkanların" konsepsiyası nə qədər şərti olsa da hər halda beynəlxalq, qlobal və regional inteqrasiyanın əsas oriyentirlərini hədəfə almağa kifayət qədər yardım edir. İnteqrasiya subyektlərinin bir-birini tanımaq istiqamətində ardıcıl yaxınlaşdığı məkanların səviyyəsini əks etdirir.

Ədəbiyyatda müasir dövrün inkişaf layihələrindən bəhs edilərkən üç əsas proses xüsusi vurğulanır, qloballaşma, regionlaşma və inteqrasiya prosesləri fərqləndirilmir. Fikrimizcə, əslində, bütün hallarda qlobal və regional inteqrasiya proseslərindən söhbət getməlidir. İnteqrasiyanın bu proseslərdən fərqi bir meyil kimi təhlil edilməsi düzgün olmazdı. Çünki qloballaşma və regionlaşma prosesləri dövlətlərarası beynəlxalq inteqrasiyanın forma və məzmunla zənginləşməsinə, daha da inkişaf etməsinə xidmət etmirsə, bu artıq narahatlıq doğuran bir vəziyyətdir. Belə hallar, birtərəfli maraqlara xidmət edən proseslərin getməsi dünyada mövcuddur. Lakin unutmaq olmaz ki, bu proseslər dünya birliyinin obyektiv tələbat və ehtiyaclarına, ümumi mənafeyinə xidmət etmir və subyektiv amillərdən qaynaqlanır. Məhdud insan qruplarının (heç bir dövlətə deyil) maraqlarına xidmət edir. Qloballaşma prosesləri inteqrasiyanı, deməli, ölkələrin bir-birini dəstəkləməsini, sıx əlaqələr quraraq qarşılıqlı "bütövləşməsini" sürətləndirmişdir. Qeyd olunduğu kimi qloballaşma bəşəriyyətin vahid tarixinin başlanğıcını qoymuşdur. Vahid tarix və tale isə yalnız subyektiv maraqlara yönəldilə bilməz.

Maraqlıdır ki, məhz bu həqiqətin dərk edilməsi bu gün bütün dünyada həm inteqrasiya qarşısında, həm də ümumiyyətlə qarşılıqlı inkişaf qarşısında duran ən böyük əngəldir. İnteqrasiya zənginləşmə, bəhrələnmə, qarşılıqlı faydalaşma ki-



mi başa düşülmürsə, onun adekvat şərhi təhrif olunur. Qarşılıqlı dialoq çağırışları əvəzinə, "mədəniyyətlərin savaşı" şüarları bəyan edilir. Başqa sözlə deyilsə, mədəniyyət faktorunun, mənəvi identiklik məsələsinin dünyanın müxtəlifliklərin vəh-dəti kimi mövcudluğunun ən vacib təməli olduğu unudulur. Mədəniyyətin dünyanı xilas edən, inteqrativ potensiala malik möhtəşəm qüvvə deyil, dünyanın siyasi sabitliyini təhdid edən amil kimi izahına üstünlük verilir. Hətta, 2001-ci ilin 11 sentyabr hadisələri ilə "Ümumdünya müharibəsinin – mədəniyyətlərin müharibəsinin" başlandığı bəyan edilir.

Savaş və toqquşma üzərində köklənən bu konsepsiyalar yaxşı bəllidir.

Burada mahiyyətcə buna yaxın olan, lakin inteqrasiyanın qərb üçün "ölümcül təsirli prosesi" kimi səciyyələndirilməsi baxımından heyrət doğuran bir mövqe üzərində qısa cəmləşmək istərdik.

Maraqlıdır ki, bu gün qloballaşma hegemonu, liderləri olan ölkələr barədə yekdil fikir mövcuddur. Həmin ölkələrin mədəni, iqtisadi və s. istiqamətli ekspansiya siyasəti yürütmələrinə dair də kifayət qədər geniş tədqiqatlar mövcuddur. Belə düşünmək olardı ki, inteqrasiya prosesində lider ölkələrlə müqayisədə digər tərəf daha diqqətli olmalıdır. İnteqrasiyanın assimilyasiyaya çevrilməsində onlar maraqlıdırlar. Bəhs etmək istədiyimiz mövqe isə bunun tamamilə əksinədir. ABŞ prezidentləri R.Nikson və R.Reyqanın baş müşaviri vəzifələrində işləmiş, 1992 və 1996-cı illərdə respublikaçılar partiyasından ABŞ prezidentliyinə namizədliyini irəli sürmüş Cozef Patrik Byukenen məhz belə düşünür ki, müasir inteqrasiya prosesləri Qərb dünyası üçün ölüm təhlükəsi yaradır. Müəllifin 2002-ci ildə çap olunan kitabı "Qərbin ölümü" adlanır və Qərb sivi-

lizasiyasının varlığın təhdid edən "düşmən qüvvələrə" diqqəti cəlb etməyi əsas məsələ hesab edir.

Qərb sivilizasiyasının XXII əsrdə yox olacağını proqnozlaşdıran müəllif, inteqrasiyanın yalnız mənfi məzmunlu proses olduğu fikrini əsaslandırır. Qərbi hədələyən təhlükənin hamısının, əsasən, demokratik və mədəni xarakterli olduğunu irəli sürür və belə qruplaşdırır:

1. Əhalinin sayının azaldılması və qoca nəslin çəkisinin artması fonunda müşahidə olunan yerli qərb əhalisinin kökünün kəsilməsi təhlükəsi.

2. Başqa mədəniyyətlərin, dinlərin, irqlərin daşıyıcısı olan insanların işçi qüvvəsi və s. qismində kütləvi inteqrasiya nəticəsində əhalini nəinki etnik tərkibinin, həm də bütövlükdə Qərbin tarixən formalaşmış siması, xarakteri və qaydalarının dəyişməsi təhlükəsi.

3. Milli suverenlik və demokratiya arasındakı münasibətlər, qloballaşma gedişində milli sərhədlərin genişlənərək, hətta Qərb millətlərinin məhvinə gətirib çıxaracaq. Çünki onlar kütləvi, qeyri-leqal immiqrasiyanın təzyiqi qarşısında müdafiəsiz vəziyyətdə qalacaqlar.

4. XX əsrin sonlarında Qərbi bürüyən "mədəni inqilab", XX əsrin 60-cı illərində tələbə hərəkatları ilə başlanan hadisələrdə Qərb cəmiyyətinin tarixən formalaşmış qayda və ənənələrindən imtina edilməsi, qadınların hüquqlarının artırılması, mütləq azadlıq şüarları, bütün mədəniyyətlərin bərabərhüquqluluğu (multikulturalizm) konsepsiyası və s. kimi tələblər Qərbdə müəllifin fikrinə görə, xristian dininin mövqelərinə, ailə və nikah institutuna ən güclü zərbələr endirmiş, ona yad olan bu günkü mədəniyyəti formalaşdırmışdır *(Дж.П.Бьюкенен. Смерть Запада. Как вымирающее население и нашествие иммигрантов угрожают нашей стране и цивилизации. M, 2004, s. 75.).*



C.P.Byukenenin "Qərb" anlayışı ilə nəyi nəzərdə tutması da çox maraqlıdır. Bu Qərbə dair mövcud olan, ümumən qəbul edilmiş təsəvvürlərdən fərqlənir. Mərkəzi və Şərqi Avropa ölkələrini, Rusiyanı da əhatə edir. Çünki bu ölkələrin xalqları bir dinə - xristian dininə mənsubdurlar.

Müəllifin qruplaşdırdığı "Qərbin düşmənləri" siyahısı bu dörd amillə bitmir.

Bu siyahıda dəyər və dünyagörüşü formaları, mədəniyyət fenomenləri, sosial praktikalar: məsələn, feminizm, biznes, sekulyar humanizm, marksizm, darvinizm, psixoanaliz, hedonizm, demokratlar, kütləvi informasiya vasitələri və s. kimi sırf qərb mədəni "kəşfləri" də var. Bunların arasında Qərb sivilizasiyasında "qiyamət gününü" yaxınlaşdıran feminizm və ailə institutunun süqutu xüsusilə vurğulanır.

Düşüncəsiz, sekulyar humanizm isə Qərbin mədəni monopoliyasını heçə endirmişdir. BMT və s. analoji statuslu beynəlxalq qurumların qızğın əleyhdarı kimi çıxış edən müəllifə görə, "belə qurumlar xristianlıq nöqteyi-nəzərindən bidətçi hesab olunur". "Soyuq müharibə"nin varisi olan mədəniyyət və dinlərin müharibəsi planetin gələcəyini müəyyən edəcək" *(Yenə orada, səh.316).*

Yeganə çarə Qərbin və Amerikanın ənənəvi dəyərlərini mühafizə etmək, "itirilmiş əraziləri geri qaytarmaqdır" *(səh.315).*

Dünyanın inkişaf meyli olan inteqrasiyanın yalnız neqativ təsirli proses kimi təhlili, əsas təhlükə mənbəyini isə başqa mədəniyyətlərə mənsub olan insanlardan ibarət olduğunu irəli sürən belə müəlliflərin mövqeyi, sadəcə, təəssüf və təəccüb doğurmur. Ən dəhşətlisi odur ki, bu insanlar on illər ərzində dünyanın lider dövlətlərinin birində hakimiyyətin müva-

fiq problemləri üzrə məsləhətçi kimi fəaliyyət göstərmiş, o cümlədən mədəniyyət siyasətinin formalaşmasına da bilavasitə təsir göstərmişdir.

"Qərb sivilizasiyasının beşiyi olan Avropa onun məzarına çevriləcək" *(səh.13)*. Müəllifin fikrinə görə, bu artıq XXI əsrin sonlarında gerçəkləşəcəkdir.

Avropaya kütləvi işçi qüvvəsi axını iqtisadi zərurətdən doğsa da, çoxsaylı mədəni, sosial, siyasi problemlərin səbəbinə çevrilir. Çünki onlar yaşadıqları cəmiyyətə inteqrasiya etməyə cəhd edirlər. Hər şey isə arzuladıqları kimi olmur. Milyonlarla insanlar özü ilə Avropaya ərəb və islam mədəniyyətini, milli adət və ənənələrinə sədaqət hissini də gətirir. Avropanın tən ortasında "öz vətənlərini yaradırlar". Onların assimilyasiyaya uğraması çox çətin məsələdir *(səh.125)*.

Qərbin bu vəziyyətə düşməsinə səbəb olan mədəni inqilab ideoloqlarına, onların davamçılarına və tərəfdarlarına "dini müharibə" elan etmək lazımdır, – müəllif öz mövqeyini belə fundamentalizmdən çıxış etməklə tamamlayır, çıxış yolunun yalnız burada olduğunu göstərir.

"Qərbin ölümü" kitabı barədə xatırlatma verməkdə əsas məqsədimiz, XXI əsrin yeni mədəni inteqrasiya məkanında müxtəlif meyillərin və münasibətlərin də olduğuna, hər şeyin rəvan getmədiyinə diqqəti cəlb etmək istədik. Bu məkanın formalaşmasına təsir edən mürəkkəb təsirlərin ziddiyyətli çulğaşmasını nəzərdə saxlamağın vacibliyini qeyd emək istədik.

Müasir insanın mədəniyyət məkanına yalnız müxtəlif baxış, konsepsiya, dünyagörüş və dəyər sistemləri deyil, həm də onların təbliğ edilməsinə, geniş yayılmasına vasitəçi olan müxtəlif kütləvi informasiya vasitələri, informasiya-kommunikasiya texnologiyalarına da bilavasitə təsir edir.



Bu bir həqiqətdir ki, internet və televiziya insanların mədəni tələbatları sırasında kitabxana, muzey və teatrların yerini tutmuş, onları tamamilə əvəzləmək iddiasındadır.

Öz növbəsində hər bir insan da mədəniyyət məkanının sakini kimi bu prosesdə iştirak edir, dünyaya öz baxışını, dəyərlər və meyarlar sistemini formalaşdırır. Biz sözlə, ardıcıl, fasiləsiz qarşılıqlı təsir prosesindən söhbət gedir. Mədəni mühit insana, insan da mühitə təsir edir, yeni həyat, davranış tərzi get-gedə daha geniş məkanlara yayılır. Müasir kütləvi mədəniyyət adlandırılan fenomenin formalaşması XX əsrdə sosial-mədəni kommunikasiya texnologiyalarının intensiv inkişafı nəticəsində mümkün olmuşdur.

Bu gün mədəni məkanda əlaqələrin intensivlik səviyyəsi kommunikativ proseslərin tamamilə başqa, yeni keyfiyyət müstəvisinə adlamasını, miqyas və həcminin nəhəng sonsuz ölçülərə qədər genişlənməsini şərtləndirmişdir. Müxtəlif insan birlikləri arasında mədəni maneə və boşluqların aradan qaldırılması problemi aktuallaşır.

Həm də XX əsrin zirvəsindən nəzər salındıqda bu problemin "zorla modernləşmə", müəyyən mədəni-texnoloji davranış və həyat tərzi modellərinin, sosial münasibətlərin etalon kimi zorla qəbul edildiyi "kolonializm" paradiqması əsasında həll ediləcəyinin qeyri-mümkünlüyü dərk edilmişdir. Bu problem yalnız çeşidli mədəniyyətlərin özləri üçün məqbul saydığı dəyər və normalarından könüllü bəhrələnməsini şərtləndirən əsaslarla həll edilə bilər. Bu həmçinin dərk edilməsi, müəyyən zəruri nəzəri təlim və sosial praktikalar şəklində gerçəkləşdirilməsi dünya miqyasında nəinki mədəni amillərdən qaynaqlanan konfliktlərin sayının azaldılmasını şərtləndirmiş,

həm də müasir insanın mədəniyyətinin yeni səviyyəsini formalaşdırmışdır.

Kütləvi mədəniyyətin təşəkkül tapması cəmiyyətdə sosiallaşma proseslərinin məzmununu qlobal xarakterli fenomenlərlə zənginləşməsini şərtləndirdi. Mədəniyyətin kütləvi formaları müasir cəmiyyətlərin əksəriyyətində həyata vəsiqə almış, mədəni innovasiyaların yaranması və yayılması prosesinin ayrılmaz tərkib hissəsi olmuşdur. Qlobal mədəni prosesin stereotip xarakter daşıması, təzahür və təbii formalarının cəlbediciliyi, dinamik intensivliyi bəşəriyyətin mədəni yaradıcılıq nümunələrinin geniş yayılmasına şərait yaradır. Məsələ burasındadır ki, bu imkanı – həm həqiqi mədəniyyət nümunələrinə, həm də bu dəyərləndirmədən çox uzaq olan proses və istiqamətlər də əldə edir. Həm müsbət, həm də mənfi təzahürlər eyni miqyas və həcmdə yayıla bilir.

Beləliklə, müasir dünyanın mədəniyyət məkanında tarixən mövcud olan "ideallar" epoxasının, "zövqlər və maraqlar" epoxası ilə əvəzlənməsi müşahidə olunur. Bunu qlobal mədəniyyətdə "avroatlantizmin, neoliberal layihənin" gerçəkləşdirilməsi kimi də izah edənlər vardır.

Mədəni-sivilizasion parametrlərin struktur dəyişikliklərinə uğramasını sübut edən digər cəhəti, "ekran inqilabı" adlandırılan fenomenlə bağlıdır. Onun əhəmiyyəti, insanın tarixi inkişafında oynadığı rol baxımından əlifba və yazının kəşfinin əhəmiyyəti ilə müqayisə olunur.

Reallığın "paralel" səviyyələrinin mövcudluğunu şərtləşdirən virtuallaşma prosesi, mədəniyyətin elektron əsrinin başlıca təzahürlərindəndir. Hər bir kəşfin sosial-mənəvi baxımdan pozitiv və neqativ tərəfləri mövcud olur. Daha doğrusu, onun hansı məqsəd və məramla tətbiq edilməsi bu nəticəni



şərtləndirir. Bu baxımdan virtual reallığın verdiyi imkanlar da ambivalent – ikili təsirə malik olub, müvafiq məntiqi nəticə – özünün güclü sosial "neqativ kölgəsi" ilə müşayiət olunur.

Sosial, humanitar informasiya texnologiyaları hər bir cəmiyyətdə açıq şəbəkə rejimində mövcud olduğu üçün insanlar da istənilən informasiya impulslarına məruz qalırlar. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə hər bir xalqın mədəniyyəti bir tərəfdən öz potensialını inkişaf etdirmək, tanıtdırmaq baxımından əvvəllərlə müqayisə edilməyən imkanlar əldə edir. Digər tərəfdən isə, qeyd olunan sosial, mədəni, mənəvi neqativ yükünü də daşımaqla arzuolunmaz təzahürlərin çoxsaylı amillərini doğurur və ya onları stimullaşdırır. Bu amillərin sırasında beynəlxalq terrorizmdən tutmuş hakerliyə qədər, mədəni üslubların standartlaşdırılmasından tutmuş manipulyativ-ictimai şüuru yanlış meylə yönəldərək onu idarə etmək istəyən texnologiyalara qədər çox geniş diapazonu əhatə edir.

Hazırkı məqamda nə dünya birliyi bütövlükdə, nə də ayrılıqda götürülmüş bir dövlət yeni mədəniyyət məkanının real və virtual qatları arasındakı ahəngi təmin edə, onların tənzimlənməsini yeni sosial-mədəni nəzarət mexanizmlərini hələlik müəyyənləşdirə bilməmişdir.

Qlobal informasiya-kommunikasiya sistemi mədəni mübadilə və inteqrasiyanın, təhsilin, elmin, biznesin, bütöv növdən olan münasibətlərin şəraitini dəyişmiş, zaman, sosial, dil və s. maneələri aradan qaldıraraq vahid məkanı formalaşdırmışdır. Müasirimiz olan hər bir insan dünya mədəniyyətini "ekran inqilabında" iştirak etməklə həm dərk etmək, həm onun yeni tipini yaratmaq imkanı əldə etmişdir. Bu yeni mədəniyyət tipi müxtəlif mədəniyyətlərin ahəngdar inteqrasiya

prosesində olduğu "dünya mədəniyyəti" ola bilər. Qloballaşmanın sürətləndirdiyi mədəni təsirlənmə proseslərinin bütün miqyasları əhatə etməsi "pankultur proseslər" kimi adlandırılır. İnsanın sosial-mədəni fəaliyyətinin məzmunu mürəkkəbləşir. Yalnız öz lokal sistemindən kənara çıxa bilməyən mədəniyyətlərin mövcudluğu çətin məsələyə çevrilir.

Qlobal xarakterli mədəni ünsiyyət yalnız rəsmi qurumların fəaliyyətinin deyil, adi insanın sosial-mədəni həyatının bir hissəsini təşkil edir. Fərdi və kollektiv mədəni yaradıcılığın potensial resursları daha çox gerçəkləşmə imkanı əldə etdiyi üçün istənilən lokal nöqtədə, fərdi mədəni-innovativ təşəbbüsün kəskin şəkildə artmasını şərtləndirir. Belə təşəbbüslərin nəticəsi kimi, mədəniyyət obyektləri forma və məzmunca innovasion sintez nümunələri təşəkkül tapır. Mədəni tələbatların təminatı bəsit, əlverişli proseslərlə həyata keçirilir, onlara sosial sifariş çoxalır. Hər bir insan bir yerə səfər edəndə, yaxud dünya hörümçək toruna – internet şəbəkəsinə qoşulduqda əvvəlcədən yəqin edə bilmir: hansı mədəniyyət aləminə düşüb, burada hansı dəyərlərə önəm verilir. Belə mədəni aləmlərlə təmasda olan hər bir insan az vaxt ərzində, ani olaraq malik olduğu biliklərə, dünyagörüşə arxalanaraq mədəni oriyentasiyanı özü tapmalı, özü təyin etməlidir. Əks təqdirdə, onu mədəni-informasiya axını öz qoynuna alıb aparacaq. Bu axında mədəni seçim səriştəsi olmadığına görə birdəfəlik itmək də mümkündür.

XXI əsrin mədəniyyət məkanında insanın həyat tərzinin və mədəni davranışının məqsədəuyğun məcraya yönəldilməsi get-gedə çox çətinləşir. Fərdi dünyagörüşün variabellik (təzahür) formaları son dərəcə rəngarəngdir. Ənənəvi, keçmişin mədəniyyətinə xas olan dünyagörüş formalarına qayıdış (məsələn, dinə və ezoterik düşüncə tərzinə), həmin formaların birdəfəlik, yenidən bərqərar edilməsi kimi başa düşülür. Bu kimi cəhdlər yeni texnoloji imkanlardan istifadə etməklə, düşünülmüş şəkildə həyata keçirilir. Lakin hər halda müasir, postmodern cəmiyyətdə həmin cəhdlərin mütləqləşdirilməsi, arzu olunan nəticəni vermir, insanın dolğun, aktual həyati tələbatlarının ödənilməsi baxımından yeganə məqsəd sayıla bilməz.



Sosial-mədəni proseslərin monitorinqi yalnız insanın bütün maraq və tələbatlarının zəngin bütövlüyünü təmin etmək səviyyəsində, mədəni ənənənin mütləqləşdirilməsi deyil, mühafizəsi, dünyaya təbliği və translyasiyası istiqamətində həyata keçirilməlidir.

Çünki yeni sosial-mədəni ideologiyanın və onun reallaşdırılma tədbirlərini nəzərdə tutan humanitar texnologiyaların həm formalaşdırılması, həm də uğuru, yalnız müasir dünyanın mədəni dinamikasında ən yüksək rəqabətə davam gətirə bilməsi və variabellik – çeşidli mədəniyyətlərin qəbul və sintez edə biləcəyi imkanlara malik ola bilməsi ilə müəyyən olunur. Yəni mədəni-mənəvi monitorinqin sərhədləri, insanın kütləvi informasiya mənbələrindən məruz qaldığı təsirlərlə sıxışdırılmışdır. Təbii ki, ənənəvi mədəni dəyərlər – həyat, ailə, ünsiyyət, məhəbbət – yeni dünyada da öz yerini alacaqdır. Lakin əlavə sosiallaşma və mədəni insan kimi formalaşma komponentlərinin daimi seçimi, süzgəcdən keçirilməsi, gələcək nəslə translyasiyası çox ciddi səylər tələb edəcəkdir.

Müasir mədəniyyətin, eləcə də mədəni siyasətin başqa sahələri ilə əlaqələri həddən çox genişlənmişdir. Bütün elm sahələrində olduğu kimi, mədəniyyəti tədqiq edən elmlər də dəyişən mühitə uyğun olaraq dinamik yeniləşməyə məruz qalır.

Dünyanın inkişaf etmiş qabaqcıl ölkələrində bu sahədə elmi tədqiqat işləri, əsasən dövlətin mədəni siyasətinə böyük dəstək verir, konkret sosial-mədəni məqsədlərin həyata keçirilməsini təmin edən sifarişləri yerinə yetirir. Bu məqsədlər çoxşaxəli – sosial, siyasi, ictimai monitorinq, maarifçi, sosiallaşma - xarakter daşıya bilər. Lakin ictimai elmin bu gün cəmiyyətdə və dünyada gedən sosial-mədəni proseslərin idarə edilməsi və monitorinqi vasitəsi kimi funksiyaya xidmət etməsi birmənalıdır. Müasir ictimai elmin yalnız nəzəri-abstrakt deyil, həm də tətbiqi, sosial texnoloji xarakterinin vəhdət təşkil etməsi onun insanları narahat edən aktual problemlərə oriyentasiyası üstünlük təşkil edir. ABŞ alimi D.Fromerin sözləri ilə desək, "bu gün ictimai elm bizə keçmişdə magiyanın, hərbi qüvvənin köməyi ilə həll edilən problemləri çözməyə imkan verir" *(Наука в культуре. – М., Эдиториал УРСС, 1999, s.279.).*

Sirr deyil ki, insanlar, adi şüur böyük elmi kəşfləri də, mütərəqqi bəşəri ideyaları da çətin, biganəliklə qəbul edir. Bəzən bunların müəyyən alim və mütəxəssis qruplarının dar çərçivəsindən kənara yaymaq obyektiv çətinliklərlə üzləşir. Lakin məhz buna görə XXI yüzillik sosial kəşflər, humanitar texnologiyalar əsri kimi bəyan edilib. Dünya birliyinin inteqrasiyasına, çeşidli mədəniyyətlərin ahənginə yönəlmiş bəşəri ideyaların hər bir insanın şüuru səviyyəsində dərkinə nail olmaq üçün məqsədyönlü, ardıcıl tədbirlər sistemi həyata keçirilməlidir. Humanitar, sosial və intellektual texnologiyaların vahid fəaliyyəti təmin olunmalıdır.

Bugünkü mürəkkəb gerçəklikdə insanın uğurlu fəaliyyət qurması, özünü reallaşdırması üçün, reallığın adekvat mənzərəsinə dair təsəvvürlər sistemi olmaldır. Bu təsəvvürləri, dünyanın obrazını isə məhz ictimai elm yarada və təqdim edə bilər. Həyatın bütün mürəkkəbliyində, dinamikada dərk edə bilməyən insan şüurundakı dünyanın primitiv obrazına uyğun olaraq hərəkət edəcəkdir. Gündəlik həyatında qəbul etdiyi yanlış qərarlar, yalnız onun özünün deyil, bütövlükdə cəmiyyətin sabahı üçün zərər gətirir. Bütün bunlar deməyə əsas verir ki, yeni dünya məkanı haqqında düzgün elmi təsəvvürlər sisteminin formalaşmasının aktuallığı bu gün nəinki azalır, əksinə xüsusilə artır. Adi şüurun reallığı mənimsəməsi üçün dünyanın mənzərəsi onun anlam səviyyəsinə uyğunlaşdırılmalıdır. Bu isə o deməkdir ki, ölkə vətəndaşlarının ən müxtəlif anlam səviyyələrinə, savad və təhsil səviyyələrinə yönəlmiş sosial-humanitar texnologiyaların düşünülmüş sistemi hazırlanmalıdır. Belə sistemin yaradılması vəzifəsini ictimai elm öz üzərinə götürməlidir.

Dünyada yeni mədəniyyət məkanının formalaşması fonunda, insanların fərdi özünü ifadəsi, yaradıcılığın fərdi istiqamətlənmiş, onun diqqətini cəlb etməyə yönəlmiş xarakteri, bir daha vurğulamaq istərdik ki, sosial mədəni institutların eləcə də dövlətin məqsədyönlü təsirindən yayıla bilir. Müasir kommünikasiya texnologiyalarına əsaslanan qarşılıqlı mədəni təsir prosesləri ənənəvi təsəvvür və normativ qaydalardan gedə-gedə daha az asılılıqda olduğunu nümayiş etdirir. Mədəni məkan insanın bütün imkanlarının və şəxsi keyfiyyətlərinin istifadə olunmasını, səfərbər edilməsinin maksimal səviyyəsini tələb edən dinamik bir sistemə çevrilir. Belə şəraitdə mədəniyyət elminin, ümumilikdə ictimai elmin tədqiqatlarının səmərəliliyi, onların yalnız nəzəri-ideoloji mövqeyinin düzgünlüyü ilə deyil, həm də hər şeydən əvvəl, cəmiyyət qarşısında duran

praktiki problemlərin həllinə göstərdiyi köməklə müəyyən olunur.

2004-cü il, iyunun 15-dən Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının "İnsan inkişafına dair" növbəti məruzələri çap olundu. Qeyd edək ki, "İnsan inkişafına dair" məruzələr 1990-cı ildən başlayaraq hər il nəşr olunur. 2004-cü ilin məruzəsində hər il olduğu kimi, mütəxəssis və alimlərin, hakimiyyət orqanlarının, vətəndaş cəmiyyəti qurumlarının nümayəndələri bu dəfə bəşəriyyətin ən mühüm problemi qismində "mədəniyyət və mədəniyyət azadlığı"nı önə çəkmişlər. məruzə "müasir çoxçalarlı dünyada mədəni azadlıq" adlanır. İnsan inkişafının konseptual əsasını sadəcə adambaşına düşən gəlir və maddi tələbatların ödənilməsi deyil, insanın həyat və ləyaqətini, ictimai həyatda iştirak səviyyəsini, mədəni seçim azadlığını təmin edən amillər nəzərdə tutulur. Xüsusi qeyd olunur ki, "inkişaf, sadəcə gəlirin genişlənməsi deməkdir". Məruzədə həmçinin deyilir ki, dövlətlər mədəni amillərdən törənən din, dil və etnik mənşəli münaqişələrin qarşısını almaq üçün fəaliyyət həyata keçirməlidirlər. Mədəni hegemonluq deyil, mədəniyyətlərin bərabərhüquqlu inteqrasiyası həm milli, həm də beynəlxalq miqyasda insan inkişafının və demokratiyanın sabitliyini təmin edən yeganə alternativdir. Mədəni müxtəliflik yalnız bəşər varlığının ənənəvi mənəvi dəyərlərinin konservasiyasına deyil, bir-birini daha yaxından tanımağa, bəhrələnməyə və zənginləşməyə xidmət edir. Mədəni ənənələrin qorunması şüarı altında dünyada və cəmiyyətdə sabitliyi pozmaq cəhdlərinə bəraət qazandırılması qeyri-mümkündür.



## § 6. Yeni mədəniyyət məkanının spesifikası

*"Mədəni imperalizm"i əksər hallarda kütləvi mədəniyyətlə eyniləşdirirlər. Kütləvi mədəniyyətin antiavtoritar ruhu "mədəni inqilab" hadisəsini şərtləndirmişdir. Kütləvi mədəniyyət onu qəbul edənlərin savadı və səviyyəsinə verilən tələbləri ardıcıl olaraq sadələşdirilməsi istiqamətində geniş vüsət açır. Bu da öz növbəsində qərb mədəniyyətinin ssenarisi üzrə kütləvi mədəniyyətin bütün dünyada uğurunu və yayılmasını şərtləndirdi.*

Kütləvi mədəniyyətin istehlakçısı – passivdir. Onların əhvalı, dünyagörüşü, əsasən təhtəlşüura təsir etməklə formalaşır. Nəticədə emosional məzmunlu qavrayış, etik-əxlaqi və informasiya məzmunundan ayrılır. "Əhvalın mənəviyyat üzərində zəfəri" baş verir.

İctimai şüurun formalaşması texnologiyalarının mükəmməl inkişafı kütləvi mədəniyyəin intensivliyini daha da artırır. Əhatəmizdəki maddi aləmin dəyişməsinə yönəlmiş ənənəvi texnologiyalarla yanaşı (hightech), ictimai şüurun dəyişməsinə yönəlmiş yüksək texnologialar (high-hume) önə keçir. İnformasiya inqilabı məntiqi düşüncə və təfəkkürün dəyərini və səmərəliliyini azaldır. Ənənəvi texnologiyalar formal məntiqə əsaslandığı halda ictimai şüura təsir edən texnologiyalar intiusiyaya və duyğuya əsaslanır.

Dinamik dəyişən reallıqda fasiləsiz olaraq çoxşaxəli informasiya kanalları məlumatı yaradır, təqdim edir və müəyyən hədəfə ötürür. Bu zaman fərdi şüur mühitdə baş verən gerçək mürəkkəbliyin, keyfiyyət dəyişikliklərinin baş verdiyi məkanın dərinliyinə varmır, onun "səthi üzrə" addımlayır.

Duyğulara yönümlü informasiya daim, hər dəqiqə yeni effekt yaratmağa çalışır. Mədəniyyətin mahiyyətini deyil, şou industriyanın "sensor aclıq" (duyğu qıtlığı, aclığının, aqressiya, savaş, dəhşət filmləri və s. timsalında) tələbatının ödənilməsini başlıca məqsəd sayır (aqressiya, savaş və dəhşət filmləri və s. timsalında).

Şüurun formalaşması texnologiyası başlıca olaraq inandırmağa, nəyin bahasına olursa-olsun seyr etməyə, cəlb etməyə ünvanlamışdır. Bu məqsədlə siyasi texnoloqlar və analitiklərdən tutmuş, populyar menecerlər, ictimai rəyi şərh edən aparıcı jurnalistlər şəbəkəsi yorulmaq bilmədən fəaliyyət göstərir.

Reallığa sədaqət deyil, gerçəklikdən qaçmaq effekti kütləvi mədəniyyətin daha çox səy göstərdiyi məqsədlərdən biridir. Bu da öz növbəsində, konkret mədəniyyət üçün deyil, bütün bəşəriyyət üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

Obyektiv gerçəkliyin problemlərini real vasitə və mexanizmlərlə deyil, reklam, təhrif və təbliğatla, ("beyinlərin yuyulması" effekti) həll etmək cəhdi cəmiyyətin idarə olunmasını yanlış yönə istiqamətləndirir. Daha önəmli problemlərin həllindən yayındırır, cəmiyyət belə virtual təbliğatın qurbanına çevrilir, adekvatlıq səviyyəsi sıfıra enir.

Ümumi qəbul edilmiş qənaətə görə, cəmiyyətdə insanlararası münasibətləri kökündən dəyişən kəşflər, texnologiyalar, həm də bəşər inkişafının tarixində yeni mərhələni açır.



Bugünkü informasiya inqilabı, onun texnoloji atributları ictimai münasibətlərin mövcudluq formalarına tamamilə yeni məzmun gətirmişdir. İnformasiya-kommunikasiya texnologiyaları ictimai münasibətlərin başlıca vəzifəsinə çevrilmişdir.

Ən vacibi isə odur ki, informasiya texnologiyaları tarixdə ilk dəfə həmişə olduğu kimi, əməyin predmetini yalnız maddi aləmə, əşya və cisimlərə təsir etməkdə, onları dəyişdirmək və istehsal münasibətlərini yaratmaqda deyil, həm fərdi, həm də kollektiv şüura təsir etməklə bu sahəni sərfəli, mənfəət gətirən biznes sahəsinə, sosial texnologiyaların tətbiq edildiyi məkana çevirmişlər. Ətraf mühitin, şəraitin dəyişdirilməsindən çox, hər gün insanın şüuruna təsir etməyin çeşidli yeni vasitələri, mexanizmləri üsulları sınaqdan çıxarılır.

Yeni informasiya məkanı Qərbdə sosial texnologiyanın artıq inkişaf etmiş mükəmməl şəbəkəsini yaratmaqla, ən müasir ictimaiyyətşünaslığın (psixologiya, linqvistika, kulturologiya və s.) nailiyyətlərini kommunikasiya imkanları ilə birləşdirərək, onu insan şüurunun formalaşdırılması texnologiyasına çevirə, hər kəsə müyəssər olan formada təqdim edə bilmişdir. Hər hansı bir ideyanı, ictimai şüuru və ictimai rəyi dəyişdirə bilən stereotipləri ən qısa zaman ərzində ən geniş məkana yaymaq – müasir sosial texnologiyalar bu ritmlə işləyir. İnsan şüuruna təsir edən sosial texnologiyalar onun təkamülünü, keyfiyyət baxımından təkmilləşməsini şərtləndirə bilər. Artıq neçə onillikdir ki, insan şüuru fasiləsiz (permanent) dəyişiklikləri reallığın təbii xüsusiyyəti kimi, yeni dövrün ayrılmaz xassəsi kimi qəbul edə bilmişdir.

Dəyişikliklərin ritmi, onların tarixdəki heç bir dövrlə müqayisə edilə bilməyən intensivliyi şüurun təkamülünün yeni səviyyəyə – mental inqilab səviyyəsinə adlamağa imkan verir.

Onun əsas əlamətlərini hər kəs öz əhatəsində hiss edə bilər.

"Ekran mədəniyyəti"nin yayılması nəticəsində hər bir insanın, eləcə də cəmiyyətin reallığı qavrama səviyyəsinin prinsipial olaraq dəyişməsi, ayrıca bir sözün qavranılması ilə ekrandakı bütöv obrazın qavranılması arasında fərq çox böyükdür. Məsələn, "ekran inqilabı"na qədər bu xüsusiyyət əsasən incəsənətdə, musiqidə və digər yaradıcılıqla bağlı sahələrdə üstünlük təşkil etmişdir. Belə şəraitdə mədəniyyətin əhəmiyyətinin, onun formalaşmaqda olan yeni ictimai və fərdi şüurun fundamental əsası kimi rolunun son dərəcə artması müşahidə olunur.

Şüurun təkamülü həm də sosial texnologiyaların yeni formalarının yaranmasını şərtləndirməklə öz növbəsində sosial dəyişikliklərin yeni dalğasına təkan verir. Belə şəraitdə milli maraq və mənafenin qorunması yeni sosial-mədəni məkanın "oyun qaydaları"nı mənimsəməyi tələb edir.

Beləliklə, sosial texnologiyalarda bəşər tarixində həlledici rol oynamağa başlamışlar: əvvəlcə onlar intensiv inkişaf etmə mərhələsini keçir, sonra reallığın məhz bu inkişaf ritmində getməsini şərtləndirir. XX əsrin sonlarından texnologiyaların inkişaf sürətini üstələmişdir. Belə vəziyyətdə cəmiyyət sürət ritminə uyğunlaşmağa çalışır, öz şüurunu da onunla ayaqlaşmağa istiqamətləndirir. Qeyd edilən mental inqilab – şüurun öz təkamülündə keyfiyyət mərhələsini yaşaması da bununla izah olunur.



## § 7. Mədəni məkan, qlobal rəqabət və mədəni müqavimət

*Mədəniyyətin milli, sosial təhlükəsizliyin təminatçısına, rəqabətə davamlılığın başlıca faktoruna çevrilməsini şərtləndirən amillər çoxdur. Fərdi şüurun dünyanı düşünülmüş şəkildə dərk etməsinin azalması ilə müqayisədə, ictimai şüurda həkk olunan kollektiv təsəvvürlər və ictimai rəy cəmiyyətin sabitliyinə dəstək və ya əngəl ola bilən böyük qüvvəyə çevrilir.*

Dünya təcrübəsi göstərir ki, miqyaslı ictimai sarsıntılar, düşünülmüş və ya kortəbii şəkildə həyata keçirilən inqilab və ya transformasiyalar get-gedə insanların əksəriyyətini və bütövlükdə cəmiyyətin ictimai rəyini kökündən əks istiqamətə yönəldə, hələ dünən əbədi, sarsılmaz görünən ideya və ideologiyalardan bu gün imtina edilə bilər.

Bu dəyişikliklər baş verən yeniliklərə sosial-mədəni reaksiyanın təbii təzahürüdür. Cəmiyyət yeni şəraitə, yeni reallığa məhz bu yolla uyğunlaşır.

Dəyişikliklərin bütün növlərinə davam gətirməyin zamanın irəli sürdüyü "çağırışlara", mürəkkəbliyi ilə insan düşüncəsinə "meydan oxuyan" problemləri cavablandırmağın başlıca rolu yenə də qeyd-şərtsiz olaraq sosial, mədəni-mənəvi reaksiyadan başlayır və ondan asılıdır. Bu o deməkdir ki,

mədəniyyət heç bir başqa amillə müqayisə olunmayan adaptiv funksiyaya, yeni adlandırılan təzahürlərin "ələkdən" keçirildiyi süzgəcə malikdir. Çağırışlara, yabançı, özgə impulslara cavab mədəniyyətlə determinasiya olunmuşdur.

İnsan psixologiyasında sonradan qazanılmış, şərti reflekslərlə müqayisədə, genetik koddan qaynaqlanan şərtsiz reflekslər əvəzsiz rol oynayır. Mədəniyyət hər iki refleksivliyin mükəmməl cəmləndiyi, dinamik dəyişikliklərə uyğunlaşma prosesində cəmiyyətin sabitliyini təmin edən təməl və köklərə zərər verilmədən, mahiyyətə sadiq qalmaqla onu yeni səviyyə adlanmasını şərtləndirən, davamlı müqavimət, "mənəvi immunitet" qismində çıxış edən sosial-genetik kodla müqayisə oluna bilər. Hər bir insan analoji situasiyaya bənzər təsirlərə müxtəlif cür reaksiya göstərir. Hər bir insan mənsub olduğu mədəniyyətdə toplanmış dəyərlər və meyarlar sistemi ilə, əhatəsindəki reallıqdan gələn yad siqnalları "saf-çürük" edir. Buna nə dərəcədə nail olması daşıdığı mədəni irsin müqavimət gücü ilə müəyyən olunur.

Yabançı təsirlərin formalaşdırdığı yeni dəyərlər sistemini hər dəfə təkrar "çalxalaşdırıb bulaşdırdığı" zamanlarda, mənəvi irsə dayaqlanaraq kosmos-nizam yaratmaq mədəniyyətin missiyasıdır. "Yenilik" sözünün ifadə etdiyi nə varsa, xalqın dəyərlər sistemində mənəvi "legitimasiya" prosesini keçməli, sonrakı mövcudluq haqqını qazanmalıdır.

Dəyişən zamanlarda və məkanlarda itib-batmamaq üçün bəşər övladı insanları birləşdirən, birgəyaşayışın ahəngini təmin edən mədəniyyət adlanan kosmosda mövcud ola bilər. Mədəni kosmosda qarşılıqlı mnasibətlərin, ünsiyyətin, universal prinsiplərin sistemi tarixən zərrə-zərrə toplanıb, saxlanılmışdır. Hər bir insan haraya, hansı uzaq ölkəyə getsə bir



məsələdə əmindir: o, bəşəriyyətin mədəni kosmosunun qanunlarına riayət edildiyi məkandadır, təhlükəsiz bir yerdədir. Mədəni universalilərin, norma və tələblərin onu mühafizə etdiyinə əmindir. Hara getsə, kimlə ünsiyyət qursa, ilk növbədə, onun simvolik bələdçisi "tərcüməçisi", vaistəçisi – mədəniyyətdir.

Mədəniyyət məkanının xüsusiyyətləri, əlamətləri fövqəladə dərəcədə mürəkkəbdir. Bu məkana qədəm qoymaq onlardan xəbərdar olmağı tələb edir.

Əvvəla, mədəniyyət məkanı "şaquli" müstəvidən daha çox "üfüqi" təşkilatlanma, formalaşma qanunauyğunluqlarına malikdir. Burada fərdi seçimlər son nəticədə kollektiv, ictimai seçimləri müəyyənləşdirir. Fərd, subyekt qismində ayrıca götürülmüş insan da, ayrıca xalq və millət də çıxış edə bilər. "Şəxsi xarakter və psixologiya sosial-mədəni reaksiyanın, xarici maraq və mənafelər üçün deyil, mədəniyyətin öz daxili qanunları əsasında reallaşmasını təmin edir. Həm cəmiyyətin və dövlətin maraqları məhz mədəni-genetik kod vasitəsilə qorunur. Buna görə də informasiya inqilabı və ictimai rəyin manipulyasiyası texnologiyalarının inkişafı şəraitində mədəniyyət təbii-tarixi milli maraqların sınanmış sistemi, qeyri-müəyyən vəziyyətlərdə "həqiqət meyarının" aşkara çıxarılması üçün əvəzsiz qüvvə kimi çıxış edir.

İntensiv informasiya axını əksər hallarda birtərəfli təzyiq xarakteri daşıyır. Ən vacibi informasiya onu yaradanın da, qəbul edənin də mədəni "izlərini" daşıyır. Belə olan təqdirdə, onun ötürən və qəbul edilən mədəniyyətlər arasındakı fərqin həcmi, onun təsir effektini müəyyən edir. Mədəniyyətlər arasındakı fərqlər nə qədər böyükdürsə, bu təsir də o qədər böyük olur. Müasir mərhələdə informasiyanın yaradılması və ötürülməsi üsullarını, standartlarını, düşüncə stereotiplərini və hətta

emosional reaksiyanı da mədəniyyət müəyyənləşdirir. Burada siyasi mədəniyyət, hüquq mədəniyyəti, biznes etikası və s. kimi nəhəng mədəni sistemin ünsürləri iştirak edir.

Bu baxımdan informasiyanın ötürülməsi və qəbul edilməsində həssas məqamları nəzərə alan "informasiya mədəniyyəti" kimi yeni elmi istiqamət kimi inkişaf edir. Son illərdə kütləvi informasiya vasitələrində informasiyanı verən tərəf üçün adi sayılan, "söz azadlığı" pərdəsi ilə maskalanan cəhdlər üzündən Avropada iğtişaş və qalmaqallar seriyası səngimək bilmir. Bütün bunlar hər hansı bir mədəniyyətə yabançı olan informasiya verilməsi üsullarının mövcudluğunu, siyasi, kommersiya və s. fəaliyyətin yad standartlarını qəbul edən ölkədə münasibət kimi problemə həssaslıqla yanaşmanı gündəmə gətirir.

Müasir Qərbdə ictimai şüurun və rəyin formalaşdırılmasının məqsədyönlü sistemi artıq yüz ilə yaxın tarixə malikdir. "Public relation" kimi mövcud olan sahənin mütəxəssisləri bu gün malik olduqları nəzəriyyə və təcrübəni ən fəal surətdə tətbiq edirlər. Belə ki, şüura təsir etmək, insanların dəyərlər sistemini dəyişdirməyə cəhd etmək, sözün əsl mənasında, ətrafdakı maddi aləmi dəyişdirməyin nəticələri ilə müqayisədə daha artıq mənfəət gətirir. Məcazi mənada deyilsə, maddi nemətləri, qızıl, və s. sərvətlərin ələ keçirilməsi daha sərfəli olmuşdur. İnformasiya bir tərəfdən, hər bir insana öz şüurunu məqsədyönlü inkişaf etdirmək imkanını yaratsa da, digər tərəfdən, ənənəvi mənada idarəetmə və nəzarəti qeyri-mümkün edir.

Şüura təsir texnologiyalarının, nəzəriyyə və praktikanın zənginliyi, tarixi təcrübə, mədəniyyət məqamına da təsir baxımından qeyri-bərabər imkanlar formalaşdırır. Bu sadə təcrübə



hər bir dövlətin mədəniyyət siyasətinə, milli maraqlarına mane olan problemlər dairəsini daraldır və əksinə təsir imkanlarını çox artırır. Yəni, bir tərəfdən, qarşıda duran strateji vəzifələrin həllinə bütün qüvvələri cəmləməyə imkan verir; digər tərəfdən isə, təsir obyektləri arasında, ayrı-ayrılıqda iş aparmaq ehtiyacından azad edir. Ayrılıqda hər kəsi məcbur etməyə ehtiyac qalmır, birtərəfli informasiya axınına başlanğıc verilir, nəticədə insanlar özləri, könüllü surətdə cavab təşəbbüsünü göstərirlər.

Hər kəsin zövqünü, tələbatını, dünyagörüşünü dəyişdirməyə göstərilən cəhd nəticəsində, bütöv insan kütlələrinin rəyi dəyişdirilə, yeniləşdirilə bilər. Nəticədə insanla həyati vacib məsələlərə biganəlik göstərə və əksinə, vecsiz faktlardan məmnunluq duya, onları seyr etməyə üstünlük verə bilərlər.

Bütün bunlar sosial texnologiyaların mədəniyyət və dünyagörüşünə təsirini ardıcıl olaraq təkmilləşdirməyə, tətbiq dairəsini genişləndirməyə səbəb olmuşdur. ABŞ-da XX əsrin 90-cı illərindən belə bir deyim geniş yayılmışdır: "Varlı olmaq istəyirsənsə, yeni din yarat və təbliğat et!". Bu gün artıq bu bir zarafat deyil, gerçəklikdir. İctimai şüura təsir texnologiyaları həm lokal, həm də beynəlxalq, qlobal səviyyələrdə aparılır. Siyasi, iqtisadi, sosial, mədəni maraqların müdhiş çulğaşması şəraitində aparılan "informasiya müharibələri" bu prosesin başlıca spesifikasını təşkil edir.

Təbiəti, dünyanı dəyişməklə inkişaf etməkdən, daha çox öz dünyagörüşünü, şüurunu dəyişməklə inkişafa meyillənmək – bu yaşanılan bütün inqilabların (mədəni, mental, informasiya və s.) müqəddəm şərti, əsas spesifikasıdır. Əsas problem müasir dünyanın, inqilabların gedişatı və qanunauyğun nəticələrinin hələ tam dərkedilmə səviyyəsindən çox uzaqda olmasıdır.

Şüurun formalaşdırılmasına təsir edən miqyaslı, xaotik və çoxşaxəli proseslər burada tarixən formalaşmış reallıq anlayışının, insanın yaşadığı, dayaqlandığı sabit məkan anlayışını tamamilə unutdura bilər. Düşüncədə, fəaliyyətdə aydın hədəflərin və müəyyənliyin itməsi, bu gün ayaqlar altındakı torpaq-məkanın itməsi deməkdir.

Yaşanılan tarixi-mədəni məkanın unutdurulması, real dünyanın real problemlərini ikili standartlara yol vermədən həll etmək əvəzinə, onları texnoloji imkanlara əsaslanaraq virtual, təbliğat və mədəni məkana müdaxilə vasitəsilə həll etmək cəhdində özünü göstərir.



## § 8. Dünyanı dəyişən inqilablardan, dünya görüşü dəyişdirən texnologiyalara...

*Öz inkişafında görünməmiş yüksəkliyi və mürəkkəbliyi qət edən sivilizasiya, bu gün həm də sanki miqyaslı və ziddiyyətli problemlərin yaratdığı uçurum qarşısındadır. Bu vəziyyət ilk növbədə, dünyaya münasibətimizə, dünyaya baxışımıza yenidən nəzər salmağı tələb edir. Deməli, dünyanın gələcəyi birmənalı şəkildə dünyagörüşün məzmunundakı dəyərlərdən, mədəniyyətdən, təhsil səviyyəsindən, onların məzmunlu və geniş yayılmasından birmənalı şəkildə asılı olacaqdır.*

Yeni dünyada davranışın ümumi, birgəyaşayış qaydalarını müəyyənləşdirmək üçün, ilk növbədə, baş verənlər dərk olunmalı, yaşanılan indiki məqam gərgin seçimlər, gələcək isə sonsuz imkanlar məkanı kimi təsəvvür edilməlidir.

Həyatın bütün sahələrinə nüfuz etsə də, dəyişikliklər, ilk növbədə, insana ünvanlanmış olur. Çünki bunu dərk edən də, ən həssas və ağrılı münasibəti hiss edən də insandır.

Mədəniyyətin inkişafı və təkamülündə yeni sistemlərin yaranması, avtonomluğa və lokal sərhədlərdə mövcudluğa ehtiyac duyması meyilləri kimi differensiasiyaya və əksinə, bir-birini tanıma, əməkdaşlıq və bağlılıq meyillərinin ifadə etdiyi inteqrasiya prosesləri tarixən, bir-birini əvəzləmişdir.

Müasir mərhələdə bu iki inkişaf meylinin tarixdə əvvəllər rast gəlinməyən tərzdə fövqəladə çulğaşması, qarşılıqlı inkişafı prosesi özünü ilk dəfə qabarıq göstərir.

Yəni, inteqrasiya meylinin dominant xarakter daşıması heç kimdə şübhə doğurmadığı halda, eyni zamanda, əks meyilin də güclənməsi müşahidə olunur. Kommunikativ məkanın genişlənməsi, ölkələr və mədəniyyətlərarası təsirlərin intensivliyi, maliyyə-iqtisadi, siyasi-hüquqi sferaların inter və transnasionallaşması, mədəni avtonomiya, diferensiasiya meyillərini aradan qaldırmaq əvəzinə, onları daha da kəskinləşdirir. Baş verən proseslərin ziddiyyətli mahiyyəti: müxtəlif istiqamətlərə yönəlmiş inteqrasiya və diferensiasiyanın, qlobal və lokal mədəni məkanların yanaşı mövcudluğu, dünyanın vəhdətinin mürəkkəb mahiyyəti kimi başa düşülə bilər.

Ölkələrin mürəkkəb qarşılıqlı əlaqələr sisteminə daxil olması, həm də onların siyasi, sosial-mədəni suverenliyi şəraitində mümkün olmuşdur. Hər bir mədəniyyət qlobal inteqrasiya proseslərinə mədəniyyətdəki həm ümumbəşəri, həm də spesifik olan cəhətləri saxlamaqla daxil olmağın üsul, ritm və formalarını özü müəyyən edir. Qlobal cəmiyyətə açq olmaq, inteqrasiya siyasətini müəyyənləşdirmək ən mühüm problemlər sırasına daxil olur. Milli mədəni ənənənin toxunulmaz olaraq çoxalması ehtimalı sıfıra bərabərdir. Digər tərəfdən, hətta mədəni inkişaf və ənənə tipoloji, yeknəsəq mədəni praktikanın formalaşmasına yol vermirlər (məs.: Avropa təcrübəsi).

Bir-birinin təkrarı olan, eyni mədəniyyət və eyni cəmiyyətlər yoxdur. Mədəni universalilər tarixi ənənənin konservasiyası, sadələşdirilməsi və primitiv ifadəsi deyil, mədəni təməlin (nüvənin) innovasiyalardan bəhrələnərək daim mürəkkəbləşməsi, daha da möhkəmlənməsi deməkdir. Yeni məqam-



ların mənimsənilməsi zamanı, məhz belə mərhələlər hər bir mədəniyyətin həm həyatiliyi və yaşarılığının sübut olunduğu zamandır, həm də onun inkişaf edərək daha yüksək pilləyə adlamasının, buna qadir olmasını göstərən amildir.

Bu gün müşahidə etdiymiz proseslər zahirdən mədəniyyət məkanının inteqrasiya bağları ilə daha da sıxlaşdıraraq, daxildən, onun diferensiasiyasını (özünəməxsusluğun mühafizəsini) gücləndirir.

Sosial-mədəni məkanlarda, konkret sərhədlər daxilində mövcudluq əvəzinə, hüdudları bilinməyən, sərhədləri şəffaf, gah da tutqun və görünməyən mədəni aləmin insanı aydın oriyentirlərdən məhrum vəziyyətdədir. Əksəriyyət bir-biri ilə sıx çulğaşan çeşidli mədəniyyətlərin nəhəng çoxluğunun mərkəzinin harada yerləşdiyindən bixəbərdir. Nə qapalı özünütəcrid, nə də ifrat açıqlıq arasında seçim edilmir. Seçim bu iki tərəfin arasındadır.

Lakin informasiya cəmiyyəti müasir mədəni dinamikaya güclü təsirlərlə təkan verir, hər bir ölkədə mədəniyyətin innovasion plastı, ənənəvi təcrübə ilə müqayisədə üstünlük təşkil edir. Daha dəqiq deyilsə, ənənə və innovasiyalar arasında hər dəfə nisbətin qeyri-sabit vəziyyətlə əvəzlənməsi, artıq mədəniyyətin yeni inkişaf rejiminə daxil olmasından xəbər verir. Bu artıq mövcud inkişaf paradiqmasına yenidən baxılmasını tələb edir. Belə şəraitdə sosial-mədəni inkişafda ziddiyyətlərin həllinin mühüm istiqamətlərindən biri – inteqrasiyadır.

Lakin nəzərə almaq lazımdır ki, hər bir keçid mərhələsində olduğu kimi, inteqrasiyanın birdəfəlik, universal və səmərəli modelinin olmaması, daha doğrusu, hamı üçün eyni modelin tətbiqinin, ümumiyyətlə, qeyri-mümkün olması bu proseslərin rəvan deyil, ağrılı keçməsinə səbəb olur. Bunu dün-

yada baş verən bütün proseslərdə müşahidə etmək olar.

Bir tərəfdən, demokratik baxış və ideyaların təsiri güclənir; yeni kommunikasiya fərmanları yaranır; dünyanın bir çox regionlarında sosial-mədəni inkişaf göstəriciləri yaxşılaşır (həyat müddəti, təhsil səviyyəsi; mədəniyyətlərarası təsirlər intensivləşir; həyat tərzini seçmək üçün geniş imkanlar açılır.

Digər tərəfdən, iqtisadi inkişafın qeyri-bərabərsizliyi ölkələr və insanlar arasında səviyyə baxımından müqayisə edilməyən uçurum yaradır. Mədəni müxtəlifliyi təhlükə altına alan kütləvi mədəniyyətin təsiri güclənir. Mədəni fərqlərə və sivil meyarlara görə düşünülmüş siyasət yürüdülür, qarşıdurmaya xidmət edir.

Müaisr inteqrasiya prosesinin ziddiyyətləri məhz iki inkişaf yolunu – qarşıdurma, yoxsa dialoqu seçməyi gündəmə gətirmişdir. Mənəvi-mədəni sfera eyniyyəti qəbul etmir. Bütün bunlar inteqrasiyanın humanistik-mədəni layihə üzrə inkişafının zəruriliyini gündəmə gətirir. Başqa sözlə, inteqrasiya bəşər varlığının sonrakı inkişafının başlıca şərti kimi çıxış edir.

İnteqrasiyaya meyil hər bir mədəniyyətə xasdır. Onun səbəbi mövcud olanı dağıtmadan yenidən bəhrələnmək, ən geniş mənada dünyanın və mədəniyyətin birlikdə yaşamaq qabiliyyətidir. Mədəni sistemlərin qarşılaşması, təmasa gətirməsi tarix boyu həmişə heç də müsbət nəticələnməmişdir.

Müasir inteqrasiya proseslərinin ziddiyyətlərinin səbəbi məhz bu qarşılaşma, sıxlaşma deyil, həm də dünyanın mahiyyətcə yeni-qlobal bütövləşmə mərhələsinə qədəm qoymasıdır. Burada artıq hər bir milli mədəniyyət, qlobal mədəni sistemin bir üzvünə çevrilməkdədir, həm milli, həm də qlobal miqyas və funksiyanı yerinə yetirməkdədir. Bu funksiyaya ayrıca götürülmüş bir mədəniyyət iddialı olarsa, yeni məkanı öz istədiyi



kimi "nizamlayarsa" ziddiyyətilər qaçılmazdır. Bərabər imkanlı, bərabər hüquqlu inteqrasiya, təhlükəli qarşıdurmanı səngidə, insanın yeni mədəni praktika və davranış modellərini mənimsəməsinə şərait yarada bilər.

İntensiv inkişaf edən yeni texnologiyaların formalaşma prosesi hər bir ölkədə artıq yetkin, bütöv sayılan mədəni landşaftda yeni təzahürlərin, "pöhrə və budaqlar"ın yaranmasını şərtləndirir.

Mədəni təcrübənin, yeniliklərin mənimsənilməsi və ötürülməsi mexanizmləri, vasitəçiləri dəyişimr. Ənənələri texnologiyalar əvəz etdikcə, informasiyanın təhlili və mənimsənilməsinin, ötürülməsinin başlıca subyekti – müəllim və ya böyüklər olmadan da proses davam edir. Mədəniyyətin struktur elementlərindən, təməl faktorlarından olan dilin kommunikativ funksiyası dəyişikliyə uğrayır. Süni, simvolik, "informasiya dilinin" rolu artır. Bu fenomen hələ ictimaiyyatşünaslar tərəfindən kifayət qədər öyrənilə bilməmişdir. Simvolik, virtual (daxili) dialoq və ünsiyyət yeni mədəniyyət tipini və yeni insanı formalaşdırır. Ünsiyyət yalnız informasiyanın bir növ zahiri qəbulu və əks əlaqə üzrə ötürülməsinə yönəldiyi üçün, şüurun dərin qatlarının səyləri tələb olunmur. Mədəniyyətin səviyyəsi insanın dolğun, zəngin dünyagörüşü sistemlə müəyyən olunursa, virtual, şou və kommersiya məkanlarında mövcud olan həyat, reklam mifologiyası və s. bəsit, "güzəran" mədəniyyəti təsvirləri bütövlükdə səviyyənin aşağı düşməsinə səbəb olur.

İnsan zəkası yalnız bilik və təcrübəni yaratmaqla kifayətlənmir, həm də onların həyatda məqsədyönlü istifadə olunması prosesini təmin edir. Əldə edilən mütərəqqi nə varsa, keçmişin irsi və təcrübəsi kimi gələn nəsillərə ötürülür. Bu

prosesin dəyərləndirilməsi, zənginləşdirilməsi, insanın mənəvi varlıq kimi mövcudluğunun həlledici amilidir. Öz növbəsində bu proses "yaddaş" adlanan fenomenin köməyi ilə mümkün olur. Biz bilirik ki, insan yaddaşsız yaşaya bilməz.

Tarixi mədəni yaddaş hər bir xalqın böyük mənəvi potensialı, milli sərvətidir. Dünyaya gələn hər bir insan öz sosial mövqeyindən asılı olmayaraq, bu yaddaşın varisi olur. Onun insan kimi formalaşması, onun mənəviyyatı xalqının dili, tarixi və mədəniyyətini öyrənilməsindən başlayır.

Tarixi mənəvi yaddaş nisbi müstəqilliyə də malikdir. Həm insanda, həm də insanla paralel olaraq mövcud olmaqla həyatın təməlini təşkil edir. İnsan mürəkkəb, xaotik təəssürat bağışlayan dünya mənzərəsinə mədəniyyətin yaddaşı ilə bir nizam gətirir. Xüsusilə də dəyişikliklər dövründə bu özünü göstərir.

Son illərin transformasiyaları yalnız zamanı deyil, həm də məkanı dəyişir. Bu sistemli dəyişikliklərin axarına insan və mədəniyyətin qoşulması, onunla ayaqlaşa bilməsi həyati vacib məsələdir. Əks təqdirdə, zamanda və məkanda yarış birtərəfli məğlubiyyətini şərtləndirə, insan gücsüz olduğunu etiraf edə bilər. Sosial mədəni transformasiyaların, onları dərk və dəf edən insanların imkanlarını üstələdiyi belə mərhələlərdə, şəraitin kəskinliyi müxtəlif radikal qərarlar verilməsinə səbəb olur.

Bəzi mədəniyyətlər intuitiv olaraq əvvəlki, ənənəvi zamana qayıtmağa cəhd edir, digərləri yaxınlarda və qonşularda müşahidə etdikləri həyat şəraitini yaratmağa, bir qismi isə öz həyat tərzini radikal şəkildə yeniləşdirməyi qət edir.

Bütün hallarda ümumi olan problem budur ki, hər kəs artıq fərqli, başqa cür yaşamağın zəruriliyini dərk edir, hər kəs



başqasını özü kimi yaşamağa məcbur etmək istəyir və ortaq, kompromis model heç kimi düşündürmür.

Hazırda inteqrasiya prosesləri bütün dünyanı, bütün ölkələri bürümüşdür. Mədəni mühitdə gedən dəyişikliklər əvvəlki ilə müqayisədə daha tez duyulur. Başqa mədəniyyətlər, onların ideyaları, dünyagörüşü məkan və sərhədlər yox imiş kimi, tez bir zamanda bütün dünyaya yayılır.

Maraq və tələbatların ödənilməsində mövcud olan ənənəvi maneələrin aradan qaldırılması pozitiv məzmunlu prosesdir.

Bununla yanaşı, qlobal kompyuter şəbəkəsində informasiyanın əsasən ingilis dilində ötürülməsi, Azərbaycan dili sektorunun onun nəhəng imkanları ilə müqayisədə cüzi olması mühüm problemdir. Azərbaycanın sosial-mədəni özünəməxsusluğunu əks etdirən informasiya mənbələrinin kifayət dərəcədə olmaması həm tarixi şüurun formalaşdırılması kimi böyük imkanın tam reallaşdırılması, həm də dünyaya Azərbaycan həqiqətlərinin çatdırılması baxımından günün tələbləri səviyyəsində deyil.

Qlobal şəbəkənin Azərbaycan dili sektorunun sosial-mədəni məzmunla, mədəni irsimizlə bağlı informasiya fondları ilə tamamlanması cəmiyyətimizin gələcəyi məsələsidir. Bu imkanı istər qabaqcıl ölkələr, istərsə də digər (dost və qeyri-dost) ölkələrə geniş tətbiq edirlər.

Mədəniyyət özündə elə mahiyyət və məzmun daşıyır ki, bu məzmunun köməyi ilə varlıq müəyyən tarixi forma, nisbi sabitlik və nizamlı strukturlar şəklində mövcud ola bilir. Öz potensialını real tarixi proses, bu prosesin zaman və məkan ölçülərini də müəyyənləşdirir.

Hər bir mədəniyyət öz dəyərlər sistemi ilə fərqlənir.

Mədəniyyət məhz dəyərlərin, meyarların zamanda və məkanda oriyentir rolunu oynaması ilə əvəzedilməzdir. Hər bir mədəniyyət onun daşıyıcılarının əksəriyyətinin qəbul etdiyi dəyərlər iyerarxiyasıdır. Bu və ya digər tarixi mərhələdən söz açanda biz, həmin dövrün insanlarının ən çox nələrə dəyər verdiyini, hansı müqəddəs və mütləq mənəvi təməllərə önəm verdiyini yada salırıq.

İnsan özü üçün nəyin dəyərli olub-olmadığını müəyyənləşdirməkdə azaddır. Lakin bir çox mədəni prinsiplər müxtəlif mədəniyyətlərdə çox bənzərdir.

Həyatda insan üçün müqəddəs, əvəzsiz sayılan prinsiplərin, təsəvvürlərin mövcud olduğunu hələ qədimdən bilirdilər. Lakin onu aydın ifadə edən anlayış-dəyər sözü yalnız XIX əsrdə dövriyyəyə gəlmişdir. Sarsılmaz, müqəddəs, həyatda insanı istiqamətləndirən, hədəf rolunu oynayan bu oriyentasiyanı filosoflar "dəyər" adlandırmışlar.

İnsan üçün əvəzsiz sayılan, onun həyatına məna verən həytaın sınaqlarından çıxmağa kömək edən dayaqlar – məhz dəyərlərdir. Dəyərlərin zaman keçdikcə dəyişməsi təbiidir. Lakin əbədi, dəyişməyən dəyərlər də mövcuddur. Ən vacibi odur ki, dəyərlər iyerarxiyasının məzmununda zamana uyğun dinamik dəyişikliklər baş verir. Müxtəlif dönəmlərdə əmək, zəhmət, pul, zəka, bir sözlə, maddi və ya mənəvi dəyərlərə önəm verilməsi həm zamandan, həm konkret insandan, bütövlükdə isə mədəniyyətin səviyyəsindən asılıdır. Hər zamanın idealına uyğun dəyərləri formalaşır. İdeallar dəyişdikcə dəyərlər də dəyişir.

Əbədi, mütləq dəyərlər, qeyd olunduğu kimi mövcuddur. Bəşəriyyət yarandığı vaxtdan insan, onun həyatı, azadlıq idealı, məhəbbət, həqiqət, gözəllik, xeyirxahlıq və s. dəyərlər



bu günə qədər öz mütləq mənasını saxlamış, mədəni universalilər statusunu qazanmışdır. Onlara konkret insanın və mədəniyyətin verdiyi məna və məzmun fərqli olsa da, bu dəyərlər bütün mədəniyyətlərdə mövcuddur.

Müasir mədəniyyətin zamanı və məkanını qavramaq üçün xüsusi duyum hissinə malik olmaq, onu formalaşdırmaq lazımdır. Bu duyum hər şeydən əvvəl, sürət, ritm və sərhədsiz, üfüqləri bilinməyən məkanın qavranılması deməkdir.

Müasir dünyada mədəniyyət amilinin rolunun artması, beynəlxalq siyasətdə bu amili nəzərə almadan aparılan bütün fəaliyyəti şübhə altına alır. ABŞ alimi R.Robertson, məşhur filosof Karl Yaspersin "fövqəlsiyasi", "siyasətüstü təfəkkür"ə tələbatı olmasına dair fikirlərini inkişaf etdirərək yazır: "Siyasət haradasa, dövlətləri, insanları xalqları ayırır, bir-birinə qarşı qoyur. Bəşəriyyət üçün çox qorxulu olan bu problemi "mədəniyyət" adlı nemət həll edə bilər.

Mədəniyyət, fövqəlsiyasi, mənəvi potensialı daşıdığına görə bu qarşıdurmanı səngidir. Dialoqun aparıldığı bütün: siyasi, iqtisadi hüquqi və s. – dinlərlə müqayisədə "mədəniyyət dili" daha çox anlaşılan, etibarlı dildir. Bu gün dünya siyasəti beynəlxalq siyasət adlandırılan sahənin "mədəni fokusu" – etiraf edilməlidir. Bütün sahələrdə aparılan anlaşma prosesləri mədəniyyət amilinə söykənir. Biz etiraf etməliyik: beynəlxalq siyasət, mədəniyyət faktorunu nəzərə alaraq aparıla bilər. Biz qlobal mədəni siyasət dövründə (siyasətin mədəni əsaslar üzərinə qoyulması və ya mədəniyyətin ən mühüm siyasi anlaşma vasitəsi kimi qəbul edilməsi zamanında) yaşayırıq. Bu beynəlxalq siyasətdə "mədəni çevrilişin" başlanğıcıdır" *(P.Робертсон. Социальная теория. Глобальная культура. M. 2000, s.197).*

Siyasətin mənəviyyatla sintezi müəllifə görə məhz mədəni siyasətdir.

Dialoq özü mədəniyyət fenomenidir. Buna görə də müasir dünyada siyasətin bütün istiqamətləri zorakılıq, müdaxilə və savaşa alternativ olan dialoq üsuluna əsaslanır. Belə olmadıqda dialoq adı altında baş verən nə varsa, əslində monoloqdur, öz baxış, mədəniyyət və dəyərlərini başqa tərəfə zorla qəbul etdirmək siyasətidir. Demokratiya dialoq mahiyyətlidir. Məhz buna görə də XX əsrin ortalarında gündəmə gələn dialoq problemi heç vaxt aktuallığını itirməmiş, əksinə, onun əhəmiyyəti hər gün yenidən vurğulanır.

Bu məsələ həm dövlətlərarası, həm də dövlətdaxili mədəni siyasətin mühüm məqamlarını əhatə edir. Mədəniyyətin inkişafında dövlətin və cəmiyyətin birgə fəaliyyəti, Azərbaycanın qlobal mədəniyyət məkanına uğurla daxil olmasına kömək edən bütün sahələrə önəm verilməsi, informasiya cəmiyyətinin tələblərinə uyğun innovasion mədəniyyət strukturunun formalaşmasını təmin etmək, vətəndaş cəmiyyətinin ən mühüm göstəriciləri kimi mədəni novatorluğun, yaradıcı təşəbbüslərin, plüralizmin və özünəməxsusluğun dəstəklənməsi, ən müasir texnologiyaların tətbiqi və mədəniyyət sahəsində kadr potensialının peşəkarlığının armasını təmin etmək yolu ilə sosial-mədəni siyasət və idarəetmədə effektiv nəticələrə nail olmaq – günün vacib məsələlərindəndir. Məhz belə olan təqdirdə, mədəniyyət siyasəti Azərbaycanda sosial-mədəni inkişafın yeni səviyyəsinin əldə edilməsinə nail olmaq, dinamik keyfiyyət dəyişikliklərini həyata keçirmək, ölkənin qlobal mədəniyyətə uğurlu inteqrasiyasını təmin etmək olar.

Azərbaycan dövləti formalaşmış dünya düzənində müstəqilliyin möhkəmləndirilməsi istiqamtində yorulmadan çalışdığı bir dövrdə, mədəniyyət siyasətin ölkəmizin beynəlxalq aləmdə mədəni potensialına, əlverişli tərəfdaş obrazına, mənəvi nüfuzuna dair təsəvvürləri hər gün daha böyük qətiyyətlə formalaşdırmağa səy göstərməlidir. Çünki Azərbaycan tarixən yalnız malik olduğu maddi-təbii sərvətləri ilə yanaşı, həm də öz zəngin mənəvi irsi ilə tanınmışdır.



Bu baxımdan "beynəlxalq mədəni inteqrasiya" mövzusunun müzakirəsi, tədqiqi və tədrisi mühüm yer tutur. İstər bütün dünyada, istərsə də MDB məkanında "beynəlxalq münasibətlər" elmi sahəsində hazırda ən geniş tədqiq olunan yeni istiqamətdir. "Beynəlxalq humanitar əlaqələr" adlandırılan konkret ixtisas çərçivəsində "Müasir dövr və beynəlxalq mədəni inteqrasiya problemləri" ayrıca tədris olunur.

Burada mədəni inteqrasiyanın məzmunu, başlıca meyilləri, onun beynləxalq siyasətdə statusu və müasir dünya inkişafında rolu hərtərəfli təhlil edilir.

Müasir inteqrasiya proseslərinin modelləri, mövcud humanitar, siyasi-hüquqi mexanizmləri, coğrafi bölgələr üzrə, sivilizasion amillərə görə (dövlətlərarası, mədəniyyətlərarası, mədəni-tarixi regionlararsı və s.) ayırd edilərək nəzərdən keçirilir.

Mədəniyyətlərarası münasibətlərdə ziddiyyətlərin həllinə müxtəlif yanaşmalar (etnosentrizm, mədəni relyativizm, mədəni inteqrasiya və s.) təhlil olunur. Müasir dövrdə mədəni mübadilənin dövlətlərarası münasibətlərdə oynadığı rola aydınlıq gətirilir. Mədəniyyətin ən mühüm sahələri: siyasi mədəniyyət və hüquqi mədəniyyətin tarixən formalaşmış tiplərinin müqayisəsi aparılır. "Mədəni diplomatiya", onun məzmunu və funksiyaları müəyyənləşdirilir. Müasir beynəlxalq münasibətlərin humanitar mədəni-məzmun daşımasına diqqət cəlb edilir.

XXI əsrdə beynəlxalq mədəni inteqrasiya prosesləri hər bir ölkənin dünyada mədəni-pozitiv obrazının yaranmasından başlayır. Bu istiqamətdə çoxşaxəli, elmi əsaslara söykənən, kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə aparılan fasiləsiz fəaliyyətin konsepsiyası olmalıdır. Ölkənin pozitiv, potensial tərəfdaş obrazına, hər şeydən əvvəl, onun mədəni imkanlarının təbliği, geniş yayılması rolu isə nail olunur.

Beynəlxalq siyasətdə qlobal dövrün tələbləri, sual və çağırışları, bir sözlə, ifadə etmək istəsək, məhz mədəni cavabların, problemlərin mədəni inteqrasiya meydanında həll olunmasını önə çəkir.

Bunun üçün kifayət qədər əsas vardır. Hər şeydən öncə, sərhədləri olmayan qlobal mədəni məkanda mədəni identiklik və müxtəlifliyin təmin olunması problemi gündəmdədir.

Mədəni inkişafa xas olan müasir meyillər həm obyektiv, həm də subyektiv mənbələrdən yönəldilən çoxşaxəli təsir və təzyiqlər altında radikal konservatizm, millətlilik, dini fundamentalizm kimi cavab reaksiyalarını şərtləndirir. Elm və texnika ən yaxın perspektivdə nə qədər güclü inkişaf etsə də, dünyada qeyri-sabitliyi şərtləndirən sosial və humanitar problemləri həll etmək iqtidarında deyil.

Dünyanın hətta ən güclü, fövqəl sayılan dövlətlərinin qlobal problemləri təkbaşına həll edə bilməməsi gerçək faktdır və bütün səyləri mədəniyyətin kəşf etdiyi mexanizmlərə: inteqrasiyaya, dialoqa, dözümlülüyə, həmrəyliyə yönəltməyi diktə edir. Siyasi və hüquqi mədəniyyətin tamamilə yeni səviyyəsinə keçməyi tələb edir. Yalnız ümumbəşəri, mənəvi-əxlaqi meyarlarla və prinsiplər üzərində qurulan siyasət dünyanı xilas edə bilər. Sivilizasiyanın yaxın perspektivləri mədəniyyətlər



dünyasından, vahid, rəngarəng dünya mədəniyyətinin formalaşması imkanlarından birmənalı şəkildə asılıdır.

"Mədəni siyasət" anlayışı və onun idarə etdiyi məzmun nisbətən son dövrlərdə gündəmə gəlmişdirsə də, bu istiqamətdə fəaliyyət tarixin bütün dövrlərində mövcud olmuşdur. İnsan yaşadığı bütün dövrlərdə, hökmən hər hansı mədəni məkanda mövcud olmuş, bu məkanı hər hansı ideya və ya prinsiplər əsasında təşkil etmişdir.

Mədəni siyasətin çoxşaxəli, fövqəlmürəkkəb sahə olmasına "mədəniyyətə verilən təriflərin artıq 1000-ə çatması" göstərir *(М.С.Каган. Философия культуры. СПб., «Петрополис», 1996, s.416).* Mədəniyyətin dünya siyasətinə nüfuzunun artırılması məqsədi ilə BMT və YUNESKO tərəfindən "Mədəniyyət və inkişaf üzrə Ümumdünya Komissiyası" yaradılmışdır. Komissiyanın başlıca məqsədi "Mədəniyyət və inkişaf" arasındakı qarşılıqlı əlaqə və dinamikanın öyrənilməsidir.

Demokratik dövlət quruculuğu gedişində Azərbaycanda dünyada mövcud olan mədəni inteqrasiya modellərinə və mexanizmlərinə yüksək həssaslıq göstərilməsi, onların təcrübəsinin öyrənilməsinə önəm verilir. Bununla yanaşı, Azərbaycanda mədəni-mənəvi inteqrasiyanın tarixən formalaşmış humanitar mexanizmlərinin dünyaya çatdırılması istiqamətində də işlər görülür. Mədəni siyasət heç bir zaman problemlərin həllinin hazır reseptləri demək deyil, fasiləsiz yeniləşmə və ünsiyyətin baş verdiyi məkanda birgəyaşayış qanunlarının müəyyənləşməsi deməkdir. Burada Azərbaycanın tarixən varisi olduğu kommunikativ təcrübənin rolu əvəzsizdir.

Mədəniyyət bütövlükdə gerçəkliyin, xüsusilə də siyasi gerçəkliyin qavranılmasının özünəməxsus formasıdır. Dünyanın məhz mədəni məkan kimi görmək arzusu və qabiliyyətidir.

Başqaları ilə qüvvə, zor dili ilə deyil, mədəniyyətin dili ilə danışmaq istəyidir.

Amerika alimi S.Benhabibə görə, insanlar yalnız potensial tərəfdaş, müttəfiq olduqlarını dərk etdikləri halda anlaşmaya nail ola bilirlər. Buna görə də "interaktiv universalizm" ideyası dünya siyasətində qəbul edilməlidir *(С.Бенхабиб. Притязание культуры. Равенство и разнообразие в глобальную эру. Пер. с англ. под ред. В.Л.Иноземцева.* M, Логос, 2003, s.39).

Müasir dövrdə dünya təcrübəsində olduğu kimi, beynəlxalq münasibətlər, nəzəri və tətbiqi politologiya və s. ixtisas hallərində "Mədəniyyət siyasəti" adlı istiqamətlərin inteqrativ tədrisi diqqət mərkəzinə gətirilməlidir. Belə ki, əgər müasir dünyanın simasını "humanitar və sosial texnologiyalar" müəyyən edirsə, bu məhz mədəni siyasət deməkdir, mədəni potensialın aşkarlanmasına, mənəvi resursların səfərbər edilməsinə yönəlmiş siyasət deməkdir. Mədəni siyasət təfəkkürün özəl tipi kimi məhz o məqamda gerçəklənir ki, söz möhtəşəm qüvvəyə, ideya gerçəkliyə çevrilir və ya çevrilmək imkanı əldə edir.

Mədəniyyət siyasəti müasir ictimaiyyətşünaslıqda elmlərarası statusa malik sahədir. Siyasi tarix, iqtisadi mədəniyyət, siyasi analitika və siyasi fəlsəfə mədəniyyətşünaslıqla sıx bağlı istiqamətlərdir.

XX əsrin ikinci yarısında baş verən transformasiya proseslərinin elə ilk mərhələsindən məlum oldu ki, bu proseslər siyasi, iqtisadi və sosial sferalarla bahəm mədəniyyətə də güclü təsir göstərəcəkdir. Onilliklər boyu xalqın tanınmasına icazə verilməyən mütəfəkkirlərin adları və əsərlərinin ortaya çıxması, mədəniyyət təşkilatlarının fəaliyyətinin yenidən qurulması, ziyalıların ölkə inkişafının mühüm məsələləri üzrə gərgin



müzakirələrə başlaması və s. – bütün bunlar göstərirdi ki, ictimai-siyasi yeniləşmə prosesləri məhz mədəniyyət sahəsində daha intensiv başlanğıc götürmüşdür.

Yeni iqtisadi münasibətlərin bərqərar olması gedişində qarşıya çıxan çətinliklər, mədəniyyətin idarə olunmasının mərkəzləşmiş inzibati sisteminin dağılması, problemlərin miqyaslı xarakterinə dəlalət edirdi. Bütün bunlarla yanaşı, müstəqillik illərində Azərbaycan xalqı ümummilli lider Heydər Əliyevin başçılığı ilə öz mədəni-mənəvi köklərinə qayıdış, ənənələrin dirçəldilməsi ilə yanaşı, dünya birliyinə inteqrasiya proseslərinin fəal iştirakçısı statusuna da nail oldu.

Müasir dünyada mədəniyyətin rolunun artmasını şərtləndirən amilləri sübut edən prosesləri aşağıdakı kimi qruplaşdırmaq olar:

**Birincisi,** mədəniyyətin funksiyalarının getdikcə artım diferensiasiyası; yalnız qazanılmış olanların saxlanması və yenilərinin yaradılması deyil, həm də ahəngdar mədəni məkanın formalaşması, yeni mədəni (sosial-humanitar) texnologiyaların mənimsənilməsi; təhsilin, elmin humanistləşdirilməsi və s.

**İkincisi,** mədəniyyətin tarixən formalaşmış üfüqlərinin genişləndirilməsi, onun minillərin sınağından çıxan və muasir dəyərlərinin səmərəli istifadəsi, varisliyinin təmin olunması, mədəniyyətlərarası əlaqələrin sıxlaşması, yeni dövrdə mənəvi və etnik-mədəni ənənələrin yeni həyatı, mədəni irsin qorunmasının realist versiyalarının axtarışı;

**Üçüncüsü,** insanın daha ləyaqətli, mədəni təməllərə dayaqlanan həyatının təmin edilməsi, ehtiyacı; kütləvi mədəniyyətin yaratdığı ab-havadan duyulan ümumi narazılıq, yeni, daha dərin qatlara malik mənəvi prinsipləri vacibliyinin dərk edilməsi;

Mədəniyyət insanın mənəvi varlığı kimi yaşadığı məkandır. İnsanın həyatın mənası və məqsədinin fasiləsiz yarandığı, yaşam tərzinin və gediləcək yolun seçildiyi, şüur və dünyagörüşün cilalandığı, saflaşdığı, tarixi tale və yaddaşın hər an xatırlandığı məkan mədəniyyət məkanıdır.

Yeni əsrdə mədəni yüksəlişin yeni üfüqləri açılır. Burada inkişafın aydın perspektivlərinin müəyyənləşdirilməsi mədəni siyasətdə inersiya vəziyyətini istisna edir.

İnnovasion mədəni siyasətin formalaşdırılmasında yalnız mədəni inzibatçılıq sistemi deyil, bütün cəmiyyət birlikdə, mədəniyyətin dəyərini anlayan hər kəs iştirak etməlidir.

Hər bir ölkənin mədəni siyasəti özünün himayəsinə götürdüyü hansı dəyərlər sisteminin inkişafını və bütün dünyaya yayılmasını təmin edəcəyini aşkar dərk etməlidir.

Bəzən belə mövqelərə də rast gəlmək olur ki, radikal plüralizm, ifrat individualizmin bəraət qazandığı dövrdə mədəniyyətin idarə olunmasından danışmaq yersizdir. Burada mədəni siyasət olmadan da ötüşmək olar, mədəniyyət azaddır və idarəetmə subyekti ola bilməz. Bazar iqtisadiyyatı, reklam, tələb-təklif "mifologiyası" hər şeyi özü həll edəcəkdir.

Mövcud qlobal-mədəni şəraitin müşahidəsi göstərir ki, aydın mədəni siyasət və konsepsiya olmadan hər hansı bir xalqın mənəvi-mədəni dirçəlişi, həqiqətən, ümumxalq işinə çevrilə bilməz. Reallığı nəzərə alan və elmi əsaslara söykənən mədəni siyasət:

- mənəvi yüksəlişdə maraqlı olan bütün qüvvələrin birləşməsində maraqlı olmalı;
- bu istiqamətdə istənilən təşəbbüsün dəstəklənməsini təmin etməli;
- bədii-yaradıcı, elmi-akademik və gündəlik adi şüur



müstəvilərdə mədəni fəaliyyətin bütün sahələrini üzvi vəhdətə gətirmək;
- ənənəvi xalq mədəniyyətinin və peşəkar, klassik mədəni dəyərlərə sadiq olmaqla, qazanılmış mənəvi inkişaf səviyyəsinin azalmasına heç bir vəchlə yol verməmək;
- mədəniyyətin təəssübkeş, himayəçi və yaradıcı olan ziyalı obrazının, mədəniyyət xadiminin nüfuzunun yeni tələblər əsasında artırılması;
- ictimai rəyi səmərəli mədəni siyasətin təliminə çevirmək.

## § 9. Mədəniyyətin elektron əsri və mədəni analitika

*XXI əsrin mədəniyyət məkanında baş verən fundamental dəyişikliklər, hər şeydən əvvəl, informasiya inqilabı ilə bağlıdır. Yaşadığımız dünya bu inqilab nəticəsində kibernetik məkan və ya virtual reallıqlar hesabına genişlənmişdir. İlk əvvəl elmi təhlil bu fenomendə informasiya cəmiyyətində virtual məkanın ağalıq etdiyi irrasional sferanı aşkar etmişdir. Lakin müasir cəmiyyət virtual reallığa xalis "işgüzar" mövqedən yanaşaraq onu da öz məqsədləri üçün mövcud olan faydalı sahəyə çevirmək niyyətindədir.*

Virtual reallıq artıq ontoloji fenomen kimi bütün istiqamətlərdə geniş təhlil olunur.

Tarix boyu bəşəriyyət iki "aləmdə" – maddi-fiziki aləmdə (reallıq) və informasiya məkanında mövcud olmuşdur. Sonuncu əfsanə və rəvayətlərdən, bilik, təsəvvür və ideyalardan ibarət idi. Varlığın, aləmin bu iki qatları arasındakı nisbət müxtəlif olmuşdur. Müasir informasiya inqilabı "ikinci aləmin" miqyasını, həcmini və dinamikasını görünməmiş dərəcədə artırmışdır.

XX əsrə qədər insan real münasibətlər dünyasında yaşayırdısa, o vaxtdan bəri artıq genişlənən informasiya məkanında yaşayır. Bu məkanın fəlsəfəsi bundadır ki, müasir insan "informativ varlıq" kimi dünyanı informasiya vasitəsilə



qavrayır və fasiləsiz olaraq virtual ekranın seyrçisi qismindədir.

Ekran – ünsiyyət metaforası olub, həm hər bir insanı səyləri ilə, həm də bütün sosial institutların, başqa subyektlərin fəaliyyəti ilə yönəldilən qarşılıqlı təsir meydanına çevrilmişdir. İnsan bu məkanda seçimində həm azad, həm asılı vəziyyətdədir. Çünki ona təqdim olunanları – informasiyanı seçməlidir. Bu isə müxtəlif maraqlara xidmət edən informasiya ola bilər. Yeniliklər çeşidli: xəbər, siyasi, kommersiya, reklam, sorğu, ictimai rəy, şayiə, təbliğat və s. məzmunlu ola bilər.

XXI əsrin mədəniyyət məkanı insanın davranışına, əhvalına, mentalitetinə, dünya duyumuna hər an təsir göstərən mozaik informasiya reallığıdır. Hadisələr "indi" baş verə bilər, lakin "burada" deyil, başqa yerdə; yaxud "burada" baş verən hadisə, nə "indi", nə heç yerdə, nə də heç zaman olmaya da bilər.

Müasirimiz olan insan dünyanı "onlayn" rejimdə və interaktiv iştirakla dərk edir. Lakin istənilən sosial texnologiya kimi bu sahədə ambivalent məzmuna – həm də güclü sosial-mədəni neqativə malikdir. Neqativin mənbəyi – reallığın təhrif olunmuş, düşünülmüş şəkildə yanlış tərəfdən təqdimatı məqsədini güdən subyektdir. Manipulyativ texnologiyalar "əks effektdən" başlayaraq tətbiq olunur: informasiya mühitinə atılan yalan məlumatlar, bu qəbildən olan yalan şərhlərlə real hadisələri təhrif etməklə intensiv yayılır. Bu üsul əlbəttə ki, yalnız sadəlövh ictimai rəyə deyil, mütəxəssislərin münasibətinə də təsir edir (Dağlıq Qarabağ hadisələri, Sumqayıt hadisələri barədə dünya ictimai rəyin yanlış məlumatlandırılmasını yada salaq).

Ekran reallıq haqqında gerçək həqiqəti nəinki təhrif edə, bu imkana biganə qalan ölkələri yaşadığımız informasiya

məkanından tamamilə yox edə bilər. "Ekranda yoxsansa – dünyada, məkanda yoxsan". Bu məsələnin bir tərəfidir. Çünki informasiya yalnız təhrif edilən deyil, həm də qərəzli ola bilər. Həqiqətə xidmət edən informasiyanın ayırd edilməsi – qlobal, taleyüklü məsələdir. İnformasiyanın alınıb-satıldığı, müəllifinin anonim olduğu vəziyyətdə sübut edilmə statusunu itirməsi acınacaqlı nəticələrə səbəb olur. Çünki mədəni məkana "açılan" informasiyanın maskalanma texnologiyaları çox yüksək inkişaf etmişdir. Digər tərəfdən isə, onun dəfələrlə, yeni-yeni ünvanlara göndərilməsi əsl təşəbbüskarı tapmağa mane olur. Lakın bütün bunlar konkret ünvana çata və müvafiq reaksiya doğura bilir.

Yeni mədəniyyət məkanında, informasiya müharibələrinin səngimək bilməyən şəraitdə ən müasir peşə sahibləri – "informasiya analitikləri" bütün dünyada geniş xidmət şəbəkəsinə malikdir. İnformasiya analitiklərinin peşəkar vəzifəsi – "informasion konsaltinq" xidməti göstərməkdir.

Bizdə bu sahədə vəziyyət necədir? Müasir analitik xidmət şəbəkələri ən müxtəlif qurumlarda, rəsmi və qeyri-rəsmi strukturlarda, KİV-lərdə və s. sahələrdə (dəbə uyğun olaraq) mövcuddur. İctimai rəy televiziyada analitik verilişlər, qəzetlərdən analitik rubrikalar barədə məlumata malikdir. Tez-tez eşidirik: "analitiklərin fikrinə görə...."; lakin bu analitiklərin kim olduğu, onlara etibar edib-etməmək olar ya yox, naməlum qalır.

Əslində, dünya elmində analitik xidmət şəbəkəsini yaradan, siyasi texnologiyaları həyata keçirən mütəxəssislər təbəqəsi mövcuddur. Onların rəsmi peşə təsnifatı, ixtisas və mövzular üzrə qrupları müəyyənləşmişdir.

Məsələn, rəsmi analitiklər siyasi, iqtisadi və s. dövlət



qurumlarında xidmət göstərirlər. İnformasiya və KİV sahəsində analitik agentliklər ilkin mənbələrə əsaslanaraq müxtəlif təyinatlı fəaliyyət göstərirlər. Kommersiya sahəsində analitiklər müstəqil və təhlükəsiz biznes üçün xidmət təşkil edirlər.

Sadalanan sahələrdə vətəndaş cəmiyyətinin, mədəniyyətin formalaşmasının analitik-elmi əsaslarla yönəldən xidmətin olmadığı aşkar görünür. Mədəni məkanda manipulyativ dezinformasiyaya yol verməmək üçün çevik analitik texnologiyaların geniş tətbiqi hələlik arzu səviyyəsindədir. Əlbəttə, bu işi könüllü şəkildə həyata keçirən alim, müstəqil ekspert və başqa sənət adamları var. Lakin burada təşkilatlanmış qurumların yaradılması zamanın tələbidir.

Çünki müasirimiz olan sıravi vətəndaş bu gün ona yönəldilən bütün təsirlər qarşısında "əliyalın" vəziyyətdədir. Onun əhatəsindəki informasiya məkanı və dünyagörüşü, mənsub olduğu mədəni dəyərlər, qəlbi və ruhu uğrunda fasiləsiz informasiya müharibəsi meydanını xatırladır. Ekranın "bu tayında" yerləşən vətəndaş, informasiya təhlükəsizliyi baxımından "yüksək riskə məruz qalanlar" qrupuna aid edilə bilər. Bu riskin azaldılmasından yüksək informasiya təhlili mədəniyyətinə, sonuncuya nail olmaq isə mədəniyyət siyasətinə xidmət edən analitik kadrlara malik olmaq lazımdır.

Manipulyativ texnologiyalar, adekvat-simmetrik cavab tələb edir. Azərbaycan vətəndaşı bu gün müstəqil informasiya əldə etmək azadlığına malikdir. Lakin o, müstəqil təhlil qabiliyyətinə, öz informasiya təhlükəsizliyini təmin etməyə malikdirmi? Bu sualın birmənalı cavabı yoxdur. İnformasiyadan düzgün bəhrələnmək mədəniyyəti hələlik təşəkkül mərhələsindədir. Burada dövlətin həssas diqqət və qayğısına rəğmən müvafiq mədəni siyasət həyata keçirilməlidir. Demokratik

cəmiyyətdə vətəndaşların analitik mədəniyyəti səviyyəsi – dövlətin siyasətinin səmərəliliyi, şüurlu sosial tərəfdaş əldə etmək deməkdir.

Cəmiyyətdə analitik mədəniyyətin inkişaf etdirilməsi – uzunmüddətli, gərgin bir prosesdir. Yeni məkanda davranışın əsaslarından başlayaraq, təcrübə və məktəblərin formalaşması isitiqamətində ardıcıl iş aparılmalıdır.

Qərbdə analitik təcrübə uzun zaman müddətində əldə edilmişdir. Burada sosial texnologiyaların mükəmməlləşməsi, hüququn nizamlanması, "çirkli" texnologiyalara qanunla qadağa qoyulması, peşə etikasının, müstəqil ekspertlər institutunun formalaşması, vətəndaş cəmiyyətinin analitik mədəniyyətini yüksəltməyə xidmət edir.

Gərgin həyat situasiyalarında konsaltinq (məsləhət) xidmətinin təşkili, mədəni maarifləndirilmə sisteminin fəaliyyəti məhz bu istiqamətə yönəlmişdir.

Bu gün formalaşan yeni məkan, yeni tipli analitik xidmət tələb edir. Əsas məsələ burada maraqlı olan, ekspert biliyə və təcrübəsinə əsaslanan texnoloq-mütəxəssislərin könüllü təşəbbüsünə təkan vermək, onlara dövlət dəstəyini təmin etməkdir. Hər bir mədəni informasiyanın maksimal interpretasiyası, məramı və məqsədi sonuna qədər açıqlanmalıdır. İctimai rəyə ünvanlanan, onu inandıra bilən yeni – kütləvi analitika üsulları yaradılmalıdır. Bu son nəticədə milli-mədəni təhlükəsizliyin təminatı ilə bağlıdır.

Belə bir deyim vardır: reallığı dəyişdirmək mümkün deyilsə, ona olan münasibətimizi dəyişməliyik. Bu məntiqə əsaslansaq, reallığın tələbləri belədir: Əgər vətəndaş üçün ideal, mədəni-mənəvi mühiti yaratmaq imkanı yoxdursa, əgər bu məkan ziddiyyətli, manipulyativ texnologiyaların döyüş



meydanına çevrilibsə, onda insanın bu vəziyyətin qurbanına deyil, proseslərin gedişatını nəzarətdə saxlaya bilən, mədəni fəaliyyətin aktiv və düşüncəli obyektinə çevrilməyə hərtərəfli kömək etməliyik.

## § 10. Mədəni inteqrasiyanın humanitar mexanizmləri və konsepsiyaları

*(İnkişaf etmiş ölkələrin təcrübəsinə nəzər)*

*Bu gün Avropanın öz sivill dəyərlərinin tarixi varisliyini və Qərb demokratiyasının həyatiliyini sübut etmək üçün çoxsaylı problemlər ortaya çıxmışdır. "Qızıl milyard" ölkələrinə kütləvi işçi qüvvəsi axını ilə bağlı ortaya çıxan kompleks problemlər Qərbdə cəmiyyəti və siyasi elitanı narahat edən başlıca məsələdir.*

Ölkənin iqtisadi inkişafı üçün zəruri resurs olan işçi qüvvəsi, qəbul edən ölkədə sosial sabitlik və milli identiklik üçün təhlükə yaradan amilə çevrilmişdir. Başqa mədəni – sivil ənənələrin daşıyıcısı olan insanların Qərb cəmiyyətinə inteqrasiya perspektivləri Qərbdə bu gün siyasi gündəlikdə duran problemdir.

Müasir Qərbdə heç bir siyasi elita mədəni inteqrasiya probleminə biganə qala bilməz. Bu problemin həlli mexanizmlərinin müəyyənləşdirilməsi milli inkişafın təhlükəsizliyinin təminatı ilə birbaşa bağlıdır.

İnkişaf etmiş ölkələrdə müxtəlif ənənə nümayəndələrinin cəmiyyətə sosial inteqrasiyası yalnız hakimiyyətin yüksək eşelonlarında və kütləvi informasiya vasitələrin deyil, həm də qərb ictimaiyyatşünaslığının elmi tədqiqatlarının diqqət mərkəzində olan ən gərgin mövzudur. Londonda Sosial siyasətin



tədqiqi İnstitutunun (İnstitute for Public Policy Reseanch) əməkdaşlarının məlumatına görə, İngiltərədə milli identiklik, mədəni müxtəliflik və interasiya problemlərinin təhlili elmi ictimaiyyətin apardığı tədqiqatların magistral istiqamətini təşkil edir. İnstitutun fəaliyyəti cəmiyyətdə ictimai-siyasi müzakirələrin mövzusunu təşkil edir. Bu baxımdan inkişaf etmiş ölkələrdə toplanmış təcrübə ilə tanışlıq və perspektivlərin qiymətləndirilməsi, mədəni inteqrasiyanın nizamlanması modellərinə və mexanizmlərinə dair ən ümumi təsəvvürlərin əldə edilməsi Azərbaycanda ictimai elm üçün önəmlidir.

Qlobal miqrasiya prosesləri öz təsəvvürəgəlməz miqyası ilə bütün qitələri, ölkə və bölgələri əhatə edərək müasir dünya inkişafının ayrılmaz təzahürünə çevrilir. Miqrasiya axınlarında demək olar ki, hər şey: insanlar, peşələr, mədəniyyətlər, dünyagörüşlər, münasibətlər və s.də bir-birinə qarışmışdır.

Rəsmi statistikaya görə bu gün dünyada işləyən miqrantlar (ailə üzvləri də nəzərə alınmaqla) 120 miyonu əhatə edir. Hər il Avropa Birliyi ölkələrinə 2 milyon insan gəlir. Avropa ölkələri vətəndaşlarının 5 milyon nəfəri hər il öz ölkələrinin hüdudlarından kənarda yaşayır. Zəncirvari xarakter daşıyan miqrasiya axını bütün dövlətlər qarşısında sosial-mədəni, siyasi, hüquqi məzununa əlavələr edilməsini şərtləndirmişdir. Zamanın bu mühüm çağırışına dünya birliyi cavab verməlidir. Mədəni inteqrasiya siyasətiin hərtərəfli konsepsiyasının olmaması və həyata kerilməməsi nəticəsində "qeyri-adaptiv strategiya sosial-siyasi sabitliyə təhlükə yaradır" (*Михайлов С. Этнические миграционные волны и проблемы социально-политической стабильности. М, 1995*, s.38).

Qloballaşma prosesləri mədəni diferensiasiyanın dayanıqlı formalarına təsir göstərir.

İnsanların mədəni birliyinin ənənəvi (etnik, konfessional) həmrəyliyinin yeni formaları ortaya çıxır. İnteqrasiya, humanitar və əmək miqrasiyasının intensivləşməsi mədəniyyətlərarası münasibətləri gərginləşdirir. Mədəni amillərdən qaynaqlanan (milli, dini, irqi) münaqişələr qlobal xarakter kəsb edir.

XX əsrdə belə gərgin münaqişələrin "üç dalğası" ayırd edilmişdir. Birincisi, 1950-1977-ci illər arasında müstəmləkəçiliyin iflası ilə şərtlənən etnik dirçəliş dalğası olmuşdur. Zaman keçdikcə bu dalğa Asiya və Avropanın yeni dövlətlərindən, Avropa və Amerikaya adlamışdır. Kanadada Kvebek, ABŞ-da hindular, İspaniya basklar və kataloniyalılar, Belçikada flamandlar və s. gərginlik dalğasına qərq olmuşdur. Burada maraqlı cəhət o idi ki, həmin dövrdə qərb iqtisadiyyatı yüksəliş dövrünü yaşayırdı.

İkinci dalğa XX əsrin 80-ci illərinə təsadüf edir və ilk növbədə, qərbi Avropanı bürümüşdür. Burada neft böhranından sonra baş verən iqtisadi ziddiyyətlər ən çox immiqrant qruplarını zərbə altında qoymuşdur. Kütləvi miqrant axınına bölgə davam gətirə bilməmişdir.

Milli və dini gərginliyin üçüncü dalğası 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərinə təsadüf etmişdir. Həm sosializmin çökməsi, həm də növbəti neft böhranı yenidən gərginliyə səbəb oldu. İnkişaf etmiş ölkələrin neftdən asılı olması, onu ixrac edən dövlətlərdə milli və dini əsaslar üzərində birliyin möhkəmlənməsini şərtləndirdi. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra ABŞ-ın antiterror fəaliyyəti də üçüncü dalğanın yüksəlişinə təsir göstərdi.



Müasir dünyada inkişaf etmiş ölkələrin heç bir etnik, dini və irqi azlıqların cəmiyyətə inteqrasiyası probleminin tam həllinə nail ola bilməmişdir. Hətta dünyada "immiqrant milləti" kimi səciyyələndirilən ABŞ-da da əhalinin əksəriyyəti işçi qüvvəsi axınını müsbət qəbul etmir. "1995-ci ildən 2000-ci ilə qədər ardıcıl aparılan sosial sorğulara görə miqrasiya müsbət yanaşmaların payı heç vaxt 12 faizi ötməmişdir. Əksinə, bunun əleyhinə olanların nisbəti də heç vaxt 35 faizdən aşağı olmamışdır və hətta XX əsrin 90-cı illərində 65 faizə qalxmışdır, son illər isə ölkədə ingilisdilli əksəriyyətlə ispandilli azlıqlar arasında gərginlik artır" *(С.Хантингтон. Кто мы? Вызовы Американской национальной идентичности. М., 2004, s.514).*

Fransada 2005-ci ilin noyabr hadisələri, kütləvi iğtişaşlar, bu ölkədə tətbiq olunan "unitarist – vətəndaş modeli"nin qüsurlarını aşkara çıxartdı. Burada hələ XX əsrin 30-cu illərindən tədqiqatçı alimi M.Hansenin təhlil etdiyi və "Hansen qanunu" kimi məlum olan qanunauyğunluq özünü kəskin göstərdi. M.Hansenə görə "Birinci və ikinci nəsil immiqrantlarının unutmağa çalışdıqlarını üçüncü nəsil tam qüvvəsi ilə xatırlayır və heç bir vəchlə unutmur" *(M.Hansen. The problem of Third Generation İmmiqrant. – Rosk İsland, 1938).* Yəni "nəvə" miqrantlar, ölkədəki imkanlarının qeyri-bərabər şərtlərindən narazıdırlar. Vətəndaş kimi doğulanları ölkədə yerli əhali ilə eyni hüquqlara malik olduqları halda bunun əksini görürlər. "Ana və baba"larının "əsl fransız" olmaq arzusu onlar üçün artıq önəmli deyil və onların üz döndərdiyi etnik, milli ənənələri daha qabarıq göstərməyə cəhd edirlər.

Dünyada müxtəlif mədəni-milli azlıqlara dözümlü

münasibətin nümunəsi kimi misal çəkilən Hollandiyada da cəmiyyətə inteqrasiya prosesləri idealdan çox uzaqdır. XXI əsrin əvvəllərində artıq dözümsüzlük mövqeyi göstərən siyasi qüvvələr bu ölkədə seçkilərdə 20 faiz və s. toplayır və parlamentdə liderliyə iddia edir.

Hər halda müasir dünyada miqrasiya prosesləri, onun doğurduğu "yeni azlıqlar" problemi və cəmiyyətə sosial-mədəni inteqrasiyası sahəsində müəyyən təcrübə toplanmışdır.

Hazırda dünyada beynəlxalq miqrantların sayı 200 milyona, yer kürəsinin ümumi əhalisinin tərkibində isə 3 faizə çatmışdır. İslandiya tərkibində istisna olmaqla, bütün inkişaf etmiş ölkələr polikultur və immiqrasion tərkibli olmuşdur. "Birinci qrupa: İngiltərə, Fransa və Hollandiya, İkinci qrupa: Avstriya, Belçika, Danimarka, Almaniya, İsveç daxildir" *(Социо-культурные источники экономического развития. М., 2005, s.76).*

Qeyri-mədəniyyətə mənsub olan insanların cəmiyyətə inteqrasiya olunmaması sosial tənhalıq, boşluq yaradır. Bu boşluğu yalnız ünsiyyət və dəyərlər sistemi doldura bilər.

Aparılan tədqiqatlar nəticəsində aydın olur ki, cəmiyyətin bütün təbəqələri arasında inteqrasiyaya nail olunması ünsiyyət məkanına, praktiki siyasi mexanizmlərə yenidən baxılmasını və düzəlişlər edilməsini tələb edir.

Avropanın bütün ərazisində başqa mədəniyyət nümayəndələrinin müxtəlif məişət ənənələri, dini əsaslar zəminində konsolidasiyası prosesi gedir. Dövlətin inkişaf problemlərini miqrasiya hesabına təmin etmək bir çox Avropa ölkələrində siyasətin prioritet məsələlərindəndir.



Lakin onu həyata keçirmək çoxlu çətinliklərlə bağlıdır. İlk növbədə, sosial-mədəni adaptasiya və inteqrasiya mexanizmlərinin işə salınması tələb olunur.

XX əsrin sonlarında tolerantlıq potensialına görə öndə gedən Niderland, İsveç və Danimarka kimi ölkələrdə radikal siyasətçilərlə bağlı hadisələr, 2006-cı ilin karikatura qalmaqalları əldə olunmuş dözümlülük səviyyəsinin çox kövrək olduğunu göstərdi.

Baş verən qlobal sosial və siyasi transformasiyalar bütün dəyişikliklərin mədəni amillərdən asılılığını (determinasiyasını) bir daha nümayiş etdirdi. Bu vəziyyət mədəni determinasiyanın mütləqləşdirilməsi kimi mövqe və baxışları da (məs: S.Hantinqton), onu heçə endirən nəzəriyyələri də ortaya çıxardı. Milli identiklik, mədəni müxtəliflik, tolerantlıq, inteqrasiya-atomizasiya, dialoq və s. anlayışları ictimai elmin diqqət mərkəzinə gətirdi.

Başqa mədəniyyət nümayəndələrinin yerli cəmiyyətə inteqrasiyasını nizamlamağın milli modelləri bütün dünyada müşahidə edilə bilər. Bu istiqamətdə dövlət siyasətinin ilk addımı milli miqrasiya qanunvericiliyinin hüquqi nizamlanması olmuşdur.

Ən çox irəli sürülən tələblər seçilən ölkənin dövlət dilini bilmək, onun tarixi-mədəni və hüquqi ənənələrinə bələd olmaq və həmçinin bütün bunlara əməl etmək öhdəliyini üzərinə götürməkdir.

Çoxşaxəli inteqrasiya prosesinin vətəndaş cəmiyyəti şəraitində sosial-mədəni modelinin, qarşıdurma və zor tətbiqinə əsaslanan mədəni imperiya-müstəmləkə modeli ilə müqayisədə yeganə alternativ olduğu bu gün birmənalı etiraf edilmişdir.

Bu gün həm Şərqdə, həm də Qərbdə elmi təhlil və tarixi təcrübə göstərir ki, "insanlar mədəni-etnik özünəməxsusluqla vətəndaşlıq arasında seçim zərurəti qarşısında durmur. Bu sosial birlik, identiklik formaları ahəngdar mövcud ola bilər. Lakin bir şərtlə, vətəndaş cəmiyyətinin qurumları inkişaf etmiş olsun" (*Доклад о развитии человека. 2004. культурная свобода в современном многообразном мире. М., 2004, s.4*).

Vətəndaşlıq və mədəni identikliyin birgə mövcudluğu üçün, ölkədə ən müxtəlif mədəniyyət nümayəndələrinin özlərini cəmiyyətin bərabərhüquqlu üzvü kimi aparmasına imkan verən institusional mühit olmalıdır. Vətəndaş birliyi mədəni inteqrasiya problemlərini birdəfəlik həll etmir. Bu problem həm demokratik, həm də avtoritar cəmiyyətlərdə mövcud olur. Lakin demokratik dövlət müxtəlif xalq və mədəniyyətlərin vətəndaş cəmiyyəti çərçivəsində inteqrasiyasını təkmilləşdirməyə daim səy göstərir və göstərməlidir.

Modernləşmə mərhələsindən başlayaraq, sosial mədəni inteqrasiya və milli identikliyin nisbəti probleminin həllində üç əsas konsepsiya – model sınaqdan keçirilmişdir. Tarixi baxımdan ilk əvvəl "mədəni assimilyasiya" konsepsiyası hələ Fransa inqilabı dövründə yaranmışdı və belə şüar da ifadəsini tapmışdı: "Bir ölkə, bir xalq, bir dil". Bu təbii ki, başqa birliklərin yox edilməsini deyil, vətəndaş hüquqlarının bəyan edildiyi bir şəraitdə, mədəni identikliyin assimilyasiyaya uğramasını nəzərdə tuturdu. Bu mərhələdə ABŞ inteqrasiya modeli də assimilyativ məzmunlu olmuşdur.

İnsanlar həm vahid ingilis dili, həm də "ağ protestant əhalinin" əksəriyyətinin mənsub olduğu mədəni normaları mənimsəməklə vətəndaşlığı qəbul edirdilər. Bu dövrdə üç dili dövlət dili kimi qanunilәşdirən İsveçrə modeli istisna olmaqla, əksər Qərb ölkələrində assimilyasiya modeli üstünlük təşkil edirdi.



Zaman keçdikcə bu modelin "mədəni imperializm və mədəni hegemoniya kimi" səciyyələndirən konsepsiyalar ortaya çıxdı. Əksər hallarda assimilyasiya heç zaman arzu olunan nəticəyə gətirib çıxarmamışdır, bəzən isə tamam "qarışıb yol olması" zənn edilən mədəniyyətlər yenidən dirçələrək labüd müqavimət mənbəyinə çevrilmişdir.

XX əsrin ikinci yarısından bu model həm ictimai rəydə, həm də elmi tədqiqatlarda mənfi qiymətləndirilməyə başladı. Beynəlxalq rəsmi qurumların sənədlərində vurğulandı. BMT-nin qeyd edilən 2004-cü ilin insanın mədəni inkişafına həsr olunan məruzəsində deyilir: "Əgər XX əsr nəyi isə sübut etdisə, bu, hər şeydən əvvəl, mədəni identikliyi ləğv etmək və ya sıxışdırmaq cəhdlərinin kəskin müqavimət doğurması kimi həqiqətin sübutudur. Əksinə, mədəni müxtəlifliyin tanınması həmişə gərginliyin azaldılmasına səbəb olur".

Bu ya başqa şəkildə, hazırda inkişaf etmiş ölkələrin əksəriyyəti mədəni assimilyasiya siyasətindən inkar etmişdir. Yalnız Fransa, Avropa Birliyi ölkələrindən və ABŞ-dan fərqli olaraq, mədəni federalizm siyasətini deyil, mədəni tsentralizm" (mərkəzçilik) siyasətini həyata keçirir. Burada etnik-milli sosial birlik forması qəbul edilmir. Yalnız vətəndaşlar var və onlar hamısı – fransızlardır. Fransa Avropa Birliyini "Milli azlıqların müdafiə edilməsinə dair" Çərçivə Konvensiyasını və bu məzmunlu digər bey-

nəlxalq sənədləri imzalamayan yeganə ölkədir. Lakin bu mövqe ölkəni nə Korsika separatizmindən, nə qapalı dini, etnik birlik formalarının mövcudluğundan, nə də şovinist-yönlü siyasətçilərə seçicilərin dəstəyindən azad etmir.

Demokratik inkişaf yolunu seçmiş əksər ölkələrdə mədəni assimilyasiya ideyasının, mədəni müxtəlifliyin dəstəklənməsi, yaxud multikulturalizm konsensiyası əvəz etmişdir. Bu ideya hələ 1951-ci ildə Yunanıstanın Konstitusiyasında dolayısı ilə əks olunmuşdu. Lakin multikulturalizm rəsmi bəyan edildiyi ilk ölkə Kanada olmuşdur (1971-ci il). Sonradan Avstraliya (1973), İsveç (1975) bu xətti davam etdirmişdir. Bundan başqa ABŞ-da qəbul edilən "siyasi ədəb" (political correctness) doktrinası bəyan edir ki, "bu ölkə insanların mədəni müxtəlifliyinə böyük dözümlülüyün tərəfdarıdır" *(Диалоги об этничности и мультикультурализме. M., 2005, s.38).*

Bu və ya başqa şəkildə multikulturalizm bir çox Qərb ölkələrinin və İngiltərənin siyasi praktikasına daxil olmuşdur.

İnsanların həm vətəndaş, həm də milli-etnik hüquqlarının dəstəklənməsini tədqiq edənlərin fikrinə görə, "multikulturalizmin alternativi mövcud deyildir" *(Мультикультурализм и трансформация постсоветских обществ. M., 2002, s.36).*

Bununla yanaşı, bu ideya müasir dövrdə mədəni inteqrasiyanın ən çox mübahisələr doğuran modeli kimi tanınmışdır. Bu təbiidir. "Siyasi dövlət, milli dövlət və sosial dövlət" kimi anlayışların məzmununda insanların birliyini təmin edən amillərin vəhdətini təşkil edə biləcək modelin müəyyənləşməsi asan məsələ deyil. Ənənəvi birlik



ideallarının məzmunu zənginləşməli və tamamlanmalıdır. Ən ümumi aspektdə multikulturalizm siyasi ideologiya və sosial-mədəni praktika kimi, milli dövlət üçün ümumi olan siyasi, sosial və hüquqi məkanı dəstəkləyən ideya kimi qəbul olunur. Başlıca məqsəd, çeşidli mədəni, etnik və dini oriyentasiyalara malik olan insanların, birlik və qrupların, fərdlərin birgəyaşayışını və inteqrasiyasını təşkil etməkdir. Söhbət fərqli dəyərlərin, təsəvvür və ənənələrin, həyat tərzlərinin vətəndaş cəmiyyəti çərçivəsində bir araya gəlməsi mexanizmlərinin bərqərar olmasından gedir.

Hər halda, heç bir ölkədə multikulturalizm xalis formada mövcud deyil və müxtəlif təzahürlərlə, əks meyillərlə qiymətlənmiş şəkildədir.

Kanadada bu konsepsiyanın dövlətin rəsmi siyasəti kimi vurğulanması XX əsrin 70-ci illərində Fransanın və ingilis dilli əhalinin qarşıdurması zəminində diqqət mərkəzinə gəlmişdir.

Digər ənənəvi immiqrasiya ölkəsi sayılan Yeni Zelandiyada dövlət siyasətinin prinsipi kimi *bikulturalizm* bəyan edilmişdir. Bu modelə görə milli identikliyin məzmunu iki mədəniyyətin – yerli maori xalqı ilə avropalı immiqrantlar nəsli arasındakı inteqrasiya münasibətləri ilə müəyyən olunur.

Ən kütləvi işçi qüvvəsi axınını müşahidə edilən ölkədə – ABŞ-da, 2005-ci ildə rəsmi qeyd olunan miqrantlardan əlavə yeddi milyondan (dövlət statistikasına əsasən) 12 milyonadək (elmi mərkəzin hesabatına görə) qeyri-leqal miqrant yaşayır.

Dövlət siyasətinin mühüm istiqamətlərindən birini sosial-mədəni baxımdan əlverişsiz vəziyyətdə olan qruplara

"pozitiv diskriminasiya" mövqeyindən dəstək verilməsi olmuşdur. Bu prinsipə görə, dövlət qulluğuna, polisə, yerli idarəetmə orqanlarına, ali təhsil sisteminə işə qəbul zamanı həmin qruplara üstün imkanlar yaradılır. Lakin pozitiv diskriminasiya əks mövqe və tənqidi müqavimətlə qarşılaşmışdır.

Amerika cəmiyyətinin obyektiv mənzərəsini əks etdirsə də, multikulturalizm burada milli-mədəni inteqrasiyanın əsas ideologiyasına çevrilə bilməmişdir.

Hər şeydən öncə, ona görə ki, fərdi identiklik aspekti, qrup identikliyindən həmişə öndə olmuş, ondan üstün tutulmuşdur. Amerika xalqı mədəni etnik birliklərin deyil, vətəndaşların "ümumi evi" kimi təsəvvür edilir. XX əsrin sonlarından ispandilli əhalinin kütləvi axını bu ənənəni dəyişməyə vadar etmişdir. Latın Amerikası mədəni ənənəsinin daşıyıcıları, "amerikalı" olmağa tələsmir, vətənlə bağlı humanitar-mədəni layihələri həyata keçirirlər. ABŞ-ın 30 şəhərində meksikalıların 600 assosiativ birliyi əlaqəli fəaliyyət göstərir. Dil və mədəniyyətin öyrənilməsi üçün İspaniyadan mütəxəssislər dəvət olunur.

ABŞ-ın müsəlman əhalisinin sayı 6 milyonu ötməkdədir. Ölkədə 1751 islam assosiasiya və təşkilatları (mərkəzlər, məscidlər, məktəblər, müsəlman icmaları və s.) fəaliyyət göstərir. Ən çox müsəlman Nyu-Yorkda məskunlaşmışdır (bir milyona yaxın). Asiya mənşəli müsəlmanlar 32 faiz, avroamerikanlar 29 faiz təmsil edir. Əksəriyyət elektron sənayesində, kompyuter texnologiyaları sferasında, maşınqayırma sahəsində məşğuldur, yəni yüksək ixtisasa malikdir *(М.Ба-Юнус, К.Конс. Американские мусульмане. Демографический отчет. // Мусульмане в*



*публичном пространстве Америки. М., 2005, s.406-409).*

ABŞ-da mədəni inteqrasiya dinlərarası dialoq səviyyəsində, xristian və yəhudilərlə dialoq yolu ilə təşkil edilir. Bir çox şəhərlərdə onlar birlikdə fəaliyyət göstərirlər.

İngiltərədə "ümumi rifah dövlətinin" yaradıldığı dövrdə müxtəlif mədəniyyət vəhdəti ideyası gündəmə gəlmişdir. Sosial-mədəni, etnik birliklərin mədəni təşəbbüsləri yerli qurumlar (communities) tərəfindən dəstəklənir, onların təmsilçiləri təhsil və səhiyyə sisteminə göndərilirdi. Bu ərəfədə dini məktəblərin (faith scholls) sayı çoxaldı. Burada dövlət təhsil sisteminin standartlarına riayət olunur, maliyyələşmə dövlət büdcəsindən aparılırdı. 2005-ci ildə hər üçüncü ibtidai məktəb və beşinci orta məktəb (o cümlədən 62 müsəlman məktəbi) bu sistemdə işləyirdi *(И.Бэгби. Мечеть и публичное пространство. М., 2004, s.418; həmçinin, B.Alvarez–Miranda. Muslim comminities in Europe. Recognition of Religions difference in Britain, Germany and France. 2005).*

Bu qəbildən olan təhsil müəssisələrinin böyük əksəriyyəti ingilis kilsəsinin himayəsi altındadır. Tədqiqatçıların fikrinə görə, bu münasibətlər mədəni icmaların qarşılıqlı inteqrasiyasına kömək edir, bələdiyyələrin ayırdığı ünvanlı, məqsədli yardım proqramları, dini-mədəni mərkəzlərin dəstəklənməsi fəal dialoqa xidmət edir.

İngiltərənin paytaxtı London şəhərində əhalinin otuz faizi "ağ dərili" deyil, Birmingemdə yaşayanların 50 faizi müsəlmanlardır. İngiltərədə 700 mədrəsədə 100 min nəfər təhsil alır *(J.Klausen. The islamic challenge. Politics and religion in vestern Europe. Oxford University Press, 2005, s.136).*

1980-ci illərə qədər Britaniya parlamentində etnik azlıqların təmsilçiləri olmamışdır. Yalnız 1987-ci ildə leyboristlər partiyasından dörd nəfər və onların da iki nəfəri müsəlman icmasını təşkil edirdi. İngiltərə dünyaya ən açıq ölkə kimi tanınır. Burada bir milyarda yaxın insan vizasız ölkəyə daxil olmaq hüququna malikdir. Hər il ölkəyə gələn 300 min xarici tələbənin yüz mini Asiya ölkələrindəndir.

2002-ci ildə "Milli mənsubiyyət, immiqrasiya və sığınacağa dair "Qanun" qəbul edilmişdir. Vətəndaşlıq almaq istəyənlər ölkəyə və Britaniya monarxiyasına sədaqət andı içməlidirlər, ölkə tarixini yaxşı bilməlidirlər. 2006-cı ildə Qordon Braun, indiki baş nazir, cəmiyyətdə inteqrasiyanı fəallaşdırmaq məqsədi ilə, tolerantlıq və patriotizm simvolu olan "Britaniya günü" milli bayramını təsis etmişdir.

"Britaniya özünü Avropa ailəsinin üzvü kimi görür, yoxsa "anqlo sakson (ABŞ) istiqamətinə meyillidir?" bu çox ciddi sualdır. Ölkə əhalisinin 80 fazi Avropa məkanına ehtiyatla yanaşır. "Britaniyada siyasətin gələcəyi Avropanın, yoxsa ABŞ-ın xeyrinə seçim ediləcəyindən birmənalı asılıdır. İraq müharibəsi hadisələri göstərdi ki, ABŞ-la "xüsusi isti münasibətlər" İngiltərənin Avropada və islam dünyasında maraqlarına, nüfuzuna xələl gətirmir" *(A.Camble. Between Europe and America. The future of British Politics. 2003, p.231).*

2001-ci il sentyabr hadisələrindən və Londonda silsilə terror aktlarından sonra cəmiyyətdə mədəni-milli inteqrasiya problematik xarakter daşıyır. İnteqrasiya siyasəti sosial diskriminasiyanın aradan qaldırılmasına yönəlmişdir. 2005-ci il London metrosunda partlayışlardan sonra ictimai rəydə multikulturalizm praktikası ciddi tənqid hədəfinə



çevrilmişdir. Lakin 62 faiz ingilis və 82 faiz müsəlman əhali başqa mədəniyyət təmsilçilərinin cəmiyyətə inteqrasiyasının vacibliyini dəstəkləyirlər. İngilislərin üçdən iki faizi və müsəlman əhalinin 74 faizi multikulturalizm siyasətinə yenidən başlamasının əleyhinədirlər. 2005-ci ildən miqrant və qaçqın statusuna nəzarət sərtləşdirilmişdir.

Ümumiləşdirilmiş vəhdət kimi qeyd edilsə də, hazırda bütün Avropada sosial-mədəni inteqrasiyanın milli modellərinə və humanitar mexanizmlərinə yenidən baxılır. Son illərə qədər Avropada tolerantlıq nümunəsi kimi Hollandiya təcrübəsi misal çəkilirdi. İnsan hüquqları ideologiyasının ardıcıl reallaşdırılması sənaye inqilabı ərəfəsində bu ölkədə dini-etnik zəmində qarşıdurmanı aradan qaldırmışdı. Ölkə multikulturalizm siyasətini ən fəal tətbiq edənlərdən olmuşdu.

1990-cı illərdə ölkə əhalisinin tərkibində qeyri-hollandiyalıların sayı yüksəlmişdi. Sağ düşərgənin siyasətçiləri ölkənin islamlaşdırılması qorxusundan danışırdı. Sağ radikal siyasəti P.Forteynin və rejissor Teo Van Qoqun öldürülməsi, qeyd olunan karikatura qalmaqalları intellektual elitanın rəyinə təsir göstərmişdir. Bu vaxta qədər immiqrantlar barədə söylənilən istənilən fikir irqi zəmində qərəz kimi qiymətləndirilirdisə, artıq dövlət həddən yumşaq multikultura siyasət yeritdiyi vurğulanırdı.

2002-ci ildə sosial-mədəni inteqrasiyaya dair parlament komissiyasının hesabatında xüsusilə də müsəlman əhaliyə münasibətdə multikultural siyasətin iflasa uğradığı rəsmi bəyan edildi. Burada da xüsusi vurğulanırdı ki, inteqrasiya dövlətin maraq və təşəbbüslərinin ziddinə baş vermişdir. "Hollandiyanın təcrübəsi istər Avropada, istərsə də

müasir dünyada baş verən transformasiya və problemlərin təzyiqi nəticəsində ictimai rəydə və dövlət siyasətində inteqrasiyanın nəzəriyyə və praktikasına yenidən baxılmasına ən qabarıq nümunədir. Bunun səbəblərindən biri, F.Fukuyamanın fikrinə görə, Avropada bərqərar olmuş dünyəvi dəyərlərlə, milli praktika və dini dəyərlər arasında baş verən ziddiyyətlə bağlıdır" *(F.Fukuyama. A.Year of Leaving Dangerounsly. Remember Theo Van Gogh. 2005, p.81).*

Belçikada inteqrasiya problemi dövlət siyasətində mühüm yer tutur. İnteqrasiya proseslərinin hüquqi nizamlanması və göstəricilərinə görə Belçika Avropa Birliyi ölkələri arasında liderlik edir. İslam dini hələ 1974-cü ildə burada rəsmi dinlərdən biri elan edilib və dini qurumlar dövlət tərəfindən dəstəklənir. Sosial-mədəni inteqrasiyanın reallaşması konkret qurumlara həvalə olunur. 2005-ci ildə Müsəlman cəmiyyəti Komitəsi təsis edilmiş və hakimiyyət orqanlarında müsəlmanların maraqlarını təmsil etməyə xidmət edir.

İrlandiya mədəniyyətlərarası dialoq və irqçilik problemlərinə dair Milli Komitə fəaliyyət göstərir. Komitə ictimai rəy və müzakirələrin keçirilməsi ilə inteqrasiyanı stimullaşdıran amilləri üzə çıxarmağa çalışır. İsveçrə inteqrasiya siyasəti, dövlətin mövqeyinə görə, ümumən, insan hüquqları çərçivəsində aparılmalıdır və mədəni-etnik birliklərə özəl səlahiyyətlərin verilməsi demək deyil. İnsan hüquqları ideologiyası Danimarkada da qeyd-şərtsiz qəbul edilir və demokratiyanın ən ali göstəricisi hesab edilir. Məlum karikatura qalmaqalı bu ölkədə söz azadlığının hədləri və sərhədləri problemini gündəmə gətirdi.



Fransada inteqrasiyanın individual aspekti önəmli olduğu üçün, etnik mədəni birliklər multikultural siyasətin obyekti kimi ayırd edilməmişdir. Fransanın çoxmilyonlu müsəlman əhalisindən ölkə parlamentində heç kim təmsil olunmur. Əhalinin etnik və dini mənsubiyyəti haqda statistika aparılmır. Hesab olunur ki, bu göstəricilər inteqrasiya strategiyasının reallaşmasına mane olur. Fransada baş verən son hadisələr problemlərin dərinliyini nümayiş etdirir. Burada başqa mədəniyyət təmsilçilərinin, məşhur sosioloq və filosof Pyer Burdye, Sokratın "atopos" – "məkansız" sözü ilə səciyyələndirir.

XX əsrin 90-cı illərində Almaniya da özünün immiqrasiya ölkəsi olduğunu dərk etdi. Yeni yüzillikdə multikulturalizm siyasətinin icrası əksər Avropa ölkələrinin qanunvericiliyi ilə uyğunlaşdırılmışdır.

Dünyanın inkişaf etmiş ölkələri içərisində, millətin etnik əsaslar üzərində konsolidasiyasını təmin edən dövlət siyasəti Yaponiya ilə müqayisə edilə bilməz.

Hələ 1986-cı ildə baş nazir Y.Naka Sone Yaponiyanı aşkar şəkildə "bir irqin, bir millətin ölkəsi" adlandırmışdır.

Yaponiyanın dövlət siyasətində başqa etnik birliklərə yer olmadığını nəzərdə tutan "monoetnik millət" ideyası bu gün də üstünlük təşkil edir. Qeyri-yapon əhalinin sayı 3,2 və 4,8 faiz arasındadır. Hətta XX əsrin ortalarında ölkəyə yaşamağa gələnlər hələ də "qonaq" qismində mövcuddur. Yaponiyada 700 min etnik koreyalı və 200 min çinli yaşayır. Ölkədə ağır fiziki əməklə məşğul olan peşə sahibləri (qəssablar, zibildaşıyan, dəri emalı ilə məşğul olan və s.) – 3 milyona yaxın burakumilər – etnik yaponlar, 1871-ci ildə sinfi fərqlərin ləğv edilməsinə baxmayaraq.

hələ də "ikili növ" vətəndaşlar kimi mövcuddur. Bu vəziyyəti düzəltmək üçün tədbirlər görülsə də, dünyagörüşü stereotipləri onların səmərəsini azaldır.

Azərbaycanda multikulturalizmin beynəlxalq mədəni inteqrasiyanın milli modeli və Avropa təcrübəsi kimi təhlilinə hələlik rast gəlinmir, yaxud yox dərəcəsindədir. Bəzən bu yalnız müsbət konsepsiya kimi dəyərləndirilir.

Əslində, bəhs olunan məqamlar göstərdi ki, hazırda, XXI əsrin əvvəllərində bu sahədə o qədər böyük olmayan (cəmi yarım əsr) tarixi təcrübəyə yenidən baxılır. Burada tənqidi mövqe üstünlük təşkil edir və əsasən iki istiqamətdə qruplaşır. Bir mövqeyə görə multikulturalizm müəyyən şəraitdə mədəni-etnik insan birliklərinin özlüyündə qapanmasını və insanlar arasında süni sərhədlər yaradılmasını şərtləndirir, "könüllü qapalı dairə" formalaşır. Yaxud mədəni identikliklərin mütləqləşdirilməsi bəzilərinin fikrinə görə, mədəniyyətin arxaik cizgilərinə üstünlük verərək şəxsiyyətin azad inkişafına əngəl törədə bilər.

Multikulturalizmin digər tənqidçiləri "mədəni hegemoniya" mövqeyini müdafiə edərək, hakim yerli mədəniyyətə imtiyazlar verilməsini tələb edir. Azlıqların mədəni azadlığını "boş görüntü" hesab edir. Bu, əlbəttə, qeyri-konstruktiv yanaşmadır.

Multikulturalizm əleyhdarları mədəni identiklik naminə, özlərinin "müstəsna" xüsusiyyətlərinin mühafizəsinə bütün enerjisini sərf etməyi qeyri-məqbul mövqe hesab edir.

İnteqrasiyanın yalnız sosial-mədəni determinasiyasının vurğulanması, onların müasir cəmiyyət üçün təhlükəli olan etnik "balkanizasiya" effektini yaradır. Ənənəvi adət-



lərin xeyrinə sosial-mədəni problemlərə biganəsizliyi şərtləndirir. Bəzən ola bilər ki, etnik birliyin adətləri, nəinki Avropada qəbul edilmiş adi normalara, həmçinin burada tarixən formalaşmış etika və əxlaqa dönük təsəvvürlərlə ziddiyyət təşkil edir (dini ayinlər, nikah praktikaları, çoxarvadlılıq, qeyri-ənənəvi ərzaq məhsulları və s.). Bunlar da insanlararası münasibətlərdə ahəng deyil, çaşqınlıq yaradır. Mühüm məqamlardan biri də konkret etnik icma üzvlərinin seçim hüququnun, mədəni oriyentirləri azad müəyyənləşdirmək hüququnun olmamasıdır. Belə icma daxilində davranış və münasibətlər onların özlərinin ixtiyarına və ya "Allahın ümidinə" buraxılır və demokratik ölkələr üçün ciddi nəticələr ortaya çıxır.

Bir sözlə, identikliyin mütləq dəyər kimi bəyan edilməsi mədəni fraqmentasiyaya səbəb olur.

Bu da dəyərlərarası inteqrasiyaya mane olur və nəticədə nəinki siyasi hüquqi, həmçinin dünyagörüşü problemlərini ortaya çıxarır.

Fransada "baş örtüyü" mövzusu ətrafında gərgin diskussiyalar vəziyyətin mürəkkəbliyini bir daha qabartdı. Fransa filosofu Alen Turenin bu barədə fikri səciyyəvidir:

"Cəmiyyətin dünyəvi xarakterinin, ictimai əxlaq prinsipinə çevrilməsi ən yaxşı halda – konformizmə, ən pis halda – repressiyalara gətirib çıxara bilər".

İnsanların yaşamaq üçün gəldikləri ölkənin adət və dəyərlərinə həssaslıq göstərməyərək, yalnız identiklik problemi üzərində düşünməsi, sosial mədəni inteqrasiyanı və sabitliyi pozan amilə çevrilir. Şimal tərəfdə irqi bərabərlik üzrə komissiyanın sədri T.Fillipsə görə, multikulturalizm artıq ötən yüzilliyin hadisəsidir. Hər bir vətəndaş yaşadığı

məkanda oriyentirlərini özü müəyyən etməlidir.

Bu konsepsiyanın müasir demokratiyanın sosial institutları üçün böyük təhlükə olduğunu düşünənlər də var. Məsələn, Avstraliyada bu siyasətin reallaşmasına sərf edilən 7,2 milyard dolların nə dərəcədə səmərə gətirməsini bu ölkənin alimi sual verir. Ç.Makkenziyə görə dilə, etnik və dini ümumiliyə görə, fraqmentlərə görə parçalanma, cəmiyyətdə sosial həmrəylik və mədəni inteqrasiyanı zəifledir, sosial ədalət və hüquqlar uğrunda birgə səyləri çətinləşdirir. Nəticədə birləşmə ideologiyası kimi düşünülən multikulturalizm, sosial müstəsnalıq və fraqmentasiya ideologiyasına çevrilir.

Bu gün bütövlükdə multikultural praktika və modellərin böhran yaşamasını söyləmək olar. Lakin onun tənqidi rasional obyektiv dəlillərdən çox, emosional əhvala əsaslanır. Son illərə qədər tənqidə məruz qalsa da, bu konsepsiyanın, müasir çeşidli mədəniyyətlərin yaşadığı cəmiyyətlərdə sosial-mədəni inteqrasiyanın alternativ modeli həllin axtarış mərkəzindədir.

İnteqrasiya prosesləri Qərb demokratiyası dövlət siyasətinin və sosial proqramlarının əsas istiqamətini təşkil edir.

Müsəlman dünyasına, islam mədəni ənənəsinə maraq yüksələn xətlə gedir, onun mədəni irsi geniş yayılır. Bir çox ideya və mədəni simvollar dizayn, arxitektura və sənət əsərlərinin mərkəzi mövzusuna çevrilir.

Sosial mədəni inteqrasiya hər bir ölkənin tarixi təcrübəsi ilə də sıx bağlıdır. Məsələn, Fransada dövlət və ənənəvi din bitərəf münasibətdədir və burada başqa din nümayəndələrinə xüsusi diqqət və imtiyazlar veriləcəyini



gözləmək əbəsdir. İngiltərədə isə dövlət və dinin qarşılıqlı münasibətləri institusionallaşdığı və ideya-siyasi məzmun yükündən, azad olduğu üçün burada başqa dini-mədəni birliklər qəbul oluna və ünvanlı dəstəyə ümid edə bilər.

İnteqrasiya modellərinin bütün demokratik amillərdə yenidən nəzərdən keçirilməsi yeni, alternativ hesab edilən yanaşmalara zərurət doğurur. Məsələn, hindistanlı iqtisadçı, Nobel mükafatı laureatı A.Sen "mədəni azadlıq" konsepsiyasını təklif edir. Dünya alimlərinin müsbət qiymətləndirdiyi bu konsepsiyanın təməl ideyaları aşağıdakılardır:

– Ənənələrə sadiqliklə öyünmək və dünyanı mədəniyyətlərin toqquşması ilə hədələmək əvəzinə, mədəniyyət sahəsində azadlığın rolu məsələsinə diqqət verilməlidir, bu növ azadlıqlar müdafiə edilməli və dəstəklənməlidir;

– mədəni azadlığı məhdudlaşdıran amillər arasında xüsusi formanı: "iştirakdan məhrum etmək" və "həyat tərzinə görə müstəsna sayılmaq" kimi formaları fərqləndirmək;

– mədəni azadlıq: insanlara öz şəxsi, azad seçiminə uyğun olaraq yaşamaq və fəaliyyət göstərmək, başqa variantları da qiymətləndirmək imkanına malik olmaq deməkdir. "Dünyada haqsızlıq və ədalətsizlik ona görə mövcuddur və yayılır ki, insanlar öz qurbanlarını, başqa həyat seçmək imkanından məhrum edərək, müttəfiq olmağa məcbur edirlər. Hətta başqa bir həyatın mövcudluğunu bilməyə də mane olurlar".

– mədəni müxtəliflik – mütləq məqsəd deyil, mədəni azadlığın reallaşdırılması vasitəsidir, onun sayəsində sosial-mədəni həyat məkanı genişlənir, seçim imkanları çoxalır. Mədəni azadlığın həyata keçirilməsi hətta mədəni müxtəlif-

liyin ixtisara salınmasına da səbəb ola bilər. Əgər insanlar başqalarının həyat tərzini bəyənərək seçim edərsə, bu, baş verə bilər" *(Доклад о развитии человека 2004. Культурная свобода в современном многообразном мире. М., 2004, s.17-18).*

Multikulturalizm dövlət siyasəti kimi qəbul edildiyi ölkələrdə əhəmiyyətini saxlayır. Lakin bütün hallarda bu ideya yerli insan birliklərinin, ictimai rəyin dəstəyi olmadan həyata keçirilə bilməz. Məhz bu halda konkret səmərə gözləmək olar. Digər tərəfdən, sosial mədəni inteqrasiyanın uğurlu prosesə çevrilməsi siyasi-hüquqi inteqrasiyadan kənarda başa düşülə bilməz.

İnteqrasiya və mədəni müxtəlifliyin qorunmasının bu aspekti, prosesin "ikitərəfli hərəkətin getdiyi küçə ilə" müqayisəsi ideyasında aydın ifadə olunmuşdur. İnteqrasiya "bir-birinə doğru hərəkət" sxemi ilə reallaşa bilər.

Avropada tarixən demokratiyanın mənbəyində duran ölkələrin siyasi-mədəni ənənəsində, sivilizasion inteqrasiyanın optimal, səmərəli mexanizmlərinin müəyyənləşdirilməsinə nə dərəcədə nail olunacaqdır. Bu sual hələlik açıq qalır. İnkişaf etmiş ölkələr başqa mədəni kosmosdan gələnləri qəbul və inteqrasiya etməyə hazırdırmı? Bu məkana qədəm qoyanlar özləri necə, vətəndaşlarına dünyada ən yüksək həyat səviyyəsi təmin edən Qərbin siyasi-mədəni institutlarına tam vüsətlə qoşulmağa iddialıdırmı? Bu halda qrup identikliyi ilə fərdi seçim azadlığının nisbəti necə həll olunur.

Mədəni məkanların ahəngdar birgəyaşayışı və qarşılıqlı təsirinin uzunmüddətli perspektivlərinin müəyyənləşməsi qlobal dünyanın bu çağırışlarına cavab verə bilər.



İnteqrasiya qeyd olunduğu kimi, çoxşaxəli mürəkkəb məzmunlu prosesdir. Burada iqtisadi, siyasi, mədəni, sosial, hüquqi və s. müstəvilər ayırd edilir.

İnteqrasiyanın müxtəlif tipləri və səviyyələrinə gəldikdə isə bu *funksional* – yəni vacib həyati tələbatlara və işlə təminata yönəlmiş fəaliyyətdir (inteqrasiyadır).

Digər səviyyə *struktur inteqrasiya* mədəni-etnik birliklərin təhsil və s. sahələrə cəlb olunması, bərabər sosial qarantiyaların əldə olunmasına yönəlmiş fəaliyyətdir. Struktur inteqrasiya gedişində ictimai həyata və sosial resurslara qoşulma imkanı gerçəkləşir.

*Siyasi-hüquqi inteqrasiya* yalnız mövcud ölkənin hüquqi normalarına, müvafiq sosial davranış qaydalarına riayət etmək deyil, həm də siyasi və vətəndaş yönümlü iştirak prosesini nəzərdə tutur.

*Sosial mədəni inteqrasiya* – qəbul edən ölkənin mədəni məkanına və sosial münasibətlərinə dolğun, fəal nüfuz edə bilməyi nəzərdə tutur. Gündəlik həyatda fəal iştirak, yerli infrastrukturla qarşılıqlı inteqrasiya bu səviyyədə gerçəklənir. Son nəticədə inteqrasiya ictimai həyatın bütün sahələrində tamhüquqlu iştirak etmək deməkdir.

Lakin özünəməxsus mədəni identikliyin itirilməsi, yəni assimilyasiya deyildir.

Real həyatda inteqrasiyanın müxtəlif səviyyə və formaları yanaşı mövcud olur, lakin hökmən nizamlama obyektinə çevrilir. Lakin bunu məhz sosial-mədəni inteqrasiya barədə demək olmaz. Onun nəticələri problematik olur və uğurları həm qəbul edən ölkənin ab-havasından, həm də gələnlərin qarşılıqlı münasibət qurmağa istəyi olub-olmamasından asılı olur. Bir-birinə doğru atılan bu addımların ol-

madığı təqdirdə sosial mədəni inteqrasiya getmir.

Sosial-mədəni inteqrasiyanın konsepsiyası və praktiki həlli kimi multikulturalizmi "mif", "əsassız nağıl" adlandıran baxışlar da çoxluq təşkil edir. Bu baxışlara görə konsepsiya ABŞ tərəfindən total ekspansiya və ixrac məqsədlərini güdür *(Bax: Глобализация и мультикультурализм. М., 2005, 332 s.).*

Multikulturalizm problematik model kimi milli və ümumbəşəri aspektlərin tarixən formalaşmış ənənəvi müxalifətini balanslaşdırmağa çalışır.

Modelin tənqidinə onun dövlət siyasəti kimi həyata keçirdiyi ABŞ-da rast gəlmək olar. B.Şvarsın "Müxtəliflik mifi: Amerikanın ixrac etdiyi başlıca əmtəə" adlı əsəri, konservatizmin üstün olduğu dairələrdə rəğbət qazanmışdır.

Bütövlükdə mədəni inteqrasiya probleminin həlli və təkamülü beş mərhələdən keçmişdir: bunlar qeyd olunan assimilyasiya, təhlükə, qarşıdurma, stereotip baxışlar və nəhayət, multikulturalizm mərhələsidir. Sonuncunun növləri də çoxsaylı qollara ayrılır: neoliberal, korporativ, konservativ, polisentrik və s. necə adlandırılmasından asılı olmayaraq, onun müxtəlif şərhləri açıq müzakirəsi modelini müsbət və ya mənfi cəhətlərini aşkarlamağa yardım edir.

Qulaqlara yad olan çoxsaylı ifadələrdə əksini tapan multikulturalizm, bikultarilizm, polikulturalizm, transkulturalizm, inteqrasiya yalnız qarşılıqlı təşəbbüslərə qoşulmaq deyil, həm də yeni mədəniyyət məkanının yaradıcı şəkildə də formalaşdırılması deməkdir.

XXI əsrin yeni mədəniyyət məkanında istənilən mədəniyyət son məqsəd, mütləq etalon deyildir, bu məkanı tanımaq üçun bələdçidir. Hər bir mədəniyyət son mənzil,



məntəqə deyil, məkanı keçmək üçün tələb olunan tranzit – yoldur, həm anlamaq, həm də anlaşılmaq ehtiyacıdır. Mədəni identiklik bu məkanda maneə deyil, ünsiyyət üçün qurulan körpü rolunu oynayır. Bütün hallarda mədəni inteqrasiyanın plüralist paradiqması davamlı stabilliyin təminatçısı kimi çıxış edir. Mədəniyyətlərin təmas nöqtələri, ünsiyyətin baş verdiyi sərhədlər, mədəni məkanda ən önəmli "arazilərdir". "Sərhəddə olmaq – həmişəkindən daha çox aktual, zəruridir. Bir-birini tanımaq, mədəni identiklik sərhədlərinin hüdudlarını aşmağa cəhd etməkdir". *(М.Фуко. Интеллектуалы и власть. Ч. II., М., 2002, s.401).*

Yuxarıda sadalanan modellərin izahı ayrıca bir kitabın geniş mövzusudur. Başlıca fikir ondan ibarətdir ki, bu gün dünyada formalaşan, "dünyaların dünyası" adlandırılan yeni mədəniyyət məkanında əhatə və sabitliyin təmin edilməsi daimi və məqsədyönlü səylər tələb edir. Bu problem yalnız siyasi hüquqi nizamlama ilə deyil, son nəticədə inteqrasiyanın humanitar, sosial-mədəni mexanizmləri ilə həll oluna bilər.

## § 11. Azərbaycan: universal inteqrasiya modeli və milli praktika

*Azərbaycan iyirmi birinci əsrə Avropa ailəsi kimi qədəm qoymuşdur. Mədəniyyətimizin üfüqlərini bu geniş məkana qədər yaymaq, onu tanıtmaq, qarşılıqlı bəhrələnmək və zənginləşmək üçün dövlətimiz və cəmiyyətimiz qarşısında mühüm vəzifələr durur.*

*Bu vəzifələr həmin məkanın spesifikasını dərindən dərk etməyi irəli sürür.*

Regionda dinamik inkişafın lideri mövqeyini əldə edən dövlətimiz öz avrostatusunu müəyyənləşdirmək istiqamətində çoxşaxəli siyasəti həyata keçirir. Bunların içərisində mədəniyyət siyasəti ən önəmli yer tutur.

Tarix boyu mütərəqqi, dünyəvi dəyərlərə açıq olan Azərbaycan bugünkü qarşılıqlı əməkdaşlığın perspektivlərinə böyük nikbinliklə yanaşır, inteqrasiyaya münasibətlərin xüsusi keyfiyyət mərhələsi kimi önəm verir.

Azərbaycanda nəhəng Avropanın tarix boyu arzuladığı, can atdığı, dərin bəşəri ideallara doğru çox uzun bir yol gəlmişdir. Bu yolda Avropa dövlətlərinin üzləşdiyi faciələr, taleyinə düşən ağrı-acılar, Azərbaycanın da taleyinə nəsib olmuş, zaman keçdikcə həmin tarixi problemləri bir-birinin ardınca dəf edə bilmişdir. Bunun ən mühüm vasitələrindən biri bəşəri ideyaların, dünya mədəniyyətinin müqəddəs və universal irsi



ilə çox yaxından səsləşən, onların daşıyıcısı olan mədəni-tarixi ənənələrimiz, yaşadığımız coğrafi məkanın özünəməxsus missiyası olmuşdur. Faşizm kabusu ilə ölüm dirim mübarizəsində, ülvi ideyalara səsləyən mütəfəkkir mədəniyyət dühalarımızın sovet repressiya siyasəti nəticəsində məhv edildiyi sürgün və həbslərdə milyonlarla qurbanlar vermişdir. XX əsrdə Azərbaycan öz qarşısında duran tarixi məqsədlərə nail olmağa hər vəchlə mane olan xarici və daxili maneələri dəf etmək kimi tarixi vəziyyətini, nəhayət, XX əsrin sonunda Azərbaycan tarix boyu can atdığı müstəqillik məqsədinə nail olmaq yolunda ulu öndər Heydər Əliyevin başçılığı ilə bu müqəddəs mübarizəyə əngəl olan bütün xarici və daxili maneləri dəf etmək kimi tarixi vəzifəni həyata keçirdi, gerçəkləşdirdi.

Azərbaycanlıların indiki nəsli Prezident İlham Əliyevin rəhbərliyi ilə qarşıda duran fərqli, yeni vəzifələrin həlli üçün səfərbər olaraq, tariximizdə iyirmi birinci yüzilliyin yalnız uğur və nailiyyətlər əsri kimi qalması istiqamətindən əlindən gələni etməkdədir.

Qarşılıqlı inteqrasiyanın məhz uğurlara xidmət etməsini təmin etmək üçün Azərbaycanda hər bir vətəndaşın iki məsələyə dair aydın təsəvvürləri olmalıdır: birincisi, Azərbaycanın Avropa üçün əhəmiyyəti, rolu və mövqeyi nədən ibarətdir? İkincisi, Avropaya inteqrasiya Azərbaycanın müstəqilliyini, dünyada nüfuz və rolunun artması üçün nə kimi imkanlar və prespektivlər açır?

Birinci sualı cavablandırmaq üçün deyə bilərik ki, regionda intensiv inkişafın lideri kimi qəbul edilən Azərbaycan Avropa üçün çox böyük əhəmiyyət kəsb edir.

Həm regionda, həm də bütün dünyada sülhün və sabitliyin təmin olunması, təhlükə və təhdidlərə qarşı əməkdaşlıq.

beynəlxalq terrorizmə qarşı bir cəbhədən çıxış etmək üçün Azərbaycan Avropaya lazımdır.

Öz coğrafi mövqeyinə görə, dünyəvi dəyərlərinə malik olan tarixi-mədəni ənənələrinə görə Azərbaycan Avropanın strateji partnyorudur.

Müasir dünyanın qlobal enerji layihələrinin gerçəkləşdiyi məkan, Şərqlə Qərb arasında nəqliyyat dəhlizi, qlobal təhlükəsizliyin təşkilatı üçün Azərbaycan Avropaya lazımdır.

Qarşılıqlı inteqrasiyanın bərabərhüquqlu subyektləri kimi çıxış etmək bu prosesin nüfuzunu daha da artırır. Azərbaycan vətəndaş cəmiyyəti, demokratik və hüquqi dövlət quruluşu istiqamətində Avropa hüquq formalarına doğru hər gün daha da inamla addımlayır. Lakin öz siyasətini yalnız özü müəyyən edir. Avropa Komissiyası, Avropa Şurası və Avropa Parlamentində səsvermələr hamısı demokratik prinsiplərə əsaslansa da, orada ən dərin sayğı və diqqət göstərilsə də, Azərbaycan öz qarşısında duran milli inkişafını, strategiyasını özü müəyyən edir.

XXI əsrdə Azərbaycanda zamanın inkişafının başlıca meyilləri aşkar təzahür edir. Azərbaycan siyasi, iqtisadi, mədəni özünütəsdiq mərhələsini yeni əməkdaşlıq formalarının yaradılması ilə uğurlu şəkildə tamamlayır.

Müasir dünyanın taleyüklü problemləri elmi-texnoloji vasitələrdən çox sosial-mədəni vasitələrlə çözülə bilər. Qlobal inteqrasiya prosesi şəraitində milli mədəni siyasət keyfiyyət dəyişikliklərinə uğrayır. Sosial-mədəni dinamikanı məqsədəuyğun məcraya yönəltmək üçün, mədəni siyasət dəyişikliklərinin miqyasına və sürətinə adekvat olmalıdır. Ən mühüm məqam odur ki, yaxın keçmişdə mədəni siyasətdə milli imperativlər aparıcı rol oynayırdısa, bu gün daxili və xarici mədəni siyasət



arasında sərhədlər silinir, onların vəhdəti önə keçir. Bu vəhdət mədəni siyasətdə xarici şərtlərin əhəmiyyətinin artmasından xəbər verir. Qlobal mədəni məkana güclü mədəni potensiala və mənəvi enerjiyə malik olan, regionda və dünyada mədəni şəraitin nizamlanmasına qabil olan bərabərhüquqlu tərəfdaş kimi daxil olmaq üçün məqsədyönlü konsepsiyaya əsaslanan mədəni siyasət hazırlanmalıdır. Bu da diqqəti aşağıdakı məqamlar üzərində cəmləməyi nəzərdə tutur:

- mədəni inkişafın və onun prinsiplərinin müxtəlifliyin vəhdəti üzərində qurulması;
- bəşəriyyətin gələcəyini həll edən problemlərin çözülməsində mədəniyyətlərin birliyinə əsaslanan yeni dünya düzəninin formalaşması;
- müasir texnoloji inqilabın gətirdiyi təsirlər nəticəsində mədəni identiklikdə baş verən proseslərin təşkili və həlli, elektron vasitələrin interaktiv potensialının mədəni ekspansiyaya deyil, inteqrasiyaya xidmət etməsi.

Müasir mədəniyyətin təcrid olunmuş şəkildə mövcudluğu qeyri-mümkündür. Bir çox ölkələr müxtəlif şəkildə başqa mədəniyyətlərin fəal təsiri və müdaxiləsinə qarşı dura biləcək tədbirlər həyata keçirir. Bu tədbirlərin görülməsi müəyyən optimal hədd çərçivəsində aparılmalıdır. Əsas məsələ isə başqa mədəniyyətlərin təsirinin məhdudlaşdırılmasına sərf olunan zamanın və vəsaitin, öz mədəniyyətinin dünyada təbliğinə və təsdiqinə yönəldilməsidir. Mədəni siyasət və idarəetmənin aydın konsepsiyasının olmasıdır.

Azərbaycan tarixən öz coğrafi geostrateji mövqeyi ilə həllinə Şərq və Qərb mədəniyyətlərinin qovşaq məkanı olmuşdur. Mədəniyyətimizə xas olan qarşılıqlı təsirlərə açıq olmaq xüsusiyyəti buradan irəli gəlir. Qlobal təsirləri indi du-

yan bəzi mədəniyyətlərdən fərqli olaraq Azərbaycanda bu proses təbii-tarixi xarakter daşıyır, özünütəcrid variantı bizim mədəniyyətmiz üçün heç vaxt spesifik olmamışdır.

Lakin müasir sosial-mədəni situasiya qeyd olunduğu kimi, tarixin heç bir zamanı ilə müqayisəyə gəlmir. Bu mərhələdə mədəni siyasətdə "mənəvi müqavimət və mühafizə" amili xüsusi əksini tapmalıdır. Milli-mənəvi dəyərlərin dirçəldilməsi, ənənə və innovasiyanın sintezi imkanları daxilində həyata keçirilə bilər. Ənənəvi irsimiz innovasiyalara biganəlik göstərilmədən saxlanmalı, möhkəmləndirilməlidir. Mədəni siyasətdə ağırlıq mərkəzi özünü təcrid və radikal avtonomiya meylindən, qarşılıqlı faydalı əməkdaşlıq formalarının intensiv axtarışı və həyata keçirilməsinə doğru yönəldilməlidir. Optimal inteqrasiya şəraitinin yaradılması və dəstəklənməsi Azərbaycanda ən dövlət, həm də qeyri-dövlət təşkilatlarının fəaliyyətinin başlıca məqsədini təşkil edir.

Bu sahədə Heydər Əliyev Fondunun apardığı çoxşaxəli fəaliyyət, mədəni məkanda inteqrasiya modeli kimi bütün dünyaya örnək ola bilər. Müasir dünyada mədəniyyət, elm və təhsil məsələləri üzrə yaradılmış ən nüfuzlu beynəlxalq təşkilatlar – YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Mədəniyyətinin Dostları Fondunun rəhbəri, Milli Məclisin deputatı Mehriban Əliyevanın başçılığı ilə bu gün mədəniyyətmiz yeni-yeni guşələrinə qətiyyətlə addımlayır.

Milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz, folklorumuz, milli musiqimiz, incəsənətimiz Mehriban xanım Əliyevanın fədakar fəaliyyəti nəticəsində qlobal miqyasda təbliğ olunur. Onun fəaliyyəti səfiri olduğu nüfuzlu beynəlxalq təşkilat – YUNESKO tərəfindən xüsusilə yüksək qiymətləndirilmişdir:



"Müasir nəslin musiqi təhsili və gələcək maariflləndirilməsi xanım Əliyevanın daim diqqət mərkəzindədir. Təqdirəlayiq haldır ki, fondun fəaliyyəti milli mədəniyyətin zəngin ənənələrinin yaşadılmasına xidmət edir. Fondun səyləri nəticəsində Azərbaycanda təhsilin inkişafı, minlərlə yeniyetmə və gəncin təhsilə qovuşması üçün gözəl şərait yaradılmışdır. Fondun fəaliyyəti yalnız Azərbaycan xalqının tarixi və mədəniyyətini inkişaf etdirmək və yaymaqla bitmir, eyni zamanda, bütün dünya xalqlarının mədəni ənənələri və təcrübəsi ilə ətraflı tanışlıq prosesi gedir".

Dünyanın ən nüfuzlu mədəniyyət qurumu tərəfindən, Heydər Əliyev Fondunun dünya mədəniyyətinə inteqrasiya fəaliyyətinin düzgün elmi əsaslar və siyasət üzərində qurulduğu xüsusi vurğulanır. Deməli, mədəni inteqrasiya modelinin optimal variantı Azərbaycanda artıq müəyyən edilmiş və inkişaf edir. Bu fəaliyyətin bütün cəmiyyət tərəfindən dəstəklənməsi, daha da intensivləşməsi mühüm məsələdir.

Artıq on ildir ki, Heydər Əliyev Fondu Azərbaycanın birinci xanımının rəhbərliyi altında mədəniyyətimizin tərəqqisi, mənəvi irsimizin qovuşması, ənənələrimizin yaşadılması, dünyaya tanıdılması üçün əvəzsiz xidmətlər göstərir. Bütün bu fəaliyyətə qlobal cəmiyyətə mədəni inteqrasiyanın etibarlı, düzgün xətt üzrə həyata keçirildiyinə təminat verir, mədəni-mənəvi təhlükəsizliyimizə, dövlətçiliyin möhkəmləndirilməsinə xidmət edir. Azərbaycanın inteqrasiya prosesinin bərabərhüquqlu iştirakçısı kimi dünya mədəni məkanında öz layiqli yerini tutmasını gerçəkliyə çevirir. Azərbaycan üçün faydalı olan inteqrasiya şəraitinin formalaşdırılması üçün üzərinə düşən bütün missiyanı yerinə yetirir. Suverenlik prinsipini, mədəniyyətlərin bərabər hüquqlu mövcudluğu, mədəni irsin özü-

nəməxsusluğunun qorunmasını regional və beynəlxalq səviyyədə informasiya-kommunikasiya texnologiyalarının geniş imkanlarının tətbiq edilməsi Fondun fəaliyyətində xüsusi yer tutur.



## § 12. Avrasiya mədəni inteqrasiya modeli kimi: real və potensial imkanlar

*Bəşəriyyətin inkişaf tarixində köklü dəyişikliklərlə müşayiət olunan ziddiyyətli, "böhran" adlandırılan dövrlər həmişə mövcud olmuşdur. İnsanlıq bu mərhələdən möhtəşəm mənəvi, fəlsəfi, mədəni dəyər və meyarlar sistemi yaratmaqla çıxa bilmişdir.*

Bu gün də dünya, necə adlandırılmasından asılı olmayaraq, inkişafının tamamilə fərqli bir mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə insanlar, dövlətlər, mədəniyyətlər, dinlər arasında mövcud olan qarşılıqlı münasibətlərin prinsipial olaraq yeni səviyyəsinin təməli qoyulmalıdır. Dünyanın inkişaf parametrləri baxımından müşahidə olunan və "qloballaşma" adlandırılan tamamilə fərqli problemlərin ortaya çıxması da yaşadığımız mərhələni səciyyələndirən və yeni münasibət modelinin yaranmasını zərurətə çevirən amillər sırasındadır.

Sivilizasiyanın gələcəyi probleminin müzakirəsi və həlli perspektivlərinə alimlərin, siyasətçilərin, filosofların, iqtisadçıların, kulturoloqların və s. beynəlxalq konfrans, forum və simpoziumları həsr edilir. Lakin bu gün deyə bilərik ki, bununla problemin mürəkkəbliyi nəinki azalır, əksinə daha da artır.

Bu gün yeni dinlər, yeni mədəniyyətlər yaratmağa ehtiyac yoxdur. Çünki dünyadakı istənilən xalqın dinində,

mədəniyyətində, dünyagörüşü sistemində baş verən tarixi dəyişiklikləri həm təhlil etməyə, həm də onlardan düzgün nəticə çıxarmağa əsas verən böyük potensial vardır.

Əsas məsələ, məhz bu sərvət və dəyərlərin müasir mərhələnin ümumbəşəri prinsiplərini və XXI əsrin mədəni-sosial ahəngini formalaşdırmaq üçün malik olduğu böyük potensialdan çıxış etməkdir. Həyatımızın indiki mərhələsini və gələcəyini məna və ləyaqətlə yaşamaq üçün tələb olunan münasibətlərə dair hər bir mədəniyyətdə təsəvvürlər sistemi mövcuddur. Bunların ən mühümü "dünyanın müxtəlifliyin vəhdəti kimi var olması" prinsipidir.

Dünyadakı bütün ölkələrin, müxtəlif səviyyələrdə qarşılıqlı əlaqə və münasibətlərinin daha da sürətləndirən, onu vahid sistemə çevirən qloballaşma prosesi universal və unikallığın bir-birinə nisbəti problemini ön cərgəyə çıxarmışdır. Bu da təbii olaraq planetdəki xalqları narahat edən meyillərə qarşı dura biləcək ideya, qüvvə, amil və formaların səfərbər edilməsinə zərurət yaratmışdır. Bir şey aydındır. Biz dünya inkişafının mövcud modelinin kökündən dəyişilməsi dövründə yaşayırıq, bu dövrün mahiyyətini bir cümlə ilə ifadə etsək deyə bilərik: Bəşəriyyət çoxçalarlı, çoxqütblü, müxtəlifliklərin ahəngdar inkişafını təmin edə biləcək bir dünya düzəninə qədəm qoyur.

Şübhəsiz ki, mövcud reallıq əvvəlki bir, ya iki qütblü, texnogen sivilizasiyanın inkişafının, sadəcə, davamı ola bilməz. Bu baxımdan gündəmdə duran əsas məsələ təşəkkül tapmaqda olan, müasir tarixin çoxçalarlığını, rəngarəngliyini adekvat ifadə edən, qlobal və lokal səviyyələrdə, praktiki ictimai-mədəni birgəyaşayış formalarının müəyyən edilməsidir. Öz növbəsində bu məsələ də vəhdət və müxtəlifliyin elmi, fəlsəfi prinsiplərin nəzəri konsepsiyasının işlənməsini tələb edir.



Dialoq Avrasiya qurumunun başlıca məramı və qayəsi bu proseslərə bütün sahələrdə şərait və imkan yaradılması, yeni dünya düzənində Dialoq məkanının fasiləsiz olaraq genişlənməsinə təşəbbüskar və dəstəkçi olmaqdır.

Avrasiyaçılıq ideya-siyasi, mədəni-tarixi cərəyan kimi yarandığı dövrdən özünəməxsusluğu ilə diqqəti cəlb edən istiqamətlərdəndir.

Avrasiya anlayışında da, Avrasiya mövzusuna həsr olunmuş əsərlərdə də, müasir dünya sivilizasiyasının gələcək inkişafını dərk etməyə imkan verən konseptual-analitik potensial olmamış deyil. Bu potensialın yaşadığımız qlobal gerçəklik kontekstində təhlilinə, aydındaşdırılmağa və konkretləşdirməyə zərurət olduğu mühüm məsələdir.

Biz gözəl başa düşürük ki, Avrasiya sözünü gündəmə, dilimizə gətirərkən onun əhatə etdiyi leksik-semantik müstəvinin ən müxtəlif təsəvvür, baxış və mövqelərlə yüklənməsini nəzərdən kənara qoymaq olmaz. Bu leksik-semantik müstəvi ideoloji-siyasi, millətçi, hətta mifoloji məzmunlarla ya mənfi çalarlar kəsb etmiş, ya təhrif olunmuş, bir sözlə, "tutulmuşdur". Avrasiyanın məkan, zaman və inkişaf yolu kimi aspektlərinin vəhdətdə təhlili üzərində öz fikirlərimizlə bölüşmək istəyirik.

Müasir elmi idrak inkişaf problemlərini araşdırarkən zaman və məkan anlayışlarına bir-biri ilə qarşılıqlı əlaqədə yanaşmağı əsas hesab edir. Bu anlayış və ya amillərin bir-birindən təcrid edilməsi, yaxud onlardan birinin mütləqləşdirilməsi gerçək tarixi proseslərin qeyri-adekvat qiymətləndirilməsinə səbəb olur. Bir halda deyilir: "Avropa və

Asiya problemi, hər şeydən əvvəl, coğrafi məkan, landşaft problemidir", digər halda deyilir. "Avrasiya özəl mədəni-sosial birlik kimi min beş yüz illik zaman sınağından çıxmışdır, onun Qərblə inteqrasiyası problematikdir" və ya üçüncü halda "Avrasiyanın özəl, fərqli: ayrıca bir inkişaf yolu vardır" kimi mövqelər üstünlük təşkil edir.

Bir daha xatırladıram ki, sadalanan amillərin sintezdə deyil, fraqmentar müstəvidə təhlili məntiqi sonluq kimi, Avrasiyaçılıq cərəyanında, dünyaya açıq olmaq, Qərbdən təcrid olunmaq, geosiyasi uyğunlaşma, yaxud Qərb yoluna üz tutmaq, hətta ekspansionist-neoimperiya mövqeləri kimi diametral müxtəlif baxışların formalaşmasına səbəb olmuşdur. Zənnimcə, Avrasiya və dünya, eləcə də Avropa və Asiya mövzusunu sistem və bütövlüyündə nəzərdən keçirmək bu arzuolunmaz təzahürlərin qarşısını almağa imkan verir.

Əvvəlcə məkan faktoru barədə.

Avrasiyanın, ilk növbədə, coğrafi-məkan aspektlərinin və prinsiplərin əsas götürüldüyü birlik olması fikrində həqiqət olmamış deyil. Özünüz düşünün, Avropa və Asiyanın qovşağındakı məkan olmaq, bölgənin tarixi missiyasının bənzərsizliyi və yeganəliyi məhz buradan irəli gəlir. Bu günə və gələcəyin sabahına aparan yollar burada qovuşur, sözün hərfi mənasında, "bir" olmağa, "bir"ləşməyə, ən azı bir-biri ilə qonşu olmağa məcbur olur. İki məkan, "landşaft ruhu": Asiyanın sonsuz, geniş çöl və düzənliklərinin və Avropanın sıx, dar, nisbətən kiçik coğrafiyasının landşaft ruhu yan-yana mövcud olaraq – sintez, vəhdət məkanı rolunu oynayır.

Avrasiyanın bu məkan yaxınlığı, qonşuluğu, öz növ-



bəsində, bu məkanda yaşayan xalqların mədəniyyətlərinin də, başqa sözlə, mədəni məkanların da qonşuluğunu zəruri edir.

Avrasiyanın mədəni matrisası coğrafi, kontinental ərazi, etnoqrafik plastların vəhdətini daşıyır. Özündə həm Avropanın, həm də Asiyanın dəyərlərinin sintezini daşıyan Avrasiya bu mədəni məkanların ahəngini – mədəni kosmosu yaratmalı olur. Göründüyü kimi, Avrasiya mövzusu coğrafi-ərazi kontekstində məkanın spesifikası və tarixi perspektivin tələblərindən irəli gələn problemləri diqqət mərkəzinə qoyur.

Yəni, mövcud olduğu min illər ərzində Avrasiyanın nəhəng coğrafi məkanı, burada yaşayan xalqların tarixi-sosial, mədəni-mənəvi, dünyagörüş məkanlarınında özünəməxsusluğunu formalaşdırmışdır. Avrasiyanın tarixi məkanı olmadan burada yaşayan xalqların və ya burada yaşayan xalqlar olmadan Avrasiyanın tarixi yoxdur. Məhz bu qarşılıqlı bağlılıq bütün mövzuların, o cümlədən də dialoq mövzusunun əsası, predmeti və obyektidir.

"Məkan" anlayışı çoxçalarlı mənaya malikdir. Məkan-insanların ictimai-ərazi birliyinin növü olub, başqalarından, tarixi və təbii şərtlənmiş mövcudluq şərtlərinin (mədəni, iqtisadi, siyasi, sosial münasibətlər və s.) fərqli məcmusu ilə seçilir. Məkanın ən vacib xarakteristikalarından biri onun tarixiliyidir. İstənilən məkan əvvəlki nəsillərin fəaliyyəti ilə sıx varislik təşkil edir. Məhz buna görə də inkişaf prosesi fasiləsiz olaraq məkan və zaman çərçivəsində gedir. Məkan daxilində bir sıra lokal mədəniyyətlər yanaşı mövcud olur.

Bununla əlaqədar "mədəni məkan, mənəvi məkan"

anlayışları da təşəkkül tapır, öz məzmun və mahiyyətinin başa düşülməsini tələb edir. Lokal mədəniyyətlərin vəhdəti böyük tarixi-coğrafi məkanın mədəniyyətini təşkil edir.

Avrasiyanın mədəni məkan kimi bütövlükdə təhlil etmək müasir zaman və inkişaf yolları baxımından yanaşmanı gündəmə gətirir.

Məkan və zaman vəhdəti, qovşaq sivilizasiyalarda daha qabarıq təzahür edir. Sübut etməyə ehtiyac yoxdur ki, coğrafi-ərazi baxımından qovşaqda olmayan, inkişafın magistral meyillərindən bir qədər aralıda olan mədəniyyətlərdə Zamanın axarı nisbətən gec duyulur, impulsların gərginliyi o qədər də hiss edilmir. Bundan fərqli olaraq, qovşaq mədəni məkanlar tarixi proseslərin qaynar nöqtələrinə çevrilir, baş verən dəyişikliklərin ritmini, nəfəsini duyur, ona adekvat cavab verməyə zərurəti qarşısında dururlar. Avrasiyanın mədəni polifonizmi və sintetik, ortaq dəyərləri, qovşaq sivilizasiya olması kimi amildən irəli gəlir.

Yaşadığımız mərhələdə, "informasiya-telekommunikasiya vasitələrinin "məkan" və "coğrafiya" "sərhədlər" anlayışına tamamilə yeni məzmun verdiyini nəzərə alsaq, məkan və zamanın sıx bağlılığı məsələsi daha da aktuallaşır.

İnkişafın diktə etdiyi meyillərə, dünyanın hər bir məkanında, zamanında cavab verilməsi, seçim edilməsi tələb olunur. Burada çox düşünmək olar. Lakin kulturoloji ədəbiyyatdan məlumdur ki, zaman və məkanın qarşılıqlı münasibəti üç səviyyədə reallaşa bilər: inteqrasiya, qarşıdurma-təcridolunma və assimilyasiya (əriyib itmə).

Məkan və zamanda özünüdərk prosesi getmədən, məkanda ölkə və ya dövlət formalaşa bilməz.

Avrasiya – özünün spesifik arxetipi və genotipinə



malik olan ümumdünya tarixi fenomenidir. Avrasiyaçılığın potensialı da onun ideologema və ya mifologemalar müstəvisində fikir yürütməsi ilə deyil, real, ciddi problemləri qoymaq, onların həlli yollarını müəyyənləşdirmək və həyata keçirməkdədir.

Müasir dünyada da zaman amili özünü çox kəskin şəkildə göstərməkdədir. Zamanın paradoksal şəkildə sürətlənməsinə rəğmən baş verən dəyişikliklər də adekvat refleksiya, qərar və seçim edilməsini, yəni onların zamanında edilməsinə tələb edir. Əgər buraya, uzun illər sovet məkanında yaşanılan durğunluq və nisbi-statik inkişaf tərzini və vərdişini də əlavə etsək, dəyişikliklər və onlara münasibət problemi daha aydın təsəvvür edilə bilər.

Avrasiya məkanı tarixən ənənəvi və liberal sivilizasiyalar arasında qərar tutmuşdur, daha dəqiq deyilsə bu sivilizasiyaların əsas xüsusiyyətlərini özündə əks etdirir.

Bu amil Avrasiyanın özəl statusunu və keyfiyyətini şərtləndirmişdir. Burada türkdilli, slavyan, uqro-fin və s. xalqları vahid sivil məkan daxilində yaşayır. Bu vahid sistem, bütövlük, tarixi taleyin ümumiliyi, inteqrasiya və dialoq proseslərinin təməli, prinsipi kimi dəyər kəsb edir.

Zaman amilinə müəyyən mifoloji çalarlar xasdır. Başqa sözlə, mədəni, sosial, tarixi, gerçək zaman, bəzi hallarda "mifoloji zaman"la bilərəkdən, yaxud bilməyərəkdən əvəz edilir. "Mifoloji zaman" üçün keçmişin ideallaşdırılması, yaxud utopiya səviyyəsinə keçirilməsi səciyyəvidir. Avrasiya və dünyanın bu günü və gələcəyinə aid olan hər bir mövqe, baxış və ya prinsiplər gerçək, qlobal zaman amilindən çıxış etməklə, klassik və ya müasir Avrasiyaçılığın bəzi istiqamətlərinə xas olan ideoloji-mifoloji məzmun,

coğrafi fatalizm, "geosiyasi mistika", bolşevizm və s. kimi qeyri-real çalarlardan uzaqda olduğunu bəyan edə bilər.

Müasir zaman müxtəlif mədəniyyətlərin dialoqunu və inteqrasiyanı imperativə çevirmişdir. Bu baxımdan "Dialoq Avrasiya" qurumu bu imperativə adekvat və zamanında göstərilən münasibətin bariz nümunəsidir. Qurum ideoloji-utopik məramlardan uzaqdır. Bu baxımdan "Avrasiya" probleminə müxtəlif baxış və traktovkaların təhlili söhbətimizin əsas mövzusu olmasa da, onlara münasibətimiz açıq və aydın olmalıdır.

Belə hesab edirik ki, avropamərkəzçilik qüsurlu mövqe olduğunu sübut etdiyi üçün, "avrasiya mərkəzçilik" kimi meyillərə uymağın da vaxtı deyildir. Bəzən belə fikirlər, həmçinin çoxlu suallar eşidirik: Avrasiyanı Qərbə qarşı durmaq, "atlantizmə" qarşı blok yaratmaq birləşdirə bilər", yaxud Avrasiya mədəniyyəti daha qədim, daha üstündür və s". Bunlar qeyri-real, yanlış mövqelərdir. Avrasiyanın keçmişi, həm indisi, həm də gələcəyinə dair səthi təsəvvürlərdən irəli gələn fikirlərdir. Əsas tarixi həqiqət: Avrasiyanın, burada yaşayan xalqların tarix boyu inteqrasiyanın ən müxtəlif növ və formalarına "obyektiv-təbii, açıq olması" unudulur. Hər hansı bir mədəniyyət və ya sivilizasiyanın digərindən üstünlüyündən bəhs edilməsi qeyri-ciddi qeyri-elmi mövqedir. Hər bir mədəniyyət öz-özlüyündə dəyərlidir, sadəcə, bu fərqli, başqa mədəniyyətdir.

Avrasiya məkanında yaşayan xalqların çoxəsrlik milli-mədəni ənənələrinə, dəyərlərə, qarşılıqlı təsir təcrübəsinə dayaqlanan və texnoloji modernləşmə ilə tamamlanan bənzərsiz, fərqli inkişaf yolunun perspektivli sayılması təbiidir. Bu tarixi prosesin çoximkanlılığı və müx-



təlifliklərin vəhdəti prinsipi çərçivəsində məqbul hesab edilən elmi qənaətdir.

Dialoqu, sintez və inteqrasiyanı inkişafın əsas yolu və amili kimi görən mütəfəkkir şəxsiyyətlər, dahilər Avropada da, Asiyada da həmişə olmuşdur. Dünyanın, müxtəlif məkanların vəhdəti ilə gözəl və əzəmətli olduğunu, "əzəli xəlq edilmiş harmoniya" fəlsəfəsinin müəllifi V.Leybnis də vurğulamış, xalqlar arasında mədəni-mənəvi dialoq və mübadiləni gücləndirmək üçün "Qərb-Şərq Akademiyaları"nın yaradılmasını təklif etmişdi. V.Höte də özünün "Qərb-Şərq divanı"nda yazırdı:

"Etiraf edin, Şərqin şairləri
Bizdən, Qərb şairlərindən üstündür"
*(Признавайтесь, что поэты Востока,*
*выше нас, поэтов Запада.)*

Avropanın müstəsna, "etalon" sivilizasiya modeli olması kimi yanlış meyilə qarşı ilk çıxışlar XIX əsrdən daha qətiyyətlə səslənməyə başladı.

Biz tarix qarşısında böyük xidmətlər göstərən bu şəxsiyyətlərin adlarını sadalaya bilməsək də, onların carçıları olduqları ideyanın sonrakı əsrdə də özünü doğrultduğunu, bu gün XXI əsrdə də çox aktual səsləndiyinə diqqəti cəlb etmək istəyirik.

Xatırlayaq ki, klassik sayılan Avrasiya cərəyanı da məhz tarixin ən mürəkkəb dönəmlərindən birində – XX əsrin əvvəllərində təşəkkül tapdı. Dünyanın ən qanlı müharibə və sarsıntılarının təsadüf etdiyi bu mərhələdə həm coğrafi, həm də siyasi baxımdan Avropa dövlətləri münaqişələrin bütün mənalarda episentrini təşkil edirdi. Bu vəziyyət dünyada: həm Avropada, həm də Asiyada, yaxın perspektivdə formalaşacaq ictimai, tarixi-siyasi nizam mən-

zərəsinin təməlində dura biləcək konseptual əsasların axtarışlarına təkan verdi. Avropa və Asiyanın yalnız geosiyasi məkan deyil, həm də mədəni-tarixi məkan kimi həm qitədə, həm də bütün dünyada ümumi və fərqli inkişaf qanunauyğunluqlarına malik olduğu qızğın müzakirələrin mövzusuna çevrilmişdi. Klassik Avrasiyaçılığın bəzi nəzəri müddəaları, müasir dövrdə "vahid dünya və müxtəlif xalqlar" nizamının formalaşması işində verdiyi cavablardan daha çox, gündəmə gətirdiyi suallarla diqqəti cəlb edə bilər. Məsələn, bir fikri yada salaq: "Avrasiya məkanı çərçivəsində yaşayan insanlar və xalqlar qarşılıqlı anlaşmanın elə səviyyəsinə, qardaşlıq münasibətlərinin elə formalarına malikdirlər ki, dünyanın başqa yerində buna çətin nail olmaq olar".

"Avrasiya" mövzusunun doğurduğu digər səthi təsəvvürlərdən biri də belədir ki, "Avrasiyaçılıq prinsipi müxtəlifliyin, unikallığın zərurətini vurğulayır, deməli, universalizmin, ümumbəşəri prinsiplərin əleyhinədir".

Zənnimcə, Dialoq məramı başlanğıc prinsipi kimi vurğulanması bu təsəvvürlərə ən yaxşı cavab və həm də mövqedir. Dialoq – dünya inkişafının əsas meyillərini həm əks etdirə, həm də onu davam etdirə bilən konseptual prinsipidir. Bugünkü qlobal cəmiyyətin təsisatları, bəşəriyyətin qarşısında duran problemlərin həllini tapmağa, onun dayanıqlı inkişaf yollarını müəyyənləşdirməyə çalışmalıdır. Əgər qarşılıqlı təsir gedirsə və bu təsir uğurlu səmtə, məcraya doğru yönəlmirsə, vəziyyət artıq müsbət deyil, mənfi nəticələr verə bilər. Çünki bütövlüyü, tamlığı get-gedə daha da əyaniləşən dünya sisteminin yalnız bir elementi, bir mədəniyyət modeli inkişaf etdirilirsə, bu sivilizasiyanın



böhranının başlanğıcıdır. Hər bir ölkənin inkişafı milli və bəşəri, qlobal və lokal aspekt və maraqların vəhdətini nəzərə alaraq davam edərsə, narahatlıq üçün əsas da yaranmır.

Dialoq vasitəsilə keçmişin yolları təhlil edilir, indinin problemləri aydınlaşdırılır, gələcəyin əsas meyillər istiqamətinə yönəlməsi təmin edilə bilir.

Avropa və Asiyanın, Qərbin və Şərqin, müxtəlif xalqların dünyagörüş və dəyərlər sisteminin "bir araya sığmaz olması"na dair fikirlər də mövcuddur. Burada R.Kiplinqin "Qərb qərbdir, Şərq də şərq" deyimi, yaxud O.Şpenqlerin "ərəb heç vaxt çinli ola bilməyəcək" kimi fikirlərini yada salsaq kifayətdir. Dialoqun inkişaf yolu kimi potensialı məhz burada aydın sezilir. Dünyagörüş və dəyərlər sisteminin bir araya sığmazlığını dramatikləşdirmək qeyri-məqbul yoldur. Bəşəriyyətin uzunmüddətli inkişaf tarixi göstərir ki, əbədi həqiqət və dəyərlərə dair hər bir xalqın mədəniyyətində kifayət qədər ümumi sayıla biləcək fikirlər mövcuddur. Mədəniyyətlərin ümumi mövqeyə, ortaq məxrəcə gəlməsini qeyri-mümkün hesab edən "kultur relyativizm", buradakı böyük intellektual, mənəvi potensialı görə bilməmişdir. Bunun əsas səbəbi də milli və bəşəri qatlar arasında varislik və dialoq kimi faktorların əhəmiyyətinin sezilə bilməməsi olmuşdur. Müxtəlif xalqların dünyagörüşündə, bütün insanların birgəyaşayışını, vəhdətini təmin edə biləcək dəyərlər hökmən mövcuddur. Bir anlığa təsəvvür edək ki, əvvəlki sivilizasiyalarla bizim aramızda heç bir varislik, əlaqə və s. yoxdur və olmamışdır. Hər bir xalq, mədəniyyət öz-özlüyündə qapalı mövcuddur. O.Şpenqlerin tipologiyasındakı "monada-sivilizasiyalar" məhz belə görünürdü. Lakin biz bilirik ki, bu, belə deyil.

İnsanlar, sivilizasiyalar arasında bağlılıq və əlaqəni mümkün edən dəyər və amillər bütün mədəniyyətlərdə vardır. Bu dəyərlər həm dəyişən əsrlər və epoxalar üzərindən, həm də konkret tarixi zaman və məkan çərçivəsində körpü rolunu oynayan, keçən əsrlərin də mədəni sistemlərinə münasibətimizi bildirməyə imkan verən, fasiləsizliyi təmin edən ünsiyyət və dialoqdur.

Bir-birindən fərqli düşünən, müxtəlif mədəni dəyərlərə malik olan insanların, yalnız bu fərqlərə görə bir-birini inkar etməsi qeyri-real bir mövqedir. Unutmaq olmaz ki, bu fərqlik və müxtəliflik yalnız müxtəlif xalqlara və mədəniyyətlərə deyil, eyni mədəniyyət daxilindəki insanlar üçün də xasdır.

Məsələn, kim isə həmişə düzgün həqiqəti söyləməyi üstün tutur və ya həqiqət söylədiyini iddia edir və s. Lakin bütün hallarda bənzərsiz münasibətlər, baxışlar, mövqelər, dəyər və təsəvvürlər birgə müzakirə mövzusu ola bilər və olmalıdır. Bəzən hər bir insanın öz qəlbində də müxtəlif hiss, düşüncə və fikirlərin mübarizəsi gedir. Bu, o demək deyil ki, bu fikirlərin biri həqiqi, gərəkli, digəri yalan və gərəksizdir. Müxtəlifliklərin qarşılıqlı təsiri, insan və cəmiyyətə xas olan təbii-obyektiv, ontoloji bir keyfiyyətdir. Ümumiləşdirmə aparsaq, mənsub olduqları mədəniyyətdən asılı olmayaraq, yalnız şər hissi deyil, xeyir hissi də əzəli olaraq bütün insanlar üçün xasdır.

Bəşəriyyətin XXI əsrə gəlib çıxmasını mümkün edən ümumbəşəri və milli dəyərlər, onun sonrakı gələcəyinin də təminatçısı ola bilər. Onların əbədiyaşar potensialı yalnız dialoq və ünsiyyət prosesində üzə çıxa, aşkarlana bilər.

Müasir dünyanın bütün intellektual-mənəvi potensialı bu istiqamətdə əlindən gələni edə bilər və etməlidir. Dialoq Avrasiya bu xətti qətiyyətlə reallaşdıran qurumlar sırasındadır.



Müasir politoloji ədəbiyyatda, "Avrasiya" mövzusunun, eləcə də Avrasiyaçılığın qatı antiqərb mahiyyətli mövqe, düşüncə tərzi kimi qiymətləndirilməsi cəhdlər fikrimizcə yanlışdır (Məs: *Brzezinski Z. The Grand Chessboard. New-York, 1998; Clover C. Dreams of Eurasian Heartland. Foreign Affairs, 1999, v.78, №2* və s.).

Zənnimizcə, Avrasiyaçılığın – sivilizasiyanın inkişaf yolu və modellərinə dair intellektual, mədəni ictimai bir istiqamət kimi dəyərləndirilməsi daha obyektiv və məqsədəuyğundur. Formalaşmaqda olan yeni dünya düzəni və planetar təfəkkürdə Avrasiyaçılığın da potensialı olmamış deyil. Avrasiya qovşaq sivilizasiya kimi yalnız geosiyasi, iqtisadi deyil, həm də başlıca olaraq özünəməxsus mədəni-mənəvi məkandır. Etiraf edək ki, bu müddəa qloballaşma prosesi ilə əlaqədar olaraq "geosiyasət" anlayışının məzmun və mahiyyətinin böyük dəyişikliklərə uğraması aspektində çox aktualdır. Bu müddəada geosiyasi və iqtisadi sahədə mövcud olan ziddiyyətlər, mədəniyyətlərin bir-birinə açıqlığı və onların dialoqu müstəvisinə keçir. Mədəniyyətlərin zaman-məkan kontiniumunda dialoqun insan və bəşəriyyətin yaşam tərzinə çevrilməsi səyləri baxımından bu səylər alqışlanmalıdır.

Avrasiya – qovşaq, sintez, aralıq sivilizasiya kimi bənzərsiz dəyərlər sistemini formalaşdırmışdır. Bunların ən mühümü elmi ədəbiyyatda vurğulandığı kimi, "çoxçalarlıq və müxtəlifliyə" xüsusi önəm verilməsi, onun zəruri şərt hesab edilməsidir. Qovşaq sivilizasiya özündə ehtiva etdiyi

mədəniyyət, dəyər və ənənələrin heç birini mütləq, etalon, nümunə hesab etmir. Bu sivilizasiyanın əsas arxetipi qarşılıqlı təsir, dialoqdur.

Təsadüfi deyil ki, Avrasiyaçılıq, (hətta klassik sayılan avrasiyaçılar da), "millətlərin öz müqəddəratını təyin etməsi, hətta ayrıca dövlət qurmalarına qədər hüququn" verilməsi *(«самоопределения наций вплоть до отделения)* şüarını həmişə tənqid etmiş, bu şüarın özündə nifaq, parçalanma və separatizm meyillərini daşıdığını açıq söyləmişlər. Bu günümüzdə problemin nə qədər aktual olduğunun şahidi oluruq. Separatçı rejimlərin dünyada yaratdığı gərginlik ocaqları məhz bu şüardan bəhrələnmişdir.

Ümumi dövlətçilik və qlobal bəşəriyyətin maraqlarının etnik, konfessional və milli-mədəni plüralizmə dayaqlanan vahid sistem əsasında ahəngdar inkişafının təmin edilməsi baxımından avrasiyaçılığın nəzəri və praktiki əhəmiyyəti göz önündədir.

Qlobal sivilizasiyanın gələcəyinin formalaşması dünyadakı insanların, xalqların hamısının birgə işidir. Bu yalnız qlobal səviyyədə qərar qəbul edən ixtiyar sahiblərinin səlahiyyətində deyildir və ya ən azı belə olmamalıdır. Qloballaşma prosesinin bu gün müşahidə olunan neoliberal Qərb modeli özünün bütün ziddiyyətləri, qalib və məğlub sifətləri ilə tarix qarşısında imtahan verir. Sivilizasiyanın böhranını aradan qaldırmaq üçün, onun ruhunu təşkil edən mədəniyyətlər dialoqda bir araya gəlməli, müxtəlifliklərlə vəhdət arasında ahəng və uyğunluq yaratmağa əzmli olmalıdır. Tarix boyu da, xüsusilə də müasir dövrdə heç bir xalq, ölkə başqalarından təcrid olunmuş, qapalı şəkildə mövcud ola bilməz.



Postsovet məkanında baş verən hadisələr də, qloballaşma prosesinin təhlilinin ilk nəticələri də göstərdi ki, yeni dünya nizamının formalaşdırılması, köhnənin dağıdılmasından qat-qat çətindir. Bunlar "Avrasiya" mövzusunda davam edən belə bir ideyanın da həyatiliyini təsdiq etdi ki, dünyada yeni inkişaf yollarının, qarşılıqlı münasibətlərin yeni modellərinin, planetar düşüncə tərzinin təşəkkül tapması, milli, mədəni, mənəvi faktorlar və onların daşıyıcısı olan xalqların yeri və rolu nəzərə alınmadan qeyri-mümkündür. Hər bir xalqın milli xarakterini, mentalitetini, davranış stereotiplərini, tarixi yaddaş və təcrübəsinə həssas yanaşılmadan, yalnız rasional prinsiplər üzərində inkişaf yollarının konseptual modeli qurula bilməz.

"Azərbaycan Avropa ilə Asiyanın qovuşuğunda yerləşir. Coğrafi mövqeyinə görə Azərbaycanın əhəmiyyəti böyükdür. Hesab edirəm ki, onun coğrafi siyasi mövqeyi təkcə bizim özümüzdən ötrü deyil, həm də dünya birliyi üçün əhəmiyyətlidir". Bu sözlər, ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyevə məxsusdur. Bəli, Azərbaycan xalqının milli təfəkkürünün formalaşmasında, siyasi, iqtisadi, mədəni həyatında Avrasiya məkanının böyük təsiri vardır. Azərbaycanın mütəfəkkir şəxsiyyətləri, sabahın inkişaf yollarına dair, türk dünyasının, türkçülüyün ən böyük simaları ilə fikir mübadiləsi və dialoqları, tarixin ən çətin dönəmlərində belə mövcud olmuşdur. Ə.Hüseynzadəni, Z.Göyalpı, C.Əfqanini və başqa neçə-neçə millətsevər insanları yada salaq. Dialoq Avrasiya qurumu bu dahi insanların məram və qayəsini davam etdirir. Dialoq-tarixi təcrübəyə dayaqlanaraq, sabahın yolları barədə həm düşünməyə, həm də əməli fəaliyyət göstərməyə çağırır.

Biz tarixi reallığı qara rənglərdə görmək məqsədindən uzaqdayıq. Lakin bizə elə gəlir ki, Avropa və Asiyanın qarşılıqlı münasibəti problemi bu gün bəşəriyyət qarşısında özünün ən ciddi, ən kəskin formasında durur. Sabahkı nəsillərin mədəni, ictimai, tarixi taleyinin dayaqlana biləcəyi yeni münasibətlər qurula biləcəkmi? Bu dialoq, inteqrasiya və barışdan bilavasitə asılıdır. Bu gün Avropanın Asiya ilə informasiya, iqtisadiyyat və s. baxımından çox yaxınlaşmışdır. Bunu mədəniyyətlər barədə söyləmək olarmı? Məkan qonşuluğunu, yaxınlığını, insanların və mədəniyyətlərin qonşuluğuna çevirmək olacaqmı? Bu sualları cavablandırarkən biz XX əsrin əvvəllərində olduğu kimi pessimizm əhval-ruhiyyəsinə qapılmaq istəmirik.

Avrasiya məkanının üzvü olan dövlətlər öz tarixi borc və missiyalarını mövcud problemlər və onların inkişaf yolları istiqamətində söylənilləcək hər bir fikrə ilk öncə hörmətlə yanaşmaqda, dialoqa dəvət etməkdə yerinə yetirməlidir. Bu məkan da hər bir mədəniyyətin öz sözünü deməsi üçün verildiyi imkan, tribunadır.

Həyat durduqca, dialoq da vardır. Bir mütəfəkkirin sözləri ilə deyilsə" Avropa və Asiya öz aralarında həyatın dövran etdiyi, dialoqun sonsuz olduğu iki qütbdür" (Herman Hesse).

Avrasiyanın inteqrasiyanın məkanı olduğunu tarixin təcrübəsi təsdiqləyə bilər. Avrasiyada müasir dövrün inteqrasiyanın zamanı olduğunu başa düşürlər: bu gün dünyada gedən proseslər özü də bunu təsdiqləyir. Sabahın inkişaf yollarının necə olacağı, məkan və zamanda fasiləsiz davam edəcək inteqrasiya səylərindən, dialoqlardan bilavasitə asılı olacaqdır.



*II BÖLMƏ*

# AZƏRBAYCAN XXI ƏSRDƏ: MİLLİ-MƏNƏVİ İNTİBAH VƏ MƏDƏNİ İNTEQRASİYANIN GENİŞLƏNƏN ÜFÜQLƏRİ

## § 1. Ümummilli lider Heydər Əliyevin siyasi kursu mədəni müqəddəratımızın qarantıdır

*Heydər Əliyevin nəzəri irsi də onun praktiki fəaliyyəti kimi çoxşaxəlidir. Müasir Azərbaycan dövlətinin möhkəm özülünü yaratmış bu böyük şəxsiyyətin ideya dünyası onun davamçıları üçün gələcəkdə də örnək olmalıdır. Ona görə də Əliyevşünaslığın bir elmi istiqamət kimi inkişaf etdirilməsinə böyük ehtiyac vardır.*

**Ramiz Mehdiyev**

İstər uzaq keçmişdə, istərsə də ən yaxın siyasi tarixdə dünya xəritəsində yer almış, real dövlətçilik taleyi yaşamış ölkələrin adı və tarixi ilə, onları yaradan şəxsiyyətlərin adı və tarixi missiyası arasında əbədi vəhdət mövcud olmuşdur. Bu yalnız tarixi yaddaşın təməlində uyuyan müqəddəs borc və minnətdarlıq hissi, yalnız obyektiv salnamə yaratmaq cəhdi də deyil, həm də cəmiyyət haqqında elmin əldə etdiyi nəzəri qənaət və qanunauyğunluqlardan biridir.

Bəşəriyyətin yaşadığı tarix belə bir qanunayğunluğu da təsdiqləyir ki, əsasən subyektiv təsəvvürlərə söykənən işğal və fəth fəlsəfəsini, cəng meydanlarında göstərilən məharəti, reallığın obyektiv axarına bələd olmaqla yaradılan dövlətin qu-



rulması və idarə edilməsi missiyası ilə tamamlaya bilməyənlərin məramı nəticəsiz qalmış, ya da tam əks olan sonluğa gətirib çıxarmışdır; sabit dövlətçilik ənənələri formalaşa bilməmiş, həm konkret ölkənin, həm də bütövlükdə bəşəriyyətin faciələrə düçar olmasına səbəb olmuşdur.

Cəmiyyətşünaslıq elmi məhz yaradıcı, qurucu insanların irsini, təcrübəsini, dövlətçilik ənənələrinin öyrənilməsini öz tədqiqatlarının predmetinə çevirir. Bu fenomen şəxsiyyətlərin siyasi uğurunun sirləri, fövqəlmürəkkəb durumlardan çıxış yolu tapmaq məharəti heç vaxt köhnəlmir, ictimai elmin möhkəm nəzəri təməl və müddəaları kimi hər bir ölkədə, hər yeni gələn nəsil tərəfindən yenidən və yenidən öyrənilir.

Ümummilli lider Heydər Əliyev həm suveren Azərbaycan dövlətinin, həm də dövlət yaratmaq elminin banisi kimi bu müqəddəs şəxsiyyətlərin sırasındadır.

Çoxşaxəli fəaliyyətinin hər bir məqamına münasibətdə "ilk dəfə" sözünün tətbiq edilə bildiyi Heydər Əliyev fenomeninin Azərbaycan xalqı qarşısındakı xidmətlərinin bütün spektrini sadəcə sadalamaq belə çətin məsələdir və ayrıca bir kitaba da sığmayan mövzudur. Xalqımız bunları belə demək mümkünsə, təbii-təhtəlşüur səviyyəsində hiss edir, ulu öndər qarşısında əbədi minnətdarlıq duyğusunu əziz tutur.

Heydər Əliyev ideyalarının və əməlinin həqiqi dəyəri və sanbalı, bir tərəfdən, yaşanılan zamanın özəllikləri, XX əsrin ikinci yarısındakı qlobal durum, bütün dünya düzəninin sistemli böhranı və struktur transformasiyası fonunda daha aydın və qabarıq görünə bilər. Digər tərəfdən, isə, Azərbaycanda müstəqil dövlətin yaradılmasının nəyin bahasına mümkün olması, sosialist düşərgəsinin çökdüyü bütün ölkələrlə müqayisədə, burada mövcud olan çətin,

fərqli şəraitin özəlliyi nəzərə alınmaqla dərk edilə bilər.

Bir çox ölkələrin "geriyə" II dünya müharibəsinə qədərki duruma – müstəqil olduqları dönəmə, kapitalizmə qayıtmaları ilə bərpa işlərinə başlanıldı və "dairə qapandı". Azərbaycanda isə bu mənada bərpadan söhbət gedə bilməzdi. XX əsrin əvvəllərində, yaradılmamış süquta uğradılan, cəmi iki il yaşı olan müstəqil cümhuriyyətdən nəinki bərpa olunası bir möhkəm təməl, sadəcə, xronoloji olay və şüarlardan başqa heç bir siyasi, hüquqi, ideoloji iqtisadi və s. irs qalmamışdı. Bu baxımdan müstəqilliyin bərpa olunması kimi fikirlər əlbəttə ki, simvolik xarakter daşıyır. Çünki Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini ağlagəlməz dərəcədə çətin geosiyasi məkanda, dünya güc mərkəzlərinin müdhiş maraqlarının çarpışmasının son həddə çatdığı, daxili xaosun kulminasiya məqamında bərpa etməmiş, özülündən, "ilk kərpicdən" başlayaraq yaratmışdır.

Bu gün qürurla vətəndaşı adını daşıdığımız Azərbaycanda "müstəqillik", "demokratik dövlət", "vətəndaş cəmiyyəti" və s. kimi anlayışların lakonik məzmununa vərdiş etmişik, onların arxasında duran möhtəşəm mənanı, titanik fədakarlığı bəzən tam dərk edə bilmirik.

Bütün dünyada qlobal konfiqurasiyanın sanki məhvərindən çıxdığı bir dönəmdə keçmişin "dəmir-beton" müddəalarından, indinin çevik, təxirəsalınmaz, refleksiv qərar qəbuletmə metodlarına sövq-təbii fəhmlə keçid almaq zamanın çağırışına çevrildi. Məmləkəti təhdid edən qeyri-müəyyən inkişaf vektorlarının xaotik çulğaşdığı bir məqamda, əsrlərlə reallaşması arzu olaraq qalan suveren Azərbaycan dövlətinin var olmasına aparacaq yalnız bir, yeganə düzgün yolun seçimini etməyi bacaran, müstəqilliyə həyat verən, onu dönməz



və əbədi edən qüvvənin sadəcə bir insanın – Heydər Əliyevin simasında cəmləndiyinə heyrət etməyə bilmirsən.

İnsanlara sarsılmaz inamı müqabilində, onların etibar və dəstəyini qazanaraq, siyasi müdrikliyi və fəhmi, ictimai erudisiyası, nəzəriyyəsi və praktiki peşəkarlığı, qətiyyət və təmkini bir araya gətirmək, qeyri-adi problemlərin yeganə optimal həlli variantlarını sezmək tarixi şəxsiyyətin fərqli keyfiyyətidir. Azərbaycanın özünəməxsus inkişaf paradiqmasını müəyyənləşdirmək, bütün fəaliyyəti dövründə xalq məhəbbətinin gerçək nümayişini görə bilmək yalnız ulu öndərimizə nəsib olmuşdur.

Dövlətçilik yaşı əsrlərlə sayılan ölkələrlə müqayisədə, tarixin bir anı sayılan zaman müddətində Azərbaycanın strateji geosiyasi, ideoloji, sivilizasion vektorlarının seçilməsi, dövlət yaradıcılığının hansı institusional genezis formalarına önəm verilməsi, intellektual, siyasi, iqtisadi resursların səfərbər edilməsi, cəmiyyətin siyasi palitrasındakı ən müxtəlif mənbələrdən idarə olunan, ziddiyyətli siyasi maraq və oriyentasiyaları bir nüvədə cəmləməyə, bir hədəfə vurmağa nail olmaq siyasət dahisinin – Heydər Əliyevin xidmətlərinin adi şüur prizmasından görünən natamam bir rakursdur.

XIX əsrdən Azərbaycanın taleyində baş verən miqyaslı tarixi olayların səbəbi, bu vaxtadək başqalarının nəsibi olan təbii sərvətin – neftin, strateji məhsul kimi ilk dəfə, Azərbaycanın başlıca sərvət olan insanların və qeyri-neft sektorunun rifah və yüksəlişi vasitəsinə çevrilməsini, Azərbaycan üçün mövcud olmasını təmin etdi.

Qlobal güc mərkəzlərinin nisbəti və dinamikasına dərin bələd olmaqla, Azərbaycanın geosiyasi mövqelərinin üstünlüklərindən istifadə etməyə, yalnız təbii sərvətlər hesabına deyil, siyasi sabitlik yaratmaqla ölkənin investision reytinqinin artı-

rılması, cəmiyyətin bütün sahələrində dövlət tənzimlənməsinin bərqərar olduğuna inandırmaq sayəsində ölkəmizi dünyaya tanıtdırmağa qadir oldu. Bütün bunların bəhrəsi kimi, Azərbaycana, bir çox ölkələr üçün əlçatmaz arzu olan regional lider, demokratik-dünyəvi dəyərlərə sadiq, fundamental ifratçılıqdan uzaq olan cəmiyyət kimi qlobal inkişaf layihələrinin ideal plasdarmı statusunu qazandırdı.

Ölkə daxilində, dövlət-cəmiyyət münasibətlərində populist, bayağı frazeologiya, subyektiv emosional radikalizmdən uzaq, real elmi əsaslara, həyat fəlsəfəsinə malik hakim elitanın formalaşdırılması, "elita" sözünün etimoloji mənasına uyğun olaraq onun "ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə malik seçilmiş elita" olduğu göz önündə baş verən uğurun təkamülü sübut edir. Yaratdığı hakim partiyanın siyasi konsolidasiyası, xalqla sarsılmaz alyansı, lider amalının milli dövlətçilik amalına çevrilməsi yaşadığımız tarixin reallığıdır. Azərbaycan dünyada gedən proseslərin passiv müşahidəçisindən fəal subyekti sırasına adladı.

Tarixə və dünya siyasi xəritəsinə suveren Azərbaycanın adını həkk etdi. Müstəqil dövlətin və dövlət yaratmaq haqqında elmin əsaslarını yaratdı.

Postsovet məkanındakı başqa ölkələrlə müqayisədə Azərbaycanın fövqəlmürəkkəb start şərtləri, inkişafın reallaşdırılması istiqamətində onun əl-qolunu bağlayan, "imkanlar koridoru"nu son dərəcə daraldan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kimi əlavə ağırlaşdırıcı təzyiq faktorunun mövcudluğu şəraitində baş verməsi, ulu öndərin Azərbaycan qarşısındakı xidmətlərinin misilsiz olduğunu başa düşməyə kömək edir.

Müstəqillik azad siyasəti, yəni öz inkişafını suveren



milli maraqlardan çıxış edərək qurmağı nəzərdə tutur. Ümummilli liderin siyasi uğurunun ana xəttini məhz milli maraqların prioritet hədəf kimi seçilməsi təşkil etmişdir. Hazırda bütün postsovet məkanında çoxçalarlı "demokratiya" anlayışını bəsit mənada, kimlərinsə diktə etdiyi universal model kimi başa düşənlər, öz siyasi proqramlarını qərbə ünvanlayan, hər bir məsələyə müxtəlif mənbələrdən bildirilən münasibətlər müqabilində güzəştə getməyi şüar tutan, buna ümid edən təqlidçi və təslimçi siyasi qüvvələr məğlubiyyətə uğramış, marginal qurumlara çevrilmişlər. Demokratik transferin, vətəndaş cəmiyyətinin hazır reseptlər və "ixrac modelləri" əsasında deyil, Azərbaycanın özünəməxsus tarixi, siyasi, mədəni spesifikasından irəli gələn milli maraq və təməllər üzərində qurulmasını üstün tutan H.Əliyev siyasi kursu davamlı qələbələrin rəhninə çevrilmişdir.

Yeni dünya düzənində lider-cəmiyyət qarşılıqlı münasibətlərində üzə çıxan yeni keyfiyyət dəyişikliklərindən biri budur ki, siyasi proseslərin yeni subyektləri – xalq, cəmiyyət, insan qrupları dəyişikliklərin, vətəndaş cəmiyyətinin başlıca aktorları kimi siyasi fəallığın episentrini təşkil edirlər.

Belə dönəmlərdə siyasəti və siyasətçiləri, onların məram və missiyalarını insanlara çatdırmaq üçün lider ideyalarının trayektoriyasını davam etdirmək, geniş kütlələrə düzgün təhlil və təqdim etmək kimi çox mühüm vəzifə ortaya çıxır. Məhz belə məqamlarda milli liderin siyasətinin xalq üçün anlaşıqlı dilə, bütün cəmiyyətin həyat devizinə çevrilməsinə yardımçı olan məsləkdaşlar, siyasi liderlə xalqın arasında ümumi ünsiyyət məkanının formalaşmasına, üfüqi və şaquli müstəvilərdə xalq-lider dialoq kanalının yaranmasını, qarşılıqlı

təmas nöqtələrinin davamlılığının təşkil edilməsinə yardımçı olurlar.

Ulu öndərin rəhbərliyi altında Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkülü və formalaşması kimi tarixi hadisənin baş verməsi, dövlətçiliyin institusional əsaslarını səciyyələndirən struktur dəyişiklikləri, cəmiyyəti təşkil edən sosial tip və stereotiplərin bir-birini əvəzləməsi prosesi kimi mürəkkəb mövzunun siyasi- fəlsəfi təhlili də müəllifin tədqiqatlarında ilk dəfə təhlilə cəlb edilmişdir.

Vətəndaş cəmiyyətinin formalaşması XX əsrdə elmi-texniki inqilabla yanaşı, ikinci – yəni sosial inqilab hesab olunur. Ramiz Mehdiyev vətəndaş cəmiyyəti nəzəriyyəsinin, əsasən Qərb mənşəli konsepsiya olduğunu vurğulamaqla yanaşı, onun özünəməxsus Azərbaycan modelinin yaradıcısının məhz Heydər Əliyev olduğunu, bu nəzəriyyəni praktiki siyasi gerçəkliyə çevirməsini hərtərəfli təhlil edir. Vətəndaş cəmiyyətinin Azərbaycan modelinin formalaşması özəlliklərinə diqqəti cəlb edərək bu nümunədə həmin nəzəriyyəyə xas olan bəzi məhdudluqlardan azad olmağa cəhd edilməsini, onu həqiqi mənasına yaxınlaşdırmaq məramını önə çəkir.

Azərbaycanda vətəndaş cəmiyyətinin qurulması prosesində qarşıya çıxan problemlərin, həm ikiqütblü dünyanın, həm də yeni və köhnə ideologiyaların kəskin mübarizəsi, bu məkanda toqquşan maraqların yüksək gərginliyi fonunda ardıcıl olaraq həll edildiyi üçün tarixi nailiyyət kimi daha dəyərli olduğu qeyd edilir. Vətəndaş cəmiyyətinin formalaşması istiqamətində prioritet hədəfləri müəyyən edən ümummilli liderin yeni münasibətlərin qurulacağı müstəqil siyasi, iqtisadi, hüquqi, mədəni, mənəvi məkanını təmin etməsi vurğulanır.

Heydər Əliyevin bünövrəsini qoyduğu vətəndaş cəmiy-



yətinin ən başlıca xüsusiyyəti kimi müəllif Azərbaycanda, ilk növbədə, insanlar arasında Vətəndaş Sülhünün bərqərar olmasını qeyd edir, bu münasibətlərə ümumi qarşıdurma və vətəndaş müharibəsini aradan qaldırmaqla nail olmasını diqqət mərkəzinə gətirir. Yeni cəmiyyətin qurulması üçün zəruri olan siyasi sabitliyə - təkamül pauzasına yalnız vətəndaş sülhünün imkan yarada biləcəyini fəhmlə sezməsini xatırladır.

Vətəndaş cəmiyyətinin Heydər Əliyev konsepsiyasında insanlararası münasibətlərin və mütərəqqi inkişafın başlıca qarantı kimi dövlətin rolunun möhkəmləndirilməsi xüsusi önəm kəsb etmişdir. Dövlətin vətəndaşların ən müxtəlif maraq və mövqeləri arasında anlaşma, humanitar ünsiyyət məkanını təşkil etmək kimi müqəddəm şərtləri təmin etməsinə böyük əhəmiyyət verilmişdir. Vətəndaş fəallığının, ilk növbədə, vətəndaş mədəniyyəti, demokratik və siyasi mədəniyyətdən ayrılmaz olduğu, azadlıq və məsuliyyətin kövrək balansının daim gözlənilməsi, fərdi fəallıqla milli maraqların, dövlətin qüdrəti və nüfuzunun artması arasında ahəngin saxlanılmasının vacib olduğu sübut edilmişdir.

Yeni vətəndaş cəmiyyəti təsisatlarının Qərb təcrübəsinə və Qərbin müxtəlif məzmunlu dəstəyinə əsaslanması təbii bir prosesdir. Lakin burada vətəndaş cəmiyyətinə süni imitasiya yaratmaq cəhdlərinin gərəksiz olduğu geniş təhlil edilmişdir. Əksinə, bu təsisatlar vətəndaş təşəbbüskarlığının, inkişaf strategiyasında gerçək alternativ variantlar varsa, onlara dair təkliflərin verilməsi problemlərin müxtəlif baxış bucağından görüntüsü və konkret həlli yollarının tövsiyə edilməsini əlaqələndirən vətəndaş fəallığı mərkəzlərinə çevrilməsi onların həqiqi təyinatları və məramının reallaşması demək olardı.

Vətəndaş cəmiyyəti hər bir dövlətdə, sadəcə, müəyyən

hüquqi mexanizm və qurumların yaradılması deyil, hər şeydən əvvəl, vətəndaş, dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur. Ulu öndər təməlini qoyduğu Azərbaycan modelində sübut etdi ki, vətəndaş cəmiyyəti, bir tərəfdən, dünyanın demokratik, siyasi-hüquqi təşkilatlanmasının universal modelidirsə, digər tərəfdən sosial münasibət və strukturların möhtəşəm müxtəlifliyini, vətəndaşların fikir və təşkilatlanma plüralizmini, qarşılıqlı dialoq və tolerantlığı tələb edir. Bu gün Azərbaycanda gedən təkamül prosesi akademik R.Mehdiyevin belə bir fikrini təsdiq edir: "Əgər XX əsr Azərbaycan dövlətinin və xalqının tarixində müstəqilliyin qazanılması ilə yadda qalacaqsa, XXI əsrə və yeni minilliyə Azərbaycan hüquqi sivil dövlət, vətəndaş cəmiyyəti quran ölkə kimi daxil olmuşdur".

Siyasi liderin ideyalarını geniş xalq kütlələrinə, elmi ictimaiyyətə obyektiv, nəzəri-konseptual şəkildə, ictimai şüurda, media məkanında təqdim etməklə onun strategiyasını diskussiyaların başlıca mövzusuna, ana xəttinə çevirməklə ideyaların maddi gücə və xalqın hər şeyə qadir enerjisinə transformasiyasını mümkün etməklə liderlə çiyin-çiyinə olan insanlar da müqəddəs yolun yolçuları olurlar.

Sirr deyil ki, dahi ideya və əməllər mövcud olduğu konkret zaman və məkanın fövqündə olur, onların dərk edilməsi, dünyagörüşə nüfuz etməsi də zaman keçdikcə əsl dəyərini alır.

Ulu öndərin müstəqil dövlətçilik, demokratik vətəndaş cəmiyyətinin qurulmasına dair ideya-siyasi irsi əbədi və aktual olduğu kimi, alim və tədqiqatçılar, siyasi analitik və ekspertlər üçün əvəzsiz nəzəri mənbədir. Heydər Əliyev dühasının möhtəşəm mənasının dərk edilməsi, Azərbaycanın uzunmüddətli inkişaf perspektivlərinin müəyyənləşdirilməsi baxımından, bu



irsdən bəhrələnmək sahəsində görülən işlər artıq bir neçə illərdir ki, tarix, fəlsəfə, politologiya, hüquq, idarəetmə və s. ictimai elmlərin birləşmə nöqtəsində öz metodlarını, predmetini formalaşdırmaqdadır.

Bizə bu qədər yaxın və əziz olan, lakin artıq heç vaxt geri dönməyəcək bir epoxanın ab-havasını, mürəkkəb şəraitini bəzən siyasi tutum və sanbala malik təfərrüatlar, başlıca olaraq isə fəlsəfi-siyasi təhlilin, bitkin nəzəri müddəalarla və obyektiv şərh üslubu ilə tamamlayan nadir müəllifdir.

Heç kimə sirr deyil ki, istər bütün dünya, istərsə də Azərbaycanda baş verən kardinal transformasiyaların axarı və tempi o qədər sürətli idi ki, onlara nəinki siyasi analitiklər, hətta KİV-lər belə vaxtında, adekvat münasibət bildirməyə macal tapmırdılar. Professor R.Mehdiyev həm baş verən hadisələrin bilavasitə iştirakçısı, Heydər Əliyev komandasının sadiq üzvü və məsləkdaşı, həm də özündə ən azı fəlsəfə, tarix, politologiya və idarəetmə elmlərinin əsas təhlil metodlarını cəmləyən alimdir. Ulu öndərin ideyalarının gerçəkləşməsinin canlı müşahidəçisi kimi onların faktiki təsviri, obyektiv gedişatının hərtərəfli təhlil süzgəcindən keçirilməsi, bütün bunların, müəllifin elmi marağı, liderə sədaqət və inamına, vətəndaşlıq mövqeyinə uyğun tərzdə tədqiqata cəlb edilməsi, bu gün Əliyevşünaslığın təməli hesab oluna biləcək dəyərli əsərlərin ortaya çıxmasını mümkün etmişdir.

Baş verən yeni məzmunlu proseslərə elmdə tam fərqli yanaşmaların tətbiqini tələb edən keçid dövründə peşəkar tədqiqatçı nəslinin yeni formalaşdığı bir şəraitdə, ümummilli liderin irsini müxtəlif aspektlərdən işıqlandıran əsərlərin bir-birinin ardınca işıq üzü görməsi elmi ictimaiyyət üçün əlamətdar olan amilə çevrilmişdir.

Müəllifin əsərləri həm özü, həm də oxucu ilə dialoq təsirini bağışlayır. Onların başlıca xüsusiyyəti isə proseslərin dərin və sərrast təhlili, düzgün proqnozların verilməsi, hadisələr arasındakı məntiqi bağların sezilməsi, Heydər Əliyev kursunun siyasi kontekstinin genişləndirilərək fərdi dünyagörüşü və ictimai şüurun üfüqlərinədək gətirilməsi, Azərbaycan adlı suveren məmləkəti yaradan dahinin müasiri və məsləkdaşı olmaqdan duyulan dərin məsuliyyət, ülvi qürur, həyat kredosunu müəyyənləşdirən tarixi şans kimi əvəzsizliyi hissini duymamaq qeyri-mümkündür.

Elmi ədəbiyyatda Kanada haqqında belə bir deyim mövcuddur: "Ərazi çox böyükdür, tarix isə çox kiçikdir". Onu Azərbaycana tətbiq etməyə cəhd etsək və burada əksinə, tariximizin çox böyük, kəşməkəşli və mürəkkəb olduğunu desək yanılmarıq. Bu xüsusən də Heydər Əliyev fenomeninin yaratdığı tarixə aiddir. Bu dönəmin hər bir Azərbaycan vətəndaşının tarixi yaddaş və təfəkkürünə əbədi həkk olunması əvəzsiz sərvətdir.

Heydər Əliyev irsinin, Əliyevşünaslığın geniş tədqiqi və təhlili üçün elmi təşkilati imkanların kifayət qədər intensivləşməsinə olan elmi və sosial sifariş çox yaxında fəaliyyət göstərəcək Heydər Əliyev Mərkəzində gerçəkləşdiriləcəkdir. Əliyevşünaslığın ən müxtəlif sahələrdə elmi tədqiqatları koordinasiya edən mərkəz kimi institutsionallaşması, ulu öndərin misilsiz irsinə sahib çıxan, onu geniş yayan, dünya ictimaiyyətşünaslığının dəyərli tərkib hissəsinə çevirə bilən ən müasir beyin mərkəzi kimi statusda fəaliyyət göstərəcək Mərkəzin fəaliyyəti müqəddəs işə xidmət edəcəkdir. Müasir elmin "ictimai şüurun səviyyəsi yaradılmış və yaşanılan tarixin nə dərəcədə mənimsənilməsindən və təhlilindən asılı olur" qənaətini



əsas tutsaq, mərkəzin bu səviyyəni nə qədər zənginləşdirəcəyini təsəvvür etmək olar.

Heydər Əliyevin ideya dünyasının, nəzəri və praktik irsinin öyrənilməsi müasir Azərbaycan ictimai elminin mühüm vəzifələrindən biridir. Bu istiqamətdəki fəaliyyətin əsas məqsədi Heydər Əliyevin həm çıxışlarının, həm də quruculuq fəaliyyətinin əsasında dayanan metodoloji prinsipləri müəyyən etmək, onun mahiyyətini üzə çıxarmaqdan ibarət olmalıdır.

Müstəqil Azərbaycan dövlətinin ideya–siyasi əsaslarının ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq məhz Heydər Əliyevin müəllifliyi ilə yaradılması faktı mübahisəsiz həqiqətdir. Tarixin sonrakı gedişatı göstərdi ki, ulu öndərin hələ o illərdə milli dövlətçilik fəlsəfəsinə əsaslanan fəaliyyət strategiyası bir neçə on ildən sonra müstəqil Azərbaycan Respublikasının istiqlalının bütün dünyaya bəyan edilməsi, bu gənc dövlətin beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutması məqsədinə hesablanmışdı.

Dövlət quruculuğu işinin nə qədər çətin və mürəkkəb bir proses olduğunu dərindən dərk etmək üçün yaxın–uzaq ölkələrin tarixi təcrübəsini nəzərdən keçirmək kifayətdir. Bir çox hallarda dövlət suverenliyinin elan edilməsi, sözün əsl mənasında, müstəqilliyin qazanılması prosesinin cüzi tərkib hissəsi kimi çıxış edərək müstəqillikdən daha çox bu siyasi dəyərin imitasiyası ilə nəticələnir. Dövlət müstəqilliyimizin bərpa edildiyi 1990-cı illərin əvvəllərində Azərbaycanda belə bir təhlükəli perspektivə çox yaxın idi. Amma bir tərəfdən, ümummilli liderimizin hələ respublikaya birinci rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələr, şüurlara gətirdiyi milli düşüncə tərzi, digər tərəfədən isə, onun xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdaraq müstəqil dövlət quru-

culuğu prosesinə rəhbərlik missiyasını bilavasitə öz üzərinə götürməsi Azərbaycanı belə bir qorxulu gələcəkdən hifz etdi. Müstəqil dövlətimiz digər bir sıra postsovet ölkələrindən fərqli olaraq, yenidən hansısa fövqəl güclərin vassalına çevrilmək təhlükəsindən xilas oldu. Bütün bunlar Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu olması faktının real həyatda təsdiqidir.

Ulu öndər Heydər Əliyev hər dövrü, hər mərhələsi məktəb sayılan qeyri–adi ömür yaşamış, yalnız mənsub olduğu Azərbaycan xalqının deyil, ümumən dünya xalqlarının təsəvvüründə özünün mükəmməl obrazının, aydın cizgiləri ilə seçilən möhtəşəm portretini yaratmışdır. Onun istər dövlət təhlükəsizlik orqanlarında, istərsə də bilavasitə Azərabycan rəhbərliyində çalışarkən gördüyü işlər, atdığı addımların miqyas və mahiyyəti ulu öndərin ideya–siyasi irsinin tədqiqi üçün geniş material verir.

Görünür, bu da dahiliyin bir formuludur: bir anlıq təsəvvür edək, dünyanın bir çox nüfuzlu elm mərkəzlərinin fəxri doktoru, professoru seçilsə də, Heydər Əliyev elmi – nəzəri yaradıcılıq işi ilə məqsədyönlü surətdə məşğul olmamışdır. O, bütün çətin situasiyalarda yeganə düzgün qərarları intiutiv şəkildə, dahiyanə bir fəhm əsasında qəbul etmişdir. Lakin bu fəhm özü böyük dünyagörüşün və yüksək elmi – nəzəri hazırlıq səviyyəsinin məhsulu idi. Onun qısa zaman ərzində olduqca məsul qərarları hansı mülahizələr və hesablamalar əsasında verdiyini müəyyənləşdirmək bizim üçün çox çətindir. Dahilərə məxsus düşüncə tərzini anlamaq adi adamların işi deyil. Amma bir şey şübhəsizdir ki, Heydər Əliyev öz quruculuq fəaliyyətini kortəbii surətdə həyata keçirmirdi; yüz ölçüb, bir biçirdi. Bizə məlum olan isə son nəticə, onun verdiyi yeganə düzgün



qərarlar və bu qərarların sayəsində əldə olunan əməli uğurlar idi.

Əsas missiyası əməli işə, quruculuq fəaliyyətinə söykəndiyindən ulu öndər özü hər hansı elmi–nəzəri əsərin müəllifi deyil. Bununla belə, onun ayrı–ayrı nitqlərində, müsahibələrində, görüşlərində, müraciətlərində irəli sürdüyü fikirlər, imzaladığı fərman və sərəncamlar ən müxtəlif sahələrdə - dövlət quruculuğu, hüquqi–demokratik islahatlar, sosial–iqtisadi sfera, elm, təhsil, mədəniyyət və s. gələcək inkişaf proseslərinin nəzəri – fundamebntal əsaslarını formalaşdıran bütöv elmi mərkəzlər üçün aydın metodolji istiqamət və göstərişlərdir. Heydər Əliyevin bu göstərişlərinə, irəli sürdüyü ideyalara istinadən müstəqil Azərbaycan dövlətçiliyinin ideya–siyasi əsasları hazırlanır. Azərbaycanın mükəmməl fəaliyyət strategiyasını formalaşdırmış bu tezislərə gələcəkdə də çox tez-tez istinad ediləcəkdir. Çünki cəmiyyət həyatının elə bir sahəsi yoxdur ki, Heydər Əliyevin irəli sürdüyü fikirlər bu sahə ilə bağlı həyata keçirilməli zəruri planlar, proqramlar haqqında düzgün istiqamət müəyyənləşdirməmiş olsun.

Azərbaycanın milli mənafelərinə söykənən bütün bu istiqamətlər ümumi halda ulu öndərimizin müəllifi olduğu azərbaycançılıq ideologiyasının tərkib hissələrini təşkil edir. Məhz bu ideologiya əsasında Azərbaycanın sosial–iqtisadi, ictimai–mənəvi həyatı normallaşıb sabitləşmişdir. Dünya azərbaycanlılarının tarixi Vətəninin milli maraqları ətrafında mütəşəkkiliyi təmin olunmuşdur. Ulu öndərimiz Azərbaycan dövlətinin, azərbaycanlı anlayışının tarixən bu arealda məskunlaşmış bütün etnoslara məxsusluğu fikrini çoxrəngli cəmiyyətimizin ortaq qənaətinə çevirmişdir. Azərbaycanın harada yaşamasından asılı olmayaraq özünü azərbaycanlı superetnosuna

aid edən hər bir azərbaycanlının doğma dövləti olduğunu tarixi həqiqət kimi hər kəsə əxz etdirmişdir.

Heydər Əliyev Azərbaycan elminin, mədəniyyətinin yüksəlişini, sənayeleşmədə, kənd təsərrüfatında müasir texnologiyalardan istifadəni cəmiyyət həyatının əhəmiyyətli faktına çevirdi. Böyük əzmlə həyata keçirdiyi sosial-iqtisadi islahatlarla sosializm ictimai-iqtisadi formasiyasının süqutundan sonra Azərbaycan qarşısında dayanmış kifayət qədər çətin problemlərin həllinə nail oldu. Bu islahatlar sayəsində bazar iqtisadiyyatına keçid prosesi uğurla başa çatdı. Əsas şərtlərin azad bazar mexanizmi tərəfindən diktə olunduğu yeni iqtisadi münasibətlər şəraitində vətəndaşların mənafeləri də diqqətdən kənarda qalmadı. Respublikamızda mükəmməl sosial müdafiə sistemi formalaşdırıldı. Özəl sektorun inkişafına, ölkəmizə sərmayə axınına əlverişli mühit təmin olundu. Azərbaycan yerli və xarici sərmayələrə verilən dövlət təminatları, biznes ideyalarının həyata keçirilməsinə geniş imkan yaradan daxili ictimai-siyasi sabitliklə bütün dünyada etibarlı tərəfdaş imici qazandı.

Ulu öndərimiz demokratik inkişafın ilk mərhələsində yad həyat tərzinə xas ziyanlı təzahürlərin aramsız hücumları qarşısında sarsılan milli-mənəvi dəyərlərimizi yenidən ayağa qaldırdı. Dəyərlərimizə yeni məzmun verdi. Milli yaddaşımızın bu ən qiymətli mirasın ölkəmizin demokratik inkişaf prosesinə gətirməklə Azərbaycan demokratiyasına özünəməxsusluq qazandırdı. Bununla da hələ XIX əsrin sonlarına doğru Azərbaycanın və ümumillidə türk dünyasının görkəmli milli məfkurə sahiblərinin fikrini məşğul edən, bütöv ideoloji-siyasi cərəyanların yaranmasına gətirən "demokratik dünyadan nələri götürməli" sualı Heydər Əliyevin əməli fəaliyyətində öz doğru cavabını tapdı.



Heydər Əliyevin dövlətçilk prinsipləri Azəırbaycan mədəniyyəti qarşısında da geniş üfüqlər açdı. Milli-mədəni irsimiz, tariximiz, sənətimiz, sənətimiz bir daha geniş surətdə təhlil edildi. Milli mədəniyyətimiz ideoloji buxovlardan, qadağalardan qurtuldu. Ən müxtəlif mədəniyyətlər, dini baxışlar arasında mədəni tərəqqiyə yol açan sivil dialoq təmin olunduğu Azərbaycan bütün dünya üçün örnəyə çevrildi.

Beləliklə, ulu öndərimiz memarı olduğu müstəqil Azərbaycan dövlətini XXI əsrə bütün parametrlər üzrə möhkəm özül üzərində, ölkənin gələcək inkişafını təmin edəcək mükəmməl dövlətçilik konsepsiyası ilə birgə gətirdi. Bu gün Heydər Əliyev yolunun ən layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən bu konsepsiya daha böyük uğurlarla müşayiət olunur. Heydər Əliyevin formlaşdırdığı sarsılmaz bünövrə üzərində müstəqil Azərbaycan dövlətinin qurulması və möhkəmləndirilməsi prosesi yeni mərhələyə qədəm qoymuşdur. XXI əsrdə bu dövlətin keçəcəyi yol, üzləşəcəyi perspektivlər isə yenə də Heydər Əliyev irsinə nə dərəcədə sadiqliyimizdən asılıdır. Ulu öndərə aid ideya və prinsiplərin dövlət quruculuğu prosesində davamlı olaraq tətbiqi Heydər Əliyevin ideya-siyasi irsinin ətraflı öyrənilməsini, bu irsin hələ açılmamış səhifələrinin üzə çıxarılmasını zərurətə çevirir.

Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əlirza oğlu Əliyevin zəngin ideya-siyasi irsinin tədqiqi sahəsində görülən işlər artıq bir neçə ildir ki, tarix, fəlsəfə, politologiya və digər ictimai elmlərin birləşmə nöqtəsində öz metodologiyasını, predmetini formalaşdırmaqdadır.

## § 2. Şərqin də, Qərbin də etiraf etdiyi siyasət və dövlət lideri

*Dünya şöhrətli görkəmli siyasi lider və dövlət xadimi Heydər Əliyevin ideya-siyasi, nəzəri-praktiki irsinin sistem kimi öyrənilməsi elmimizin şərəf borcu, həqiqətə xidmət etmək missiyasıdır.*

Ulu öndərimizin əbədiyyətə qovuşduqdan sonra onun Azərbaycan tarixi fonunda görünən əzəmət və zəkasına, Azərbaycan adlı məmləkətin varlığını arzudan real gerçəkliyə çevirmək sahəsində fəaliyyət və xidmətinə həsr olunmuş əsərlər işıq üzü görməkdədir.

"Dünyanı heyran qoyan insan" adlı kitabda Heydər Əliyev fenomenini yaşadığımız "dünya" adlı nəhəng miqyasda, qlobal və ümumbəşəri kontekstdə, Şərq və Qərb məkanının tarix boyu yetişdirdiyi ən görkəmli, bənzəri olmayan şəxsiyyət mövqeyindən dəyərləndirməyə ilk cəhd edilmişdir.

Azərbaycan millətini və xalqını öz-özünə və bütün dünyaya tanıtdıran böyük insanı – Heydər Əliyevi dünyanın siyasi olimpinə yüksələn, idarəetmə elminin fövqəlmürəkkəb sənət olduğunu hər gün, hər an bir daha qət edən məşhur dövlət xadimləri necə tanımışlar? Müasir dünya tarixində onun müstəsna rola malik olduğunu necə görə bilmiş,



qiymətləndirməyə nail olmuşlar? Özlərinin dövlətçilik fəaliyyətində Heydər Əliyevin idarəetmə elminin nəticələrindən hansı mürəkkəb məqamlarda necə bəhrələnə bilmişlər? "Dünyanı heyran qoyan insan" kitabında bu və bir sıra başqa sualların cavablandırılması, H.Əliyevin siyasi liderlik və dövlətçilik sahəsində miqyas, təsir və xüsusi dəyəri baxımından lokal, regional sərhədləri aşaraq, qlobal hüdudlara adlamağı bacaran irsinin universal fenomen xarakteri kəsb etməsinin əsil mahiyyətini faktlarla aşkar nümayiş etdirmək məramı əvvəldən axıradək qırmızı xətt kimi keçir.

Kitabın lap əvvəlindən, R.Mehdiyev qeyd edir: "Ümummilli liderimiz, xalqımızın dahi oğlu haqqında dünyanın görkəmli siyasi və dövlət xadimlərinin, biznes aləmi nümayəndələrindən tutmuş diplomatlara, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimlərinə, jurnalistlərə qədər ən müxtəlif peşə sahiblərinin dilindən səslənən fikirlər Heydər Əliyev şəxsiyyətinin, Rusiya Federasiyasının prezidenti V.Putinin sözləri ilə desək, "siyasət nəhənginin" əzəmətini daha dolğun dərk etməyə imkan verir... Heydər Əliyev hələ sağlığında F.Ruzvelt, U.Çörçill, Ş.de Qoll kimi canlı əfsanəyə çevrilmişdir. Onun qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jurnalistlərin diqqətini ona cəlb edir.

Heydər Əliyev fenomeninə maraq illər keçdikcə azalmır, əksinə, daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və ma-

hir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük. Bir çox jurnalistlər onu hakimiyyət ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür – onun şəxsiyyət kimi və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır".

"Dünyanı heyran edən insan" kitabı ilə tanışlıqdan doğan təəssüratlar çox zəngin və fərqlidir. Onlardan bəzilərini hörmətli oxucularla bölüşmək istərdik.

Azərbaycanın bir çox səbəblərə görə, iqtisadi inkişaf və siyasi nüfuzuna görə dünya birliyinin sayılıb-seçilən dövlətlərinin birinə çevrilməsi faktı Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin Yeni Azərbaycan Partiyasının 10 illiyinə həsr olunmuş yubiley mərasimində söylədikləri yaxşı yadımızdadır: "Azərbaycanı sayırlar, bizə hörmət edirlər, bizimlə hesablaşırlar".

Məlumdur ki, tarix boyu Azərbaycan adlı yurdu müstəqil, azad bir dövlət kimi qurmaq, yaratmaq arzusu və qayğısı, tariximizə şanlı səhifələr yazan möhtəşəm oğulla-



rın müqəddəs məramı olmuşdur. Tanrı, tale və tarix bu ədəbi, şərəfli missiyanın yerinə yetirilməsini XX yüzilliyin ikinci yarısında Heydər Əliyevə qismət etdi. Başqa cür desək, ümummilli liderimiz Azərbaycanın bu dövr tarixini Tanrının istəyincə yazdı.

XX əsrin əvvəllərində, Şərqdə yaranmış ilk respublikanın müstəqilliyinə qənim kəsilən qüvvələr XX əsrin sonunda buna nail ola bilmədilər. Çünki Azərbaycan tarixinin bü dövrünü Heydər Əliyev yaradırdı.

Kitabdan yaranan ilk təəssüratlardan biri belədir: Heydər Əliyev müstəqillik arzularına tuş gələn Azərbaycan adlı məmləkətdə tarix boyu dövlətçilik, idarəetmə və siyasi liderlik ənənəsinin və təcrübəsinin çox dərin köklərə malik olduğunu bütün dünyaya nümayiş etdirdi. Əsrlər boyu dünya siyasətində yaxın-uzaq qonşuların bəd əməlləri sayəsində, dünya nizamı və modelində Azərbaycan varlığını əhəmiyyətsizlik dərəcəsinə endirmək, ona qapalı, miskin bir yer ayırmaq arzularını puça çıxardı. Azərbaycan-türk dünyasının çoxəsrlik bəşər tarixində yalnız fatehlik, böyük hərb və qılınc himayəsi və gücünə deyil, həm də ən başlıcası, ulu siyasi mədəniyyət, diplomatiya və dövlətçilik kimi köklərə dayaqlandığını aşkar sübuta yetirdi. Azərbaycanın mahiyyət etibarilə heç bir dövlətin və xalqın əleyhinə yönəlməyən, dünyanın vahid, birgə inkişaf meylinə və məntiqinə uyğunluqla öz dövlət müstəqilliyini də inkişaf etdirə bilmək əzmini və qabiliyyətini, ölkəmizlə bərabərhüquqlu münasibət və əməkdaşlıq sahəsində bütün cəhdlərə açıq olduğunu qətiyyətlə bəyan etdi.

Dünyanın siyasi elitasını təşkil edən dövlət xadimlərinin kitabda əksini tapmış etiraf, ürək szləri, səmimi hey-

rət, təəccüb, ehtiram kimi ən müxtəlif hisslərin ifadəsi olan fikirlər hər bir azərbaycanlının qəlbinin qürurla, fəxarətlə vurmasına səbəb olur. Bu fikirlərlə tanış olanda düşünürsən: bir-birindən mahiyyətcə, ictimai quruluş və siyasi sistem baxımından çox fərqli olan iki müxtəlif (sosializm olsun və ya kapitalizm) idarəetmə modelində hakimiyyət sükanı arxasında, onların hər ikisində yalnız Azərbaycanın keçmişi, bu günü və gələcəyini hər an düşündüyü üçünmü ulu öndərimiz xalqımızı dünyaya tanıtdırmağa nail olmuşdur? Özünün fitri istedadı, parlaq zəkası və qüdrətli məntiqi, zəngin bilik və təcrübəsi sayəsində, ən müxtəlif siyasi prosesləri, iyirmi (bəlkə yüz) gediş əvvəl (şahmat dilində desək) görmək məharəti sayəsində Azərbaycanı daim irəliyə aparmışdır?

Kitabın məzmunu ilə tanışlıqdan sonra belə qənaətə gəlmək olur ki, həm bu, həm digər, həm də hələ alim və tədqiqatçıların aşkar və kəşf edəcək, öyrənəcək saysız-hesabsız potensial dəyərlərin sayəsində Heydər Əliyev irsinin artıq lokal çərçivədən çıxaraq ümumdünya və ümumbəşəri siyasi-ictimai, mədəni sərvətlər xəzinəsinə qovuşması faktı etiraf olunmuşdur.

Müasir dünya proseslərində lider dövlətlərdən olan ABŞ-ın prezidenti Corc Buş: "Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və nadir natiqlik istedadına valehəm. Heydər Əliyev kimi liderlə işləmək şansı əldə etdiyimə görə çox minnətdaram". Böyük Britaniyanın baş naziri Toni Bleyer: "Heydər Əliyev kimi dövlət xadimi ilə görüşüb danışıqlar aparmaq böyük şərəfdir. Biz inanırıq ki, Azərbaycan müasir dünyada həlledici iqtisadi və siyasi rol oynayır. Biz Azərbaycan prezidenti



Heydər Əliyevi özümüzün strateji müttəfiqimiz hesab edirik". Yaxud: "Heydər Əliyev ölkəsinin maraqlarını hər şeydən üstün tutan əsl liderdir. O, ən uzaqgörən şəxsiyyətdir" (R.Armitac). "H.Əliyev açıq və qətiyyətli mövqeyi olan dövlət xadimidir" (M.Olbrayt). "H.Əliyev müstəqilliyi qoruyub saxlamaq uğrunda əzmlə, qətiyyətlə mübarizə aparmışdır" (H.Kissincer). "H.Əliyevi Azərbaycan xalqının böyük oğlu, beynəlxalq miqyaslı müdrik siyasətçi, ölkəmizin və xalqımızın böyük dostu kimi tanıyırlar" (İ.İvanov) və s.

"Dünyanı heyran qoyan insan" kitabının doğurduğu daha bir təəssürat barədə söyləmək istərdik. "Heydər Əliyev bütövlükdə Şərq dünyasında dövlətçiliyin yeni konseptual formasını, tipologiyasını qurmuş, yaratmışdır". (*R.Mehdiyev*). Onun öz fəaliyyət və təcrübəsində siyasi və mənəvi məzmunlu aspektləri birləşdirə bilməsi dövlətçilik işində nadir rast gəlinən xüsusiyyətlərdəndir. Azərbaycan Avropa ailəsinin tamhüquqlu üzvü kimi Avropa Şurasına qəbul olunması ümummilli liderimizin konkret əməyinin nəticələrindən idi. Avropa Şurasının rəhbəri, cənab Rassel Conston Heydər Əliyevə söz verərkən belə demişdi: "İndi siz çox böyük təcrübəyə malik olan dünya siyasətçisinə qulaq asacaqsınız". Siyasi müdriklik və təmkin mücəssəməsi olan dövlətimizin başçısı Parlament Assambleyasındakı nitqində ulu Şərqin sabit məkanlarından biri kimi Azərbaycanın da ümumbəşəri dəyərlər sırasına qiymətli töhfə verməyə qadir olduğunu xüsusi vurğulamışdı: "Avropa Şurasına üzv olmaq, tarixi yolların qovşağında yerləşən ölkəmizin bu təşkilat üçün mühüm əhəmiyyətindən xəbər verir. Biz ümumavropa dəyərləri xəzinəsinə öz töhfələrimizi gətirməyə hazırıq. Bu töhfələr avropalıların Şərq

xalqlarını daha dərindən anlamasına kömək edəcəkdir. Mən bu mötəbər təşkilatın gələcək inkişafında öz ölkəmin xüsusi rolunu görürəm".

"Öncə Azərbaycan, öncə millət, öncə Vətən" məramı və mənafeyindən çıxış edən ulu öndər Azərbaycanın dünyaya yalnız siyasi-iqtisadi münasibətlər baxımından deyil, həm də ən başlıcası, ümumşərq elmi-tarixi, mənəvi-mədəni potensialın daşıyıcısı olan ölkə kimi, planetar birliyə qovuşaraq, siyasət və idarəetmə sahəsində yüksək elitar-ümumbəşəri dünyagörüşü sisteminin yaradıcıları, mənəvi-intellektual tendensiyaların davamçı və aparıcılarından olmaq əzmində olduğunu daim xatırladırdı. Avropa Şurasındakı tarixi nitqində demişdi: "Qanunun və hüquqların aliliyi prinsipləri ilə yaşayan Avropada suveren dövlətlərin ərazilərinin işğalı, etnik təmizləmə dinc əhalinin yurd-yuvasından qovulması kimi hərəkətlər humanitar fəlakətlərə səbəb olur. Vahid Avropada ikili standartlara yol verilməməlidir".

Kitabda İnquşetiyanın keçmiş prezidenti Ruslan Auşevin sözləri Heydər Əliyevin bu keyfiyyətlərini çox parlaq şəkildə nümayiş etdirir: "Heydər Əliyev sübut etdi ki, siyasət əxlaqlı və alicənab adamların işidir. Buna görə də Azərbaycan yeni əsrə bu siyasətlə daxil olur və bu siyasətin gələcəyi var".

Heydər Əliyevin Azərbaycanın, Qafqazın, bütün türk dünyasının, bəşəriyyətin tarixində əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider (*R.Mehdiyev*) olması fikri kitabın əvvəldən axıra bütün səhifələrinin məzmununu, mahiyyətini təşkil edir. Rusiya Xalqları Assambleyasının sədri Ramazan Abdulatipovun ürək sözlərindən: "Heydər Əliyev



tarixi şəxsiyyət, Qafqazın fəxridir. Ən əsası budur ki, onun siyasi istedadı və müdrikliyi ancaq Azərbaycana deyil, bütün Qafqaza xeyir gətirir, onun sərvətinə çevrilmişdir. Heydər Əliyev, Siz qafqazlıların mərdliyini, düşdüyü vəziyyət, tutduğu vəzifə və yaşından asılı olmayaraq, həmişə özünü əsl kişi kimi aparmaq bacarığını təcəssüm etdirirsiniz. Belə nəhəng lider yalnız təkcə Azərbaycana deyil, onun hüdudlarından kənara da çox lazımdır!"

"H.Əliyev mürəkkəb həyatının hər dövründə Azərbaycanı, türklüyünü unutmayan böyük şəxsiyyətdir" (*İ.Doğramaçı*). "Sovet dönəmində türkdilli xalqlara cüzi tarixi rol ayrılırdı. O dövrdə də Heydər Əliyev ən məşhur rəhbərlərdən biri idi. O, sübut etdi ki, indiki və gələcək dünyamızda siyasi məharət hərbi məharətdən daha səmərəli ola bilər". (*O.Süleymenov*. "H.Əliyev tarixi, hətta əfsanəvi bir şəxsiyyətdir. O, müasir dövrün liderləri arasında böyük ehtiyac duyulan bir şəxsiyyətdir. Müasir Avrasiyanın yeni tarixinin qurucularındanır" (*Ç.Aytmatov*).

"Dünyanı heyran qoyan insan" kitabını oxuduqca, siyasətdə uzunömürlülüyə, zəka və mənəviyyatda əbədiyaşarlığa nadir nümunə olan ümummilli liderimiz Heydər Əliyevin bu heyranlığı doğuran keyfiyyətlərinin intəhasız olduğuna əmin olursan. Yadına Həzrət Əlinin bu sözləri düşür: "Haqq o qədər parlaqdır ki, onu korlar da (görməyənlər də) görür".

Şərəfli ömrünün əlli ilindən çoxunu Azərbaycanın varlığına və əbədiyyətinə həsr edən əbədi liderimiz həm də vətənimizin siyasətinə alternativ olmadığını və bu siyasəti bütün çoxçalarlığı ilə gerçəkləşdirmək əzmində olan bir

şəxsiyyətə həvalə etdi və dedi: "XXI əsr Azərbaycan tarixində ən xoşbəxt əsrlərdən biri olacaqdır".

Kitab haqqında düşüncələrimizi buradakı gözəl fikirlərdən biri ilə bitirmək istərdik: "Heydər Əliyev ölkəni idarə edir, onun ideyaları zamanın sınağından çıxmışdır və bu gün də insanların qəlbində yaşayır. Ölkədə fəaliyyət göstərən siyasi və iqtisadi sistem əsl Vətəndaşın, böyük Şəxsiyyətin, qüdrətli Liderin əməyinin bəhrəsidir".



## § 3. Heydər Əliyevin yaratdiği tarixin beş məqamı üzərində düşüncələr

*Bir neçə il əvvəl böyük itki düşüncə və qəlblərimizi məhvərindən çıxardı, vəziyyətlə heç cür barışmaq istəmədik, bu qismətə inanmaq istəmədik. Yoxluq zamanının hər döyüntüsü bir-birini əvəzlədikcə, kədər və sızıltıdan tutqunlaşan düşüncəmiz də, gözlərimiz də aydınlaşdı. "Suyun qədri olmayanda bilinər" deyiminin bütün müdrikliyi aşkarlaşmağa başladı. Qədir-qiymət, meyar anlayışlarının daha dərin qatları olduğu üzə çıxdı.*

Ümummilli liderimizin sağlığında da, bu son bir ildə də, ona ümumxalq məhəbbətinin izharından, milyonların şükür və minnətdarlıq hisslərindən doğan sözlər, həm Azərbaycanda, həm də bütün dünyada onun siyasi nüfuz və çəkisi barədə elmi, publisist təhlillər kitablara köçərək tarixə düşmüşdür. Bunlar müqəddəs və hörmətə layiq duyğu və hisslərin ifadəsidir. Qəlblərin səmimiyyəti, xalq sevgisinin ülviyyətindən ərsəyə gələn əsərləri ciddi təhlil obyekti etmək nəinki çətindir, həm də qeyri-məqbuldur. Çünki burada, deyildiyi kimi, saf, təmiz, səmimi duyğu və əqidə öz əksini tapmışdır.

Lakin bu da bir həqiqətdir ki, siyasi düha və lider barədə ictimai şüur səviyyəsində mövcud olan təsəvvürlər dəyərli olduğu qədər də, bitkin nəzəri ümumiləşdirməyi, yəni elmi id-

rak müstəvisində konseptual sistem kimi formalaşmağı zərurətə çevirir. Belə yanaşdıqda, Heydər Əliyev dühasının mahiyyəti və özəlliyini bütün dolğunluğu ilə çatdırmaq baxımından görülən işlər hələlik siyasət və dövlətçilik adlı fövqəlmürəkkəb sahənin bir baxışla, birnəfəsə görülə bilən cəhətləridir, desək yanılmarıq. Ulu öndərimizin həyatı, tarixdəki bütün fövqəladə şəxsiyyətlər ilə olduğu kimi, hələ uzun müddət ictimai elmin diqqət mərkəzində olacaq və olmalıdır deyən həmkarlarımızla biz də razıyıq.

Fikrimizcə, Heydər Əliyevin əzəmət və missiyası XX əsrin son onilliklərində həm Azərbaycanda baş verən nəhəng siyasi tufan və qütb dəyişmələrin, həm də qlobal miqyasda tüğyan edən siyasi-sosial dinamikanın fonunda təhlil edilməlidir. Tarixi və siyasi proses, sosial dəyişikliklər ümumdünya inkişafının məntiqinə uyğun qanunlarla çulğaşmış şəkildə gedir. Bu prosesdə həm bütün dünyanın inkişaf meyillərinə qoşula bilmək, həm də Azərbaycanın müstəqilliyinin sabit inkişafı və mövcudluğu üçün lazım olan bütün amilləri təmin edə bilmək necə mümkün ola bilmişdir? Çünki söhbət qlobal transformasiyaların uzun əsrlər davam edən sosial-siyasi dinamikanın, yeni növbəti mərhələsinə qədəm qoyulması kimi tarixdə nadir rast gəlinən dövründən gedir. Dünyada mövcud olan siyasi qütbdəyişmələrin, müstəqil-milli dövlətlərin yaranması ilə müşayiət olunması, daha doğrusu, üst-üstə düşməsi, hətta dünyanın "düz vaxtı" siyasət adlı sahədə keçid, islahat və dəyişikliklərin ləng və ağrılı keçməsini şərtləndirir.

Yalnız siyasi qütbdəyişmələrin deyil, əsrlərin də bir-birini əvəzləməyə doğru getdiyi belə zamanda milli və bəşəri miqyasda ardıcıl gerçəkləşdirilən siyasi uğurun fəlsəfəsi hələlik çözülməmişdir.



Siyasi uğur çoxölçülü anlayışdır. Lokal-milli müstəvidə bir cür, qlobal-bəşəri müstəvidə başqa cür nəzərdən keçirilə bilər.

Bu fövqəlmürəkkəb müstəvilərin optimal uyğunlaşdırılması hər bir siyasətçiyə müyəssər olurmu? Siyasi zaman və məkan, siyasi reallığın hədsiz dinamizm və dəyişkənliyi şəraitində uzun illər ahəngdar, sabit və uğurlu xətti təmin etmək hansı miqyaslı siyasətdən xəbər verir? Fikrimizcə, dünya elmində bu sualların nəinki cavabları mövcuddur, hətta bu suallar hələlik sistemli şəkildə, problem kimi qoyulmamışdır. Və Heydər Əliyev fenomeninin bütün tərəfləri elmi, fəlsəfi təhlilə cəlb olunduqca həm suallar, həm onlara verilən cavablar tədricən dünya ictimai elmini həm nəzəri, həm də praktiki baxımdan zənginləşməsini şərtləndirəcəkdir.

Ulu öndərimizin yaratdığı tarixlə, siyasi dəst-xəttin indisi-nəticələri ilə bahəm, gələcək zəfərlərin perspektivlərini müəyyənləşdirməsi baxımından hansı möhtəşəmliyə malik olduğunu dərk etməyimiz də çox önəmlidir.

Heydər Əliyev fenomeninin sirri nədədir? Bu fitrətdir, siyasətdir, yoxsa missiyadır?

Müasir siyasət elmi bunların vəhdətini əsas hesab edir. Siyasət, hakimiyyət ümummilli liderimiz üçün, Tanrının ona bəxş etdiyi fitrəti (ilahi təbiəti), müstəqil və qüdrətli Azərbaycanın əbədiliyi naminə hər an, hər gün gerçəkləşdirməyi mümkün edən sahə, vasitə idi. Müstəqil, qüdrətli Azərbaycan – onun bütün həyatının mənası, məqsədi, bəhrəsi-nəticəsi oldu.

## I. İDEAL – AMAL

Belə bir fikir mövcuddur ki, siyasi sarsıntılar dövründə bütün qatlarda və səviyyələrdə köhnənin dağılması, çökməsi

prosesi gedir. Doğrudan da, elə bir sahə və təsisat görə bilmərik ki, total transformasiyalar dövründə dağılmamış olsun.

Böyük öndərimiz Heydər Əliyev üçün dəyişməyən, əbədi olan, xaos və dezinteqrasiya çağında da onun bütün zəka düha və təcrübəsini həmişə məşğul edən İDEAL-AMAL var idi. Bu müstəqil, qüdrətli Azərbaycan və xalqın firavanlığı idealı idi. Bu azad vətən, möhtəşəm dövlətçilik amalı idi. Azərbaycan üçün düşünən zəkanın və Azərbaycan üçün döyünən ürəyin, onu ən çətin sınaqlardan çıxarmaq əzmini hər an artıran amal idi.

Hələ hakimiyyətdə olduğu sovetlər dövründə ideoloji diktə və yasaqların hökmü, millilik sözünün lüğətlərdən uzaq düşdüyü çağlarda Heydər Əliyevin bütün düşüncəsi bu sabit əqidə və məsləkə yol tapmışdı. Qüdrətli, müstəqil Azərbaycan təməli artıq idealda qoyulmuşdu. Azad Vətən təəssübkeşliyi uğrunda haqq savaşına hazır olduğunu o zaman çoxları bilməsə də, onun özü bunu bilirdi; qəlbində azad vətən nidası əks-səda verirdi. Buna görə də bu idealı ifadə edən hər şeyin, onun daşıyıcı olan hər kəsin qayğısını çəkdiyi, himayə etdiyi sonralar hamıya bəlli oldu. Azərbaycan dövlət dilinin tətbiqi, azad vətən ideyalarını tərənnüm edən bütün mədəniyyət, elm, ədəbiyyat xadimlərinin yubileyləri, əsərlərin nəşri bu dövrdə də onun fəaliyyətinin başlıca sahəsini təşkil edirdi.

Bu qayğı və quruculuq, yalnız mədəni-mənəvi sahədə deyil, dövlətçilik və təşkilatçılığın maddi, iqtisadi sahələrində də miqyaslı nailiyyətləri ilə həmahəng aparılırdı.

Dünyada baş verən dəyişikliklər, tarixin gedişatı, Heydər Əliyevin bütün həyatı boyu dövlətçiliyə dair ideyaların, onun fəaliyyətinin mahiyyət, məzmun və məqsədini əsas qayəsini təşkil etdiyini göstərdi.



## 2. ƏMƏL

Azərbaycan dövlətçilik tarixində siyasi həyat həmişə daxili və xarici təzyiq, işğal, müdaxilə faktoru altında formalaşmış, onun təsirini üzərində hiss etmişdir.

Bu taleyi biz seçməmişik. Lakin bu siyasi tale ənənəvi olaraq həmişə, tarix boyu dövlətçiliyimiz qarşısında ciddi-siyasi, iqtisadi, ictimai və s. maneələr yaratmış, onu olmazın fəlakətlərə sürükləmiş, haqsız qurbanlar verməyə düçar etmişdir. Tarixin müxtəlif dönəmlərində bu reallıq hər dəfə, dövlətçiliyimizi çətinliklə əldə olunmuş kövrək mövqe və dayaqların möhkəmlənməsinə macal verməmiş, onlardan məhrum olmağı şərtləndirmişdir.

XX əsrin sonlarına doğru Azərbaycan tarixdə dəfələrlə olduğu kimi yenə də təsəvvürəgəlməz böhran və sarsıntılarla üz-üzə qaldı. Sovet sistemi çökəndə yenidənqurma "liderlərinin" təsəvvürlərinə uyğun gəlmədiyi üçün Heydər Əliyev təqib və təzyiqlərə məruz qaldı. Onun sadiq qaldığı həqiqət məhz bu dövrdə hamının gözü önündə daha da cilalandı, büllurlaşdı. Azərbaycan idealından güc alan siyasi iradə mücəssəməsi, gələcəklə yaşamaq nümunəsi olan Heydər Əliyev gerçəkliyi, başqa-Azərbaycanı yenə də dizi üstə çökməyə məcbur edən, buna hər vəchlə çalışan əhatə və gerçəkliklə üz-üzə gəldi.

Azərbaycan dövlətçiliyinin həmişə əleyhinə olan qüvvələr, xalqa qarşı ən ağır fəlakətlərin planını qurmaqda idi. Bu məkrli siyasətin məqsədlərini görən ulu öndər, üzərinə qoyulmuş hər cür qadağa və məhdudiyyətlərə baxmayaraq susmadı. 1990-cı il, 20 yanvar faciəsi ilə əlaqədar siyasi bəyanat verdi. Xalqı qanına qəltan edənlərin cəzalandırılması tələbi ilə çıxış edərək öz amalına sadiq olduğunu bir daha sübut etdi.

Özünün son günlərini yaşayan sovet rejiminin Azərbaycana qarşı təcavüzünün davam etdiyi bir şəraitdə, Heydər Əliyevi vətəndən uzaqlaşdırmağa çalışanların sayı nə qədər çox olsa da, onu vətəndə, vətənlə bir görmək istəyənlərin sayı bundan qat-qat çox oldu. Tarixin hökmü və xalqın istəyi ilə siyasətə, Azərbaycana qayıdan ümummilli liderə bu hərc-mərclik burulğanında sadiq qalanlar da oldu, olmayanlar da. Lakin bir şey qəti aydın idi: Özünün dəyişməz, sadiq qaldığı müstəqil vətən idealı və bir də mənafeyini hər şeydən uca tutduğu Azərbaycan xalqı həmişəki kimi yenə də onunla idi. "Xalq müdrikliyi" adlandırılan fenomen boş ibarə deyil, həm də ciddi elmi mənaya malik böyük amildir. Ən müasir demokratik quruluşlarda, ən qədim dövlətlərin gücü də xalqın, ictimaiyyətin etibarına, səsinə və dəstəyinə dayaqlanıb.

Azərbaycana onun ən çətin məqamında, dar günündə dönən Heydər Əliyev, onun dövlətçiliyinin gələcəyini qarsalamağa cəhd edərək ölkəni od-alova qərq edənlərlə, milli ləyaqətin ucalığı uğrunda, bu ləyaqətə xəyanət edənlərlə haqq savaşına qalxdı.

Bu illərdə o, müdrik dühaların yaşadığı, yalnız Böyüklərə və Seçilmişlərə nəsib olan həyatın hər üzünü yaşadı. Lakin Azərbaycanın istiqlaliyyəti və qüdrəti amalının gerçəkləşməsi üçün əməli bir an belə səngiməsi.

Bu kəşməkəşli illərdə, azad vətən duyğulu bütün beyinlər, qəlblər və əllər bir ünvanda - Heydər Əliyev şəxsiyyətində cəmləndi.

## 3. TƏMƏL

Tarixin hökmü, zamanın tələbi, xalqın dəstək və çağırışı ilə Heydər Əliyev 1993-cü ilin oktyabrında Azərbaycana yenidən başçılıq etdi. İstiqlaliyyət arzusunun, nəhayət, gerçəkləşdiyini, Azərbaycanın heç zaman yenidən əsarət altına düşməyəcəyini qətiyyətlə bəyan etdi: "Müstəqilliyimiz daimidir, əbədidir, dönməzdir!"



Yeni, müstəqil Azərbaycanın bünövrəsinin qoyulması kimi çox mürəkkəb, şərəfli missiya, bu vətəni xilaskarlıq missiyasının davamı idi və bunlar üzvi vəhdət təşkil edirdi. "Özgənin əsarətindən çıxıb, öz əsarətimizə düşmək kimi ssenarini hazırlayan xarici və daxili qüvvələrə qarşı, ulu öndərimiz hər günü əsrə bərabər olan gərgin ictimai-siyasi dövrdə Azərbaycan dövlətçiliyinin müstəqillik salnaməsini tarixə qızıl hərflərlə yazmaqda davam edirdi. Müstəqilliyi qoruyub saxlamağın daha çətin vəzifə olduğunu hər an vurğulamaqla, bütün qüvvələri bu istiqamətdə səfərbər edirdi.

Bu illər ərzində, yalnız ona xas olan keyfiyyətlərlə, öz siyasi zəkası və milli-müstəqillik idealından güc alan fəaliyyəti sayəsində Azərbaycan vətəndaş müharibəsi girdabına qərq olmaq təhlükəsindən, iqtisadi-sosial hərc-mərclikdən xilas ola bildi.

"Milli dövlətçilik" anlayışının özündə ifadə etdiyi bütün nəhəng quruculuğa aid olan fəaliyyət bütün sahələrdə, milli özünütəsdiq, özünüdərk və yüksəliş kimi məsələlərlə birlikdə həyata keçirildi. Burada "hansı model üzrə qurmalı?" sualı əhəmiyyət kəsb etmirdi. Tarixdə nadir hallarda baş verən bu proseslərin doğurduğu bütün suallara Heydər Əliyevin öz cavabı var idi.

"Müstəqil dövlətin sarsılmaz təməlini möhkəmlədən, onun azadlıq statusunu və milli maraqlarını əks etdirən və təmin edən siyasi dövlətçilik xətti nəzəri-elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun həyata keçirilməlidir".

Yeni, müstəqil Azərbaycanın təməlinin qoyulması prosesi həm daxili, həm də xarici siyasətdə bütün fəaliyyətin məğzini təşkil edirdi. Bu illərdə Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində gedən dirçəliş və quruculuq işlərinin miqyas və dəyəri heyrət doğururdu.

Ölkə daxilində, ümummilli lider, nadir dövlət xadimi kimi, tarixdə dəfələrlə bir çox siyasətçinin edə bilmədiyi hünərlərə qadir olmuş, misilsiz fədakarlıqlar göstərərək ən çətin məqamlarda Azərbaycanı bəlalardan xilas edə bilmişdir. Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi həyatın, mədəni və elmi yüksəlişin, Milli Ordu quruculuğunun böyük və çətin bir dövrünü əhatə edən zaman kəsiyi – Heydər Əliyevin adı, əməli fəaliyyəti, gerçəkləşdirdiyi konkret işlərlə bağlıdır. Milli dövlətçiliyin bünövrəsini möhkəmləndirərək, Azərbaycanın bu günü və gələcəyi üçün sarsılmaz zəmin yaratmış ulu öndərin fəaliyyətində siyasi dühanın nəzəri və praktiki tərəflərinin vəhdəti hələ ictimai elmin ciddi təhlil obyekti kimi çox araşdırılacaqdır.

Bu dövrdə görülən işlər milli özünüdərk və mənlik şüurunu, dərin qatlara nüfuz etmiş ideoloji sistemin keçmiş təsir və buxovlarından azad etmək, tarixi yaddaş duyğusunu və inamını xalqa qaytarmaq, milli dövlətçilik ideyasının potensial qüvvəyə çevirməyi təmin edən hərtərəfli inkişaf strategiyası düşünülmüş şəkildə gerçəkləşdirilirdi. Dövlətin istiqlaliyyətinin iqtisadi sistemli yüksəlişindən bilavasitə asılı olduğu hər an vurğulanırdı. İqtisadi sahədə dərin islahatlar miqyası baxımından, xalqın rifah və firavanlığının keyfiyyətcə yeni mərhələyə keçməsinə görə Azərbaycanın təməlinin quruculuğu salnaməsində, gerçəkdən ən parlaq səhifələri təşkil edir. Bu gün dünya iqtisadiyyatına uğurla davam edən inteqrasiya



prosesi, Heydər Əliyev tərəfindən təməli qoyulan həmin potensiala dayaqlanır.

Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələr milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətti inkişaf etdirməyə başlamışdır. Beynəlxalq əhəmiyyətli müqavilələrə imza atılmış, onların həyata keçirilməsinə başlanılmışdır.

Müstəqil, qüdrətli Azərbaycanın təməlinin möhkəmləndirilərək, onun möhtəşəm, əsrlərin sınağına tab gətirəcək əbədi binasının inşa olunması Heydər Əliyevin adı ilə bağlıdır. Yalnız XX əsrin sonlarında həqiqətə çevrilə bilən bu gerçəklik, qeyd olunduğu kimi, ulu öndərimizin həyat idealını, bütün fəaliyyətinin məna və idealını təşkil etmişdir. Elə bu səbəbə görədir ki, dövlətçiliyin əsaslarını müəyyən edən amillər sırasında yalnız iqtisadi, siyasi deyil, mənəvi-milli kök və amillərin də həlledici rol və dəyərini həmişə önə çəkmişdir.

Dövlətçilikdə müstəqilliyin, millilikdən, milli düşüncə və məfkurədən ayrılıqda təsəvvür edilmədiyinə həm fəaliyyətində, həm də dövlətin qərar və sərəncamlarında daim diqqətə çəkmişdir.

Milli-mənəvi dəyərlərimizin, dilimizin, dinimizin sədaqətli daşıyıcısı, yorulmaz təbliğatçısı, hamisi və islam dəyərlərinin təəssübkeşi, mədəniyyətimizin və elmimizin dərin bilicisi olan ümummilli liderimizi, əbədiyaşar edən, xalqın əbədi sevgisini ona qazandıran səbəblər sırasında mənəviyyat amili ön cərgədə durur. Siyasi dühа, müdrik zəka və dərin mənəviyyat, əxlaq – dünyanın ən seçilmiş siyasətçiləri içərisində bu üç səviyyəni bir simada, əməl və fəaliyyətdə birləşdirən yeganə şəxsiyyət Heydər Əliyev olmuşdur. Azərbaycan istiqlaliyyətinin təməli, "xəmiri" bu meyar və keyfiyyətlərlə yoğrulduğu

üçün qeyri-real, mümkünsüz olanlar, real və mümkün ola bilmişdir. Azərbaycanda dövlətçilik və siyasət elmini, dünya siyasət elminin tərkib hissəsinə çevirməyə qadir olan, bu elmin nəzəri əsaslarını yüksək səviyyə ilə zənginləşdirən Heydər Əliyev dəst-xətti, dövlətçilik elmi formalaşmışdır. Bugünkü müstəqil Azərbaycan siyasətinin, müstəqillik dövrü iqtisadiyyatının, mədəniyyətinin, rifah və firavanlığının əsasları ilahi fitrətdən gələn qabiliyyət və peşəkar, müdrik qiymət və qənaətlə yaradılmışdır. Dünyanın inkişaf etmiş bütün dövlətləri ilə qarşılıqlı inam, bərabərhüquqlu tərəfdaş və faydalı əməkdaşlığa əsaslanan, Azərbaycanın mənafeyinə cavab verən münasibətlər qurulmuşdur.

## 4. HEYKƏL

Ulu öndərimiz tarix boyu düşüncələri məşğul edən, Vətən deyə döyünən qəlbləri qubar edən, gerçəkliyinə həmişə manea və sədlər qoyulan müstəqil, azad Azərbaycan ideyasının ürəklərə "dağ" çəkən əlçatmaz xəyal kimi mövcudluğuna son qoydu. Tanrının ona bəxş etdiyi missiyanı, şükürlər olsun ki, yerinə yetirdi. Azərbaycan ideyası kimi mövcud olan, səpələnən qayalardan, siyasi tufanların püskürdüyü tarixi məqamda zirvəsi əbədiyyətə toxunan Azərbaycan adlı möhtəşəm, ulu DAĞ silsiləsini yaratdı. Bu əcdadlarımızın və min illər boyu Azərbaycan adlı ideya daşıyıcılarının narahat ruhunu ovudan Azərbaycan boyda, tarixə və zamana görk ola biləcək qürur ünvanı, inam və güvənc məkanı – Vətən oldu.

Bir il əvvəl onun bu Vətən boyda, Azərbaycan boyda ruhu, təcəssümü, siması və əməlləri gözümüz önündən qəlbimizin dərinliklərinə köçdü. Azərbaycan kimi möhtəşəm, Azərbaycanın özü və sözü qədər əziz və ulu öndərimiz ürəklərdə



nəqş olundu. Amalı - idealımıza, əməli - örnəyimizə, varlığı - ürəyimizin dərinliyində heykələ çevrilən, yaratdığı müstəqil Azərbaycan-dünyaya gələcəyimiz və dünyadan gedəndə qovuşacağımız müqəddəs Vətən torpağı – onun həyatından çox sevdiyi Vətən torpağı öz ağuşuna aldı.

Heydər Əliyevin siyasi dövlətçilik təcrübəsi və irsi, dünya elminin monumental abidələri sırasını zənginləşdirdi. "Siyasi dühа" və "siyasi karyera" anlayışları arasında dərin mahiyyət fərqləri olduğunu göstərdi. Dövlətçilik mənafeyinə, xalqın gələcəyinə ardıcıl xidmət etmək xətti, şəxsi xarizma və bütün ali-ülvi insani keyfiyyətlərlə, siyasətdə düzgün, şərəfli və qeyrətli üsulların tətbiqinin vəhdət təşkil edə bildiyini nümayiş etdirdi.

İdealının ucalığı, əməllərinin əbədiyaşarlığı ilə Heydər Əliyev XX əsrin sonlarından başlamış dünya durduqca Azərbaycan dövlətçiliyinin mücəssəməsi, azərbaycanlılar üçün meyar olacaq. Azərbaycanın gələcəyini qurmaq prosesində tarixi zamanların fasiləsizliyini təmin edən inamımızın tükənməz çeşməsi kimi çağlayacaq. Onun qəlbimizə köçən, nəqş olunan heykəli, daim bizə onu andırır. Onu andıqca nurlu simasının xatirəsi təbəssümümüzü, taleyüklü məsələlərdə qətiyyətimizi cəsarətimizi, əzmimizi artırır. Qəlblərdəki heykəlləri nə zaman, nə tarix, nə də siyasət yerindən oynatmağa qadir deyil. Bugünkü Azərbaycanın hər yerində, bütün guşələrində şəhər və rayonlarında ulu öndərin xatirəsini əbədiləşdirmək, hər şeydən əvvəl, Müstəqil Azərbaycan adlı məmləkəti yaradan böyük şəxsiyyətin fəaliyyəti nəticəsində mümkün olmuşdur. "Heydər Əliyev və Xalq", "Heydər Əliyev və Azərbaycan" sözlərinin məna yükündə, Vətən, Xalq və əbədi lider nidası bir nöqtədə cəmləşir. Onun həyat tarixi, Azərbaycan dövlətçiliyində bütöv

bir dövrün – şanlı müstəqillik dövrünün tarixidir. Onun xatirəsi, milli dövlətçilik yaddaşımızın daha da möhkəmlənməsi, ona ucaldılan heykəllər, Azərbaycanın əbədiliyini təmin edən insana minnətdarlıq və qədirbilənlik mücəssəməsidir.

## 5. MƏŞƏL

Qazanılmış istiqlaliyyət, əldə olunmuş böyük nailiyyətlər, bütün dünyada tanınan müstəqil dövlət statusunun dəyərincə qiymətləndirilməsi baxımından böyük işlər görülməkdədir.

Eyni zamanda dövlətçiliyin bütün sahələrində bərqərar olunmuş nizam və fəaliyyətin elmi səviyyədə təhlili üçün siyasət və idarəçilikdə Heydər Əliyev dəst-xəttinin, uğur fəlsəfəsinin, tərzi və üslubunun nəzəri əsas kimi, gələcək zəfərlərin perspektivini təmin etməsi baxımından dəyərini, potensialını üzə çıxarmaq və nəzəri sistemləşdirməyin nə qədər zəruri olduğu təsəvvürəgəlməzdir.

Ulu öndərimizin fəaliyyətində əldə olunmuş nəticələr (siyasi indi) qazanılacaq qələbələr (siyasi gələcək) bütövlük təşkil etmişdir. Təsəvvürümüzə gətirəndə, böyük liderin fəaliyyətində qazanılmışların sanbalı, qazanılacaqların üfüqlərini sonsuzluğa qədər genişləndirir. Bu siyasi dəst-xətt məşəl olub həmin üfüqlərə işıq saçır, dövlətçiliyimizin inkişaf yollarını şölələndirir. Bu əminliyi duyduğu üçün idi ki, xalqın pərişan olduğu vaxtda çıxışlarının birində "Narahat olmayın, mən sizinləyəm" söyləmişdi. Nə qədər müdrikliyə, vətən sevgisi, Azərbaycan məhəbbətinə malik olmalısan ki, belə məqamda da xalqın narahat olacağından rahatsız olasan.

"Azərbaycan mənim ürəyimdir" – deyirdi Ulu Öndər. Əbədi prezidentimizin ürəyi-Azərbaycan bu gün yaşayır, yeni



sabahlara boylanaraq döyünməkdə davam edir.

Dünya siyasi elmində liderlik institutunun ən mühüm göstəriciləri sırasında, qəbul edilmiş bir başlıca xüsusiyyət də vardır: Liderlik institutu, dövlətçilikdə fasiləsizliyi təmin etmək üçün özünü əvəz edə bilən yeni liderlər nəsli yetişdirməyə qabil olmalıdır. Əgər bu ənənə varsa, onda həmin ölkənin: 1) dayanıqlı demokratik inkişafın təmin edilməsinin; 2) belə bir dövlətin tarixən formalaşmış yüksək siyasi mədəniyyət səviyyəsinin göstəricisi kimi çıxış edir.

"Qüdrətli, müstəqil Azərbaycan"ı yaratmağa qadir olan siyasi kursa və ona sadiq xalqın istəyi ilə hakimiyyətə gələn İlham Əliyev cəmiyyətimizdə sabaha tükənməyən inam, əminlik və güvənlik ab-havası gətirdi. Əbədiyaşar dövlətçilik məşəli etibarlı əllərə keçdi.

XXI əsr bəşər cəmiyyətinin həyatında sadəcə təqvim göstəricisi deyil. Həm bütün dünya, həm də Azərbaycan üçün yeni üfüqlər, yeni zirvələr deməkdir. Bu gün dünya tarixi – planet ölkə və xalqlarının hamısının daxil olduğu ümumbəşəri axındır. "Yeni dünya nizamı, düzəni" sözləri çox işlədilir. Lakin biz bilirik və bilməliyik ki, hələlik bu nizam bərqərar olmayıb, yoxdur. Çünki qlobal bütövlük və nizamdan danışılırsa, on ildən çoxdur davam edən Qarabağ münaqişəsi, Azərbaycanın daxili, lokal problemi olmaqdan kənara çıxmış, bütün dünya üçün gərginlik və təhlükə yaratmaqdadır.

"İşğalçılıq faktı olan yerdə, terrorçuluq faktı da mövcuddur" fikrinin dünyanın diqqətinə çatdırılması, eyni zamanda da Azərbaycan xalqının bu məsələdə bütün əzm və iradəsinin vurğulanması, Prezident İlham Əliyevin qətiyyətli, sabit mövqeyi kimi, həm də böyük siyasi kursun davamıdır.

Bu siyasi kurs novatorluğun, reformatorluğun və kon-

servatorluğun ahəngini təmin edərək, "hansı siyasi modeli seçməli?" sualının cavabı kimi dövlətçiliyin ən çətin sınaqlarından çıxmağı təmin etdiyi üçün, gələcəkdə görüləcək işlərin rəhni və zəmini kimi yaşayır, yaşayacaqdır.

Şəxsiyyəti, ülviyyəti, mənəviyyatı – sabaha aparan yollarımızı məşəl kimi nurlandıran, bizə ideal qüvvə və irada verən ümummilli liderimiz, Sizi anırıq. Böyükdən-kiçiyə hamımız üçün Azərbaycan adlı məmləkətin qüdrətli olması namına əbədi səfərbərlik ünvanı. Siz Varsınız.

*İdealın - amalın yaşayır.*
*Əməlin - əməllərdə gerçəkləşir.*
*Təmələ - daha möhkəm hörgülər vurulur.*
*Heykəlin - ürəklərə nəqş olunur.*
*Məşəl - etibarlı əllərdədir.*



## § 4. Heydər Əliyev irsi, milli suverenlik prinsipi və dünyaya inteqrasiya

*"Bizim tutduğumuz yol doğru yoldur, ədalətli yoldur. Bizim ən böyük vəzifəmiz Azərbaycanın dövlət müstəqilliyini qorumaq, saxlamaq, möhkəmləndirmək, onu əbədi etməkdən ibarətdir. Həyata keçirdiyimiz daxili və xarici siyasət, müstəqilliyimizin təminatıdır. Kim bu yolda bizə mane olarsa, o maneələri biz aradan götürməyə qadirik".*

**Heydər Əliyev**

Dünyada baş verən qarşılıqlı inteqrasiya meyillərinə, "qloballaşma" anlayışı ilə ifadə edilən proseslərə dair həm elmi müstəvidə, həm kütləvi informasiya vasitələrində, həm də adi şüur səviyyəsində gedən müzakirə və mübahisələri səthi izləyən insanları ən çox düşündürən suallar yığcam şəkildə əsasən bir mövzu ilə bağlıdır: qloballaşma prosesində, "milli dövlət, milli suverenlik" kimi prinsiplər nə kimi məzmun və mahiyyət dəyişiklikləri kəsb edir? Bəşər həyatının bütün sahələrinə nüfuz edən yeni inkişaf meyilləri "milli suverenlik" prinsipinə necə təsir göstərir?

Bəhs olunan mövzuya dair elmi ədəbiyyatda "milli dövlətçilik və suverenlik" anlayışlarını asanlıqla tarixin "arxivinə" vermək, milli dövlət fenomeninin böhran yaşadığını sübut etmək cəhdləri da az qala üstünlük təşkil edir.

Bu çox həssas problemin bir yazı çərçivəsində əhatəli şərhi və izahı çox çətin olsa da, onun əsas müddəalarına dair öz münasibətimizi bildirməklə müəyyən təsəvvür yaradılacağına ümid edirik.

Şübhə yoxdur ki, qloballaşma prosesləri dövlətçilik, yəni milli dövlətçilik məsələlərinə ciddi sirayət edir və bu baxımdan, prosesin mahiyyəti milli dövlət fenomeninə və milli suverenlik prinsipinə toxunulmadan düzgün anlaşıla bilməz. Müstəqilliyinin ikinci onilliyinə qədəm qoyduğumuz, milli dövlətçiliyimizin əsaslarının yaradıldığı bir dövrdə milli və bəşəri, lokal və qlobal amillərə, düzgün elmi əsaslara söykənən münasibətin formalaşdırılması çox mühüm məsələdir. XX əsrdə ən böyük tarixi nailiyyətimiz olan milli dövlətçiliyimiz və suverenliyimizin qədrini, dəyərini dərk etdiyimiz bir dövrdə "milli-dövlət" anlayışının böhran yaşaması, "milli suverenlik" prinsipinin "transformasiyası" kimi məsələlərin gündəmə gəlməsi, elmi ədəbiyyatda da tez-tez səslənməsi real təhlükədənmi xəbər verir? Bu baxışlarda həqiqət vardırmı? Hər tərəfdə milli qurumlara laqeydliklə müşayiət olunan qloballaşma, modernləşmə kimi səciyyələndirilən proseslərin getdiyi bir vaxtda, milli suverenliyin əvəzsiz, qeyd-şərtsiz dəyərə malik olması fikrinə köklənən xalqın ictimai şüurunda bu əks mahiyyətli məqamlar ziddiyyət və şaşqınlıq yarada bilərmi?

Dünyanın klassik modelinin dəyişdiyi və dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlətçilik ideyası, onun gələcək perspektivləri yeni baxış, yeni münasibət tələb edir. Qlobalizmlə regionalizm arasında qarşıdurma nəticə etibarilə milli dövlətçilik ideyasına öz təsirini göstərəcəkmi, demokratik rejimləri, milli suverenliyi qorumaq əzmində olan dövlətlərin varlığı təhlükəyə məruz qalacaqmı?

Dünyanın restrukturizasiyası heç bir regiondan yan keçmir, ölkələri, siyasi təşkilatları, ictimai hərəkatları əhatə edərək proseslərə öz təsirini göstərir. Əslində, bəşəriyyətin tarixi, müxtəlif mərhələlərdə siyasi, ideoloji, iqtisadi, hərbi maraqların təsiri və təzyiqi altında sərhədlərin pozulması müəyyən dövlətlərin məhv olması, yenilərinin yaranması tarixidir.

Bəlkə bugünkü proseslərə də "hər bir yeni - çoxdan yaddan çıxardığımız köhnədir" prinsipi ilə yanaşmalıyıq. Sivilizasiyanın sürətli inkişafı ilə insanın gedən proseslərə adaptasiya imkanları arasındakı ziddiyyət bizdə bu şübhələri yaratmırmı? Suallar çox olsa da, bu bir həqiqətdir ki, bu gün dünyada gedən qloballaşma proseslərinin bütün regionlarda milli dövlətlərə göstərdiyi əsas təsirin nəticələri məlumdur: Oxşar və fərqli cəhətlərə baxmayaraq, əsasən, milli dövlətlər öz səlahiyyət və funksiyalarının bir qismini "yuxarı" – dövlətlərarası, beynəlxalq qurumlara, digər qismini "aşağı", ərazi və bələdiyyə (munisipal) orqanlara ötürür, dövlətin forma və prioritetləri dəyişir, demokratik meyillər artır. Bundan əlavə, iqtisadi-maliyyə, informasiya-kommunikasiya və s. tipli beynəlxalq qarşılıqlı inteqrasiya sahələri milli suverenlik çərçivəsində baş verən hadisələrin ənənəvi sərhədlərini xeyli genişləndirmişdir. Qloballaşma milli dövlət suverenliyi müstəvisində prinsipial olaraq yeni bir məqamı üzə çıxarır: Tarixi olaraq yalnız dövlətin müstəqil qərar qəbul etdiyi dövlətdaxili məsələlərə ümumdünya, transnasional qurumların fəal nüfuzu, iri sərmayənin qlobal məkanda maneəsiz axını, hərbi-siyasi sahədə qərarların

beynəlxalq hüquq normalarına əsaslanaraq qəbul edilməsi tələbi və s. suverenliyin ənənəvi başa düşülən mənasını və hüdudlarını "daraldır". Dünya iqtisadiyyatı və siyasətinin yeni, qeyri-dövlət subyektləri qismində çıxış edən qurumların ortaya çıxması ilə beynəlxalq maliyyə institutları və transnasional birliklərin getdikcə artan təsiri, dövlətlərarası sərhədlərdən sərbəst axan informasiya amilini önə çəkən kütləvi informasiya vasitələrinin geniş vüsətli inkişafı, milli dövlətçiliyin fəaliyyət spektrində öz əks-sədasını verir, onun çərçivəsinin daha aydın müəyyənləşdirilməsini şərtləndirir.

Milli dövlət qərarların qəbul edilməsi müstəvisində ortaya çıxan yeni beynəlxalq qarşılıqlı fəaliyyət subyektlərini nəzərə alaraq, öz münasibətlərini bir neçə səviyyəyə yönəltməli və qaydaya salmalı olur. İlk növbədə də bu "fövqəlmilli", dövlətlərarası struktur və qurumları ənənəvi hakimiyyət iyerarxiyasına ahəngdar şəkildə daxil etməklə yeni, özünəməxsus idarəetmə sisteminin formalaşması ilə müşayiət olunur.

Baş verən proseslər diqqətlə izlənilərsə, qloballaşmanın siyasi nəticələri sırasında milli dövlətin suverenliyinin nəinki məhdudlaşdırılması, əksinə onun əməli, gerçək siyasi subyekt, həm də qlobal tamlığın təzahür etdiyi dünyada siyasi qərarların qəbul edilməsi sahəsində ən mühüm, əvəzsiz həlqə kimi mühüm statusa malik olduğu aydınlaşır. Ənənəvi məlum olan hərbi-siyasi funksiyalar, siyasi, iqtisadi və ictimai fəaliyyətin hüquqi çərçivəsinin müəyyən edilməsi, qanunların icrasını diqqət mərkəzində saxlamaq və s. kimi geniş müstəviyə, qlobal cəmiyyət və dövlətin üzvü olmaqdan irəli gələn vəzifə, öhdəlik, məsuliyyət və tələblər də əlavə olunur. Qloballaşma, milli dövlətinin fəaliyyətinin tamamilə fərqli, yeni bir beynəlxalq mühitdə qurulmasını hər an diqqət mərkəzinə çəkir.



Bütün bunlar milli suverenlik prinsipinin "tənəzzülü", "aradan çıxması" kimi baxışlara təkan verir. Lakin bir məsələ var ki, burada söhbət suverenlik prinsipinin "köhnəlməsindən" deyil, dünya miqyasında baş verən köklü dəyişikliklərdən gedir. Yəni, milli suverenliyin (tarix boyu dəfələrlə olduğu kimi) başqa dövlətlər tərəfindən pozulması, ona qəsd edilməsi deyil, milli və bəşəri, qlobal və lokal tale və müstəvilərin bir-birinə hədsiz yaxınlaşması və çulğaşması nəticəsində yerdəyişmə baş vermişdir: əgər əvvəllər dövlətin mənafeyi birinci, beynəlxalq birliyin tale və mənafeyi məsələsi ikinci (arxa planda) idisə, hazırda dünyanın ümumi-qlobal taleyi və mənafeyi önə çıxmışdır. Başqa sözlə, bu iki aspektin bir-birindən təcrid edilmiş şəkildə təhlili qeyri-realdır. Milli dövlətçiliyin maraq və mənafeyi yalnız konkret milli dövlətlərin deyil, dünya birliyinin qəbul etdiyi beynəlxalq münasibət və hüquq normalarının nəzərə alınması ilə gerçəkləşdirildiyi üçün yeni münasibətlərin bütün hallarda – qlobal cəmiyyətin bilavasitə daxili problemi olduğu məlum olur.

Bu baxımdan qlobal cəmiyyət sistemində dövlətlərarası, beynəlxalq münasibətlərin əhəmiyyəti, aktuallığı getdikcə daha çox artır, lakin bunlar dövlətlərarası problem olmaqdan daha çox, qlobal cəmiyyətin ümumi daxili problemi kimi də qəbul edilir. Belə problemlərə beynəlxalq qurumların təsiri və marağı, onların həlində iştirakı, gedişatına "müdaxilə" etməsi, milli suverenlik prinsipinin yox olması, böhranı kimi deyil, ümumi tale və mənafeyin diktə-

sindən irəli gələn fəaliyyətin zəruriliyi kimi qəbul edilməlidir. Bu vəziyyət dünyadakı ümumbəşəri, qlobal problemlərin həllinə əhəmiyyətli təsir göstərə biləcək qlobal nüfuz mərkəzinin, vahid dünyanın qlobal siyasi sisteminin yaradılması prosesinin başlanğıc götürdüyünə dəlalət edir.

Məhz ona görə də bu "başlanğıc" prosesi demək olar ki, "dünya lideri" olmaq, proseslərə təkbaşına müdaxilə etmək kimi cəhdlərlə müşayiət olunarsa, son nəticədə yeni "imperializmin" başqa təzahürü kimi vəziyyətin yaranmasına səbəb ola bilər. Bu da öz məntiqi sonluğunu - yəni bütün imperiyaların yaşadığı aqibətin yaşanılacağını zərurətə çevirir. Dünyanın yeni siyasi təşkilatlanma prosesinin getdiyi indiki dövrdə 7-8, yaxud 10-15 aparıcı ölkənin qərarlarının mühüm əhəmiyyətə malik olması, üstünlük təşkil etməsi heç də o demək deyil ki, bu ölkələrin öz vəzifələrini "dünyanın iqtisadi, siyasi inkişafının gedişini idarə və ona nəzarət edir, edəcək və etməliyik" kimi başa düşməlidirlər. 11 sentyabr hadisələri göstərdi ki, nə bütövlükdə Qərb, nə də hər hansı bir ölkə "təklikdə" bu vəzifənin öhdəsindən gəlməyə qadir deyildir. Lakin eyni zamanda da dünyanın geniş vüsət alan inteqrasiya proseslərinin yönəldilməsinə bütövlükdə olmasa da, bir çox sahələrdə, bir çox məsələlərdə təsir göstərə bilən müəyyən qlobal qurum və təsisatların mövcudluğunu indiki reallıq zərurətə çevirir. Bəşəriyyətin ümumi taleyini gündəmə gətirən, onları məqsədəuyğun məcraya yönəldə biləcək müasir qlobal siyasi-iqtisadi təşkilatlanma sistemi formalaşma mərhələsində olduğu üçün dünya siyasəti mövcud imkanlarından çıxış edir. Bu sistemin məhz milli suverenlik prinsipinə, milli dövlətçiliyə nə dərəcədə həssas olması, onun belə demək olarsa



taleyini, bir neçə on ildən sonra dünyanın gələcəyi üçün hansı müsbət nəticələri əldə edəcəyini bilavasitə müəyyən edir və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev qeyd edir ki, "müasir qlobalaşma prosesləri inkişaf etməkdə olan cəmiyyətləri həyat tərzinin, davranış və hətta qəribə olsa da, təfəkkür formalarının qərbləşməsi dilemması qarşısında qoymuşdur. Qərbləşmə daxili siyasi determinantlara təsir göstərərək milli ənənələrin, adətlərin, bəzən də tarixin ağırlıq mərkəzini dəyişdirir... Qərbləşmə modernləşmə əlaməti altında baş verir. Onun açıq cəmiyyətlərə və avtarkiya cəmiyyətlərinə təsiri əhəmiyyətli dərəcədə fərqlənir. Əgər o, bəzi ölkələrdə siyasi və sosial-iqtisadi həyata yeniliklər gətirərək cəmiyyətin dayaqlarını təkmilləşdirirsə, digər ölkələrdə diffuziya baş verir, sonra da tarixən təşəkkül tapmış normalar və adət-ənənələr gizli şəkildə yox olub gedir... Lakin qərbləşmə və onu müşayiət edən mədəni inqilab yeni dəyərlərin sahibləri üçün heç də həmişə uğurla nəticələnməmişdir. Bu zaman milli suverenliyin məhdudlaşması və sərhədlərin silinməsi tradisionalist və modernist qrupların mənafelərinin toqquşmasına gətirib çıxarır ki, bu toqquşma da qərbləşmə cərəyanarının təsiri altına düşür. Bu halda müqavimət son dərəcə sərt olur və yeni səmərəli mədəni inqilabın mümkünlüyü heçə enir. İranda 1979-cu il inqilabına tradisionalistlərin və modernistlərin məhz bu cür toqquşması səbəb olmuşdur. Dövlətin və cəmiyyətin gələcəyi ənənə ilə qərbləşmə arasında qarşıdurmadan sonra dövlətin hansı yolu seçməsindən asılıdır".

Milli dövlətçilik, dünyanın bütün dövlətlərinin təşkilatlanmasının əsas prinsipi və modelidir. Milli dövlət-döv-

lət suverenliyinin başlıca daşıyıcısı, qarantıdır. Milli suverenlik – hər bir xalqın (millətin) öz ictimai-siyasi quruluşunu, ərazi bütövlüyünü, iqtisadi müstəqilliyini, mədəniyyətini və s. azad seçmək hüququ, yəni öz taleyini özünün həll etməsi hüququdur. Dövlət ali, son məqsəd, ali dəyərdir, əks təqdirdə, o, suveren deyil, o, öz tamlığının, müstəqilliyinin qarantı deyil, suveren hakimiyyətsiz milli dövlət yoxdur. Suverenlik vahid və bölünməzdir və xalqa məxsusdur. Hər bir dövlət suveren olmalı, suveren olmaq üçün isə özünü milli dövlət elan etməli, onun mövcudluğunu başqa ölkələr tanımalıdır, milli dövlətlərin sərhədləri toxunulmazdır və birtərəfli qaydada dəyişdirilə bilməz.

İctimai-siyasi təşkilatlanmanın milli dövlətçilik modeli, bütün dövlətləri beynəlxalq münasibətlərin vahid bərabərhüquqlu üzvləri kimi müqayisə və qəbul etməyə imkan verir.

Qloballaşma dövründə qarşılıqlı təsir və inteqrasiya proseslərinin yüksək sürəti dövlətləri və onların bir-birinə münasibətini sistemə çevirir. Milli dövlətlərin hamısı yekdil olaraq bu sistemin dayanıqlı olması qayğısına qalmalıdırlar. Bu heç də həmişə belə olmur. Qlobal dünya sisteminin mövcudluğuna təhlükə yaradan dövlətlərin fəaliyyəti kollektiv hərəkatlərlə pislənsə, onlar təcrid olunsalar da belə, millilik və millətçilik anlayışlarının məzmununun dəyişdirilməsi cəhdi, başa düşülməməsi, bilərəkdən və ya bilməyərəkdən dünya sisteminin tarazlığının pozulması, sərhədlərin yenidən "biçilib-tikilməsi" cəhdləri bu gün qloballaşan bəşəriyyətin taleyi üçün təhlükə yaradan amillər sırasında birincidir.

XX əsrin sonlarında dünyanın siyasi xəritəsində mə-



lum hadisələrin baş verməsi nəticəsində müstəqil dövlətlərin sayının durmadan artmasına rəğmən onların mövcud olduğu sərhədlərin toxunulmazlığı, beynəlxalq münasibətlərin əsas prinsipi kimi bir daha möhkəmləndirildi, təsdiq edildi.

Milli dövlətçiliyin və suverenlik prinsipinin, müasir dünyanın ictimai-siyasi təşkilatlanmasının əsas modeli kimi məqbul sayılması, "millilik" anlayışına unikal bir status verilmişdir. Millilik hər hansı bir dövlətin legitimliyinin əsaslandırılması üçün birinci (və hələlik yeganə) şərt və vasitə kimi tanınmışdır.

Lakin məhz bu unikallığın, özəl mahiyyətin təhrif olunması, başqa sözlə desək, anlayışın universallıq kimi aspektlə varislik və bağlılığının unudulması, yaxud bilərəkdən nəzərə alınmaması bəzi üzdəniraq ideoloqların elmi-siyasi cəhətdən qeyri-real, nəticələri baxımından təhlükəli sayılan xülya və niyyətlərinə rəvac vermişdir. XX əsrin sonlarına doğru dövlət suverenliyinin əldə olunması prosesini müşayiət edən sərhədlərin toxunulmazlığı prinsipinin kobud şəkildə pozulması, millilik və millətçi-şovinizm anlayışlarının eyniləşdirilməsi nəticəsində ortaya çıxan silahlı separatizm və terror kimi hadisələr də paralel olaraq getmişdir. "Milli azadlıq hərəkatı" adlandırılaraq müstəqil dövlətimizin ərazi bütövlüyünü pozan, tarixdə dəfələrlə sərhədlərini genişləndirmək məqsədini güdən, millət-dövlətlərin formalaşma prosesinin getdiyi XX əsrin əvvəllərində olduğu kimi bu dəfə də baş qaldıran erməni millətçi-şovinizmi yenidən məhz dalğada təşəkkül tapdı. Əlbəttə, təəssüflə qeyd edə bilərik ki, ilk zamanlar öz siyasi-ideoloji doktrinalarını həyata keçirən Qərb dövlətləri, ümumiyyətlə

də dünya ölkələri, Dağlıq Qarabağ probleminə ilk vaxtdan adekvat mövqe və münasibət göstərə, müvafiq tədbirlər həyata keçirə bilmədi, təcavüzkar ermənilərin tələbləri müdafiə olundu. Dağlıq Qarabağ problemi ilə bağlı bu gün beynəlxalq təşkilatlarda qəbul olunan sənədlər, "soyuq siyasət buzunun" əriməyə başlaması Ulu öndərimizin beynəlxalq siyasət meydanında atdığı uğurlu addımların nəticəsidir. Ötən illər ərzində ulu öndərimiz Heydər Əliyevin titanik əməyi və fəaliyyəti sayəsində dünyada Dağlıq Qarabağda baş verən proseslərin mahiyyəti ilə tanış olmağa doğru böyük irəliləyiş getdi. Bu gün dünya ictimaiyyəti daha qətiyyətlə belə bir fikirdə yekdil olmaqdadır: separatçı rejimlər, suverenlik və sərhədlərin toxunulmazlığı prinsipini pozmaqla, qloballaşan dünya üçün ən böyük təhlükə mənbəyidir.

"Müstəqil" bəyan edilməsinə baxmayaraq, bu günə qədər dünyanın heç bir ölkəsi tərəfindən legitimliyinin tanınmaması, "uydurma Dağlıq Qarabağ respublikası"nın, elə "uydurma" qurum olduğuna yaxşı dəlalət edir. Belə qurumlarla "strateji əməkdaşlıq" edən, onları silahla və s.-lə təmin edən, onları dəstəkləyən dövlətlər də öz gələcəyini və təhlükəsizliyini ciddi şübhə altına alır. Separatçı, "terrorist və diktator rejimlərin öz "azadlıqları" uğrunda mübarizə apardıqlarını söyləyərək, qeyri-real siyasət yürüdən belə dövlətlərdə ictimai rəy və KİV-lər – bu cür siyasətin, dünya birliyi ailəsinin layiqli üzvü olmaq kimi mövqeyə ziyan gətirdiyinə dair geniş müzakirələrə təkan vermişdir. Silahlı separatizmə "ikili standartlar" münasibətindən yanaşmağın ziyanı da məhz qloballaşma prosesinin indiki mərhələsində özünü aşkar göstərməkdədir. Çünki qloballaşma "millilik"



anlayışının "etnik millətçilik, etnokratiya, şovinist-irqi" təfəkkür tərzi ilə qarışıq salındığını qabarıq şəkildə üzə çıxarır. Millilik həm etnik, həm də bəşəri (universal-qlobal) səviyyələri özündə ifadə etdirən bir fenomendir. Millilik, etnik ekstremizm kimi başa düşüldükdə, müxtəlif siyasi-ideoloji məqsədlərə xidmət edir, yaxud müxtəlif qüvvələr tərəfindən istifadə olunur. Bəşəriyyət milli-mədəni müxtəlifliyin vəhdətində təzahür edir və yalnız müxtəlifliyi deyil, vəhdəti də nəzərə alan millilik dünyanın gələcək inkişafının pozitiv potensialı rolunu oyaya bilər.

Burada bir daha milli dövlət və milli suverenliyin "böhranı və yox olacağı"na dair elmi ədəbiyyatda" söylənən fikirlərə qayıdaq.

Millətin ictimai-siyasi-mədəni birlik kimi, bəşəriyyətin mövcudluğu üçün ən dayanıqlı, optimal birlik olması fikrinin vaxtı keçdiyini irəli sürən baxışlar nəyə əsaslanır? Bu sualın cavabı ictimaiyyətə qismən məlumdur: Qloballaşmanın unifikasiya kimi başa düşülməsi, informasiya–telekommunikasiya texnologiyalarının "sərhədləri" anlayışının məzmununu dəyişməsi, qlobal ünsiyyət mexanizmlərinin səviyyəsinin artması bəzi alimlərin "millilik və millət" anlayışlarının "köhnəlməsi" qənaətinə gəlməsini şərtləndirmişdir. Lakin bu bir daha qeyd edirik ki, səthi, dərinliyə varmayan təhlilin nəticəsidir.

Millilik – dövlətçiliyin təməl prinsiplərindən biri kimi yalnız siyasi, ictimai deyil, həm də mənəvi-mədəni, ruhi çalarları özündə birləşdirən bir fenomendir. Milliliyin təməlində - milli ruh və milli şüur qərar tutur və bu ictimai, siyasi, iqtisadi, mənəvi, fəlsəfi, estetik, dini baxış və təsəvvürlərin məcmusunu əks etdirir. Dünyanın qlobal inteqra-

siya səviyyəsinin artması, sıxlaşması gedişində "millilik" anlayışı necə yox ola bilər? Əksinə, gedən proseslər millətlərin mənəvi müqavimət qüvvəsini artırır. Hər bir insan üzvü, təmsilçisi olduğu mədəniyyətin daşıyıcısı kimi "milli-mədəni genotipə" malik olduğu kimi, hər bir dövlət, ölkə də həmin insanların birliyindən ibarətdir. Hər hansı bir mədəni-milli yaddaşa malik olmayan insan olmadığı kimi, bu amillərin fövqündə duran ölkə və ya dövlətin də olması qeyri-real fikirdir. Buna görə də qloballaşmanın bir yeganə-qlobal düşüncə və deməli bir "yeganə qlobal dövlət" yaradacağı fikri absurd bir fikirdir. Qlobal cəmiyyət, qlobal dövlət sistemi yalnız müxtəlif unikal dövlətlərin inteqral cəmindən formalaşa, onların vəhdətindən yarana bilər. Formasiya statusundan asılı olaraq ölkələrin iyerarxik quruluşunu formalaşdıran planetar Federasiya perspektivsiz ideyadır, utopiya xarakterli proqnozdur. Dünya birliyi, ümumplanetar sivilizasiya abstrakt kateqoriyadır. Onun sərhədi, rəsmi institutları, müxtəlif resurslar üzərində nəzarət funksiyası yoxdur. Əslində, dünya birliyi - dövlətlər və xalqların ümumi maraq, vahid məqsəd naminə müxtəlif münasibətlər qurmaq istəyidir. Lakin bu birliyə nə dərəcədə nail olunub. Teyyar de Şarden yazırdı: "Bəşəriyyətin bütövləşməsindən böyük qüvvə alınması gözlənilir. Lakin bu qüvvənin həmişə idarə edilə biləcəyi sual altındadır".

Bu da həqiqətdir ki, qloballaşma müxtəlif dövlətlərin könüllü, ya könülsüz dialoq və ünsiyyətinə, lokal çərçivələrdən çıxaraq yaxınlaşmasına şərait yaradır, bunu zərurətə çevirir. Məhz bu zərurətin birtərəfli şişirdilməsi, milli dövlətçilik və suverenliyin gələcəyinə dair birtərəfli mövqeləri ortaya çıxarmışdır.



Dünyada baş verən hadisələr milli dövlətçilik maraqlarını "ləğv etmir". Məsələnin mahiyyəti, əslində, başqa müstəvidədir. Tarixdən məlumdur ki, dünya inkişafının keçid, dəyişiklik adlandırılan məqamlarında dövlətçilik və onun maraqlarının zamanın tələblərinə uyğun qurulması problemi bütün ölkələr qarşısında durmuşdur.

Hazırda dünya dövlətləri məhz belə bir transformasiya çağını, keyfiyyət dəyişikliyini yaşayırlar. Belə dövrlərdə hər bir ölkə dəyişikliklərin labüdlüyü meyli ilə milli dövlətçilik maraqlarının bu dəyişikliklərə uyğun çevik mexanizmini yaratmaq zərurətini həll etməli olurlar. Əgər "milli dövlətçilik" deyilirsə, burada həm "millilik " həm də "dövlətçilik" mənafelərinin vəhdətdə iştirak etdiyini unutmaq olmaz. Məlumdur ki, müxtəlif siyasi şəraitdə, müxtəlif qüvvələr millilik və dövlətçilik anlayışlarını bir-birindən öz məqsədlərinə uyğun təcrid edir, ictimai şüurun bu mövzuya həssas münasibətini manipulyasiya edirlər. Dövlətçiliyin maraq və mənafelərini arxa plana keçirərək milli maraqlar adı ilə öz şəxsi niyyətlərini həyata keçirirlər. Bütün hallarda millilik və dövlətçiliyin həssas və kövrək ahəngi, bütövlüyü nəzərə alınmadıqda nəticələr istənilən kimi olmur.

İlk baxışdan oxşar problemləri birdəfəlik həll etmiş kimi görünən ABŞ-da da bəhs edilən mövzu diqqət mərkəzindədir. ABŞ-ın dövlət katibi, Kondoliza Rays Amerikanın milli maraqlarını dəqiq müəyyənləşdirməyən, beynəlxalq qurumlara daha çox diqqət yetirən, milli maraqları "humanitar beynəlxalq maraqlarla" əvəz edən siyasətin dövlətçilik mənafeyinə zidd olduğunu söyləmişdir.

Tarixdən bu da məlumdur ki, hər hansı bir dövlət,

məhz dəyişikliklərə çevik uyğunlaşma siyasətini yürütməklə, yeniliklərin bütün müsbət potensialından səmərəli istifadəni təmin edən struktur və mexanizmlər yaratmaqla, millilik və dövlətçiliyin ideal balansını da, strateji perspektivini də təmin edə bilmişlər.

Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətinin bu baxımdan nəticələri günümüzün reallığı və ən böyük uğurlarımızdır. Dövlət müstəqilliyinin bütün sahələrdə möhkəm təməllərinin qurulması ilə bərabər, Azərbaycanın dünyaya tanıdılması, siyasi sabitliyin təmin edilməsi, iqtisadiyyata aparıcı beynəlxalq təşkilatların maliyyə və sərmayə qoyuluşunun cəlb edilməsi kimi müdrik siyasət dünya inkişafının mövcud meyillərini nəzərə almaqla həyata keçirilmiş, Azərbaycanın suverenlik statusunun mövcud problemlərin həlli mexanizmində hər an qətiyyətlə vurğulanmışdır. Ulu öndərimiz dəyişən dünyanın indisi və gələcək perspektivlərinə adekvat cavab verən dövlətçilik siyasətinin əsas istiqamətlərinin strategiyasını Azərbaycana irs qoyub getmişdir.

Ölkəmizin geosiyasi mövqeyini, təbii ehtiyatlarını, insanların potensialını nəzərə alaraq onu müasir dünyada baş verən proseslərin, beynəlxalq fəaliyyətin əsas subyektlərindən biri kimi inkişaf etdirmək bu irsin tərkib hissələrindən biridir. Azərbaycan bu illərdə demokratik, hüquqi, dünyəvi dövlət kimi dünyada özünütəsdiq dövrünü yaşamış və ona nail olmuşdur. Bu gün qlobal cəmiyyətin siyasi, iqtisadi, mədəni, ictimai və s. sahələrində inteqrasiyanın vacibliyi barədə Prezident İlham Əliyev cənabları qeyd edir: "Dünyada hər şey qarşılıqlı bağlılıq təşkil edir. Bunu bütün ölkələr nəzərə almalıdır. Dünya cəmiyyətinə biganə



qalmaq, ona sayğısızlıq göstərmək heç bir yaxşı nəticəyə gətirib çıxara bilməz. Bəli, bu reallıqları biz nəzərə almalıyıq. Lakin öz taleyimizi yalnız özümüz həll edirik".

Müstəqil, qüdrətli dövlətin formalaşması, onun iqtisadi firavanlığının təmin edilməsi ilə bilavasitə əlaqədardır. Müstəqillik illərində reallaşdırılan, bu gün dönmədən davam etdirilən iqtisadiyyatın modernləşdirilməsi xətti, ölkəmizin qlobal – beynəlxalq əmək bölgüsündə öz yerini tutması üçün böyük perspektivlər açır.

Ənənəvi və modernləşmiş sivilizasiyaların qovşağında yerləşən ölkəmiz qlobal cəmiyyətə inteqrasiya və milli-mədəni özünəməxsusluq yolunu seçmişdir. Azərbaycan dinamik, müstəqil siyasət yeridərək, yeni dünya nizamının yaranmasında fəal iştirak edərək qlobal dünyanın tərkib hissəsinə çevrilir. Başqa ölkənin ərazi bütövlüyünə qəsd edən bir qurumun, milli suverenlik prinsipini pozduğuna, dünyanın sülh və təhlükəsizlik yolunda maneələr yaratdığına dünya dövlətlərini inandırmağa çox çətin də olsa nail olur. Millətçi-separatizmin müasir dünyanın qlobal reallığına deyil, vaxtı keçmiş sərsəm xülyalara xidmət etdiyi aydın olur. Tarixin heç bir dönəmlərində dünya birliyinə inteqrasiya və milli təhlükəsizliyin, suverenliyin təmin olunması kimi ilk baxışda paradoksal-əks görünən iki proses bu qədər çulğaşmamışdır. Milli mənafe anlayışı, həm dünyanın müasir inkişaf meyillərinə cavab verən, həm də baş verən proseslərə dinamik adekvat fəaliyyətlə qoşulmağı təmin edən siyasətin məzmun və mahiyyətini əks etdirir. Dünyanın get-gedə aydın sezilən vəhdətinin formalaşması, universalizm ideyalarının birtərəfli şərhinə səbəb olmuşdur. Bəşəriyyətin varlığının onun çoxçalarlı müxtəlifliyindən

kənarda təsəvvüredilməzliyi fikri hər dəfə unudulanda tarix özü bu baxışlara düzəliş edir, onları sınağa çəkir. Milli özünəməxsusluğu arxa plana keçirərək, bütün dünyanı modernləşdirməyin mümkünlüyünə dair mövqelər, XX əsrdə özünü doğrultmadı. Məlum oldu ki, bütün dövrlərdə universallıq, unikallıqla vəhdətdə götürüldükdə bəhrələrini verə bilir. İnnovasiyalara çevik reaksiya verilməsi ilə, dəyişikliklər gedişində varisliyi təmin edən sabit, dayanıqlı amillərin sintezi inkişafı daha uğurlu məcraya yönəldir. Bütün bu proseslər içərisində bulunan bəşəriyyət Kopernik və Qalileyin elmdəki çevrilişlərindən az əhəmiyyətli olmayan dəyişikliklər ərəfəsindədir. Akademik Vernadski yazırdı: "Biz zəif ruhlu insanların yaşadığı böhranı deyil, minillikdə bir dəfə olan elmi fikirdəki dəyişikliklərin çətinliyini yaşayırıq".

Bəşəriyyət seçim qarşısındadır. Ona verilən seçim azadlığından düzgün istifadə etmək imkanı onun gələcək varlığını təmin edən əsas şərtdir. E.Fromm yazırdı: "İlk dəfə tarixdə insan nəslinin fiziki varlığının xilası onun ürəyinin radikal dəyişməsindən asılı olacaq".

Müasir dünyanın sosial-iqtisadi, siyasi inkişafının magistral meyillərinin təhlil edilməsi, qloballaşma prosesləri ilə sıx əlaqədardır. Bütün planeti əhatə edən bu proseslərdə ölkəmizin yeri, rolu iştirak formalarını və imkanlarını bilmək üçün baş verən proseslərdə dünyanın inkişaf etmiş sayılan ölkələrinin beynəlxalq inteqrasiya xüsusiyyətlərini, dəyişiklik və islahatlara necə nail olduqlarına bələd olmaq vacibdir. Bu gün informasiya-texnologiyaları sahəsində inqilab, həmişə mövcud olan qarşılıqlı yaxınlaşma proseslərinə görünməmiş vüsət, dinamizm vermişdir.



Bəhs etdiyimiz mövzu kontekstində qarşıya çıxan suallar başqa cür də səslənir. Qarşısıalınmaz görünən bu prosesdə lokal-regional müstəvidə gedən inteqrasiya yoxsa qlobal müstəvidə gedən unifikasiya meyilləri üstünlük edəcəkdir?

Şübhəsiz ki, lider ölkələr öz sosial, siyasi, iqtisadi, milli inkişaf modellərini, yerdə qalan ölkələrə qəbul etdirməyə səy göstərmə – bu həmin ölkələrin siyasətinin həm müsbət, həm də mənfi, zəif tərəfini təşkil edir. Bu bərabərhüquqlu tərəflərin könüllülük əsasında qarşılıqlı zənginləşmə istəyinin ifadəsi olmalıdır. Lakin o da məlumdur ki, heç də bütün ölkələr təklif edilən yeni, mütərəqqi (və ya başqa) model, standart, bilik və texnologiyaları asanlıqla mənimsəyə və ya gerçəkləşdirə bilmirlər, istənilən halda milli və bəşəri potensialın ahəngdar inkişaf nöqtələrinin müəyyənləşdirilməsi birmənalı deyil, mürəkkəb prosesdir.

Müstəqillik illərində ölkəmizin iqtisadiyyatına birbaşa sərmayə qoyuluşu, birgə beynəlxalq layihələrlə uzunmüddətli əməkdaşlığın təməlinin möhkəmləndirilməsi, təbiidir ki, öz növbəsində davranış stereotiplərinin, işgüzarlıq mədəniyyətinin standartlarının dəyişilməsini, insanlar və ölkələr arasında inam və etibarın artmasını tələb edir. Məlumdur ki, qlobal əməkdaşlıq da, qlobal rəqabət və yarış da, qeyri-səmərəliliyin, uğursuz fəaliyyətin istənilən nəticə və təzahürlərinə qarşı barışmaz münasibətdədir.

Bu gün inkişafın liderləri ola bilən ölkələr məhz bu şərtlərə əməl etdiyi, qlobal meyilləri sezdiyi və ona qoşula bildiyi üçün həmin mövqeləri əldə etmişlər.

Dünya inkişafının müasir real meyillərinin "bizim üçün" də işləməsini, həm Azərbaycanın ümumi iqtisadi

potensialı, həm geosiyasi mövqeyi, həm ulu öndərimizin yaratdığı siyasi sabitlik vəziyyəti, həm də Prezidentimiz İlham Əliyevin yeritdiyi dinamik, fəal milli dövlətçilik siyasəti təmin edə bilər və edəcəkdir.

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev hesab edir ki, "qloballaşma dövründə milli suverenliyin məhdudlaşmasından biz inteqrasiya prosesinin əlverişli meyillərinin milli məkanda assimilyasiyası üçün imkan kimi istifadə etməli, ardıcıl, ölçülüb-biçilmiş və əlaqələndirilmiş siyasət yeritməliyik. Bu, xüsusilə sivilizasiyalı daxili siyasi məkanın formalaşması proseslərinə aiddir. Həmin məkanın əsasını ölkənin inkişafına, onun iqtisadiyyatının modernləşməsinə və müasir Azərbaycan cəmiyyətinin mənəvi-əxlaqi əsaslarının möhkəmlənməsinə kömək edə biləcək qüvvələr təşkil etməlidir... Qazanılmış nailiyyətlərin dərk edilməsi, azərbaycançılıq konvergensiyasında və konfessiyalararası dialoqda ifadə olunmuş milli "mən"in qorunub saxlanması və varisliyinin təmin edilməsi güclü və müstəqil dövlət quruculuğunda birinci dərəcəli vəzifədir. 1993-cü ildən sonra Azərbaycanda görülmüş işlər aydın şəkildə sübut edir ki, milli inkişaf strategiyası sabit və təhlükəsiz siyasi və iqtisadi inkişafa, milli suverenliyin və sosiomədəni məkanın dəyişməzliyinin təmin olunmasına yönəlmiş öncül vəzifələrin dərk edilməsinə əsaslanır".

Bu gün yenidən milli dövlətçilik, milli suverenlik kimi prinsiplərin məzmununun baş verən köklü dəyişikliklər kontekstində təhlil etmək əvəzinə, onların "vaxtının keçdiyini" söyləmək də (müasir politoloji ədəbiyyatda), milliliyin "irqi şovinizm" kimi başa düşülməsi təhrif olunmuş mövqedir. Bəşəriyyət, milli ilə bəşəri, lokal və qlobal,



unikal və universal qatların kövrək ahəngini təmin etməklə əbədiyaşar bir nizam modeli formalaşdıra bilər. Azərbaycan öz nadir, ortaq milli-mədəni sərvətləri və dövlətçilik təcrübəsi ilə belə nizam modeli üçün örnək rolunu oynaya biləcək bir məkandır.

Bu gün dünya necə adlandırılmasından asılı olmayaraq, tamamilə fərqli bir mərhələyə qədəm qoymuşdur.

Dünyanın klassik modelinin dəyişdiyi və dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlətlərin yaranması, milli suverenlik ideyasının gerçəkləşməsi, varlığını qoruması və təsdiq etməsi kimi ciddi proseslər öz sürətini artırır. Belə bir şəraitdə həm bütün dünyanın inkişaf meyillərinə qoşula bilmək, həm də Azərbaycanın müstəqilliyinin sabit inkişafı və mövcudluğu üçün lazım olan bütün amilləri təmin edə bilmək necə mümkün olmuşdur? Müstəqillik əldə olunandan keçən vaxt ərzində ətrafımızda cərəyan edən hadisələrin inkişaf özünəməxsusluğu və sürətini dərk etdikcə, əldə olunan siyasi uğurların şahidi olduqca ulu öndərin şəxsiyyətinin, dühasının böyüklüyü qarşısında heyrət və heyranlıq hissi yaşayırsan. Siyasi uğur çoxölçülü anlayışdır. Lokal-milli müstəvidə bir cür, qlobal müstəvidə başqa cür nəzərdən keçirilə bilər. Bu fövqəlmürəkkəb müstəvilərin optimal uyğunlaşdırılması hər bir siyasətçiyə müyəssər olmur. Siyasi zaman və məkan, siyasi reallığın hədsiz dinamizm və dəyişkənliyi şəraitində uzun illər ahəngdar, sabit və uğurlu xətti təyin etmək böyük miqyaslı siyasətdən xəbər verir.

Ulu öndər dünyanın siyasi xəritəsində Azərbaycan adlı məmləkətin adını əbədi həkk edərək bu müstəqilliyin dönməz və sarsılmaz olduğunu tarixə və dünyaya bəyan etdi. Müstəqil, qüdrətli Azərbaycanın təməlini möhkəmləndirərək, onun möh-

təşəm, əsirlərin sınağına tab gətirərək əbədi binasının inşa olunması Heydər Əliyevin adı ilə bağlıdır.

Dövlətçilik yaşı əsrlərlə sayılan ölkələrlə müqayisədə tarixin bir anı sayılan zaman müddətində Azərbaycanın strateji, geosiyasi, ideoloji, sivilizasion vektorlarının seçilməsi dövlət yaradıcılığının hansı institusional genezis formalarına önəm verilməsi, intellektual, siyasi, iqtisadi resursların səfərbər edilməsi, cəmiyyətin siyasi palitrasındakı ən müxtəlif mənbələrdən idarə olunan, ziddiyyətli siyasi maraq və oriyentasiyaları bir nüvədə cəmləməyə, bir hədəfə vurmağa nailolma siyasətinin dühasını – Heydər Əliyevin xidmətlərinin adi şüur prizmasından görünən natamam bir rakursudur.

Qlobal güc mərkəzlərinin nisbəti və dinamikasına dərin bələd olmaqla Azərbaycanın geosiyasi mövqeyini üstünlüklərindən istifadə etməyə, yalnız təbii sərvətlər hesabına deyil, siyasi sabitlik yaratmaqla ölkənin investision rejiminin artırılması cəmiyyətin bütün sahələrində dövlət tənzimlənməsinin bərqərar olduğuna inandırma sahəsində ölkəmizi dünyaya tanıtdırmağa qadir oldu.

Bütün bunların bəhrəsi kimi Azərbaycana bir çox ölkələr üçün əlçatmaz arzu olan regional lider, demokratik-dünyəvi dəyərlərə sadiq, fundamental ifratçılıqdan uzaq olan cəmiyyət kimi qlobal inkişaf meyilləri ideal platsdarm statusunu qazandırdı.

Heydər Əliyev ideyalarının və əməlinin həcmi dəyəri və sanbalı bir tərəfdən yaşanılan zamanın özəllikləri, XX əsrin ikinci yarısındakı qlobal durum, bütün dünya düzəninin sistemli böhranı və struktur transformasiyası fonunda daha aydın görülürsə, digər tərəfdən, Azərbaycanda müstəqil dövlətin yaradılmasının nəyin bahasına mümkün olması, sosialist düşərgəsinin çökdüyü bütün ölkələrlə müqayisədə, burada mövcud olan çətin, fərqli şəraitin özəlliyi nəzərə alınmaqla dərk edilə bilər. Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin ağlagəlməz dərəcədə çətin geosiyasi məkanda, dünya güc mərkəzlərinin müdhiş maraqlarının çarpışmasının son həddə çatdığı, daxili xaosun kulminasiya məqamında bərpa etmiş, özülündən "ilk kərpicindən" başlayaraq yaratmışdır.



Ulu öndərimizin yaratdığı tarixlə, siyasi dəst-xəttin indiki nəticələri ilə bahəm, gələcək zəfərlərin perspektivlərinin müəyyənləşdirilməsi baxımından hansı möhtəşəmliyə malik olduğunu dərk etməyimiz də çox önəmlidir.

XXI əsrin özünəməxsusluğu nəzərə alınmaqla Heydər Əliyev siyasi kursunu uğurla reallaşdırmaq, müasir dünyanın sosial-iqtisadi, siyasi inkişafının magistral meyillərini təhlil etmək, istər lokal, regional müstəvidə gedən inteqrasiya, istərsə də qlobal müstəvidən gedən inifikasiya meyillərinin inkişaf istiqamətini müəyyənləşdirmək möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının siyasi fəhminin nəticəsidir.

Dünya inkişafının müasir real meyillərini Azərbaycan üçün işləməsini, beynəlxalq əməkdaşlığın vüsətinin İlham Əliyevin yeritdiyi dinamik, fəal milli dövlətçilik siyasəti təmin edir və edəcəkdir.

Bu gün Azərbaycan xalqının etibarını qazanmış, onun zəngin tarixi irsinin və mənəvi dəyərlərinin himayədarı olan siyasi liderin dövlətə başçılıq etməsi Azərbaycan xalqının tarixində şanlı səhifələrin yazılacağına əminlik yaradır.

## § 5. Heydər Əliyev və Azərbaycanda siyasi elita

*Dövlətin, cəmiyyətin inkişafında özünəməxsus rola malik olan, bütövlükdə ümumbəşəri tarixi prosesin subyekti qismində çıxış edən, tərəqqinin dinamikasında başlıca təkan və hərəkətverici qüvvə kimi çıxış edən liderlər, şəxsiyyətlər və elitar birliklər həmişə insanları düşündürmüş, bu gün də düşündürməkdədir.*

Azərbaycanda demokratik dövlət quruluşunun təməlinin qoyulması və möhkəmləndirilməsi prosesində həlledici xidmətlərə malik olan siyasi elitanın formalaşması qanunauyğunluqlarının klassik və müasir elitologiya nəzəriyyələri aspektində təhlili gündəlikdə duran məsələlərdəndir. Ən başlıcası isə, bu sahədə ümummilli lider Heydər Əliyevin misilsiz xidmətlərini tədqiq edərək, onun dünya politoloji elmini zənginləşdirəcək nəzəri-praktiki irsini aşkara çıxarmaq çox önəmlidir.

Müasir cəmiyyətlərin elitar mahiyyətli olması kifayət qədər sübut edilmiş faktdır. Siyasi elitarlıq faktorunun nəzərə alınmaması, bütün insanların eynilik və bəsit başa düşülən bərabərlik çərçivəsinə yerləşdirilməsi cəhdləri tarix boyu son nəticədə xalqa əzab gətirən səmərəsiz, avtoritar rejimlərin hökmranlıq etməsinə gətirib çıxarmışdır.



Elitasız keçinməyin mümkünlüyünü irəli sürən "ictimai özünüidarəyə" dair kommunist nəzəriyyəsi isə reallıqdan daha çox cəlbedici bir ideal, hətta utopiya olaraq qalmışdır. Son yüzillikdə demokratik dövlətçiliyin tarixi təcrübəsi sübut etdi ki, istər hər bir ölkənin qarşısında duran tələblərə, istərsə də zamanın çağırışlarına cavab verməyə qadir siyasi elitarlıq faktoru ilə nəinki mübarizə aparmaq, əksinə, onun formalaşması qanunauyğunluqlarına bələd olaraq hər cür dəstəkləmək cəmiyyətin, bütövlükdə bəşəriyyətin tərəqqi və mənafeyinə xidmət etmək deməkdir.

Nisbətən gənc tarixə malik olan politologiya elminin, elitarizmin müasir nəzəriyyəsinin gəldiyi ən başlıca qənaətləri belə səciyyələndirmək olar: dövləti, ölkəni istənilən, "hər yerindən duran adam" idarə edə bilməz.

Xalqın taleyi və məsuliyyəti rəhbər və lider statusunu daşıyan şəxsiyyətdə fenomenal, qeyri-adi qabiliyyətlərin cəmlənməsini tələb edir.

Cəmiyyətdə mövcud olan insanlar çoxçalarlı xüsusiyyətlərə, müxtəlif keyfiyyətlərə malikdir. Bu çeşidlilik insanların siyasi həyatda müxtəlif fəallıqla iştirakında, sosial-siyasi proseslərin təsirində və onların idarə edilməsində özünü büruzə verir. Siyasi idarəçilik keyfiyyətlərinin və funksiyalarının ən parlaq ifadə olunduğu, siyasi hakimiyyətin əhəmiyyətli hissəsini öz əlində cəmləyən müxtəlif insanların siyasi maraqlarını bir araya gətirə və bir məcraya yönəldə bilən siyasi amalların təcəssümü, gerçəkləşdirilməsi mexanizmini yarada bilən ali sosial qrup – cəmiyyətin elitasını təşkil edir. Siyasi elita fiziki, intellektual, psixoloji, mədəni, əxlaqi və təşkilatçılıq qabiliyyətləri ilə fərqlənir. Cəmiyyətin və dövlətin inkişafının əsas ideologiya və dünyagörüşünü formalaşdırır. İctimai prosesləri

lazım olan istiqamətə yönəldə, onların axarını dəyişə və təkmilləşdirə bilir. Nisbətən azlıq təşkil etsə də, siyasi elita müstəqil, yüksək sosial statusa malik olaraq hakimiyyəti əlində cəmləməklə dövlətin strateji xəttini gerçəkləşdirməyə xidmət edir.

Hakim siyasi elitanı səciyyələndirən əsas cəhətlər elitoloji nəzəriyyəyə görə, xüsusi təbii qabiliyyət və bacarıqlar, özünəməxsus sarsılmaz birlik yarada bilmək məharəti, cəmiyyət tərəfindən siyasi rəhbərlik hüququnun legitimləşməsinə nail olmaq, fəaliyyətində insanların mənafeyinə xidmət etməsi, bütün təbəqələrdən ən dəyərli insanların burada təmsil olunması real, mütərəqqi nəticə və uğurların əldə edilməsi və s. kimi ümumiləşdirilmişdir. Cəmiyyətin siyasi həyatının elitar mahiyyətə malik olması danılmaz reallıqdır və elitanın fəaliyyətinin daha uğurlu olması üçün bu problemin ardıcıl təhlili dünya ictimai elmində diqqət mərkəzində olan məsələlərdəndir. Elitanın strukturu bir tarixi mərhələdən digərinə keçid prosesində dəyişikliyə uğraya bilər. Məsələn, tarix boyu elitar dinamikada qəhrəmanlar, sərkərdələr, cəngavərlər, aristokratlar, müdrik dövlət xadimləri, intellektual elita və s. kimi status fərqləri bir-birini əvəzləmişdirsə də, cəmiyyətdə baş verən proseslərin subyekti və obyekti qismində çıxış edənlər arasındakı münasibətlərin mahiyyəti, əsasən özünü bütün dövrlərdə büruzə verməkdədir. Elita və cəmiyyət arasındakı münasibətlər müxtəlif siyasi quruluşlarda hökmranlıq xarakteri daşımışdırsa da, müasir demokratik cəmiyyətlərdə bu münasibətlər başlıca olaraq ümumi konsensus və birliyə əsaslanan idarəetmə və nizam yaratmaq məqsədinə xidmət edir. Bu mənada elitanın formalaşması ideyası demokratiyanın prinsipləri ilə ziddiyyət təşkil etmir və insanlara təbiətən xas olan sosial-psixoloji, intellektual, fərdi diferensiasiyadan irəli gələn obyektiv qanunauyğunluqdur.



Siyasi elita – siyasi lider faktoru ilə bilavasitə əlaqəli şəkildə formalaşır. Politologiya elmində bu anlayışlar üzvi vəhdət təşkil edir. Real həqiqətdir ki, dünyadakı dövlətlərin adı və tarixi, onları yaradan dahi şəxsiyyətlərin adı ilə qoşa çəkilir. Tarixi prosesin ən çətin məqamlarında, zamanın qarşıya qoyduğu həlli mürəkkəb olan məsələlərin həlli üçün taleyüklü qərarların qəbul edilməsini diktə edən qeyri-müəyyən şəraitdə siyasi lider, şəxsiyyət və dövlət xadimləri hadisələrin nizamlanmasını həyata keçirir. G.V.Hegel tarixi şəxsiyyətləri Dünya Ruhunun gerçəkləşdiriciləri adlandıraraq yazırdı: "Siyasi nizamsızlıq və tənəzzülə doğru yuvarlanan bir xalqın taleyini yalnız dahi xilas edə bilər" *(Г.Гегель.Политические произведения. М., 1978. с.154).*

XX əsrin ikinci yarısında bütün dünyada yaşanılan qlobal böhran mərhələsində, ağlagəlməz dərəcədə mürəkkəb geosiyasi məkanda, dünya güc mərkəzlərinin maraqlarının çarpışdığı, ölkədaxili xaosun kulminasiya həddinə çatdığı bir zamanda, əsrlər boyu milyonların əlçatmaz arzusu olan suverenliyi, Azərbaycanın dövlət müstəqilliyini gerçəkləşdirən, onu dönməz və əbədi edən dahi şəxsiyyət ömrünü yaşamaq Heydər Əliyevə nəsib olmuşdur.

Ulu öndər, liderliyin miqyas və zirvələrini siyasət elmində hələlik sonadək dərk olunmayan bütün səviyyə və qatlarını fəth etmiş, nəinki yaratdığı siyasi elitanın, siyasi partiyanın lideri statusunu qazanmış, həm də nadir hallarda görkəmli şəxsiyyətlərə qismət olan xalq və millət sevgisinin ən ali məqamına yüksələrək Ümummilli Lider, Türk dünyasının Lideri kimi əbədiyaşar adlarda Azərbaycan dövləti durduqca da-

hilik etirafının örnəyinə, mücəssəməsinə çevrilmişdir. Heydər Əliyevin liderliyi altında müstəqil Azərbaycanın milli elitası formalaşmış, baş verən, ictimai-siyasi proseslərin axarını dəyişməyə qadir olan, ictimai şüura, insanların seçiminə güclü təsir göstərən, onların parçalanmaq təhlükəsini yaşayan maraq və enerjilərini bir nöqtədə cəmləməyə nail olan, nizamsızlıqdan təşkilatlanmış qüvvəyə çevirən, əvəzsiz ictimai-siyasi təkan rolunu oynamışdır.

Dövlətçiliyin taleyində gördüyü çoxmiqyaslı fəaliyyəti, xalq qarşısında məsuliyyəti və əldə etdiyi nəticələri ilə Heydər Əliyevin başçılıq etdiyi siyasi elita – Azərbaycanın milli elitası səviyyəsinə yüksələ bilmişdir.

Hər hansı bir insanın öz əhatəsinə, hər hansı təşkilata, müəyyən insan qruplarına, nəhayət, bütün cəmiyyətə və dünyada gedən proseslərə göstərdiyi daimi nüfuzlu təsirin səbəbləri siyasət elmində düşündürücü məsələlərdən olmuşdur. Siyasi liderliyi təhlil edən müstəqil elm sahəsi formalaşmışdır. Liderlik fenomeninə cildlərlə əsərlər həsr edilmiş, liderlik tiplərinin və təsnifatının, başlıca keyfiyyətlərin səciyyələndirilməsinə cəhd göstərilmişdir.

Lider obrazları, cəmiyyətdə dağınıq insan kütlələrinin xalq və millət kimi təşkilatlanmasında, optimal siyasi qərarların qəbul edilməsində, dövlətçiliyin təməlinin qoyulması və möhkəmləndirilməsində, cəmiyyətin sosial enerjisinin və qurucu potensialının səfərbər edilməsində siyasi məqsədə nail olmağa yönəldilməsində, bütün təbəqələrlə üfüqi və şaquli istiqamətlərdə səmimi əlaqə və dialoq kanallarının təşkilində, fövqəlmürəkkəb durumlardan çıxış yolu tapmaq məharətində və s.kimi təsnifləşdirilmişdir.

Sadalanan keyfiyyətlərdən dolayı qeyri-adi təsir və



nüfuz gücünə malik olmaqla, insanlarla izahı çətin olan səmimiyyət və inam münasibətləri yarada bilən, ilahi verginin fenomenal uğurlarla müşayiət etdiyi xarizmatik lider, lider-ideoloq, lider-strateq, lider-praqmatik və s. obrazlar mövcuddur. Azərbaycan xalqı bütün bu keyfiyyətlərin, ilahi qüvvənin təcəssümünün bir insanın simasında - Heydər Əliyev şəxsiyyətində cəmlənməsindən sonsuz qürur duyur.

"Müstəqil Azərbaycanın siyasi elitası 1990-cı ilin yanvarından, ölkəmizin Moskvadakı səfirliyində ümummilli lider Heydər Əliyevin bəyanatı ilə formalaşmağa başlamışdır. Bu mürəkkəb zamanda azadlıq və müstəqillik, demokratik dəyərlər, güclü iqtisadiyyat uğrunda mübarizə aparmağa qadir olan müasir milli siyasi elitanın mənəvi və siyasi amalının formalaşmasının başlanğıcı idi. Heydər Əliyevlə çiyin-ciyinə Azərbaycana bu gün rəhbərlik edən prezident İlham Əliyev də bu proseslərin bilavasitə iştirakçısı və şahidi idi. Dövlətçilik mənafeyi uğrunda vətənpərvər qüvvələrin və xalq kütlələrinin sarsılmaz birliyini təmin etmək vəzifəsini Heydər Əliyevin yaratdığı "Yeni Azərbaycan" partiyası yerinə yetirməli oldu." *(R.Mehdiyev. Azərbaycan: qloballaşmanın tələbləri. Bakı, 2005, s.337).*

Siyasi lider və siyasi elita ilə Azərbaycan xalqı arasındakı çoxşaxəli münasibətlərin qurulmasında "Yeni Azərbaycan" partiyası hakim partiya kimi ümummilli dövlətçilik və siyasi quruculuq istiqamətində görülən işlərlə vətəndaş fəallığının episentrini təşkil etmiş və bu gün də etməkdədir.

Heydər Əliyevin liderliyi ilə formalaşan milli elita mahiyyətcə açıq xarakterli olması ilə də politoloji elmin aşkara çıxardığı obyektiv qanunauyğunluqlara adekvat səviyyədə fəaliyyət göstərir. Milli siyasi elita Azərbaycan adlı məmləkətin

suverenliyini, qüdrəti və möhkəmləndirilməsini hər şeydən üstün tutan, cəmiyyətin bütün təbəqələrindən, ən müxtəlif peşə sahələrində çalışan, elm, mədəniyyət, iqtisadiyyat və s. sahələrin nümayəndələri üçün açıq olması ilə ardıcıl olaraq zənginləşmə prosesini yaşayır. Məlumdur ki, elitanın qapalı xarakterli olması onun uğursuzluğunu şərtləndirə bilər. Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu milli siyasi elita cəmiyyətin bütün spektrlərini özündə əks etdirməklə, xalqın ən layiqli nümayəndələrini təmsil etməklə daimi mütərəqqi dinamikası və mobilliyi ilə səciyyələnir. Məhz bu elitar dinamikanın izlənilməsi və təhlili də çox önəmlidir və Heydər Əliyevin başlanğıcını qoyduğu ənənənin uğurla davam etdirilməsini düzgün dərk etməyə imkan verir.

Bir tarixi mərhələdən digərinə keçid alınarkən siyasi elitanın fəaliyyət göstərdiyi şərait, zamanın çağırışları, elitanın strukturu, elita üzvlərinə verilən tələblər də mahiyyət və məzmunca dəyişikliklərə uğrayır. Milli dövlət qarşısında duran məqsədlərin həyata keçirilməsi müasir dünya inkişafının aparıcı meyli hesab olunan qloballaşma prosesindən irəli gələn mürəkkəb şərait gedişində həyata keçirilməli olur. Belə durumda həm ölkə daxili. Həm də qlobal çağırışlara cavab verən siyasi elitanın formalaşması da gündəmdə duran vəzifələrdəndir. Qeyd olunduğu kimi, elitar dinamika tarixi məzmunlu anlayışdır. Bir zamanlar siyasi liderdən yalnız hərbi qəhrəmanlıq, sərkərdəlik qabiliyyətləri tələb olunurdusa, müasir elitanın ən başlıca, fərqli xüsusiyyəti intellektual siyasi potensiala sahib olmaq, çevik-refleksiv qərarlar qəbul etmək, strategiya və praqmatikanın kövrək balansını müəyyənləşdirə bilmək, siyasi fəhm, erudisiya və peşəkarlığı bir araya gətirməklə fövqəlmürəkkəb problemlərin yeganə optimal həlli variantını seçmək kimi amillər səciyyələndirir.



Tarixin bütün dönəmlərində dövlətin idarə olunmasına, cəmiyyətdə insanlar arasında nizamın təmin edilməsinə, həm də bu proseslərin inkişaf və yüksəliş məramına xidmət etməsinə obyektiv zərurət mövcud olmuşdur.

Azərbaycan dövlətçiliyi tarix boyu məhz belə dönəmlərdə təhlükə ilə üz-üzə qalmış, zamanın irəli sürdüyü strateji çağırışlar və onlara vaxtında cavab verə bilmək tələbini reallaşdırmağa mane olan qüvvələr öz istəklərinə nail olmuşlar. Dövlətçiliyimizə qarşı yönələn qüvvələrin üstün gəlməsini müxtəlif dövrlərdə müxtəlif amillər şərtləndirmişdir. Onların içərisində ən başlıcası əlbəttə ki, qüdrətli siyasi lider, rəhbər amili, daha doğrusu, bu amilin yoxluğu olmuşdur.

Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real nüfuza və gücə malik, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycanın Heydər Əliyev tərəfindən müəyyən edilmiş fundamental inkişaf strategiyasını rəhbər tutan İlham Əliyevin prezident seçilməsi ilə tariximizdə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Dövlətçiliyin inkişafında tarixi və strateji irsin davamlı məcraya yön alması, inkişaf pillələrini əlaqələndirən halqələrin, bağların qırılması deyil, təcrübə və ənənənin varislik və yenilik aspektləri ilə zənginləşməsi prosesinə təkan verildi.

Hər bir xalqın tarixində onun dünya səhnəsindən yox olmaq təhlükəsi də, fenomen siyasi liderin əzmi nəticəsində bu təhlükəyə qalib gələrək, öz varlığını qoruyub saxlaması məqamları da kifayət qədər olmuşdur.

2003-cü ildə xalqın etimadı və dəstəyi ilə Prezident İlham Əliyevin dövlət rəhbərliyinə gəlməsindən etibarən ulu öndərin müəyyənləşdirdiyi milli strategiyanın növbəti manevr fazasının başlandığı gerçəklikdir. Azərbaycan bu fazaya qədəm qoymuşdur.

Yaddan çıxarmayaq ki, zaman mərhələ məfhumunun özünə də bu gün çox ciddi dəyişikliklər edilibdir. Əvvəlki, keçmiş tarixdə 3-5 əsr ərzində baş verən hadisələr bu gün 3-5 illik bir mərhələni əhatə edir. Ən qısa zaman ərzində nə qədər möhtəşəm vəzifələr reallaşdıra bilirsə, yüksəliş baş verir.

Sıxlaşmış zaman çərçivəsində əhatəmizdə yeni maraqlar baxımından formalaşan, yeni dünya nizamı, bəlkə də nizamsızlığı milli dövlətlərin öz suverenliyini qoruyub saxlamasını daha mürəkkəbləşdirir. Bu gün beynəlxalq aləmdə milli dövlətlərin münasibətləri yeni mühitdə formalaşır. Böyük dövlət, kiçik dövlət, sərhəd məfhumlarının da məzmunu başqalaşır, qüdrəti məkanla deyil, zamanla ölçülən dövlətlər sırasına daxilolma tarixi zərurətə çevrilir. Dövlətlərin qüdrəti onun zəka mühitinin formalaşması, yüksək texnologiyalardan istifadəsi, xalqın mənafeyinə uyğun siyasət yeridilməsi ilə ölçülür. Bu baxımdan doğrudan da yeni mərhələ olduqca çətindir və mürəkkəb inkişaf istiqamətlərinin toplusuna çevrilir.

"Yenilik" bəhs olunan mərhələdə ölkənin sonrakı varlığını, perspektivini təmin etmək üçün mütləq zamanın və konkret yaşanılan dövrün tələblərinə adekvat tərzdə yeniləşə bilmək həqiqətidir. Bu qlobal inkişafın imperativ amilidir. Tarix boyu dəfələrlə ölkələrin təkamül təcrübəsində sınanılmış həqiqətdir. Həyatda lokal və qlobal əhatədə gedən proseslər hər dəqiqə siyasi qərarlar verilməsini, dəyişikliklərin dinamik, çevik qərarlar üzərində qurulmasını diktə edir. Bu isə özlüyündə hansı vasitə, taktiki gedişlərin və idarəçilik metodlarının tətbiq olunmasını problematik məsələyə çevirir.



Yeni strateji oriyentirlərin hədəfə alınması və adekvat qərarlar qəbul edilməsi hər kəsə müyəssər olmayan, yalnız yeni dövrün tarixi missiyasını qəlbən duyan yeni liderə nəsib olur. Yeni tipli lider analoqu olmayan çoxsaylı mürəkkəb hadisələrin inkişaf tempinin sürətlənməsi şəraitində, perspektivi tam bəlli olmayan dünyada sosial, siyasi-iqtisadi, hüquqi mədəni sahələrdə düzgün qərar qəbuletmə məsuliyyəti ilə seçilir.

Hakimiyyətə təsadüfi gələn, əvvəlkindən fərqli siyasi ab-havanı duymayan, strateji təfəkkürünün son dərəcə darlığı, məhdudluğu fonunda populist taktiki hərəkətlər "bolluğu" təsəvvürünü yaradan, bununla fəallıq görüntüsünə ümid edənlər tarixdə heç vaxt zamanın nəbzini tuta bilən "Yeni lider" səviyyəsinə qalxa bilməmişlər.

Müasir elitologiya elmi "ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə" malik olan seçilmiş insanların – elitanın formalaşması və idarəetmədə uğurlara nail olmasını təmin edən şərtlərə yeni müddəalar, düzəlişlər etmişdir. Siyasi lider tiplərinin – rasional, ənənəvi, xarizmatik – sırasına daha biri: intellektual-texnokratik potensiala malik, yeniliklərə həssaslığı bildirən inteqral göstəriciləri özündə cəmləyən siyasi lider tipi də əlavə olunmuş, daha doğrusu, bu qisim liderlər ön sıraya çıxarılmışdır. Buraya, intellektual imkanlar və siyasi istedad, siyasi ideal və prinsiplərə

sadiqlik, cəmiyyətlə birgə olmaq yüksək siyasi mədəniyyət, novatorluq fəhmi və s. aid edilir.

İlham Əliyevin yeni siyasi lider kimi ictimai rəydə yekdilliklə qəbul edilən imicinin obyektiv təməllərdən qaynaqlandığına, xalqla onun arasındakı qarşılıqlı inamın sarsılmaz tellərlə bağlı olduğuna diqqəti cəlb etməkdir. Prezidenti dəstəkləyən, ona dərin inam bəsləyənlər arasında coğrafi, milli, yaxud da yaş hüdudları mövcud deyildir. Öz ətrafında ölkənin bütün bölgələrində, bütün yaşdan olan insanları birləşdirə bilən siyasi lider olmaq kimi nadir keyfiyyət ona qismət olmuşdur.

Azərbaycan dövlətçiliyinin inkişafında yeni qələbələrin rəhni olan mərhələyə qədəm qoyması, həm də Prezidentin hər cür stereotiplərdən uzaq, səmimi həyat xəttinə sadiq qalmasında özünü göstərir.

Azərbaycanda demokratik vətəndaş cəmiyyətinin qurulması istiqamətində səmərəli dövlətçilik siyasətinin uğurla davam etdirilməsində İlham Əliyevin nailiyyətlərini təmin edən obyektiv amillərlə yanaşı, onun şəxsi-subyektiv liderlik keyfiyyətləri də inkaredilməzdir. O, milli ənənələrə, dövlətçilik prinsiplərinə sadiq olan, eyni zamanda, XXI yüzilin modern siyasi məkanına uğurla köklənən, ən müxtəlif siyasi keyfiyyət və dəyərləri özündə sintez etməyi bacaran dövlət xadimidir.

2003-cü ildən etibarən İlham Əliyev müstəqil Azərbaycanın siyasi dövlətçiliyinin siması, atributu kimi qəbul edilir. Ulu öndərin zəngin və tükənməz siyasi-tarixi irsinə, xalqımızın iradəsinə söykənən İlham Əliyev peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu lider kimi ölkədə və xaricdə özünü təsdiq etmişdir.



Bu gün siyasi lider, partiya lideri müstəvilərindən fenomenal xarizmatik lider, ümummilli lider zirvəsinə yüksəlmiş Heydər Əliyevin formalaşdırdığı milli-siyasi elita xalqın inam və etibarı, dəstəyi ilə hakimiyyətdədirsə, deməli bunu zərurətə çevirən obyektiv qanunauyğunluqlar və subyektiv faktorların ahəngdar sintezinə nail olmaq mümkün olmuşdur.

## § 6. Azərbaycanda milli intellektual elita və qlobal innovasion cəmiyyətə inteqrasiya məsələləri

*"Azərbaycan xalqının milli sərvəti onun intellektual potensialıdır, mədəniyyətidir, ədəbiyyatıdır. Biz müstəqil dövlətimizi boş yerdə qurmağa başlamamışdıq. Bizim iqtisadi potensialımız kimi başqa bir sərvətimiz – intellektual potensialımız da var. Bunu yaradanlar var. Bu dahi insanlar Azərbaycanın böyük intellektual potensialını, mülkiyyətini yaradıblar".*

**HEYDƏR ƏLİYEV**

*"Bu gün qabaqcıl ölkələrin təcrübəsinə nəzər salsaq görərik: onların tərəqqisini elm müəyyən etmişdir. Nə təbii sərvətlər, nə də ki coğrafi vəziyyət deyil, məhz intellektual kapital, məhz elmin səviyyəsi hər bir ölkəni lider ölkəyə çevirir".*

**İLHAM ƏLİYEV**

Tarixin bütün dönəmlərində zəka və intellektin özəl missiyaya, dünya nizamında əvəzsiz rola malik olması ideyası mövcud olmuşdur. Maddi, fiziki qüvvədən fərqli olaraq, yaradıcı enerjinin, ağlın gücünün xüsusi keyfiyyətə malik olduğunu ilk vurğulayanlardan biri də Platon olmuş-



dur. Fikrini izah etmək üçün qədim dənizçiləri misal gətirən Platon yazırdı ki. külək dayananda, yelkənlər gücsüz qalanda onlar çevik şəkildə "ikinci naviqasiyanı", düşüncələrini hərəkətə gətirir, avarlarla vəziyyətdən çıxış yolunu tapırdılar. Dənizdə olduğu kimi, həyatda da "ikinci naviqasiya" fiziki deyil, əqli imkanların səfərbər edilməsini, yaradıcılıq səyini tələb edir.

Bəşəriyyət inkişaf etdikcə irəliləyişin təkanverici amili qismində çıxış edən strateji resurslar da dinamik dəyişikliyə uğramışdır. XXI əsri fərqləndirən müstəsna cəhət odur ki, zəka və intellekt dünya inkişafının strateji resursuna, tərəqqinin meyarına çevrilmişdir. Bəşəriyyət 1) ərazi; 2) kapital; 3) texnologiyaların fəthi və mənimsənilməsi mərhələlərini arxada qoyaraq, dördüncü – intellektual sərvətin fəthi erasına qədəm qoymuşdur.

Yəni bu vaxta qədər sivilizasiyanın mövcudluğunu təmin edən inkişaf paradiqması kökündən dəyişməkdə, yenisi ilə əvəz olunmaqdadır. Bu gün qlobal cəmiyyət mövcud problemləri həll etmək üçün yeni ictimai quruluş tipinə keçid almaqdadır. Bu da bütün sahələrdə ənənəvi paradiqma, dəyərlər sistemi, təşkilatlanma formalarının, inkişaf strategiyalarının sistemli şəkildə, kökündən yeniləşməsini tələb edir. Formalaşmaqda olan yeni cəmiyyət tipini müxtəlif cür adlandırırlar: superindustrial, elmi, informasiya, bilik, intellekt cəmiyyəti, texnotron era və s. Müxtəlif səslənən bu sözləri mahiyyətcə yaxın edən bir ümumi cəhət var: insan həyatının bütün sahələrinin, peşə və ixtisasların, əmək fəaliyyətinin, hətta məişət əməyinin məzmunun ən yüksək səviyyədə intellektuallaşması, intellektin ön sıraya keçməsi.

Yaşanılan məqamın daha bir özəlliyi ondadır ki, inkişaf səviyyəsindən asılı olmayaraq dünyanın bütün ölkələri qarşısında eyni məqsəd durur: insan resurslarına, intellektual kapitala əsaslanan innovasion cəmiyyət modelinə keçid almaq, onu reallaşdırmaq və möhkəmləndirmək.

Demokratik vətəndaş cəmiyyəti, hüquqi dövlət quruluşu kimi qlobal tarixi vəzifələr sırasına daha biri – innovasion elm cəmiyyəti qurmaq vəzifəsi əlavə olunmuşdur. Daha dəqiq deyilsə, demokratik cəmiyyətin uğuru və tərəqqisi, hər şeydən əvvəl, innovasion inkişaf paradiqmasının nə dərəcədə müəyyənləşdirilməsindən uğurla tətbiqi və həyata keçirilməsindən birmənalı asılı olmuşdur.

Bu həyati vacib məsələ ölkəmizin milli intellektual elitası qarşısında olduqca məsuliyyətli, miqyaslı vəzifələr irəli sürür. Azərbaycan elmində, ümumiyyətlə, elita problemi, elitologiya mövzusu o qədər də geniş müzakirələrin mövzusu ola bilməmişdir. "Milli intellektual elita" onun təşəkkülü, cəmiyyətdə rolu, mövqeyi və funksiyaları və s. problemlər isə demək olar ki, hələ ictimai elmin diqqət mərkəzinə gəlməmişdir. Bu isə intellektual kapitalın və insan resurslarının bir nömrəli məsələyə çevrildiyi XXI əsrdə narahatlıq doğurur. Bunu statistik məlumatlar səviyyəsində sübut edən bir faktı misal gətirək.

Dünya Bankı 192 ölkənin milli sərvətini təhlil edərək belə nəticəyə gəlmişdir: müasir dövrdə milli sərvətin 16 faizini ümumi istehsal fondları, 20 faizini təbii ehtiyatlar, 64 faizini isə "insan kapitalı, intellektual resurslar" təmsil edir. Buna görə də inkişafın insana yönümlü konsepsiyası və göstəriciləri ön sıraya keçir, dövlət siyasətinin başlıca istiqamətini təşkil edir.



Suveren Azərbaycanın bütün sahələrdə olduğu kimi, intellektual-elmi inkişaf strategiyasının da təməli Heydər Əliyev tərəfindən qoyulmuşdur. Dövlətimizin siyasi müstəqilliyini, onun elmi intellektual, mədəni intibahı ilə bir arada, tarixin və taleyin sınağında gerçəkləşdirə bilən şəxsiyyətin – Heydər Əliyevin həm dövlət öndəri, həm də eyni zamanda, zəka öndəri olması bütün dünyada qəbul edilmiş tarixi həqiqətdir. Məhz bu səbəbdəndir ki, obyektiv elmi siyasətə əsaslanan əbədi, suveren Azərbaycan ideyası üzərində qurulan müstəqil vətənimiz tarixin heç bir dövründə Heydər Əliyev epoxasında olduğu qədər dünyada etiraf və təsdiq olunmamışdır. Məhz onun fədakar xidmətləri sayəsində Azərbaycan dünya siyasi xəritəsinə adını birdəfəlik həkk etmişdir.

İntellekt və zəkanın dünyada, xüsusilə də yeni qurulan Azərbaycan cəmiyyətində nələrə qadir olduğunu, ümummilli liderimizin necə dəyərləndirdiyini, onun bütün həyatı, ictimai-siyasi fəaliyyəti sübut edir. İnnovasion yönümlü elm cəmiyyətinin formalaşması qanunauyğunluqlarını, yeni dövrün başlandığını bütün dünyada vurğulayan zəka sahibləri sırasında Heydər Əliyev birincilərdən olmuşdur. Onun elmə, intellektə münasibəti, milli elitanın formalaşdırılması istiqamətində göstərdiyi xidmətlər bu sahədə konkret məqsədləri, aydın hədəfləri necə müəyyən etməsi hələ çoxlu tədqiqatların mövzusu olacaqdır.

Qüdrətli Azərbaycanın qurulması, siyasi və iqtisadi sabitliyin təmin olunması kimi möhtəşəm vəzifənin hər şeydən əvvəl elmə və zəkaya əsaslanan siyasət əsasında həyata keçirilməsində, bu istiqamətdə ölkənin malik olduğu intellektual potensialın səfərbər edilməsinə, insanların intellektual imkan-

larına xüsusi dəyər verməsi Heydər Əliyevin fəaliyyətinin bütün dövrləri üçün səciyyəvi olmuşdur. Hələ sovet dövründə ölkə gənclərinin dünya elminin qabaqcıl nailiyyətlərinə yiyələnməsi üçün seçilmiş ali məktəblərə göndərilməsi bunu sübut edir. Dövlətçiliyin tarixində, müstəqillik salnaməsində dönüş nöqtəsi olan 1993-cü ildə yeni, suveren Azərbaycanın yaradılması üçün Bakıya qayıdan ümummilli liderin ilk görüşə ölkə alimlərindən, düşünən insanlardan, ziyalılardan başlaması hamının xatirindədir. Bu, əslində, hər bir inqilabi yeniliyin şüurlardan başladığına, insanın inam və intellektinin vəhdətinə əsaslandığına bəslənilən böyük ümiddən irəli gəlirdi. Bu görüş həm də cəmiyyətdə intellektin missiyasının və fəlsəfəsinin bilicisi olan tarixi şəxsiyyətin hansı zəkaya sahib olduğuna bir simvolik işarə idi. Ümummilli lider bununla da yaradılan yeni dövlətin bünövrəsinin elmi əsaslar üzərində qurulduğunu, zəka potensialına arxalandığını, insan resurslarını necə dəyərləndirdiyini nümayiş etdirdi. Onun elmə, təhsilə, mədəniyyətə, mənəviyyata göstərdiyi diqqət və qayğının kökündə, bunların milli qüdrətin və özünüdərk prosesinin ayrılmaz tərkib hissəsi olduğuna əminlik dururdu.

Bu qayğının kökündə insan amilinə, onun mədəni-elmi səviyyəsinə, intellektual imkanlarına dərin inam dururdu.

Heydər Əliyevi dövlət və siyasət öndəri səviyyəsinə ucaldan amil, onun nadir istedada, ensiklopedik biliyə, fəhm və intuisiyaya malik böyük strateq, həm də praqmatik olması öncə məhz zəka və dühа sahibi olması idi. Onun elmə verdiyi dəyərin səbəblərini məhz burada, "zər qədrini zərgər bilər" xalq deyimində axtarmaq lazımdır. Təhsilin və elmin strateji istiqamətlər və dövlət siyasətinin ən mühüm məsələsi kimi bəyan



edilməsi, ardıcıl quruculuq işləri bu gün öz konkret nəticələrini verir və verəcəkdir.

Azərbaycan həmişə elmin, zəkanın qiymətləndirildiyi sivil bir məkan olmuş, insan potensialına əhəmiyyət verdiyini həmişə nümayiş etdirmişdir.

Müasir dünyada, demokratik cəmiyyətdə inkişaf və idarəetmə məsələlərinin daha çox elitarlıq prinsipinə əsaslanması, yüksək statusa və qabiliyyətə malik elitanın həlledici rol oynaması elmi həqiqətdir. Elita intellektual, siyasi, mədəni, iqtisadi, psixoloji, mənəvi, təşkilatçılıq qabiliyyətləri ilə fərqlənən, başqa qruplarla müqayisədə daha çox dövlətçilik missiyasına xidmət edən insanların birliyidir.

Müstəqil dövlət, suveren milli elitaya malik olmalıdır. Milli elita isə milli lider ətrafında birləşə, xalqın potensial enerjisini bir araya gətirə, quruculuq işlərinə səfərbər edə bilər.

Cəmiyyətdə elitaların nisbi bölgüsü: siyasi, hərbi, iqtisadi, mədəni, texnokratik və s. elitalar mövcuddur. Lakin sübut etməyə ehtiyac yoxdur ki, onların hamısını birləşdirən başlıca cəhət milli dövlətçiliyə xidmət etmək və intellektual qabiliyyətləri ilə fərqlənməkdir. Siyasi elitanı səciyyələndirən müəyyən cəhətlər barədə müxtəlif baxışlar məlumdur.

İntellektual – elmi elita isə müəyyən mənada həm yeni, həm də ənənəvi elitaların xüsusiyyətlərini, özündə əks etdirir. Belə ki, gerçəkliyin elmi-nəzəri əsaslar üzərində qurulmuş, konseptual proqramına malik olmaq, ilk növbədə, insanların dünyagörüşünü və imkanlarını bir məcraya yönəltmək və idarəetmə keyfiyyətləri bütün növ elitar təbəqələrə xasdır.

Müasir dövrdə cəmiyyətin idarə olunmasında, intellekt amilinin, ümumiyyətlə, elitaların, o cümlədən də intellektual elmi və siyasi elitanın dövlətçilik maraqları ətrafında üzvi kon-

solidasiyası prosesi baş verir. Məhz buna görə də ölkəmizdə milli intellektual elitanın yaranmasını, suveren siyasi elitanın təşəkkülündən ayırmaq düzgün olmazdı. Bu baxımdan akademik R.Mehdiyev yazır: "Müstəqil Azərbaycanın siyasi elitası 1990-cı ilin yanvarında, ölkəmizin Moskvadakı səfirliyində ümummilli lider Heydər Əliyevin bəyanatı ilə formalaşmağa başlamışdır. Bu mürəkkəb zaman azadlıq və müstəqillik, demokratik dəyərlər, güclü iqtisadiyyat uğrunda mübarizəyə qadir olan müasir milli elitanın mənəvi və siyasi amalının formalaşmasının başlanğıcı idi" (*R.Mehdiyev. Azərbaycan: Qloballaşmanın tələbləri. Bakı, 2005, s.337*).

Mövcud olduğu zaman, tarixi şərait və qarşıda duran vəzifələrin həllində oynadığı rola görə müxtəlif mərhələlərdə elitaların müəyyən təbəqəsi tarixin səhnəsində önə çıxır, tərəqqinin hərəkətverici qüvvəsinə çevrilir. Bu "elitar dinamika" anlayışı ilə ifadə olunur və çoxşaxəli prosesləri əks etdirir. Ən vacibi, inkişafın qlobal meyillərinə müvafiq olaraq müəyyən elita təbəqəsinin ön cərgəyə gəlməsini, dəyişikliklərin və yeniləşmənin hərəkətverici qüvvəsi qismində üzərinə böyük vəzifələr düşməsini diqqət mərkəzinə gətirir. Tarixin əvvəlki dönəmlərində, cahangirlik və hərb amilinin önəmli olduğu çağlarda sərkərdə və hərbi elitanın statusu daha yüksək idi. Bu gün də müəyyən ölkələrdə dövlət siyasətinin müəyyənləşməsində hərbi elitanın mühüm qərarların verilməsində statusu həlledici təsirə malikdir.

Bu gün inkişaf etmiş ölkələrdə intellekt və siyasət vahid cəbhədə dövlətçilik maraqlarına xidmət edir. Bu ölkələrin qazandığı uğurların təminatçısı məhz həqiqi intellektualların dövlətçiliyin inkişafını hər şeydən üstün tutmasıdır. Dünya inkişafının hazırkı mərhələsində fatehlik hünərini, sərkərdə qılıncını,



zəka "qılıncı", ağlın gücü əvəz edir və təbii ki, intellektual elitanın üzərinə çox çətin və şərəfli bir missiya düşür.

Dünya elm və informasiya cəmiyyətinə inteqrasiya dövlətimizin siyasətinin ana xəttini təşkil edir. Bu qarşıdakı vəzifələrin bir mühüm istiqamətidir. Digər məsələ, müasir dövrdə öz dayanıqlı inkişafını, rəqabətə davamlılığı, gələcək perspektivlərini müəyyən edən hər bir dövlətin innovasion inkişaf paradiqmasına keçid alması zərurəti ilə bağlıdır. Modernləşmə və postmodernləşmə proseslərinin keyfiyyətcə yeni mərhələyə qədəm qoymasını məhz hər bir ölkənin innovasion inkişaf strategiyası təmin edir. Dünya innovasiya məkanına inteqrasiya yolunun alternativi mövcud deyil. Bu miqyaslı vəzifənin dərki, izah edilməsi və hərtərəfli konsepsiyasının formalaşdırılması milli intellektual elitanın üzərinə düşür. Onu səciyyələndirən başlıca cəhətlər:

– yeni şəraitdə cəmiyyətin inkişafının yeni ideya və konsepsiyalarının irəli sürülməsi;

– cəmiyyətin idarə olunması üçün strateji qərarların qəbulunda dövlətə ən yaxın dəstəyin göstərilməsi;

– yeniliklərə həssas və fəal, təşəbbüskar mövqeyə malik, ictimai şüurun, innovasion mühitin formalaşdırılması;

– xalqın intellektual potensialının, insan resurslarının səfərbər edilməsi;

– cəmiyyət və dövlətin inkişafı üçün yüksək məsuliyyət hissi;

– konkret intellektual-elmi nailiyyətə yönəlmiş novatorluq fəaliyyəti;

– milli maraqlara yönümlü olması;

– milli ideyanı formalaşdırmaq və onun həyata keçməsinə xidmət etməsi;

– ali mənəvi keyfiyyətlərin daşıyıcısı olması;

– bütün cəmiyyətin ideal və dəyərlərinin cəmləşdiyi obraza malik olması;

– kütlələrə, emosiyalara deyil, şüur və zəkaya ünvanlı, düşüncəyə yönümlü fəaliyyət aparması;

– cəmiyyətlə dövlət arasında ahəngin, ünsiyyətin təmin olunmasına xidmət etməsi;

– yeninin yaradılması, ənənə və innovasiyalar arasında optimal sintezin təmin edilməsi, yeni mənəvi dayaqların müəyyən edilməsidir.

Əlbəttə ki, bu xüsusiyyətlər milli intellektual elitanı səciyyələndirən bütün keyfiyyətlərin tam siyahısı deyil. İntellektual elitarlıq – yalnız təhsil və diplomla müəyyən edilmir. Hər şeydən əvvəl, dövlətin, millətin taleyini öz taleyi kimi hiss etmək, uğurlarda payı, uğursuzluqlarda günahı olmaq kimi özəl missiyanın duyumu intellekt sahibini elitaya çevirir. Sadəcə diplom deyil, professionalizmin ən mükəmməl səviyyəsinə çatmaq üçün daim öz üzərində işləmək, sözdə deyil, əməldə insanlara örnək olmaq milli intellektual elitanın xüsusiyyətlərindəndir.

Xalqın düşünən beyni, "mədəni nüfuz sahib"ləri olan elita üçün qeyd edildiyi kimi, mütləq müqəddəs missiyanın daşıyıcısı olmaq hissi, mənəvi meyar ən önəmli keyfiyyətlərdəndir. Onun missiyasını Prometeyin missiyası ilə müqayisə edirlər. Yeniliklərə fövqəladə həssaslıq duyumunu milli köklərlə, adət ənənələrlə sintezdə inkişaf etdirmək, "yeniliyə hazır ol!" şüarını bəyan etmək intellektual elitanın funksiyalarındandır. Bundan əlavə, milli intellektual elitanın sosial, təşkilati – idarəetmə, inteqrativ birliyi təmin etmək kimi funksiyaları mövcuddur.



Azərbaycanda innovasion cəmiyyət quruculuğunun ictimai, mədəni, elmi əsaslarının qurulması dünya birliyinə inteqrasiyanın mühüm şərtlərindəndir. İnnovasion cəmiyyət, insan resurslarının və intellektual kapitalın, dəyişikliklərin hərəkətverici qüvvəsinə çevrildiyi cəmiyyətdir. Belə cəmiyyət bilik iqtisadiyyatına, təfəkkür iqtisadiyyatına əsaslanır, ideya və təşəbbüslərin fasiləsiz təkrar istehsalını, məhsuldar qüvvəyə çevrilməsini şərtləndirir.

Müasir dünyanın inkişaf etmiş ölkələrində, qabaqcıl müəssisələrdə "intellektual kapital üzrə direktor" kimi peşə sahibləri geniş fəaliyyət göstərir. Tükənən təbii sərvətlərlə müqayisədə, tükənməyən, əbədi sərvət – insan zəkası enerji və güc mənbəyinə, inkişafın təkanına çevrilir. Başqa sözlə deyilsə, qüdrətli Azərbaycan dövlətinin, demokratik cəmiyyət quruculuğunun, xalqın maddi və mənəvi rifahının başlıca qarantı rolunda çıxış edən – məhz cəmiyyətin intellektual potensialı olur. Yaradıcı insan dövlətin həqiqi sərvətinə çevrilir.

Dövlətimizin siyasi, iqtisadi təməllərinin qurulması, bu gün dünyanın ən dinamik inkişaf edən ölkəsinə çevrilməsi kimi mövcud olan zəmin və təməllər üzərində innovasion cəmiyyətin qurulmasına şərait yaradır. Bunun üçün dövlətin qayğı və diqqəti də, maddi imkanları da, mənəvi potensialı da mövcuddur.

Bunun üçün intellektualizmin və elitarlığın ən yüksək keyfiyyətlərini özündə cəmləyən zəkanın – Heydər Əliyev irsinin ən böyük örnək və məktəb kimi öyrənilməsi zəruridir.

Prezident İlham Əliyev yeni cəmiyyət quruluşunun bütün aspektlərini öz çıxışlarında xüsusi qeyd edir: "Bu gün biz böyük təbii sərvətlərə malikik. Bu Azərbaycanın dünyadakı mövqeyini möhkəmləndirir, təsir imkanlarını ar-

tırır. Bununla bərabər, əsas məqsədimiz belədir: biz qeyri-neft sektorunda baş verən hadisələri təhlil etməliyik, qərarlar verməliyik və gələcək planlar haqqında düşünməliyik. Bu gün Azərbaycanın gələcəyini müəyyən edən yeni mərhələ başlayır. Biz istəyirik ki, ölkəmiz müasir, qüdrətli dövlət olsun. Lakin istəməklə həyata keçirmək müxtəlif məsələlərdir. Bütün məqsədlərə nail olmaq üçün biz gərgin və məhsuldar fəaliyyət göstərməliyik".

Elitologiyaya dair ən son təlimlərdə "strateji elita" anlayışı diqqəti cəlb edir. Bu elitanın bütün sahələrdə mövcud olan nümayəndələrinin strateji məqsədlər üçün konsolidasiya olunmasını, bir araya gəlməsini, səhvlərin sayını heçə endirmək, uğurları artırmaq üçün öz səylərini birləşdirməsini ifadə edir.

Azərbaycanın milli intellektual elitası, innovasion cəmiyyətin yaradılması, mövcud insan resurslarını səfərbər etmək üçün hərtərəfli konsepsiyanı hazırlamalı, onu həyata keçirən strateji elitanın özəyinə çevrilməlidir. Vətəndaşların təşəbbüs, fəallıq və yaradıcılıq kimi qabiliyyətlərinin inkişaf etdirilməsi, dəyişikliklərin sürətinə həssaslığı, gündəlik həyatda düzgün qərarlar qəbul etməsinə kömək edən konstruktiv biliklərə yiyələnməsi prioritet məqsədlər sırasına aid edilməlidir.

İnnovasion cəmiyyət quruculuğundan irəli gələn məsələlərin mahiyyəti və miqyasının dərk olunması ən mühüm məsələdir. Belə ki, insan potensialına və intellektual kapitala əsaslandığı üçün burada inkişafı milli intellektual elitadan başqa, ölkənin öz qüvvələrindən savayı heç bir amil hərəkətə gətirə bilməz. Çünki başlıca materiya – insanlardır, onların quruculuq əzmidir. Bu isə problemlərin xarici təcrübə və ya elmi mübadilə yolu deyil, məhz milli potensial və qüvvələr hesabına həll edilə biləcəyini şərtləndirir.



Bu gün Azərbaycan Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi dünya elm, təhsil, informasiya və innovasiya məkanına qədəm qoymuşdur.

Bu da öz növbəsində, milli intellektual elitanın dünya standartları səviyyəsində formalaşmasını, onun daxili dinamikasını, yeniləşmə kimi keyfiyyət göstəricisini ən ciddi təhlil predmetinə çevirir. Çünki innovasion cəmiyyət quruculuğunda bütün vətəndaşların öz arxasınca apara bilən, innovasiyaların subyekti statusunu qazanan milli elitanın hələlik tam formalaşdığından, yetkin mərhələyə çatdığından danışmaq hələ tezdir. Bu nə yaxşı, nə də pis deyil, sadəcə faktdır, reallıqdır. Ölkənin innovasion inkişaf sektorunu, strateji innovasiyaların konsepsiya və proqramını müəyyən etməyə qabil intellektual elita olmadan möcüzə baş verəcəyini gözləmək sadəlövhlük olardı. "Milli inkişafın hazırkı və gələcək strategiyasına bu cür laqeyd münasibəti izah etmək çətindir. Demokratik inkişafın müvafiq yeri və Azərbaycan reallıqları üçün məqbul olan elmi modelinin müəyyən edilmədiyi şəraitdə siyasi rəhbərlik çox vaxt həm nəzəri, həm də praktiki məsələləri həll etməli olur. Halbuki diskussiyalar məkanı çox genişdir və milli intellektualların disputa çox fəal qoşulmasını tələb edir" (*R.Mehdiyev. Gələcəyin strategiyasının müəyyənləşdirərkən modernləşmə xətti. "Respublika" qəzeti, yanvar*).

Bu gün Azərbaycanda professional, mənəvi, milli dövlətçilik maraqlarına yönümlü intellektual elitaya həmişəkindən daha çox ehtiyac var. Onun günün tələbləri səviyyəsində formalaşması təxirəsalınmaz vəzifə kimi qarşıda durur. ABŞ-da inkişafın 2013-cü ilə qədərki proqnozunu verən ekspertlər, öz ölkələrində məhz bu məsələnin zəruriliyini vurğulamışlar. İnnovasion cəmiyyət quruculuğu prosesinə fərqli start

imkanlarından başladığımızı nəzərə alsaq, vəziyyətin ürəkaçan olduğunu söyləmək olmaz.

İntellektual elita qlobal çağırışlara, mükəmməl peşə səviyyəsinə, dövlətçilik maraqlarına uyğun strateji mövqelərin müəyyənləşdirilməsinə nə dərəcədə hazırdır? Yaxın gələcəyin innovasion cəmiyyətləri sırasında Azərbaycanın yerini, dünya ölkələri ilə inkişafa rəqabətə davamlılığını təmin edəcək milli inkişaf konsepsiyasının bu günə qədər təşəbbüs və təklif paketi kimi dövlətə, ictimaiyyətə təqdim edilməməsi nə dərəcədə düzgündür və hansı nəticələrə gətirə bilər? İnnovasion strategiyanın, proqram və konsepsiyanın olmadığı şəraitdə intellektual elita barədə ictimai rəy nəyə əsaslana bilər? Bunlar çox ciddi məsələlərdir. Yalnız nəzəri-elmi deyil, sırf praktiki problemlərdir.

İntellektual elita hələ müəyyən elmi məhsula malik olan, dərəcələr qazanan, təhsil və diplom göstəriciləri ilə fərqlənən mütəxəssislər demək deyil. Ziyalının milli intellektual elita səviyyəsinə qalxması üçün onun daim dövlətdə baş verən hadisələrin indinin vəzifələri və gələcəyin perspektivləri baxımından ardıcıl, yorulmaz izah və təhlilini aparması, yəni dövlətçiliyin sabahına, gələcəyinə yönümlü fəaliyyət göstərməsi zəruridir.

İntellektual elita ölkənin taleyilə bağlı insanlardır, onu yaxşı istiqamətdə dəyişməyi həyatının mənasına çevirən insanlardır. Buna görədir ki, mənşəcə azərbaycanlı olan ən dəyərli alim və ziyalılar belə ölkənin taleyi ilə üz-üzə, vətəndə xalqın içində yaşamırsa, milli elitaya daxil edilə bilmir. Xalqın yaradıcılıq ruhuna, quruculuq əzminə təkan verən, uzun müddət üçün perspektivlərini müəyyən edən, dəyərlər sistemini formalaşdıran, sınaqların önündə gedən,



ən mürəkkəb, keçid vəziyyətlərində qərarların verilməsində məsuliyyəti bölüşən ziyalı intellektual elita səviyyəsinə yüksəlir. Onun varlığı ölkənin inkişaf strategiyasında, vətəndaş dövlət münasibətlərinin ahəngə gətirilməsində, özünəməxsus missiyanın dərki və həyata keçirilməsində iştirakı qədər hiss olunur. Ölkənin strateji inkişafının hər bir fazasını məntiqi yekunlaşdırmaq, növbəti mərhələnin problemlər dairəsini müəyyənləşdirmək, ən başlıcası real və perspektiv imkanları səfərbər etmək elitanın funksiyasıdır. Bu və digər möhtəşəm vəzifələrin öhdəsindən gəlmək üçün, yeniliklərə təkan vermək üçün elita ilk növbədə özü, daxilən yeniləşməli, dinamik inkişafda olmalıdır. Elitologiyada bu elitar seleksiya və sirkulyasiya kimi obyektiv qanunauyğunluqdur və bütün növ elitalara aid xüsusiyyətdir.

İntellektual elita dövlətçiliyin qüdrətini təmin edən ideyaların generasiyasını, onların həyata tətbiqini təmin etməklə yüksəliş və tərəqqi proseslərinin episentri statusunda mövcud olmalıdır. Belə elitası olmayan cəmiyyət yalnız kütlədən ibarət olmaq təhlükəsi ilə üzləşə bilər. Çoxşaxəli təsirlər qarşısında xalqın mənəvi müqavimət gücünü, intellektual potensialını və sosial energetikanı cəmləyərək konkret hədəfə yönəltmək qeyri-mümkün olur. Rəqabətədavamlı dövlətin mövcudluğunu rəqabətədavamlı vətəndaşdan, onun aydın məqsədlərə, milli ideyaya əsaslanan dünyagörüşündən başlanır.

Hər bir cəmiyyətin yaradıcı başlanğıcı – fəal, təşəbbüskar, dünyada gedən proseslərə həssas şəxsiyyətdir. Cəmiyyəti bütövlükdə, yuxarıdan direktivlər verməklə yeniləşdirmək cəhdlərinin aqibəti "yenidənqurma", yaxud Çində mədəni "inqilab" adlanan tarixi hadisələr kimi olur.

Lakin hər bir şəxsiyyətin yeniliyə münasibətini ardıcıl, fasiləsiz maarifçilik və izah prosesində dəyişməklə, intellektə inam ruhunu formalaşdıran Yaponiya təcrübəsi də vardır.

Məlumdur ki istənilən ölkənin milli inkişafı ilk növbədə arzu edilən, nail olunmasına səy göstərilən cəmiyyət modelinin, konsepsiyasının ideoloji əsaslarının müəyyənləşdirilməsindən, onun geniş ictimaiyyətə, şüurlara çatdırılması istiqamətində aparılan miqyaslı vəzifələrdən başlayır. Yaponiya möcüzəsinin "atalarından" sayılan E.Deminqin sözlərini xatırlatmaq istərdik: "Ölkədə bütün sahələrin kökündən yeniləşməsi, yalnız müvafiq məqsədlərin milli ideyaya və ideologiyaya çevrilməsindən sonra mümkündür".

Bu gün Azərbaycan regionda və dünyada dinamik inkişafın lideri kimi tanınır. İnkişaf templərinə görə beynəlxalq reytinq agentliklərinin, ekspertlərinin diqqət mərkəzində olan Azərbaycana bu maraq Prezident İlham Əliyevin yorulmaz fəaliyyəti ilə bağlıdır. Müasir dövlətin inkişafının ən mühüm göstəricisi kimi rəqabətədavamlılığa görə Azərbaycan dünya dövlətləri arasında MDB-nin bütün dövlətlərindən irəlidədir. Rusiya 70-ci, Azərbaycan 66-cı yerdədir. Bu dövlət başçısının bütün istiqamətlərdə dərin elmi, intellektual əsaslar üzərində qurulan siyasətinin bəhrəsidir.

İnnovasion inkişaf modelinə keçidin zəruriliyi, yeni intellektual nəslin, yeni elmi elitanın formalaşması istiqamətində verilən sərəncamlar: "Xüsusi istedada malik uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı (2006-2010)", "Gənclərin xaricdə təhsil alması", "Avropa təhsil məkanına inteqrasiya", "Elektron Azərbaycan" və s.



dövlət proqramları, Prezident İlham Əliyevin bu məsələni strateji prioritetlər sırasına daxil etməsini göstərir.

Ümumiyyətlə, son illər ərzində dövlətin qəbul etdiyi bütün qərarlar bu və ya başqa şəkildə Azərbaycanın intellektual potensialının möhkəmləndirilməsi ilə bilavasitə bağlıdır. Bütün bunların müqabilində milli intellektual elita, ilk növbədə, özünü fasiləsiz yeniləşdirməli, keyfiyyət dinamikasını təmin etməli, yeni qüvvələr hesabına zənginləşməlidir. Dövlət qayğısının məsuliyyətini tam aydınlığı ilə dərk etməlidir. Tarixin heç bir dönəmində rast gəlinməyən çox şərəfli bir missiyanı reallaşdıra biləcəyinin fərqində olmalıdır. Dünyanın intellektual elitaları ilə müqayisədə rəqabətədavamlı olduqlarını sübut etməlidir.

Reallıqda necədir? Milli elita öz imkanlarının, yeniləşmə zərurətini reallaşdırmaq üçün nə edir? Azərbaycanda dövlətin və cəmiyyətin innovasion inkişaf templərini müəyyən edən inkişaf konsepsiyası təqdim edilmişdirmi? Halbuki, bu məsələlərin çox geniş izahı, təhlili və təbliğinə kəskin sosial sifariş mövcuddur.

XXI əsr humanitar, sosial, informasiya və innovasion texnologiyaların sintezi əsri kimi səciyyələndirilir. Hər bir ölkədə innovasion cəmiyyət quruculuğu artıq texnoloji başa düşülən deyil, humanitar – insana yönümlü prosesdir. Bütün insanları həyati vacib milli məsələyə – Azərbaycanın yaxın gələcəkdə statusunu müəyyən edəcək innovasion inkişaf layihəsinə səfərbər etmək, milli elmi elitanın hazırkı tarixi mərhələdə başlıca missiyasıdır. Dünyada Azərbaycanın intellektual obrazını formalaşdırmaq kimi tarixi vəzifədir. İnnovasion Azərbaycan cəmiyyətini formalaşdırmaq belə demək olarsa, "fövqəlideya" kimi çıxış edir

və müvafiq olaraq "fövqəlsəylər" tələb edir. Azərbaycanın müasir dövrdə inkişafının məqsədi və mənası kimi bu məsələ ətrafında bütün qüvvələrin milli birliyinin təmin olunmasının ideya əsasını təşkil edir.

Bütün bu məsələlər milli intellektual elitadan inkişafın yeni strategiyasının, qlobal tarixi layihənin təşəbbüskarı və subyekti olmaq kimi məsuliyyəti üzərinə götürməyi tələb edir.

İnnovasiyalara əsaslanan cəmiyyətin ideoloji əsasları, onlara həssas ictimai şüurun, mühitin formalaşması üçün ən mühüm təsəvvürlər sistemli şəkildə izah olunmalıdır. Belə cəmiyyətin əsas həlqələri, resursları, institutları, elm, təhsil, mədəniyyət, təşkilatlanma formaları barədə strateji maarifləndirmə fəaliyyəti aparılmalıdır.

Humanitar intellektin, humanitariyanın üzərinə düşən məsuliyyət, elmi elitanın təsnifatında onun birinci yerdə durmasının səbəbi, məhz dəyişikliklərin avanqardı kimi çıxış etməsi zərurəti olduğu dərk edilməlidir. Bu gün cəmiyyətin də, insanın da fasiləsiz problemlər məkanında mövcud olduğu diqqət mərkəzində saxlanılmalıdır. Bu başlıca olaraq yenilik, sürət və dəyişiklikliyin hər şeyə qadir gücü və təzyiqinə qarşı dura biləcək yeni insanın formalaşmasıdır.

Məlumdur ki, gec, yaxud tez istənilən sistem zaman keçdikcə dəyişir. Paradoks bundadır ki, müasir dövrdə dəyişmək və yeniləşmək qlobal inkişafın aparıcı meyillərindən birinə, alternativi olmayan uğurlu cəmiyyət modelinə çevrilmişdir. Dəyişiklik baş verdikdən sonra ona məcburi uyğunlaşmaq, reaksiya vermək şəraitində, "öndə gedənlərə" yetişmək arzusu həmişə arzu olaraq qalır. Əksinə, yenilikləri daimi, çevik qəbul etmək rejimində, dəyişikliklərə təkan verən mühitdə yaşamaq proseslərin önündə getmək deməkdir. İnnovasion inkişaf modeli məhz bu cürdür.



İnnovasion cəmiyyət, həyatın bütün sahələrində keyfiyyət dəyişikliklərinə nail olmağı nəzərdə tutan, onlara ictimai şüuru sövq edən, quruculuq əzminin ən yüksək olduğu cəmiyyətdir.

XIX əsrdə elmə gələn innovasiya anlayışı ilk əvvəl mədəniyyətdə baş verən prosesləri, "ənənəyə" qarşı olaraq yenilikləri təhlil etmək, qəbul edib-etməmək kimi problemlərin çözülməsi üçün tətbiq olunmuşdur.

Bu gün anlayışın mahiyyəti və məzmunu miqyasına görə çox genişlənmiş, yeniləşmişdir. Sosial, qlobal dəyişikliklərin təkamül, inqilab, islahat və s. tiplərindən fərqli olan, inkişaf prosesində müəyyən bir mərhələ olan mənada işlənən innovasiya XXI əsrdə tamamilə yeni keyfiyyət kəsb etmişdir. Bəşəriyyətin inkişafının əsas modelinə, metodu və prinsipinə çevrilmişdir. Yeniliyin yaradılması, tətbiqi, möhkəmləndirilməsi və geniş yayılmasını ifadə edən innovasiya kortəbii deyil, şüurlu surətdə həyata keçirilən proses, həyat tərzi kimi mövcuddur. Çoxşaxəli istiqamət və sahələrə, humanitar, sosial, texnoloji, iqtisadi, siyasi, mədəni və s. innovasiyaları əks etdirən bu prosesin sosial effekti insan həyatında mütərəqqi təsiri baxımından heç nə ilə müqayisə edilə bilməz. Onun uğuru isə yalnız və yalnız innovasiyaları çevik qəbul etməyə hazır olan həssas sosial mədəni mühitin formalaşmasından asılıdır. Əks təqdirdə, sosial həyatda durğunluq və tədricən tənəzzül prosesi başlanğıcını götürür. Belə cəmiyyət gələcəyin dövlətləri sırasında yer tuta bilmir.

Məhz buna görə innovasion cəmiyyət quruculuğuna keçid texnoloji mənada başa düşülən, bəsit problem deyil, hər şeydən əvvəl, humanitar, sosial-mədəni problemdir. Hər bir cəmiyyətin mənəvi, iqtisadi tərəqqisi bu problemin həlli ilə təmin olunur. Cəmiyyətdə zamanın tələbləri ilə ayaqlaşa bilməyən, qlobal inkişaf meyillərinə uyğun gəlməyən hər şeyin yenidən yaradılması, innovasion infrastrukturun formalaşdırılması deməkdir.

Azərbaycan dövləti dünya təcrübəsində mütərəqqi olan nə varsa, ondan bəhrələnmək, dünya elm cəmiyyətinə inteqrasiya etmək yolunu seçmişdir. Lakin inkişaf üçün dövlət qayğısının və sərmayənin olmasını kifayət hesab edənlər yanılırlar. Bu zamanın ən mühüm tələblərinin başa düşülməməsi deməkdir. Xammal iqtisadiyyatından bilik iqtisadiyyatına keçid alındığı dövrdə ən böyük sərmayə insan resursları, vətəndaş fəallığı, mütəxəssis təşəbbüskarlığı, tərəqqi əzmi, beyin kapitalıdır. Milli intellektual elita bu tələblər fonunda həm özü dəyişməli, həm də innovasion islahatların institutsional modelini, şüurlara ünvanlanmış, biliyə əsaslanan, aşkar sezilməyən sosial energetikanı Azərbaycanın tərəqqisinin başlıca resursuna çevirə bilən konsepsiyanı müəyyənləşdirməlidir.

Artıq çox gec ola bilər. Çünki "innovasion baryer" adlanan fenomen konkret ölkəni inkişafdan birdəfəlik kənarlaşdıra bilir və formalaşan uçurumu dəf etmək qeyri-mümkün olur. Dünyanın qabaqcıl və inkişaf etməkdə olan bəzi ölkələri arasında məsafənin genişlənməsi də bununla bağlıdır. Çünki nə qədər arzulasalar da, onlar 50 il ərzində modern-innovasion dövlət yarada bilməmişlər. Dünya təcrübəsində isə bu mərhələ 30-40 il ərzində qət oluna bilər.



"Qlobal rəqabət şəraitində intellektual səviyyənin daim artırılması üçün zəruri mühit yaradılması son dərəcə vacibdir. Gündəlikdə duran ümdə məsələləri, informasiya – kommunikasiya texnologiyalarının və nanotexnologiyaların diktə etdiyi müasir dünyada Azərbaycanın bu yarışda iştirak etmək üçün lazımi təməl yaratması zəruridir.

Təhsil və elm zəruri səviyyədə olmasa, milli inkişafın perspektivləri və Azərbaycan dövlətçiliyinin davamlı inkişafı barədə düşünməyimiz çətin olacaqdır. Bu gün aşkar görünür ki, Prezident İlham Əliyev qarşıdakı illərdə məhz millətin intellektual bazisının yeniləşdirilməsi və genişləndirilməsi üçün inkişaf strategiyasını müəyyən edir" *(R.Mehdiyev. Gələcəyin strategiyasını müəyyənləşdirərkən...)*.

Dövlət üzərinə düşən bütün vəzifələri yerinə yetirir. Ölkəmiz dinamik iqtisadi potensialın inkişaf göstəricilərinə görə ən yüksək reytinqə malikdir. Milli intellektual elita bu inkişaf və zamanın tələbləri fonunda insan potensialımızın dünyada etiraf ediləcək səviyyəyə çatdırılması üçün hansı tədbirləri görür, proqram və fəaliyyət planına malikdir?

Bu gün bütün dünyada, qabaqcıl ölkələri lider mövqelərinə yüksəldən xüsusi intellektual– təbəqə formalaşmışdır.

Alimlər bu ziyalı təbəqəsinə "kreativ sinif" adı vermişlər. Kreativ intellektual təbəqə "hər bir ölkənin gələcəyini yaradan insanlar" hesab edilir. Onların bütün fəaliyyəti elm, təhsil, mədəniyyət, biznes, siyasət və s. sahələrdə yeniliklər yaratmaq, nəyinsə xatirinə deyil, dövlətin gələcəyi, rəqabətədavamlılığı naminə inkişafa təkan verməkdir. Yaradıcılıq (kreativ) əzmi ilə yaşayan bu intellektual tə-

bəqə, müşahidələrə görə son illərdə yeni ictimai sinfi formalaşdırmaqdadır.

Bu insanlar ayrıca təşkilat, kollektiv və s. qurumlardan tutmuş bütöv şəhər, region, nəhayət, millət və dövlətin ən qısa zamanda mütərəqqi inkişaf templərinə qoşula bilməsini təmin edirlər. Yaradıcılığı özünə peşə seçən superkreativ təbəqənin nüvəsini; alimlər, universitet professorları, elmi işçilər, dizaynerlər, mədəniyyət və elm xadimləri ekspert və analitiklər, yazıçı və şairlər, mühəndis və elmi işçilər, arxitektorlar, rəssamlar və s. təşkil edirlər. Rusiyada kreativ sinfin 13 milyon nümayəndəsinin olduğu və dünyada ikinci yerdə durması məlum olmuşdur. Yeni tipli cəmiyyət – kreativ cəmiyyətdir və müvafiq olaraq kreativ (yaradıcı) təfəkkürlü şəxsiyyət və fərqli mədəniy-yət, dünyagörüşü tələb edir. Kreativ şəxsiyyət zamanın nəbzinə uyğun düşüncə tərzinə, dünya duyumuna, professional keyfiyyətlərə malikdir. Yaradıcı, hadisələrin təhlilində milli maraqlardan çıxış edən və qlobal miqyaslı təfəkkürə malik olan kreativ şəxsiyyət tipi – yüksəliş və tərəqqinin katalizatoruna çevrilir.

Məlumdur ki, insanın şüuru nisbi müstəqilliyə malikdir və reallıqla müqayisədə həm fantastik sürətlə irəliləyə, həm də reallığa nisbətən ləng dəyişə bilir. Gerçəkliyi önləyən şüur daşıyıcıları həmişə nisbi azlıq təşkil etmişdir. Lakin imkan və potensial hər bir insanda mövcuddur. Bugünkü sürət ritmi reallığın daha tez dəyişməsini şərtləndirir və insanların ona reaksiya vermək imkanı nisbi başlanğıcla nisbi sonluğun arasında disbalans, hətta uçurum formalaşdırır. Bu proseslərin sürətini yalnız Bill Geytsin dediyi kimi "fikir sürətli" həyat tərzi ilə, zəkanın önləyici fəaliyyəti ilə



nəzarətdə saxlamaq mümkündür. Bunlar qabaqcıl ölkələrdə nəzəri deyil, praktiki həyata keçirilən tədbirlərə daxildir. Kreativ pedaqogika, psixologiya, kreativ menecment zaman intervalını uzaq üfüqlərdən əhatə etməyə hazır şəxsiyyəti formalaşdırmağa xidmət edir. Azərbaycanda bu mövzu geniş müzakirə olunmalı, yeni, qeyri-ənənəvi təlim və tədris metodları, təfəkkür texnologiyalarının tətbiqi gündəmə gətirilməlidir.

Azərbaycanda innovasion cəmiyyət quruculuğunun ilk təşəbbüslərindən biri, məhz intellektual elitanın, ziyalıların öz sıralarında nə qədər kreativ fəaliyyətə yönümlü, gələcəyi qurmağa əzmli vətəndaş olduğunu aşkarlamaqdan ibarət olmalıdır.

Dövlətin qayğı və diqqəti müqabilində, sərf edilən vəsaitin qarşılığında insan resurslarının, intellektual potensialın ən ciddi "inventarizasiyası", diaqnostikası aparılmalı, milli sərvətimiz olan beyin kapitalının gerçək mənzərəsi yaradılmalıdır. Statistika səviyyəsində məlumdur ki, təbii sərvətlər çox vacib, lakin yeganə şərt deyil. İnkişafın lideri sayılan ölkələr təbii sərvət baxımından zəngin olmamışdır. Hətta təhsil, savad və diplomlu kadrların kəmiyyət göstəricisi də ölkənin yeganə rifah göstəricisi deyil. Əsas məsələ insan resurslarını intellektual kapitala çevrilməsini təmin edən keyfiyyət dəyişikliklərinə, fəallığı hərəkətə gətirməyə nail olmaqdır. Bu gün maddi sərvətlərin ixracı intellekt ixracı ilə bərabər gəlir gətirir. Məlumdur ki, Hindistanda proqram təminatçıları ölkəyə, Rusiyada neftin gətirdiyindən çox gəlirin gəlməsini təmin edirlər. Fərq isə daha möhtəşəmdir: birincisi heç vaxt tükənmədiyi halda, ikincisi tükənə bilər (xatırladaq ki, dünyanın ən yaxşı 500 universiteti

sırasında Hindistan üç, Rusiya iki universitetlə təmsil olunmuşdur).

Azərbaycanda innovasion fəaliyyətin qurulmasının müqəddəm şərtlərindən biri elmin, təhsilin, bütün mədəniyyət sisteminin innovasion əsaslar üzərinə keçməsini tələb edir. Bu danılmaz həqiqətdir. Rəqabətə davamlı intellekt, mükəmməl peşə səviyyəsinə malik mütəxəssis bir-iki ilə yetişmir. Belə kadrları yetişdirən ziyalılar isə ən yüksək dünya standartlarına cavab verməlidir. Finlandiyada ən müasir, innovasion yönümlü orta məktəbdə dərs demək üçün müəllim ən sərt rəqabət şərtlərinə uyğun gəlməli, iki-üç dil bilməlidir. Biz bu standartları diqqət mərkəzinə gətirməliyik. Çünki istedad və intellektin yetişdirilməsi, aşkara çıxarılması da müddət tələb edən prosesdir. Buna nail olduqda, cəmiyyətə dəfələrlə çox fayda gəlir. Cəmiyyətdə təhsil sahəsində marağı olan bütün subyektlər: ailədən tutmuş ictimai təşkilatlara, təhsil müəssisələrinə, yerli hakimiyyət və idarəetmə orqanlarına qədər bütün səviyyələrdə daimi izahat və təbliğat işinin aparılması ilkin şərtlərdən biridir. Elmin və təhsilin məzmun və oriyentasiyası, tədris texnologiyaları, metodları, təşkilatlanma formaları yeni tələblərə uyğun şəkildə dəyişməlidir.

Avropa elm və təhsil məkanına inteqrasiya kimi vacib məsələ də bunu tələb edir.

İnnovasion inkişaf strategiyası təsəvvür edildiyi kimi ümumi vəzifələrin sadəcə bir istiqaməti, qolu deyil. Bu suveren Azərbaycanın gələcəyi, rəqabətə davamlı perspektivləri, sabahından əminliyi və milli təhlükəsizliyinin təminatı məsələsidir.

Fiziki əməyə yönümlü fəaliyyətdən, əqli əməyə yö-



nümlü cəmiyyətə keçid elm və təhsil sahəsində bütün ənənəvi modellərin transformasiyasını gündəmə gətirir. İnnovasion inkişafın ilk mənbəyi kimi dövlət qayğısı, zəngin sərvətlərimiz, möhkəm iqtisadi təməl, nəhayət dünya təcrübəsi mövcuddur. Prezident İlham Əliyevin bəyan etdiyi "Qara qızılı insan qızılına çevirmək" xətti də ən geniş təşəbbüslər üçün meydan açır.

Sıra əlbəttə ki, milli elmi elitadadır. Fəaliyyət göstərmək, söz demək, konseptual proqramlar təqdim etmək sırası onundur.

Bütün dünyada genişlənən innovasion inkişaf dalğasının təsirini öz üzərinə götürən yeni intellektual qüvvələrimiz nə qədərdir? Əgər elmi tədqiqat müəssisələri qlobal və milli əhəmiyyətli vəzifələrin həllində təşəbbüs göstərmir, ondan təcrid olunursa, ziyalılarımız konservativ gözləmə mövqeyi tutursa, humanitar–sosial texnologiyalara dair təsəvvürlər bəzən bir şöbə, laboratoriya çərçivəsindən kənara çıxmırsa, alimlərimizin sırasında "innovasion lobbi" hələ formalaşmamışdırsa, bu sualın cavabı ürəkaçan deyildir.

"Milli siyasi elitanın ölkənin inkişafının yeni mənbələrlə təmin etmək səyləri tamamilə aktual, elmi əsaslara malikdir. Təhsil, elmi və texnoloji innovasiyaların daimi, qüdrətli dəstəyi olmadan inkişaf mümkün ola bilməz. Buna görə də Azərbaycan gənclərinin intellektual potensialını yüksəltmək məqsədini güdən təhsil proqramlarının daimi təkmilləşməsi və keyfiyyətinin artırılması son dərəcə vacibdir. Ölkənin ən qısa müddətdə, real olaraq müasirləşməsini məhz bu təmin edə bilər" (*R.Mehdiyev. Azərbaycan: Qloballaşmanın tələbləri. Bakı, 2004, s.88*).

Yeni cəmiyyət quruculuğunun strategiyası insan resurslarının bütün həlqələrinin təhlili və real qiymətləndirilməsini tələb edir. Texnoloji, idarəçilik , təhsil, iqtisadi, elmi, təbii, kadr (peşə və ixtisas), təşkilati, maliyyə, informasiya – bütün növdən olan resurslar, yaxın innovasion perspektivlər Azərbaycanın dünyada statusunu müəyyən edəcək intellektual potensialın aşkarlanmasına yönəldilməlidir.

Hər bir ölkə kimi, Azərbaycanın da öz potensialı var. Mütərəqqi tarixi mədəni ənənələri, dünya mədəniyyətinə açıq olan sintez sivilizasiya tipi, təhsil səhiyyəsi, zəngin mənəvi irsi, yaradıcılıq ruhuna malik insanlar, ziyalılar dövlətimizin start imkanlarına müsbət təsir göstərən amillərdir. Lakin bu da bir reallıqdır ki, bilik iqtisadiyyatının praktiki gerçəkləşdirilməsi, innovasion menecment, elm, təhsil və iqtisadiyyatın inteqrasiyasının ilkin mexanizmlərini müəyyənləşdirən, bu tip fəaliyyətlə məşğul olan qurumlara rast gəlmək qeyri-mümkündür. İnnovasiya cəmiyyətində elm və təhsilin tamamilə yeni təşkilatlanma formalarına keçməsi zərurətə çevrilir.

Dünya təcrübəsinə uyğun bilik istehsal edən müəssisələri yaradan, inkişaf etdirən kadrların hazırlanması üçün hansı elmi kollektivlərdən təşəbbüslər gəlmişdir? Təəssüf ki, bunlar hələlik arzu olaraq qalır.

XX əsrdə idarəetmə, menecment elminin ən böyük nailiyyəti fiziki əməyin məhsuldarlığının 50 dəfə artırılması olmuşdur. Ötən yüzillikdə hər bir şirkətin ən dəyərli kapitalı – istehsal avadanlığı olmuşdur.

XXI əsrdə bu kapital əqli əmək, yaradıcı, düşünən, fəal təşəbbüslərə malik insanlardır. Bu gün qabaqcıl ölkələrdə intellektual əməyin məhsuldarlığını 50 dəfə artırmaq məqsədi həyata keçirilir. Bu hələ başlanğıc mərhələdir və 1900-cu ildə fiziki əmək işçilərinin potensialı nə dərəcədə idisə, 2000-ci ildə əqli əmək nümayəndələrinin start imkanları hələ ki, o səviyyədədir. Bəli, innovasion cəmiyyətdə hədəflər aydın, imkanlar göz qabağındadır və bu istiqamətdə artıq neçə illərdir ki, dünya təcrübəsi, konkret nailiyyətləri mövcuddur. Avropa elm və təhsil məkanına inteqrasiya biliyin yaradılması, bilik menecmenti üzrə fəaliyyət göstərən çoxsaylı təşkilatların təcrübəsinin öyrənməyi gündəmə gətirmişdir.

"Yeni kadr", "yeni mütəxəssis" anlayışları, bilik üzrə, intellektin istehsalı üzrə mütəxəssislərin fəaliyyətini səciyyələndirir. Rəqabətə davamlı strateji resurs kimi bilik istehsal edən müəssisələr xüsusilə geniş yayılmış, artıq bilik istehsalının bir neçə konsepsiyaları, məktəbləri, təlimləri mövcuddur.

Bir məsələ vurğulanmalıdır ki. innovasion cəmiyyətdə bilik inkişafın daha bir resursu deyil (əmək, kapital və torpaqla yanaşı), yeganə resursdur. Yeni dövrün unikallığını şərtləndirən ən mühüm məsələ məhz bu faktdır. Qlobal güc mərkəzlərini bilik və informasiya uğrunda rəqabətinin kökündə məhz bu səbəb durur.

Biz hələ indiyə qədər elə təsəvvür edirik ki, bilik qazanmaq, onu zənginləşdirmək, tətbiq etmək hərənin sırf öz işidir, təhsil və elm şəbəkəsinin funksiyasıdır. Dünya artıq başqa reallığı yaratmışdır. "Bilik istehsal edən müəssisə" nə qədər qəribə səslənsə də nə məktəb, nə də elmi tədqiqat müəssisəsidir. Bu yeni minilliyin simasını müəyyənləşdirən innovasion tipli müəssisədir. Burada insan

resurslarının, intellektual potensialın hər zərrəsinin toplanması, aşkar və qeyri-aşkar, dərkedilən, dəyərləndirilən və dəyərləndirilə bilməyən bütün bilik formalarının üzə çıxarılması, sistemləşdirilməsi, təsnifləşdirilməsi prosesinin bütün mərhələləri mükəmməl təşkil olunmuşdur. Elmi, nəzəri bilik, bacarıq və qabiliyyətlər bilik sisteminin elementləridir. BİLİK aşkara çıxarılmır, tətbiq olunmur və səmərə gətirmirsə, sadəcə bilik bazası, potensial kimi mövcud olur. Lakin rəqabət və inkişafda üstünlüyü təmin edən amil məhz biliyin səmərəyə yönümlü tətbiqi, idarə olunmasının elmi konsepsiyasıdır. Bu insanlarla fasiləsiz ünsiyyət, dialoq, monoloq, toplantı, müşavirə, müzakirə, "Beyni hücumları" vəziyyətlərini yaradan innovasion məzmunlu proseslərdə üzə çıxır. Fasiləsiz tədris prosesində "böyüklərin"də təkmilləşməsi, interaktiv təlim metodların tətbiqi, daimi özünükamilləşdirmə aspektləri vəhdətdə həyata keçirilir. Cəmiyyət qarşısında duran vəzifələrin həlli üçün lazım olan yerdə və vaxtda keyfiyyətli intellektual xidmətin təmin edilməsi "bilik ideoloqları" adlandırılan mütəxəssislərə həvalə edilir.

İntellektual potensialın aşkarlanması yalnız konkret bilik istehsal edən təşkilatlarda deyil, qabaqcıl ölkələrin əqli əmək oriyentasiyalı istənilən müəssisəsində işin səmərəli təşkilinin elementar mexanizmidir. İntellektual əmək nümayəndələrinin çalışdıqları kollektivlərdə monoton (usandırıcı) duruma yol verməmək, yeni təşəbbüs və ideyalar təkan vermək üçün ildə bir neçə dəfə əməkdaşlar "yaradıcı xaos, silkələmə" effekti deyilən tədbirlərə cəlb edilirlər.Yeni problem situasiyaların yaradılması, hərənin öz sahəsinə uyğun dünyada mövcud olsan ən son innovasiyalar barədə nə



kimi rəyə və münasibətə malik olması üzə çıxarılır. Biliyin aşkara çıxarılması və yaradılması sahəsində yaponiyalı alimlər İ.Nonaka və X.Takeuçinin, ABŞ alimi P.Drukerin "biliyi yaradan komanda" adlanan konsepsiyalarına dair tədqiqatlar stolüstü kitablar kimi geniş yayılmışdır. İnsanlar adət etdikləri köhnəlmiş iş tərzi, vərdiş və sxemlərin dəyişdirməyə, vəziyyətdən çıxmaq üçün düşünməyə məcbur olurlar. Yeni təşəbbüs və fəallıq, ideyalar təklif etməli olurlar. Bu bizi düşündürməlidir. Çünki əsas məqsəd insan resurslarının dəyərini artırmaqla, intellektual əməyin çəkisini və məhsuldarlığını artırmaqla dövlətə strateji innovasion cəmiyyət quruculuğunda ən yaxın dəstəyi təşkil etməkdir.

Milli intellektual elitanın innovasion cəmiyyət quruculuğunda həyata keçirməli olduğu ən mühüm məsələlərdən biri də, intellektual əməyin, təhsilin və elmin yeni təşkilatlanma formalarının tətbiqidir. Bu gün bütün dünyada intellektual texnologiyaların aparıcı qüvvəsi kiçik müəssisələrdir. Yeni texnologiyaların 70 faizi onların payına düşür. Fasiləsiz yaradıcılıq, daimi axtarış, konkret nailiyyətlər onların fəaliyyətini səciyyələndirən başlıca cəhətdir. "Fikir fabrikləri", "beyin mərkəzləri" adlarından görünməsə də başlıca olaraq humanitar və sosial innovasiyaların yaradılmasını, "intellektual resurs–kapital–məhsul" zəncirinin məhsuldar işləməsini təmin edir. Həm real, həm də virtual (elektron) təşkilatlanma formaları, WEB-korporasiyalar biliyin təşkili və idarə olunmasında, bütün istiqamətlərdə aparılan əməliyyatların vaxt itkisinə rol vermədən (sinxron) təşkilinə xidmət edir.

2001-ci ildən Azərbaycan Avropa məkanının bir hissəsidir. Bu məkanın innovasion inkişaf meyillərindən

kənarda qalması mümkün deyildir. Milli elmi elita dövlətin bu istiqamətdə apardığı miqyaslı fəaliyyətin uğurlarını təmin etmək üçün həm özünü, həm də bütün cəmiyyəti bu proseslərdə ən yaxın iştirakını təmin etməlidir. İlk növbədə: innovasion sürət ritminə qoşulmağı, geriləmə imkanını aradan qaldırmalı, yeniliklərə həssas ictimai mühitin və şüurun formalaşması, ölkənin yüksəlişi üçün dünyada, regionda və cəmiyyətdə mövcud olan bütün resurs və imkanları hərəkətə gətirmək istiqamətində təxirəsalınmaz tədbirlər sistemini, müvafiq konsepsiya və proqramları təqdim etməlidir.

İnnovasion cəmiyyət quruculuğu Qərb təcrübəsinin təqlidi kimi bəsit başa düşülmür. Bu hər şeydən əvvəl milli inkişaf modelidir. Çünki onun subyekti də, obyekti də Azərbaycan vətəndaşıdır, gəncidir, alimi və mühəndisi, ziyalısıdır. İnnovasiyaya yönümlü inkişafda dünyaya açıq, sintez mədəniyyətə malik yeniləşmə ruhu ən səmərəli amil sayılır. Bu Azərbaycan xalqına xas olan keyfiyyətlərdir və onun üstünlüyünü təmin edəcək bir qüvvədir.

Ümummilli lider Heydər Əliyevin dediyi bu sözlər hər vaxt olduğu kimi aktual səslənir: "Dünya elmində – Şərqdə və Qərbdə əldə olunan bütün nailiyyətləri dərindən öyrənməli, dövlətimizin inkişafı üçün Azərbaycan elminə və təhsilinə tətbiq etməliyik".



## § 7. Azərbaycançılıq: mədəni inteqrasiyanın milli və universal modeli kimi

*"Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar".*

*"... Mən görüşlərimi milli azlıqların nümayəndələri ilə görüş adlandırmaq istəməzdim. Bu, Azərbaycanın, Azərbaycan xalqının nümayəndələri ilə görüşüdür..."*

**Heydər Əliyev**

Qədəm qoyduğumuz XXI yüzillikdə Azərbaycanın bu gününə və gələcəyinə dair düşüncələrin ana xəttini, vətənimizin daxili bütövlük və vəhdətinin möhkəmlənməsi ideyası təşkil edir desək yanılmarıq.

Bu istiqamətdə görülən bütün fəaliyyətin strukturu, məqsədi və vasitələrini müəyyən edən, cəmiyyətin mütəfəkkir ziyalı nümayəndələrinin səyləri nəticəsində, gərgin ideya-siyasi müzakirələr gedişində formalaşan mürəkkəb, sistemli intellektual konsepsiya kimi təsəvvür edilən milli ideologiyanın təməlində də bu ideya durur.

"Azərbaycan dövlətinin milli-ideoloji əsasları həm "milli ideya", həm də "ümummilli ideologiya" kimi qəbul etdiyimiz "Azərbaycançılıq"dır. Xalqımızın tarixi keçmişinin, günümüzün reallıqlarını, ümummilli psixoloji yönümlərimizi, mentalitetimizi, adət-ənənələrimizi, sivil beynəlxalq təcrübəni nəzərə alan, Azərbaycanın sintetik, yeniliklərə açıq, konstruktiv rol oynayan ideoloji inkişaf konsepsiyası kimi "Azərbaycançılıq" ideologiyasının yaranması və yayılması müstəqillik illərində H.Əliyevin məqsədyönlü fəaliyyətinin nəticəsi olmuşdur". (*R.Mehdiyev. "XXI əsrdə milli dövlətçilik". Bakı, 2003*).

Bu gün qarşımızda duran vəzifələr və gələcək oriyentirlər baxımından Azərbaycançılıq ideologiyasının çağırış və şüar deyil, hərtərəfli dərin elmi-nəzəri məfkurə olmasını hər kəs dərk etməlidir. Azərbaycançılığın əsas qayəsini müstəqillik, dövlətçilik, millilik, dünyəvilik, ədalət, demokratiya, milli tərəqqi və s. kimi anlayışlar təşkil edir. Azərbaycançılıq xalqımızın çətinliklə əldə etdiyi, ölkəmizdə yaşayan bütün millətlərin və etnik qrupların qarşılıqlı ünsiyyət və münasibətini, ümumi taleyini əks etdirən əvəzsiz tarixi sərvətdir.

Yalnız torpağımızda yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhədə və məkanların ayırdığı, dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızı da bizimlə bir ideya-fəlsəfi, mədəni məkanda bütövləşdirən qüvvə də - məhz "Azərbaycançılıq ideologiyası"dır. "Azərbaycançılıq" – cəmiyyətimizin sosial-mədəni və siyasi nizamlanmasının, insanların mənəvi səfərbərliyi və vəhdətinin başlıca amilidir.

İctimai varlığın meyil və istiqamətlərini müəyyən edən ideologiya olmadan cəmiyyət "ideya boşluğuna" yuvarlana,



nəticədə tənəzzülə uğraya bilər. İdeologiya elə ümumi, ruhi-mənəvi təməldir ki, onsuz heç bir mədəniyyət və sivilizasiya mövcud ola bilməz.

"Azərbaycançılığ"ın məfkurəvi dəyəri bundadır ki, onun ətrafında ölkəmizdə yaşayan bütün xalqlar, milli-etnik qrup və azlıqlar birləşir, "azərbaycanlı" adlanırlar.

Torpağımız çox qədimdən ən müxtəlif xalqların və mədəniyyətlərin vətəni olmuşdur. Azərbaycan dövlətinə, tarixinə və coğrafiyasına onların sürəkli sadiqliyi və mənsubluğu, bünövrədən bütün dünya üçün açıq olan mənəvi-mədəni dəyərlərimizin mahiyyətindən intişar tapmışdır. Azərbaycanın və "azərbaycançılığın" əzəməti bu müqəddəs diyarı öz vətəni hesab edən və onun adı ilə adlanmaqdan qürur duyan bütün insanların maddi və mənəvi gücündə, qüdrətindədir. Bu səbəbdən də "Azərbaycançılığ"ın ortaq dəyər və sərvətlərə dayaqlanaraq doğuracağı potensialın təsir və miqyasını az-çox təsəvvür edəndə, yalnız xoş məram və niyyətlə sevinənlər deyil, narahatlıq duyanlar da həmişə olmuşdur.

Xalqımızın tarixi kökləri taleyin hökmü ilə bütün dünyaya səpələnmiş ümumtürk etnosuna gedib çıxır. Bununla yanaşı coğrafi və geosiyasi baxımdan həmişə bütün dünyaya açıq olmuş, ən müxtəlif mədəniyyətlər arasında sintez-qovşaq missiyasını daşımışdır.

Şərq mədəniyyətinin dünya və Avropa mədəniyyətinə və əksinə keçid alması üçün Azərbaycan körpü rolunu oynamışdır. Çoxmillətli, çoxdinli, çoxdilli Azərbaycan üçün bu ideologiyanı tarixi reallığımızın özü irəli sürmüşdür. Həqiqətən ən müxtəlif milli-etnik qrupların nümayəndələrinin yaşadığı Azərbaycan unikal coğrafi, geopolitik və mədəni məkandır. Görkəmli alimlərin etirafı təsadüfi deyil: "Planetdə başqa elə

bir bölgə yoxdur ki, buradakı kimi onlarla xalq çox uzun müddətə və birlikdə yaşamış olsun. Bu füsunkar çoxçalarlıq bütün bəşəriyyətin dəyərli xəzinəsi hesab oluna bilər. Yəqin buna görədir ki, bu ölkənin ictimai-elmi fikri millətlərarası münasibətlər, əməkdaşlıq və qarşılıqlı anlaşma probleminə dünyanın diqqətini bu qədər cəmləşdirməyə çalışır. Azərbaycanın tarixi təcrübəsi bu baxımdan dəyərli və intəhasızdır. (*Y.A.Jdanov. Avrasiyanın günəş çələngi. M. 1999*)

"Azərbaycançılıq" ideyası etnik-milli və bəşəri müstəviləri əhatə etmək baxımından yekcinsliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal gerçəkliyinin tələblərinə cavab verir.

Müstəqilliyimizə döndüyümüz vaxtdan tarixi-milli, mədəni yaddaş və genimizdə qoruyub saxladığımız, Azərbaycan adlı məkana vətən deyən bütün xalqların mədəniyyətlərinin bariz simvolu, nümunəsi olan üçrəngli bayrağımız bütün dünya ölkələrində, Avropa Şurasında dalğalandı. Ümumi tarixi tale və yaddaşımızın bütün qatları yalnız bayrağımızda deyil, ölkəmizdə yaşayan bütün xalqların münasibət və fəaliyyətlərində də vəhdət təşkil edərək, bu təməllə də ümumbəşəri xalqlar ailəsinə inteqrasiyaya yön aldı. İslamlaşmaq, türkləşmək və müasirləşməklə bahəm Avropa, özümüzlə gətirdiyimiz Asiya və Şərq dəyərlərinin qüdsiyyət və əzəmətini duymaqdadır.

1993-cü ilin oktyabrın 1-də böyük öndərimiz, ümummilli liderimiz H.Əliyev respublikada yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların nümayəndələri ilə görüşdə çox qiymətli fikirlər söyləmişdi. Bu fikirlər milli münasibətlər sahəsində dövləti siyasətinin əsas prinsiplərini təşkil edir. Böyük öndər qeyd edirdi ki, "Biz Azərbaycan deyəndə onun



sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı respublikanın ən başlıca sərvətlərindən biri, bəlkə də ən başlıca sərvəti qədimlərdən bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkə nə qədər çox xalqı birləşdirə, bir o qədər çox zəngin olar". Bu gün Azərbaycan demokratik prinsipləri rəhbər tutaraq hüquqi dövlətin tam formalaşması yolunda irəliləyən bir dövlətdir. Bu dövlətdə bütün xalqlar dininə, mənşəyinə, dilinə görə deyil, bir torpağın, bir ölkənin vətəndaşları olmaları, azərbaycançılıq ideologiyasını rəhbər tutmaları prinsipinə görə qiymətləndirilir. Azərbaycan dövlətçiliyinin güclənməsinin əsas şərti cəmiyyətdə korporativ münasibətlərin vüsətidir.

Ayrı-ayrı vətəndaşların maraqları ümumdövlət marağını yaradır. Dinindən, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq 8 milyonluq əhalinin hər birinin hüquq və azadlıqlarının qorunması bu dövlətin ali məqsədidir.

Azərbaycan XXI əsrə özünün etnik zənginliyi ilə daxil olaraq, polietnik dövlət olduğunu, istər çoxsaylı, istərsə də azsaylı bütün etnoslara eyni dövlət qayğısı ilə yanaşıldığını beynəlxalq aləmə sübut etdi. Xarici diplomatlar öz təəssüratlarını belə ifadə edir: Azərbaycan dünyaya təkcə neft deyil, yüksək tolerantlıq ixrac etməyə qadir bir ölkədir.

Azərbaycan reallığında etnik varlıqlar özlərinə məxsus adət-ənənələrin, din və dillərin, etnik psixologiyanın, maddi və mənəvi mədəniyyətlərin lokal səciyyəvi xüsusiyyətlərini qorumaqla yanaşı, Azərbaycan dilinə, adət-ənənələrinə, mənəvi dəyərlərinə yiyələnmişlər. Bu etnik qruplar nə qədər etnikdirlərsə, o qədər də azərbaycanlıdırlar.

Bu gün Azərbaycanda türk dilli azərbaycanlılarla ya-

naşı, İran dilli tatlar, talışlar və kürdlər, Qafqaz dilli saxurlar, udinlər, ingiloylar, Şahdağ etnik qrupunun nümayəndələri, ruslar və yəhudilər, ümumiyyətlə 20-dən artıq milli azlığın nümayəndələri yaşayır, onların sosial-mədəni problemlərinin həlli həmişə dövlətin diqqət mərkəzindədir.

1995-ci ildə ümumxalq referendumu yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında olan maddələr respublikada yaşayan bütün xalqların, etnik qrupların, azsaylı xalqların hüquq və azadlığının qorunmasını əks etdirir.

Azərbaycan tarixinin bütün səhifələrində bu ərazidə yaşayan insanların bu ərazidə yaşayan insanların qarşılıqlı hörmət, dostluq əlaqələrini əks etdirən nə qədər çox faktlar varsa, bunun əksini sübut edən sənədlər yox səviyyəsindədir.

1991-92-ci illərdə bu gözəl münasibətlərə xələl gətirmək istəyən qüvvələr, "türkün türkdən başqa dostu yoxdur" kimi zərərli şüarlarla çıxış edirdi, digər millətlərə mənsub insanların zorən assimilyasiyaya məruz qalması kimi iftiralar yayırdılar.

Azərbaycana, onun ərazisinə, xalqların mənşəyinə, tarixinə, milli varlığına, xalqlar dostluğuna qarşı yönəldiyi böhtanlar çox tezliklə ifşa olundu. Lakin bundan sonra belə hallara yol verilməmək üçün respublikada etnik proseslərin gedişi, Azərbaycanda etnososial birliyin yaranmasında azsaylı xalqların rolu, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında bu etnosların nümayəndələrinin iştirakı geniş tədqiq olunmalıdır. Müxtəlifliyin vəhdətindən yaranan bu tarixi birliyin əsil dəyəri açıqlanmalıdır. Bu Azərbaycançılığın yaratdığı fenomendir.

Ölkəmizdə bir ailə kimi vahid tarixi tale, genetik-etnik yaddaş və münasibətlərin daşıyıcısı olan xalqlar: talışlar,



ləzgilər, avarlar, kürdlər, tatlar və başqaları özlərini azərbaycanlı adlandırırlar. Bu xalqların mənəvi yaddaşı tarix boyu zərdüştlükdən başlamış dünyanın bütün əsas dinlərinin ən ülvi, bəşəri dəyərləri ilə daim zənginləşmişdir. Mədəniyyət və ünsiyyət tariximiz bizə ruhi-mənəvi böyüklüyün və əzəmətin çoxsaylı nümunələrini miras qoymuşdur. Tarixin bütün dövrlərində özünün rəngarəng tərkibli olması ilə fərqlənən Azərbaycanda bu müxtəlifliyin etnik-milli mənbələri mövcuddur. Diyarımızda yaşayan onlarla etnik-dini birliklərin qarşılıqlı münasibəti və mədəniyyəti - folklor, dialekt, adət, məişət tərzi, inam sistemi və s. müxtəlifliyin vəhdətini müəyyənləşdirmişdir.

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən sonra məlum oldu ki, "monolit sovet xalqı" gerçəklikdə qeyri-adi çoxçalarlığa və mədəniyyətlərə malikdir. Bu baxımdan da Azərbaycanda mədəni münasibətlərin müstəqil dövlətçiliyə uyğun inkişaf mərhələsi başladı. Vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu, respublikamızdakı ayrı-ayrı azsaylı etnik qrupların bərabər hüquqlu Azərbaycan vətəndaşı kimi varlığını, siyasi-ictimai mahiyyətlə yanaşı, həm də elmi-nəzəri əhəmiyyətli amilə çevirdi. Azərbaycan yalnız türkdilli və çox saylı azərbaycanlıların deyil, həm də müxtəlif dil ailələrinə və dinə mənsub olan azsaylı udi və şahdağ xalqlarının, saxur və ingiloyların, tat və dağ yəhudilərinin, talış və kürdlərin, rusların və s. də vətənidir. Azərbaycan dövləti onların qarantı olmaqla yanaşı dünyanın etnik xəritəsində yalnız Azərbaycan adlı məmləkətdə rast gəlinən - udi, buduq, qrız, xınalıq, ingiloy kimi etnik birliklərin dil və mədəniyyətini mühafizə edərək, gələcək üçün dünya sivilizasiyasının etnik "bankının" yaradılmasına kömək etmişdir.

Onların mövcudluğu Azərbaycanın dünyaya açıq, humanist, insanpərvər xalq olduğunun canlı sübutudur. Belə olmasaydı bəzilərinin sayı bir neçə mindən artıq olmayan bu azsaylı etnik birliklər çoxdan assimilyasiya edilərək sıradan çıxardılar. Bununla da dünyanın etnik-milli çələngi, öz naxışlarını itirər, solğunlaşardı.

Azərbaycanda etnik çoxçalarlığın tarixin sınağından çıxaraq bu günə çatması, bədnam ermənilərin xalqımız haqqında yaratmağa çalışdığı təsəvvürləri, böhtan və iftiraları puça çıxarır. Bir şey gün kimi aydındır ki, çoxmillətli Azərbaycan onu sevənlər, bu yurdu özünə vətən hesab edənlər üçün həmişə doğma ocaq olub. Bu yaxınlarda rusiyalı müəllif S.Eduardov postsovet məkanında ruslara münasibət haqda tədqiqatının nəticələrini açıqlamışdır. Müəllifin göstərdiyi rəqəmə görə, 1989-cu ildən Ermənistanda yaşayan 51,6 min rus əhalidən indi 10 minə qədər (yəni 0,3%) qalmışdır. Rusiyanın "1№-li müttəfiqi" olan ölkədə rusların sayı 4 ildə 5 dəfə azalıb. Müəllif Azərbaycanda 180 min rus (2,3%) yaşadığını, 4 ildə 0,5 dəfə azaldığını misal çəkir, burada rus əhaliyə Ermənistanla müqayisədə fərqli ictimai-siyasi, psixoloji münasibətin olduğunu xüsusi vurğulayır. O göstərir ki, rus icması Azərbaycanda yetərincə fəal ictimai-mədəni mövqe tutur, heç bir ciddi problem hiss etmirlər. 50-yə yaxın rusdilli mətbuat orqanının qeydiyyatdan keçməsi müəllifin fikrincə, heç də pis göstərici sayıla bilməz. O belə qənaətə gəlir ki, "Azərbaycanda rus əhalisinin normal gələcəyi var, hər şey onların özlərindən asılıdır". *("Ayna" qəzeti, 22 avqust, 2003-cü il, № 32).* Göründüyü kimi, ermənilərin naxələflikdə bənzərləri yoxdur.

"Azərbaycanın tərkibində olmaları Qarabağ erməniləri üçün heç bir təhlükə yaratmır" – bu da Avropalı ekspert Azbiyorn Eydenin keçən il Azərbaycanda işgüzar səfəri zamanı söylədikləridir. Milli azlıqların hüquqlarının müdafiəsi üzrə Avropa Çərçivə Konvensiyasının Məşvərət Komitəsi nümayəndə heyətinə başçılıq edən, hüquq doktoru, Norveç İnsan Hüquqları İnstitutunun professoru A.Eyde, digər avropalı ekspertlərlə, QHT-lər dağ yəhudilərinin yaşadığı yerlərdə olmuşdur. Səfərin sonunda o demişdir: "real həyat və praktikada sizin gözəl ölkədə məskunlaşan milli azlıqlara münasibət çox qənaətbəxşdir, sadəcə bu sahədə "Milli azlıqlar haqqında" milli qanunvericilik işlənmə mərhələsindədir. Mən xüsusilə vurğulayıram: həyat və praktikada deyil, qanunvericilik müstəvisində lazım olan işlər də görülməkdədir".

Azərbaycanda etnik-müxtəlifliyi müxtəlif maraq və məqsədlər üçün istifadə etmək istəyən qüvvələr – həm daxildə, həm də xaricdə – həmişə olmuşdur. Azərbaycanın əzəmət və qüdrətini sübut edən bu rəngarəng, "sosial-mədəni kapitalı" əleyhimizə yönəldənlərin son cəhdlərinin qarşısı, Azərbaycan xalqının böyük lideri, müdrik rəhbərimiz Heydər Əliyev tərəfindən qətiyyətlə alındı. H.Əliyevin yuxarıda epiqraf olaraq göstərdiyimiz sözləri onun Azərbaycanda yaşayan xalqlara qayğı və münasibətinin bir məqamıdır.

Yeri gəlmişkən böyük öndərimizin qəbul etmədiyi "milli azlıq", "azsaylı xalq", "etnik azlıq" və s. kimi ifadələrin obyektiv-elmi təyinatı hazırda dünya ictimai elmində ən çox müzakirə edilən mövzulardandır.

"Azlıq" və ya "çoxluq"la deyil, sadəcə müxtəliflik və fərqlilik, "özəllik" kimi cizgi və çalarlar daşıyan mədəniyyətlərə, ciddi elmi anlayışların tətbiq edilməsi zərurəti dəfələrlə vurğulanmışdır. Həqiqətən də, burada da biz, Heydər Əliyevin siyasi-elmi fəhm və müdrikliyinin bir daha təsdiqini görürük.

Rusiya alimləri də həmçinin "Qafqaz millətindən olan şəxslər" anlayışının yalnız KİV-lərdə deyil, hətta elmi ədəbiyyat və rəsmi sənədlərdə də əksini taparaq, özündə nə qədər mənfi ideoloji yük və qərəz-qarşıdurma "imici" daşıdığını təkidlə tənqid edirlər. Onların fikrincə, bu münasibətin müqabilində, Qafqaz torpaqlarına səyahət edən avropalıların bu xalqların geniş qəlbi və qonaqpərvərliyini təsvir etdiyi xatirələri çox böyük təzad və paradoksdan xəbər verir.

"Hər bir xalqın əbədi yaşarlığı - onun" müxtəlifliyinin vəhdətindədir" ideyası çox qədimdir. Bu gün ən müxtəlif səviyyə və istiqamətlərdə gedən qloballaşma prosesində, mədəniyyətlərin qloballaşaraq yekcins "bir" mədəniyyət, "eyni" (Qərb) mədəniyyətinə çevrilməsindən duyulan narahatlığa rəğmən, bu qədim ideya, "multikulturalizm", "mədəni müxtəliflik", "mədəni plüralizm" və s. kimi müstəqil elmi-kulturoloji tədqiqatların aparılmasını şərtləndirmişdir.

Yeri gəlmişkən, hazırda Almaniyada "immiqrant mədəniyyəti"nin rolu və əhəmiyyəti, əcnəbi vətəndaşların alman cəmiyyətinə və mədəniyyətinə inteqrasiyası" probleminə dair geniş elmi diskussiyalar gedir.

Söhbət, əsasən türk miqrantlardan gedir. Çünki, mədəni inteqrasiya və ünsiyyət, mədəni dəyərlər insanları ayırmağa deyil, birləşdirməyə qadir olan qüvvədir.

Dünyada elə bir mədəniyyət yoxdur ki, etnik, milli və bəşəri aspektləri özündə birləşdirməsin. Buna görə də mədəniyyətlərarası dialoq həm dünya dövlətləri arasında, həm də hər bir mədəniyyət daxilində getməlidir.

Müxtəlif mədəniyyətlərin bərabər hüquqlu əməkdaşlığı və birgəyaşayışına nümunə kimi adətən, mədəniyyətlərdəki fərq və özəlliklərə böyük dəyər kimi qiymətləndirən İsveçrə



modelini göstərirlər. Burada 3 rəsmi dil (alman, fransız, italyan) mövcuddur. 23 kantondan hər birinin öz konstitusiyası, parlamenti və hökuməti var.

Yaxud Finlandiyada isveçlilər cəmi 8% olsa da, burada ikinci rəsmi dövlət dili - isveç dilidir.

Bu ölkələrdə separatçılığa dair tələb və çıxışların, irəli sürülən ərazi iddialarının olmadığını vurğulasaq onda başqa mənzərə alınır.

"Azərbaycançılıq" ideologiyası dövlətçiliyimizin gələcəyi üçün qlobal düşüncə tərzi ilə lokal fəaliyyətin uğurlu sintezini təmin edən, bütün dünyadakı azərbaycanlıları da əhatə edən mənəvi imperativ kimi hər kəsə aid olur.

Heç kimə qarşı yönəlməyərək dünya elmi ictimaiyyətinin məqbul hesab etdiyi ("Konstitutsional patriotizm" - məs. "İlahi, Amerikanı hifz elə!") məfkurə qismində çıxış edir.

Azərbaycan Respublikası 2000-ci il 16 iyunda Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin qərarı ilə ümumbəşəri dəyərlərə sadiq olduğunu təsdiqləyərək, insan hüquq və azadlıqlarına rəğbət bəsləyərək "Milli azlıqların müdafiəsi haqqında Avropa və Çərçivə Konvensiyasına qoşulmağa dair qanun qəbul etmişdir. Konstitusiyamızın 25-ci maddəsində dilindən, dinindən, irqindən, mənşəyindən və s. asılı olmayaraq dövlətin bütün vətəndaşların hüquq və azadlıqlarının təminatçısı olması təsbit olunmuşdur.

Bu gün Azərbaycanda onlarca milli-mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Azərbaycan Respublikası mədəniyyət nazirliyi YUNESKO-nun, Avropa Şurası və ATƏT-in "mədəni müxtəlifliyə" dair proqramlarında fəal iştirak edir. Mədəniyyət Nazirliyi "Azərbaycanın mədəni müxtəlifliyi" layihəsini hazırlamışdır.

Nazirliyin "Azərbaycanda mədəni siyasətə dair milli məruzəsi" Avropa Şurasına təqdim olunmuş, Avropa Şurasının saytında yerləşdirilmişdir.

Milli azlıqların dilində radio-televiziya verilişlərinin geniş yayımlanmasını Avropa Şurasının eksperti vurğulamışdır.

Azərbaycan öz milli-etnik tərkibi ilə dünyanın ən nadir, özünəməxsus və mədəni sivilizasiyalarından biridir. Müxtəlifliyin vəhdəti – etnik, milli və ya konfessional fərqlərin aradan qaldırılması demək deyil. Milli və bəşərinin vəhdəti, Azərbaycan xalqının ortaq dəyərlər və davranış münasibətləri adlı məkanın formalaşmasını, etnik şüurda hər bir qatın statusunu sezməyə imkan verir, özünün real, tarixi-mədəni varlığının subyekti olmasına şərait yaradır.

Azərbaycanda mədəniyyətlər və dinlərarası münasibətlərin durumu, etnik-milli-bəşəri müstəvilərin ahəngdar mövcudluğu baxımından dünyaya örnək ola bilər. Bizim diyarda həmişə dialoq sənəti: həm dinləmək, həm də dinlənilmək, məsləhətləşərək qərar qəbul etmək bacarığı tarix boyu yüksək qiymətləndirilmiş, mənəvi dəyər əhəmiyyəti kəsb etmişdir. Xalqımızın: "Əgər məsləhət etməyə bir adam yoxdursa, papağını qabağına qoy, onunla məsləhətləş" – deyimi dialoqa münasibətin bariz nümunəsidir. Mədəniyyətlərarası münasibətlərdə Azərbaycan xalqının dialoji potensialı: tolerantlıq, humanizm, xeyirxahlıq, yalnız mənəvi-mədəni deyil, həm də çox dərəcədə ictimai məzmun daşıyır. Bunlar xalqımızın şərəf, ləyaqət, həqiqət və s. dair təsəvvürlərindən ayrılmazdır və Azərbaycanda müxtəlif xalqların birgəyaşayışının immanent mənəvi-sosial nizamlayıcısı kimi çıxış edir.

Vətənimizdə yaşayan etnik birliklərin nümayəndələri



üçün özünü "Azərbaycanlı" kimi hiss etmək heç bir vəchlə etnik hiss və identikliyin itməsi kimi və ya etnik identifikasiya, özünü təcrid və qapalılıq kimi başa düşülməməlidir. Bu hər birimizin "Azərbaycan vətəndaşı" və xalqının nümayəndəsi" olmaq kimi təbii bir halın ifadəsidir. Doğrudan da "Biz-Azərbaycanlıyıq!" və hər birimiz öz etnik və dini mənsubiyyətimizdən asılı olmayaraq belə bir fikrin həqiqiliyini dərk və etiraf edirik: Azərbaycanda, burada yaşayan bütün xalqların etnik, dini mənsubiyyətini inkar etməyən, onlara hörmət bəsləyən və mühafizə edən real tarixi, sosial və mədəni birlik-vəhdət mövcuddur və dövlətimiz onun qarantıdır!

Bunları dərk etmək, gerçəkliklə bağlılığı duymaq, özünü vahid məkan və zamanın üzvi tərkib hissəsi hesab etmək, etnik-milli özəlliyi zənginləşdirir, tamamlayır və şəxsi sosial-mədəni təsəvvürlər məkanını hədsiz genişləndirir, belə bir məntiqi nəticəyə gəlməyi mümkün edir: Hər birimizin və bütövlükdə Azərbaycanın gələcək firavanlığının təməli, "azərbaycançılığın" birləşdirdiyi bütün xalqların səylərindən qurulur.

## § 8. Milli varlığın əbədiliyi mənəvi dəyərlərin varlığı, əbədiyaşarlığı qədərdir

*"Hər bir insan üçün milli mənsubiyyət onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm və bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam. Azərbaycan mənim ürəyimdir.*

Heydər Əliyev

Hər bir insan dünyaya gələndə hansısa millətə, xalqa, etnosa mənsubluq hissini daşıyır. Bu, özünəməxsusluq hissi ilə səciyyələnən, milli kimliyi ifadə edən mənəvi dəyərlər hər bir xalqın müqəddəs sərvəti, eyni zamanda toxunulmaz xəzinəsidir. Həmin xəzinənin daim inkişafı milli varlığın, milli dövlətin əbədi mövcudluğu deməkdir. Milli ruhun, mənəvi dəyərlərin tam dolğunluğu ilə inkişaf etdirilə bildiyi yeganə məkan isə, şübhəsiz ki, müstəqil dövlətdir. Müstəqil milli dövlət olmayan yerdə mənəvi dəyərlərin mövcudluğu xalqın canı və qanı bahasına mümkün olur, onun məşəqqətli tarixi ilə müşayiət olunur.

Xalqımızın ümummilli lideri Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin təməlini qoymaqla müqəddəs bir missiyanı gerçəkliyə çevirdi: milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi. Dünyadakı hər bir xalqın arzusunda olduğu bu əlçatmaz ideal Azərbaycan adlı məkanda da reallaşdı. Tarixdən məlumdur ki, belə müqəd-



dəs missiyanı həyata keçirən dahi şəxsiyyətlər özləri də müqəddəsləşir, milli tarixin əvəzsiz, ülvi dəyər və sərvətinə çevrilirlər.

Müstəqil Azərbaycan dövlətinin yaradılması ilə böyük bir millətin özünütəsdiqi üçün zəruri milli-mədəni, mənəvi mühitdə yaşamaq imkanı əldə edildi. Milli yiyəlik hissinə sahib, dövlətin bu günü və sabahı üçün məsuliyyət hissi yaşayan, yüksək mənəvi dəyərləri həyat prinsipinə çevirmiş azərbaycanlı obrazının formalaşması dövrü başlandı. Milli maraqlar üzərində həyata keçirilən siyasət və mənəvi mühitin təşəkkül tapması XX əsrdə Heydər Əliyevin xalqımıza bəxş etdiyi ən böyük sərvətlərdən biridir. Ulu öndərin nəzəri irsi milli dövlətçilik konsepsiyası, liderlik fəlsəfəsi ziyalılarımız, alimlərimiz tərəfindən təhlil edilir, bu böyük nəzəri və praktiki irsin mahiyyətinin dərk edilməsi sahəsində tədqiqatlar aparılır və gələcək inkişaf perspektivləri müəyyənləşdirilir. Onun ideya və siyasətinin praktiki müstəvisi isə 2003-cü ildən İlham Əliyevin ölkə Prezidenti seçilməsindən üzü bəri hər an gerçəkləşməyə doğru gedir. Dövlətin və hər bir Azərbaycan vətəndaşının taleyində baş verən dəyişikliklər və tərəqqi Heydər Əliyev irsinin nəzəri və praktiki vəhdətdə gerçəkləşməsinin bariz nümunəsidir.

Müstəqillik tariximiz, Azərbaycan xalqının öz milli-mənəvi köklərinə qayıdışı, milli ruhuna uyğun həyat və düşüncə tərzinin formalaşması illəridir. Dünyanın qədim xalqlarından biri kimi azərbaycanlıların malik olduğu yüksək mənəvi-əxlaqi keyfiyyətlərin qorunub saxlanılması "keçid dövrü" kimi adlandırılan mürəkkəb bir zamanda dəyərlərin varisliyinin təmin edilməsi nə qədər çətin olsa da ulu öndərin fədakar qayğı və himayəsi altında böyük uğurlar əldə olundu. Ümumbəşəri və

milli-mənəvi dəyərlərin ahəngdar sintezinə nail olmaq istiqamətində möhtəşəm addımlar atıldı. Sovetlər dönəmində məqsədyönlü şəkildə həyata keçirilən milli-mənəvi köklərdən uzaqlaşma siyasətinin, yadlaşma prosesinin nəticələrinin aradan qaldırılması üçün vəzifələr müəyyənləşdirildi.

Ən mühüm məsələ şübhəsiz ki, mövcud ideoloji vakuumu, mənəvi inkişaf konsepsiyası sahəsindəki boşluğu dəf etmək idi. Ulu öndərin millilikla ümumbəşəriliyin vəhdətini nəzərə alaraq müəyyənləşdirdiyi azərbaycançılıq ideologiyası müstəqil dövləti yaratmaq və yaşatmağın bütün prinsiplərinin təcəssümünə çevrildi. Bu ideologiya milli ənənələrlə müasirliyi, dini dəyərlərə hörmətlə tolerantlığı, demokratik düşüncə ilə dövlətçilik şüurunu elə bir mükəmməl səviyyədə özündə birləşdirdi ki, onun söykəndiyi dəyərlər sistemi bütövlükdə Azərbaycan xalqının taleyini uzaq perspektivlər üçün müəyyənləşdirdi. Bu ideologiya yalnız sözdə, millilik şüarını əldə bəhanə tutanların deyil, müasir dövrün fövqəlmürəkkəb reallıqları fonunda öz xalqının suveren dövlətini yaratmış siyasət dahisinin irəli sürdüyü və gerçəkləşdirdiyi həyat hadisəsidir. Azərbaycançılıq ideologiyası, milli dövlətçilik düşüncəsi kimi XX əsrin sonlarından üzü bəri qlobal geosiyasi və iqtisadi reallıqlar fonunda xalqımızın özünütəsdiqini təmin etmişdir və bu gün də etməkdədir.

Azərbaycançılıq ideyasının dərk olunmasının əsasında Azərbaycan xalqının tarixi, mənəvi-əxlaqi, mədəni ənənələri zəminində birlik ideyası durur və bu nəinki indi, həm də uzaq gələcəkdə azərbaycanlıların bir çox nəsillərinə xidmət edəcəkdir.

Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi dövlətimizin siyasi



məfkurəsində təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənəvi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir.

Azərbaycanda başlanan yeni tarixi dövrün ümumi səciyyəsini vermək, mənəvi-mədəni inkişaf perspektivlərini müəyyənləşdirmək mənəviyyatın bütün sahələrini əhatə edən problem və perspektivləri ümumiləşdirərək mükəmməl konsepsiya səviyyəsinə qaldırmağa nail olan ümummilli lider bu sahədə strateji inkişafın təməlini qoymuşdur.

Azərbaycançılıq ideologiyasının mahiyyətini bir tərəfdən dövlətçiliyin ardıcıl yüksəlişini təmin edən prinsiplər, digər tərəfdən isə bu vəzifənin məhz milli-mənəvi dəyərlərə söykənərək yerinə yetirilməsi təşkil edir. Çünki hər iki məsələ arasında sarsılmaz vəhdət mövcuddur. Milli identikliyini bilməyən və özünü dərk etməyən xalqın milli müstəqilliyə nail olması sual altında olur. Bunların üzvi bağlılığını fəhmlə çözə bildiyi, siyasilik və mənəviliyin ülvi təcəssümünü ifadə etdiyi üçün Heydər Əliyev şəxsiyyəti xalqımızın əbədi milli lideri zirvəsində qərar tutmuşdur.

2003-cü il 15 oktyabr seçkiləri Azərbaycan vətəndaşı üçün yenə də tarixi seçim məqamı, ədalət və məsuliyyət prinsipinə sadiqliyinin, xalqın müdrikliyinin sınağa çəkildiyi çox məsuliyyətli bir mərhələ idi. İlham Əliyevin Prezident seçilməsi Azərbaycanın gələcək inkişafı və uğurlu perspektivinin təmin olunması üçün cəmiyyətdə bütün sosial təbəqələrin eyni dərəcədə inandığı bir qüvvə kimi və Heydər Əliyev kursunun fasiləsiz gerçəkləşməsini təmin edən başlıca faktor kimi, məhz birlik simvolu kimi tanınmasının nəticəsi idi. Dünyada mükəmməl siyasi məktəb kimi dəyərləndirilən Heydər Əliyev məktəbinin yetirməsi bu vaxta qədər öz fəaliyyətində qazandığı

ümumxalq rəğbətini indi də Azərbaycan Prezidenti kimi tarixi məsul bir vəzifədə davam etdirməli oldu. 1990-cı illərin sonunadək ölkədə bərqərar edilən siyasi sabitlik dövlətçiliyin təməl əsaslarının yaradılması, baş verəcək neqativ proseslərin qarşısının alınması istiqamətində ulu öndərin həyata keçirdiyi möhtəşəm vəzifələr, növbəti mərhələdə – mənəvi-mədəni intibah və yüksəliş problemlərinə xüsusi diqqət ayrılması üçün tarixən zəruri olan imkan və şəraiti yaratdı. Mənəviyyat, dövlət dili, ədəbiyyat, mədəniyyət və digər sahələrlə bağlı ulu öndərin verdiyi sərəncamların, onun yaratdığı Azərbaycançılıq ideologiyasının fundamental prinsiplərinin konkret praktikada tətbiqi və nəticələrlə təsdiqlənməsi kimi yeni mərhələ başlanğıcını götürdü. Daha doğrusu, Azərbaycanda mənəviyyatın inkişafının qızıl dövrü, onun möhkəmlənməsi kimi tarixi vəzifənin icra edilməsi gerçəkləşməyə başladı. Xalqın 2003-cü il seçimi, onun böyük itkilər bahasına əldə etdiyi müstəqilliyi və milli dövlətçiliyin davamlı yüksəlişini təmin etmək baxımından əvəzsiz siyasi nailiyyət idi. Ötən üç ildə mənəvi sahənin inkişafında göz önündə olan mənzərə bunun bariz nümunəsidir.

### *Mənəvi dəyərlərin qorunması və gələcəyə translyasiyası müasir dövrdə dövlət siyasətinin prioritet istiqamətidir*

Milli dövlətçiliyin konkret mənəvi dəyərlər sistemi əsasında vahid məqsədə yönəldilməsi, xalqın tarixi yaddaş və mənəvi irsinin bərpası və mühafizəsinə xidmət edən iri miqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması İlham Əliyevin dövlət başçısı



kimi fəaliyyətinin ilk üç ilində daim diqqət mərkəzində saxladığı məsələlərdir.

Dünya inkişafının aparıcı meyillərindən sayılan qloballaşma prosesi, dövlətlər və ölkələr arasındakı sərhədləri nisbi anlayışa çevirir, milli məkanı ən müxtəlif, yad təsirlərə məruz qoyur. Ali mənəvi dəyərlərin saxta ideallarla əvəzlənməsi kimi arzuolunmaz meyillər ortaya çıxır. Qlobal ünsiyyət texnologiyaları həyatımızda demək olar ki, hər gün dəyişikliklər edilməsinə təkan verməklə bərabər yalnız mütərəqqi məzmunlu proses deyildir. Baş verən proseslər milli tarixi-mədəni irsə müəyyən təhlükə meyillərini də istisna etmir. Kütləvi mədəniyyət, qlobal informasiya şəbəkəsi obyektiv və subyektiv səbəblərdən formalaşan, yaxud düşünülmüş şəkildə formalaşdırılan stereotip və şablonları hakim dəbə çevirir. Belə şəraitdə insanların, xüsusilə də gənclərin öz mənəvi dünyasını, milli kimliyini qoruması çətinləşir.

Dünyanın inkişaf parametrləri baxımından obyektiv meyil kimi çıxış edən və "qloballaşma" adlanan proses bu vaxta qədər olmayan xüsusi məzmunlu proseslərin ortaya çıxmasını şərtləndirir. Milli, müstəqil dövləti əhatə edən reallıqda inkişafın hədsiz sürətlə getməsi, insanların mədəni-mənəvi dəyər oriyentasiyalarının köklü dəyişikliklərə uğraması, dünyada yaşayan xalqların öz mədəniyyətlərinin indisi və gələcək taleyindən narahat olmasına səbəb olmuşdur. Dünyadakı bütün xalqların maraq və mənafeyinə toxunan qloballaşmanın doğurduğu spesifik problemlər, inteqrasiya prosesləri milli dövlətçiliyin mənəvi dəyərlər sahəsində təxirəsalınmaz vəzifələri həll etməsini tələb edir. Qloballaşmanın iqtisadi, texnoloji, siyasi, informasiya və s. aspektləri sahəsində müşahidə olunan qarşılıqlı təsirlər, intensiv sıxlaşma və bəhrələnmə prosesləri, mə-

nəviyyat və mədəniyyət sahəsində tamamilə fərqli təzahürlərə malikdir. Bu sahələrdə özünəməxsusluq və identikliyin, milli ruhun qorunması, inkişaf etdirilməsi (yəni müxtəliflik), iqtisadi, texnoloji və s. aspektlərdə zəruri olan proseslərin (yəni vəhdətin) birmənalı təminatçısı kimi çıxış edir. Ümumbəşəri dəyərlərin qlobal inkişaf modeli kimi mütərəqqi sayılan demokratik-siyasi meyillərin unifikasiyası, reqlamentasiyası ilə müqayisədə, mədəni-mənəvi sferada standartlaşma kimi başa düşülən proseslərin də reallaşacağı nainki qeyri-mümkündür, həm də buna edilən cəhdlər çox təhlükəlidir. Başqa sahələrdəki inteqrasiya, vahid standartların ümumi təsisat və fəaliyyətin təşəkkülü ilə müqayisədə mənəvi dəyərlərin və mədəniyyətlərin yalnız qarşılıqlı dialoqu, təsiri, ünsiyyəti və könüllü bəhrələnməsindən söhbət gedə bilər.

Azərbaycan geostrateji mövqeyinə görə iki dünyagörüşünün, iki həyat tərzinin, iki mədəniyyətin, çeşidli mədəni dəyərlərin qovuşduğu məkanda yerləşir. Belə bir məkanda yaşayan insanlar ünsiyyətin yalnız coğrafi deyil, həm də mənəvi təzahürünü, Qərb və Şərq mədəniyyətinin dialoqunu gündəlik həyatımızda hiss etməkdədirlər. Maraqlı cəhət burasındadır ki, dünyanın ən müxtəlif qütblərində siyasi qarşıdurmalara çevrilən bu dialoq Azərbaycan mədəniyyətində hər hansı çatışmazlıqlara səbəb olmamış, əksinə, bu məmləkətdə bənzərsiz bir mədəni mühit formalaşdırmışdır. Çünki əsrlərdən üzü bəri yol gələn, zaman-zaman saf çeşmə kimi daha da durulan, cilalanan zəngin Azərbaycan mədəniyyəti bütün kənar müdaxilələrə sinə gərmək gücündədir. Azərbaycan malik olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir.

Dövlətin mədəniyyət və mənəviyyat sahəsində siyasətinin müasir informasiya və qloballaşma dövrünün tələblərinə uyğun inkişaf etdirilməsi istiqamətində Prezident İlham Əliyevin çoxsaylı nitq və çıxışlarında öz konseptual əksini tapmışdır.



Milli-mənəvi dəyərlərin təməl sayılan üzvi tərkib hissələrinə dil, elm və təhsil, mədəniyyət, din, adət və ənənələrimiz kimi fundamental determinantlar daxildir.

Müstəqil Azərbaycanın vətəndaşları üçün öz dilini, dinini, tarixini, mədəniyyətini, ədəbiyyatını öyrənmək, onlara dərindən bələd olmaq üçün lazım olan bütün imkanlar yaradılmışdır. Təhsil və elmin inkişafı dövlət himayəsinə alınmışdır. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il, "Azərbaycan əlifbası və Azərbaycanda Bilik gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli, "Milli mənəvi dəyərlərimizin qorunması" ilə bağlı 13 avqust 2001-ci il tarixdə verdiyi bəyanat Azərbaycan vətəndaşının, ziyalısının, gənclərinin qarşısında böyük imkanlar açmaqla bahəm, eyni zamanda məsuliyyətli vəzifələr qoydu. Avqust ayının 1-i isə ulu öndərin verdiyi fərmanla hər il "Ana dili" günü qeyd olunur və bu onun statusunun daim yüksəldilməsi və təbliğinə dövlət qayğısının bariz nümunəsidir. Bu rəsmi tarixi sənədlərdə mənəviyyatımızın keçdiyi inkişaf yolu, onun dünyanın ən zəngin və mükəmməl mədəni irsə olduğunu haqda həqiqət öz əksini tapmışdır.

Dövlətçilik, vətənpərvərlik, milli özünəməxsusluq hisslərinin gənc nəsillərə aşılanmasında, müasir dövrün reallıqlarını da nəzərə alan fəaliyyət proqramının müəyyənləşdirilməsi prioriteti hədəflər sırasındadır.

Dövlət quruculuğunda, mənəvi dəyərlərin inkişaf etdirilməsində dil siyasəti ən önəmli əhəmiyyətə malikdir. Dəyərlərə qayıdış ilk növbədə ana dilinə qayıdışdan başlayır.

Doğma dildə təhsil alanların, elmi və ədəbi nəşrlərin sayının artması milli-mənəvi dəyərlərin möhkəmləndirilməsində istinad nöqtəsini təşkil edir. "Millətin milliliyini qoruyub saxlayan onun dilidir" (Heydər Əliyev).

Azərbaycan dili həm milli dövlətçilik ideologiyanın ardıcıl reallaşması, həm də milli özünüdərk prosesində əvəzsiz yer tutmaqla müxtəlif tarixi mərhələlər və nəsillər arasında mənəvi körpü rolunu oynayır. Mənəviyyatımızın ən etibarlı daşıyıcı kimi doğma dilə göstərilən qayğı və diqqət Prezidentin fəaliyyətində önəmli yer tutur.

### *Elm, təhsil, mədəniyyət mənəvi dəyərlərimizin uğur faktoru kimi dövlətimizin himayəsindədir*

Hər bir xalqın, xüsusilə də gənc nəslin, əsrlər boyu əldə edilmiş mənəvi dəyərlərə yiyələnməsi, onlara dərindən bələd olması yalnız təhsil vasitəsilə mümkün olur. Təhsil sisteminin milli zəmin üzərində ümumbəşəri dəyərlərə əsaslanaraq yenidən qurulmasına dair Heydər Əliyevin müəyyən etdiyi dövlət siyasətinin prezident tərəfindən ardıcıl həyata keçirilməsi insanlarımızın dövlət başçısına bəslədiyi böyük rəğbətin əsas səbəblərindəndir. Ölkəmizdə "Bilik" gününün təsis edilməsi və təhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında Prezidentin imzaladığı fərman yalnız təhsilimizin dünya standartlarına uyğunlaşdırılması baxımından deyil, bütün sahələrdə müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısının xüsusi tapşırığı ilə beş il ərzində ölkədə 149 yeni məktəb binasının tikilməsi planlaşdırılıb. 2005-ci ildə dövlətin təhsil siyasətinə uyğun olaraq Heydər Əliyev Fondu tərəfindən Azərbaycanın ən müxtəlif bölgələrində rekord sayda – 132 məktə-



bin tikilərək istifadəyə verilməsi sözün əsl mənasında ümumxalq rəğbətinin, dövlət qayğısının nümayişinə çevrilmişdir.

Təhsil müəssisələrinin informasiya və kommunikasiya texnologiyaları ilə təmin edilməsinə dair dövlət proqramı Prezidentin sərəncamı ilə təsdiq edilmişdir. 2004-cü il 21 avqust tarixində verilmiş sərəncam 2005-2007-ci illəri əhatə edir və "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı adlanır. Burada əksini tapan əhəmiyyətli məsələlər sırasında, informasiya cəmiyyəti dövründə Azərbaycan dilinin tətbiqi, doğma dildə elektron texnologiyaların terminologiyasının hazırlanmasını nəzərdə tutan fəaliyyət, perspektivdə yenə də mənəvi dəyərlərimizin etibarlı qorunması və inkişafına hesablanmışdır.

Prezident İlham Əliyevin ölkə başçısı olduğu müddətdə zamanın bu magistral inkişaf meylini fəhmlə sezərək elm, təhsil və mədəniyyətin Heydər Əliyev konsepsiyasını uğurla təkmilləşdirir və gerçəkləşdirir. Xüsusilə də gənc nəslin təhsili və tərbiyəsi ilə bağlı məsələlər dövlətimizin gələcəyi baxımından strateji məqsəd hesab olunur. Milli təhsil modelinin gerçəklənməsi, təhsil infrastrukturunun müasir tələblər baxımından modernləşdirilməsi, dünya ölkələrində mövcud olan mütərəqqi təhsil təcrübəsini nəzərə almaqla yanaşı milli köklərdən qaynaqlanan prinsiplər üzərində qurulması 2003-2006-cı illər ərzində görülən işlərin yalnız bir qismidir.

Prezident seçildikdən sonra İlham Əliyevin imzaladığı rəsmi dövlət sənədlərinin sadəcə statistikasına nəzər salsaq burada milli mədəniyyətin və mənəvi dəyərlərin qorunmasına nə qədər diqqət ayrıldığının şahidi olarıq.

Dünyanın inkişaf tarixi göstərir ki, elmə, təhsilə diqqət və qayğı göstərən dövlət başçıları nəinki milli-iqtisadi, mədəni

və s. yüksəlişi təmin edir, həm də ümumbəşəri mədəniyyət xəzinəsinə, dünya elminə öz töhfəsini vermiş olur. Ölkə Prezidentinin təhsilə strateji sahə kimi önəm verməsi buradakı bütün tədbirlərdə bilavasitə iştirak etməsi, proqram xarakterli çıxışları mənəvi dəyərlərin yaşadılmasında təhsil sisteminin potensialını səfərbər etmək məqsədinə xidmət edir.

Müasir dövrdə bütün dünyada təhsil sistemi islahatlar dövrünü yaşayır. Yalnız bilik və savada deyil, həm də dərin mənəviyyata malik bütöv şəxsiyyətin formalaşması qlobal humanitar islahatların ana xəttini təşkil edir. Dünyagörüşü məhdud, mənəviyyatı kasad olan insanlar cəmiyyətdə yaranan problemlərin başlıca səbəbinə çevrilir. Elmin və mənəvi dəyərlərin bir-birini tamamlaması, daxilən zəngin, bütöv şəxsiyyətin formalaşmasını mümkün edir. Müasirliklə tarixin varisliyi prinsipinə əməl olunması bu baxımdan mühüm əhəmiyyət daşıyır. Belə vəzifənin yerinə yetirilməsində isə "Milli Ensiklopediyanın" hazırlanması önəmli rol oynayır.

Prezidentliyinin ilk aylarında İlham Əliyevin "Azərbaycan Milli Ensiklopediyası haqqında", "Azərbaycan dilində latın qrafikalı kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" verdiyi sərəncamlar mənəvi həyatımızda əlamətdar bir hadisə oldu. Bu, hər şeydən əvvəl xalqımızın milli ruhunun inkişafına, onun keçdiyi tarixi yola, Azərbaycan adının ucalığına, bu ucalığın təsdiqinə doğru atılan son dərəcə mühüm bir addım və ciddi dövlət iradəsinin ifadəsidir. Azərbaycanın mütəfəkkir şəxsiyyətlərinin mənəvi xəzinəmizi təşkil edən əsərlərinin latın qrafikası ilə, dövlət hesabına nəşr edilməsinə başlanıldı. Bütün türk dünyasının, bəşər mədəniyyətinin abidələri sayılan incilər, fəlsəfi, ədəbi fikrin nümunələri, bəşəriyyətin klassik irsi, dünya ədəbiyyatı çox yüksək keyfiyyətli poliqrafik dizaynla, böyük



tirajla mütəmadi çap olunaraq dövlət hesabına oxuculara çatdırıldı. Bu möhtəşəm səy və zəhmət tələb edən iş nə qədər çətin olsa da Prezident İlham Əliyevin ölkənin ziyalılar, mədəniyyət xadimləri və elmi ictimaiyyətinin nümayəndələri ilə görüşündə verdiyi vədin dəqiq, zamanında yerinə yetirilməsinə bariz nümunə oldu. Ulu Öndərin milli ruh və mənəvi dəyərlər sahəsində müəyyən etdiyi xəttin çox böyük əzmlə, sədaqətlə davam etdiyini bir daha sübut etdi. Sirr deyil ki, müasir gənc nəsil, uşaqlar istər dünya klassikası, istər müasir dünya ədəbiyyatı, istərsə də folklorumuzu, klassik irsimizi kiril qrafikası ilə oxumaqda çətinlik çəkirdilər. Bəzən bu barədə məlumata da malik deyildilər. Prezidentin bu sərəncamından irəli gələn, onun diqqəti və himayəsi altında görülən işlərin gənc nəslə, onların hansı mənəviyyatın daşıyıcıları olduğunu dərk etmələri, dünyagörüşünün formalaşması baxımından qiyməti əvəzsizdir. Bu fəaliyyət 2005-2008-ci illərdə mədəniyyət dünyamızın digər nümayəndələrinin əsərlərinin latın qrafikasına keçidi ilə davam etdiriləcəkdir.

Milli Ensiklopediyanın nəşri ilə bağlı dövlət komissiyasının yaradılması, mədəniyyət və incəsənət işçilərinə, ziyalılara dövlət qayğısı, onların sosial vəziyyətinin yaxşılaşdırılması, onlara fəxri adların verilməsi mədəni sferanın yüksələn xətlə inkişaf etdiyinə dəlalət edir. Mədəniyyət sahəsində idarəçiliyi, bu sahənin hüquqi təminatı və maliyyələşdirilməsi, informasiya texnologiyaları ilə təchizatı, beynəlxalq əməkdaşlıq, əhalinin mədəni həyatda fəal iştirakı və s. məsələləri əhatə edən "Mədəni Siyasətin Strateji İnkişaf Proqramı" adlı rəsmi sənədin hazırlanması ölkəmizdə onun dinamik inkişaf edəcəyini göstərir.

Ölkə Prezidentinin 2003-cü ildə rəhbərliyə gəldiyi ilk vaxtdan bu günədək elmin, təhsilin, mədəniyyətin inkişafını sürətləndirən onlarla fərman, sərəncam və göstərişləri, onun böyüməkdə olan Azərbaycan nəslinin mənəvi bütövlüyü, əxlaqi saflığı və kamilliyi, qlobal miqyaslı yad təsirlərə qarşı mənəvi müqavimətin təkmilləşdirilməsi istiqamətində aparılan siyasətin qarantı kimi çıxış etməsinin bariz nümunəsidir. Bütün bunlar təhsildə ümumbəşəri aspektlərin ahəngdar inkişafını sürətləndirən, onlara əməli istiqamət verən amillərdir. Bu sahədə milliliyin vacib olduğu qədər, onun müasir informasiya və qloballaşma dövrünün tələblərinə, ehtiyaclara həssas olması, adekvat cavab verə bilməsi kimi bütün şərtləri vəhdətdə gerçəkləşdirməyi zəruri edir. Bu vəhdət xalqımızın mənəvi, iqtisadi, siyasi qüdrətinin rəhnidir.

### *Azərbaycanlıların birliyinin və milli dəyərlərimizin dialoji potensialının dünyada özünütəsdiqi mərhələsi*

Milli dəyərlər Azərbaycançılıq ideologiyasının təməli kimi dövlətçilik düşüncəsinin əsasını təşkil edən milli, mənəvi, mədəni, ədəbi, tarixi, siyasi, iqtisadi dəyərlər sisteminin ümumiləşdirilmiş məcmusudur. Dünyanın harasında yaşamalarından asılı olmayaraq azərbaycanlıları birləşdirən, həmrəy edən, milli köklərinə sadiq qalmağı təmin edən qüvvədir.

Ulu öndər bütün dünyada yaşayan azərbaycanlıların öz milli mənsubiyyətini, dini-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən bəhrələnməsi istiqamətində azərbaycançılığı milli həmrəylik və intibahın, diaspor siyasətinin mükəmməl konsepsiyası kimi irəli sürmüşdür. Milli həmrəyliyin əsas şərtlərindən birinin məhz mənəvi dəyərlər sisteminin olması, tarixi vətənə, zəngin mədəniyyətə bağlılığın dövlətçiliyi qüvvətləndirən birlik amili kimi çıxış etməsi Prezident İlham Əliyevin xarici səfərlərdə olarkən diaspor ilə olan görüşlərində daim vurğulanır.



Dünya azərbaycanlılarının təşkilatlanması milli-mənəvi dəyərlərə bağlılıqdan qaynaqlanır. 2006-cı il 16 mart tarixində Prezidentin sərəncamına uyğun olaraq Bakıda dünya azərbaycanlılarının II tarixi qurultayı keçirildi. Azərbaycan diasporunun mütəşəkkilliyi və təşkilatlanması, onların daha sıx birləşməsi istiqamətində bu qurultayın müstəsna əhəmiyyəti vardır. Bu ali tədbirdə çıxış edən dövlət başçımız qarşıdakı vəzifələr, məqsədlər, diaspor işinin səmərəli qurulması yönümündə ulu öndərin siyasətini xatırlatdı: "Xalqları milli-mənəvi ənənələr qədər, dil qədər, dəyərlər qədər birləşdirən başqa bir qüvvə yoxdur. Biz bu qüvvədən daim istifadə etməliyik. Azərbaycanlıları birləşdirən milli mədəniyyətimiz, mənəvi dəyərlərimiz, adət-ənənələrimizdir".

Yalnız Azərbaycan torpağında yaşayan müxtəlif etnik və dini mənsubiyyətli insanlara ünvanlanmaqla kifayətlənməyib, coğrafi sərhədlərin ayırdığı soydaşlarımızı bizimlə bir ideya-mənəvi məkanda bütövləşdirən qüvvə də məhz azərbaycançılıq ideologiyasıdır. Mənəvi dəyərlərimizin əbədiyaşarlığında dini dəyərlərin səmərəli istifadə olunması hər bir ölkə və hər bir xalq üçün zəruri məsələlərdəndir. Belə ki, humanizm, xeyirxahlıq, ədalətlik və sülh amalları dünyanın bütün dinləri üçün xasdır.

İyirmi birinci əsrin və üçüncü minilliyin insanına mənəvi rəhbər olmaq missiyasını üzərinə götürmək istəyən dinlər və müxtəlif təlimlər mövcuddur.

Dini-mənəvi dəyərlər mədəniyyətin sakral fondunu təşkil edir. Tarix boyu keçid və böhran dövrlərində sabahın yolları qeyri-müəyyən olanda, ictimai şüurun ən dərin köklərində qərar tutan din və dini təsəvvürlər dəyişiklik və böhrana qarşı sosial-mənəvi müqavimət, "instinkt" rolunda çıxış edir.

İslam dininin, mədəniyyəti və mənəvi-əxlaqi dəyərlərinin humanist-dialoji potensialını, ümumbəşəri məzmununun dərk edilməsinə tarixin bütün dövrlərində olduğu kimi bu gün də böyük ehtiyac vardır.

Müasir dövrün ən mühüm xüsusiyyətlərdən biri mənəviyyat və mədəniyyət probleminə, insan fenomeninə marağın yüksələn xətlə artmasının müşahidə olunmasıdır. Yaşadığımız reallığın inkişaf ritminin hədsiz sürətlənməsi, qlobal inkişaf və inteqrasiya prosesi ilə əlaqədar olaraq insanların mənəvi-dəyər oriyentasiyalarının köklü dəyişikliklərə uğraması da taleyüklü məsələlərdəndir. Baş verən hadisələrin mahiyyəti və inkişaf meyillərinin müəyyənləşdirilməsi qlobal hüdudda gedən proseslər çərçivəsində olmaqla yanaşı, dünyada yaşayan hər bir xalqın öz "mədəni müqəddəratının" gələcəyindən narahatlıq duyması kimi təbii "reaksiyalar" doğurur.

Müstəqilliyimizə döndüyümüz andan tarixi-milli yaddaş və genimizdə əsrlər boyu qoruyub saxladığımız mədəniyyət və mənəviyyatımızın bütün qatlarını – islam, türkçülük və müasirlik – vəhdətdə birləşdirən bariz simvol – dövlət bayrağımız dünya ölkələrində dalğalandı. "Dinimizin - xalqımızın milli-mənəvi sərvəti olduğu" (*H.Əliyev*) bir daha, müstəqilliyimizin səlahiyyət verdiyi xüsusi qətiyyətlə vurğulandı.

Dini-mənəvi dəyərlər və mədəniyyətimizin bağlılığı,



varisliyi prosesində, müxtəlif zamanda, müxtəlif səbəblərdən "nazilən", hətta "qırılan" bağları bərpa etmək, hansı mənəviyyat və mədəniyyətin sahibi olduğumuzu doğrudan-doğruya anlatmaq, islam dininin mədəniyyət sistemində tutduğu müstəsna yerin obyektiv mənzərəsini canlandırmaq bu gün məsuliyyətli vəzifələr sırasına daxildir.

Dini intibahın tarixən şərtləndirilmiş səbəbləri mövcuddur. Hər hansı bir cəmiyyətin gələcəyi üçün təhlükə yarananda, onun bütövlüyünü və dayanıqlığını təmin edən mənəvi faktorlara diqqət artır.

Dini-mənəvi dəyərlər - mədəniyyətin sakral fondunu təşkil edir. Keçid və böhran dövrlərində ictimai şüurun ən dərin köklərində qərar tutan dəyərlərin dirçəlişi baş verir. Dini intibahın yalnız zahiri təzahürlərini qabartmaq və bunları islamı dirçəliş və qayıdışın ana xətti hesab etmək düzgün sayıla bilməz.

Din və mədəniyyətin yarandığı ünvan Şərq olmuşdursa da, bəşər mədəniyyəti ortaq dəyərlərin sintezidir.

Azərbaycan xalqı bu gün dünyada aparılan sivilizasiyalararası dialoqun məkanı, tolerantlığın inkişafında sivilizasiyalar üçün örnək kimi çıxış edir. Malik olduğu zəngin mənəvi dəyərlərin dialoq prosesində dünya ölkələrinə daha yaxından tanıtdırılması imkanı ardıcıl reallaşdırılır.

Qloballaşan dünyada gündən-günə intensivləşən inteqrativ proseslər yalnız müsbət deyil, mənfi meyillər də doğurur. Total qərbləşmə, yabançı "mədəni" ünsürlərin təsiri Azərbaycanın çoxəsrlilik mədəni irsi üçün də təhlükə yaratmamış deyil. Məhz belə dövrdə milli-mənəvi dəyərlər "yenilik" adı ilə öz nüfuz dairəsini genişləndirməyə cəhd edən müxtəlif qüv-

vələrin bəd niyyətlərini saf-çürük ediləcəyi süzgəcə mənəvi sipərə çevrilir.

Bu gün Azərbaycan xalqının etibarını qazanmış, onun zəngin irsinin və mənəvi dəyərlərinin himayədarı olan siyasi liderin dövlətə başçılıq etməsi Azərbaycan xalqının tarixində şanlı səhifələrin yazılacağına əminlik yaradır. Azərbaycanın tərəqqisinə bu vaxtadək görünməmiş təkan verilmiş, dünyanın heç bir ölkəsi ilə müqayisə olunmayan artım templəri gerçəkləşir. Bütün fəaliyyəti sadə insanlara, vətəndaşlara mənəvi dəyərlərimizə və adət-ənənələrimizə hörmət və ehtiram üzərində qurulan prezidentimizin şəxsi nümunəsi hər birimiz üçün örnəkdir.



## § 9. Azərbaycanda çoxpartiyalılıq: dünya təcrübəsindəki sistemli modelə doğru

Demokratiyanı inkişaf yolu seçmiş bütün ölkələrdə çoxpartiyalı sistemin mövcudluğu, müasir dünyada siyasi fəaliyyətin legitimliyini təmin edən, tarixən şərtləndirilmiş təbii-normal amil, prinsip və mexanizmdir. XX əsrin sonlarına doğru dövlət müstəqilliyinin əldə edilməsi ilə yanaşı, çoxpartiyalılığa keçid alınması da cəmiyyətimizdə gedən çox mühüm, müsbət proseslərin nəticəsidir.

"Yeni, müstəqil Azərbaycan uğrunda!" məramı ilə yaradılan, Yeni Azərbaycan Partiyası həm təşəkkülü, həm strukturlaşması, həm də siyasi fəaliyyəti baxımından, partologiyanın obyektiv-elmi dinamikası qanunauyğunluqlarına müvafiq olması real faktdır. Xalqın, geniş ictimaiyyətin dəstəyi və müraciəti ilə əvəzsiz siyasi təcrübə və müdrikliyə malik olan ümummilli lider Heydər Əliyevin bu partiyaya başçılıq etməsi, onun xalqın dəstəyi ilə dövlətçiliyimizin möhkəmləndirilməsi, siyasi sabitlik və beynəlxalq arenada özünü təsdiqetmə prosesinin təminatçısı olmaq yönündə böyük missiyanı reallaşdırmasını mümkün etdi. Yeni, müstəqil Azərbaycan uğrunda, milli mənafe naminə konstruktiv əməkdaşlıq prinsipi partiyanın proqramında da xüsusi olaraq vurğulanmışdır. Ümummilli lider, partiyanın

sədri Heydər Əliyev bu barədə demişdi: "Yeni Azərbaycan Partiyası o vaxtkı iqtidara müxalif partiya kimi yaranmamışdı. Bu partiyanı yaradan adamlar müxalifət olmaq yox, Azərbaycanda çoxpartiyalılıq şəraitində respublikamızın ictimai-siyasi həyatında partiya tərkibində iştirak etmək istəyirdilər. Xalq Cəbhəsi hakimiyyətə gələndən sonra biz ona müxalifətdə olmamışıq. Onlar sadəcə olaraq Azərbaycanı idarə etmək iqtidarında olmadılar, buna qadir olmadılar".

Yeni Azərbaycan Partiyası məhz cəmiyyətdə ayırıcı, parçalayıcı deyil, birləşdirici qüvvələrə üstünlük verdiyi üçün, Heydər Əliyev kursunun ardıcıl reallaşdırılması sayəsində stabil elektorat və xalqın dəstəyini qazandı, bu da məntiqi olaraq müxalifətin qeyri-real şanslarının və sosial bazasının azalmasını şərtləndirdi.

Azərbaycanda partiyaların yaranması və formalaşması prosesinin dünya politoloji fikrində mövcud olan, elmi-obyektiv əsaslara söykənən inkişaf qanunauyğunluqlarına nə dərəcədə adekvat olması, özünü "siyasi partiya" adlandıran qurumların bu politoloji təhlilə necə həssaslıq göstərməsi, bundan nə kimi düzgün nəticələr çıxara bilməsi kimi məsələlərin geniş təhlili bir çox suallara aydınlıq gətirilməsini zəruri edir.

Demokratik dövlətçiliyin siyasi inkişaf perspektivlərinə uyğun çoxpartiyalı sistemin formalaşması prosesinin təhlilinə, son dövrdə müxalifət düşərgəsində baş verən hadisələr kontekstində böyük ehtiyac vardır. Bu gün bütövlükdə dünyada gedən siyasi proseslərə xas olan hədsiz dinamizm və dəyişikliklər fonunda, müxalifətin siyasi ətalətə qərq olması, artıq ikinci onillikdir ki, real siyasi qüvvəyə çevrilə bilməməsi o dərəcədə aydın, günbəgün sürətlənən iflası o dərəcədə aşkardır ki, necə deyərlər əlavə şərhə ehtiyac yoxdur. Buna görə də biz bu tənəzzülün təfərrüatına varmaq fikrində deyilik, çünki bu artıq baş vermiş faktdır. Cəmiyyət, ictimai rəy bu prosesləri görür, təhlil edir. Azərbaycan xalqının Heydər Əliyev siyasi kursunu və bu kursun davamçısı, Prezident İlham Əliyevi dəstəkləməklə yeganə düzgün tarixi seçim etdiyi, yaşadığımız hər bir yeni günün gəlişi ilə bir daha öz təsdiqini tapır.



Yaşadığımız dövrdə qlobal cəmiyyətin inkişaf meyillərinə cavab verən demokratik cəmiyyət modelinin gerçəkləşdirilməsi, çoxpartiyalılığın dünya siyasi elmində qəbul edilmiş ümumi, təbii inkişaf xüsusiyyətlərinə, həmçinin bu sahədə dünya təcrübəsinə hərtərəfli bələd olmağı aktuallaşdırır.

Çoxlu partiyaların mövcudluğu ilə "çoxpartiyalı sistemin" eyniləşdirilməsinin yanlış olduğu elmdə qəbul edilmiş fikirdir. Azərbaycanda bu mövzuya həsr olunmuş azsaylı ədəbiyyatın bəzisində, artıq çoxpartiyalı sistemin mövcudluğundan da danışılır. Bu əlbəttə ki, reallıqdan uzaq bir mənzərədir və bu gün Azərbaycanda özünü "siyasi partiya" hesab edən qurumların, üzvi əlaqə və münasibətlərlə bağlı olan partiya sistemini formalaşdırdığından, yaxud cəmiyyətdə gedən siyasi proseslərin nüfuzlu subyektləri ola bilməsindən danışmağa əsas vermir.

Siyasi partiyalaşmanın ən mühüm prinsiplərindən biri xalqın mənafe və etimadının ifadəçisi olmaqdır. Lakin bir həqiqət də danılmazdır: siyasi partiyalar ümumi məqsəd, motiv və fəaliyyət ətrafında blok və koalisiyalarla bir sistem kimi təşkilatlana bilmirsə, onun iflası labüd olur. Bu

gün müxalifət partiyalarının, konkret tarixi şəraitin tələblərinə uyğun olaraq sistem keyfiyyətindən daha çox, kəmiyyət əlamətinə üstünlük verməsi, faktiki olaraq "müxalifət içində müxalifət" durumunun formalaşması, onların ölkəmizdə gedən praktiki siyasətə inteqrasiya oluna bilməməsi bu sahədə köklü dəyişiklik və islahatlara ehtiyacın olduğunu göstərir.

Ardıcıl məğlubiyyətlər, təsadüf deyil, çoxpartiyalılığın bütün dünyada dinamikasına xas olan təbii təkamül qanunauyğunluqlarındandır. Bunun dərk edilməsi və etirafı isə müxalifət partiyalarının nəinki ziyanınadır, əksinə siyasi perspektivdən məhrum olmamaq, yeniləşmək üçün mövcud olan yeganə şansdır desək, yanılmarıq.

Hər bir siyasi partiya ölkədə və dünyada, siyasi gerçəklikdə baş verən keyfiyyət dəyişikliklərinə köklənə, onları mənimsəyə, konkret tarixi şəraitə uyğunlaşa bilməlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu mühüm problemə öz münasibətini belə bildirmişdir. "Durğunluq hər bir siyasi partiya üçün arzuolunmaz vəziyyətdir. Durğunluğun mövcud olduğu partiya gec-tez arzuolunmaz nəticələrlə üzləşəcəkdir".

Müxalifət partiyalarının Azərbaycanda çoxpartiyalı sistemin formalaşmasını təbii-obyektiv amil kimi şərtləndirməsi əvəzinə, bu proseslərə maneə olması barədə dəfələrlə yazılmışdır. Bu barədə professor R.Mehdiyevin fikirlərindən bir parçanı yada salmaq istəyirik: "Təəssüflə qeyd etmək lazım gəlir ki, dövlətimizin ictimai həyatın əsas sahələrində sivil inkişaf yoluna qədəm qoymasına baxmayaraq, milli siyasi partiya sisteminin formalaşması və postindustrial eraya transformasiyasından danışmaq hələ



çox tezdir. Azərbaycanın demokratik dövlətlər ailəsinə daxil olduğu, vətəndaş cəmiyyətinin formalaşdığı bir dövrdə, partiyaların öz liderlərinin şəxsi eqosentrik maraqlarını deyil, cəmiyyətdəki bu və ya digər təbəqələrin real dəstəyini özündə cəmləyə bilən təkmilləşdirilmiş partiya sisteminin inkişafına böyük tələbat vardır. Hələlik isə bir çox siyasətçilərin partiyadaxili, şəxsi maraqları, onların fəaliyyətindəki real siyasi motiv və məqsədləri üstələyir. Nəticədə, ölkəmizdə siyasi məkanda mövqelərin gərəksiz qarşıdurması və bütövlükdə partiya sisteminin təşəkkülünün ləngiməsi baş verir".

Çoxpartiyalılığın təşəkkülü və sistemli təşkilatlanmasının təhlili, siyasət elmində partologiya, partogenez və s. kimi istiqamətlərin predmetidir. Burada siyasi partiyaların yaranması, onların siyasi potensialının tükənməsi və iflasının səbəbləri, siyasi arenadan gedərək yeni siyasi qüvvələrə yerini verməsini izah edən ümumi nəzəri müddəalar mövcuddur.

Qərbdə siyasi çoxpartiyalı sistem, əsrlərlə formalaşmış, siyasi təcrübə yolu keçmişdir.

Siyasi partiyalar, onların fəaliyyətinin məqsədi və motivləri, cəmiyyətdəki bütün başqa obyektiv-tarixi fenomenlər kimi dəyişir, çoxsaylı amillərin təsirinə məruz qalır. Qərb yaxud Avropa modelli siyasi partiyaların dinamikasında baş verən müxtəlif proseslər təsadüfi və ya subyektiv amillərlə deyil, siyasi gerçəkliklə şərtləndirilmiş qanunauyğunluq kimi təbii qəbul olunur. Bu da öz növbəsində onların konkret tarixi şərait və zamanın tələblərinə uyğun çevik, dinamik təsisatlar kimi ümumi partiya sistemində təşkilatlana bilməsinə imkan yaradır. Çoxpartiyalı sistemin

dinamikasına müvafiq olaraq legitim təşkilatlana bilməyən, sivil demokratik üsul və metodlarla siyasi fəaliyyətini davam etdirə bilməyən saysız-hesabsız partiyalar, cəmiyyətdə və dünyada ictimai-siyasi vəziyyəti gərginləşdirən, siyasi proseslərin normal gedişinə və sabitliyə mane olan amillərə çevrilirlər. Fikrimizcə, siyasi fəaliyyətə qoşulan hər bir siyasi partiya bu məsələlərə ciddi önəm verməlidir.

Siyasi müxalifətin dinamikası, tənəzzülü və məğlubiyyətinin elmi təhlili, ədalət naminə qeyd olunmalıdır ki, politoloji ədəbiyyatda da hələlik diqqət mərkəzində olan mövzulardan ola bilməmişdir. "Qərbi Avropada müxalifət" əsərinin müəllifi E.Kolinskinin fikrinə görə bunun səbəbi, "politoloqların bu fenomenə münasibətini, idman pərəstişkarlarının, özlərinin finalda uduzan komandasına biganəliyi münasibətinə bənzətmək olar".

Siyasi partiyalar sırasında, nüfuzlu partiyanın olmaması demək olar ki, həm bütün postsovet, həm də postsosialist transformasiyasını yaşayan ölkələr üçün xarakterikdir. Məs: Son iki ildə Rusiyada real nüfuza malik müxalifətli olduğunu söyləyən rusiyalıların sayı 53%-dən 32%-ə enmişdir. Siyasi partiyaların dinamikasında müxalifətin fəaliyyətini qiymətləndirmək, uğursuzluğu təhlil etmək, bu qüvvələrin genezisi, ideoloji və təşkilati xüsusiyyətlərini, nisbətən daha geniş tədqiq edilmiş demokratik transformasiya prosesi ilə əlaqəli şəkildə müqayisə edərək ümumi qanunauyğunluqları aşkara çıxarmaq mümkündür.

İlk növbədə, təşkilati vəhdət, mobilizasion potensial, ideoloji oriyentirin təmin edilməməsi, proqram və platformaların məzmun və mahiyyətinin siyasi gerçəkliyə uyğun dəyişdirilməsi istənilən halda gözlənilən deyil, əks nəticə-



lərə gətirib çıxaran əsas amillərdir. Sadalanan aspektlər ciddi təhlil edilsə, burada siyasi strategiyanın deyil, deklarativ xarakterli olub, real vəziyyəti ört-basdır etməklə cəmiyyətin diqqətini populist şüarlarla cəlb etmək məqsədini güdən fəaliyyətin üstünlük təşkil etdiyini görərik. Demokratik cəmiyyətdə özünü siyasi partiya adlandıran təsisatların qarşısında duran əsas vəzifələrini: siyasi lider və xadimlərin yetişdirilərək siyasi arenaya çıxarılması; elektoratın ciddi dəstəyinə nail olunması, ümumxalq, ümumdövlət mənafeli məsələlərin müəyyənləşdirilməsi və həyata keçirilməsində cəmiyyətə və dövlətə yardımçı olmaq, cəmiyyətin nüfuzlu, siyasi-mədəni elitasının rəğbətini qazanmaq, beynəlxalq ictimai rəydə nüfuzlu siyasi qüvvə obrazını yaratmaq məsələlərinin heç birində irəliləyişə nail oluna bilməmişdir.

Müxalifət partiyalarının rəhbərləri, müasir fövqəlmürəkkəb siyasi reallığa həssas olmadığı üçün, onu qavramağa da hazır deyil. Dünyada gedən proseslərin, partiya liderlərinin maraqları kontekstində izahı, siyasi konyunktura və s. Qərb ölkələrinin bəsit "dost" və "düşmən" kimi qiymətləndirilməsi, əslində həmin ölkələrin xarici siyasətinin prioritet istiqamətlərini və real motivlərini başa düşmədən yanlış ümid bəsləmək və proqnozlar vermək kimi məntiqi sonluğa gətirib çıxarır.

Politoloqların qənaətinə görə, hazırda postsovet məkanında çoxpartiyalılığın dinamikasında müşahidə olunan meyillər, Qərb ölkələrində, XX əsrin 50-ci illərinin əvvəlində müşahidə olunmuşdur. Bəhs edilən dövrdə siyasi partiyaların ideologiyasında ifrat sağçılıq və solçuluq mövqelərin öz yerini tədricən dəyişən obyektiv, siyasi-iqtisadi reallığa adekvat olan yeni mövqeyi ilə əvəzlənməsi prosesi

baş vermişdir. Müzakirə və münasibətlərdə radikal qarşıdurma stereotiplərinin sıxışdırılması, arxa plana keçməsi baş vermişdir. İdeoloji qarşıdurma öz yerini real siyasi praqmatika və stabil demokratiyaya güzəştə gedir. Bu yeniliyi duya bilməyən partiyalar isə siyasi arenadan yox olurlar.

Yeni cəmiyyətin formalaşmasında, demokratiyanın institutsionallaşması, konsolidasiyası və stabil inkişafa istiqamətlənməsi kimi fazalar fərqləndirilir. Bu mərhələlərin hər birində siyasi partiyaların məqsəd, maraq və strategiyaları fərqli olur. Bunları duymadan mövcud olan partiya həm özünün, həm də cəmiyyətin bütövlükdə inkişafında əngələ çevrilir.

Qərb demokratiyası ilə müqayisədə yeni təşkilatlanmış demokratiyanın davamlı və dayanıqlı olması, cəmiyyətdə konsolidasiya kimi uzun müddətli mərhələdən keçir. Azərbaycan hazırda bu mərhələni yaşayır. Demokratiyanın stabilliyinin ən mühüm şərtlərindən biri də siyasi elita sisteminin legitimliyi və onun xalqla birliyinin təmin olunmasıdır. ABŞ-lı politoloq, alim K.Hayt "Elita və demokratik konsolidasiya" kitabında yazır: "Əgər dövlət mövcud siyasi kursun ən yaxşı olması inamını xalqda yarada bilmişdirsə, legitim status qazanır, iqtidar uğuru təmin edən siyasi kursu davam etdirir, cəmiyyət də bu siyasəti məqsədəuyğun hesab edir və dəstəkləyir. Təcrübə göstərir ki, siyasi elitanın konsolidasiyası, hakimiyyətin güclü partiyaya konstitusion ötürülməsi ənənəsini təmin etməyə, sabitliyi pozan bütün qüvvələrin qarşısını almağa və deməli uzun müddət siyasi müxalifət partiyalarına heç bir şans yeri qoymamağa qabildir".

Siyasi partiyaların uğur və perspektivləri yalnız liderlərin ambisiyaları ilə müəyyən edilə bilməz. Bu əsasən daxili və xarici amillərin əlaqəli şəkildə müəyyənləşdirdiyi



"siyasi imkan və siyasi gerçəklik" faktorundan daha çox asılıdır. Bu gün həmin faktorların düzgün elmi təhlili göstərir ki, Azərbaycanda siyasi müxalifət partiyalarının mövqeyi heç bir real əsasa malik deyil.

Məsələ yalnız onda deyildir ki, Azərbaycanda yetkin Siyasi Partiya Sisteminin formalaşması üçün tarixən tələb olunan zaman hələ başa çatmamışdır. Məsələ həm də, demokratiyanın inkişaf mərhələləri və siyasi elitanın xalqla konsolidasiyası adlanan amilin nəzərə alınmaması və yanlış siyasi platformaların müəyyənləşdirilməsi və son nəticədə növbəti dəfə məğlubiyyətə uğramaqdan gedir. Əslində, Azərbaycan xalqının da, onun intellektual, ziyalı potensialının da böyük əksəriyyətinin hakim partiyanın siyasi strategiya və perspektivlərinə real dəstək verməsi, onun sıralarında olması da bugünkü nəticələrə bilavasitə təsirini göstərir.

Ümummilli liderimiz Heydər Əliyevin başçılığı ilə Azərbaycanda demokratiyanın təşkilatlanmasını, konsolidasiyasının və stabil inkişafa yönəldilməsini, qalibiyyət kursunun ardıcıl yeridilməsini təmin edən Siyasi Partiyanı – Yeni Azərbaycan Partiyasını gerçək rəqib ola biləcək qüvvə yaxın gələcəkdə siyasi arenada görünmür. Heydər Əliyevin başçılığı ilə yaranan partiya, mövcud olduğu illərdə, bu günümüzdə də, cəmiyyətin bütün təbəqələrinin, parlamentin, KİV-lərin, siyasi partiyaların, iş adamlarının, dünya azərbaycanlılarının, beynəlxalq siyasətin liderləri sayılan şəxsiyyətlərin rəğbətini qazanmış və bu gün də etiraf edilməkdədir. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan labüd, siyasi və iqtisadi, demokratik stabil inkişaf mərhələsinə qədəm qoyması qarşıda duran problemlərin həlli üçün əminlik yaradır. Müstəqil dövlətin və demokratiyanın möhkəmləndirilməsi prosesini, qloballaşma, beynəlxalq terro-

rizmin çox sıx çulğaşdığı aqressiv separatizm, ən müxtəlif ölkələrin maraqlarının toqquşması kimi real təhlükəli meyillərin mövcudluğundan irəli gələn problemləri də hər bir Siyasi Partiya görməyə borcludur.

Dünyada baş verən proseslərə milli eqoizm və özünütəcrid mövqeyindən deyil, ardıcıl özünütəsdiq xəttini yeritmək mövqeyində durmaqla münasibət bildirmək, bu gün müxalifət partiyalarının imkanları xaricindədir. Müasir fövqəlmürəkkəb reallıqda dövlətimizin ardıcıl təkamül mərhələsini keçməsinə alternativ yoxdur. "İnqilab ixracı" kimi siyasi romantizm xülyasına uymağın bəzi qüvvələr üçün nə qədər əlverişli olmasından asılı olmayaraq, "inqilab" havasına oynamağın vaxtı keçmişdir.

Demokratiya və təkamül anlayışları ayrılmazdır. "Amerikada demokratiya" əsərinin müəllifi A.Tokvilə görə "inqilab-maariflənmiş xalqların baş qoşmadığı avantüradır". Ukraynada "inqilabın" ildönümü haqda sorğularda əhalinin böyük əksəriyyəti onun əleyhinə olduğu, 27%-ni isə "çox pis" qiymət verdiyi mətbuatda əksini tapmışdır.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev, "rəngli inqilab"ların "siyasi alver, siyasi import və eksport" predmeti kimi başa düşənlərin dərin illüziyaya qapıldığını siyasi fəhm və uzaqgörənliklə qeyd etdi. Bu qəbildən olan hadisələrin hər bir ölkənin konkret siyasi durumu ilə əlaqəli olduğunu diqqətə çəkərək bir daha bəyan etdi: siyasi proseslərin idarə olunması və qiymətləndirilməsində yeganə düzgün meyar, məkirli "siyasi texnologiya alveri" deyil, düşünülmüş müdrik siyasi kursdur, Azərbaycan xalqı və Azərbaycan iqtidarı bu kursa sadiqdir və əmindir.

Bu gün inqilabın aktual olduğu bir sahə vardırsa, bu da



müxalifət partiyaları liderlərinin "şüurunda inqilab", dünyagörüşündə, siyasi platformasında ehtiyac duyulan inqilabdır. Siyasi gerçəkliyə münasibətdə "şüurda inqilab" səviyyəsinə çata bilən həmkarlarını "xəyanətkar, satqın" adlandırmaq çıxış yolu deyildir. Dövlətin maraq və mənafeyinin tələb etdiyi məsələlərdə, xalqla hakim partiyanın nail olduğu milli birlik kimi əvəzsiz dəyərin etiraf edilməsi, cəmiyyətimizdə milli ləyaqət və sahiblik hissinin möhkəmlənməsi işinə xidmət etmək, dözümsüzlük və qarşıdurma mövqeyindən əl çəkməklə, normal müxalifət səviyyəsində təşkilatlanmağı bacarmaq – bu da inqilabdır. Azərbaycanın gələcəyi, Qərbə inteqrasiyası, beynəlxalq arenada ən böyük problemimiz – Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə mövcud olan ikili standartlara xalqımızın tutarlı cavabı Siyasi partiyaların bu cür dövlətçilik mövqeyindən çıxış etməsinə sosial sifariş vermişdir. Əksinə, ölkədə siyasi sabitliyi pozmağa cəhd etməklə, eyni siyasi-iqtisadi və s. "böhran" görüntüsü yaratmaqla bununla nəyəsə nail olmaq, hakimiyyətə zorla gəlmək istəklərinə həm beynəlxalq vəziyyət, həm də xalqın və dövlətin birliyi heç bir ümid yeri qoymur. Ümumilli lider Heydər Əliyevin dediyi kimi "Ağıl olan yerdə zora ehtiyac yoxdur".

Siyasi Partiyaların dinamikası göstərir ki, hər dəfə, növbəti məğlubiyyətdən sonra, müxalifət partiyaları məntiqi nəticə kimi təşkilati, sosial baza və s. sahələrdə "kollaps" effektini yaşayır, köhnə şüar və şüurdan azad ola bilməyən partiyanın tarixi missiyası sona çatır.

Dövlət başçısının həyata keçirdiyi ardıcıl siyasi kurs və konkret tədbirlər, müxalifətin əsil təşəbbüsdən deyil, populist şüarlardan çıxış etməsi, onları ictimai rəyin diqqətini cəlb etmək üçün hər bir əsasdan məhrum edir. Azərbaycanda

Prezident Respublikası cəmiyyət, hakimiyyət və siyasi partiyalar arasında, konstitusiya və hüquq əsasında, ictimai, siyasi münasibətləri ahəngə gətirən stabil, effektiv sistem kimi demokratiyanın və milli dövlətçiliyin ardıcıl möhkəmləndirilməsini təmin edir.

Yarandıqları on ildən çox bir müddətdə ardıcıl olaraq siyasi potensialının tükənməsi istiqamətində gedən, hər dəfə yeni məğlubiyyətlərlə üzləşən, müxalifət düşərgəsini təmsil edən siyasi partiyaların xüsusilə son dövrlərdə fəaliyyəti məhz bu aspektdə real elmi təhlilini almalıdır. Bu da öz növbəsində, ölkəmizdə sağlam demokratik müxalifət və partiya sisteminin formalaşmasına mane olan səbəbləri aşkar etməyə imkan verə bilər. Bir faktı da xüsusilə vurğulamaq yerinə düşər ki, özünü siyasi partiya hesab edən müxalifət nümayəndələri, xüsusilə də liderlər, Qərb modelinə, Qərb-Avropa demokratik proseslərinə yaxşı bələd olduqlarını nümayiş etdirmək üçün bəzi məsələlərə dair bol-bol sitat gətirirlər. Siyasi fəaliyyətsizliklərinə haqq qazandırmaq üçün müxtəlif "inqilab ixracı" mövzularını gündəmə gətirirlər. Təşəbbüskarlıqdan, sosial dayaqlardan məhrum olduqlarını bu və ya digər vasitələrlə ört-basdır etməyə cəhd edirlər.

Lakin hələlik bu partiyaların heç biri, Qərb modelli çoxpartiyalı sistemin formalaşma dinamikasından, onların pərakəndə, dağınıq, kəmiyyət göstəricilərinə deyil, hakimiyyətin legitim yolla dəyişdirilməsini təmin edən sistemli keyfiyyət göstəricilərinə necə nail olması xüsusiyyətlərinin geniş müzakirə mövzusu və təhlil obyekti seçilməsini arzulamır. Çünki belə olduqda, müasir müxalifət siyasi partiyalarının dərin böhran dövrünü yaşaması, siyasi fəaliyyətin subyektləri kimi tənəzzül və iflasa uğrama prosesinin son dövrdə daha da sürətlə



getdiyini və ən başlıcası da bütün bunların Azərbaycanda normal partiya sisteminin təşəkkülünü gecikdirən əsas səbəblərdən olduğu aşkara çıxacaqdır.

Qərbdə çoxpartiyalılıq əsrlərlə formalaşmış və özünün yüksək inkişaf etmiş, sistemli təşkilatlanma səviyyəsinə də məhz Qərb-Avropa ölkələrində çata bilmişdir. Cəmiyyətin və sivilizasiyanın ümumi tərəqqisini manea və sarsıntılar olmadan inkişaf etdirmək, ən müxtəlif insan qruplarının fərqli maraqlarını ifadə və təmin etmək, vətəndaşların özlərini siyasi həyatda reallaşdırması mexanizmi kimi tarixi zərurətlər çoxpartiyalılığın bu gün də əməli siyasi fenomen kimi mövcudluğunu mühüm şərt kimi irəli sürür. Müasir dövrdə də müxtəlif partiyaların siyasi arenadan getməsi, başqalarının formalaşma prosesi gedir və siyasi həyat durduqca – gələcəkdə də davam edəcəkdir.

Məhz bu baxımdan çoxpartiyalılıqdan söhbət gedərkən, vurğunun "çoxluq" anlayışı, yaxud kəmiyyət aspekti üzərində olduğuna, yaxud da əksinə daha az saylı (iki-üç partiya) üzərində qalmasına israr etmək qeyri-real mövqedir. Məsələn, məlumdur ki, konkret tarixi dövrün şərait və tələblərinə uyğun olaraq ABŞ-da da təkpartiyalı sistem mövcud olmuşdur. Yaxud, Türkiyə Cümhuriyyətinin banisi M.K.Atatürkün yaratdığı partiya 20 ilə yaxın siyasi arenada rəqibsiz mövcud olduğuna baxmayaraq, avtoritarlıqdan mahiyyətcə çox uzaq olmuşdur. Yaxud, müstəqillik ərəfəsində Kommunist Partiyası və Xalq Cəbhəsi kimi iki siyasi güc mərkəzi mövcud idisə də, bunlar ikipartiyalı sistem modelindən çox uzaq idi.

Dünya siyasi təcrübəsində "bir yarım partiya (1,5)" sisteminin mövcudluğu da real tarixə malikdir. Bir yarım partiya sistemi – bir iri partiya və daim azlıqda qalan digər parti-

yaların mövcud olduğu vəziyyəti ifadə edir. Bu kiminsə istəyindən asılı olmayıb, siyasi proseslərin təbii axarı ilə şərtlənmiş durumdur, 1950-1980-ci illərdə, üç onillik müddətində Yaponiyada və Almaniyada məhz 1,5 (bir yarım) partiya sistemi mövcud olmuşdur. (Həmçinin bu gün Rusiyada bu sistemin formalaşmasına istiqamətlənmiş bəzi qanun layihələri qəbul edilmişdir). Bütün bunlar Azərbaycanda da partiya sisteminin formalaşmasında kəmiyyət və keyfiyyət aspektlərinin ahəngdar balansı məsələsinə diqqəti yönəltməyi şərtləndirir.

Azərbaycan da bu gün çoxpartiyalı, hətta "həddən çox" partiyalı ölkələr sırasına aid edilə bilər. Lakin bu məsələnin bir tərəfidir. Digər tərəf – həmin partiyaların, sistemli dinamikanın inkişaf tələblərinə müvafiq olaraq, siyasi həyatda və proseslərdə real fəaliyyət proqramına əsaslanıb-əsaslanmadıqlarının aşkar edilməsidir. Demokratik inkişafın, başqa ölkələrlə müqayisədə zaman baxımından az da olsa keçilmiş yoluna nəzər salınarsa bir çox müddəaları ortaya qoymaq olar.

Siyasi partiyalar mövcud iqtidara qarşı müxalifət təşkil etmək və hakimiyyətə gəlmək məqsədi daşıyır. Siyasi partiyalar, təşəkkülünün təbii-obyektiv istiqaməti "aşağıdan yuxarıya", yəni geniş insan birliklərinin sosial maraq və sifarişinə həmahəng olaraq təsis olunan təşkilatlardır. Sovetlərin çökməsi zamanı Xalq Cəbhəsi ictimai hərəkat kimi məhz belə təməllərdən formalaşmışdı.

Lakin onun partiyalara parçalanması gedişində, tamamilə əks istiqamətə yön aldığı məlum oldu. Liderlik iddiasında olanlar hər biri, kiçik də olsa, təkbaşına rəhbərlik etdiyi partiyanı yaratmağı üstün hesab etdi. Bu da bütövlükdə nüfuzlu siyasi güc mərkəzi olan hərəkatın potensial və təsirinin kiçildilməsi və cılızlaşmasına səbəb olmaya bilməzdi. Demokratik



dövlətçiliyin atributlarından biri olan çoxpartiyalılığın belə cılızlaşmış "miniatür" qruplara çevrilməsi, şübhəsiz ki, partiya sisteminin səmərəsizliyini şərtləndirməklə yanaşı, özünü lider hesab edənlərin siyasi populizmə uymalarını labüd edir.

Son on il ərzində müxalifətin ardıcıl məğlubiyyətləri, onu, bütün cəmiyyətlərə xas olan təbii-obyektiv problem və çətinlikləri qəsdən şişirtmək, onları məhz iqtidar partiyasının üzərinə yönəltmək, burada xalqımızın ən böyük problemi olan Dağlıq Qarabağ münaqişəsinin mürəkkəb həllində yalnız hakimiyyəti ittiham etmək kimi populist siyasətbazlığa vadar etmişdir.

Müasir dünyada siyasi partiyalaşma yeni dünyagörüş və yeni fəlsəfi prinsiplərə əsaslanaraq inkişaf edir. Bu yeni prinsiplərdən ən mühümü "qarşıdurma və qütbləşmə" vərdişindən inkar edilməsi, dialoqa və siyasi polemikaya açıq olmaqdır. Bu gün hətta adi gözlə müşahidə edilsə, qarşıdurma və radikalçılıq psixologiyasının nəinki azalması, əksinə onun müxalifətin yeganə fəaliyyət prinsipinə çevrilməsinin şahidi oluruq.

Hazırda, ədəbiyyatdan məlum olduğu kimi bütün dünyada 900-ə yaxın siyasi partiya mövcuddur. Dünyanın siyasi təcrübə tarixi göstərir ki, çoxpartiyalılığın təkmilləşməsinin ən mühüm göstəricisi, bu partiyaların müəyyən partiya sistemi modelində (və ya tipində) yüksək təşkilatlanma səviyyəsinə nail olmalarıdır.

Burada kəmiyyət aspekti, növbəti keyfiyyət müstəvisini doğura bilirsə, partiya sistemi modeli yaranır. ABŞ-da 67 siyasi partiyanın dövlət qeydiyyatından keçməsinə baxmayaraq, bu ölkədə ikipartiyalı sistem mövcuddur. Dünya təcrübəsinə, eləcə də Avropa ölkələrinin siyasi məkanına nəzər salsaq görərik ki, buradakı siyasi qüvvələr iki və ya üç siyasi

cərəyan və partiyanın sintezi-sistemi kimi fəaliyyət göstərir. Burada cəmiyyətin sabitliyi və əsrlərlə formalaşmış dövlətçiliyin qorunması, mühafizəsi o dərəcədə prioritet məsələ hesab edilir ki, siyasi partiya modellərinin qarşılıqlı əməkdaşlığı ilk növbədə bu məsələlərin təmin olunmasını vacib sayır. Güclü siyasi qüvvə təşkil etmək üçün çoxsaylı partiyaların üç-dörd sivil, demokratik yönümlü siyasi təşkilatda cəmlənməsi, birlik və bloklar, koalisiyalar yaratmaqla ümumi sistemə transformasiyası, yeni siyasi mühitin tələblərindən biridir.

Aydın məsələdir ki, çoxpartiyalı sistemin təşəkkülü hələ qohum və dostlardan siyasi təşkilat yaranması demək deyil.

Avropadan misal gətirmək istəsək, burada İsveç partiya sistemi modeli politoloji ədəbiyyatda misal çəkilir. İsveç partiya sistemi – siyasi sistemin sabitliyinə nümunə hesab edilir. XX əsrin əvvəllərindən sonunadək (bu günümüzə qədər) burada 5 partiya iki siyasi blokda təmsil olunaraq, siyasi proseslərin demokratik, legitim gedişatını təmin edir. Çoxpartiyalı sistemin formalaşdığı (Qərb-Avropa) ölkələrindən belə misallar kifayət qədərdir və səciyyəvi haldır.

Azərbaycanda həm demokratik inkişaf yoluna transformasiya prosesinin, həm də çoxpartiyalılığın təşəkkülü tarixi bununla müqayisədə çox azdır. Lakin, məhz bu cəhət, Qərb ölkələrinin bu sahədə əldə etdiyi tarixi və elmi təcrübənin ətraflı və ciddi təhlili üçün çox vacibdir.

Azərbaycanda bu gün 100-ə yaxın siyasi partiya mövcuddur və onların yarısı qeydiyyatdan keçmişdir. Müxalifət partiyalarının öz aralarında münasibət qura bilməməsi, sivil inteqrasiya prinsiplərindən uzaq düşməsi kimi subyektiv oriyentasiyalı, möhkəm sosial dayaq və dəstəklərdən məhrum olan qurumlara çevrilməsi və s. kimi obyektiv səbəblərdən bu



düşərgədə, nəinki orqanik təşkilatlanma yönündə gedən "sistem" xarakterli, əksinə getdikcə parçalanma, fraqmentasiya məzmunlu "antisistem" xarakterli proseslərin gedişini sürətləndirmişdir.

Müxalifət sıralarında, zamanın tələbinə uyğun, stereotiplərdən azad olmağı bacaran, yeni məzmun və mahiyyətə malik siyasi fəaliyyətə keçməyin zəruriliyini dərk edən qüvvələr olmamış deyildir. Son hadisələr bunu bir daha aşkar göstərdi. Azərbaycanda partiya sisteminin təkamülü prosesinə, bu qüvvələrin mövqe və rolunun zamanında aydınlaşması da öz təsirini göstərəcəkdir.

Bu gün dünyada siyasi proses və siyasi həyata dair mövcud olan təsəvvürlər, ənənəvi baxışlardan köklü surətdə fərqlənir. Bu kiminsə istəyindən deyil, qlobal siyasi aləmdə gedən proseslərdən irəli gəlir. Xüsusilə də siyasi fəaliyyətə iddialı olan hər bir şəxs bilməlidir ki, XXI əsrin əvvəllərinin siyasi şəraiti, XX əsrin ortalarının, hətta sonlarının şəraiti ilə eyni deyildir. Bu fikri birmənalı qəbul etməmək özü, bir çox yanlışlıqların başlanğıcı deməkdir.

Demokratik cəmiyyət quruculuğu və partiyalaşma prosesi bu gün, tarixin əvvəlki dönəmlərindən daha çox, hər hansı bir ölkənin şəxsi işi deyil, dünya birliyinin ümumi məramı və qayğısı dairəsindədir. Bu kontekstdə çoxpartiyalılıq, onun dinamikası qanunauyğunluqları da beynəlxalq təşkilatların və qurumların çevik reaksiyası dairəsində olmalıdır. Belə olduqda, özlərini sözdə "siyasi partiya" adlandıran, real vəziyyətdə isə başqa durumda olan təşkilatlar, addımbaşı "Qərbin nüfuzlu mənbələrindən isnad və sitatlar" gətirmək əvəzinə, bu ölkələrdə formalaşan siyasi partiya sistemlərinin təcrübəsini dərindən öyrənməyin vacibliyini anlamaq məcburiyyətində olardılar.

Demokratiya, xalqın siyasi təcrübə tarixi, siyasi şüur və mədəniyyəti və s. kimi amillərlə sıx çulğaşmış şəkildə inkişaf edir. Demokratiya yalnız özündən müştəbeh olan "liderlərin" rəqabəti, yalnız seçici uğrunda mübarizə olmayıb, həm də siyasi intellekt və mədəniyyət yarışıdır. "Hakimiyyət xatirinə hakimiyyət mübarizəsinə" qoşulmaq kimi prinsip müasir cəmiyyətdə sabitliyin və dövlətçiliyin əsasları üçün maneə yaradır. Siyasi partiya, təşəbbüs, bacarıq, intellektual potensial hesabına deyil, başqa üsullarla status-kvonu on illərlə saxlamağa can atırsa, bunun geci-tezi var.

Bu müddət ərzində müxalifət partiyaları "parçalanma və kəmiyyət" prinsipindən başqa hansı obyektiv dinamikanı nümayiş etdirə bilmişdir? Onun özünü yenilikçi adlandıran qanadlarından hansı radikal stereotiplərdən azad ola, "normal"lığa doğru addım ata bilmişdir? Cəmiyyətin müxtəlif təbəqələrinin enerjisini özündə cəmləyə bilmişdir? Sosial dayaqdan məhrum olduqca təsadüfi insanların cəlb edilməsinə göstərilən səylər isə son dövrdə olduğu kimi heç bir siyasi əxlaq və mənəvi dəyər ölçülərinə sığmayan hadisələrlə sonuclanmışdır.

Azərbaycanda müxalifət destruktiv radikalçılığı seçməklə quruculuğu deyil, qırıcılığı öz məqsədi elan etmiş və dövlət əleyhinə mövqe tutan siyasi qüvvəyə çevrilmişdir. Onu əsas səciyyələndirən xüsusiyyətlər isə sistemsizlik – demokratik cəmiyyət və hüquqi dövlət strukturuna sığmayan fəaliyyəti; pərakəndəlik vahid siyasi müxalifət məkanında mövcud ola bilməyərək dağınıq fəaliyyətə yönəlmək; dəyişiklik və yeniliklərin dinamikasına uyğunlaşa bilməmək; ictimaiyyətin maraqlarının daşıyıcısı ola bilməmək və s-dir.

Azərbaycan dövləti siyasi partiyalar haqqında qanunu, hələ partiyalaşmanın ilk dövründə (1992) qəbul etmişdir. Azərbaycan xalqı da, çoxpartiyalılığı demokratik cəmiyyətin atributlarından biri kimi təbii qəbul etmişdir. Pərakəndə çoxpartiyalılığın legitim reqlamentləşdirilməsi üçün dövlət qanunvericilik baxımından bütün şərtləri təmin edir və demokratiyanın prinsiplərinə uyğun olaraq başqa tədbirlər qeyri-məqbuldur. Lakin çoxpartiyalılığın permanent, səmərəsiz, dekorativ, qurum deyil, gerçək siyasi subyekt və fəaliyyət mexanizmi kimi mövcud olduğu partiya sistemi-modelinin formalaşması, dünya siyasi təcrübəsində mövcud olan, politoloji elmdə təsbit edilmiş müddəalar əsasında təbii-obyektiv prosesin gedişinin nəticəsi olmalıdır.

Burada ən çox maneə kimi çıxış edən müxalifət partiyaları, sistemli dinamikanın prinsiplərinə əməl etmək üçün təşəbbüs göstərməlidirlər. Əks təqdirdə siyasi partiya olmaq iddiasında olan qurumlar, ən müxtəlif marağa malik qüvvələrin hədəfinə çevrilə, ölkədə, regionda və bütövlükdə qlobal siyasi məkanda sabitlik və əmin-amanlıq üçün təhlükəyə çevrilə bilərlər.

İnkişaf etmiş, demokratik partiya sisteminə malik dövlətlərin təmsilçiləri, hər hansı bir fikir yürüdərkən, fikrimizcə, məhz bu kontekstdə politoloji maarifləndirmə fəaliyyətini önə çəkməlidirlər. Belə olarsa, müxalifət zamanında öz səhvlərini, siyasi təcrübəsizlikdən irəli gələn qüsurları vaxtında təhlil edə, həm də yerli-yersiz Qərb siyasətçilərinə "dayaqlanması" barədə şayiələri yaymağın gərəksizliyini başa düşə bilər. Siyasi partiyaların məqsədinin yalnız və yalnız, istənilən yolla hakimiyyətə gəlmək deyil, ilk növbədə dövlətçiliyin əsaslarını möhkəmləndirmək istiqamətində, siyasi idarəetmə strukturlarının ağrısız əvəzlənməsi, demokratik üsullarla təmin edilməsi, islahat və təkamül yolunun, bəşəriyyətin siyasi təcrübəsinin

sınağından çıxmış yol olduğunu görə bilər.

Azərbaycanda müxalifət hərəkatı, sovet imperiyasının çökməsi gedişində geniş ictimai hərəkatın etiraz dalğasında yaranmışdır. "Dövlət müstəqilliyi və ərazi bütövlüyü" çağırışları bu hərəkata milyonlarla insanları cəlb edə bilmişdi. Lakin məhz bu amallar - tarixi keçmiş və taleyimizin, Azərbaycana özəl bir missiya ünvanladığı, bu səbəbdən onun bizi istəyən və istəməyən bütün qüvvələrin diqqət mərkəzində olması, sabitlik və vəhdətin təmin edilməsi məqsədi tezliklə unuduldu. Müxalifət ictimai hərəkatdan, müxtəlif liderlərin ambisiyalarına xidmət edən cılız partiyalar qismində mövcudluğa yön aldı. Dövlət müstəqilliyi və ərazi bütövlüyü kimi ideallardan uzaqlaşdıqca, parçalanma və qarşıdurma yolunu seçən müxalifət xalqın dəstəyini hər gün itirməyə başladı.

Çünki ən böyük tarixi nailiyyətimiz olan dövlət müstəqilliyimizə təhlükə olan parçalanma qorxusu, xalqımızın, bu məsələyə çox həssaslıq və təəssübkeşliklə, narahatlıqla müşayiət olunan münasibətini formalaşdırmışdır və xalq, birləşə bilməyən, parçalanan, sistemli təşkilatlana bilməyən belə partiyaların cəhdlərinə də vaxtında cavab verir, ona dəstək olmur, onların çoxunun adını belə eşitmək istəmir. Elektoratı səfərbər etmək imkanından məhrum olan çoxlu partiyalar, iflasın ən kəskin mərhələsi ilə üz-üzə durmaq istəmirsə, dünyada mövcud olan partiyalaşmanın sistemli dinamikası xüsusiyyətlərinə bələd olmalı və əməl etməlidir. Ya dəyişməli, yeniləşməli, xalqın dəstəyini qazanmalı, ya da siyasi məğlubiyyəti etiraf edərək siyasi arenadan getməlidirlər.

Ümummilli liderimiz, Heydər Əliyev Yeni Azərbaycan Partiyasının 10 illiyinə həsr olunmuş yubiley mərasimində demişdir: "Mən düşünürəm ki, on il bundan qabaq Yeni Azər-



baycan Partiyasını yaradanlar Azərbaycanın aqibəti haqqında düşünüblər, millət, Vətən, xalq haqqında düşünüblər. Partiyanı siyasi uzunömürlülüyünü təmin edən əsas amil - xalqın dəstəyidir. Əgər xalqın dəstəyi olmasaydı, mən silahsız, heç nəsiz, Azərbaycanı parçalamaq istəyən qüvvələrin öhdəsindən gələ bilməzdim".

Demokratikləşmə prosesləri, cəmiyyətin bütün sahələrində, bütün səviyyələrdə ahəngdar inkişaf olmadan mümkün deyildir. Azərbaycanda çoxpartiyalı sistemin formalaşması da, bu qurumların, dövlətin və xalqın mənafeyinin gerçək daşıyıcısına çevrilməsi kimi pozitiv tendensiyaya yön almalıdır.

Azərbaycanın yaşadığı demokratik konsolidasiya mərhələsinin başlıca əlaməti, ilkin şərti – həm də milli konsolidasiya prosesidir. Azərbaycan xalqı hərc-mərcliyə və sabitsizliyə "yox" deyərək, bütün potensialını və diqqətini ən böyük problemimiz – Dağlıq Qarabağ probleminin həllinə cəmləmək əzmini ortaya qoymuşdur. Bu proseslər gedişində, şüarçılıq və populizmdən başqa heç bir konstuktiv fəaliyyət və nəticəyə nail ola bilməyən partiyalara inam və etibarın itməsi təbii, qanunauyğun haldır.

Bu yalnız Azərbaycan üçün səciyyəvi olmayıb politoloqların qənaətinə görə, dünya siyasi tarixinə xas olan bir meyildir. Səbəb də seçkidən-seçkiyə elektoratın marağının ardıcıl olaraq itirilməsidir. Siyasi partiyaların proqram kimi bəyan etdikləri müddəaların cəmiyyətlə daimi ünsiyyətə deyil, yalnız seçkiqabağı dövrə hesablanması, onların bir-birini təkrarlaması, cəmiyyətin marağını cəlb edə biləcək heç bir sosial-siyasi təşəbbüsün olmaması məğlubiyyətin başlanğıcıdır. Parlament seçkiləri ərəfəsində müxalifət partiyalarının "irəli sürdüyü" proqram, məsələlərin artıq Prezident İlham Əliyevin qəbul

etdiyi qərarlar, ardıcıl həyata keçirdiyi siyasi, sosial, iqtisadi və s. islahatlar proqramında nəzəri əksini tapması və praktiki olaraq reallaşdırılması bu partiyaları fakt qarşısında qoydu. Müxalifət partiyalarının ictimai etimadı itirməsi prosesini bu təşəbbüssüzlükdən başqa, həm də onun "daxildən" (səriştəsizlik, təşkilati-struktur münasibətlərində səbatsızlıq və s.) və "xaricdən" (cəmiyyətin real dəstəyinin və rəğbətinin azalması) zəifləməsi, cəmiyyət həyatında müsbət rola malik olmayan subyekt qismində mövcud olmağa düçar edir.

Qlobal, regional və lokal-milli siyasi maraqların sintezi beynəlxalq inteqrasiyanın gündəmə qoyduğu tələblərdən biridir. Bütün bunların fonunda, radikal qarşıdurma psixologiyasından azad olmayan, çoxpartiyalılığın effektiv, dinamik sistem kimi üstün sayılan, özünü doğruldan modelinin nəzəri-elmi əsaslarına biganəlik nümayiş etdirən, hakimiyyətə iddialı olan müxalifət partiyalarına, öz siyasi böhran və səhvlərini etiraf etmək üçün son parlament seçkiləri, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi "son tarixi şans", daha bir sınaq müddəti verdi. Siyasi fəaliyyətlərinin məzmun, məqsəd və mahiyyətində köklü dəyişikliklərə qadir olmamaları, bu partiyaların düzgün siyasi strategiya və perspektiv qura bilməmələri bir daha xalqa aydın oldu.

Bu hadisələr bir daha, bir mənalı şəkildə göstərdi ki, iqtidar partiyası, onun lideri İlham Əliyevin başçılığı ilə, dövlətimiz və xalqımız qarşısında duran miqyaslı problemlərin həlli üçün yeni perspektivləri müəyyənləşdirməklə, strateji prioritetləri, siyasi dinamizm və praqmatika əsasında həyata keçirməklə, tarixin Azərbaycana verdiyi hər bir şansın uğurla reallaşdırmaqla, Azərbaycanın daimi, ardıcıl yüksəlişinin qarantı kimi çıxış edir və edəcəkdir.



## § 10. Azərbaycan inkişafın yeni mərhələsində

*"Oktyabrın 15-də Azərbaycan xalqı seçki məntəqələrinə gələrək Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur".*

**İlham Əliyev**

Tarixin bütün dönəmlərində dövlətin idarə olunmasına, cəmiyyətdə insanlar arasında nizamın təmin edilməsinə, həm də bu proseslərin inkişaf və yüksəliş məramına xidmət etməsinə obyektiv zərurət mövcud olmuşdur. Hər bir ölkənin tarix salnaməsindəki şanlı səhifələr, zəfər və qələbələr onun qismətinə düşən dahi şəxsiyyətlərin, siyasi liderlərin əməli və fəaliyyəti ilə mütənasib olmuşdur. Yaxud başqa məqam, buna əks olan meyil baş verdikdə, fenomen şəxsiyyətlərin həyatdan getməsi təbii narahatlıq, nigaranlıq hisslərini doğurmuş, onların layiqli davamçılarının olmadığı təqdirdə hər hansı bir xalqın, millətin həyatında sonu görünməyən faciələrin başlanğıcı qoyulmuşdur.

2003-cü ildə Azərbaycan xalqı bütövlükdə həm toplumun və dövlətin taleyində kədər yükü və "Ayrılıq" sözünün ifadə etdiyi təsəvvüredilməz ağrı ilə, həm də real həqiqətlə üz-üzə qaldı. Məhz elə buna görə də hər bir Azərbaycan vətəndaşı hadisələrin gedişatına, zəka və əməl poten-

sialını səfərbər etməklə, ciddi götür-qoy etməklə qərarını verdi. Ulu öndərin yoxluğunu milli facia kimi qəbul etdiyi üçün öz inamını, sabahını, milli firavanlığın təminatçısı olacaq Heydər Əliyev kursunun davamçısına etibar etdi. 2003-cü il 15 oktyabr tarixində keçirilmiş prezident seçkilərində, tarixdə demək olar ki, ilk dəfə dövlətçilik ənənəsi və siyasətdə varislik prinsipinin qorunması ilə Azərbaycan tarixində zəfər salnaməsini təşkil edən bağların qırılmasına yol verilmədi.

Azərbaycan adlı binanın özülü üzərində möhtəşəm quruculuq işlərinin davamı mümkün oldu. Regionda toqquşan geosiyasi maraqların şiddətləndirdiyi küləklər müstəqillik məşəlini söndürə bilmədi.

Azərbaycan dövlətçiliyi tarix boyu məhz belə dönəmlərdə təhlükə ilə üz-üzə qalmış, zamanın irəli sürdüyü strateji çağırışlar və onlara vaxtında cavab verə bilmək tələbini reallaşdırmağa mane olan qüvvələr öz istəklərinə nail olmuşlar. Dövlətçiliyimizə qarşı yönələn qüvvələrin üstün gəlməsini müxtəlif dövrlərdə müxtəlif amillər şərtləndirmişdir. Onların içərisində ən başlıcası əlbəttə ki, qüdrətli siyasi lider, rəhbər amili, daha doğrusu bu amilin yoxluğu olmuşdur.

2003-cü ilin 15 oktyabr seçkilərində Azərbaycanda xalqın iradəsinə arxalanan, siyasətini milli maraqlar üzərində quran, real nüfuza və gücə malik, dünyada cərəyan edən prosesləri diqqət mərkəzində saxlayan, müstəqil Azərbaycanın Heydər Əliyev tərəfindən müəyyən edilmiş fundamental inkişaf strategiyasını rəhbər tutan İlham Əliyevin prezident seçilməsi ilə tariximizdə yeni mərhələnin başlanğıcı qoyuldu. Dövlətçiliyimizin inkişafında tarixi və strateji irsin davamlı məcraya yön alması, inkişaf pillələrini əlaqələndirən həlqələrin, bağların qırılması deyil, təcrübə və ənənənin varislik və yenilik



aspektləri ilə zənginləşməsi prosesinə təkan verildi. Azərbaycan dövləti müstəqil inkişafın növbəti strateji manevrlər mərhələsinə yön aldı.

Keçən dövr ərzində, Azərbaycanda total xaosa son qoyuldu, siyasi sabitliyin və demokratik quruculuğun təməl institutları və işlək mexanizmləri yarandı. Siyasi və iqtisadi nizamlama tədbirləri bir-birini tamamlayaraq öz real nəticələrini verdi. Bərpa, özünü təsdiq və möhtəşəm quruculuq işləri, müasir müstəqil dövlət üçün səciyyəvi olan və Azərbaycanın spesifikasına yönümlü təşkilatlanma prosesləri yüksələn xəttlə davam etdi.

2003-cü ildən, bərpa prosesi ilə yanaşı, irəliləyişə, Azərbaycanla dünyanın inkişaf etmiş ölkələri arasındakı fərqin azaldılmasına imkan verən siyasi, sosial-iqtisadi və s. mexanizmlərin hərəkətə gətirilməsini təmin edən strategiya və taktika müstəvisinə keçilir.

Beynəlxalq dünya məkanı aspektində politoloq-alimlər, analitiklər, nüfuzlu siyasətçilər, bəhs edilən dövrdə "üçüncü qisim problemlər" adlanan yeni problemlərin bütün dünya ölkələri qarşısında durduğu barədə yekdil fikrə gəlmişlər. Nə üçün " üçüncü qisim (növ) problemlər" adlandırılır?

Məsələ burasındadır ki, dünyada baş verən qlobal dəyişikliklər nəticəsində qarşıya çıxan problemlər, tarixi miqyası və mürəkkəbliyi baxımından, bütövlükdə bütün ölkələr üçün yeni və "orijinal"dır. Bəşəriyyət yeni eranın başlanğıcında durur. Dünya birliyinin üzləşdiyi yeni reallığa, hansı yeni siyasi fəaliyyət, münasibət və modellərlə cavab verə bilər? sualı hər bir dövlət qarşısında durur. "Transformasiyaya uğrayan qlobal dünya məkanında, transformasiya dövrünü yaşayan müxtəlif lokal dövlətlər" (yəni ikiqat bifurkasiya vəziyyəti) mövcuddur.

"Üçüncü qisim problemləri" məhz bu paradoksal şərait yaradır və buna görə də bu problemlərin həlli üçün pozitiv (birmənalı) beynəlxalq, (xarici) təcrübə yoxdur. Fərq orasındadır ki, bu vaxta qədər başqa ölkələrin təcrübəsini nəzərə almaq olurdusa, hazırkı mərhələdə problemlərin həlli üçün bu mümkün deyil və kifayət deyil. Çünki hər bir ölkə özünün orijinal, siyasi-iqtisadi spesifikasını nəzərə alaraq irəliləyə, inkişaf edə bilir. Dövlətin inkişafı özünəməxsus siyasi kursun yeridilməsindən bilavasitə asılı olur.

Bu mərhələnin 3 əsas xüsusiyyəti var. (dünya elmində qəbul edilmiş): 1) cəmiyyətin inkişafına çox həssas münasibət və diqqət tələb edən infrastruktur və mexanizmlərin yaradılması, "insan rifahı"nın meyar hesab edilməsi; 2) hakimiyyətin inzibati resurslarının artırılması və təşkmilləşdirilməsi; 3) bu proseslərin həyata keçirilməsi zamanı mütləq konkret ölkənin spesifikasının nəzərə alınması;

"Üçüncü qisim problemlər"də "insanlar rifahı"nın prioritet əhəmiyyət kəsb etməsi diqqəti xüsusilə cəlb edir. Belə ki, dünyanın əsasən inkişaf etmiş ölkələri bu problemləri prioritet məsələlər sırasına daxil etmək iqtidarında ola bilir.

Bu məsələlərdən bəhs etməyi ona görə vacib sayırıq ki, ölkəmizin daxilində və xaricində bəzi qüvvələr hər hansı "mütləq model, inkişaf yolu və etalon"lar barədə lüzumsuz müzakirələr açır, dünyadakı real vəziyyətə biganəlik göstərirlər. Bir-iki misal çəkmək istəyirəm. Məsələ burasındadır ki, dünyada Avropa da, Qərb də bəhs olunan miqyaslı problemlər və seçimlər qarşısındadır. Məs: Avropanın özündə inkişaf yoluna dair liberalizm, konservatizm və s. mövqelərin münasibətləri ziddiyyətlidir. Fransa və Niderlandın Avropa Konstitusiyası əleyhinə səs verməsi göstərir ki, hər hansı bir mütləq



"Avropa modeli", "Vahid Avropa siyasəti" və s. anlayışların məzmunu hələlik qeyri-müəyyən, inkişaf prosesindədir.

Digər misal: Azərbaycan istər Avropa üçün, istərsə bütün dünya üçün demokratik insan azadlıqlarının prioritet olduğunu yalnız nəzərə almaqla kifayətlənmir, real siyasətdə bunu nümayiş etdirir. Lakin, bu aspektdə Avropanın tövsiyələri və ya tənqidi də konstruktiv xarakter daşımalıdır. İdeal vəziyyət heç yerdə yoxdur, natamamlıq, islahata ehtiyaclar isə hər zaman və hər yerdə vardır. Məs: paradoksal bir hal mövcuddur. ABŞ-da son prezident seçkiləri gedişində "gözlənilmədən" məlum olur ki, bu ölkənin bəzi ştatlarının qanunvericiliyi ümumiyyətlə müşahidəçilərin iştirakını qadağan edir və bu məhdudiyyətlər həmçinin Böyük Britaniyada da mövcuddur.

Göründüyü kimi, düşünmək üçün burada ciddi əsas var. Analitiklər belə hesab edir ki, MDB məkanında, o cümlədən Azərbaycanda demokratik seçki proseslərinin vahid obyektiv meyar və standartları mövcuddur və ATƏT özü də bu sahədə təcrübə mübadiləsindən faydalana bilər.

Bütün bunlar göstərir ki, Qərb ölkələrinin əsrlərlə qət etdiyi yolu, çox qısa müddətdə keçməli olan Azərbaycan da nəinki suverenliyini möhkəmləndirir, parlamentarizm ənənəsini yaradır, hətta bəzi sahələrdə dünya standartlarını da önləyə bilir.

2003-cü ildən üzü bəri Azərbaycanda inkişafın yeni istiqamətlərinin yalnız indiyə deyil, gələcəyə yönümlü strateji oriyentirlərin müəyyənləşdirilməsi, Azərbaycanın xarici siyasətinin, dövlətin mənafeyi və cəmiyyətin rifahının təmin edilməsi işinə xidmət etməsinin real nəticələri özünü göstərməkdədir. Tarix dəfələrlə sübut etmişdir ki, hər bir dövlətin uğurlarının

artması ilə bahəm, siyasi liderin dövlət başçısının rolu və məsuliyyəti də dəfələrlə artır. O da məlumdur ki, böyük şəxsiyyətlərin adının tarixdə qalmasının əsas səbəbi onların apardığı müharibələr yox, müstəqil dövlətin yaradılması, apardığı quruculuq və islahatlar olmuşdur.

2003-cü ildən Azərbaycan yeni yüksəliş, irəliləyiş pilləsinə qədəm qoymuş, siyasi müstəqilliyin, iqtisadi, mənəvi-mədəni müstəqilliklə təmin edilməsini geniş vüsətlə davam etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti, ümummilli liderin siyasi kursunu davamçısı İlham Əliyev öz fəaliyyəti ilə hər dəfə sübut edir ki, qarşıda duran miqyaslı problemlərin həlli üçün, mövcud stereotipləri dəf edə bilən, yeni perspektivləri duymağı bacaran siyasi iradəyə malikdir. Qarşıdakı vəzifələrin ənənəvi olduğu qədər də, yeni orijinal siyasi fəhm tələb etdiyini, sabitsizlik və "rəngli inqilab"ların siyasi import və eksport predmeti kimi başa düşənlərin dərindən yanıldığını göstərən, Prezident İlham Əliyev, bunların təhlükəli illüziya olduğunu dəfələrlə bəyan etdi. Baş verən proseslərin kökü və səbəbinin – hər bir konkret ölkədən asılı olduğunu uzaqgörənliklə söylədi və bir daha göstərdi: proseslərin qiymətləndirilməsində yeganə düzgün mövqe, əsas vasitə məkirli "siyasi texnologiya"lar, siyasi alver (inqilab, import və s.) deyil, düşünülmüş müdrik siyasi kursdur. Azərbaycan öz daxilində gedən proseslərdə nə qədər əmindirsə, dünya miqyasında da o qədər nüfuzlu, siyasi sabitliyin olduğu ölkə kimi, başqa ölkələrin marağının yönəldiyi məkandır.

Qədəm qoyduğumuz hər bir il, "Müstəqilliyimizin dönməz, əbədi, sarsılmaz" olması üçün tarixin verdiyi şansın uğurla reallaşdırılması, Azərbaycan tarixinin yeni şərəf salnaməsinin yazıldığı ildir.



Xalqın etimadını qazanmaq, bu etimadı doğrultmaq və dünya birliyi ölkələrinin birmənalı dəstəyinə nail olmaq, siyasi perspektivdə ölkənin əsas inkişaf prioritetlərinin aydın müəyyənləşdirilməsi, iqtisadiyyatda investisiya və sahibkarlıq fəallığının dəstəklənməsi və s. Azərbaycanın daimi, ardıcıl yüksəlişinin təmin ediləcəyini birmənalı göstərir.

2003-ci ilin prezident seçkiləri Azərbaycan cəmiyyətinin yaddaşında, özünün hədsiz dinamizmi, iştirakçılarının görünməmiş sayı, bərabər hüquq və imkanları, açıq siyasi rəqabət ab-havası ilə, hətta adi şüur səviyyəsində son dərəcə fərqli bir hadisə kimi yadda qalmışdır. Seçkilərəqədərki, seçkilərin gedişində və sonrakı hadisələrdə, nəticələrdə məlum və aşkar müstəviyə keçdi.

Bəlkə də adi şüur üçün, parlament seçkilərinə dair bu təsəvvürlər, yekun və rəylər kifayətdir. Lakin parlament seçkilərinin nəticələrinin yalnız görünən hadisələrlə, bəsit, səthi aspekt və nəticələrlə əlaqələndirmək kifayət və məqbul deyildir.

Prezident seçkilərinin nəticələrini az da olsa keçmiş olan zaman məsafəsindən, ciddi elmi-nəzəri, əhatəli təhlili, ümumiləşdirilməsi və gələcək proqnozlarının verilməsinə həsr olunmuş bu silsilə yazılarla tanış olduqda ilk olaraq bizə aydın olan bir fikirlə bölüşmək istərdim. Azərbaycanda keçirilmiş 2003-cü ilin prezident seçkilərinin əhəmiyyəti, bəzi insanların təsəvvüründə yeganə aspekt kimi özünə yer alan siyasi hüdud və çərçivələri çox-çox aşaraq, milli dövlətçiliyimizin bugünkü inkişafı və mənafeyi, Azərbaycanın dünya məkanına nüfuzu və təsirini bir daha möhkəmləndiyini, demokratik dəyərlərin

məmləkətimizdə real təcəssümünə doğru atılan növbəti, çox gərəkli və həlledici bir addım olmasını dərk etmək üçün məhz bu məzmunlu təhlilə cəmiyyətimizin böyük ehtiyacı vardır. Son on üç il ərzində, dövlətçiliyimizin nail olduğu bütün uğurların ana xətti – ümummilli liderin siyasi kursunun, dəyişən dünya məkanı və ondan daha sürətli tempinə dəyişən siyasi məkanın tələblərinə uyğun yeni siyasi fəhm və iradə ilə, cəmiyyətlə davam etdirilməsinə alternativ olmadığını hamının dərk etməsi üçün cəmiyyətimizin belə təhlilə ehtiyacı var.

Müstəqillik əldə edildikdən sonra, hər dəfə növbəti seçkilərdən sonra, düşünülmüş şəkildə qaldırılan hay-küyün, şaşqınlıq və tənəzzülün köklərini, nəhayət bu səylərin son iflasını olduğu kimi şərh etmək üçün cəmiyyətimizin bu təhlilə ehtiyacı vardır; alternativi olmayan siyasi kursun ardıcıl həyata keçirildiyi təqdirdə Azərbaycan dövlətçiliyinin gələcək əzəmətini gözümüz önünə gətirən proqnozların verilməsi kimi, mürəkkəb olduğu qədər də gərəkli olan inkişaf oriyentirlərimizi aydın təsəvvür etməyə səy göstərən hər bir Azərbaycan vətəndaşı üçün, cəmiyyətimizin belə təhlilə ehtiyacı vardır.

2005-ci ilin parlament seçkilərinin təhlili, nəticəsi və proqnozları, ölkəmizin həyatında baş verən bütün proseslərin canlı, obyektiv mənzərəsi, faktiki göstərici və məlumatlar əsasında yaradılmış, hər bir aspektdə dərin təhlil və ümumiləşdirmələr verilmiş, yaxın perspektivin proqnozları əksini tapmışdır. Məhz bu səbəbə görə, bizə elə gəlir ki, burada hər hansı kontekstin ayrılaraq vurğulanması qeyri-mümkündür. Baş verən, proseslərin bir-birini şərtləndirməsi, qalibiyyət və məğlubiyyətin kökündə duran amillər, onların təbii axarı və gələcək durumunun bir-biri ilə üzvi şəkildə təhlil süzgəcindən keçirilməsi, ciddi şəkildə izlənilməsi bizim qənaətimizə görə bundan sonra,



hər hansı analoji, dərin bir şərh və ya izah verilməsi cəhdini nəinki lüzumsuz edir, hətta heçə endirir.

Seçki prosesinin məqsədəuyğun mərhələlərə bölünməsi, bütün mərhələlərdə köklü dönüşə nail olunması və obyektiv nəticələrin alınmasını əvvəlcədən müəyyən edən Prezident İlham Əliyevin qərar, göstəriş və sərəncamlarında uzaqgörənliklə əksini tapması faktları, rəhbərin siyasi iradəsi ilə xalqın iradəsinin bir-birinə dayaqlanması, beynəlxalq ictimaiyyətin, xalqın dəstəyinə arxalanan siyasi qüvvənin parlament seçkilərində əldə etdiyi nəticələrə münasibəti və bir çox əhəmiyyətli problemlər dərindən təhlil edilmişdir.

Bu təhlil bizə bir daha göstərir ki, Azərbaycan dövləti öz inkişafında, kimlərinsə hələ də dərk edə bilmədiyi, yaxud da barışmağa cəsarət tapmadığı yeni siyasi, iqtisadi, mədəni-mənəvi gerçəkliyə qədəm qoymuşdur. Azərbaycanın son parlament seçkiləri yalnız bütün parametrlərinə görə analoqu olmayan gedişatı ilə deyil, həm də dövlətçilik tariximizin yeni, şanlı səhifəsini açan beynəlxalq əhəmiyyətli hadisədir.

Dövlətçilik ənənəsində, siyasətdə varisliyə dair tarixi reallıqdan çoxsaylı nümunələr, paralellər gətirmək olar. Bəşər tarixi məhz belə paralel və nümunələrin məcmusudur desək yanılmarıq. Azərbaycan da bu baxımdan istisna təşkil etmir. Hər bir xalqın tarixində onun dünya səhnəsindən yox olmaq təhlükəsi də, fenomen siyasi liderin əzmi nəticəsində bu təhlükəyə qalib gələrək öz varlığını qoruyub saxlaması məqamları da kifayət qədər olmuşdur.

2003-cü il istər Azərbaycanda, istərsə də yaxın-uzaq xaricdə ümummilli lider Heydər Əliyevin alternativi olmayan, qalibiyyətli inkişaf strategiyasının həyata keçirilməsində yeni dönüş mərhələsi kimi qiymətləndirilir. Burada "yeni" sözünün

ifadə etdiyi mənanın mahiyyəti hələ sonadək dərk edilməmişdir.

Əlbəttə ki, "yeni" və yaxud "yenilik" yalnız söz deyil, arxasında əməli fəaliyyətin, möhtəşəm dəyişikliklərin durduğu strateji və taktiki bir mərhələdir.

Ulu öndərin müəyyənləşdirdiyi milli inkişaf xəttini çoxşaxəli, konkret tarixi dövrlərə uyğun olan mərhələli-strateji manevrlərdən ibarət fazalar kimi üzvi bağlılıq təşkil edir. Azərbaycanda müstəqil dövlətçiliyin qurulması, demokratik, hüquqi, vətəndaş cəmiyyətinin təməlinin qoyulması, cəmiyyətin bütün sahələrində qlobal sistemli transformasiyaların tələblərinə uyğun islahatların aparılması, dünya miqyasında beynəlxalq münasibətlərin bərabərhüquqlu subyekti kimi mövqe və rolunun tanınması, regionun lider dövlətləri səviyyəsinə qalxması milli dövlətçiliyin inkişafında birinci strateji manevr mərhələsi – fazası kimi səciyyələndirilə bilər.

2003-cü ildə xalqın etimadı və dəstəyi ilə Prezident İlham Əliyevin dövlət rəhbərliyinə gəlməsindən etibarən ulu öndərin müəyyənləşdirdiyi milli strategiyanın növbəti manevr fazasının başlandığı gerçəklikdir. Azərbaycan bu fazaya qədəm qoymuşdur.

Yaddan çıxarmayaq ki, mərhələ məfhumunun özünə də bu gün çox ciddi dəyişikliklər edilibdir. Əvvəlki, keçmiş tarixdə 5-10 əsr ərzində baş verən hadisələr bu gün 3-5 illik bir mərhələni əhatə edir. Ən qısa zaman ərzində nə qədər möhtəşəm vəzifələr reallaşdıra bilirsə, tarix yazılır, yüksəliş baş verir.

Hər birimiz yaxşı başa düşürük ki, əhatəmizdə yeni maraqlar baxımından formalaşan, yeni dünya nizamı, bəlkə də nizamsızlığı içərisində milli dövlətlərin öz suverenliyini qoruyub saxlaması daha da mürəkkəbləşmişdir. Bu gün beynəlxalq aləmdə milli dövlətlərin münasibətləri yeni mühitdə formalaşır. Zaman hər bir şeyə öz düzəlişini edir. Hətta məkan, böyük dövlət, kiçik dövlət sərhəd məfhumlarının da məzmunu başqalaşır. Bu gün güclü, qüdrətli dövlət ərazisinin böyüklüyü ilə ölçülmür. Dövlətlərin qüdrəti onun zəka mühitinin formalaşması, yüksək texnologiyalardan istifadəsi xalqın mənafeyinə uyğun siyasət yeridilməsi ilə ölçülür. Bu baxımdan doğrudan da yeni mərhələ olduqca çətindir.

"Yenilik" bəhs olunan mərhələdə ölkənin sonrakı varlığını, perspektivini təmin etmək üçün mütləq zamanın və konkret yaşanılan dövrün tələblərinə adekvat tərzdə yeniləşə bilmək həqiqətidir. Bu qlobal inkişafın imperativ amilidir. Tarix boyu dəfələrlə ölkələrin təkamül təcrübəsində sınanılmış həqiqətdir. Həyat, lokal və qlobal əhatədə gedən proseslər hər dəqiqə siyasi qərarlar verilməsini, dəyişikliklərin dinamik, çevik qərarlar üzərində qurulmasını diktə edir. Bu isə özlüyündə hansı vasitə, taktiki gedişlərin və idarəçilik metodlarının tətbiq olunmasını problematik məsələyə çevirir.

Yeni strateji oriyentirlərin hədəfə alınması və adekvat qərarlar qəbul edilməsi hər kəsə müyəssər olmayan, yalnız yeni dövrün tarixi missiyasını qəlbən duyan yeni liderə nəsib olur.

Hakimiyyətə təsadüfi gələn, əvvəlkindən fərqli siyasi ab-havanı duymayan, strateji təfəkkürünün son dərəcə darlığı, məhdudluğu fonunda populist taktiki hərəkətlər "bolluğu" haqda təsəvvür yaradan, bununla fəallıq görüntüsünə ümid edənlər heç vaxt tarixdə zamanın nəbzini tuta bilən "Yeni lider" səviyyəsinə qalxa bilməmişlər.

Müasir elitologiya elmi "ən yaxşı siyasi idarəetmə keyfiyyətlərinə" malik olan seçilmiş insanların – elitanın formalaş-

ması və idarəetmədə uğurlar nail olmasını təmin edən şərtlərə yeni müddəalar, düzəlişlər etmişdir. Siyasi lider tiplərinin – rasional, ənənəvi, xarizmatik – sırasına daha biri: intellektual-texnokratik potensiala malik, yeniliklərə həssaslığı bildirən inteqral göstəriciləri özündə cəmləyən siyasi lider tipi də əlavə olunmuş, daha doğrusu bu qisim liderlər ön sıraya çıxarılmışdır. Buraya intellektual imkanlar və siyasi istedad, siyasi ideal və prinsiplərə sadiqlik, cəmiyyətlə birgə olmaq yüksək siyasi mədəniyyət novatorluq fəhmi və s. aid edilir.

İlham Əliyevin yeni siyasi lider kimi ictimai rəydə yekdilliklə qəbul edilən imicinin obyektiv təməllərdən qaynaqlandığına, xalqla onun arasındakı qarşılıqlı inamın sarsılmaz tellərlə bağlı olduğuna diqqəti cəlb etməkdir. Prezidenti dəstəkləyən, ona dərin inam bəsləyənlər arasında coğrafi, milli, yaxud da yaş hüdudları mövcud deyildir. Öz ətrafında ölkənin bütün bölgələrində, bütün yaşdan olan insanları birləşdirə bilən siyasi lider olmaq kimi nadir keyfiyyət ona qismət olmuşdur.

Azərbaycan dövlətçiliyinin inkişafında yeni qələbələrin rəhni olan mərhələyə qədəm qoyması, həm də Prezidentin hər cür stereotiplərdən uzaq, səmimi həyat xəttinə sadiq qalmasında özünü göstərir.

Azərbaycan demokratik vətəndaş cəmiyyətinin qurulması istiqamətində səmərəli dövlətçilik siyasətinin uğurla davam etdirilməsində İlham Əliyevin nailiyyətlərini təmin edən obyektiv amilləri – mükəmməl siyasi kursu davam etdirməsini vurğulamaqla yanaşı qeyd olunmalıdır ki, onun şəxsi-subyektiv liderlik keyfiyyətləri də inkaredilməzdir. O, milli ənənələrə, dövlətçilik prinsiplərinə sadiq olan, eyni zamanda XXI yüzilliyin modern siyasi məkanına uğurla köklənən, ən müxtəlif



siyasi keyfiyyət və dəyərləri özündə sintez etməyi bacaran dövlət xadimidir.

2003-cü ildən etibarən İlham Əliyev müstəqil Azərbaycanın siyasi dövlətçiliyinin siması, atributu kimi qəbul edilir. Ulu öndərin zəngin və tükənməz siyasi-tarixi irsinə, xalqımızın iradəsinə söykənən İlham Əliyev ötən üç ildə özünü peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu lider kimi ölkədə və xaricdə özünü təsdiq etdi.

Dövlətin inkişafında o qədər də böyük hesab edilməyən zaman kəsiyində, 2003-cü ildən etibarən bəhs edilən dövrdə, Prezident İlham Əliyevin başçılığı altında əldə edilən uğurlar Azərbaycanı daha uca zirvələrə yüksəldəcəkdir.

Bu istiqamətlər bütövlükdə Azərbaycanda son illər baş verən dinamik dəyişikliklərin canlı mənzərəsini üzvi vəhdətdə tamamlayır, Azərbaycanın yüksəlişinin inteqral dinamikasını nümayiş etdirir.

Azərbaycan dövləti artıq ikinci onillikdir ki, müasir cəmiyyətə, demokratik dəyər və prisniplərə keçid kursunu ardıcıl yerinə yetirir. Bu baxımdan Azərbaycan dövlətinin əsas məqsədi demokratik cəmiyyətin qurulmasını təmin edən dinamik transformasiyaların mümkün qədər tez, qısa zaman ərzində reallaşdırmaqdır. Azərbaycan üçün demokratik vətəndaş cəmiyyəti seçimi – yalnız siyasi seçim deyil, həm də ümumbəşəri, fundamental dəyərlərin seçimi deməkdir və dövlətimizin milli maraqlarına xidmət edir.

Ölkə prezidentinin dövlətçiliyin möhkəmləndirilməsi və qanunçuluğun bərqərar edilməsi istiqamətində həyata keçirdiyi tədbirlər, ulu öndərin siyasi kursunu yeni dövrün tələblərinə uyğun davam etdirməsini göstərən amillər çoxdur. Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması kimi tarixi hadi-

sənin təməli artıq qoyulmuşdur. Vətəndaş cəmiyyəti sadəcə müəyyən hüquqi mexanizm və qurumların yaradılması deyil, hər şeydən əvvəl vətəndaş-dövlət münasibətlərinin özəl, ahəngdar bir durumudur, dövlət-vətəndaş ünsiyyətinin baş verdiyi məkandır. Prezident İlham Əliyev hələ andiçmə mərasimində, 2003-cü ilin 31 oktyabrında demişdi: "Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının prezidentiyəm. Mənim borcumdur ki, hər bir vətəndaş inkişafı, irəliləyişi görsün və onu hiss etsin".

İqtisadiyyat bütün dövrlərdə hər bir ölkənin yüksəlişini təmin edən dayaqlardan biri olmuşdur. Müasir qloballaşma dövründə iqtisadi startegiya o dərəcədə önəmli əhəmiyyətə malikdir ki, iqtisadiyyat qlobal maraqların kəsişdiyi, dünyanın simasının kökündən dəyişdiyi məkana çevrilmişdir.

Azərbaycanın unikal geostrateji mövqeyi, onun zəngin təbii sərvətləri qlobal iqtisadiyyatın da diqqət mərkəzinə gəlmişdir. Dövlətimiz bu diqqət və əməkdaşlıq səylərini ciddi götür-qoy edir, qlobal enerji layihələrinin reallaşmasında əlverişli mövqe tutmağa səy göstərir. Ulu öndərin imzaladığı "Əsrin müqaviləsi" bu il konkret, real nəticə verdi. H.Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri istifadəyə verildi. Əfsanə hesab olunan arzular gerçəkləşdi. Boru kəmərinin açılışı ərəfəsində Prezident İlham Əliyevin "Avrasiyada ilin. siyasət adamı" elan edilməsi dərin mənaya malikdir. "Əsrin müqaviləsi"nin memarı Heydər Əliyev, onun qlobal nəqliyyat arteriyası kimi reallığa çevrilməsinin, Azərbaycana regionda strateji tərəfdaş statusunun qazanmasının təminatçısı İlham Əliyev olmuşdur" – bu dünya kütləvi informasiya vasitələrinin gəldiyi ümumi qənaət və etiraf idi. Həmçinin 2005-ci ildə



Azərbaycanın regionda və dünyada ən dinamik inkişaf edən ölkə olması da vurğulanmışdır.

Sosial-iqtisadi inkişaf, iqtisadi islahatların həyata keçirilməsi, bu sahədə davamlı irəliləyiş meyillərinin yaranmasını mümkün edən fəaliyyətin məzmunu o qədər çoxşaxəli və zəngindir ki, buradakı tədbirlərin sadəcə sadalanması xeyli vaxt aparardı. Belə bir faktı vurğulamaq kifayətdir ki, prezident seçildikdən sonra imzaladığı ilk fərmanlardan biri, iqtisadi islahatların uğurlu təşkili istiqamətini müəyyən edən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərman olmuşdur.

Azərbaycanın güclü dövlət kimi dünya təsərrüfat sisteminə inteqrasiyası və bu prosesdə irimiqyaslı proqram və layihələrin həyata keçirilməsi, dinamik xarici iqtisadi, maliyyə, sosial, demoqrafik, ekoloji və s. siyasətin yürüdülməsi, neft və qeyri-neft sektoruna ivestisiyaların cəlb olunması fərmanda əksini tapmış miqyaslı vəzifələrin sırasına daxildir. "Bizim məqsədimiz iqtisadi cəhətdən güclü, siyasi cəhətdən müstəqil dövlət qurmaqdır". Prezident İlham Əliyevin bu sözləri aparılan siyasətin ana xəttini çox gözəl ifadə edir. Bazar iqtisadiyyatının inkişafında "sosial ədalət" prinsipinə əməl edilməsi" müddəası isə bütün proseslərin insanların rifahına yönəldiyini aşkar göstərir.

Azərbaycanda milli ordu quruculuğunun möhkəmləndirilməsi, dövlətin hərbi potensialının gücləndirilməsi də bəhs olunan dövr üçün prioritet hədəflərdən biri olmuşdur. Ali baş komandan Azərbaycanın silahlı qüvvələrinə ayrılan maliyyə vəsaitlərinin artırılması, hərbi-sənaye nazirliyinin yaradılması, peşəkar hərbçi kadrların yetişdirilməsi və s. barədə müstəsna

qərarlar qəbul etmişdir. Xalqımızın ən ağrılı problemi olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün ordunun daha da gücləndirilməsi, ölkənin müdafiə qüdrətinin təkmilləşdirilməsi silahlı qüvvələrdə ardıcıl islahatlar aparılmasını zəruri edir.

Milli ordunun qüvvətlənməsi naminə həyata keçirilən siyasət, bütün sahələrdə olduğu kimi Prezident tərəfindən xüsusi diqqət və qayğı ilə davam etdirilir. Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində öz həllini tapması, işğal olunmuş ərazilərdə terrorist təşkilatların ləğv edilməsi, qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qaytarılması məsələləri istisna olmadan Prezident İlham Əliyevin bütün çıxış və nitqlərində birinci sırada yer alır. Son üç il ərzində istər xalqımız, istərsə də beynəlxalq ictimaiyyət, Ermənistanın işğalçı simasının daha qətiyyətlə ifşa olunmasının, Azərbaycanın ərazi bütövlüyünə qəsd edənlərin hər hansı başqa fikir və variantlara bəslədiyi ümidin alt-üst edildiyinin, beynəlxalq tribunalarda işğalçının cəzalandırılması istiqamətində daha sərt və kəskin mövqe tutduğunun şahidi olmuşdur. Prezidentin "Hamı başa düşməlidir ki, Ermənistan Azərbaycanın torpaqlarını işğal edib. Biz öz torpaqlarımızda ikinci Ermənistanın yaradılmasına yol verməyəcəyik" və s. kimi birmənalı bəyanatları, müasir dünyada etnik separatizmin və terrorizmin qoşa addımladığı, bütün dünya üçün təhlükə mənbəyi olduğuna və bu kimi hadisələrə münasibətin də son dərəcə aydın nümayiş etdirilməsi tələbləri aşkar görünür.

Ermənistan-Azərbaycan, Dağlıq-Qarabağ münaqişəsinə dair həqiqətin dünyaya bəlli olması istiqamətində, yalan və iftira üzərində qurulmuş informasiya blokadasının aradan qaldırılması prioritet vəzifələr sırasına daxil edilmişdir. İşğalçılıq siyasəti nəticəsində regionda baş verən bütün qlobal layihələrdən kənarda qalmış Ermənistanın öz acınacaqlı vəziyyətini işğal altında olan torpaqların yandırılması, buradakı tarixi abidələrin yerlə-yeksan edilməsi ilə daha da dərinləşdirir. Azərbaycan bu proseslərdə beynəlxalq ictimai rəyin müsbət tərəfə dəyişməsi və onun dəstəyinin qazanılması üçün üstünlük əldə edir. İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin Bakıda keçirilən 33-cü sessiyasında (19-21 iyun 2006-cı il) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi diqqət mərkəzində olmuş, sessiyanın yekun bəyannaməsində ayrıca maddədə əksini tapmışdır. Ermənistanın işğal olunmuş ərazilərdən tez bir zamanda öz qoşunlarını çıxarması, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpa edilməsi İKT üzvü olan dövlətlər tərəfindən yekdilliklə dəstəklənmişdir. Ermənistanın beynəlxalq hüquq normalarına tam etinasızlıq göstərən, təcavüzkar dövlət kimi terrorizmə və separatizmə rəvac verən, insan hüquqlarını kobud surətdə pozan bir dövlət kimi iç üzünün, həqiqi simasının tanıdılması prosesi intensiv davam edir.

Müasir qloballaşma dövründə Azərbaycanın daxili və xarici siyasəti dünya inkişafının bu başlıca meylini nəzərə alaraq həyata keçirilməlidir. "Yeniliklərə həssaslıq, yeni dövrün lideri" anlayışlarının mənası məhz qloballıq kontekstində daha aşkar görülür. Müxtəlif dövlətlərin geosiyasi maraqlarının qovuşduğu məkanda yerləşən Azərbaycanda dövlət başçısı milli maraqlardan çıxış edərək öz siyasətini çevik prinsiplər üzərində qurur.

Milli inkişaf xətti qloballaşma dövründə əvvəlki – ənənəvi mənadan daha geniş müstəviyə keçid alır, başqa sözlə qlobal kontekstli milli doktrina məzmunu kəsb edir; qlobal və

milli aspektlərin koordinasiyası, balanslaşdırılması, proseslərə fəal qoşulmaqla strateji təşəbbüsün əldə olunması, dünya birliyinə Azərbaycan üçün maksimal əlverişli şərtlərlə inteqrasiyanın təmin olunması üzvi bağlılıq təşkil edir.

Prezident İlham Əliyev XX əsrin əvvəllərində öz siyasətində dünyada qlobal oyun qaydalarının dəyişməsi prosesində, dövlətçiliyin maraqları ilə dünyanın magistral inkişaf meyilləri arasında kövrək balansın əldə edilməsinə nail ola bilmişdir. Geosiyasi mövqedən irəli gələn unikal aspekt və üstünlükləri reallaşdırmaqla, qloballaşmanın verdiyi unikal tarixi şansları əldən verməmək, dinamik realizm və siyasi praqmatikanın optimal sintezini təmin etmək, qlobal layihələrdə Azərbaycanın statusunu möhkəmləndirmək yeni siyasi manevrlərin tam olmayan sırasıdır. Qloballaşan dünyada Azərbaycan öz siyasi dəst-xətti olan suveren milli dövlət və müstəqil subyekt qismində çıxış edir. Qloballaşma və dünya birliyinə inteqrasiya, milli inkişafın fövqündə duran, ayrıca məqsəd kimi qəbul edilmir.

Prezidentin fəaliyyətində Azərbaycan dövlətinin möhkəmlənməsini təmin edən qlobal imkanlardan istifadə edilməsi, bu mənada başa düşülən qloballaşma özü də strateji bir xətt və məqsəddir. Qloballaşma prosesinə ya qoşulmaq, ya da kənarda qalmaq imkanları mövcuddur. Üçüncü yol mövcud deyil. Müasir dövrdə özünütəcrid siyasətinin perspektivsizliyi birmənalıdır. Qloballaşmanın tələbləri ilk növbədə onlara siyasi cavablar verilməsini və siyasi qərarlar qəbul edilməsini tələb edir.

Son üç ildə qəbul edilən qərarlar təhlili onların gerçək nəticələri Azərbaycan Respublikasının Prezidentinin mövcud reallığa öz düşünülmüş mövqe və münasibətin olduğunu bir



daha sübut edir. “Azərbaycanı dünyaya bağlayan iqtisadi, siyasi, hüquqi və s. tellər daha da möhkəmlənir. Azərbaycanın beynəlxalq nüfuzu, bizə qarşı hörmət artır, bu reallıqdır. Bu gün Azərbaycan regionda ən yüksək mövqelərə malik olan bir ölkədir”.

Azərbaycan xalqı böyük, qədim bir mənəvi irsin, sərvətin sahibidir. Azərbaycanın müstəqillik tarixi onun öz milli-mənəvi dəyərlərinə qayıdışı, onların ümumbəşəri dəyərlərlə ahəngdar sintezi və inkişaf etdirilməsi tarixi olmuşdur. Əsrlərdən və nəsillərdən miras qalmış milli dəyərlərimizin əhəmiyyəti qloballaşan dünyada təsəvvürəgəlməz dərəcədə artmışdır. Başqa sözlə mənəvi dəyərlər hər bir ölkənin varlığı və simasını bəlli edən əvəzsiz atribut qismində çıxış edir.

“İnsan mənəviyyat üçün yaşamalıdır” deyən ulu öndərimizin mənəvi dəyərlərlə bağlı verdiyi 2007-ci il 13 avqust tarixli bəyanatı bu istiqamətdə görüləcək işlərin təməl proqramı kimi həmişə diqqət mərkəzindədir. Mənəvi dəyərlərə hörmətin, mənəviyyatın formalaşmasında əsas həlqələri təşkil edən təhsil, elm, mədəniyyət və s. kimi sahələrdə, qloballaşmanın mənfi sayılan meyillərinə mənəvi müqavimətin təşkil edilməsi dövlətin siyasətində başlıca istiqamətlərdən biridir. Azərbaycan xalqının mənəvi dəyərlərinə qarşı yönəldilmiş bütün cəhdlərin qarşısının qətiyyətlə alınması istiqamətində Prezident İlham Əliyevin mövqeyi bütün xalq tərəfindən rəğbətlə qarşılanır.

Qloballaşmanın bütün dünyada qarşısıalınmaz bir prosesə çevrildiyi müasir dönəmdə kütləvi, yabançı mənəvi-mədəni stereotip və şablonların düşünülmüş şəkildə təbliği, Azərbaycan xalqının əsrlərlə formalaşan milli varlığını, mənəvi irsini, milli düşüncə və dəyərlər sistemini, mədəni potensialını neqativ təzahürlərdən qorumaq kimi müqəddəs bir missiyanı

gündəmə gətirmişdir. Mənəvi dəyərlərimizin qorunması və inkişaf etdirilməsi Prezident İlham Əliyevin bütün sahələrdə həyata keçirdiyi siyasətin ana xəttini, özəyini təşkil edir.

Azərbaycanın müasir tarixində İlham Əliyev mərhələsi başlamışdır. Azərbaycan xalqı bu mərhələnin müstəqil dövlətçiliyin sarsılmaz və əbədi olması baxımından hələ uzun müddət davam edəcəyinə əmindir.



## § 11. Mədəniyyətin "gender " ölçüsü

*XX əsrin yarısından etibarən dünyanın siyasi xəritəsində baş verən dəyişikliklər, yeniləşən dünyada qlobal demokratikləşmə prosesləri insanların bütün sahələrdə, o cümlədən cinslərarası münasibətlər də daxil olmaqla bütün səviyyələrdə hüquq və azadlıqların bərabərliyinə yönəldilmiş kollektiv, qlobal siyasətin həyata keçirilməsini bir məqsəd kimi qarşıya qoymuşdur.*

Məhz buna görə bu gün, XXI əsrin əvvəllərində də gender problemi qlobal miqyas və məzmun kəsb etmiş, qlobal siyasətdə və elmi-tədqiqatlarda önəmli əhəmiyyət kəsb edən məsələlər sırasına daxil olmuşdur.

Cəmiyyətdə cinslərin qarşılıqlı münasibətlərində mövcud olan vəziyyətdə ahəngdarlığa nail olunması üçün həm beynəlxalq, həm də mülki səviyyələrdə qlobal miqyaslı forum, konfrans və seminarların keçirilməsi, beynəlxalq konvensiya və bəyannamələrin qəbul edilməsi, regional əməkdaşlıq və tədqiqat qurumlarının təsis edilməsi istiqamətində çətin və möhtəşəm fəaliyyət proqramı dünya birliyi tərəfindən ardıcıl həyata keçirilir.

Bu və ya bir çox səbəblər üzündən gender problemi, qlobal demokratikləşmə, cinslərin hüquqi və faktiki bərabərliyinin təmin olunmasına yönəldilmiş siyasətlə məşğul olan dövlətlərin, yerli və beynəlxalq qurumların və dünya ictimai el-

minin səylərini bir araya gətirən qlobal fenomenə çevrilmişdir. Cinslərin cəmiyyətdə bərabər hüquq və azadlıqlarının təmin olunması digər fundamental insan hüquqları ilə kompleks şəkildə həyata keçirilərsə reallığa çevrilə bilər - bu fikir XX əsrin sonu və yeni XXI əsrin əvvəllərində qlobal və lokal miqyasda qəbul edilmiş və həyata keçirilməsinə başlanılmış çoxsaylı bəyannamə, qətnamə və proqramların başlıca məqsədi kimi vurğulanmışdır.

BMT-nın fəaliyyətində və inkişaf proqramında gender probleminin xüsusi status kəsb etməsi dünyada baş verən sosial-mədəni, siyasi dəyişikliklər baxımından onun xüsusi maraq predmetinə çevrilməsi, genderşünaslıq elminin təkamülü, dünyanın nüfuzlu, inkişaf etmiş tədris ocaqlarında, elmi mərkəzlərdə onun tədrisi, gender maariflənməsində başlantı verilməsi gender problemini qlobal problemlər sırasına daxil etmişdir. Dövlətlər və millətlərarası əlaqələr intensivləşir, ictimai qurumlar, o cümlədən qadın təşkilatları öz aralarında canlı, əməli fəaliyyət proqramlarını müəyyən edir, onları reallaşdırmağa cəhd göstərirlər.

Demokratik institutların inkişafı vətəndaş cəmiyyəti və hüquqi dövlətin formalaşdırılması və gender probleminin həlli – bir-birindən qarşılıqlı, dialektik əlaqə və asılılıqda olan proseslər olmasına dair yekun qənaətin əldə olunması elmi baxımdan təsdiqləndi. Cəmiyyətin demokratikləşməsi, onun sosial tərkibinin bütün hissələrinin inkişafı ilə sıx surətdə bağlıdır. Bu baxımdan Yer kürəsinin əhalisinin yarısını təşkil edən qadınların yeni dünya və yeni cəmiyyət quruculuğunda fəal iştirakı olmadan, onların əsas hüquq və azadlıqlar sahəsində imkanlarının bərabərliyinə nail olmadan, qarşıya qoyulan möhtəşəm məqsədlərə nail olmaq qeyri-mümkündür.



Qlobal cəmiyyətdə qadınların potensialının, iradə və təşəbbüslərinin demokratikləşmə və rifaha nail olunması işinə səfərbər edilməsi yeni-yeni problemlərin yaradılmasını şərtləndirə bilər. Qadın probleminin qadın bərabərliyinin humanistləşdirilməsi və demokratikləşməsi bütövlükdə bəşəriyyətin tərəqqisinə və uğuruna xidmət edir.

Artıq ikinci onilliyə yaxındır ki, gender həm anlayış, həm də problem kimi Azərbaycanın da ictimai elminə və ictimai həyatına nüfuz etmişdir. Respublikamızda gender problemlərinə diqqət həm nəzəri-elmi tədqiqatlar səviyyəsində, həm də praktiki-təcrübi fəaliyyət səviyyəsində özünü büruzə verir və BMT-nin İnkişaf Proqramının, Əhali Fondunun, Açıq Cəmiyyət İnstitutunun və s. beynəlxalq təşkilatların dəstəyi ilə səmərəli istiqamətə yönəlmişdir.

Bir daha qeyd edək ki, gender problemləri üzrə bütün dünyada çoxsaylı tədqiqatlar aparılır, kütləvi informasiya vasitələrində, qlobal internet şəbəkəsində geniş məlumatlandırma prosesi gedir. Lakin o da məlumdur ki, həm bütün dünyada, həm də Azərbaycanda gender elmi, onun bitkin nəzəriyyəsi, elmi sistemi hələlik formalaşma mərhələsindədir. Bu da bütövlükdə dünya üçün əhəmiyyətli olan gender probleminin qoyuluşu və optimal həlli yollarını, metodlarını və vasitələrini düzgün dəyərləndirməyi zərurətə çevirir. Daha doğrusu problemin, istənilən sahədə olduğu kimi, düzgün qoyuluşu onun məqsədəuyğun inkişafının tanınmasını bilavasitə şərtləndirir.

Bu baxımdan gender probleminin müasir dünya inkişafının aparıcı meyli və istiqaməti kimi son illər xüsusilə vurğulanan qloballaşma prosesindən kənarda və ya ondan təcrid olunmuş şəkildə qoyuluşu və təhlili cəhdi qeyri-məqbul sayılmalıdır. Təqdim olunan mövzunun aktuallığı buradan irəli gə-

lir. Gender probleminin konkret aspektləri ilə bir çox elm sahələri, sosial-fəlsəfə, sosiologiya, politologiya, psixologiya, kulturologiya, təbabət, fiziologiya və s elmlər məşğul olurlar. Genderşünaslıq elminin formalaşma mərhələsinin, dünyada gedən qloballaşma, demokratikləşmə və humanistləşmə prosesləri ilə eyni vaxta təsadüf etməsi düşündürücüdür, daha doğrusu qanunauyğundur.

Məhz buna görə də genderin ayrı-ayrı problemlərinin konkret elmlər səviyyəsində qoyuluşu və təhlili nə qədər fərəhləndiricidirsə, onun ümumbəşəri, qlobal məsələləri, beynəlxalq kontekstdən inkişaf qanunauyğunluqlarının ümumi mənzərəsini yaratmağa cəhd göstərən tədqiqatların hələlik həcmi cüzi miqdarda belə olmaması təəssüf doğurmalıdır. Dünya inkişafına qlobal surətdə nüfuz edən müasir proseslərin gender aspektinin öyrənilməsi, genderşünaslığın bir elm kimi natamam formalaşmasını şərtləndirə bilər.

Dünya ölkələrini, xalqları və insanları biri-biri ilə sıx bağlayan, qlobal, sosial, siyasi, mədəni və s. münasibətlərin, ünsiyyət sistemlərinin inkişafını hədsiz sürətləndirən qloballaşma prosesi cəmiyyətdə cinslərarası münasibətlərə bilavasitə təsir göstərir və artıq öz imkan təzahürlərini aşkar bildirməkdədir. Bu baxımdan gender probleminin yalnız lokal, konkret aspektdə deyil, qlobal və lokal tərəflərin sintezində tədqiq etmək hədsiz aktual və təhlilini gözləyən problemlərdəndir. Nəzərə alaq ki, Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşən, geosiyasi baxımdan zəngin təbii ehtiyatlara, yüksək mədəni potensiala malik sintez mahiyyətli bir sivilizasiyadır və dünyada baş verən proseslər bu məkanın mədəniyyəti və elmində öz dolğun əksini tapır. Bu da Azərbaycanda gender probleminin özünəməxsusluğu, dünya ilə müqayisədə ümumi



və fərqli cəhətlərini aşkarlamaq üçün qlobal miqyasda gedən proseslərlə əlaqəli təhlilini gündəmə gətirir.

Azərbaycan dövləti qlobal cəmiyyətə inteqrasiya siyasətini uğurla həyata keçirir və özünütəcrid mövqeyinin faydasız olduğunu dəfələrlə bəyan etmişdir. Bu, ümummilli lider Heydər Əliyevin milli inkişaf strategiyasının başlıca məqsədlərindən biri kimi həmişəyaşar bir nümunədir. Müstəqil Azərbaycanda qadın probleminin həllində yeni mərhələnin başlanması məhz H.Əliyevin adı ilə bağlıdır. 1995-ci ildə verdiyi fərmanla Azərbaycanın BMT-nin "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" konvensiyasına qoşulması, "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" sərəncamları və bir çox digər qərarları xatırlamaq yerinə düşərdi.

Müasir dünyanın demokratik inkişaf yolu, hüquqi dövlət, vətəndaş cəmiyyəti ideyaları və humanist nailiyyətləri sırasında gender anlayışının ifadə etdiyi çoxşaxəli, mürəkkəb münasibətlər sistemi də əhəmiyyətli yer ala bilmişdir. Cəmiyyətdə insanların intellektual, yaradıcı potensialının aşkara çıxarılması və bütün sahələrdə inkişafa nail olunması üçün vətəndaşların ahəngdar münasibətlərinin qurulması, öz növbəsində bunun üçün də müvafiq hüquqi baza və sosial şəraitin yaradılması zəruridir.

"Gender" anlayışı nə qədər yeni olsa da, onun ifadə etdiyi məna və münasibətlər dünya qədər qədimdir. XX əsrin sonlarından isə gender problemi dünya ictimaiyyətinin diqqətini cəlb etmiş, qlobal problemlər sırasına daxil edilmişdir. Məhz buna görə nisbətən yeni olan bu anlayış da, gender problemi də bütün dünya üçün xarakterikdir və onun həlli istiqamətində Azərbaycan dövləti də qlobal cəmiyyətlə birgə

öz səylərini əsirgəmir. 2000-ci ilin sentyabrında BMT üzvü olan 189 dövlətin iştirak etdiyi Sammitdə, "Minilliyin İnkişaf məqsədləri" adlı Bəyannamə qəbul olundu və buradakı 8 qlobal problem-məqsəd arasında "gender bərabərliyinin təmin olunması" da xüsusilə vurğulanmışdır. Onun həm strateji, həm də praktiki əhəmiyyətli sənəd olduğunu nəzərə çatdırmaq üçün 2015-ci ilin qarşıya qoyulan minilliyin məqsədlərinə bütün dünyada nail olunması ili olacağı bəyan edilmişdir.

BMT və Avropa Şurası gender probleminin həlli istiqamətində aparılan bütün fəaliyyətin əlaqələndirici və təmsilçisi kimi çıxış edirlər.

Azərbaycan dövləti hər iki beynəlxalq təşkilatın tamhüquqlu üzvü kimi buradan irəli gələn öhdəlik və müvafiq hüquqi bazanın formalaşması üçün fəal, əməli iş aparır. Bu istiqamətdə "Gender bərabərliyinin təminatı haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi çox mühüm əhəmiyyətə malikdir.

Qadınların ictimai-siyasi, iqtisadi həyatda dövlət əhəmiyyətli qərarların qəbul edilməsində fəal iştirakı səviyyəsinin yüksəldilməsi beynəlxalq qanunvericiliyin və ictimaiyyətin diqqət mərkəzindədir.

Statistikanın təhlili göstərmişdir ki, planetin əhalisinin (bütün dövrlərdə) ən azı yarısını təşkil edən qadınlar qərar qəbul etmə proseslərində cüzi təmsil olunurlar. Bu, beynəlxalq hüquq praktikasında qadınların qanunla dəstəklənən minimum təmsilçilik normalarının müəyyənləşdirilməsinə səbəb olmuşdur. BMT-nin 1990-cı ildə qəbul etdiyi tövsiyələrə görə qadınların siyasətdə təmsilçiliyin 30%-lik həddi, "kritik" ən aşağı hədd kimi müəyyənləşdirilib.

Bu metod parlamentdə qadınların iştirakının təmin



olunması sahəsində, dünya təcrübəsində son iki onillik ərzində tətbiq olunur. Bəzi ölkələrdə, məs. İtaliyada minimal təmsilçilik norması – 50%, Argentinada 30%, Braziliyada 20% təşkil edir. 1997-ci ildə İngiltərədə leyborist partiyasının tətbiq etdiyi mexanizm qadınların parlamentdə sayının 60-dan, 119 nəfərə (2 dəfə) artmasını şərtləndirmişdir. Bu günə olan göstəricilərə gəldikdə qadınların təmsilçiliyi Finlandiyada 40%, ABŞ-da 15%, Almaniyada 31% və s. kimidir.

Gender bərabərliyindən bəhs edilirsə, kvotalaşdırma metodunun məqsəd deyil, müvəqqəti vasitə olduğunu düşünürük. Çünki cəmiyyətdə insanlar şəxsi qabiliyyət, intellektual potensiala, professional kriteriyalara uyğun imkanlarını reallaşdırmalıdırlar.

Qadınların dövlətin idarə olunmasında, siyasi həyatda fəal iştirak formaları müxtəlifdir. Bunlar siyasi, iqtisadi və ictimai formalara bölünür. Bu gün bizə ilk baxışda qadınların fəallıq səviyyəsi çox yüksək görünürsə, bu, ilk növbədə qadın liderliyinin ictimai formasının yaratdığı təsəvvürlərdir. Qadınlar vətəndaş cəmiyyətinin müxtəlif sahələrində, ictimai hərəkatlarda və KİV-lərdə nisbətən fəal təmsil olunur. Eyni fikri siyasi və iqtisadi qərarların qəbulu sahəsinə münasibətdə söyləmək olmaz.

Bir daha qeyd edirik ki, normaların müxtəlif formaları, vətəndaşların fəallığı və imkanlarının ümumi müəyyən edilmiş meyarlar üzrə aparılmasını məhdudlaşdıra, müəyyən "güzəşt-kvotalar" passivlik yarada, sağlam rəqabət hissini zəiflədə bilər və "pozitiv diskriminasiya" olub, demokratik məzmunlu sayıla bilməz. Gender yalnız qadınların deyil, hər iki cinsin bərabər imkanlarının təmin edilməsidir. Bu baxımdan gender təhlilinə dair müzakirələrdə, qanunvericiliyin gender ekspertizasında ki-

şilərin valideyndən biri kimi vurğulanmaması, kriminal praktikada eyni cinayətə görə kişi və qadının eyni cəza çəkməməsi, yaxud ömür müddətinin nisbətən az olduğu təqdirdə kişilərin qadına nisbətən daha gec yaşda təqaüdə çıxması və s. məsələlər də gender probleminin əhatə dairəsinə daxil olduğunu nəzərinizə çatdırmaq istərdik.

Məşğulluq və əmək münasibətləri sistemində gender bərabərliyinin təminatının qanunvericilikdə əksini tapması, cəmiyyətin davamlı iqtisadi inkişafının başlıca şərtidir. Dünya Bankının məlumatına görə, qadınlar dünyanın yoxsul əhalisinin 70%-ni təşkil edir və dünyada mülkiyyətin cəmi 10%-nə malikdirlər. Yaxud dünyanın ən varlı 691 adamı içərisində 68-i qadındır.

İqtisadi sahədə qadınların belə statusu, hər hansı bir imkan bərabərliyindən danışmağa əsas vermir. Qadınların iqtisadi sahədə daha fəal iqtirakı nisbətən ABŞ-da müşahidə olunur. Burada kiçik biznesin 30%-dən çoxu qadınlara məxsusdur. BMT-nin 1991-ci ildən etibarən nəşr etdirdiyi gender statistikası, o cümlədən Azərbaycanda Dövlət Statistika Komitəsi tərəfindən tərtib edilən məlumatları izlədikdə iqtisadiyyatda gender təminatlarının mənzərəsi aydın görünür. Dövlətin iqtisadi rifahı üçün gender resurslarının ahəngdar inkişaf etdirilməsi qanunda prioritet məsələ kimi vurğulanmışdır.

"İqtisadi və sosial münasibətlərdə gender bərabərliyinin təminatları" müddəasına əsasən dövlət kişi və qadınların mülkiyyət hüququnun, sahibkarlıq fəaliyyətinin, sosial təminat hüququnun həyata keçirilməsinə təminat verir.

Azərbaycan bu sahədə deyə bilərik ki, Şərqdə mühüm tarixi-hüquqi təcrübəyə malikdir. Azərbaycanda qadınların səsvermə hüququ (seçmək hüququ – aktiv hüquq) barədə məsələni



ilk dəfə 1907-ci ildə azərbaycanlı deputat Xasməmmədov Çar Rusiyasının Dumasında qaldırmış və müsəlman fraksiyasında gərgin müzakirələrdən sonra müsbət həllinə nail olmuşdur. 1918-də Azərbaycan Demokratik Cümhuriyyəti də qadınların səsvermə hüququnu tanımışdır. Qadınların seçilmək (passiv hüquq) sahəsində problemlərin mövcudluğu qanunda nəzərdə tutulan hallarla aradan qaldırılmalıdır.

Gender bərabərliyinin təminatları probleminə respublika ictimaiyyətinin də marağı və reaksiyası bu müddət ərzində öz ifadəsini tapmışdır. KİV-lərdə, TV kanallarında gender problemi və genderə dair qanun layihəsinə rəy və münasibətləri bildirən verilişlər, müzakirələr keçirilmiş, respublika və beynəlxalq nümayəndələrin təşkil etdiyi konfranslar, seminarlar keçirilmişdir.

Bütün bunlar göstərir ki, problem cəmiyyətimizdə sosial-mədəni, hüquqi, mənəvi aspektlərdə mövcuddur və onun qəbul edilməsi sosial sifarişin yerinə yetirilməsində hüquqi bazanı təmin edəcəkdir.

Qanunun qəbul edilməsi Azərbaycanda mütərəqqi qanunvericilik və hüquq praktikasının inkişafına təkan verməklə, gender təminatları mexanizmini müəyyənləşdirməklə, tədricən cinsi motivlərə görə ayrı-seçkiliyin ləğv olunmasına imkan verəcək, Azərbaycan vətəndaşlarının, dövlətin Konstitusiyasında və beynəlxalq hüquq normalarında nəzərdə tutulmuş bütün azadlıqlarının gerçəkləşməsi imkanını genişləndirəcəkdir və beləliklə də ölkəmizin dayanıqlı inkişafı üçün möhkəm təməl yaradılmasını təmin edəcəkdir.

## § 12. Azərbaycan qadını mənəviyyat və ülviyyət simvoludur

*Hər bir insanın üzərinə Tanrı çəkə biləcəyi qədər yük qoyur. İnsanın iç dünyasında həmin yükün, ağırlığın qaldırılması üçün ona gücü, qüvvəti də Tanrı verir...*

*Öz sevdiyi işlə məşğul olanda və gördüyü işin insanlara gətirəcəyi sevinci düşünəndə insan ağırlıq yükünü unudur, fərəh və minnətdarlıq dolu ömür yaşayır.*

Azərbaycam qadınının "çətinlik" anlayışına münasibəti fərqlidir. Daha çox məsuliyyət hissi və "etməlisən" imperativi ona yaxındır. O,hər bir insanın həyata, dünyaya bir missiya ilə gəldiyinə inanır. Həyat adlı yolun sonunda öz müqəddəs missiyasını yerinə yetirə bilirsə, dünyamız bir az da gözəlləşir, bir az da xeyirxah və ədalətli olur.

Azərbaycan cəmiyyətində qadının öz yeri, öz çəkisi var. Bizim milli təfəkkürümüzdə Ana və Vətən kəlmələri qoşa işlənir. Bu gün də Azərbaycan qadını dövlətçiliyimizin tərəqqisi və möhkəmləndirilməsi üçün üzərinə düşən məsuliyyəti həmişəkindən daha çox hiss edir.

Bu gün Azərbaycanın seçilən, sayılan xanımları çoxdur. Müəllim, həkim, alim, millət vəkili, professor, ictimai-siyasi xadim... Həyatda qazandığı titullarının sırasını davam etmək də olar. Bu onun ictimai fəaliyyətdə qazandıqları uğurlardı. Həyatda isə hər şeydən əvvəl o, anadır. Öz övladlarını sevən və onların qayğısını çəkməyi özünə ən müqqədəs vəzifə seçən, ana adının şərəfini daşıyan Azərbaycan qadınıdır.



Həyat yolunu maneələrlə dolu məkanın qət edilməsinə bənzətmək olar. İdman növləri içərisində ən maraqlı növlərdən biridir. Bir maneədən digər maneəyə qədər olan məsafə ərzində gücünü səfərbər etmək, diqqətini cəmləmək, iradəni toplamaq, özünü sınamaq deməkdir. Hər sınaqdan ləyaqətlə çıxmaq, özünütəsdiq hissini yaşamaq isə əlbəttə çox xoşdur. Bu da həqiqətdir ki, kimlərsə həyat yolunu başqa cür, daşsız-kəsəksiz, hamar yol kimi təsəvvür edir. Cəmiyyət qanunlarını bilən, insanlar arasındakı münasibətlərin mürəkkəb strukturunu dərk edən hər bir kəs bu yoldakı maneələri, onların insan xarakterinin, taleyinin formalaşmasına təsirini normal qəbul edir. Kimlərisə bu sınaqlar qırır, zəiflədir, kimlərisə əksinə. Maneələri, müqavimətləri mücərrəd bir şey kimi qəbul etmək olmaz. Bu bir bədxah baxışdan, bədxah sözdən tutmuş fiziki çətinliklərə, gözəl məqsədlərə çatmaq üçün cəmlənmiş zəka potensialının fəaliyyətə çevrilməsindən, böyük səbrə və təmkinə qədər ola bilər. Ən əsası isə odur ki, büdrəməyəsən, yarı yolda qalmayasan.

Sadaladıqlarımız bütün vəzifələrin, statusların cəmi olan bir Azərbaycan qadını obrazı var. Saydığımız missiyaları ləyaqətlə yerinə yetirmək iqtidarında olmaq üçün yüksək məsuliyyət hissi yaşayan bir insan. Bunlar heç də biri-birindən ayrı vəzifələr deyil, biri-birini tamamlayan, vəhdət təşkil edən funksiyalardır. Bir azərbaycanlı qadının ana qayğısı, humanizmi, müəllim səbri, həkim təmkini, millət vəkilinin vəzifə borcu, məsuliyyəti olmazsa, problemlərə baxış tam olmur. Gün ərzində görülən işlər, insanlarla ünsiyyət, qanun yaradıcılığı pro-

sesinin mürəkkəbliyi prosesində bu özünü bir daha təsdiq edir. Evdə isə bütün Azərbaycan qadınları kimi övladının qayğıları ilə yaşayan, bir nigarançılıqla yanaşı gələcəklərinə böyük ümid bəsləyən anadır.. Bunlar gəlişi gözəl sözlər deyil, bu reallıqdır.

Azərbaycan qadınının zaman məfhumuna da öz münasibəti var. Sıxlaşmış zaman əsrində, sürət dövrünün qanunlarına tabe olmağın üstünlüklərini həssaslıqla anlayır. Asudə vaxt məfhumunu isə heç bir işlə məşğul olmadan yalnız istirahət etmək kimi qəbul etmir.

Övladlarının tərbiyəsinə gəldikdə isə ailədə uşaqların tərbiyəsinə dair mövcud olan nəzəriyyələrin sayı, yəni kəmiyyət baxımından bütün nəzəriyyələrdən çoxdur. Nəinki hər bir millətin, xalqın, hər bir ailənin də məsələyə öz münasibəti var. Konkret nəslə məxsus fərqli cəhətlərə, adətlərə, ənənələrə malik ailələrin övlad tərbiyəsinə münasibətləri də fərqlidir. Əsil-nəcabət məsuliyyətini daşımaq, gözəl ənənələrin gələcəyə ötürülməsi istəyində bulunmaq böyük bir missiyadır.

Bir vacib cəhət də yadda saxlanılmalıdır ki, öz fərdi düşüncə tərzi, davranış formaları ilə seçilən hər bir uşaq özünə fərdi münasibət tələb edir. Hər biri özlüyündə unikal varlıq olan uşaqlara lazımi diqqət ayrılmadıqda onların içərisində formalaşan şəxsiyyət modeli qırılır, fəallığı zəifləyir, doğmalar içərisində özünü tənha hiss edir. Valideynlərin kiçik insanın iç dünyasından böyük dünyamıza ünvanlanan fikirlərini eşitməsi, duyması, hiss və duyğularına cavab verməsi qarşılıqlı hörmət və məhəbbətin əsasıdır.

Övladlara məhəbbəti bərabər bölmək lazımdır. Lakin bəzən övladlara elə gəlir ki, birini digərindən daha çox istəyirsən. Öz övladları dünyaya gəldikdən sonra anlayırlar ki,



bu heç də belə deyil. Ancaq ana-atanın, valideynlərin məhəbbəti uğrunda rəqabət yəqin ki, rəqabətlərin ən gözəlidir.

Ailənin ən böyük missiyası, nailiyyəti – gərəkli vətəndaş, bütöv şəxsiyyət kimi formalaşan, azərbaycanlı obrazını dünyaya tanıda bilən övladlardır. Birmənalı şəkildə. Yəni insanı mühit formalaşdırır. Lakin, genetik kod, əsil-nəcabət, mühit faktorunu da yaddan çıxarmamalıyıq.

Bu gün Azərbaycanda vətəndaş cəmiyyəti, hüquqi dövlət prinsipinə uyğun insan hüquqları sisteminin yaradılması istiqamətində çox mühüm işlər görülür. Bu işlər içərisində insan hüquqlarının mühüm tərkib hissəsi olan qadın hüquqlarının müdafiəsi, qorunması, genişləndirilməsi qadınların bərabər hüquqlarla yanaşı bərabər imkanlar əldə etməsi sahəsində qazanılan uğurlar xüsusi yer tutur. Qadın siyasətinin dövlət siyasətinin vacib tərkib hissəsinə çevrilməsinin nəticəsidir ki, qadınlar bu gün cəmiyyətin aparıcı hissəsinə çevrilib. Böyük öndərimiz 14 yanvar 1998-ci ildə "Azərbaycan Respublikasında Azərbaycan qadınlarının rolunun artırılmasma dair tədbirlər haqqında" fərman imzalamış, 2000-ci il martın 6-da imzalanmış fərman isə "Dövlət qadın siyasətinin həyata keçirilməsi sahəsində ən mühüm istiqamətləri müəyyənləşdirmişdir. 2000-2005-ci illər üçün bu sahədə Milli Fəaliyyət Planının təsdiq olunması problemin həllini təmin edən şərt olmuşdur. 2006-cı ildə bu siyasətin məntiqi davamı kimi "Gender bərabərliyi haqqında" qanunun qəbul edilməsi ilə Azərbaycan Dövləti qadın hüquqları və imkanlarının bərabərliyi, qadınlara münasibətdə ayrı-seçkiliyin bütün növlərinin aradan qaldırılması sahəsində yeni bir mərhələyə qədəm qoydu. Dövlət idarəçiliyində Azərbaycan qadınlarının peşəkarlığına, intellektual qabiliyyətinə, bilik və bacarığına inam, möhtərəm

Prezidentimiz İlham Əliyev cənablarının siyasətində də mühüm yer tutur. Məhz bunun nəticəsidir ki, Azərbaycan qadını istər ölkə daxilində, istərsə də ölkə xaricində Şərq və Qərb dəyərlərini özündə cəmləyən, yüksək mənəviyyat simvolu kimi qəbul edilir. Bunun bariz nümunəsi Heydər Əliyev Fondunun prezidenti, millət vəkili, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Azərbaycanın birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyətidir. Bu gün böyüməkdə olan gənc qızlarımız üçün ən gözəl örnək məhz bu obrazdır.

1901–ci ildə Bakıda daha dəqiq desək Şərqdə ilk müsəlman qız məktəbi açılırdı. Neçə-neçə maarifpərvər Azərbaycan xanımının sevincinin həddi-hüdudu yox idi. Dövrün ziyalılarından biri yazırdı: "Gələcək tarixçi bu hadisəni müsəlman qadınının, bu gözəl varlığın yüksəlişi dövrünün başlanğıcı kimi qeydə alacaq". Böyük uzaqgörənlik və həqiqət vardı bu sözlərdə. Müstəqil Azərbaycan dövlətinin azad vətəndaşları olan Azərbaycan qadınının bugünkü durumundan, ictimai-siyasi, elmi-mədəni fəaliyyətindən, Azərbaycanı dünya birliyində təmsil etmə qabiliyyətindən, dövlət idarəçiliyində uğurlarından, keçmiş irsə böyük ehtiramından, adət və ənənəyə milli düşüncə tərzinə sadiqliyindən, bir də ən əsası, Azərbaycan qadını adını ləyaqətlə daşımasından fəxarətlə danışmaq olar.

Gün ərzində hansı işlə məşğul olursa-olsun, günün sonunda da, ömrü boyu da öhdəsinə düşən funksiyaları biri-birindən ayırmır. Hər dəqiqə köməyə gəlmək iqtidarında olan, böyütdüyü gənc nəslin tərbiyəsinə cavabdeh olan anadır. Yəqin onun gücü də məhz bunları birləşdirmək qabiliyyətindədir.



## § 13. Hüquq mədəniyyəti və vahid hüquq məkanı

*Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra beynəlxalq birliyin bərabərhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruluculuğunu özünün inkişaf yolu seçmişdir.*

Bu gün hər bir cəmiyyətin və dövlətin inkişafı demokratiya və insan hüquqlarına hörmət olmadan mümkün deyildir. Demokratiya, inkişaf, insan hüquqlarına hörmət bir-birini şərtləndirən amillərdir. İnsan hüquqları müxtəlif iqtisadi və siyasi sistemlərin, ideologiya və mədəniyyətlərin mövcud olduğu müasir dünyamızda insanları və cəmiyyətləri birləşdirən əsas meyardır. Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir.

Bu bir danılmaz həqiqətdir ki, insan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur.

Məhz bu səbəblərdən, bu meyarlardan çıxış edərək ulu öndərimiz Heydər Əliyev müstəqil Azərbaycanın əsas qanunu olan Konstitusiyanın hazırlanmasında insan hüquq və azadlıqlarına xüsusi önəm verilməsini vacib sayırdı.

Bu gün inkişaf etmiş dünya dövlətlərinin ekspertləri də etiraf edir ki, 1995-ci il noyabrın 12-də ümumxalq referendumunda qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarına önəm verən ən demokratik Konstitusiyalarından biridir.

Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsində yazılır: "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir".

12 fəsil, 158 maddəni özündə birləşdirən bu ali Qanunun bütöv bir fəsli və 60-a yaxın maddəsinin məhz insan hüquq və azadlıqları ilə bilavasitə bağlılığı dövlətimizin demokratik cəmiyyət və demokratik dövlət qurulucuğuna necə böyük önəm verdiyini təsdiq edir.

2001-ci ildə Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbul olunmasından sonra Qərbin ən mütərəqqi və demokratik dəyərlərinə yiyələnməklə milli qanunvericiliyimizdə də əsaslı dəyişikliklər baş verdi və bu dəyişikliklər 2002-ci il avqustun 24-də ümumxalq səsvermədə qəbul olunaraq Konstitusiya mətninə daxil edildi.

2001-ci il dekabrın 28-də Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında Konstitusiya qanunu, 24 dekabr 2002-ci ildə isə Azərbaycan Respublikasında İnsan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında Konstitusiya qanunu qəbul edildi.

Bu gün istər bu iki Konstitusiya qanununun, istərsə də bilavasitə insan hüquqlarının genişlənməsinə təminat verən "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "İnformasiya əldə etmək haqqında" və sairə qanunların işlənib hazırlanması və qəbulunda komissiyamızın xüsusi rolu və əməyi olmuşdur. Milli Məclisin iclaslarında müzakirə olunan yüzlərlə qanun layihələri ilə bağlı komissiyamızın ekspertiza rəyləri olmuşdur.



Söz yox ki, bu zaman Qərbin mütərəqqi nailiyyətləri nəzərə alınmaqla milli xüsusiyyətlərimiz, mənəvi dəyərlərimiz və obyektiv gerçəkliklər əsas götürülür. Son dövrlərdə bizi sevindirən hallardan biri də odur ki, hər hansı qanun layihələrinin müzakirəsində dövlət və hökumət təşkilatları ilə yanaşı qeyri-hökumət təşkilatları da fəallıq göstərir, öz təklif və layihələrini bizə göndərirlər. Biz istəyirik ki, bu əməkdaşlıq daha da genişlənsin, cəmiyyətin daha böyük hissələrə qanun yaradıcılıq prosesinə cəlb olunsun. Çünki qanunlar hər hansı qurum üçün deyil, bütövlükdə cəmiyyətin inkişafı üçün hazırlanır və qəbul olunur.

Bu bir həqiqətir ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də möhtərəm Prezidentimiz İlham Əliyev cənabları tərəfindən uğurla həyata keçirilən daxili və xarici siyasət ölkəmizi regionun ən nüfuzlu dövlətlərindən birinə çevirmişdi. Dövlətimizin iqtisadi qüdrəti yüksəlmiş, əhalinin həyat səviyyəsi yaxşılaşmışdır. Söz yox ki, bu inkişaf, bu tərəqqi ölkədə insan və vətəndaş hüquqlarının möhkəmlənməsinə daha geniş şərait yaradacaqdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının ölkənin şimal bölgəsində zəhmətkeşlərlə görüşü zamanı söylədiyi bir fikri mən bir daha belə məmurların diqqətinə çatdırmaq istərdim: "Hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və vəzifə borcunu vicdanla yerinə yetir-

sin. Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstəriblər və biz də bu etimadı doğrultmalıyıq".

Bu gün Azərbaycan Respublikasının Milli Məclisi ümumbəşəri və demokratik dəyərlərə əsaslanmaqla bütün fəaliyyətini dövlətçiliyimizin və müstəqilliyimizin daha da möhkəmləndirilməsi, insan hüquqlarının genişləndirilməsi istiqamətində davam etdirir.

İnanırıq ki, Heydər Əliyev ideyalarına sadiq olan hər bir vətəndaş sözdə deyil, əməli işdə xalqımıza sədaqətlə xidmət edəcək, insan və vətəndaş hüquqlarının pozulmasına qarşı daim mübarizə aparacaqdır.



## § 14. İnsan hüquqları və azadlıqları sahəsində milli qanunvericiliyin inkişaf perspektivləri

*Bəşəriyyətin ən böyük nailiyyəti olan insan hüquqları ideyası, qarşılıqlı münasibətlərin universal dəyəri kimi tarixi təcrübə və sınaqdan çıxmış, müasir cəmiyyətin optimal mövcudluq forması qismində qəbul edilmişdir. Bu gün insan hüquqları bütün fundamental hüquqların – siyasi, sosial, iqtisadi, mədəni, mənəvi və s. haqların əsas göstəricisi, inkişaf səviyyəsini dəyərləndirən başlıca meyarı qismində qəbul edilir.*

Bu ona görə mümkün olmuşdur ki, insan hüquqları hər bir cəmiyyətdə, eləcə də bütün dünyada birgəyaşayış münasibətlərinə, həyatımıza bir insanilik, dünyagörüşümüzə humanistlik ölçüsü gətirir. Yalnız insan hüquqlarının təmin edildiyi təqdirdə dünyanın inkişaf dinamikasının mütərəqqi, müsbət istiqamətə yön aldığı məlum olur.

Azərbaycanda dövlət müstəqilliyi əldə edildikdən sonra insan hüquqlarının təminatına yönümlü, keyfiyyətcə tamamilə yeni qanunvericilik sistemi təsbit olundu. Bütün normativ baza yeniləşdirildi, yeni hüquq institutları Konstitusiya Məhkəməsi, insan hüquqları üzrə müvəkkil – ombudsman yaradıldı, beynəlxalq hüququnun prinsiplərinin prioritetliyi nəzərə alınaraq, yeni cəmiyyətdə insan hüquqları sisteminin yeni kriteriyaları

müəyyənləşdirildi. Dövlət müstəqilliyinin əldə olunmasından keçən 15 il ərzində, milli qanunvericiliyin təkmilləşdirilməsi, onun beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə uyğunlaşdırılması prosesinin həyata keçirilməsi, insan hüquqlarının konstitusion tənzimlənməsinin səmərəliliyinin artması, Azərbaycanda qanunvericilk sisteminin beynəlxalq hüquq məkanına inteqrasiya istiqamətində aparılan fəaliyyət ardıcıl olaraq davam edir və etməkdədir. Bu gün Azərbaycanda fərdi, ictimai və dövlət maraqlarının optimal balansını ən yaxın gələcəkdə də təmin edə bilən, insan hüquq və azadlıqlarının reallaşdırılmasını dövlətimizin ali məqsədi olduğunu sübut edən Milli qanunvericilik sistemi mövcuddur.

"İnsan hüquqları" ilk baxışda adi şüurun təsəvvür etdiyi kimi yalnız abstrakt anlayış və konkret obyekt deyil, çoxçalarlı məzmuna malik olan tarixi təkamülü, hətta bütöv keçid mərhələlərini özündə daşıyan dinamik bir fenomendir. Bunun nəzərə alınmaması nəinki müxtəlif fikir ayrılığına, həm də ən başlıcası müasir beynəlxalq hüququn əsas prinsiplərinin praktika tətbiqində ortaya çıxan ağrılı problemlərin həll edilməməsinə səbəb olur. İnsan hüquqları birdəfəlik müəyyənləşdirilmiş ehkam xarakterli deyildir. Tarix və zaman bu sahəyə də öz korrektivlərini edir, insan haqlarının yeni şəraitdə həlli vəzifəsi ortaya çıxır. Bu baxımdan yaşadığımız zaman, dünyada baş verən proseslər təkrarsız məzmun və mənaya malikdir.

Beynəlxalq hüquq məkanının, o cümlədən insan hüquqlarının qloballaşması prosesi ilə bağlı milli qanunvericilik sisteminin hiss etdiyi təsirlər, optimal model axtarışları və başlıca meylləri diqqəti cəlb etmək istərdik.

XX əsrin sonlarında totalitarizmin süqutu ilə insan hüquqları sahəsində nəinki bütün problemlər çözüldü, əksinə



mahiyyətcə daha ağır və miqyaslı olduğu təsdiq edilən yeni qlobal problemlər dünyanı təhdid etməyə başladı. Müasir dünya inkişafının başlıca meyli olan qloballaşma həm də müxtəlif səbəbli münaqişə və gərginlik ocaqlarının yaranması ilə müşayiət olundu. İnsan hüquqları sahəsində müsbət imkanlarla yanaşı çoxsaylı problemlər ortaya çıxdı. Bu gün milli qanunvericiliyin təkmilləşdirilməsi və perspektivlərinə təsir edən başlıca meyillər, birincisi qanunvericilk sisteminin qloballaşması və universallaşması, ikincisi ona əks olan digər meylin: regionlaşma və unikal sivilizasion kontekstin daha israrla özünütəsdiq etməsi meyilləri mövcuddur.

Bu gün İnsan hüquqları kataloquna yeni-yeni prinsiplərin əlavə edilməsi, hüququ pozulan tamamilə fərqli insan qruplarının təsnifləşdirməsi, onların statusunun beynəlxalq hüquqda optimal definisiyası təxirə salınmadan həllini tələb edən məsələlərdir. Ən başlıcası beynəlxalq hüquq normaları ilə milli qanunvericilik tarixən sınanmış hüquqi prinsiplərin, bəşəri dəyər və ənənələrin ahəngdar sintezinə, kövrək balansına nail olmaqdır.

Azərbaycan dövlət insan haqlarının təminatını öz ali məqsədi kimi Konstitusiyada təsbit etmiş və beynəlxalq hüquq prinsiplərinin prioritetliyini xüsusi olaraq vurğulamışdır. Lakin ciddi təhlil edərkən milli qanunvericilik sisteminin insan hüquqlarının təminatı baxımından dünyada mütərəqqi təcrübə və örnək ola biləcək müddəaların mövcud olduğu mütəxəssislərə bəllidir. Bunun təfərrüatına varmaq imkanımız yoxdur. Buna paralel olaraq bəzi hallarda "Beynəlxalq hüququn prinsipləri" qismində hər hansı bir ölkənin insan hüquqları sisteminin etalon hesab edilməsi, onun optimal model kimi tətbiq edilməsini, beynəlxalq hüquq praktikasının birtərəfli unifikasiyasını təklif

edən mövqelərin yanlış olduğunu da diqqətə çəkmək istərdik.

Tarix boyu dövlətlər arasında zamanın sınağından çıxmış hüquq və birgəyaşayış normalarının, nizam qaydalarının ortaq bəhrələnməsi prosesi getmişdir. Müxtəlif ölkələr çeşidli siyasi hüquqi təcrübəyə, fərqli hüquq mədəniyyətinə malikdir. Azərbaycanda insan hüquqlarına dair bütün bəşəri, demokratik ideyalar əsas qanunda təsbit edilmişdir. Əlbəttə ki, 15 il həmin ideyaların ictimai şüura nüfuz etməsi, ənənə mədəniyyətinin hüququ mədəniyyəti ilə tamamlanması və zənginləşməsi baxımından çox qısa bir müddətdir. Qlobal hüquq məkanına inteqrasiya istiqamətində Azərbaycan inamla addımlayır. Vətəndaş cəmiyyəti, hüquqi dövlət, demokratik siyasi quruluşun bərqərar olması üçün bütün öhdəliklərə imza atılmışdır. Ölkəmiz ölüm cəzasının ləğvinə münasibətdə də dünyanın inkişaf etmiş ölkələrinə nisbətən mütərəqqi mövqedədir. Məsələn: ABŞ-ın 38 ştatının qanunvericiliyində ölüm cəzası ləğv edilmədiyindən bu ölkə uşaq hüquqlarına dair beynəlxalq Konvensiyanı hələ də imzalamamışdır. Azərbaycan dövləti insan hüquqlarının təminatı üçün davamlı, inkişafa yönümlü strateji hüquq siyasətini həyata keçirir.

Azərbaycanda insan hüquqlarının maksimum təminatına maneə yaradan problemlər mövcuddur. Paradoksal görünsə də, bu maneələr beynəlxalq hüququn ümumi qəbul edilmiş prinsiplərinə bütün ölkələr tərəfindən əməl olunmaması, beynəlxalq qanunvericilikdə müəyyən boşluqların olması, yaxud da insan hüquqlarının obyektiv qanuni əsaslardan daha çox subyektiv siyasi məqsədlərə tabe edilməsinin nəticəsi kimi mövcud olan "ikili standartlar" vəziyyətinə münasibətdə dünya ictimaiyyətinin qəti mövqeyinin hələ də ortaya qoyulmamasının nəticəsidir. Məsələn, bu gün ərazi bütövlüyünün pozulması. Etnik separatizmin və terrorizmin yalnız konkret dövlət əleyhinə deyil, bütün bəşəriyyət əleyhinə yönəldilmiş cinayətlər kimi təsbit edilməsi, dünyada hüquqları ən çox pozulan insanların – qaçqın və məcburi köçkünlərin status və problemlərinin həlli məsələsində açıq-aşkar boşluğun olduğu da həqiqətdir. Son illər BMT-nin sənədlərində "ölkə daxilində məcburi didərgin salınmış şəxslər"in statusunun və hüquqlarının hələ də müəyyən edilməməsindən duyulan narahatlıq dəfələrlə vurğulanmışdır. Öz ölkəsi daxilində zorla didərgin salındığı üçün bu insanların "qaçqın statuslu" şəxslərin hüquqi müdafiə sistemindən kənarda qaldığı nəzərə çatdırılmışdır. Bu gün dünyada 20 milyona yaxın qaçqın, təkcə Yaxın Şərqdə isə "ölkə daxilində zorla didərgin salınmış şəxslər" statusunu daşıyan 25 milyon insan, Azərbaycanda da 1 milyon qaçqın və köçkün mövcuddur. 1951-ci ildə bütün dünyada qaçqınların sayı 1 milyon idi və onlar hamısı avropalı idi. Bu gün qaçqınlar Asiya və Afrika mənşəlidir. Bütün qaçqınların 80%-i qadın və uşaqlardır. BMT-nin qaçqınlar üzrə Ali komissarı xanım Sadako Oqatonun dəqiq qeyd etdiyi kimi: "qaçqın hüquqlarının təminatına münasibət bütün dünyada hər bir dövlətin insan hüquqlarına münasibətinin meyarı, göstəricisi kimi qəbul edilməlidir".

Hazırda qaçqın və məcburi köçkün statuslu insanların hüquqlarının təmin edilməsi sahəsində beynəlxalq qanunvericilikdə, onlara zəruri ilkin yardımdan tutmuş son – repatriasiya tədbirlərinədək böyük bir müstəvidə boşluq hələ də qalmaqdadır. Azərbaycanın ərazi bütövlüyünün pozulması, onun 1 milyona yaxın əhalisinin öz tarixi torpaqlarına qayıtması kimi fundamental hüquqların hələ də təmin edilməməsi məhz bu cür səbəblərlə əlaqədardır.

İnsan hüquqlarının təkmilləşdirilməsi sahəsində milli qanunvericiliyin perspektivlərinə təsir edən digər proses: unikal, sivilizasion, tarix-mədəni prinsip və faktorlara söykənən regionlaşma, hüquq plüralizminin güclənməsi meylidir. Bu baxımdan milli və beynəlxalq qanunvericilik sistemlərinin uyğunlaşdırılması prosesində ahəngdar sintez və praqmatik konsesusa nail olmaq əvəzinə ifrat standartlaşdırma, mütləq reqlamentləşdirmə kimi praktika ziddiyyətli nəticələrə gətirə bilər. Hər bir insan ilk növbədə konkret bir ölkənin vətəndaşı, sonra isə bəşər cəmiyyətinin üzvü kimi insan hüquqlarına malikdir. Beynəlxalq hüquq normalarına əməl etməklə yanaşı müəyyən mədəniyyətin daşıyıcısıdır. Biz yaxşı bilirik ki, bütün xalqların siyasi hüquqi fikir tarixində insan azadlığını yüksək tutan təməl ideyalar mövcuddur. Əsas vəzifə onların ortaq təmas nöqtələrinin tapılması və işlək mexanizminə nail olunmasıdır. Belə olarsa, müasir dünyada müşahidə edilən, BMT Baş katibi Kofi Annanın xüsusi vurğuladığı kimi Şərqə, xüsusilə müsəlmanlara münasibətdə ikili standartların tətbiqi praktikası aradan qaldırıla bilər.

İnsan hüquqlarının qloballaşması dünya hüquq məkanını təşkil edən dövlətlərin mədəni-mənəvi spesifikasını da nəzərə alan kompromislərin labüd olacağını diqqət mərkəzinə gətirir. Məsələn, 2000-ci ildə Avropa Şurasında şura üzvü olan dövlətlərdə "Seksual azlıqların vəziyyəti" adlı məruzə və buradan irəli gələn tövsiyələr səslənmişdir. Təbii ki, bu cür tövsiyələr milli qanunvericilik məkanında bir çox spesifik amilləri nəzərə almağı tələb edir.

Vahid hüquq məkanının formalaşması, milli və beynəlxalq qanunvericiliyin ünsiyyəti zamanı qarşıya çıxan arzuolunmaz hallar hüquqi və əxlaqi dəyərlərin sintezinə deyil, bir-



birindən təcrid edilməsi hallarının qanuni tənzimləmə mexanizminin ləng formalaşdırılması ilə əlaqədardır. Bu gün dünyadakı insan haqlarının dolğun təminatını əngəlləyən qlobal miqrasiya və demoqrafik siyasət, qlobal problem olan yoxsulluq problemi, yeni azlıqlar və s. kimi problemlər vətəndaş cəmiyyətinin formalaşmasında ifrat qütblərdən çəkinmək kimi məsələlər məhz milli və bəşəri aspektlərin optimal sintezi modelinin, regionlaşma meylini də nəzərə alaraq formalaşmasını diktə edir.

Beynəlxalq hüquq məkanının qloballaşma və regionlaşması arasındakı disproporsiya bu sahədə mövcud beynəlxalq təşkilatlanmaya müqayisəli nəzər salınanda adi gözlə belə sezilir. Məsələn, Avropa ilə müqayisədə Asiyada indiyə qədər insan hüquqları sahəsində regional təşkilatlanma ləng gedir. Milli və regional insan hüquqlarının təminatını koordinasiya edən təşkilat və qurumların formalaşması gecikir.

İnsan hüquqlarının ideal təminatı qeyri-mümkündür. Bu gün hətta BMT-nin insan hüquqları komissiyası da geniş tənqid obyektidirsə, bu da reallıqdır. Ən başlıca odur ki, bəşəriyyət dialoq, anlaşma və konsensusa aparan universal dəyərlər axtarışındadır və insan hüquqları bu dəyərlərin ən mühüm qatıdır. Belə ki, insan hüquqları təmin olunarsa dünyada və cəmiyyətdə sülh, ədalət, ləyaqətli həyat təmin olunur.

Bu gün Azərbaycanda vətəndaş cəmiyyətini, hüquqi dövlətin qurulması və insan hüquqlarının təminatı sahəsində çox gərəkli bir ənənənin başlanğıcı qoyulur desək, zənnimcə yanılmarıq.

"Hüquq" və "qanun" anlayışları bir-birindən ayrılmazdır. Artıq neçə illərdir ki, biz onları gündəlik tətbiq edir və lakonik məzmunu arxasında hansı dərin mənanın, bəzən də bə-

şər nəslinin bir çox nümayəndələrinin fədakar əməyinin dayandığının fərqinə varmırıq. Tarix boyu bir cəmiyyət digərindən burada insan hüquqlarına necə riayət edilməsi ilə fərqlənmişdir. Hətta tarixin bir mərhələsinin digərindən qanun və hüquq anlayışlarına münasibətin dəyişməsindən asılı olaraq izləmək mümkündür.

XX əsr bəşəriyyətin birgə yaşayış qanunlarının müəyyənləşdirilməsi və insan hüquqlarının bərqərar edilməsi sahəsində xüsusi önəm daşıyır. Adətən XX əsri elmdə atom, kompyuter və bombanın kəşfi əsri adlandırırlar. Əslində, öz miqyas və mənasına görə insan hüquqlarının təminatını müəyyən edən qanunların XX əsrdə intensiv qəbulu və tətbiqi bundan az əhəmiyyətli deyil və əksinə sosial mahiyyətli kəşf kimi daha böyük önəm daşıyır. Çünki, min illər boyu insanlar azadlıq arzusu ilə yaşamış, lakin bu söz saysız-hesabsız nəsillər üçün məhz əlçatmaz arzu olaraq qalmışdır.

Bu gün danılmaz bir həqiqətdir ki, insan həyatının bütün sahələrindəki qanunlar iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə və s. son məqamda bir sözdə: "insan hüquqları" sözündə konsentrasiya olunur. Azərbaycanda milli qanunvericilik sisteminin təşəkkülü və formalaşması, buradakı "milli" ifadəsinin hüquqi-konstitusion əsasa söykənməsi, yəni müstəqil dövlətin yaranması ilə mümkün ola bilmişdir.

Azərbaycanda qanunverici hakimiyyəti təmsil edən müstəqil parlamentin fəaliyyəti də insan hüquqları və azadlıqlarının təminatı baxımından çox mühüm addım olmuşdur.

Müstəqil Azərbaycan Respublikasının ilk parlamentində cəmi 9 komissiya fəaliyyət göstərirdi ki, onlardan biri də "İnsan hüquqları və millətlərarası münasibətlər daimi komissiyası" adlanırdı. Cəmi 3 nəfər deputatı özündə birləşdirən bu



komissiyanın təbii ki, fəaliyyət dairəsi də məhdud idi.

Bu illər ərzində insan hüquqları sahəsində suveren dövlətin, vətəndaş cəmiyyəti və demokratiyanın formalaşması üçün təməl qanunların hazırlanması illəri olmuşdur.

Qanunvericilik yaradıcı bir prosesdir. Hazırkı dövr üçün dünyada baş verən proseslərlə əlaqədar olaraq qlobal hüquq məkanına inteqrasiya, beynəlxalq hüquqi sənədlərin milli məkana implementasiyası prosesini səciyyəvi hesab etmək olar. İnsan hüquqları sahəsində beynəlxalq qanunvericiliyin tətbiqi, onların mexaniki istifadəsi və transferi kimi başa düşülə bilməz. Bu elə bir yaradıcı prosesdir ki, milli dövlət onun obyekti deyil, bərabərhüquqlu subyekti olmaq statusunu həmişə özündə saxlayır. Buna görə də, konstitusiyada əksini tapmış "beynəlxalq qanunvericiliyin prioritetliyi" müddəası ümumbəşəri dəyərlər kimi tanınan prinsiplərə şamil edilir. Bu sahədə hüquqi dinamikaya nəzər salsaq BMT-nin statistik məlumatına əsasən son dövrdə insanların sosial-mədəni hüquqlarının aktuallığı ön plana keçmişdir. Şübhəsiz ki, bu da hər bir insanın konkret bir ölkənin vətəndaşı, konkret bir milli-mədəni irsin, dövlətçilik ənənələrinin daşıyıcısı olması kimi səbəblərdən irəli gəlir.

İnsan hüquqlarının təminatında "yatmış hüquq" effekti adlı bir anlayış var. Bunun səbəbi qəbul edilən qanunların mükəmməl olmaması deyil, əksinə onların həyatda, praktikada tətbiq edilməsi tətbiqi mexanizmlərini ləngidən əsas amillərdən biri kimi cəmiyyətin müxtəlif sahələrində işləyən insanların şüurundakı inersiya passivliyin olması ilə bağlıdır. Hüquq mədəniyyəti və hüquqi maarifləndirmə işinin səmərəli təşkilinə zərurətlə bağlıdır. TV-də, KİV-lərdə parlamentin fəaliyyəti işıqlandırılır, lakin bu gün "hüquq" kanalının fəaliyyətinə və cəmiyyətdə hüquq mədəniyyətini real mənzərəsinə bələd olmaq

üçün sosioloji mərkəzlərə ehtiyac var. Bugünkü tədbirimizi məhz bu istiqamətdə işlərin daha da uğurlu getməsi üçün təşəbbüs kimi də qəbul etmək olar. Dövlətimizin qanun sahəsində göstərdiyi həssaslığı görən vətəndaşlarımız da ümumi bir məsuliyyət daşıdığına, bu məsuliyyəti bölüşdürdüyünə əmin olacaqdır.

Demokratik cəmiyyətin və hüquqi dövlət quruculuğunun atributlarından sayılan, insanların fundamental hüquq və azadlıqlarının təmin edilməsi ideyası nə bu günə, nə də dünənə məxsusdur. Lakin məhz beynəlxalq münasibətlərdə və beynəlxalq hüquq müstəvisində insan hüquqları probleminin statusu və çəkisi həmişə eyni olmamışdır. Xüsusən də XX əsrin II yarısından etibarən bu problem beynəlxalq əməkdaşlıq sistemində heç vaxt gündəmdən düşməmişdir.

Artıq BMT-nin Nizamnaməsinin preambulasında insanların əsas hüquq və azadlıqlarının təmin olunmasına inam öz əksini tapmışdır.

Bununla belə insan hüquqları anlayışının dinamik məzmununu təhlil etsək, həmin dövrdə, bir-birinə qarşı duran iki sistemin mövcud olduğu bir şəraitdə, bu sahədə beynəlxalq əməkdaşlığa ideoloji təsəvvürlər təsir və təzyiq göstərirdi. Əksər hallarda ideoloji aspekt hüquqi aspekti üstələyir, bəzən də qarşılıqlı ittiham üçün bəhanə və əsas kimi məqsədlərlə istifadə edilirdi.

Beynəlxalq münasibətlərdə totalitar rejimlərin çökməsi ilə, insan hüquqlarının təmin olunması sahəsində nəinki görünməmiş imkanlar üzə çıxdı, həm də yeni məzmunlu problem və tələblər qarşıya çıxdı. Dövlətlərarası münasibətlərin deideologizasiyası, iki sistemin qarşıdurmasına son qoyulması vəziyyəti kökündən dəyişdi. Yəni bir tərəfdən insan hüquqları sahəsində



mövcud olan problemləri iki sistemin mənafeyi baxımından deyil, hər bir konkret insanın vətəndaşın hüququ və azadlığı nöqteyi-nəzərindən həll etmək üçün real imkanlar yarandı.

Digər tərəfdən isə bu imkanların gerçəkləşməsi istiqamətində beynəlxalq qurumların əsaslana biləcəyi işlək fəaliyyət mexanizmi, mövcud hüquqi bazanın praktikaya tətbiqi, beynəlxalq qanun yaradıcılıq fəaliyyəti ilə müqayisədə geriləmə mövqeyində mövcud oldu.

Bu baxımdan qeyd etmək istərdim ki, insan hüquqlarının qorunması sahəsində beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi, yeni-yeni beynəlxalq müqavilə, təşkilat və sazişlərin yaranması meylindən daha çox, artıq mövcud olan sanballı beynəlxalq hüquqi bazanın inadla həyata keçirilməsindən, qanunlara ciddi əməl olunmasından daha çox asılı olacaqdır.

İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın həyata keçirilməsi Azərbaycanda hüquqi dövlət quruculuğunun strateji prioriteti sayılan məsələlərdəndir və ölkəmizin beynəlxalq hüquqi məkana inteqrasiyası intensiv sürətlə davam edir.

Azərbaycan insan hüquqları və azadlıqlarını əks etdirən ən mühüm beynəlxalq konvensiya və sazişlərin əksəriyyətinə qoşulmuşdur. 30-dan çox əsas pakt və konvensiyalara imza atmışdır. İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlıq qlobal və regional səviyyələrdə həyata keçirilir. Azərbaycan üçün Avropa regionunun hüquqi məkanında təmsil olunmaq da xüsusi əhəmiyyətə malikdir. Çünki Azərbaycan Avropa Şurasının üzvüdür və bu hüquqi mühitin standartlarına cavab verməlidir.

İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi, onun mahiyyət və məzmunca yeniləşməsini zəruri edən səbəblərdən biri də müasir dünya inkişafının başlıca meyli sayılan qloballaşmadır. Dünyada təhlükəsizliyə maneə

olan beynəlxalq terrorizm, millətçi-separatizm kimi hadisələr ayrıca ölkələri deyil, bütün dünya birliyini hədələyir və insan hüquqlarının pozulmasının başlıca səbəblərinə çevrilmişdir. Azərbaycan antiterror koalisiyasının üzvü kimi dünyanın harasında baş verməsindən asılı olmayaraq insan hüquqlarının pozulmasını pisləyir. Qarşılıqlı anlaşma əsasında bərabərhüquqlu tərəfdaş kimi hüquq müdafiəsi sahəsində konstruktiv beynəlxalq əməkdaşlığı dəstəkləyir.

Azərbaycan dövləti insan hüquqları mövzusunun qərəzli, dar maraqlar xeyrinə istifadəsi və təbliğinin qeyri-məqbul hesab edir və belə mövqeyin perspektivi olmadığına əmindir. Bu insan hüquqları ideyasının öz mahiyyətinə ziddir.

Həmçinin beynəlxalq hüquqda "ikili standartlar" kimi bəlli olan amilin, beynəlxalq münasibətlər və beynəlxalq hüquq sisteminin nüfuzuna xələl gətirən bir cəhətdir. Bu baxımdan insan hüquqlarının təkmilləşdirilməsi sahəsində beynəlxalq əməkdaşlığın mövcud forma və mexanizmlərində dinamik islahatlar aparılması tərəfdarıdır. Beynəlxalq əməkdaşlıq özünün fəaliyyətini insan hüquqlarına riayət edilməsinin universal standartlarını müəyyənləşdirmək, milli dövlətlərlə konstruktiv, qarşılıqlı əlaqələr qurmağa istiqamətləndirməlidir.

Milli və beynəlxalq əməkdaşlığın iki aspektdə davam etdirilməsi:

1) insan hüquqları üzrə mövcud qurumların təcrübə və səlahiyyətini qeyd-şərtsiz qəbul edilməsi;

2) Azərbaycanın milli qanunvericiliyinin beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin edilməsi - beynəlxalq praktikada məqsədəuyğun hesab edilir.

Beynəlxalq əməkdaşlığın intensivliyinə və səmərəliliyinə təsir edən amillərdən biri, yeni və ən yeni qanunvericilik



sisteminin mənimsənilməsi və tətbiqi gedişində tələb olunan təbii zaman müddətinin mövcudluğudur. Lakin bu hüquqi inteqrasiya üçün ciddi maneə ola bilməz. Azərbaycan dövlətinin imzaladığı beynəlxalq müqavilələr onun hüquq sisteminin üzvi tərkib hissəsidir. Beynəlxalq müqavilə və öhdəliklərə əməl edilməsi prioritet prinsip kimi Konstitusiyada əksini tapmışdır. Konstitusiyanın 148-ci maddəsinin 2-ci bəndinə görə beynəlxalq müqavilələr Azərbaycan qanunvericiliyinin hüquqi əsasıdır.

İnsan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın təkmilləşdirilməsi bir çox həlqələrin, beynəlxalq hüquqi aktların əsas müddəaları, beynəlxalq əməkdaşlığı təmin edən konkret qurumlar və beynəlxalq mexanizmləri əhatə edən institutsional koordinasiya təsisatının formalaşmasını zərurətə çevirmişdir. İstər tövsiyə və öhdəlik xarakterli, istərsə də məcburi riayət tələb edən beynəlxalq saziş və sənədlər həyata keçirilməklə tamamlanmalıdır. Əks təqdirdə beynəlxalq əməkdaşlığın effektivliyinə inam azala bilər.

Azərbaycan Avropa Şurasına üzv olduqdan sonra insan hüquqlarının Strasburq mexanizmini qəbul etmişdir. Ölkəmiz həmçinin BMT-nin bütün müvafiq qurumları, (Cenevrədəki İnsan Haqları Mərkəzi, İnsan Hüquqları Üzrə Ali Komissarlıq və s.), həmçinin müxtəlif aspektli tematik prosedurların əlaqələndirici nümayəndələri ilə sıx əməkdaşlıq qurmuşdur. BMT-nin İnsan Hüquqları Komissiyasının (1977) işçi qrupları ilə birgə fəaliyyətin həyata keçirilməsinə böyük önəm verir.

Azərbaycan insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərinə sadiq olduğunu həmişə göstərmişdir. Həm də bu sahədə yeni hüquqi təşəbbüs və təkliflərlə nüfuzlu beynəlxalq tədbirlərdə dəfələrlə çıxış etmişdir.

## § 15. Uşaq hüquqlarının təminatı – bəşəriyyətin gələcəyinin təminatıdır

*Bəşəriyyəti bir ailəyə bənzədirlər. Təbii ki, bu ailənin uşaqları, yəni dünyanın uşaq əhalisi adlandırılan üzvləri də var. "Uşaqlar", "uşaq" sözü hər xalqın dilində bir cür səslənsə də, onlara məhəbbətin, uşaq fenomeninin mənası tərcüməsiz başa düşülür. Bu tarix boyu belə olmuşdur. Uşaqlardan bəhs ediləndə üzlərə təbəssüm qonur, gülüş dolu məsum çöhrələr göz önünə gəlir, uşaq sözü ilə "dünyanın gözəlliyi", "bəşəriyyətin gələcəyi" kəlmələri qoşa işlədilir.*

Zəmanəmizin ən ciddi problemlərindən olan "uşaqlar və qaçqınlar" sözlərini yanaşı görmək məhz buna görə nə qədər dəhşətli olsa da yaxın tarixin acı reallığıdır. Ən dözülməz hal isə qulaqların bu kəlmələrə sanki öyrəşməsi, vərdiş etməsidir.

Əlbəttə ki, yaxın tarix, yəni XX əsr həm də ümumilikdə insanlara, eləcə də uşaqlara insani münasibətin, planetar humanizmin gerçəkləşməsi prosesinin başlanğıcı olmuşdur. İnsan hüquqlarına dair Bəyannamə, Uşaq Hüquqlarına dair beynəlxalq Konvensiya və s. mühüm sənədlər qəbul edilmişdir.

Lakin XX əsr eyni zamanda bəşər tarixinin hər bir mərhələsində mövcud olan problemlərin qloballaşması dövrü olmuşdur. Planetin qlobal problemləri adlanan bu problemlər təbii ki, bəşər ailəsinin ən kövrək, məsum və qayğıya ehtiyacı



olan üzvləri – uşaqlar üçün həyati təhlükəyə çevrilmişdir. Müasir dünyanı təhdid edən, etnik-separatizm və beynəlxalq terrorizm qlobal problemlər sırasına daxil olmuşdur. İnsanlara, dünyaya qarşı zorakılığı məqsəd və vasitə seçənlər onu hər bir vəchlə reallaşdırmağa can atdığı üçün hər cür insani keyfiyyətlərdən məhrumdurlar. Nəticədə isə heç bir təsəvvürə sığmayan "qaçqın uşaqlar" – etnik təmizləmə və kütləvi qırğın siyasətinin qurbanları olan əhali təbəqəsi öz problemləri ilə üz-üzə qalmış olur.

Azərbaycan adlı məmləkətimizdə gedən elan olunmamış müharibə və etnik separatizm nəticəsində, onun bir milyon əhalisi qaçqınlıq həyatını yaşayır. Qaçqınlıq dedikdə ilk növbədə zorakılıq, təzyiq, insan hüquqlarının ən kobud surətdə pozulması, həyatda ən ağır məhrumiyyətlərə məruz qalmaq, soyqırım siyasətinin qurbanları kimi ənənəvi həyat tərzinin bircə anda məhv edilməsi, insanı cəmiyyətə, öz əhatəsinə bağlayan bütün tellərin parçalanması, eləcə də həmin əhatənin yox edilməsi göz önündə canlanır.

İnsanlığa qarşı cinayət kimi səciyyələndirilən zorakılığın ən ağır zərbəsi qaçqın ailələrin üzvü olan uşaqlara dəyir. Bunları təsəvvür etmək üçün qaçqınlıq həyatını yaşayan uşaqların düçar olduğu ən ağır fiziki və mənəvi sınaqların, itkilərin, psixoloji travmaların təsiri və mənasını dərk etmək gərəkdir. Biz, Azərbaycan uşaqları etnik separatizm və terrorizmin acı nəticələri ilə üz-üzə qalmış qaçqın həmyaşıdlarımız barədə həqiqətlərin bütün dünyada bəlli olmasını, zorakılığın məsum taleləri necə şikəst etdiyini, onların və deməli ölkəmizin indisi və gələcəyi üçün hansı təhlükənin mövcud olduğunu var səsimizlə bəyan etməyə israrlıyıq.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin

dəhşətli sarsıntılarını öz ata-anaları ilə yaşayan, dəhşətli Xocalı soyqırımının qurbanı olan Azərbaycan uşaqları zorakılıq siyasətinin bütün ağırlığını öz gözləri ilə görmüş, insanlara əzab verilməsinin, öldürülməsinin, əsir alınmasının şahidi olmuşlar. Bu hadisələri təhlil edən böyüklər-tədqiqatçılar nəticədə uşaqların heç vaxt aradan qaldıra bilməyəcəyi ağır travmatik stresslərin, uşaqların sağlamlığına mənfi təsir göstərdiyini, uzun illər bu təsirlərin ağır təzahürləri ilə üzləşdiklərini qeyd edirlər.

Ən yaxın və doğma insanların, ata-analarının öldürülməsinin şahidi olan qaçqın uşaqlar psixoloji stressə məruz qalır, bu hadisələr onların yaddaşından heç cür silinmir. Onların bütün daxili aləmi, davranışı, təbii hissləri və münasibətləri alt-üst olur, kökündən dəyişir, daim əsəbi hal yaşayır, həyata inam və nikbinlik hissi yox olur.

Beynəlxalq hüququn təməl prinsipi sayılan "başqa dövlətin daxili işlərinə qarışmamaq", "ərazi bütövlüyünü pozmamaq" kimi prinsiplərə heç bir məhəl qoymadan, zorakılıqla etnik separatizmi həyata keçirən Ermənistan dövlətinin ölkəmizə qarşı başladığı elan olunmamış müharibədə minlərlə uşaq valideynlərini itirmiş, bacı-qardaşlarına əzab verilməsinin şahidi olmuş, böyüklərin təsəvvür belə etmədikləri əməllərinin acı nəticələrini yaşayırlar. "Qaçqın uşaq" statusunu səciyyələndirmək üçün "itki" sözünün bütün mənasını anlamaq lazımdır. Qaçqın uşaqlar nəinki ata-analarının və ən yaxın adamlarını, eləcə də öz evlərini, dostlarını, adət etdikləri sosial əhatəni bir sözlə hər şeyi itirmiş olurlar. Bu zorakılıq xüsusən də məktəbəqədər və yeniyetmə yaşındakı uşaqlar üçün tam fəlakətə bərabər olur. İtirilənlərin sayı bununla məhdudlaşmır: uşaqlara taleyin və təbiətin bəxş etdiyi bütün əqli qabiliyyətlər, intellektual və emosional potensial, fəallıq zəifləyir, depressiya və nev-



rozlar onları bütün həyatı boyu müşayiət edir.

Qaçqın uşaqlar adi insan həyatı üçün zəruri olan bütün vasitələrin (yaşayış üçün ev, ərzaq, su, tibbi xidmət və s.) kəskin çatışmazlığı şəraitində yaşayırlar. Ata-anaların zorakılıqla üzbəüz olaraq yaşadığı sarsıntı və şok vəziyyətlərin təsiri uzun müddət keçmədiyi üçün böyüklər öz valideynlik missiyalarını bütün dolğunluğu ilə reallaşdıra bilmir və bunun ağrısını bütün ailə birlikdə hiss edir.

Uşaqların kəskin dəyişən təbii həyat və sosial şəraitə uyğunlaşa bilməməsinin nəticəsi xəstəliyə səbəb olur. Başqa sözlə deyilsə, sağlamlıq yalnız xəstəliyin olmaması deyil, uşağın ahəngdar inkişafını təmin edən dolğun həyat tərzi deməkdir. Zorakılıq nəticəsində analoqu olmayan çətinliklər stress şəraitini yaradır, onlara uyğunlaşmaq isə heç cür mümkün olmur. Əsrlərlə yaşadığı tarixi torpaqlardan qovulduqda, insanlar vərdiş etdikləri ictimai dəstəkdən məhrum olurlar, nəticədə əsəb gərginliyi, həyəcan, depressiya və insanlararası münasibətlərdə münaqişələr üzə çıxır.

Uşaqların yeni mühitə uyğunlaşması, sosiallaşması şərtləri tamamilə dəyişir, onlara öyrəşməsi isə həm uzun müddət, həm də hərtərəfli dəstək tələb edir. İlk növbədə, zorakılığın nəticələrini aradan qaldırmaq, uşaqların psixologiyasında onun izlərini yox etmək, yeni mühitə uyğunlaşmaq üçün məktəb başlıca rol oynayır. Məktəblərdə tədricən uşaqların psixikasında yaşanılan sarsıntılara "məlhəm" qoyulması üçün hərtərəfli işin aparılması tələb olunur.

Azərbaycan dövləti qaçqın uşaqlar və zorakılıq problemini yaşayan ölkələr sırasındadır və bu uşaqlara yaşadığı itkilərin, üzləşdiyi məhrumiyyətlərin təsirini azaltmaq üçün dövlət siyasəti və proqramına uyğun iş aparılır.

Xüsusilə də Heydər Əliyev Fondu və onun prezidenti Mehriban xanım Əliyevanın qayğısı ilə qaçqın uşaqlar üçün zəruri olan yeni məktəblərin tikintisi onların sağlamlığı ilə bağlı problemlərin həlli üçün apardığı çoxşaxəli və miqyaslı fəaliyyət qaçqın uşaqların problemlərini mümkün qədər azaltmağa yönəldilmişdir.

Azərbaycana qarşı aparılan işğalçılıq və zorakılıq siyasətinin doğurduğu dəhşətdən, milyona yaxın insanın qaçqın düşməsindən danışarkən ümummilli lider Heydər Əliyev qeyd etmişdir: "Bu hadisələrə bütün bəşəriyyət əleyhinə törədilən cinayətlər kimi beynəlxalq ictimaiyyət tərəfindən siyasi-hüquqi qiymət verilməlidir".

Bu gün həm Azərbaycanda, həm də bütün dünyada uşaqların rifahı, onların ləyaqətli gələcəyinin təmin edilməsi üçün ilk növbədə dünyanı hədələyən separatizm və terrorizmin qarşısı alınmalı, onlara münasibət birmənalı şəkildə pislənilməlidir. Bu da öz növbəsində dövlətlərin siyasi iradəsindən, beynəlxalq aləmdə siyasi qərar qəbul edən şəxslərdən asılıdır. Zorakılığın, müharibə və terrorun olmadığı bir dünyanın qurulması üçün uşaqların hüquq və azadlıqlarının təmin olunması real işə çevrilməlidir.

Uşaqlar bəşər ailəsində yaş baxımından ən aşağı statusa malikdir. Lakin onlar həm də nəinki ən böyük sərvət, həm də həyatın davamı, dünyanın əbədi var olacaq gələcəyidir. Onlara məhəbbət və qayğı, diqqətlə bahəm uşaqlara qarşı zorakılıq problemlərinin həllində uşaqların səsinə qulaq asmaq gərəkdir. Bəşəriyyətin keçmiş təcrübəsində sınaqdan çıxmış nailiyyətlər və sınaqdan çıxa bilməyən səhvlər mövcuddur. Bu tarixdə ən böyük səhvlərdən biri zorakılıq, savaş dünyagörüşüdür. Alimlərin fikrinə görə savaş və zor dünyagörüşü insanda erkən



yaşlarından formalaşır. Buna görə də onun pislənməsi, sülh və barış təfəkkürünün bərqərar olması üçün uşaqların birgə debatlar aparması, zorakılığın qurbanı olan qaçqın uşaqların həyatı ilə yaxından tanış olmaları vacibdir.

## § 16. Azərbaycanda mükəmməl qanunlar və şərait mövcuddur

*Ölkəmizdə baş verən siyasi, iqtisadi sosial və mədəni dəyişikliklər bir məqsədə xidmət edir – vətəndaşın hüquqları daha mükəmməl qorunsun və insanlarımız öz vətənində azad yaşasınlar. Prezident İlham Əliyevin bu istiqamətdə ortaya qoyduğu siyasi iradə sivil cəmiyyətin qurulmasına hesablanmışdır.*

İnsan hüquq və azadlıqlarının qorunması sistemi hər zaman yeniləşməyə və təkmilləşməyə möhtacdır. Bir həqiqətdir ki, bunlarsız sivil cəmiyyətə və inkişaf etmiş ölkəyə sahib olmaq mümkün deyil. Məhz buna görə də Azərbaycan dövləti öz siyasi iardəsini ortaya qoyaraq vətəndaşlarının hüquqlarını qorumaq istiqamətində dəyərli qanunlar və proqramlar qəbul etmişdir. Bəs bunlar necə icra olunur və insan hüquq və azadlıqlarının qorunması üçün daha nələrə ehtiyac duyulur

- Azərbaycan dövləti insan hüquq və azadlıqlarının qorunması sahəsində beynəlxalq aləmdə əldə olunmuş bütün uğurlardan yararlanaraq müvafiq inkişaf yolunu seçib. Ölkəmiz qəbul olunmuş bütün beynəlxalq konvensiyalara qoşulmaqla demokratik prisiplərə sadiqliyini göstərir. Xüsusən, 1995-ci ildə qəbul etdiyimiz Konstitusiyamızın üçdə iki hissəsinin insan



hüquq və azadlıqlarının qorunmasına həsr olunması dövlətimizin hüquqi və demokratik prinsipləri uca tutmasına bariz nümunədir.

Bu bir həqiqətdir ki, bu gün Azərbaycan dövləti insan hüquqlarının qorunması sahəsində dünyanın ən aparıcı ölkələrinin əldə etdiyi uğurlara bərabər uğurlar qazanmışdır. Milli Məclisdə qəbul olunan hər bir qanunun Azərbaycan vətəndaşlarının hüquqlarının qorunması və təmin olunması prinsipinə əsaslanması bunu sübut edir.

Konstitusiyamızın 12-ci maddəsində mühüm bir müddəa var: dövlətin ali məqsədi insanların hüquq və azadlıqlarını qorumaqdan və ona təminat verməkdən ibarətdir. Sözsüz ki, hakimiyyətin hər üç qolunun özü üçün rəhbər tutduğu bu prinsiplər və ölkəmizdə aparılan sosial, iqtisadi, siyasi islahatlar bir ali məqsədə xidmət edir – Azərbaycan vətəndaşının konstitusion hüquqları qorunmalıdır, onun hüquq və azadlıqları təmin olunmalıdır. Artıq bu sahədəki mövcud mexanizmlərin daha da təkmilləşdirilməsi və sivil dünyaya inteqrasiya edən dövlətimizin həmin standartlara cavab verən milli qanunvericiliyinin yaranması bir gerçəklikdir. Məhz buna görə də məsuliyyətlə demək olar ki, Azərbaycanda insan hüquq və azadlıqlarının qorunmasının səviyyəsi yüksəkdir. 200-dən çox konvensiyaya qoşulan və onları milli qanunvericilikdə tətbiqinə çalışan bir dövlət sözsüz ki, apardığı siyasətdə böyük uğurlar qazanmağa borcludur.

Eyni zamanda, Azərbaycan ən aparıcı beynəlxalq təşkilatların üzvüdür. Bu isə o deməkdir ki, yalnız həmin standartları qəbul etmiş, demokratik təsisatları formalaşmış bir dövləti belə ciddi qurumlara qəbul edirlər. Həmçinin, xarici və yerli ekspertlər də bu inkişafı görərək onu müsbət qiymətləndirirlər.

Dünyanın 100-dən çox ölkəsində insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm demokratik təsisatlar yaranmışdır. Həmin təsisatların yaranması istiqamətində Azərbaycanda da vacib işlər görülmüşdür. 2002-ci ildə keçirilən referendum və onun nəticələri, ombusdman institutunun (insan hüquqları üzrə müvəkkilin) yaranması, məhkəmə-hüquq sistemində aparılan islahatlar, Məhkəmə-Hüquq Şurasının, Konstitusiya Məhkəməsinin formalaşması, həmçinin, insan hüquq və azadlıqlarının qorunmasını təmin edən proqramlar toplusunun Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırlanması və cəmiyyətə təqdim olunması onun göstəricisidir ki, ölkəmizdə bu istiqamətdəki inkişaf bitmiş və tükənmiş deyil, əksinə, davam edən, daim təkmilləşən prosesdir.

Ümumiyyətlə, bu gün Azərbaycan cəmiyyətində baş verən siyasi, iqtisadi sosial və mədəni dəyişikliklər bir məqsədə xidmət edir – vətəndaşın hüquqları daha mükəmməl qorunsun və insanlarımız öz vətənində Avropa standartlarına uyğun şəkildə yaşasın. Bu onun halal haqqıdır, ona Konstitusiyamız tərəfindən verilmiş hüquqlardır və onun gerçəkləşməsinə nail olmaq hər kəsin vətəndaşlıq borcudur.

Bu gün Milli Məclisdə qəbul olunan elə bir qanun yoxdur ki, o, insan hüquqları baxımından ekspertizadan keçirilməsin. Ona görə ki, qəbul edilən qanunlar insanların maraq və mənafeyinə xidmət etməlidir. Burada söhbət cəmiyyətdən təcrid olunmuş insanların hüquqlarının qorunması zərurətindən gedir.

Amma onlara qarşı qanundan kənar hərəkətlərin edilməsi yolverilməzdir və həmin insanların hüquqlarının qorunması vacibdir. Biz bu qanunları qəbul edəndə mühüm bir prinsipi əsas tuturuq. Həmin prinsip ümummilli liderimiz Heydər



Əliyevin tövsiyəsi əsasında formalaşıb. Ulu öndərimiz həmişə şərə qarşı şər deyil, şərə qarşı xeyirxahlıq prinsipini rəhbər tutubdur. O, doğrudan da, hesab edirdi ki, şər şər yaradar. Ona görə də böyük hümanistlik göstərərək səhv etmiş, hətta azadlıqdan məhrum olunmuş insanların əfv olunmasına, amnistiyaya düşməsinə şərait yaradırdı. Möhtərəm Prezidentimiz İlham Əliyev də bu gün həmin prinsipi davam etdirir. Bu baxımdan hesab edirik ki, sözügedən qanunun qəbul olunması vacibdir.

Bu gün dünyada insan haqlarının tam qorunduğu bir cəmiyyəti, ölkəni göstərmək qeyri-mümkündür və hər bir ölkədə müxtəlif hüquqların pozulmaları müşahidə edilir. Ümumiyyətlə, ziddiyyətlərlə dolu dünyada insan hüquqlarını müfəssəl şəkildə qorumaq olduqca çətin prosesdir. Bəzən bu prosesdə hətta fərdin deyil, bir xalqın, bir dövlətin hüquqlarının qorunması aktual hadisəyə çevrilir. Bu baxımdan insan hüquqlarının tam təmin olunduğu bir ideal ölkə tapmaq çox çətindir. Çünki fəlsəfədə belə bir məqam var: başqasının taleyinin səndən asılı olduğunu dərk etmirsənsə, həmin hüquqlara dözümlü yanaşmırsansa hüquqların pozulması baş verir. Nə qədər yüksək inkişaf etmiş və yüksək mənəvi prisiplərə sadiq insan olmalısan ki, öz hüquqlarının sərhədi ilə başqasının hüquqlarının sərhədi arasındakı kövrək sərhədi görə biləsən. Yəni sizin hüquqlarınız orada başlayırsa, mənim hüquqlarım orada bitmir.

Bunu anlamaq çox önəmli məqamdır və bu stereotipi pozmaq, yeni təfəkkür tərzi formalaşdırmaq bəlkə də bəşəriyyətin ən ali istəyidir. Belə olarsa, onda bir fərdin digər fərdin hüquqlarını pozmaması və yaxud bir təbəqənin digər təbəqəyə, bir ölkənini digər ölkəyə münasibətində ədalət prinsiplərinin rəhbər tutulması kimi ideal bir mərhələyə gəlib çıxarıq. Təəssüf ki, bu hələ mümkün deyil.

O ki, qaldı bizim ölkəmizə, burada insan hüquqpozmalarının qarşısını almaq üçün möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən böyük siyasi iradə ortaya qoyulub. Dövlət başçımız Azərbaycan vətəndaşlarının hüquqlarının bütün səviyyələrdə qorunmasını tələb edir. O, çıxışlarında dəfələrlə bildirib ki, hər bir məmur, hər bir vətəndaş kimliyindən asılı olmayaraq öz vətəndaşına xidmət etməlidir. Cənab Prezidentin "Mən hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm" fikri böyük çağırış idi və insan hüquqlarını pozmaq istəyənlərə bir mesaj idi ki, Azərbaycan dövləti və onun başçısı bu hallara qarşı cox kəskin münasibətdədir.

Ümümiyyətlə, cəmiyyətdə baş verən proseslərin məsuliyyətini bərabər bölüşdürmək tendensiyası var. Bu tendensiyaya əməl etmək istəyi olarsa insan hüquq və azadlıqlarının pozulması faktları azalar. Azərbaycan vətəndaşı özü də fəal olmalıdır, hüquqlarının pozulması ilə barışmamalıdır. Onlar qəbul etdiyimiz qanunların dəyərini bilməli və hüquqlarının kimlər tərəfindənsə deyil, məhz özlərinin müdaxilələri ilə qorunmasına nail olmalıdırlar. Ölkəmizdə kifayət qədər insan hüquqlarını qoruyan qeyri-hökumət təşkilatları da var. Hesab edirəm ki, bu tip təşkilatlar özlərində milli mənəvi məsuliyyət hiss etməlidirlər.



*III BÖLMƏ*

# İNTEQRASİYA PROSESLƏRİ, TOLERANTLIQ VƏ DİN AMİLİ. İSLAM AVROPA MƏKANINDA

## § 1. Müasir insanın dünyəvi və dini dəyərlər seçimində tolerantlıq meyarı

*Dünyada gedən qloballaşma proseslərinin gerçəkliyi bütün sahələrdə adi gözlə də sezilir. Bu baxımdan XX əsr "atom əsri" adlandırılırdısa, XXI əsr "qloballaşma əsri" kimi tarixdə qalacaq.*

Qloballaşma ən müxtəlif sosial, mədəni, iqtisadi, mənəvi transformasiyaların təkanverici qüvvəsinə çevrilir. Bir tərəfdən "dünya standartları" termini ilə səciyyələnən unifikasiya və inteqrasiya prosesləri, sterotiplərini formalaşdırır. Digər tərəfdən mədəni, sosial-psixoloji modellər, çeşidli dəyər oriyentasiyalarının çoxalması, dentiklik motivlərinin yeni tiplərinin ortaya çıxmasına, differensiyaya səbəb olur.

Tarixin bütün dönəmlərində olduğu kimi, qloballaşma adlanan müasir çevriliş mərhələsində hər bir insanın, cəmiyyətin və dövlətin qazandığı nailiyyət və itirdiyi fürsət, tərəqqi və tənəzzül onun hansı dəyərləri üstün tutması, hansı təməl üzərində yüksələcəyi məsələsindən bilavasitə asılı olur. İstər dini, istərsə də dünyəvi dəyərlər seçimində prioritet hədəflərin müəyyən edilməsi, onların optimal balansının təmin olunması cəmiyyətin siyasi, sosial və iqtisadi həyatına həlledici təsir göstərir.

Bu gün dünyada çeşidli mədəni-mənəvi sistemlər, müxtəlif tarixli təcrübə və taleyə malik sivilizasiyalar, dinlər mövcuddur.



Belə çoxçalarlı dünyada əlbəttə ki, qarşılıqlı anlaşma və əməkdaşlıq problemi ortaya çıxır. Çünki xalqların, mədəniyyətlərin müxtəlifliyi nə qədər maraqlı olsa da, öz-özlüyündə ideal ahəngi təmin etməyə qadir deyil. O yalnız əməkdaşlığın yox, münaqişənin də səbəbi kimi çıxış edir.

Qloballaşma gedişində bütün xalqların qəbul etdiyi ümumi mədəni, dünyəvi dəyərlər formalaşır. Lakin, heç kim əminliklə deyə bilməz ki, bəşəriyyət yalnız bu ali dünyəvi dəyərlər əsasında öz məsuliyyətini dərk edə, qlobal kollektivə - subyektə çevrilə bilər. Əhatəmizdə hər gün informasiya məkanı və mədəni üfüqlər nə qədər genişlənsə də, dünya birliyini sarsıdan münaqişə və ziddiyyətlərin də sonu hələ ki, görünmür.

Parodoksal olan məqamlardan biri də budur ki, dünyəvi dəyərlərin – demokratiya, insan hüquqları və azadlığı kimi universal nailiyyətlərin bütün ölkələr tərəfindən qəbul edilməsi problemin həllinə yardımçı olmaq əvəzinə yeni problemlər doğurur. Mən diqqəti məhz buna – dünyəvi dəyərlərin müxtəlif ölkə və mədəniyyətlər arasında körpü yaratmalı ahəng qurmalı olduğu halda bəzən mənəvi-dini dəyərlərlə üz-üzə gəldikdə ziddiyyət və gərginlik vəziyyətini yaratmasına, bunu səbəblərinə yönəltmək istəyirəm.

Bu gün bütün dünyada insan hüquqları və azadlıqları universal dünyəvi dəyər kimi qəbul edilir. Yəni, insan hüquqları əvvəlcədən, öz dünyagörüşü və mədəni və dini məsuliyyətindən asılı olmayaraq bütün insanlar tərəfindən başa düşülən və qəbul edilən dünyəvi dəyər qismində formalaşmışdır. Bu təbiidir. Qeyri-təbii olan budur ki, bəzən dünyəvi dəyərlərin dini-dəyər və prinsiplərlə bir araya sığmadığını, onların birinin

digərinə tabe edilməsini düşünənlər də vardır. Müasir dünyada baş verən münaqişə və qarşıdurmaların əksəriyyətinin səbəbi məhz bu mövqedə duranların olmasıdır.

Tarixi təcrübədən məlumdur ki, yalnız hər hansı bir dünyəvi dəyər əsasında bəşəriyyətin vəhdətini təmin etmək qeyri-mümkündür. Bunun anlaşılması isə müasir qlobal cəmiyyətin inkişaf və yaşam strategiyası kimi vurğulanan demokratiya, humanizm və tolerantlıq prinsiplərinin sintezindən keçir.

Yəni bəşəriyyət ilk növbədə öz keçmişinə yəni ənənəvi, mənəvi, dini prinsipə və dəyərlərinə tolerantlıq nümayiş etdirməli, onların universal dünyəvi dəyərlərə sintezi və ahəngini təmin etməyə çalışmalıdır. Əks təqdirdə dünyəvi dövlətdə mədəni müxtəliflik faktoruna biganəlik ortaya çıxır. Yəni bəhs edilən müstəvilər ayrı-ayrılıqda heç biri etalon və ya doğma kimi çıxış edə bilməz. İctimai-siyasi təlimləri ehkamlaşdıran bolşevizmin aqibəti məlumdur.

İnsan azadlığı, demokratiya və hüquqlara dair baxışlar, onun bəşəri dəyər kimi formalaşması müəyyən tarixi şəraitdə, konkret olaraq Qərbdə gerçəkləşməyə başlamışdır. Bu gün artıq birmənalı şəkildə aydındır ki, hüquq və vəzifələrin dərki, insanın dünyagörüşü, onun əxlaqı ilə bilavasitə bağlıdır və bunları bir-birindən təcrid edərək tətbiq etmək arzuolunmaz nəticələrə gətirib çıxarır.

Necə etmək olar ki, çoxluq və azlıq bir-birinin dini və dünyəvi dəyərlərinə hörmət etsin? Müasir demokratik cəmiyyətdə çoxluğun dəstəklədiyi dəyər və normaların təsbit olunması qəbul edilmişdir. Bununla belə 1948-ci ildə qəbul olunmuş insan hüquqları Bəyannaməsində, 29-cu maddənin 2-ci bəndində qeyd olunur ki, insanın hüquqları mütləq olmayıb, başqalarının hüquqlarına hörmət və dözümdən irəli gələn bir



sıra parametrlərlə hesablaşmalıdır, yəni tolerantlıq göstərilməlidir.

Beynəlxalq praktikada bəzən belə bir vəziyyətlə də qarşılaşırıq ki, müəyyən qrup və ya azlıq öz hüquqlarının mütləqləşdirərək, xüsusilə də beynəlxalq təşkilatlar vasitəsilə çoxluğa təzyiq göstərməyə cəhd edirlər. Belə hallar insan hüquqları anlayışının yalnız dünyəvi – sekulyar mənada "oxunmasından", başa düşülməsindən irəli gəlir.

Bəhs olunan ziddiyyətli təzahürlərin qarşısını almaq üçün dünya birliyi, elmi ictimaiyyəti "tolerantlıq" strategiyasını irəli sürmüşdür. Tolerantlıq bəşəriyyətin mənəvi-etik reformasiyasına nail olmaq yoludur. Tolerantlıq insanların müxtəlif olmaq və çeşidli dünyəvi və dini dəyərlər seçmək hüququnda ifadəsini tapan ali dəyər, qlobal birgəyaşayış normasıdır.

Tolerantlığa dair müxtəlif konfranslar keçirilir, qərarlar qəbul edilir. Bu müsbət hadisədir. Lakin unutmaq olmaz ki, tolerantlığın əmələ, həyat normasına çevrilməsi hər bir insanın mənsub olduğu dini-mənəvi dəyərlərdən, dünyagörüşündən asılıdır.

Sivilizasiyalararası dialoqda, beynəlxalq terrorizmin və ekstremizmin profilaktikasında tolerantlığın əhəmiyyəti müasir dünyada ciddi dərk olunur. Dünyanın demək olar, bütün ölkələrində tolerantlıq institutları təsis edilmişdir. Bu sahədə ilk növbədə intellektual, siyasi və dini elita təşəbbüs göstərmişdir. Azərbaycanda da tolerantlığın formalaşmasının təşəbbüskarı, subyekti qismində siyasi, dini, ziyalı elita çıxış etmişdir və edir. Ümummilli lider Heydər Əliyev "Demokratik cəmiyyətdə terrorizm və ekstremizmlə mübarizədə dinin rolu"na həsr olunmuş beynəlxalq konfransdakı çıxışında qeyd edirdi. Məlumdur ki, yüksək tolerantlıq, ilk növbədə yüksək mədəniyyətin təza-

hürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılması erkən yaşlarından lazımdır.

Bü gün sivilizasiyaların keyfiyyət baxımından fərqli bir mərhələyə qədəm qoyması, faktiki olaraq bütün individual, sosial səviyyədə köklü transformasiyaların mövcüdluğu, düşüncə tərzində də əhəmiyyətli dəyişikliklərə səbəb olur. Zaman hər bir konkret dövlətdə, cəmiyyətdə həyata keçirilən dəyişikliklərin ümumi taleyimizlə bağlı olan problemlərlə uzlaşmasını, bu məsələlərin həllinə yönəlmiş qərarların qəbul edilməsində birgə məsuliyyət hissinin yaşanmasını ciddi tələbə çevirir.

Qəribə bir parodoksla rastlaşırıq: İnformasiyalı cəmiyyət bizi bir-birimizə yaxınlaşdırsa da, qlobal təhlükələr qarşısında səylərimizi cəmləmək ehtiyacımızı duysaq da, dünya vahid universuma çevrilə bilmir, dözümsüzlüyün, intolerantlığın ifrat formaları olan dini, milli-etnik zəmində, baş verən müharibələr, münaqişələr, terror aktları bəşəriyyəti qorxu içərisində saxlamaqda davam edir.

Dözümsüzlüyün qlobal problemə çevrilməsi günümüzün reallığıdır. Gələcək taleyimiz ümumi səylərlə formalaşdıra biləcəyimiz qlobal tolerantlıq paradiqmasından və onun həyata keçirilməsi mexanizmlərinin müəyyənləşdirməsindən asılı olacaq. Əks təqdirdə dünyanın ən qüdrətli dövlətlərinin nüfuzuna, beynəlxalq təşkilatların yeni təhlükəsizlik mühitini formalaşdırma cəhdinə, görkəmli elm və din xadimlərinin konfrantasiyadan dialoqa keçmək çağırışına, mədəniyyətlərin yaxınlaşması və bir-birindən bəhrələnmək istəyinə baxmayaraq, "mədəni oykumena" xəyal olaraq qalacaq.

Bəlkə bunun əsas səbəbi minilliklər boyu bəşəriyyətin ümumi taleyinin formalaşdığının hələ də tam ciddiliyi ilə dərk edilməməsidir?



Bəlkə məhz indi, hadisələrə yeni baxışın formalaşması ilə bəşəriyyətin özünü qlobal – tam kimi hiss etməsi dövrü başlayır.

Bəlkə elə bu tarix ehtiyacın nəticisidir ki, mədəniyyətlərin, siviliasiyaların qarşıdurması xofunu bəşəriyyətə yaşatmaq istəyən fikir mərkəzlərinin əksinə olaraq bütün mədəniyyətlərdə etnik-milli və bəşəri qatların olduğunu təsdiq edən çağırışların sayı artır.

Ulu öndərimiz yeni minilliyin yaşayacağı narahatçılığı əvvəlcədən görərək gələcək nəsillərə xəbərdarlıq edirdi:

Qloballaşan dünyada hamımız bir-birimizə yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, ona dəstək verərək, bütün insanların gələcəyi naminə biz hamımız mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoqunda ümumi dil tapmalıyıq" – bu çox qiymətli bir tövsiyədir.

Qloballaşma prosesi təkcə suveren, demokratik dövlətlərin dünya birliyində cəmlənməsi, vahid bir iqtisadi sistemdə yaxınlaşması sivilizasiyalar arasında sərhədlərin silinməsi cəhdi deyil, bu həm də dövlətlərin və millətlərin daha kiçik konstitusiyalarda fraqmentləşməsidir. Milli mədəniyyətlərin özünü təsdiq, özünü müdafiə hissinin güclənməsi, milli kimlik probleminin kəskinləşməsidir. Dünyəvi və yaxud demokratik dəyər adı altında hər hansı xalqın, sivilizasiyasının dəyərlərini bütün dünyaya qəbul etdirmək cəhdinə qarşı yaranan təbii reaksiyanın törətdiyi təhlükənin artmasıdır.

Müasir dünyada insanlar bir qloballaşma zamanında lakin çeşidli tolerantlıq məkanlarında yaşayırlar. Hər bir insan dünyaya gələndə hansısa millətə, xalqa, etnosa mənsubluq hissi

daşıyır. Bu özünəməxsusluq hissi ilə səciyyələnən, milli kimliyi ifadə edən mənəvi dəyər xalqın toxunulmaz sərvətidir. Demokratik prinsiplərlə yaşamaq, bu yönümdə inkişaf etmək arzusunda olan hər bir dövlət öz ölkəsində cəmiyyət daxili tolerantlığın bərqərar olmasını təmin etməlidir. Bu regionda, sonda isə bütün dünyada tolerant durumun formalaşmasına olan xidmətidir.

Tolerantlıq düşüncə tərzi, cəmiyyətin tarixi inkişafının nəticəsi, müxtəlif mədəniyyət və lokal insan birliklərinin birgə yaşayışı nəticəsində əldə olunmuş nailiyyətidir. Bu demokratik cəmiyyətin, mədəniyyətlərarası münasibətlərin təməl prinsiplərindəndir.

Tolerantlıq ayrıca götürülmüş bir dövlətin deyil, hazırda bütün dünyanın qlobal, siyasi-mədəni problemi statusunu kəsb etmişdir. Məhz bu baxımdan bu gün tolerantlığa münasibətin konkretləşməsinə böyük ehtiyac var. Qlobal təhlükələrə qarşı ümumi məsuliyyət hissi bərabər bölüşdürülməlidir. Qlobal tolerantlıq mühitinin formalaşması üçün ilk növbədə:

- Beynəlxalq münasibətlər sferasında intolerantlıq, ənənəvi standartlar və stereotiplər dəf edilərək Şərq və Qərb, Şimal və Cənub bölgüsünə yeni dövrün tələbləri, obyektivlik, insan hüquqları mövgeyindən yanaşılması vacib şərtdir.

- Beynəlxalq təşkilatlar ikili standartlardan uzaqlaşaraq monoetnik və monokonfessioanal dövlət modellərini dəstəkləməkdən əl çəkməli, etnik təmizləmə və soyqırımı siyasi dövlət siyasəti səviyyəsinə yüksəltmiş dövlətlərə qarşı kəskin münasibət bildirməlidir. Böyük təsir gücünə malik olan dini mərkəzlər öz fəaliyyətində fərqləndirici deyil, birləşdirici meyilləri ön plana çəkməlidir.



- Üstün və fərqli olmaq istəyini qüvvə tətbiqi və savaş siyasəti ilə həll etmək istəyən ölkələrin siyasəti bəşəriyyətə qarşı təhlükə kimi qiymətləndirilməlidir.

Dünya dövlətlərinin mədəniyyətlərin dialoqunda iştirakı onların siyasətinin vacib prinsipləri nəzərə alınmaqla qiymətləndirilə bilər.

- Örnək ola biləcək tolerantlıq məkanları isə yeni demokratik model olaraq dünyaya təqdim olunmalıdır.

Tarixin ali qanunu olan ünsiyyəti dözümlülük səviyyəsindən çıxararaq onu humanizm, sülhsevərlik, xeyirxahlıq kimi keyfiyyətlərə zənginləşdirən millətlər nümunəvi tolerantlıq mühiti yaratmağa qadirdir.

Dünyəvi, demokratik, hüquqi dövlət quruculuğunu milli xüsusiyyətlərin nəzərə alınması ilə həyata keçirən Azərbaycan tolerantlığın gerçəkləşdiyi bir məkandır.

Geostrateji mövgeyinə görə çeşidli dünyagörüşü, həyat tərzi, mədəni və mənəvi dəyərlərin, dini konfessiyaların qovuşduğu bu torpaq öz milli etnik tərkibi ilə dünyanın ən nadir mədəni sivilizasiyalardan biridir. Bu polietnik, polikonfessional cəmiyyətdə tolerantlıq şüurunun formalaşmasının qədim tarixi mövcuddur.

Zaman-zaman tarixin sınağından çıxmış bu milli sərvət – xalqlar arasında dostluq və qardaşlıq, qarşılıqlı anlaşma şəraitində yaşamaq milli-dini mənsubiyyətindən asılı olmayaraq hər bir vətəndaşın bu torpaq üçün milli yiyəlik hissini yaşaması tolerantlığın bariz nümunəsidir.

Müstəqillik əldə etdikdən sonra, Azərbaycan ulu öndər H.Əliyevin əsasını qoyduğu siyasətə, milli münasibətlər və dövlət-din münasibətlərinə uyğun olaraq öz tarixi tolerantlığın daha da zənginləşdirmək imkanı qazandı.

Tarixən mürəkkəb bir vəziyyətdə milli-mənəvi dəyərlərlə qayıdışla milli-mənəvi intibah dövrü başlandı. Azərbaycanda insan hüququ və azadlığı o cümlədən vicdan, dini etiqad azadlığının qorunması beynəlxalq hüquqi normalara uyğunlaşdırdı.

Ölkəmizdə çoxlu sayda xalqların nümayəndələri yaşayır, müxtəlif təmayüllü dini icmalar, kilsə və sinoqoqlar mövcuddur. Bu mədəniyyətlərin qovuşması nəticəsində bənzərsiz sosial-mədəni mühit təşəkkül tapmışdır. Bunun əsasında isə Azərbaycançılıq ideyası durur.

Xalqımızın mənəviyyat və mədəniyyətini bütün qatlarını özündə cəmləyən Azərbaycançılıq mükəmməl tolerantlıq konsepsiyası və real inkişaf modelidir. Prezident İlham Əliyev cənabları qeyd edir ki, "Dini tolerantlıq sahəsində Azərbaycanın təcrübəsi öyrənilə bilər. Etnik və dini tolerantlıq ölkəmizin ən yüksək tarixi nailiyyətidir. Bəlkə bu iqtisadi nailiyyətdən daha vacib elementidir".

Azərbaycançılıq idealogiyası dini tolerantlığın polietnik mövcudluğun qarantı kimi çıxış edir.

Avropanın ən aparıcı dövlətlərindən dini-etnik zəmində qarşıdurma, islam ardıcıllarına qarşı təhdidlər, milli-etnik zəmində münaqişələr karikatura böhranları hələ də səngimir. Halbuki hər bir fəaliyyətimizi zərrəbin ilə izləyən ekspertlər belə Azərbaycanda tolerantlıq sahəsində əldə olunan uğurları etiraf edirlər.

Azərbaycan xalqının ideoloji potensialı – tolerantlıq həm də vacib ictimai məzmun daşıyır.

Lakin bir məqamı nəzərdən qaçırmaq olmaz ki, müxtəlifliyin vəhdəti – etnik, milli və ya konfessional fərdlərin aradan qaldırılması deyil. Azərbaycanda yaşayan azsaylı xalqların,



etnik qrupların nümayəndələri üçün özünü "Azərbaycanlı" kimi hiss etmək heç bir vəhclə etnik hiss və identikliyin itməsi kimi və ya etnik identifikasiya, özünü təcrid və qapalılıq kimi başa düşülməməlidir. Demokratik inkişaf yolu ilə irəliləyən Azərbaycanda yaşayan bütün xalqların etnik, dini mənsubiyyətini inkar etməyən, onlara hörmət bəsləyən və bu məziyyətləri mühafizə edən real tarixi, sosial mədəni birlik mövcuddur və dövlətimiz onun qarantıdır.

Azərbaycanda tolerantlıq – etnik milli və bəşəri müstəviləri əhatə etmək baxımından yekcinsliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal gerçəkliyinin tələblərinə cavab verir. Ulu öndərimizin sözləri həmişə bizim qulağımızda səslənəcək: "Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olar".

## § 2. Demokratiya mədəniyyətin ali meyarı kimi

*Bəşəri zəkanı daim düşündürən, universal dəyər sayılan demokratiyanın, müstəqil Azərbaycanın yaşadığı tarixi təcrübə və özünəməxsus inkişaf yolu kontekstində unikal təzahürlərinin təhlili olduqca aktual bir problemdir.*

XX əsrin sonlarında dünyanın siyasi xəritəsində məlum hadisələrin baş verməsi müstəqil demokratik dövlətlərin sayının durmadan artmasına səbəb oldu. Bu da tranzit dövrünü yaşayan dövlətlərdə, cəmiyyətlərdə baş verən proseslərə adekvat paradiqmalar baxımından yanaşma istəyini doğurmuşdur.

Müasir problemlərə ənənəvi baxışlar məhdudiyyətindən çıxmaq arzusudur. Milli modellərin fərqli və oxşar cəhətlərini və gələcək perspektivlərini müəyyənləşdirmək arzusunu şərtləndirmişdir.

İnkar edilməsi mümkün olmayan və qəbul edilməsi zərurətə çevrilən yeninin səlis anlamını vermək cəhdləri çoxsaylı demokratiya nəzəriyyələrini gündəmə gətirmişdir.

Bu həmçinin yeni dünya nizami və ya nizamsızlığı şəraitində demokratiyanın mahiyyəti haqqında düşüncələrini, milli məxsusluğu arxa plana keçirən və hamı üçün məqbul sayılmalı olan "yeni mövcudluq üsulu" adlanan nəzəriyyəni dün-



yaya təqdim edən siyasi fikir mərkəzlərinin, fərqli mövqeyini, polemikasını şərtləndirmişdir.

Uzun onilliklərdir Qərbdə formalaşmış ideyalar şüurlara hakim kəsilərək, elmi-ictimaiyyətə alternativsiz ideyalar kimi təqdim olunur, bu isə öz növbəsində konkret şablonlardan kənara çıxmaq imkanı məhdudlaşır.

İstər regional, istərsə də qlobal müstəvidə beynəlxalq münasibətlərin xarakterində, milli dövlətin və müstəqil siyasətin rolu və mahiyyətində baş verən dəyişikliyə, qloballaşma və milli suverenlik ideyasına münasibətdə fərqli fikirlərin səslənməsinə bu gün böyük ehtiyac var.

Dialoq fəlsəfəsinin təsir qüvvəsinin artdığı demokratik tranzit dövründə yetkinlik səviyyəsi müxtəlif olan dövlətlərin milli dövlətçilik modellərinin fərqli və oxşar cəhətlərinin araşdırılması, bu müxtəlifliyin vəhdətə çevrilməsi ehtimalının izlənməsi üçün vacibdir.

Paradoksal hal odur ki, bəşəriyyətin topladığı böyük tarixi irsə baxmayaraq klassik demokratik modellər bu gün özünü doğrultmur. Beynəlxalq münasibətlərin etikasında demokratik meyar və dəyərlərin hələlik özünü təsdiq edə bilməməsi, ikili standartlar fəlsəfəsinin üstünlüyü günümüzün reallığıdır. İndi siyasi demokratiyanın məzmununda, idarəçilik fəlsəfəsindəki dəyişikliklərə öz korrektivlərini etmədən onu siyasi gələcəyə translyasiya edə bilməz. Əks təqdirdə keçmişin irsinin gələcəyə yardımçı olması şübhə altındadır.

Müxtəlif tarixi dövrlərdə demokratiya haqqında yazılan əsərlər ilk növbədə bəşəriyyətin sivil birgəyaşayış istəyini özündə əks etdirib, demokratiya adlanan mənəviyyat göstəricisinin əqidə simvoluna çevrilməsinə çalışıb.

İyirmi beş əsrdir ki, demokratiya təbliğ olunur, tənqid

edilir, tərifIənir və lənətlənir. Bəzən yalnız ideya şəklində yaşayıb, bəzən isə gerçəkliyə çevrilmək imkanı qazanan demokratiya bu gün yol ayrıclarında şaxələnib.

Bəşəriyyət isə ondan daha mükəmməlləni icad edə bilmədiyindən yenidən ona üz tutur.

Demokratiya dalğaları zaman-zaman bir-birini əvəzləyib. Hər dalğa bir cəmiyyətdən, digərinə, bir ictimai iqtisadi, sosial-siyasi, mədəni səviyyədən digərinə keçidlə yekunlaşsa da, optimal model bərqərar olmayıb. Demokratiya və insan haqlarının qorunması pərdəsi altında öz maraqlarını gerçəkləşdirməyə çalışan qüvvələrin beynəlxalq təhlükəsizliyə yaratdıqları təhdidlər bəzən də insanlarda bir könül küskünlüyü, ümidsizlik yaranmasına səbəb oldu. Məlum olur ki, demokratiyanın özünün güclü müdafiəyə ehtiyacı var. Demokratiya üçün heç bir təhlükə yoxdur ifadəsi özünü doğrultmadı.

Məhz buna görə də dünyanın klassik modelinin dəyişdiyi, dünya sisteminin çoxtərəfli transformasiyaya uğradığı şəraitdə milli dövlət ideyası, milli suverenlik prinsipi, milli təhlükəsizlik problemi, regionalizm, müstəqil dövlətlərin varlığını təmin edən inkişaf strategiyası yeni baxış, yeni fəlsəfi izah tələb edir.

Dünyanın yenidən qurulması heç bir regiondan yan keçmir, ölkələri, siyasi təşkilatları, ictimai hərəkatları əhatə edərək, hadisələri bir məcraya yönəltməyə çalışır, "ümumdünya hökuməti" ideyasını qəbul etdirməyə cəhd göstərilir.

Yaxın 20-30 il ərzində dünya ölkələrinin öz gələcək sınanmış inkişaf modelini seçməsi tarixi zərurətə çevriləcək. Bu seçim avtoritar-totalitar rejimlə demokratik idarəçilik arasındakı diapazonda olacaq. Lider dövlətlər öz modellərini başqalarına qəbul etdirməyə səy göstərsə də, bu proses könüllülük



və qarşılıqlı zənginləşmə əsasında olmalıdır.

Əks təqdirdə bu təkamülün isə demokratik prinsiplərə əsaslanan dünya nizamına aparacağına ümid bəsləmək ifrat optimizm olardı. Bəşəriyyət bu suallara cavab axtarışındadır. Ənənəvi və modernləşmiş sivilizasiyaların qovşağında yerləşən ölkəmiz qlobal cəmiyyətə inteqrasiya yolu seçilmişdir.

Ulu öndərimiz Heydər Əliyevin möhtəşəm fəaliyyəti ilə təməlini qoyduğu əvəzsiz irs - milli demokratiya modeli, fərqli örnək sayılan bir paradiqma - Azərbaycanın gələcək inkişaf sektoru necə olacaq sualına cavablandırır. Ulu öndərimiz dəyişən dünyanın indiki və gələcək perspektivlərinə adekvat cavab verən dövlətçilik siyasətinin əsas istiqamətlərinin strategiyasını Azərbaycana irs qoyub getmişdir.

Ümummilli liderimiz H.Əliyevin dövlətçilik siyasətinin bu baxımdan nəticələri, günümüzün reallığı və uğurudur.

Bu dahi insanın dəyişikliyə çevik uyğunlaşma siyasəti, yeniliklərin bütün müsbət potensialından səmərəli istifadəni təmin edən struktur və mexanizmlər yaratmaq istedadı Azərbaycan dövlətinin strateji perspektivini təmin etdi. Perspektivdə isə XXI əsr dururdu.

XXI əsr tarix səhnəsinə yeni, daha ciddi tələblərlə qədəm qoydu. Milli müstəqil dövlətlərə ünvanlanan çağırışlar yeni sınaq mərhələsinin başlandığından xəbər verirdi. Bu sınaqlar, rənqli inqilablar, siyasi gərginliklər şəklində milli dövlətlərin varlığını təhlükələrlə üz-üzə qoydu. Eyni zamanda milli dövlətlərin qarşılıqlı asılılığı, risk və təhlükələr qarşısında milli maraqların yaxınlaşması, cəmlənmiş maraqların regional qurumlarda ifadə imkanı tapması da prosesi gərginləşdirdi. Belə bir şəraitdə özünü təcrid siyasətindən uzaq olaraq beynəlxalq güc mərkəzlərinin, maliyyə qurumlarının fəaliyyətini milli

dövlətin mənafeyi və maraqlarının təmin olunmasına yönəltmək, demokratik suverenlik prinsipini qorumaq böyük siyasi iradə tələb edirdi.

Azərbaycan dövlətinin bütün bu çağırışlara cavab vermək iqtidarında olması müstəqil dövlətin varlığını qoruması Prezidentimiz möhtərəm İlham Əliyev cənablarının siyasi uzaqgörənliyi ilə bağlıdır. "Biz öz taleyimizi özümüz həll edirik. "Prezidentimiz qətiyyəti dövlətin sabahı üçün böyük məsuliyyət hissinin bariz nümunəsidir .

Məhz bu siyasətin nəticəsidir ki, Azərbaycan fasiləsiz tranzitar məkana çevrildi. Bu model ekzogen təsirlərə deyil, endogen faktorlara dayaqlanır. Bu modelə süni demokratiya tranziti, inqilab ixracı və ya planlaşdırılması kimi ideyalar yaddır.

Bu gün Azərbaycan yeni bir keyfiyyət mərhələsinə – dinamik integrasiya dövrünə qədəm qoymuşdur. Bu mərhələnin özünəməxsusluğunu bir çox amillər şərtləndirmişdir:

- İnkişaf tempinin sürəti baxımından cəmiyyətin bütün seqmentlərində əldə olunan nailiyyətlərin inteqral göstəricisi nəticəsində regionda və dünyada liderlər sırasında yer tutmuşdur;

- Azərbaycanın siaysi nüfuzunun artması ilə onun qlobal güc mərkəzlərinin hesablaşdığı beynəlxalq subyektə çevrilmişdir;

- Millilik və dövlətçiliyin ideal balansı yaranmış, milli birliyə nail olunmuş, demokratik institutlar formalaşmış, vətəndaş cəmiyyətinin inkişaf perspektivləri müəyyənləşmişdir;

- Qloballaşan dünyada suverenliyə təhdidlərin artdığı şəraitdə milli suverenitet statusunun özünütəsdiqinə nail olunmuşdur;



- Haradan gəldiyini, harada olduğunu və hara getdiyini gözəl anlayan, milli yiyəlik hissini, vətəndaşlıq məsuliyyətini daşıyan azərbaycanlı obrazının formalaşması – məhz bu faktorlar növbəti mərhələdə uğurların təminatçısı olacaqdır;

Mərhələlər qurtarmamışdır, növbəti mərhələ isə çox uzaqda deyil.

Yaşadığımız cəmiyyət hər birimizin seçimindən, fəaliyyətindən asılıdır. Gələcəyə ünvanlayacağımız dəyər – demokratiyanın taleyi üçün hər birimiz məsuliyyət daşıyırıq.

Uzun illər bundan əvvəl akademik Vernadski yazırdı: "Biz zəif ruhlu insanların yaşadığı böhranı deyil, minillikdə bir dəfə baş verən, düşüncələrdəki, fikirlərdəki dəyişikliklərin çətinliyini yaşayırıq. Bu çətinliyə sinə gərmək iqtidarında olan hər bir Azərbaycan vətəndaşına gələcək mərhələlərin zəfərlərinə, o qələbələrin özünəməxsusluğuna şahid olmaq qismətini diləyirik.

## § 3. İslam dinində qadın hüquqları: universal və milli aspektlərin praqmatik konsensusu

İnsan hüquqları probleminə cəmiyyətdə müxtəlif qrupların, cinslərin qarşılıqlı münasibətlərinə dair müzakirə və mübahisələr ən qədim tarixə malikdir desək, yanılmarıq. Bu mövzu bütün dünya dinlərinin mədəni, fəlsəfi, etik, təlimlərin ayrılmaz tərkib hissəsi olmuşdur.

Müasir beynəlxalq və Milli qanunvericilikdə təsbit olunmuş fundamental insan, hüquq və azadlıqları ümumbəşəri, universal və unikal köklərə dayaqlanmaqla, həm də tarixi, dini mədəni ənənə və prinsiplərin zərrə-zərrə toplanmış ahəngdar sintezindən ibarətdir. Lakin sirr deyil ki, XXI əsr insanının ən böyük nailiyyəti olan azadlıq və bərabərlik ideyalarını, insan hüquqları anlayışını tarixən yeni məzmunlu fenomen kimi onu hansısa bir konkret sivilizasiya və dinə mənsub olanların kəşfi və nailiyyəti kimi qələmə vermək, şərh etmək cəhdləri də mövcuddur. Bütün dönəmlərdə müşahidə olunan, bilərəkdən təbliğ edilən bu yanlış meyil qloballaşma prosesi ilə səciyyələnən müasir dövrdə də xüsusi canfəşanlıqla təzahür etməkdədir.

Bu gün də mədəni müxtəlifliyi, dini dəyər və prinsiplərin müxtəlifliyini inkişafın obyektiv qanunauyğunluğu kimi deyil, qlobal unifikasiya və vesternləşmə prosesinə mane olan



amil kimi qəbul edənlərin mövqeyi hələlik çox güclüdür. Dinlərin, xüsusilə də islam dininin qlobal inteqrasiya, fundamental insan hüquqları və azadlıqları ilə bir araya çıxmadığını sübut etməkdən ötrü ən müxtəlif qüvvələr tərəfindən dəstəklənən "ideoloqlar" dəridən-qabıqdan çıxırlar. Şübhəsiz ki, bu elmi, tarixi əsaslardan məhrum olan bir "mif" yaratmaq cəhdidir və müasir dünyada gedən vətəndaş cəmiyyəti və demokratik dövlət quruculuğu proseslərində İslam dininin, bütöv bir sivilizasiyanın mənəvi-mədəni potensialına kölgə salmaq məramına xidmət edir.

Ötən əsrin ikinci yarısından sürətlənən qloballaşma prosesi dünya ölkələrinə münasibət imkanlarla yanaşı, çoxsaylı problemlər də gətirmişdir. Mütəxəssislərin fikrinə görə qloballaşma iqtisadi, sosial və mədəni sahələrindəki qeyri-bərabərliyi dərinləşdirmiş, ən başlıcası isə istənilən qeyri-sabitliyin terrorizmin münaqişə proseslərinin də "qloballaşmanı" şərtləndirmişdir. Biz burada müzakirə apardığımız məqamda Yaxın Şərqdə müharibə alovu güclənir. Harada münaqişə və gərginlik varsa, orada ilk növbədə insan hüquqları pozulur. Ümumən qəbul edilmiş qənaətə görə qloballaşmanın doğurduğu ziddiyyətlərdən biri də dünya ölkələrini bir-birinə daha da yaxınlaşdıran inteqrasiya meyli ilə digər meyil hər bir xalqın özünəməxsusluğu və identikliyinin mühafizə olunması meyilləri arasındakı münasibətlərdir.

İnsan hüquqlarının, qadın hüquqlarının məhz abstrakt deyil, çoxçalarlı məzmuna malik bir anlayış olduğunu, bunun nəzərə alınmaması səbəbindən bir çox problemlərin, yanlış şərtlərin ortaya çıxmasına diqqəti cəlb etmək istərdik.

Hər bir insan *birincisi* cəmiyyətinin üzvü kimi və konkret bir ölkənin vətəndaşı kimi insan hüquqlarına malikdir.

Hər bir insan beynəlxalq hüquq normalarına əməl etməklə yanaşı müəyyən mədəniyyətin daşıyıcısı olub konkret dini mənsubiyyətə malikdir. Buradan aydın olur ki, insan hüquqları, universal, ümumbəşəri və unikal mədəni-mənəvi müstəvilərin kövrək balansına əsaslanmalıdır. İnsan hüquqları beynəlxalq hüquqi normaların kontinental-milli qanunvericiliyin, eləcə də tarixi-mədəni ənənə və prinsiplərin ahəngdar sintezindən qaynaqlanmalıdır.

"İnsan hüquqları" çoxlarının şərh etdiyi kimi yalnız anlayış, konkret obyektiv də deyil, tarixi proses və təkamül, hətta bütöv bir keçid mərhələsini nəzərdə tutan dinamik fenomendir. Bu BMT-nin sənədlərində əksini tapan "Qadın-insan hüquqları" anlayışına da aiddir. Hesab edirik ki, bu gün dünyada mövzu kontekstində üç başlıca məsələyə diqqət yetirilməlidir:

*Birinci*, qloballaşma dövründə insan hüquqlarının beynəlxalq unifikasiyası və reqlamentasiyası, ikinci, hər bir insanın mənsub olduğu mədəni-mənəvi tarixi spesifikanın nəzərə alınması, universalizm və unikalizmin praqmatik konsensisuna nail olunması və üçüncü, bu konteksində dinlərin əvəzsiz dəyər və prinsip və potensialının cəm olunmasıdır.

Dinlər – bəşər varlığının yalınz böyük sərvəti deyil, həm də gerçək tarixi reallığıdır. Bunu heç kim, o cümlədən beynəlxalq ictimaiyyət inkar edə bilməz. Buna görə də insan hüquqlarına dair beynəlxalq sənədlər hər bir dövlətin mədəni özünəməxsusluğunu, başlıca olaraq, dini dəyərlərdən qaynaqlanan xüsusiyyətləri nəzərə alır və almalıdır. Beynəlxalq sənədlərdə insan hüquqlarına aid olan məsələlərdə bunlardan irəli gələn komporomis labüddür.

Biz yaxşı bilirik ki, bütün dinlərdə insan hüquq və



azadlıqlarını önə çəkən təməl ideyalar mövcuddur və əsas vəzifə məhz onların qarşı-qarşıya qoyulması, birinin digərindən üstün olması deyil, ortaq təmas nöqtələrinin tapılmasıdır. Yalnız bu halda onların işlək mexanizminə nail olmaq olar. Bir tərəfdən milli qanunvericilikdə adət-ənənə, ehkam və stereotiplərdən irəli gələn fikir ayrılıqlarının müvəqqəti məzmuna yönəldilməsi, digər tərəfdən beynəlxalq standartlara uyğunlaşdırılması gərəkdir. Beynəlxalq hüquqda olan universal prinsiplərlə hər bir dövlətin, hətta sivilizasiyaların dini, mədəni-mənəvi spesifikasının bir araya gətirilməsi bu gün insan hüquqları sahəsində balanslaşdırılmış siyasət aparılmasına təminat verə bilər, mövcud boşluqları aradan qaldıra bilər.

Qadın hüquqları son əsr ərzində çox müzakirə olunan mövzulardandır. Onların qabardılmasının kökünü buradan aydın görmək olar: belə ki, kişilərin hüquqları ilə müqayisədə qadın hüquqlarının tanınmasına yalnız son əsrdə nail olmaq mümkün olmuşdur. İnsan hüquqları kontekstində qadın hüquqlarının vurğulanması obyekiv əsaslara söykənmişdir və bütün dünya üçün xas olan bir meyil olmuşdur. Bu səbəbdən də "İslam və qadın hüquqları" mövzusunun şərhində birtərəfli, təhlil və qüsurlu yanaşmalara yol verilməsi qeyri-məqbuldur. İslamda qadınlara verilən hüquqların təfərrüatına varmaq imkan xaricindədir. Yalnız Avropanın "İslam və hüquq" üzrə tanınmış tədqiqatçısı Anna Meyerin fikrini misal gətirmək istərdik. O yazır: "İslamda qadın hüquqlarına dair söylənilənlərin əksəriyyəti, heç vaxt islam mənbələrinin ciddi akademik təhlili və islam qanununa dair aparılan ardıcıl tədqiqatların nəticəsi olmamışdır və bu gün də belədir".

Yaxud Nobel Sülh Mükafatı laureatı Şirin Ebadiyə görə "İslam və insan hüquqları anlayışları arasında heç bir fərq və

yaxud problem yoxdur". Qadın hüquqlarının hüquqi dövlət kimi etalon sayılan Qərb və Avropada da çox çətinliklə inkişaf etməsi, bu gün də burada çoxlu problemlərin olması göstərir ki, bu doğma deyil, dinamik məzmunlu anlayışdır.

Xatırlayaq ki, XIX əsrin ortalarında, dünyanın demək olar ki, bütün ölkələrində qadınlar mülkiyyət hüquqlarından məhrum idi. ABŞ-da yalnız XX əsrdə qadın nikahın bərabərhüquqlu subyekti hesab edilmişdir. Bu gün də qadınlar nikah, xüsusilə də boşanma məsələsində ciddi məhdudiyyətlərlə üzləşir (kişi və qadın yalnız müxtəlif konfessiyalara mənsubdurlarsa, qadın boşana bilər, əks təqdirdə yox).

İslamda, xristianlıqda, yaxud da dünyəvi qanunvericilikdə insan hüquqları birdəfəlik müəyyən edilmir. Buna zaman öz korrektivlərini edir. XX əsrin sonlarından qadın hüquqlarının prioritet məsələlərdən birinə çevrilməsi də bununla izah olunur. Qloballaşma prosesini müşayiət edən etnik-milli münasibətlər yalnız hüquqları pozulan ayrı-ayrı qadınları deyil, bütün sosial qruplar qaçqın qadınlar, miqrant qadınlar və köhnə azlıqlara mənsub olan qadınlar, yoxsul qadınlar və s. anlayışlarını beynəlxalq hüquq müstəvisinə gətirdi.

Məhz burada qadın hüquqlarının hansı dini mənbələrdə daha yaxşı şərhinin vurğulanması deyil, bu ümumbəşəri təhlükə mənbələrinin aradan qaldırılması vacibliyini aşkara çıxardı. O cümlədən hüquq və azadlığın bahəm insanın "vəzifə və öhdəlikləri" mövzusu da müzakirəyə çıxarıldı. Əks təqdirdə "vahid dünyanın hüquqları bir kənara qalır, individin azadlıqları mütləqləşdirilir". Bu sözlər Helmut Şmiditə məxsusdur və o qeyd edir ki, "müasir insan hüquqlarını qərbli müəlliflər yazmışdır. Buna görə burada şərqlilərin də fikirləri nəzərə alınmalı, balans yaradılmalıdır".



Avropanı bürüyən karikatura qalmaqalları, yeni azlıqlarla ortaya çıxan problemlər göstərdi ki, bəzən azadlıq "azlıqları təhqir etmək azadlığı" kimi ifrat formalarda da başa düşülür. Yeri gəlmişkən, islamda ərəb dilində "hürr, azadlıq" sözü həm də "alicənab, ləyaqətli" mənalarını verir, yalnız ləyaqətli, alicənab insanın əsl azadlığa malik olması nəzərdə tutulur.

İnsan hüquqlarına dair müzakirə və mübahisələr dünyada ən qədim tarixə malikdir . Ən vacibi odur ki, müzakirələr konkret nəticə versin. Problemlərin həlli mexanizmləri ortaya qoyulsun. Əks təqdirdə 1998-ci ildə BMT-də insan hüquqlarına dair bəyannamənin 50 illiyinə həsr olunmuş konfransda, məruzəçilərdən birinin dediyi fikir, "bəyannamənin konkret nəticələr vermədiyinə görə ləğv edilməsi" təklifi tez-tez səslənə bilər.

Biz konkret təklif kimi belə bir məsələyə diqqəti cəlb etmək istərdik: insan hüquqları sayəsində yaradılan beynəlxalq və regional qurumların müqayisəli təhlili bu sahədə balans olmadığını göstərir. Avropaya nisbətdə Asiyada indiyə qədər regional təşkilat yoxdur. Doğrudur, ərəb ölkələri və Afrika ölkələrinin insan hüquqları Xartiyaları, Ümumittifaq İslam İnsan Hüquqları bəyannaməsi qəbul edilmişdir. Lakin təşkilatlanma sözdən və bəyannamələrdən işə keçməyə təkan verir. Eyni fikri BMT-nin fəaliyyəti barədə də demək olar. Belə ki, bəyannamə xarakterli sənədlərin ilk pillə, addım olduğu bizə məlumdur. Ümid edirik ki, yaxın gələcəkdə konvensiya xarakterli sənədlər qəbul ediləcək və bunlar milli qanunvericilik üçün baza rolunu oynayacaq.

"İnsan-qadın" hüquqlarının təməl prinsiplərinin köklərini hər bir dində tapmaq olar. Bu hüquqları pozan minlərlə qa-

dını, uşağı məhv edən, qaçqına, didərginə çevirən separatizm və faşizmin isə heç bir dini mənsubiyyəti yoxdur. Din xadimləri insan haqlarını pozan başlıca səbəblərə: qarşıdurma, dözümsüzlük, savaş və zor əleyhinə ədəbi dəyərləri – dialoq, tolerantlıq, konsensus anlayışlarının irəli sürülməsi istiqamətində yorulmadan konkret, gərgin iş aparırlar. Azərbaycan xalqının və başqa konfessiyaların dini dəyər və ənənələrinə hörmət və sədaqət nümayiş etdirir, demokratik prinsipləri rəhbər tutur.

Qadın hüquqları sahəsində problemlərin həlli üçün MDB məkanında ilk dəfə olaraq qurum, dövlət komitəsi yaradan ölkələrdən biri də Azərbaycandır. Bu özü də islamda qadın hüquqları mövzusunun şərhi, həlli üçün qlobal modeldir. Universal demokratik prinsiplərlə ən müxtəlif nəsillərin, mədəniyyətlərin həyat təcrübəsi və səyləri bahasına əldə olunmuş praqmatik konsensus modelidir.



## § 4. Qloballaşma, islam dini və mədəniyyətinin dialoji potensialı

*Bu gün bəşəriyyət necə adlandırılmasından asılı olmayaraq inkişafının tamamilə fərqli bir mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə insanlar, dövlətlər, mədəniyyətlər, dinlər arasında mövcud olan qarşılıqlı münasibətlərin prinsipial olaraq yeni səviyyəsinin təməli qoyulmalıdır.*

Mədəniyyətlərarası münasibətlərdə bu vaxta qədər mövcud olan "üstün, hakim mədəniyyət" paradiqması ömrünü başa vurmuşdur. Lakin bunun başa düşülməsi üçün hələ çox işlər görülməlidir. Bütün səviyyələrdə bəşər həyatını əhatə edən qloballaşma prosesində, müxtəlif mədəniyyətlərin taleyi və gələcəyindən duyulan narahatlıq hissini, elmi təhlil və tədqiqatlar cavablandırmalıdır.

Dünyada yaşayan xalqların mədəni "növ" müxtəlifliyi başqa sahələrdə sürətlə gedən unifikasiya prosesini müşayiət etməlidir. Sual yarana bilər ki, qərbin ən çox təbliğ etdiyi "plüralizm" prinsipinin mövcudluğu şəraitində narahatlıq üçün əsas varmı?

Burada spesifik bir məqam vardır. Qərb demokratiyasında bəzən (yaxud əksər hallarda) "siyasi plüralizm" ideyasını israrla tətbiq etsə də, "mədəni plüralizm" bir növ qəbul

etmir. Qərbin mədəniyyət tərzinə, dəyər və ölçülərinə müvafiq olmayan hər şeyi "keçmişin qalığı", yanlışlıq kimi şərh edənlər hələ də çoxdur. Konkret misal gətirək.

Bu gün dünyada "mədəni hegemoniya" kimi səciyyələndirilən ideyanın müəllifləri, Q.Almond və S.Verba özlərinin "Vətəndaş mədəniyyəti" adlı "məşhur" əsərlərində mədəniyyətlərin – əsasən siyasi mədəniyyətin – belə iyerarxiyasını təqdim etmişlər.

Birinci yerdə, etalon mədəniyyət kimi "ingilis-amerikan" mədəniyyəti durur, daha sonra qarışıq, ənənəvi və modernin cizgilərini əks etdirən "kontinental-avrasiya" mədəniyyəti gəlir; sonuncu yerdə "ənənəvi avtoritarizm" mədəniyyəti durur. İngilis-amerika mədəniyyəti belə xüsusiyyətlərə görə "nümunə" sayılır: homogenlik (yekcinslik, mədəni-dəyər müxtəlifliklərinin olmaması), dünyəvi praqmatizm (yəni inam və dəyərlər barədə mübahisə etmirlər, bunlar heç kimi maraqlandırmır, yalnız maraqlar mövcuddur) və sentrizm-mərkəzçilik (sağ və sol radikallığa meyil göstərilmir).

Burada əlbəttə dəyər və inam probleminə biganə olan "siyasi insan" göz önündə canlanır. Lakin insan yalnız "siyasi" simadan ibarət deyildir. Ona bütövlük xasdır. Mədəni-mənəvi hiss və təsəvvürlər, başqalarını nəinki tamamlayır, hətta təməl və əsası təşkil edir. Bu həm də hər bir xalqa, mədəniyyətə xasdır. Dəyişikliklər dövründə, minillər boyu formalaşan mədəni-mənəvi dəyərlərin ən dərin qatlarına müraciət edilir.

Bəşəriyyətin özünü qlobal – tam kimi hiss etməsi dövrünün başladığından söz açmaq olar. Belə şəraitdə müxtəlif mədəniyyətlərin ünsiyyəti zəruri problemə çevrilir. Belə bir təsəvvür yaranır ki, XX əsrə qədər bəşəriyyətin ümumi taleyi olmamışdır. Məhz XX əsrdə dünyada bütün mədəniyyətlər bir-



birinə informasiya məkanında çox yaxınlaşmışlar. Onların bir-birini tanıması, həqiqi mahiyyətini dərk etməsi, bütün mədəniyyətlərdə etnik-milli və bəşəri qatların olduğuna inanmağı, hər bir mədəniyyətin müxtəliflikdə vəhdət təşkil etdiyinə əmin olmağı şərtləndirir.

"Qlobal dünyanın gələcəyini onun müxtəlif, çoxçalarlı mədəniyyət çələngi təmin edə bilər". Bu baxımdan bir tərəfdən siyasi, iqtisadi, demoqrafik və s. müstəvilərdə müşahidə olunan "sıxlaşma" meyli, insan birliklərinin öz mədəni irs və müxtəlifliyini qorumaq, identiklik axtarışı kimi vüsət alan digər meyillə tərs mütənasiblik təşkil edir. Demək artıqdır ki, bu ziddiyyət qarşısıalınmaz və dönməz proses olan və hələlik aydın dərk edilməyən qlobal tarixi çevrilişin nəticələrini və xarakterini əhəmiyyətli surətdə müəyyən edəcəkdir.

Bəşəriyyətin qlobal transformasiya ilə əlaqədar keçirdiyi sistemli böhran mənəviyyat və mədəniyyət aləminə də sirayət etmişdir. İrrasionalizm, antielmi əhval-ruhiyyə, bütün dünya miqyasında ictimai şüurun alternativ, qeyri-ənənəvi cərəyan və təriqətlərin təşəkkül tapmasını dəstəkləməsinə ən müxtəlif məramlı missioner təşkilatların son dərəcə fəallaşmasına rəvac vermişdir. Ən çeşidli dinlər və mənəvi təlimlər XXI əsrin və III minilliyin insanına mənəvi rəhbərlik etmək iddiasındadır. Keçid dövrlərinin dialektikasına müvafiq olaraq, formalaşmış mənəvi, ideoloji, sosial, individual, ekzistensial və s. və i.a. "vakuum"ların nə ilə "dolacağı" ictimai elmin qarşısında duran ən aktual problemlərdəndir.

İyirmi birinci əsrin və üçüncü minilliyin insanına mənəvi rəhbər olmaq missiyasını üzərinə götürmək istəyən dinlər və müxtəlif təlimlər mövcuddur.

Dini-mənəvi dəyərlər mədəniyyətin sakral fondunu təş-

kil edir. Tarix boyu keçid və böhran dövrlərində sabahın yolları qeyri-müəyyən olanda, ictimai şüurun ən dərin köklərində qərar tutan din və dini təsəvvürlər dəyişiklik və böhrana qarşı sosial-mənəvi müqavimət, "instinkt" rolunda çıxış edir.

İslam dininin, mədəniyyəti və mənəvi-əxlaqi dəyərlərinin humanist-dialoji potensialını, ümumbəşəri məzmununun dərk edilməsinə tarixin bütün dövrlərində olduğu kimi bu gün də böyük maraq və ehtiyac vardır.

XX əsrin sonlarında müstəqilliyimizə döndüyümüz andan tarixi-milli yaddaş və genimizdə əsrlər boyu qoruyub saxladığımız, mədəniyyət və mənəviyyatımızın bütün qatlarını – islam, türkçülük və müasirlik – vəhdətdə birləşdirən bariz simvol – bayrağımız dünya ölkələrində dalğalandı. "Dinimizin xalqımızın milli-mənəvi sərvəti olduğu" (*H.Əliyev*) bir daha, müstəqilliyimizin səlahiyyət verdiyi xüsusi qətiyyətlə vurğulandı.

Dini-mənəvi dəyərlər və mədəniyyətimizin bağlılığı, varisliyi prosesində, müxtəlif zamanda, müxtəlif səbəblərdən "nazilən", hətta "qırılan" bağları epoxal kontekstdən fəlsəfi tarixi nəzərlə bərpa etmək, hansı mənəviyyat və mədəniyyətin "yiyəsi" olduğumuzu doğrudan-doğruya anlatmaq, islamın mədəniyyət sistemində tutduğu müstəsna yerin bütövlükdə mənzərəsini canlandırmaq bu gün qarşımızda duran miqyaslı və məsuliyyətli vəzifələrdəndir.

Azərbaycanda müstəqilliyin bərpa olunması, dini-mənəvi dəyərlərə qayıdış prosesi paralel olaraq bütün dünyada Şərq dünyasına, islam dininə münasibətdə artan marağın fonunda "islam triumfu", "islam intibahı", "islam (demoqrafik) partlayışı" və s. kimi anlayışların dünya ictimai elmi müstəvisində geniş təhlilə cəlb olunması ilə bir vaxta təsadüf etdi.



Sovet dövründə Azərbaycan xalqının üç nəslinin böyüməsinə baxmayaraq din, mədəniyyət və mənəviyyat məsələlərinə dövlətin, ziyalıların və xalqın diqqəti göz qabağındadır. "Azərbaycanda bu gün dinə qayıdış prosesi gedir. Bu ziddiyyətli və mürəkkəb prosesdir. Din bu gün etik-mənəvi normaların, ideallarn mənbəyi və milli mədəniyyətin tərkib hissəsi sayılır. Dəyişikliklər ictimai şüurun bütün səviyyələrində gedir. Xalq öz dininin mahiyyətinə dair biliklərlə maraqlanır, nəinki ilahiyyatçılar, adi vətəndaşlar da dinimizin əsas müddəalarına dair mühakimələr yürüdürlər".

Dinə qayıdışın zahiri sezilən əlamətləri deyil, həqiqi mahiyyət və səbəblərinin ciddi elmi-fəlsəfi təhlilinə xüsusi ehtiyac vardır. Belə təsəvvür yarana bilər ki, bir zamankı ateizm hərəkatı indi də sadəcə ("o pisdir, bu yaxşıdır" prinsipi ilə) dini qayıdışla əvəzlənmişdir.

Dini intibahın tarixən şərtləndirilmiş səbəbləri mövcuddur. Hər hansı bir cəmiyyətin gələcəyi üçün təhlükə yarananda, onun bütövlüyünü və dayanıqlığını təmin edən mənəvi faktorlara diqqət artır.

Son iki əsrdə isə əksinə dini-mənəvi mədəniyyətin kölgədə qalması, idrak aspektinin mənəvi-dəyər aspektini üstələməsi texnogen sivilizasiya və mənəviyyatın böhranında təzahür etmişdir. Bu da elmə olan inamı laxlatmışdır. Yaxud sovet dövründə Azərbaycanda dünyəvi mədəniyyətin inkişafına tərs mütənasib olaraq dini mədəniyyət demək olar ki, durğunluq dövrünü yaşamışdır.

Tarixin məşəqqətli təcrübəsi sübut edir ki, mədəniyyətin mahiyyət aspektlərinin birtərəfli inkişafı arzuolunmaz nəticələrə gətirib çıxarır. Mənəvi mədəniyyətə biganə olan sivilizasiya öz fəlakətli sonluğuna doğru irəliləyir.

İslam dinində elmə verilən böyük qiymət və bununla yanaşı kamil əxlaqi-mənəvi dəyərlərin də əvəzsiz rolunun vurğulanması məlum faktdır. Mədəniyyətdə dini-ilahi və dünyəvi-elmi qatlar bir-biri ilə harmoniya təşkil edir. Bu harmoniya pozulanda mədəniyyət deyil, "antimədəniyyət", "postmədəniyyət" kimi fenomenlər formalaşır. "XX əsrdə planetdə böhran ona görə baş verdi ki, zaman mədəniyyətdə, sivilizasiyada sintez, qaynaq və vəhdətdən yan keçdi".

Konkret-tarixi təhlil prosesində din və mədəniyyət faktorlarının qarşılıqlı təsirinin təsdiq və ya inkar edilməsi, birtərəfli yanaşma kimi məhdudiyyətlər, mövzunun epoxal dinamikada izlənilməsi ilə yaradılan bütöv mənzərədə aydın sezilir. Din və mədəniyyət problemində təkcə ümumi-xüsusi kimi kateqorial müstəvilər, etnik-milli-ümumbəşəri kontekstlərin vəhdətdə inkişaf etməsini görməyə imkan yaradır.

İslam dininin spesifik, özünəməxsus cəhətləri ilə yanaşı, ümumbəşəri dəyərlərin yaradılması və inkişaf etdirilməsi sahəsində əhəmiyyəti və xidmətləri göz önündə canlanır. Mədəniyyətin daxili vəhdəti, onun iki başlanğıcı - dini və dünyəvi arasında müxtəlifliyin mövcudluğunu inkar etmir. Dünyəviliyin və diniliyin mədəniyyətin məzmununda nə kimi çəkiyə malik olması məsələsi, yalnız müəyyən konkret-tarixi kontekstdə yanaşılmaqla deyil, yenə də bir-birini əvəzləyən əsrlərin zirvəsindən daha aydın görünür. Müasir dövrdə, ümumiyyətlə bəşər mədəniyyətinin keçirdiyi böhran və sıxıntılar, onun dini-mənəvi tərəfinin unudulması, Qərb anlamlı rasionallıq prinsiplərinə əsaslanan, mənəvi-dəyər aspektini deyil, yalnız idraki-dünyəvi tərəfin inkişaf etdirilməsini üstün tutan Qərb mədəniyyəti, daha doğrusu "qərb məzmunlu mədəniyyətin" bərqərar olmasından irəli gəlir.



Mədəniyyətə və elmə onun bütün tərəfləri və daxili məzmununun vəhdətində yanaşan islam dininə görə, yalnız eksperimental-empirik metodlara üstünlük verən Qərb elminin mövqeyi anlaşılmaz, qəbuledilməz sayıldı və elmin birtərəfli inkişafının tərəqqi olması qənaətini qəbul etməyərək sarsıntıya məruz qaldı.

Bu münaqişə mədəniyyətin ən mühüm sahələrindən olan elmə təsirsiz ötüşmədi. "Nəzəriyyənin təhlükə doğurmadığı sahələrdə müsəlman elmi müvəffəqiyyətlə iş aparırdı: optika, təbabət, botanika, əczaçılıq və praktiki səhiyyə çox şeylərə görə islam tədqiqatlarına borcludur. Eksperimental metodlarda mümkün olanla mümkün olmayan arasındakı həddin dəqiq müəyyənləşdirilməsi olmadığı, yaxud da vacib sayılmadığı üçün fövqəltəbiiliyi, ilahi olanı təbiiliyin ayrılmaz hissəsi qəbul edən islam aləmi şaşırmış kimi oldu".

Tarixdə bir fenomen kimi özünə yer alan islam dini və mədəniyyətinin ümumbəşəri norma, dəyər və prinsiplərinə, unikallıq və universallığın vəhdəti səbəbindən qloballaşma, inteqrasiya və mədəniyyətlərarası dialoqun aktuallaşdığı müasir dövrdə də sosial-mənəvi sifarişin olması göz qabağındadır. Ümumbəşəri mədəniyyətin pozulmuş ahəngini bərpa etmək üçün islam dəyərlərinin potensial gücü mövzusuna ictimai elm həssaslıqla yanaşmağa başlayır.

Müasir dövrdə bəşəriyyətin qlobal vəhdəti formalaşmaqda, prinsipial baxımdan yeni dünya nizamı təşəkkül tapmaqdadır. Vahid bəşəri tale, bəşəri məsuliyyət və bəşəri mədəniyyət problemi bir tərəfdən müxtəlif xalqların özünütəsdiqi və mədəni müxtəlifliyinə hörmətlə yanaşmağı, digər tərəfdən onların dialoquna kəskin zərurəti şərtləndirmişdir.

Hər bir xalqın mədəniyyətinin spesifik xüsusiyyətləri

olduğundan bütün zamanlar və bütün xalqlar üçün eyni, yekcins olan mədəniyyətin olması qeyri-realdır. Mədəniyyətdə özəl spesifikliyi təmin edən başlıca faktorlardan biri də dindir.

Din və mədəniyyətin təşəkkülü, inkişafı və dinamikası probleminin düzgün tədqiqi, müxtəlif dövrlərdə siyasi məna, ideoloji və subyektiv motivlərin təzyiqinə məruz qalmışdır. Mədəniyyətin dini və dünyəvi tərəflərin sintezində təcəssümü nəzərə alınmamışdır. Bu və ya digər tərəfin rolu ya şişirdilmiş, ya da kölgədə qalmışdır.

İslam mədəniyyəti VII əsrdən başlayaraq təşəkkül tapmış, islam dininə dayaqlanan mənəvi-mədəni, sosial-siyasi, hüquqi və s. dəyərlər sistemidir. İslam mədəniyyətinin təkamülü çox çətin mərhələlərdən keçmişdir, onun dinamikliyi və varisliyində islamı qəbul edən bütün xalqların müştərək mədəniyyəti iştirak etmiş və etməkdədir.

İslam mədəniyyəti ailəsinə mənsub olan xalqlar həm bu sistem çərçivəsində öz milli mədəniyyətlərini inkişaf etdirmiş, həm də milli-dini-dünyəvi müstəvidə onu zənginləşdirmişlər.

İslam mədəniyyətinin dünya və Avropa mədəniyyətinə təsiri bütün istiqamət və səviyyələri (siyasət, iqtisadiyyat, ticarət, elm, fəlsəfə, ədəbiyyat, incəsənət, arxitektura və s.) əhatə etmişdir: fəlsəfə sahəsində məntiq, dialektikanın yeni səviyyədə inkişafı, "latın averroizmi" adlı böyük cərəyanı, İbn Sinanın fəlsəfəsinin avqustinçilərə təsiri, sufizm və panteizmin təsiri; elm sahəsində astronomiya, təbabət və riyaziyyatın bütün antik elmi irsin tərcümə edilərək dünyaya çatdırılmasında; ədəbiyyat sahəsində provansal lirikada, trubadurların poeziyasında; dünyəvi zövq və etika, məişət mədəniyyəti sahəsində; beynəlxalq humanitar hüquq sahəsində və s. danılmaz təzahürləri ilə mövcuddur.



Qloballaşma, dünya mədəniyyətinə inteqrasiya, dinlər və mədəniyyətlərarası dialoq prosesinə cəmiyyətimizin sosial-mədəni reaksiyası, mənəvi-əxlaqi dəyərlərimizin dirçəldilməsi kimi qanunauyğun bir meyli doğurmuşdur. İslamın yalnız zahiri görünən və qəbul edilən atributları ilə paralel olaraq, onun həqiqi mədəni-mənəvi normalar sistemi kimi mahiyyətinin dərk edilməsi, dinimizin əsrlərin və ölkələrin sərhədlərini hansı dəyərlərin əzəməti ilə aşa bilməyə qadir olması haqda aydın təsəvvürlər yaradılmasını aktual məsələyə çevirir.

Ümumbəşəri, qlobal dəyərlərin və prinsiplərin reallaşdırılmasında "islam faktorunun" Qərbdə formalaşmış yanlış stereotip kimi deyil, dialoq, tolerantlıq, əməkdaşlıq, kompromis kimi təməl müddəaları mənasında başa düşülməsi qlobal ünsiyyətin potensial mexanizmi kimi qiymətləndirilməsinin vaxtı çatmışdır.

İslam dini və mədəniyyəti tarixin sınaqlarından çıxmış, bəşəriyyətə mənəvi rəhbər ola bilmək potensialını dəfələrlə sübuta yetirmiş XXI əsrə dünyanın hər yerində yayılaraq, lokal-ərazi hüdudlarını dəf edən təlim kimi daxil olmuşdur.

Qərb üçün təhlükə kimi qələmə verilən "islam intibahının", islamın təsir gücünün nədən ibarət olmasını aydınlaşdırmağa bu gün çox səy göstərirlər.

Mədəniyyətlərin dialoqu yolu, lokal sivilizasiyaların, qlobal birlik və dövlətlərin üzvi tərkib hissəsi və subyekti kimi konstruktiv əməkdaşlığını, münasibətlərdə mövcud olan ziddiyyətlərin səmərəli həlli mexanizmlərini müəyyənləşdirməyə, siyasi hüquq baxımından bərabər sayılan geridə qalmış, yoxsul ölkələrin dəstəklənməsi və yardım göstərilməsi, qlobal demokratiyanın bərqərar olmasına, müstəqil qərarlar qəbul edilməsini təmin etməklə bərabər, qlobal cəmiyyətin ümumi taleyinə

aid olan məsələlərdə diktat və zorakılığa yol verilmədən, həm zəif, həm də güclü tərəflərin maraqlarını nəzərə alan kollektiv qərarların qəbul edilməsinə imkanlar yaradır.

Mədəniyyətlərarası əməkdaşlıq mexanizminin yaradılması və reallaşdırılması çox uzunmüddətli və mürəkkəb bir proses olub, bəlkə də bütün XXI əsr boyu davam edəcəkdir. Bununla belə bu sahədə birinci addımların atılmasında tərəddüdə yol verilməsi qeyri-məqbuldur, cəmiyyətli olmaq isə bütün dünyanın xeyrinədir.

Qlobal transformasiya proseslərinin miqyas və mürəkkəbliyi o qədər genişdir ki, artıq mövcud problemlər, dünyadakı ölkələr arasında min illər boyu davam edən qarşılıqlı təsir modelləri və formaları üzrə davam və həll edilə bilməz. Çünki tarix boyu qarşılıqlı təsirin, elmi-mədəni dəyərlərlə mübadilə və dialoq prosesi vaxtaşırı müharibələrlə, silahlı toqquşmalarla əvəzlənmişdir. Bəzən bu toqquşmalar məğlub mədəniyyətlərin məhvi və ya assimilyasiyası ilə sonuclanmışdır. Buna görə də hazırda dialoq və əməkdaşlıq modeli yeganə maksimum mümkün inkişaf variantı kimi qalır.

Çünki biz bilirik ki, istənilən miqyaslı qarşıdurma və müharibə bəşəriyyətin bütövlükdə məhvinə gətirib çıxara bilər. Nüvə silahının yaradılmasından sonra bəşəriyyət "bir nəfər kimi məhv olmaq, ölmək" (*B.Rassel*) kimi qorxulu bir "imkana" malik olmuşdur.

Dialoq yolu qloballaşma prosesinin alternativi olmadığı şəraitdə, XXI əsrdə mədəniyyətlər və ölkələrarası qarşılıqlı münasibətlərin imperativinə çevrilir. Təsadüfi deyildir ki, BMT-nin Baş Assambleyası üçüncü minilliyin birinci ilini (2001-ci il) "Sivilizasiyalararası dialoq ili elan etmişdir". (9 noyabr 2001-ci il) BMT həmçinin sivilizasiyaların əməkdaşlığının



məqsəd, vasitə, mexanizm və proqramlarını müəyyənləşdirə biləcək "Sivilizasiyalararası dialoqun qlobal gündəliyi"ni də proqram sənəd kimi qəbul etmişdir.

Dialoq-paradoksal bir anlayışdır. Bir tərəfdən o dünya sivilizasiyası qədər qədimdir. Bugünkü dünyanın çoxçalarlı mədəniyyət çələngi mövcuddursa, tükənməmişdirsə, bu tarix boyu, çətinliklə də olsa aparılan dialoqun nəticəsidir.

Digər tərəfdən dialoq sanki yeni bir hadisədir. Müxtəlif dünyagörüşü və inam, dini və ya fəlsəfi anlam sistemlərinə malik insanların bircə anda dialoqa gəlməsi asan məsələ deyildir. Dialoq müxtəlif tərəflərin bir-birinə hörməti, dözümlülüyü, həmçinin müəyyən zamanda, mədəni, etik, psixoloji və s. şərtlərin mövcudluğu şəraitində mümkün ola bilir. Dialoq hər kəsin "könlündəki" deyil, bu anlayışın məna və məzmununa, mahiyyətinə cavab verən prosesi nəzərdə tutur.

Dialoqa çağırış həmişə peyğəmbərlərin, mütəfəkkirlərin və başqa fikir dühalarının məram və fəaliyyətinin mahiyyətini təşkil etmişdir.

Həqiqi dialoqun problem kimi irəli sürülərək, həll edilməsi üçün, bu mövzunun elmi-nəzəri, fəlsəfi-mədəni müqəddəm şərtləri və prinsipləri müəyyənləşdirilməlidir. "Dialoq" həqiqəti – bu gün də sona qədər çözülməmiş, dünyaya gələn hər bir yeni nəslin təsəvvür və mədəniyyətinə müvafiq olaraq onun məzmununda müxtəlif çalarlar üzə çıxmaqdadır. Dialoqun fəlsəfəsinə demək olar bütün ömrünü və yaradıcılığını həsr edən M.Baxtin "dialoqşünaslıq" elminin yaradılmasının zəruriliyini vurğulamış, bu elmin nəzəri əsaslarına dair dəyərli tədqiqatları irs qoyub getmişdir. Hələ Platonun söylədiyi, "insanın mahiyyəti "mən" və "sən"in vəhdətindən ibarətdir" fikrini davam etdirən M.Baxtin yazırdı: "Var olmaq – dialoqda olmaq

dəməkdir. Dialoq bitərsə – hər şey bitər. İki səs – minimum varlıq, minimum həyat deməkdir. Həyat dialoqdur, insan isə dialoqun subyektidir. Dialoq vasitə deyil, məna və mahiyyətdir".



## § 5. Qlobal cəmiyyətə inteqrasiya və islam mədəniyyəti

*XX əsrin sonu – XXI əsrin əvvəli bəşəriyyətin qloballaşma proseslərinə daxil olması ilə səciyyələnir. Proses bu gün də davam etməkdədir. Bu prosesin ümumplanetar xarakteri, bütün dünyanı əhatə etməsi qətiyyən şübhə doğurmur.*

Qloballaşma, hər şeydən əvvəl, Yer kürəsində bütün ictimai fəaliyyətin beynəlmiləlləşməsi ilə əlaqədardır. Həmin beynəlmiləlləşmə onu göstərir ki, müasir dövrdə bütün bəşəriyyət sosial-mədəni, iqtisadi, siyasi və digər ənənələrin, qarşılıqlı təsir və münasibətlərin vahid sisteminə daxil olur.

Beləliklə, keçmiş tarixi dövrlərlə müqayisədə müasir dövrdə bəşəriyyətin ümumplanetar vəhdəti genişlənməkdədir və onun, prinsipcə, ümumi tale və ümumi məsuliyyət hissi ilə əlaqədar olan yeni super sistemi yaranmaqdadır. Qloballaşma dini görüşlərə, mədəniyyətə, insanların və xalqların dünyagörüşünə, təfəkkür tərzinə və s. mühüm təsir göstərməkdədir. Eyni zamanda, qloballaşma dinlərin və mədəniyyətlərin dialoquna da hərtərəfli şərait yaradır, hətta bu dialoqu xeyli dərəcədə zərurətləndirir də. Bunu islam-xristian dinlərinə və mədəniyyətlərinə də aid edə bilərik.

Şərqşünaslıqda və eləcə də qərbşünaslıqda "Şərq" və "Qərb" anlayışları fundamental kateqoriyalar kimi başa düşülür. Klassik elmdə bu anlayışlar coğrafi səciyyə daşımış və uzun müddət, yanlış olaraq, bu cür də qalmışdır. Tarixdə və o cümlədən mədəniyyətşünaslıqda – mədəniyyət nəzəriyyəsində bu anlayışlar coğrafi səciyyə daşıyan terminlərdən elmi kateqoriyalara çevrilə bilməmişlər *(Турсунов Акбар. Восточное культуроведение: очерки основоположений // Взаимодействие культур Востока и Запада. Вып.2. М., Наука.1991, с.6.)*.

Bunun səbəblərini tədqiqatçılar aşağıdakı kimi qeyd edirlər. Hər şeydən əvvəl, həmin anlayışlar hətta sırf coğrafi planda belə, prinsipcə, şərti xarakter daşıyırlar, çünki zaman və məkanda, məntiqi həcmdə də dəqiqliyə malik deyillər. Tarix elmində terminoloji situasiyanın o qədər də az əhəmiyyət kəsb etməyən aspektinə bir vaxtlar məşhur şərqşünas, akademik N.İ.Konrad diqqət yetirmişdir *(Конрад Н.И. Запад и Восток. Статьи. М., 1972, с.452)*. Məlum olmuşdur ki, "Şərq" və "Qərb"in konseptual qütbləri, yaxşı halda, müxtəlif xalqlarda tez-tez dəyişən məzmuna malik olmasına baxmayaraq, bir sıra digər qeyri-yekcins xalqlara da şamil edilir. Əslində, qədim və orta əsrlərin çinlilərində "Qərb" haqqında öz təsəvvürləri olmuşdur. Onlar "Qərb" dedikdə, Asiya kontinentinin bir sıra rayonlarını başa düşürdülər. Həmin rayon sonralar "Şərqi Türküstan" və "Orta Asiya" adlandırılmışdır. Yeni və ən yeni dövrün çinliləri üçün "Qərb" Avropa və Amerikadır. Qədim romalılar üçün "Şərq" – Suriya, Fələstin, Persiya, Mesopotomiya və s. idi. Onların xələfləri olan orta əsr italyanları üçün "Şərq" – Kiçik Asiyadan başlanırdı. Müasir italyanlar üçün isə, o cümlədən, Qərbi Avropa sakinləri üçün "Şərq" – hər şeydən



əvvəl, Çexoslavakiya, Polşa, Rumıniya, keçmiş SSRİ və s. olmuşdur.

İkincisi, keçmişdə olduğu kimi, indi də "Şərq" və "Qərb" anlayışları bütün oykumenti (hətta sivilizasiyalı olsa belə) əhatə etmir və onun bu və ya digər bütöv "hissəsinin" sərhədləri ilə üst-üstə düşmür. Həqiqətən, bu məsələ olduqca dolaşıqdır. Faktlara müraciət edək. Məsələn, Bizansı, onun mədəniyyətini, dinini hara daxil etmək olar? Axı Bizans imperiyası üç kontinental nəhəng üzərində – Avropa, Asiya və Afrikada yerləşmişdi. Eləcə də indiki Afrikanı, Latın Amerikasını və ümumiyyətlə, "üçüncü dünya" ölkələrini hansı "terminoloji təsisata" aid edə bilərik?

Nəhayət, üçüncüsü, XX əsrin son onilliklərindən başlayaraq, "Şərq" və "Qərb" anlayışları sırf siyasi məna daşımağa başlamışdır. Onillər boyu "Şərq" deyildikdə, "SSRİ" və yaxud sosialist ölkələri (həm Avropadan və həm də Asiyadan olan sosialist dövlətləri), eləcə də sosialist oriyentasiyalı ölkələr (onların coğrafi cəhətdən harda yerləşməsindən asılı olmayaraq) başa düşülürdü. "Qərb" deyildikdə isə, ancaq Qərbi Avropa, Şimali Amerika və Yaponiya başa düşülürdü. Müasir coğrafi terminlər parçalanmış dünyada "şimal", "cənub" bölgüsünü yaratmışdır ki, artıq bunlar da iqtisadi kateqoriyalara çevrilmişdir. İnkişaf etmiş "şimal", inkişaf etməkdə olan "cənub" bu qəbildəndir. Bununla bərabər, qlobalist tipli tarixi-kulturoloji konsepsiyalarda "Şərq", "Qərb" anlayışları nə coğrafi, nə də lokal baxımdan məhdudlaşdırılmır. Mədəniyyət haqqında yazılan ədəbiyyatlarda "Şərq" və "Qərb" bəzən qarşı-qarşıya qoyulur, bəzən isə çox yaxın dixotomik anlayışlar kimi işlədilir.

Qərb-Şərq dixotomiyasında yeni qlobal kontekst irəli sürülür. Konseptual əsasda bu dixotomiya iki anlayış konstruk-

siyasını ifadə edir. Bunlar isə, ümumiyyətlə, "Şərq mədəniyyəti" və ümumiyyətlə, "Qərb mədəniyyəti" anlayışlarıdır. Qərb mədəniyyətində öz mənşəyinə görə yunan-latın mədəni ənənələri üstünlük təşkil edir. Bu mədəniyyətin inkişafı və möhkəmlənməsində orta əsrlərdən başlayaraq özünü göstərən ümumi dini birlik xüsusi rol oynamışdır. Şərqdə isə bu cür vahid mədəniyyət, demək olar ki, olmamışdır. Doğrudur, Qədim Şərq sivilizasiyalarının öz aralarında diaxron və sinxron əlaqələr mövcud olmuşdur. Lakin bütün bunlara baxmayaraq, sistemli əlaqənin olduğunu və ümumi "Şərq mədəniyyəti" anlayışı altında birləşmənin mövcudluğunu irəli sürmək düzgün olmazdı. Ancaq orta əsrlərdə böyük nüfuz qazanmış və indi də özünü göstərən vahid müsəlman mədəniyyətindən danışmaq mümkündür.

Hər bir şərq xalqının spesifik mədəniyyətinin olduğunu da inkar etmək qeyri-mümkündür. Deməli, "bütün zamanlar və bütün xalqlar" üçün mövcud olan ümumi mədəniyyətdən danışmaq ağlabatan deyildir. Orta əsrlərdə Avropada formalaşmış və nəzəri sistemlərin deduktiv təşkilinə əsaslanan riyazi (həndəsi) qanunlara istiqamətlənən intellektual ənənələrə görə, hər cür elmi bilik müvafiq anlayışlar vasitəsilə müəyyənləşdirilmiş möhkəm zəminlər üzərində bərqərar olmuşdur. Lakin müasir elm klassik ənənələrin varisi olaraq axırıncının işlətdiyi terminlərin hamısının tam definisiyasını (fərqləndirilməsini) zəruri saymır. Bu, humanitar elmlərə daha çox aiddir *(Моль А. Социодинамика культуры. М., 1973, с. 35-36.).*

"Mədəniyyət", həqiqətən də, belə anlayışlardandır. Mədəniyyətin məkanda lokallaşması (məsələn, "Şərq mədəniyyəti və s.), zamanda lokallaşması (məsələn, "Orta əsrlər mədəniyyəti" və s.) və yaxud onun milliləşməsi (məsələn "ərəb



mədəniyyəti" və s.) bu anlayışın məntiqi həcmini və faktiki məzmununu müəyyənləşdirmək istəyən tədqiqatçının işini qətiyyən yüngülləşdirmir. Fəlsəfi-tarixi refleksiyanın predmeti həmin definitiv prosedurlardan biridir və ilk baxışda onun formal, sırf instrumental xarakter daşıdığı bəlli olur. Lakin əsil həqiqətdə həm metodoloji, həm də dünya görüşü baxımından olduqca vacib əhəmiyyət daşıyır. Söhbət mədəniyyətin mahiyyət baxımından dinə münasibətinin səciyyələndirilməsindən gedir. Mühüm mənəvi hadisə kimi mədəniyyətin dinlə üzvi yaxınlığı heç bir şübhə doğurmur.

Dinin və mədəniyyətin nisbəti məsələsi, həqiqətən, humanitar elmin əbədi problemlərindən biridir. Çox vaxt, xüsusilə XX əsrin müəyyən dövrlərində bu problem siyasi məna və ideoloji forma qazanmışdır. Ancaq bu zaman mədəniyyətin geniş və məhdud mənada təriflərini nəzərə almaq lazımdır. Bəziləri üçün mədəniyyət - cəmiyyətdə olan bütün mənəvi hadisələrin məcmusudur. Deməli, o, dini də tərkib hissəsi kimi özünə daxil edir. Digərləri üçün "mədəniyyət" anlayışının məntiqi həcmi bəşəriyyətin pozitiv nailiyyətləri (burada pozitivliyin meyarları müəyyənləşdirilmir) adlandırılanların məcmusu ilə məhdudlaşır. Burada isə guya, onların fikrincə, din mənəvi mədəniyyət hadisələrinin ümumi sırasından çıxarılır. Konkret elmi işlərə gəldikdə isə (bu ən çox şərqşünaslığa həsr olunmuş tədqiqatlara aiddir), digər bir ifrat cəhət özünü göstərir. Müəyyən tarixi dövrlərdə mədəniyyət və din, sadəcə olaraq, eyniləşdirilir. Nəzəriyyə səviyyəsində bu, müəyyən dövrdə, bu və ya digər regionda bütün mədəniyyətin sırf konfessional (dini) tərifində ifadə olunur. Məsələn, "müsəlman mədəniyyəti" anlayışı elmi dövriyyəyə daxil olmuşdur. Həm də total şəkildə bu anlayış Yaxın və Orta Şərq, Orta və Cənubi-

Şərqi Asiya xalqlarının mədəniyyətinə aid edilmişdir. Bura fəlsəfədən tutmuş, musiqi, sənətkarlıq, rəssamlıq və memarlıq da daxildir.

Faktların konkret tarixi təhlili bir daha sübut edir ki, dinin bir sosial-mədəni və ideoloji hadisə kimi rolunun şişirdilməsi və yaxud da onun əhəmiyyətinin aşağı salınması, inkar edilməsi qətiyyən qəbuledilməzdir. İndiyə qədər marksizmin dinə münasibətini sırf inkarçılıq-ateist mövqe ilə əlaqələndirmişlər. Bu isə ancaq və ancaq tarixi ədalətsizlik, marksizmin mahiyyətinin təhrif edilməsidir. Əslində, marksist yanaşma dinə spesifik sosio-mədəni fenomen kimi, insanın mənəvi təşəkkülünün müəyyən pilləsində qanunauyğun surətdə yaranan bir hadisə kimi baxılmasını tələb edir. Başqa sözlə desək, din, ateizm və s. cəmiyyətin inkişafının müəyyən mənəvi tələbatı ilə əlaqədardır.

Mədəniyyətdə dünyəviliklə sakrallığın (diniliyin) bir yerdə olması təbii qanunauyğunluqdur. Mədəniyyətdə ilahiliyin və dünyəviliyin xüsusi həcmi, tarixi dövrdən və şəraitdən asılı olaraq, müxtəlif regionlarda müxtəlif səviyyədə olmuşdur. Məlum olduğu kimi, orta əsrlərdə mədəniyyətdə ilahilik, dini etiqatçılıq həm şərq, həm də qərb cəmiyyətlərində üstünlük təşkil etmişdir. Lakin mədəniyyətlərin daxili vəhdəti yuxarıda qeyd etdiyimiz iki başlanğıc - dünyəvilik və möminlik arasında ziddiyyətin olmasını inkar etmir. Deməli, dünyəviliyin və yaxud dindarlığın mədəniyyətdə hansı rol oynaması məsələsinə gəldikdə, onu yalnız müəyyən konkret tarixi kontekstdə qiymətləndirmək mümkündür. Məsələn, ateizm heç də həmişə mütərəqqi rol oynamamışdır. Bu o deməkdir ki, o, heç də həmişə qabaqcıl sosial təbəqələrin ideya dayağı olmamışdır. Digər tərəfdən, dinin də tarixdəki rolu həmişə birmənalı deyildir.



İslamın yayıldığı ölkələrdə mənəvi-mədəni sahədə baş verənlərin hamısını birmənalı olaraq müsbət qiymətləndirmək, özü də metodoloji və konseptual yanaşma baxımından, böyük səhv olardı. Həmin problemin mühüm aspekti mədəniyyətin müsəlman cəmiyyətinin ideoloji normalarla müəyyənləşdirilmiş spesifik şəraitində formalaşmış mənəvi məzmunun qiymətləndirilməsidir. Yaxın və Orta Şərq xalqlarının orta əsrlər mədəniyyətini, sözün həqiqi mənasında, müsəlman (islam) mədəniyyəti olmasını tam əsasla təsdiq etmək olarmı? Burada bir sıra mühüm şərtləri nəzərə almaq lazımdır.

Birincisi, onun tarixi kökləri islamdan əvvələ gedib çıxır. Xilafətin mədəniyyəti boş yerdə yaranmamışdır. O, artıq mövcud olan şərq (Misir, Babilistan, Suriya, İran və Hind), eləcə də qərb (ellin) mədəniyyətləri zəminində yaranmışdır. İkincisi, o öz ideoloji tərkibinə görə tam şəkildə müsəlman mədəniyyəti hesab oluna bilməz. Məlum olduğu kimi, xilafətin mədəniyyəti təkcə islama etiqad edənlər tərəfindən yaradılmamışdır. Zərdüştilər, xristianlar, iudeylər və müəyyən qədər də buddistlər müsəlman ölkələrində mədəniyyətin inkişaf etməsində mühüm rol oynamışlar. Üçüncüsü, islamın ideoloji hökmranlığı total xarakter daşımamışdır. Müsəlmanlıq ərəblərin siyasi hakimiyyəti altına düşmüş xalqların mədəniyyətinin bir sıra komponentlərini tamamilə özünə tabe etdirə bilməmişdir. Sonuncu tezisin təsdiqi kimi müsəlman fəlsəfəsinin müsəlmanlığa münasibəti ilə əlaqədar olan problemləri göstərmək olar. Orta əsrlərin Şərq fəlsəfəsi, çoxlaylı hadisə kimi, özünəməxsus konseptual və metodoloji strukturlaşmaya malik olmuşdur. Əslində klassik ərəb və farsdilli fəlsəfə müxtəlif fəlsəfi fikir məktəblərini, ideya cərəyanlarını özünə daxil etmişdir. Onların mövcudluğu haqqında Məhəmməd Şəhrəstani (XII əsr)

ətraflı məlumat vermişdir (*Аш-Шахрастани. Книга о религиях и сектах. Ч.1. Ислам. М., 1984, с.48-49*). Eyni zamanda Məhəmməd Şəhrəstani peripatetik fəlsəfəni açıq aydın şəkildə dinə qarşı qoymuşdur. Şəhrəstaninin böyük sələfi Əl Qəzali daha böyük və hərtərəfli təsnifatın müəllifi kimi tanınır. O, "həqiqət axtaranların" 6 kateqoriyasını ayırmışdır. Həmin altı istiqamət özü də bir sıra bir-birinə zidd budaqlara bölünürdü. Onların ideya məzmunu və ideoloji əhəmiyyəti müəyyən təkamülə məruz qalmışdır. Ümumiyyətlə, zaman keçdikcə fəlsəfi fəaliyyət teoloji fəaliyyətdən köklü surətdə fərqlənməyə başlamışdır.

İslam mədəniyyəti nə qədər çoxsahəli, hətta mürəkkəb olsa da, bütün hallarda, islamın əsas müddəaları ilə uzlaşır. Bütün müsəlman dünyasını əhatə etmiş təsəvvüf (sufizm) fəlsəfəsi isə islam dini zəminində meydana gəlmişdir.

Q.E. fon. Qrünebaum "Klassik islam" əsərində yazırdı: "Reallıq hissi ilə etiqad arasındakı münaqişədə birincinin nüfuzu qəfildən (bizdən ötrü) eksperimental metodların adekvat olmaması və subyektiv olanla obyektiv olan, başqa sözlə, empirik baxımdan mümkün olanla mümkün olmayan arasında kifayət qədər dəqiq hədd qoyulmaması üzündən fövqəltəbii olanı özünün ayrılmaz hissəsi kimi qəbul edən aləmdə sarsıntıya məruz qaldı. Bu münaqişə klassik elmlərdən istifadədən də yan keçmədi. Nəzəriyyənin təhlükə doğurmadığı sahələrdə müvəffəqiyyətlə iş aparılırdı: optika, botanika, əczaçılıq və praktiki təbabət bir çox şeylərə görə islam tədqiqatlarına borcludur. Lakin daha sonrakı klassik fikrin konseptual düzümü və hətta Qalen anatomiyası və ellin astrologiyası toxunulmaz qalmışdı, hərçənd bütün bunlardan bəzisi yalnız ona görə məlum olmuşdu ki, rədd edilsin. Həyata klassik (fəlsəfədən kənar) münasibətin qəbul edilməsi yolu ilə güzəşt əldə edildi, özü də bu zaman yeni dünya modeli yaratmağa və ya onu dinin icazə verdiyi biliklərlə müqayisə etməyə cəhd göstərilmədi" (*Q.E. fon. Qrünebaum. Klassik islam (600-1258). B., 1998, s.146-147*).



Məlum olduğu kimi, Şərq xalqlarının qədim tarixində mədəniyyət və sivilizasiyanın qeyri-adi çiçəklənməsi dövrləri olmuşdur. O cümlədən Şərq renessansı bu qəbildəndir. Şərq renessansı böyük dahilərin, filosofların, şairlərin yetişdiyi dövrdür. Şərq renessansının müsəlman mədəniyyətinin inkişafında mühüm rolu dönə-dönə qeyd edilmişdir. Şərq renessansı humanist hərəkatın başlanğıcını qoymuşdur.

Bəzi tədqiqatçılar (Əkbər Tursunov) Şərq renessansının hələlik elmi fərziyyə səviyyəsində qəbul edilməsinin tərəfdarıdır. Hipotezə münasibətə gəldikdə isə, buna nəzəriyyəyə münasibət kimi baxmaq lazımdır. Xüsusilə, ənənəvi fəlsəfi antiteza – "həqiqət-yalan" kimi sərt sxemə onu daxil etmək olmaz. Hipotezin qiymətləndirilməsi zamanı, hər şeydən əvvəl, konseptual məhsuldarlıq və metodoloji effektivlik olduqca vacibdir.

Şərq renessansı ideyasının elmi hipotezdən elmi konsepsiyaya çevirilməsi üçün "nə etmək lazımdır?" sualına cavab verməkdən ötəri bir sıra tədqiqat işlərini yerinə yetirmək lazımdır. Hər şeydən əvvəl, "renessans" adlı konseptual strukturda onun məntiqi karkasını təşkil edən konstitutiv elementləri ayırmaq lazımdır. İkincisi, bəşər sivilizasiyasının müxtəlif tipləri – "şərq" və "qərb" kontekstində həmin elementlərin fəaliyyət xüsusiyyətlərinin (məsələn, humanist hərəkat, konkret xalqın fəlsəfi, bədii yaradıcılıq, elmi nailiyyətlərinin eyni vaxtda çiçəklənməsi, onun mədəni-tarixi özünüdərkinin yüksəlişi

və s.) nəzərdən keçirilməsi bu qəbildəndir. Üçüncüsü, renessansın bir hadisə kimi "elmi simasını" spesifikləşdirən konseptual nüvəsinin ayrılması, bu zaman müxtəlif regionların sosio-mədəni inkişafının xüsusiyyətlərinin nəzərdən keçirilməsi zərurəti qeyd edilməlidir. Bu cür yönümdə Şərq renessansı ideyası işlənib hazırlanarsa, onu fərziyyədən elmi konsepsiyaya çevirmək imkanı yaranar.

Ümumiyyətlə, Şərq renessansı Qərb renessansından tez başlamış və ona böyük təsir göstərmişdir. Müsəlman mədəniyyətinin orta əsrlərdə necə nəhəng sürətlə inkişaf edib yayılması buna sübutdur. Əslində müsəlman mədəniyyətinin tarixi-fəlsəfi konsepsiyası, mürəkkəb və ziddiyyətli idisə də, mövcud olmuşdur. "Çox vaxt iddia edirlər ki, müsəlman fəlsəfəsinin gücü onun klassik irsi qoruyub saxlaması və Qərbə ötürməsi ilə məhdudlaşır. Bu belə deyildir. Müsəlman fəlsəfəsinin nailiyyətləri daha təbii olaraq islam kontekstində qiymətləndirilə bilər (Q.E. fon Qrünebaum. Klassik islam (600-1258). B., 1998, s.144-145).

Müsəlman mədəniyyəti fenomenal və dayanıqlı bir hadisə olduğu üçün tarixdə öz fəaliyyəti və güclü təsiri ilə qalan, indi də özünü göstərən bir mədəniyyətdir. Ondan çox şey götürüblər və hələ də götürməkdədirlər. İslam teologiyası da klassik fəlsəfədən çox şey götürmüşdür. Hətta tədqiqatçıların əksəriyyətinin fikrincə, islam teologiyasında klassik fəlsəfənin köməyi olmadan rasional izah qeyri-mümkündür.

Biz tədqiqatda dönə-dönə Avropa alimlərinə istinadən bir fikri nəzərə çatdırırıq ki, müsəlman mədəniyyətində kollektivçiliklə müqayisədə fərdi fəaliyyətçiliyə az yer verilir. Əlbəttə bu belədir. Lakin müsəlman mədəniyyəti fərdiyyətçiliyi tamamilə inkar da etmir. Söz yox ki, Qərb mədəniyyətilə müqayi-



sədə, mövcud fərq müsəlman mədəniyyətinin xeyrinə deyil. Görünür, bu fakt müəyyən dərəcədə fərdi azadlıqlar sahəsində müşahidə olunan məhdudiyyətləri də səbəbləndirir.

Müxtəlif dinlər eyni universal həqiqətin rəmzi ifadələridir; Vahid Allahın çoxlu adı var. Lakin heç bir rəmz fəlsəfi cəhətdən sübut olunan həqiqətin eyni ola bilməz. Məsələn, Fərabinin fikrincə, kainat Allah tərəfindən idarə olunur, dövləti filosof idarə etməlidir, çünki o, təmiz zəkanın ən kamil daşıyıcısıdır; o, kraldır, mənəvi liderdir, imamdır, qanunvericidir və peyğəmbərdir. Müsəlmanın fikrincə, yalnız Məhəmməd peyğəmbər bu rolu oynaya bilər. Fərabi öz dövründə mövcud olan böhranı filosoflarla hökumət arasında əlaqənin olmaması ilə bağlayırdı. Əgər filosofun təsiri hiss olunmursa, dövlət, yəqin ki, məhv olmaq astanasındadır (*Q.E. fon Qrünebaum. Klassik islam (600-1258). B., 1998, s.145*).

Dinin fəlsəfənin inkişafında rolu və mədəniyyət sistemində statusu məsələsi ən çox mübahisə doğuran məsələlərdəndir. İslam dininə nəzərən də bu məsələ problematik olaraq qalır, belə ki, yekdil və hamı tərəfindən qəbul olunan fikir yoxdur. Münasibətlər, həmçinin mülahizə əsasları qabarıq surətdə bir-birindən fərqlənir.

Müsəlman mədəniyyəti ümumbəşəri mədəniyyətin tərkib hissəsi kimi Avropa mədəniyyətinə böyük təsir göstərmişdir. Məhz bu kontekstdə islam dininin genişmiqyaslı və əsaslı rolu daha da aydın görünür, eyni zamanda, islam dünyasının təkamülündə ortaya çıxan problemlər, böhranlı vəziyyətlər öz nəzəri təhlili üçün əlavə qnoseoloji zəminlər qazanır. Qnoseoloji təhlil imkanlarını genişləndirən bir kontekst də əksinə, Qərb mədəniyyətinin və xristianlığın müsəlman mədəniyyətinə və bütövlükdə islam aləminə təsirilə bağlıdır. Ən vacibi isə

odur ki, bu göstərilən fakt – qanunauyğunluq Şərq-Qərb dialoqunun antoloji zəruriliyini də xeyli dərəcədə gücləndirir. Bu zərurət isə həm mədəniyyətlər arasında, həm də ayrı-ayrı mədəniyyətlər daxilində qarşıya çıxan mühüm problemlərin tələbləriIə şərtlənir. Şərq-Qərb dialoqu hal-hazırda, əslində, qlobal və universal məna kəsb edir. Və bu dialoqun necə və nə dərəcədə həyata keçirilməsindən bəşəriyyətin gələcəyi asılıdır.

Dinlərin dialoqu fenomeni, əslində, hələlik tədqiq olunmamış qalır, baxmayaraq ki, bu istiqamətdə artıq son qırx-əlli ildə xeyli işlər görülmüşdür: əvvəlcə Avropada, sonra isə həm də Asiyada problemlə bağlı çoxlu ədəbiyyat yaranmış, çoxsaylı görüşlər, konfrans və simpoziumlar, seminar və kollokviumlar keçirilmiş, yeni dini institut və təşkilatlar, tədqiqat qrupları yaranmışdır. Şübhəsiz ki, bu hadisənin siyasi-ideoloji motivləri, səbəb və xüsusiyyətləri də az deyildir, lakin yalnız bunlarla kifayətlənmək səhv olardı. Dinlərarası dialoq həm milli problemə (xüsusən konfessional cəhətdən qeyri-yekcins olan ölkələr üçün), həm də beynəlxalq problemə çevrilməkdədir. Dialoqa get-gedə daha çox ölkələr və xalqlar cəlb olunmaqdadır. Belə olduğu halda, aydındır ki, dialoq probleminin araşdırılmasında sosiomədəni və kulturoloji kontekstlər xüsusi və mühüm əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən də dissertasiya işində konseptual müəyyənləşmə və daxili strukturlaşma göstərilən kontekstlər üzrə aparılmış, din və mədəniyyətin genezisi, onların ictimai-tarixi mahiyyəti, bəşəriyyətin inkişafında rolu və yeri qarşılıqlı təsirlənmədə və dinamikada öyrənilmişdir. Əlbəttə, əsas diqqət islam dini və müsəlman mədəniyyətinə yetirilmişdir. Bu qoyuluşda aparılan tədqiqatın nəticəsi olaraq bir sıra əlavə, lakin mühüm hesab etdiyimiz müddəalar müəyyənləşmişdir:



- Şərq və Qərbin qarşılıqlı əlaqəsi tarixində islam-xristian münasibətlərinə xüsusi rol məxsusdur. Həm müsəlmanlara, həm də xristianlara həmişə müəyyən bir mənəvi (ruhi) ümumiliyin dərki xas olubdur ki, bu da Yaxın Şərq ibrahimi ənənələrinin mənbə vahidliyi ilə əlaqədardır. Eyni zamanda, onların dini-mədəni təcrübələrinin mahiyyətli surətdə fərqlənməsinin dərki xasdır.

- Məhz islamın yayılması və Ərəb xilafətinin yaradılması ilə Qərb və Yaxın Şərqin dini-ideoloji qarşıdurması ortaya çıxmışdır. Lakin bu regionlar arasında mədəni ünsiyyət, mübadilə prosesi heç vaxt tam kəsilməmişdir. İlkin islam dövründə bu prosesdə mühüm vasitəçi rolunu Suriya xristianları oynamışlar. XI-XIII əsrlərdə isə müsəlman alim və filosoflarının fəaliyyəti daha önəmli olmuşdur. İntibah və Yeni zaman dövründə Avropa və müsəlman Şərqinin mədəni talelərində uzaqlaşma baş verir, lakin XIX əsrdən başlayaraq yeni yaxınlaşma prosesi gedir.

- Dini münasibətlərin tarixi və müasir spesifikasını nəzərə almadan Qərblə müsəlman Şərqi arasındakı çoxşaxəli və ziddiyyətli əlaqələrin həqiqi dinamikasını dərindən anlamaq mümkün deyil. Dini münasibətlər bəzən ən gözlənilməz tərzdə iqtisadi, sosial-siyasi, xüsusən də, mədəni əlaqələri şərtləndirir.

- Qərb sivilizasiyasının təşəkkül tapması və inkişafında müsəlman xalqlarının, onların mədəni-mənəvi təcrübəsinin əhəmiyyətli rolu danılmazdır və bu həqiqət xristian aləminin mütəxəssisləri tərəfindən də etiraf olunmaqdadır. Müsəlman Şərqi Avropa üçün bir növ mənbə olmuşdur ki, buradan lazımi olan mədəni elementlər götürülmüşdür. Eyni zamanda, müsəlman Şərqi Qərb üçün daim "qıcıqlandırıcı" olmuşdur ki, Qərb təfəkkürü qarşısında yeni-yeni problemlər qoymuşdur.

- İslamın Avropaya orta əsrlərdə təsiri olduqca çoxəhatəli və müxtəliftərəfli olmuşdur. Bu təsir Avropa cəmiyyətlərinin bütün sahə və səviyyələrinə toxunmuşdur, az və ya çox dərəcədə. Məişət, ticarət, iqtisadiyyat, ədəbiyyat, elm, siyasət, fəlsəfə, din və s. bu təsirə məruz qalmışlar. Ümumi təsirin nəticəsi olaraq, müasir elmlərdə artıq ənənəviləşmiş bir sıra problemlər ortaya çıxmışdır, məsələn:

ədəbiyyat sahəsində – provansal lirikada Şərq və Avropa elementlərinin nisbəti, orta əsr fablio tanrının Şərq kökləri məsələləri;

təbiətşünaslığın tarixi sahəsində – Avropa təbabətinin və astronomiyasının inkişafına ərəb elminin təsiri məsələsi;

fəlsəfə tarixi sahəsində – latın averroizminin İbn Rüşdün fəlsəfi sistemilə müəyyənləşmə dərəcəsi barədə mübahisələr; həmçinin İbn Sinanın baxışlarının avqustçiançılara təsiri problemləri və s.

- İslam-xristian, Şərq-Qərb əlaqələri bütöv bir münasibətlər kompleksini əhatə edir. Bu münasibətlər dörd əsas müstəvi üzrə cərəyan etmişdir: iqtisadi, hərbi-siyasi, mədəni və dini. İki sivilizasiya arasında gedən hərbi-siyasi qarşıdurma düz XX əsrə qədər daha çox dini-ideoloji yönümdə əsaslandırılırmış.

- Orta əsrlərdə xristianlığın islama münasibətini iki əsas mövqe müəyyənləşdirirdi: bir tərəfdən, daha güclü və bilikli müsəlmanlardan öyrənmək; digər tərəfdən, yad və düşmən dinə qulluq edən müsəlmanlarla mübarizə aparmaq. İslam barədə təsəvvürlər Qərbi Avropada əsasən XII-XIV əsrlərdə formalaşmışdır. Orta əsrlər stereotipləri əsasında islam haqqında yaranmış Avropa təsəvvürləri sonrakı dövrlərdə də özünü göstərmişdir. Bu təsəvvürlər sistemi daxilində qeyri-adekvat



fikirlər, islam dini və müsəlmanların peyğəmbəri barədə uydurma müddəalar az deyildir.

- Bütövlükdə götürdükdə, XV əsrdən başlayaraq bilavasitə XIX əsrə qədər islam barəsində real biliklər son dərəcə zəif təkamül etmişdir (islamla tanışlıq, bir qayda olaraq, Avropanın dar elmi dairələri ilə məhdudlaşmışdır). Yalnız XIX əsrdə, avropalıların Şərqə miqrasiyası ilə əlaqədar olaraq, müsəlman ölkələri, onların mədəniyyəti və dini haqqında biliklər dairəsi qeyri-adi surətdə genişlənir, islam dünyasına maraq olduqca artır. Qeyd etmək vacibdir ki, bu maraq, ilk növbədə, Avropa ölkələrinin praktiki ehtiyaclarından irəli gəlirdi.

- Müstəqil elm sahəsi kimi islamşünaslığın təşəkkül tapması da bu praktiki ehtiyaclardan doğan maraqla bağlıdır və burada kolonial işğallarla bağlı motivlərin rolu az deyildir. XIX-XX əsrin əvvəlinə təsadüf edən Avropa islamşünaslığı müsəlman mədəniyyəti və dininin, onların tarixinin öyrənilməsinə böyük töhfə vermişdir. Ancaq, eyni zamanda, Avropa islamşünaslığı özü heç də az yeni "miflər", islamla bağlı azdırmalar, təhriflər yaratmamışdır. Avropa şərqşünaslarının böyük qismində islama, müsəlman xalqlarına düşmənçilik məqamları, "yuxarıdan aşağı baxma" meyilləri qalırdı. Bunun əsas səbəblərindən biri, fikrimizcə, islamşünaslığın bilavasitə imperiyaçılıq (müstəmləkəçilik) ideologiyasının təsiri altında olmasında idi. Əlbəttə, ümumi sosial-siyasi, mənəvi-psixoloji mühitin, irsi-mental amillərin də rolu vardır.

- XIX əsrin sonuncu rübündə avropa ictimai şüurunda islamın ikili təsviri qərarlaşır: islam, bir tərəfdən, təhlükə, təhdid kimi qəbul edilir ("panislamizm" adı ilə), "barbarların fanatizmi" kimi qiymətləndirilir, digər tərəfdən – "hakimiyyət

aləti" qismində istifadə oluna biləcək "stabilləşdirici din" kimi baxılır. Ümumiyyətlə, XIX əsr Avropa fikrində islama münasibətdə üç yanaşmanın (romantik-ekzotik, müstəmləkəçi, elmi) birgə fəaliyyəti müşahidə olunur.

- XX əsrin əvvəlində katolik islamşünaslıqda mahiyyətli yeniləşmə müşahidə olunur. İslamın şərhində ənənəvi konfessional istisnaçılıqdan və əxlaqi-dini paternalizmdən geri çəkilmə baş verir. Bu istiqamətdə həlledici addım fransız şərqşünası Lui Massinon tərəfindən atılır. Humanizm, dostluq və əməkdaşlıq ideyaları ilə yaşayan bu görkəmli şəxsiyyət müsəlmanların və avropalıların maraqlarının dini kommunikasiya sahəsində uzlaşması yolunda xeyli işlər görmüşdür. Hazırda katolik islamşünaslıqda islamın teoloji şərhinə dair üç əsas istiqamət mövcuddur: "maksimalist", "minimalist" və "mötədil" cərəyanlar.

- Yüzlərlə kommunikasion kanallarla bağlı, vahid informasiya şəbəkəsilə əhatə olunmuş plüaristik müasir dünya fərdi və ictimai şüuru yeni bir səviyyəyə yüksəldir – qlobal mənalı böyük amala doğru aparır: bəşəriyyətin xilası və gələcək tərəqqisi onun öz əlindədir, bunun üçün qarşılıqlı fayda verən əməkdaşlığa, tolerant birgə yaşayış qaydalarına, mədəniyyətlər və dinlər arasında dialoqa rəvac verilməli, cəmiyyətlərdə dini və dünyəvi sahələrin qarşılıqlı muxtariyyəti (sekulyarizasiyası) təmin olunmalıdır. Konfessional, etnik qarşılıqlı nifrət və istisnaçılıq aradan götürülməli, əsassız və qərəzli rəddetməyə son qoyulmalıdır. Bütün dünyada demokratik dəyər və prinsiplərin təntənəsi də bu əsasda mümkündür.



## § 6. İslam və milli mədəniyyət

*Müasir dövrün ən mühüm problemlərindən biri milli şüur və milli özünüdərketmədir. Milli olan canlıdır, həyatidir, ideyalar və həyatın sintezidir. Özü də «həll edilmə» elementi ilə olan sintezdir. Bu isə milli mövcudluğa yüksək gərginlik və böyük enerji potensialı verir.*

Bütün bunlarla bərabər milli identikliyin yaranması nəzəriyyəsi o qədər də mənasız deyildir. Müxtəlif xalqlar milli identikliyi müxtəlif yollarla və müxtəlif cür formalaşdırır. Çox şey konkret tarixi situasiyadan, milli ənənələrdən, siyasi kontekstdən asılıdır. Milli identikliyin quraşdırılmasının üç formasını ayırmaq olar. Bunlar siyasi, mədəni və mifoloji formalardır. Onlara müvafiq olaraq siyasi, mədəni və mifoloji millətçiliyin yaranmasından söhbət açmaq olar. Bu formalar konkret situasiyalarda adətən birlikdə çıxış edir. Lakin çox vaxt onları analitik şəkildə ayırmaq və həlledici olanı xüsusi vurğulamaq lazım gəlir.

Ənənəvi olaraq millətçiliyin ali forması kimi siyasi millətçiliyi xüsusi qeyd edirlər. Bu halda milli identikliyin formalaşmasını zəruri olaraq milli dövlətçiliyin formalaşması ilə əlaqələndirirlər. Milli identikliyin formalaşması milli evin tikilməsi ilə əlaqədardır. Bu zaman bünövrə, divarlar hazır edilir və sonra isə siyasi banı yaratmaq lazım gəlir. Çox vaxt sonuncu mərhələ olduqca qızğın olur, diqqəti özünə çəkir. Çünki o, si-

yasi və geosiyasi haqq-hesabla, ərazi, sənaye və donanma bölgüsü ilə əlaqədardır. Lakin bu mərhələ ancaq tamamlayıcı, yekunlaşdırıcı mərhələdir.

Daha fundamental, daha möhkəm və daha geniş forma mədəni millətçilikdir. E.Gellner ümumiyyətlə belə hesab edir ki, millətçilik özü mədəni fenomendir. Onun tərifinə görə millətçilik son nəticədə mədəni və dövləti birləşdirməyə səy edən cərəyandır. Həmin cərəyanın əsas məqsədi mədəniyyəti özünün siyasi evi ilə təmin etməkdir *(Геллнер Э. Нации и национализм. М. Прогресс. 1991, с.104)*.

Öz növbəsində vahid mədəniyyətə müasir sənaye-texnoloji inkişafın bilavasitə nəticəsi kimi baxmaq lazımdır. Bu isə aqrar epoxalar üçün tipik olan təcrid olunmuş mədəni anklavların dağıdılmasına urbanizasiya olunmuş həyati mühitin, meqapolislərin yaradılmasına gətirib çıxarır. Həmin yerə kütlələr axını başlanır və kütləvi istehsal yaranır (bunu modernizasiya prosesi ilə analoji situasiya kimi də başa düşmək olar). Bütün bunlar həyat tərzini və mədəni vərdişlərin unifikasiyasını tələb edir. Bunun ardınca iri və vahid mədəniyyət yaranır. Əvvəlcə mədəni identiklik dərk edilir, sonra isə şanlı-şöhrətli keçmiş, qeyri-adi igidliklər göstərilir. Əfsanəvi qəhrəmanları olan "millilik", tarixilik tələb edir. Əslində sənayeləşmə dövrünün mədəni identikliyi buna sövq edir. Əslində yuxarıda qeyd edilən həmin təmtəraqlı keçmiş demək olar ki, olmamışdır. Çünki həmin keçmişdə sadəcə olaraq mədəni, o cümlədən, siyasi birlik olmadığından qəhrəmanlıq tarixi də olmamışdır. Tarixi astarla çıxış edən bu cür millətçiliyi Gellner mif adlandırır, sadə dildə desək, bu gözəl və təhlükəli yalandır.

Əlbəttə, elə konsepsiyalar da vardır ki, birincilik çələngini siyasi millətçiliyə verirlər. Burada həlledici sxem prinsipcə başqa



cürdür. Həmin konsepsiyalara görə siyasi millətçilik milli elitanın cəhdlərinin məhsuludur. Əksər dövlətlərdə milli elita milli və mədəni baxımdan qiymətləndirilmir, əksinə, çox vaxt onu kosmopolit adlandırırlar. Tərəfdarların kütləvi səfərbərliyi üçün, İ.Qreverusun sözləri ilə desək, "milli mədəni ideal"la bərabər "siyasi folklorizm" yayılır *(Геллнер Э. Нации и национализм. М. Прогресс. 1991, с.105.)*. Nəticə isə eynidir. Tarixi və mədəni ənənələr siyasi tələblərə uyğun olaraq "qurulur".

Hər iki müəllif – həm Gellner, həm də Qreverus bir şeydə tam haqlıdırlar ki, müasir dövlətlərdə, xüsusilə ən iri dövlətlərdə ənənəvi milli mədəniyyət, sözün həqiqi mənasında, fiksiyadır. Hər bir dövlətin ərazisində çoxsaylı lokal və regional mədəniyyətlər mövcud olmuşdur. Bu zaman milli-mədəni idealın formalaşması üçün həmin mədəniyyətlərdən biri seçilir. Yerdə qalanları tarixin arxivinə verilir. Elə təkcə bu faktın özü sırf təmiz milli mədəniyyətdən danışmaq imkanını heçə endirir. Deməli, milli mədəniyyətin gələcək intibahından danışmaq mənasız söz-söhbətdən başqa bir şey deyildir. Milli mədəniyyətlərin intibahı və dirçəlişinə hər yerdə – həm köhnə, həm də təzə dövlətlərdə milli dövlətçiliyin inkişafı kimi baxırlar.

Millətçiliyin digər konsepsiyaları da mövcuddur. Onlar iki faktora əsaslanırlar: həmin faktorlar siyasət və mədəniyyətdir. Millətçiliyin rəngarəng və konkret təzahürü iki tipə – siyasi və mədəni tipə bölünür. Mədəni-siyasi və siyasi-mədəni millətçiliyin tilsimlənmiş dairəsindən çıxmaq o qədər də asan deyildir.

Bununla yanaşı, bir çox alimlər ən maraqlı fenomenə – xüsusilə millətçiliyin mifoloji xarakterinə diqqəti azaltmışdır. Onlar mifoloji xarakteri təsadüfi, xoşagəlməz bir hadisə hesab edirlər. Məsələn, Gellner mifə uymamağa çağırırdı. Elə bil ki,

bu çağırışla millətçiliyin qarşısını kəsmək olardı. Şübhəsiz, müvafiq konsepsiyaların müəllifləri belə hesab edirlər ki, quruluşları təzədən qurmaq mümkündür. Bizim fikrimizcə, millətçilikdə insanları maraqlandıran başlıca cəhət onun meydana gəlməsi və fəaliyyətidir. Təxminən nə vaxtsa dünyanı dalana dirəyən bütün ideologiyalar reallıqda olan ideyaların əsasında formalaşmışdır. Həmin ideyalara inanıb onu həyati praktikaya tətbiq edənlər çox olmuşdur. İdeyalar mifə çevrilib nəhəng enerji potensialına malik olursa, qanlı inqilablarda və nəhəng işğalçı yürüşlərdə özünü göstərir. Bunu millətçilik ideyaları və bəzi millətçilik elementləri haqqında da deyə bilərik. Mifoloji millətçilik millətçiliyin ən dərin və fundamental formasıdır. Millətçiliyin milli dirçəlişlərdə və milli inqilablarda təzahürü milli hisslərin mifolojiləşməsi dərəcəsindən asılıdır. Bu konsepsiyanın tərəfdarları hesab edirlər ki, böyük tarix və şanlı keçmiş yerli intellektualların uydurduğu nağıldan başqa bir şey deyildir. Lakin bu əhalinin həyat tərzinə çevrildikdən sonra mif olmaqdan çıxır. Mifoloji identiklik həqiqi milli identiklikdir və buna görə də mədəni və siyasi "üstqurum" adlanır. Bu keçmişi əks etdirən mif deyildir, əksinə, bu mif bugünkü reallığı əks etdirir. Bir sıra xalqlar vardır ki, (məsələn, çeçenlər) onlarda milli ideya dini ideya ilə birləşərək fantastik bir enerjiyə çevrilir. Bu enerjini quraşdırılmış identiklik ideyası ilə izah etmək olar. Çeçenistanın müstəqilliyi ideyası bir sıra tədqiqatçılar üçün mifdir. Lakin o bütün həyati enerji ilə yaşanır və həyata keçirilir.

Məlum olduğu kimi millətə bir sıra təriflər verilmişdir. K.Girtsə görə millət talelərin qəti ümumiliyidir (terminal community of fate) *(Ионин Л.Г. Социология культуры. М. Логос. 1998, с.162.)*. Əlbəttə, bu tərif onlarla tərifdən yalnız biridir.



Müxtəlif lüğət və ensiklopediyalarda millətə maraqlı təriflər verilmişdir. Millət (latınca *natio* – xalq, tayfa deməkdir) ondan asılı olan dövlət yaradandır və əraziyə, digər millət və xalqların hörmət etdiyi sərhədlərə malikdir (millət – dövlətdə təşkil olunmuş xalqdır). Milləti bir neçə xalq, yaxud bir neçə xalqın bir hissəsi təşkil edə bilər. Məsələn, Böyük Britaniya, İsveçrə və s. *(Мифологический энциклопедический словарь. М. Инфра. М. 1999, с.291.)*.

Milli mədəniyyət anlayışı da nisbi anlayışdır. Millətin formalaşmasına qədər bir sıra xalqlar müştərək mədəniyyətlərdən bəhrələnmişdir. Bunu ərəb–müsəlman mədəniyyəti haqqında da demək olar.

Ümumiyyətlə, Şərqdə dini–fəlsəfi, estetik, etik fikir müxtəliflikdə vəhdətin və vəhdətdə müxtəlifliyin anlaşılması prosesində fasiləsiz şəkildə ilkin mənbəyə qayıdış və yeniləşmə xarakterinə malikdir. Müsəlman dini həmin ənənəni davam və inkişaf etdirmişdir.

Müsəlman dini əksər şərq xalqlarının, o cümlədən ərəblərin, iranlıların, türklərin, hindlilərin, indoneziyalıların və s. xalqların, həmçinin Orta Asiyanın, Qafqazın, Volqaboyunun, Balkan və Afrika xalqlarının tarixində və mədəniyyətində, sözün həqiqi mənasında, əhəmiyyətli rol oynamışdır. Təsadüfi deyildir ki, islam fəlsəfəsi, elmi və incəsənəti öz orijinallığı ilə fərqlənərək bəşəriyyətə öz töhfələrini vermişdir.

Tədqiqatçıların fikrincə "ictimai həyatın, milli ənənələrin və tarixi talelərin müxtəlif səviyyəsində olmasına və mühüm fərqlərinə baxmayaraq, mürəkkəb və çoxəsrlik qarşılıqlı təsir prosesi nəticəsində islamın mədəniyyət orbitinə daxil olan xalqların sintezi bir sıra müsəlman xalqlarını birləşdirən ümumi, vahid olan mədəniyyət yaratmışdır ki, bu da uzun əsrlər

üçün həmin xalqların dünyagörüşünü, ənənələrini, həyat tərzini, mənəvi norma və ideallarını, psixologiyasını, ictimai təsisatlarını və davranış modellərini müəyyən etmişdir". Bunlara bədii praktikanı, dini və fəlsəfi fikri də daxil edə bilərik. Qeyd etmək vacibdir ki, həmin xarakteristika müsəlman xalqlarının vahid dövlətin tərkibinə daxil olduğu konkret tarixi mərhələyə aiddir. Yuxarıda qeyd etdiyimiz funksiyanı islam dini uğurla yerinə yetirmişdir. Hər şeydən əvvəl, islam dini əzəldən bütün müsəlmanların qəbilə – tayfa "bərabərliyini" elan etmişdir. Xristian tədqiqatçıların əksəriyyəti qeyd edirdilər: "İslam etiqadın etnik mənşədən asılı olmadığını elan edərək, hamı üçün vahid olan, hamı üçün mümkün olan baxışlar sistemini işləyib hazırlamışdır" *(Фильштинский И.М., Шидфар Б.Л. Очерк арабо–мусульманской культуры. М., 1971, с.9.)*.. Məşhur şərqşünas və islamşünas Qrünebaum yazırdı: "Başqa sözlə, fiziki hökmranlıq deyil, yeni təlimin mədəni qüdrəti, onun müəyyən coğrafi və intellektual regionda meydana gəlməsi yox, onun təbiətinə xas olan universalizm bu təlimin inkişafında həlledici amillər olmuşdur. İlahi olanı ərəb xalqı ilə eyniləşdirmək barədə onun təlqin etdiyi hiss ilə müqayisədə yaydığı yeni təsəvvürlər də eynilə daha sirayətedici olmuşdur. Buna baxmayaraq, (daha bir paradoks) ərəblər bu günə qədər müsəlman dünyasında imtiyazlı mövqe iddiasında olmuşlar (onların buna layiq olduğu da etiraf edilmişdir" *(Грунебаум Г.Е. фон. Классик Ислам. (600-1258), с.24–25.)*. Əlbəttə, bununla həm razılaşmaq, həm də razılaşmamaq lazım gəlir. Çünki islamı yaradan və əvvəllər yayan ərəb xalqı olmasına baxmayaraq, islamın mühafizəçisi, "qılıncı" türklər olmuşdur. Ona görə də imtiyazları ərəblərə vermək tarixi ədalətsizlik olardı. Müsəlmançılığın mühüm prinsiplərindən biri də mədəniyyətin qanunauyğunluğu prinsipinə əsaslanan ciddi tradisionalizmdir. Məşhur müsəlman alimi və teoloqu Əl-Qəzali tradisionalizmin mexanizmini düzgün ifadə etmişdir. "İnsan yalnız ənənəyə o vaxt riyaət edir ki, avtoritetləri təqlid şüursuz xarakter daşıyır. Lakin həmin halı dərk edən kimi, onun təqlid predmeti şüşə kimi çatlayıb, kiçik hissəciklərə çevrilər. Çatlamanı düzəltmək qeyri-mümkündür, xırda hissəcikləri toplayıb birləşdirmək olmaz, deməli, bütün bunları odda əritmək və həmin predmetdən ayrısını, daha mükəmməlini yaratmaq lazımdır" *(Аль-Газали. Избавляющий от заблуждения. Из истории философии Средней Азии и Ирана. М. 1960, с.218.)*. Digər tədqiqatçılar islamın digər dinlərdən hansı xüsusiyyətlərlə fərqləndiyini də qeyd edirlər. "Məlum olduğu kimi, digər dinlərdən fərqli olaraq, islam daha çox totalitar xarakterə malikdir, o, təkcə şəxsiyyətin dini şüurla əlaqədar tərəflərini deyil, eyni zamanda insanı bütövlükdə əhatə edir" *(Габриели Ф. Основные тенденции развития в литературах ислама. Арабская Средневековая культура и литература. М. 1978, с.14.)*. Müsəlman dini təkcə adından göründüyü kimi mütilik aşılamır. İnsan özü üçün yaxşı həyatı təmin etməkdən ötəri daim zəhmət çəkməli, ciddi və səbirli olmalı, bütün çətinliklərə dözməli və xilas olmağa ümidini heç vaxt itirməməlidir. Yerdə nə varsa fanidir, «əyləncə və oyundur», müvəffəqiyyətlər aldadıcıdır. F.Rouzental haqlı olaraq, qeyd etmişdir ki, islam üçün vacib olan cəhət budur ki, insanın çata bilmədiyi bilik var, o da hər şeyi görən, hər şeyə qədər Allahın ixtiyarındadır. Bu mənada islamı qədim klassik sivilizasiyası, yaxud xristian Qərb sivilizasiyası ilə müqayisə və yaxud qarşı-qarşıya qoymaq olar. Lakin eyni zamanda onlar bir ağacın budaqlarıdır *(Роузентал Ф. Торжество знания.*

*Концепция знания в средневековом исламе. М. 1978, с.14.).*

Qeyd etmək lazımdır ki, İslamda hisslərlə, arzularla, ehtiraslarla, ruhun affektləri ilə mübarizə əbədi olaraq aktual problem olmuşdur. Qəzaliyə görə fəlsəfənin (etikanın) və incəsənətin vacib vəzifələrindən biri «ruhun müalicə və ehtiraslardan xilas olması üsullarını tapmaqdan ibarətdir *(Ал-Газали. Избавляющий от заблуждения. Антология мировой философии. Т.1., II ч., с.478.)*. Ona görə də müsəlman mədəniyyətlərində dinin və incəsənətin qarşılıqlı münasibəti problemi özünəməxsus xarakterə malik olmuşdur.

Tanınmış rus və sovet filosofu E.G.Yakovlevə görə «islam və incəsənətin tarixi qarşılıqlı təsirini təhlil edərkən, mənəvi, xüsusilə, bədii mədəniyyətin inkişafında ümumi tarixi qanunauyğunluq aydın şəkildə görünür. Bu prosesdə iki axın: xalq-mifoloji və sosial-aktual cəhətlər daima qarşılaşır. Qarşılıqlı şəkildə təsir edir və bir–birini şərtləndirir" *(Яковлев Е.Г. Искусство и мировые религии. М. 1985, с.194–195.)*. Bu halda müsəlman ehkamçıları və praktiklərinin özünəməxsusluğu, onların sərtliyi və riqorizmi ona aparıb çıxarmışdır ki, nəticədə islam tam şəkildə xalqın mifoloji bədii şüurunu əhatə edə bilməmiş və təkcə ilk mərhələdə deyil, bütün mövcudluğu müddətində öz cizgilərini ona aşılaya bilməmişdir" *(Yenə orada, s.195.)*. Lakin yuxarıda deyilənlər E.Yakovlevin və onun kimilərinin xəstə təxəyyülünün məhsuludur. Onun kimilərdən soruşmaq lazımdır ki, bəs, onda yüzillər boyu mövcud olan "müsəlman mədəniyyəti", "müsəlman incəsənəti", "müsəlman poeziyası" hardan yaranmışdır.

Müsəlman mədəniyyəti XIX–XX əsrlərdə formalaşan milli mədəniyyətə də böyük təsir göstərmişdir. Yuxarıda qeyd



etdiyimiz kimi milli mədəniyyət təkcə millətin yaranması ilə əlaqədar formalaşmamışdır. Milli mədəniyyət bütün tarix boyu formalaşan mədəniyyətlərin həqiqi varisi hesab olunur. Görkəmli tədqiqatçılar insanların birlik formalarının yaranması mexanizmini açmağa çalışmışlar. Qəbilə–tayfa və xalqların formalaşması minillik tarixin ən mühüm göstəriciləri hesab oluna bilər. Lakin zaman keçdikcə həmin birlik formaları da maddi nemətlər istehsalının və mübadiləsinin inkişafı üçün çox məhdud oldu. Bu zaman mübadilə insanların ən müxtəlif fəaliyyət növlərini əhatə etməyə başlamışdı. Patriarxal-natural təsərrüfat öz yerini əmtəə istehsalına verdi. Əmtəə-kapitalist münasibətləri ayrı–ayrı təsərrüfat rayonlarının iqtisadi ayrılığını aradan qaldırır, həmin xalqdan və ona yaxın xalqlardan ibarət əhali arasında əlaqələri möhkəmlədir, onlar üçün ümumi olan dinin, ümumi mədəniyyət əlamətlərinin yaranmasına kömək edir, insanları daha sabit birlik olan, "bir qanunvericiliyi, bir milli sinfi mənafeyi, bir gömrük sərhəddi" *(K.Marks və F.Engels. Kommunist Partiyasının manifesti. B.,1976, s.56.)* olan millətlər halında birləşdirir.

Maraqlı cəhətlərdən biri də budur ki, çox zaman bəzi səbəblər üzündən mərkəzləşdirilmiş dövlət yaradılması prosesi həmin ərazidə yaşayan bütün xalqların millət halında təşəkkül tapmasından daha sürətlə davam etmiş və daha əvvəl başa çatmışdır. Belə hallarda digər xalqlardan əvvəl yaranan və mərkəzləşdirilmiş dövlət yaradılmasında aparıcı qüvvə olan bir və ya bir neçə millət imtiyazlı mövqe tutmuş və çoxmillətli dövlət yaranıb inkişaf etmişdir. Meydana gəlib inkişaf etməkdə olan millətin hakim sinifləri mərkəzi dövlətə arxalanaraq, çox vaxt nisbətən aşağı inkişaf səviyyəsində duran digər xalqları əsarətə almış və çoxmillətli dövlətlər yaranmışdır. Lakin müstəsna

hallarda bəzi xalqlar birmillətli dövlətlərdə formalaşmışdır.

Elə XIX əsrdə dünya birmillətli güclü iqtisadiyyata və hərbi gücə malik olan dövlətlər tərəfindən bölünmüşdür. Ancaq bəzi gec formalaşan birmillətli dövlətlər həmin bölgü ilə razılaşmadıqlarına görə dünya müharibələri baş vermişdir. Nəticədə bir sıra dövlətlər çoxmillətli imperiyalara çevrilmişdir. Həmin müstəmləkə imperiyalarında milli zülm özünəməxsus yer tutmuşdur. Lakin bütün hallarda millətlər kapitalist istehsal münasibətləri zəminində formalaşmışdır.

Millətin formalaşması üçün başlıca şərtlərdən biri də iqtisadi həyat birliyidir. Lakin iqtisadi həyat birliyi yalnız daha əvvəlki dövrdə meydana gəlib sıx iqtisadi əlaqələr əsasında inkişaf edən digər əlamətlərlə birlikdə, həyat birliyindən başqa, ümumi dil, ümumi ərazi və xalqın ictimai psixologiyasının bəzi xüsusiyyətləri, mədəniyyətin spesifik cəhətlərində təzahür edən həmin xüsusiyyətlər millətin əsas əlamətini təşkil edir. Həm də psixologiya və mədəniyyətin həmin millətə məxsus həlledici olmayan bəzi ümumi cəhətlər həmin millət daxilində bir-birinə əks olan təbəqələrinin nümayəndələrinin psixologiyasında əsaslı heç də aradan qaldırmır. Keçmiş SSRİ dövründə çıxan dərsliklərdə millətlərə aşağıdakı tərif verilmişdir. "Millət insanların sabit birliyi olub, ümumi dillə, ümumi ərazi ilə, iqtisadi həyat birliyi və müəyyən xalqın mədəniyyətinə xas olub onun mədəniyyətini başqa xalqların mədəniyyətindən fərqləndirən spesifik cəhətlərdə təsbit olunmuş ictimai psixologiyanın bəzi xüsusiyyətlərinin birliyi ilə bağlıdır". Millətin müasir dövrdə təriflərinə keçməzdən əvvəl, qeyd etməliyik ki, bəşər cəmiyyətinin yüksələn xətlə inkişafı prosesində insan birliyinin tarixən bir-birini əvəz edən üç tipi bunlardır: qəbilə-tayfa birliyi, xalq və millət. Bu tiplərdən birinin yerini digərinin tutması göstərir



ki, bununla bağlı olan sosial tərəqqi etnik birliklərin genişləndirilməsini, onların daha çox sabitləşməsini, onların arasındakı əlaqələrin möhkəmlənməsini tələb etmişdir. Milli şüurun formalaşmasına bir sıra amillər yardımçı olur. Bunlar xalqın psixologiyası, adət-ənənələri, mənəviyyatı, mentaliteti və s.-dir. Onlara xalq etiqadını, dini də əlavə etmək olar. Bu baxımdan islam bütün müsəlmanların dini olsa da (islama çoxlu millət və xalqlar etiqad edirlər), ayrı-ayrı millətlərin milli şüurunun formalaşmasında mühüm rol oynamışdır. Harvarddan olan professor Xokinq "Dünya siyasəti ruhunda" kitabında yazırdı: "Müsəlman ölkələri sadəcə olaraq, Qərb qaydaları və dəyərlərini təqlid edəcəklərsə qətiyyən irəli getməyəcəklər. İslam yeni təfəkkür, müstəqil yeni qanun və buna müvafiq qaydalar yaratmağa, özü də müasir cəmiyyətin tələblərinə uyğun gələn qanunlar yaratmağa qadirdirmi? Bəli qadirdir! İslam bəşəriyyətə digərlərinə nisbətən irəli doğru hərəkət üçün daha əlverişli imkanlar verir. Onun çatışmazlıqları qabiliyyəti ilə deyil, onlardan istifadə etməsi ilə əlaqədardır. Həqiqətən də şəraitdə hər şey vardır" *(Сайид Муджтаба Рукни Мусави Лари. Западная цивилизация глазами мусальманина. Б.,199, с.101–102.).*

İslam dini bütün müsəlmanları bərabərləşdirməklə millətçilik üçün heç bir əsas vermir. Millətçilik başqa xalqlarla geniş əlaqələr yaradılmasına mane olmaqda və ya yalnız etnik cəhətdən yaxın olan xalqlarla belə əlaqələri qəbul etməkdə, tarixən mütərəqqi hal olaraq millətlərin bir-birinə yaxınlaşması və bunlardan bəzilərinin digər millətlərlə qovuşması prosesinə, hətta bu proses zorakı tədbirlər, zorakı assimilyasiya nəticəsində deyil, "təbii" yolla getdikdə ölkənin iqtisadi inkişafı gedişində baş verdikdə də, buna mane olmaqda özünü göstərir. Bu milli mədəniyyətlərin yaxınlaşması prosesinə də mühüm təkan

verir. Əslində "kultura" (mədəniyyət) sözü özü bizi böyük paradoks qarşısında qoyur. Bir tərəfdən kultura partikulyarist *(Partikulyarizm (ümumdövlət mənafeyi zərərinə olaraq, dövlətin ayrı–ayrı hissələrini mərkəzdən ayırmamaq cəhdi, qeyri–rəsmi, xüsusi və s.)* mənaya malikdir. Mədəniyyət fərdlər sistemidir və yaxud davranışın praktiki formasıdır, mədəniyyətin antropoloji mənada işlənməsi, bir qrupun davranışının praktiki formasıdır. (Məsələn, fransız mədəniyyəti italyan mədəniyyətinə, proletar mədəniyyəti burjua mədəniyyətinə, xristian mədəniyyəti müsəlman mədəniyyətinə qarşı qoyulur). Eləcə də onu belletrist mənada, yəni ali dəyərlər, yaxud da ayrı–ayrı qruplar daxilində "elementar" praktiki davranış forması kimi başa düşmək olar. Burada mədəniyyət təsəvvürlərlə, bədii formaların istehsalı ilə eyniləşmişdir (*Валлерстайн И. Анализ мировых систем и ситуация в современном мире. Изд. Университетская книга. С.Петербург. 2001, с.131.*).

Hazırda dünya sistemində millətçilik partikulyarizmin kvintessensiyası, onun böyük formasıdır. Lakin islam və millətçilik müsəlman dininin ənənəvi yayıldığı ölkələrdə bir-birilə çox ziddiyyətli şəkildə özünü təzahür etdirir. Sosial, siyasi fəallığın güclü ideya stimulu rolunda çıxış edən millətçilik və islam zərurətindən asılı olaraq, bəzən müstəqil, bəzən də bir-birinə təsir edir, bəzən isə, yuxarıda qeyd etdiyimiz kimi, bir-birinə ziddiyyətdə olurlar.

İslam indiyə qədər əksər ölkələrdə dünyagörüşü və inteqrasiya olunmuş sosial-mədəni sistem kimi əhalinin çoxsaylı qrupları üçün mühüm əhəmiyyətə malikdir (*Левин З.И. Ислам и национализм в странах зарубежного востока. М.,Наука 1988. с.3.*).

Mədəniyyətin müəyyən edilməsində aksioloji şərtlərə əsas-



lanaraq tədqiqatçılar qeyd edirlər ki, ictimai şüur mənəvi mədəniyyətin elementidir. Bəzi tədqiqatçılar isə yanlış olaraq dini mədəniyyət sahəsindən kənarlaşdırırlar, "spesifik ictimai hadisə kimi mədəniyyətin tədqiqi dinə müraciət etmədən də mümkündür" (*Махновский Д.М. К постоновке вопроса взаимовлияния религии и культуры (культура и религия). Ленинград, изд. ЛГУ. 1977, с.23.*), yaxud da "marksistlər dini mədəniyyət hadisəsi hesab edirlər" (*Савельев С.Г. Понятие и место культуры в системе общественных наук. Религия и атеизм в истории культуры. Л. ЛГУ. 1989, с.78).*

Bizim fikrimizcə, dini subyektiv surətdə mədəniyyət sahəsindən təcrid etmək mədəniyyət kimi mürəkkəb strukturu məhdudlaşdırmaq deməkdir. Bu o deməkdir ki, uzun illər biz gələcəyə böyük tarixi əhəmiyyəti olan sosial fonemen haqqında informasiya verə bilməmişik. Bu isə keçmiş sivilizasiya haqqında məlumatsızlıq deməkdir. Dini mədəniyyət sahəsindən təcrid etmək onu qeyri-tarixi və təsadüfi hadisə hesab etməyə bərabərdir. Bu da cəmiyyətin inkişaf qanunauyğunluqlarının başa düşülməsinə, onun mənəvi həyatı və mədəniyyəti haqqında məlumat almağa zidd gəlir.

Məlum olduğu kimi din təsadüfi hadisə deyil. Bütün dinlər hər bir xalqın ictimai və siyasi həyat şəraitinə uyğun olaraq doğmuş, onun yaxın və ayrılmaz mənəvi dəyərinə çevrilmişdir. Hər bir dövrün mənəvi mədəniyyətində cəmiyyətin maddi, sosial-iqtisadi, siyasi, estetik, əxlaqi, dini dəyərləri öz əksini tapır.

İfrat materialistlər hesab edirlər ki, mənəvi mədəniyyətin məzmunu maddi mədəniyyətin inkişafının səviyyəsi ilə müəyyən olunur. Elə buna görə də ilkin tarixi mərhələlərdə mənəvi mədəniyyət sahəsində müəyyən dünyagörüşü formaları

üstünlük təşkil edir. Maddi istehsalın ilkin mərhələlərinin şüurlu inikası ancaq dini xarakter daşımalı idi. Dünyanı mənimsəmənin dini üsulu adamların daxili aləminin və sosial fəaliyyətinin requlyasiyası yolu ilə mümkün ola bilərdi. Bu cür qabiliyyətə yiyələnən din uzun tarixi dövrlər ərzində obyektiv tələbatı ödəmiş və onun mövcudluğunun ayrılmaz şərti olmuşdur.

Dinin spesifikası ondadır ki, o, özündə spesifik dini şüurdan başqa ictimai şüurun digər formalarının elementlərini də birləşdirir. Cəmiyyətin inkişafının hər hansı müəyyən mərhələsində din real şəkildə konkret-tarixi formada həqiqi biliyin ifadəçisi kimi çıxış etmişdir. Ümumbəşəri dəyərləri ifadə edən bir sıra mənəviyyat nümunələri və ideyalar dini-mistik formada özünü göstərmişdir. Əgər biz həmin ideya və mənəviyyat nümunələrindən, yəni bütövlükdən, mədəniyyətdən dini təcrid etsək, həmin dövrün mədəniyyət və mənəvi həyatının kədərli bir mənzərəsini görə bilərik. Orta əsrlərdə belə hadisələr çox olub. Şübhəsiz, biz keçmiş dövrləri tamamilə mövhumat və cəhalətin, mədəniyyətsizliyin hökm sürdüyü kimi təsəvvür etsək tarixin həmin dövrünü düzgün qiymətləndirməmiş olardıq. Mədəniyyət fenomeninə tərif verərək onu dindən təcrid etmək deyil, onunla əlaqələndirmək lazımdır. İnsan fəaliyyətinin (bəlkə də mövcudluğunun) ifadəsi olan din insan fəaliyyətinin bütün sahələrinə – maddi və mənəvi sahələrinə hərtərəfli daxil olur və təsir göstərir. Deməli, din mədəniyyət elementi kimi çıxış edir, insanın mənəvi fəaliyyətinin əsas növü kimi çıxış edir.

VII əsrdən başlayaraq Şərqdə hökmran dinə çevrilən İslam dini bütün ölkələrdə məişəti, ənənəni və kultu öz tələblərinə uyğun olaraq dəyişdirmişdir. İkincisi, islam yerli xarakterə malik olmaqdan ötəri yerli mərasimləri və dini prinsipləri də "özününküləşdirməli" idi.



Milli mədəniyyət digər müsəlman xalqlarının mədəniyyəti ilə islami əsasda birləşmiş və daha da zənginləşmişdir. Mütləq dəyişkənlik, axıcılıq hisslə qavranılan dünyada bütün şeylərin və hadisələrin qeyri-müəyyənliyi fikrinə qarşı çıxan müsəlman mədəniyyəti və incəsənəti özünün dəyişməz, sabit və möhkəm, etibarlı, əbədi prinsiplərini irəli sürür.

"Müsəlman incəsənətlə özünün ələ alınmasını istəmir, çünki onun üçün dünyanın özü incəsənət əsərlərinə nisbətən daha gözəldir, Allahın öz əlindəki ipi dartmaqla hərəkətə gətirən bütün mövcud mexanizm, daha doğrusu işə saldığı dünya gözəldir...

Müsəlman incəsənəti bütün ortodoksal-müsəlman filosoflarının ciddi–cəhdlə müdafiə etmələri dünya haqqında təsəvvürlərə əsaslanan kainat haqqında müəyyən nəzəriyyələr əsasında yaranır... Bu nəzəriyyəyə görə, bu dünyanın özündə forma, obraz yoxdur, təkcə Allah daimi varlığa, mövcudluğa malikdir (*Масиньон Л. Методы художественного выражения у мусульманских народов. Бах: Арабская Средневековая культура и литература. М. 1985.*).

Əgər Şərqin, müsəlman dünyasının orta əsr mədəniyyəti və incəsənətinə nəzər yetirsək görərik ki, onlar sonrakı dövrlərdə formalaşan milli mədəniyyətlərə mühüm təsir göstərmişdir.

Ümumiyyətlə, orta əsr mədəniyyəti və incəsənətində estetika anlayışlarına maraq, incəsənətin normativliyi prinsipinin müzakirəsi son illərdə filosoflar, estetiklər, mədəniyyət nəzəriyyəçiləri, ədəbiyyatşünaslar, sənətşünasların və s. diqqət mərkəzində olmuşdur. Bizə elə gəlir ki, nəhayət, bu yolda mü-

səlman incəsənəti haqqında obyektiv, düzgün fikir deyiləcəkdir.

"Orta əsr şüuruna, onun insan və dünya haqqında mühüm baxışlarına xas olan cəhət odur ki, onlar özlərinin bədii prinsiplərini estetik qanun formasında möhkəmləndirmək istəyirlər. Keçmiş dövrlərin bədii praktikası əsasında formalaşan kanon öz kökləri ilə qədim incəsənətə gedib çıxır və xalq təsəvvürlərində inkişaf edib ənənəyə çevrilən gözəllik və harmoniya idealını möhkəmləndirir. Lakin ənənə müəyyən üsulların təkrarı və obrazların kortəbii və adətə əsaslanan təqlididirsə, kanon sistem kimi formalaşan və kanonluğundan çıxıb qanuna çevrilən ənənədir" *(Фильштинский И.П. История арабской летературы. М.1985, с.10).*

Milli mədəniyyətlər orta əsr müsəlman mədəniyyətinin qanuni varisi rolunda çıxış edir. Varislik inkişafın obyektiv, universal, müstəqil prinsipi olub, dəyərlər kateqoriyası vasitəsilə mədəniyyətin strukturuna daxil olur. Xalqların milli mədəniyyəti dünyanın milli obrazı olub, fəlsəfi–kulturaloji kateqoriya kimi milli–mənəvi sistemin bütövlüyünü ümumiləşdirilmiş şəkildə ifadə edir. Milli mədəniyyət təkcə "milli xarakteri" ifadə etmir. Çünki müasir anlamda milli mədəniyyət millilikdən çox universallığı ifadə edir. Ənənəvi olaraq islamı insanların bütün həyatını, o cümlədən o dünyadakı həyatını da nizamlayan bir din hesab edirlər. Nəzəri cəhətdən islamda ruhanilik institutu yoxdur. Ərəb dilində hətta bu termini ifadə edən söz yoxdur, Fars dilində bu anlayış ruhaniyun kimi yalnız son dövrlərdə meydana çıxmışdır. Bununla bərabər kult xidmətçiləri istənilən qədərdir: imamlar, xətiblər, müəzzinlər, molla, şeyx, axund, ilahiyyatçı və s. bu qəbildəndir (*Бах: Дорошенко Е.А. Шиитское духовенство в Иране. М., 1986* ).



İndiki dinamik dövrdə xalqlar və ölkələr arasındakı təkcə məkan, coğrafi sərhədlər deyil, eyni zamanda tarixi, siyasi, sosial maneələr aradan qaldırılır. Sivilizasiya və mədəniyyətlər arasında həmin maneələrin aradan qaldırılması həm keçmiş, həm bu gün haqqında obyektiv fikirlər üçün və həm də gələcək inkişaf üçün düzgün perspektivlər müəyyənləşdirilməsi üçün intəhasız imkanlar açır. Mədəniyyətdə çoxxətlilik, dinamizm mürəkkəb strukturluluq, onun nisbi müstəqilliyi idealist fəlsəfədə belə bir baxışı formalaşdırmışdır ki, mənəvi olan maddidən üstündür. Bəzi tədqiqatçıların fikrincə, mənəvi mədəniyyətin ürəyi dünyagörüşüdür. Bu isə insanın dünyaya ümumiləşdirilmiş baxışlar sistemidir, özünün dünyada yerinin müəyənləşdirilməsidir, insanın gerçəkliyi dəyərlər mövqeyindən anlamasıdır, onun fəaliyyətinin və bəşəriyyətin taleyinin dərk edilməsidir. Adamların elmi, fəlsəfi, siyasi, hüquqi, dini, əxlaqi əqidə və ideallarının məcmusudur *(Спиркин А.Г. Человек, культура, традиция (Традиция в истории культуры). М. 1978, с.7-8.).* Dünyagörüşü mənəvi mədəniyyətin bütün komponentlərinə daxil olaraq əlaqələndirici həlqə rolunda çıxış edir.

Din mənəvi istehsalın bir növü, ictimai şüur formalarından biridir. Tədqiqatçıların əksəriyyətinin fikrincə, mədəniyyət fenomeni kimi dinin əmələ gəlməsi tarixi zərurət olmuşdur. Dinin sayəsində insan özünüdərk imkanı əldə etmişdir. İslam müsəlman ölkələrinin yerli mədəniyyətlərini mənimsəməklə, gələcəkdə müsəlman mədəniyyətinin hərtərəfli inkişafına kömək etmişdir. Müasir müsəlman ilahiyyatçıları belə izah edirlər ki, islamı qəbul etdikdən sonra bütün ölkələr birdən–birə çiçəklənmişdir. Əlbəttə, bu, ağlabatan deyildir. Əvvəla, islam dini nisbətən inkişaf etmiş ölkələrdə yayılmışdır. İkincisi, ərəb-

lər işğal etdikləri ölkələrdən çox şey öyrənmişdir. Deməli, islam birdən–birə inkişafa aparan hesab olunmamalıdır. İslam tədricən milli mədəniyyətlərin inkişafına mühüm təsir göstərmişdir.

Qeyd etmək lazımdır ki, milli mədəniyyətin inkişafında bir sıra faktorlar iştirak edir. İqtisadi, siyasi və mənəvi sahələrdə əhəmiyyətli dəyişikliklər baş verdikdən sonra hər bir xalqın özünüdərki, milli mənini tanıması prosesi baş verir. Məlum olduğu kimi, özünüdərk aşağıdakı prinsipləri özünə daxil edir: etnik məsuliyyətin dərk edilməsi, milli dilə və mədəniyyətə bağlılıq, milli ənənə, adət, mərasim, rituala bağlılıq, xalqın tarixinə, onun qəhrəmanlarına, pis, yaxşı yaşanmış keçmişinə məhəbbət hissi ideyasına hörmət və s. Milli özünüdərkin struktur elementləri içərisində ən sabiti və dayanıqlısı etnik mənsubiyyət hissidir.

Dindarlarda milli özünüdərkin formalaşması mütərəqqi milli həyat cizgiləri əsasında deyil, həm də dini ideologiyanın, nəsildən-nəslə ötürülən əxlaqi–normativ qaydaların və ənənələrin təsiri altında olur. Yuxarıda sadaladıqlarımız isə milli psixologiyanın və həyat ukladının bir hissəsi hesab olunur.

Adamların dini hisslərindən istifadə olunması və ondan spekulyasiya edilməsi düzgün deyildir. Özü də bu zaman milli xüsusiyyət adı altında mürtəce adət və ənənələrdən, dövranını sürmüş, milli mədəniyyətin arxaik formalarından istifadə olunması mühüm yer tutur. Bütün bunlar isə millətçiliyin oyanmasına xidmət edir. Azərbaycan xalqı öz çoxəsrlik tarixində o qədər də az olmayan demokratik adət-ənənə işləyib hazırlamışdır. Bunlar: vətənpərvərlik, Vətənə məhəbbət, Vətənin müdafiəsi, qonaqpərvərlik, böyüklərə, qocalara, qadınlara hörmət və s. Lakin Azərbaycan xalqının yalnız özünəməxsus bir sıra adət-



ənənələri də vardır. Milli mədəniyyətin inkişafında xalqın özünəməxsus keçmişinin müsbət cəhətlərinin dirçəldilməsi mühüm vəzifədir. Lakin bir məsələ də qeyd olunmalıdır ki, Azərbaycan xalqı tarixən beynəlmiləl xalq olmuşdur. Ermənі və s. düşmənlərimizin iddia etmələrinə baxmayaraq, Azərbaycan xalqı həmişə ona sığınanları hörmətlə qəbul etmişdir. Onlara hörmətlə yanaşmış, ev, ərazi və s. ilə təmin etmişdir. Hətta öz həyatını təhlükə qarşısında qoyaraq, qonaq hesab etdiyi başqa millətin nümayəndəsini axıra qədər qorumuşdur.

Milli mədəniyyət bütün sahələrdə özünü göstərmişdir. Müsəlman ölkələrinin milli mədəniyyətləri müsəlman dünyasını daha da zənginləşdirmişdir. Öz milli-etnik spesifikliyinə baxmayaraq, onun islam ünsürləri ilə zəngin olması göz qabağındadır. Müsəlman bayram və mərasimləri milli mədəniyyətin qızıl fonduna daxil olmuşdur. Doğrudur, həmin fondda islamaqədərki adət-ənənə və mərasim də özünəməxsus yer tutur. Lakin bütün hallarda milli mədəniyyətlərdə dini olan ilə milli olan, eləcə də dini olan ilə dünyəvi olan bir-birinə çulğunlaşmışdır. Bu isə islamın ən böyük uğurudur. Milli mədəniyyətlərin ən böyük müvəffəqiyyətidir. Dini-mənəvi dəyərlər olmadan milli mədəniyyətləri təsəvvür etmək mümkün deyildir.

## § 7. "Qlobal sivilizasiyanı sülhə aparan yol – tolerantlıqdan keçir"

*(Məruzə Yaxın Şərqin tədqiqinə həsr olunmuş II Ümumdünya konqresində (11-16 iyun 2006-cı il. ( Əmman – İordaniya) edilmişdir.*

*Konqres İordaniya Krallığının Dinlərarası Tədqiqatlar İnstitutu tərəfindən təşkil edilmiş və burada keçirilmişdir.*

*İnstitut 1994-cü ildə şahzadə Həsən ibn Talal tərəfindən və onun himayəsi altında təsis olunub. Ərəb və İslam dünyasında, sivilizasiyalararası və mədəniyyətlərarası münasibətlərin ən müxtəlif elm sahələri nümayəndələri tərəfindən araşdırılmasını, həmin münasibətlərin lokal, regional, milli, qlobal aspektlərdən, həmçinin tarixi və müqayisəli səviyyədən təhlilini diqqət mərkəzində saxlayır. Xüsusilə də xristianlıqla ərəb-islam sivilizasiyası arasında, eləcə də digər qeyri-müsəlman, qeyri-ərəb və s. xalqlararası əlaqələrin, dini və mədəni müxtəlifliyin tarixi təkamülü və müasir vəziyyəti geniş tədqiq olunur.*

*İnstitutun fəaliyyətində başlıca məqsədlərdən biri müxtəlif dinlər, millətlər, ölkələrarası dialoqa manea olan səbəbləri, xüsusən də Şərq və Qərb arasında mövcud olan maneələrin aradan qaldırılmasına dəstək olmaqdır. İstər Yaxın Şərq üzrə tədqiqatçıları, istərsə də bütün arzu edənləri Ərəb və Şərq dünyası ilə daha sıx tanış olmağa, bununla da arzuolunan yeni, ahəngdar dünyanı qurmağa nail olmaqdır.*

*Bu məqsədlə dünyanın hər yerindən, bütün elm sahələrindən nümayəndələr, ekspertlər, politoloqlar, media nümayəndələri, siyasi və din xadimləri konfransa*



*dəvət olunur, ideya və tədqiqat və fikir mübadiləsi aparır. Bu da Şərqə dair tədqiqatları ilk dəfə, həqiqətən də, Şərqin özündə aparmağı, oriyentalistikanın obyektiv elmi əsaslar üzərində inkişafını şərtləndirir. Konfransda Avropanın Yaxın Şərqə dair Tədqiqatlar Assosiasiyası, İngiltərə, Fransa, Almaniya və İtaliyanın Yaxın Şərq İnstitutları, Şimali Amerikanın Yaxın Şərq tədqiqatları Assosiasiyası və s. nüfuzlu təşkilatlar daim iştirak edirlər. Eyni elm sahəsində, eyni mövzulara dair bütün dünyada mövcud olan baxışları, heç vaxt görüşə bilməyən insanları bir araya gətirir. İnstitutun direktoru uzun illər BMT-də İordaniyanın səfiri və səlahiyyətli nümayəndəsi olan Həsən əbu Nümadır.*

*İnstitut "Ərəb mədəniyyəti və sivilizasiyası" adlı qlobal internet səhifəsinin, hər ay ingiliscə çap olunan beynəlxalq jurnalların təşkilatçısıdır.*

*Şərqin, İslamın və Ərəb dünyasının tədqiqində keyfiyyət baxımından yeni bir mərhələnin başlanğıcını qoyur.*

*I Ümumdünya Konqresi 2000-ci ildə, Avropada Mayns Universiteti tərəfindən təşkil edilmişdi.*

*II Konqresdə dinlənilən məruzələrin sadəcə adının sadalanmasına günlərlə vaxt ayırmaq lazım olardı. Başlıca məqsəd qlobal ünsiyyət, inteqrasiya və dialoqa nail olunmasında, "sivilizasiyaların toqquşması" kimi bəyanatların tolerantlıq və inteqrasiya cəhdlərinə yönəltmək işində Konqresin konkret təklif, rəy, tövsiyə və praktiki mexanizmləri müəyyənləşdirmək məramıdır.*

*Bir neçə mövzunu sadalayırıq:*

*- "Yaxın Şərqin tədqiqində ənənəvi və ən müasir meyllər, metodologiya və baxışlar";*

*- Yaxın Şərqdə ilahiyyat və fəlsəfənin qarşılıqlı inkişafı";*

*- "Məğribdə iqtisadi problemlər və onların həlləri;*

*- "Müsəlman həyatının dinamikası"*

*- "İslam və qloballaşma";*

*- "Müsəlman – xristian münasibətləri"*

*- İslam təhsili və tədrisinə yeni baxış: Azərbaycan, Əfqanıstan və Nigeriya müqayisəli təhlil". (Bu mövzuda Velfild Universitetindən Kristina Hanner Kreyzel (al-*

*man) çıxış etdi. Gənclik, təhsil və islam, dini dəyərlərin gənclərin həyatında yeri haqqında fikirlərini bildirdi.)*

- *Dünya siyasətində İraq məsələsi: nə edirik və hara gedirik";*
- *"İnternet, İslam və Qərb";*
- *İslam və gender;*
- *XXI əsrdə ərəb demoqrafiyası;*
- *"Yaxın Şərqin yaxın gələcəyinə baxış";*
- *Sufizmin yeni aspektləri;*
- *İslam və müsəlman diasporları;*
- *İslam fəlsəfəsində cərəyanlar;*
- *Yaxın Şərq və dünya siyasəti;*
- *İslam və qlobal ekologiya*
- *Suisidal (intihar) terrorizmin qlobal fenomen kimi artması: dini psixoloji tərəflər. (Avstriya alimi tərəfindən məruzə)*
- *Müsəlman və Ərəb dünyasında demokratiya;*
- *Ərəb dünyasında hüquqi islahatlar;*
- *Yaxın Şərqdə qadın və hüquq;*
- *Uşaqların inkişafı və Yaxın Şərq: qlobal prioritetlər;*
- *"Yoxsulluq və silahlanma: qlobal balansı dəyişək";*
- *Ərəb dünyası və davamlı inkişaf və s.*

Qlobal sivilizasiyanı sülhə aparan yol – tolerantlıqdan keçir.

Tolerantlıq ideyasının tarixi çox qədimdir. Bu ideyanı dünyaya ilk təqdim edən dinlər, müqəddəs kitablar və etik-fəlsəfi təlimlər olmuşdur.

Tolerantlığı təhlil edən ilk fəlsəfi tədqiqatların məhz dini tolerantlığın mahiyyətinə həsr olunması da böyük mənaya malik tarixi faktdır. Yəqin bunun səbəbi belə bir paradoksla izah oluna bilər ki, bəşəriyyətə sülh və nicat yolunu göstərən dinlər, peyğəmbərlər çox böyük müqavimətlə, dözümsüzlüyün



ifrat formaları ilə üz-üzə gəlmişlər. Bütün maneələrdən və tarixin sınaqlarından çıxaraq müqəddəs dinlər səbr, insana hörmət və dözüm yolunu bəşəriyyətin qurtuluş və nicat yolu olduğunu artıq min illərdir ki, insanlara ünvanlamaqdadır.

Tolerantlıq anlayışını müasir dövrdə elmi və publisistik gündəmə gəlməsi tarixi isə ən yaxın zamana aiddir. Onun səbəbi dözümsüzlük və ondan qaynaqlanan acı nəticələrin qlobal təhlükə kimi bəşəriyyəti və demokratiyanı təhdid etməsi, başqa sözlə desək, dözümsüzlüyün qlobal problemə çevrilməsidir. Bu müasir dövrümüzün reallığıdır və ən yaxın gələcəkdə dünyanın taleyi bizim ümumi səylərlə formalaşdıra biləcəyimiz qlobal tolerantlıq paradiqmasından və onun həyata keçirilməsi mexanizmlərinin müəyyənləşdirilməsindən birmənalı asılı olacaqdır.

Tolerantlığın ideya və bəşəri dəyər kimi mahiyyətinin, fəlsəfəsinin müəyyənləşdirilməsinə zərurət vardır. Çünki tolerantlığın fəlsəfəsi bəzən başa düşüldüyü kimi Qərb anlamlı və Qərb mənşəli dəyər olmaqla məhdudlaşmır. Qərbdə tolerantlıq Şərqdəki ideyalarla müqayisədə çox gəncdir. Digər tərəfdən, tolerantlığın müasir dünyanın yeni məzmunlu qlobal problemi olduğunu görməyə, dərk etməyə böyük ehtiyac vardır. Bu o deməkdir ki, tolerantlıq ayrıca götürülmüş bir dövlətin deyil, hazırda bütün dünyanın qlobal, sosial-mədəni problemi statusunu kəsb etmişdir.

Tolerantlığın fəlsəfəsi, çoxçalarlı mahiyyəti, demokratik cəmiyyətin qurulmasında tolerantlıq mədəniyyətinin formalaşdırılmasına mane olan stereotiplər, tolerantlığa yardımçı olan amillər sırasında dini tolerantlıq kimi taleyüklü məsələ və nəhayət, Azərbaycan məkanında reallığa çevrilən, xalqımızın tarixi nailiyyəti sayılan tolerant cəmiyyət modelindən bu gün

dünyada axtarılan inkişaf paradiqmalarının yararlana biləcəyi böyük potensiala sizin diqqətinizi cəlb etmək istəyirik.

Dünya ictimaiyyəti tolerantlıq problemini son dövrlərdə daim müzakirə etsə də, hər dəfə ortaya çıxan suallar cavabları üstələyir. Tolerantlığın mahiyyəti haqqında bitkin fəlsəfi konsepsiya hələlik mövcud deyil, lakin onun təməli, tolerantlığın kodeksi sayıla biləcək ümumbəşəri prinsip və meyarlar sistemi mövcuddur: Bu bəşəriyyətə ünvanlanan müqəddəs kitablardakı mənəvi dəyərlər sistemidir.

Tolerantlıq hüquqi kateqoriya deyil. Lakin tolerantlıq ideyası hüquq fəlsəfəsində də, hüquqi etikada da öz əksini tapmışdır. Bu baxımdan tolerantlıq həm fəlsəfi-hüquqi ideya, həm də doktrinal norma qismində nəzərdən keçirilə bilər. Demək olar ki, bütün liberal, demokratik paradiqmalara tolerantlıq xasdır.

İnsan hüquqları kontekstində tolerantlıq - hər bir ölkənin qanunvericiliyində müəyyən normaların, başqa insanların hüquqlarına dözümlülüyü ifadə edən, diskriminasiya hallarına yol verilməməsini əks etdirən ümumi prinsiplərin mövcudluğudur. Həm də qanunvericilikdə, eyni zamanda, antidiskriminasion və müəyyən qrup insanlar üçün əlverişli hüquqi rejimi təmin edən normaların təsbit edilməsi nəzərdə tutulur (yəni "pozitiv diskriminasiya").

Tolerantlıq çoxçalarlı mahiyyət və məzmuna malikdir. Bu mahiyyət nə qədər dəqiq müəyyənləşdirilərsə anlayışın müxtəlif məqsədlərlə manipulyasiyası və tətbiqi cəhətləri o qədər az olar. Tolerantlıq populist, kosmopolitik, frazeologiya deyilir. Onun ifadə etdiyi semantik məkan çox zəngindir. Tolerantlığın siyasi, elmi, dini, etnik, tibbi, pedaqoji, inzibati,



məişət, individual, kollektiv və s. traktovkalarını fərqləndirirlər.

Tolerantlıq səbir və dözüm anlayışları ilə sinonim kimi, əksər hallarda, yalnız müsbət hallarda işlənilir. Başqa sözlə desək, tolerantlığın yaxşı, intolerantlığın (dözümzüslüyün) pis olmasına dair təsəvvürlər formalaşmışdır. Bu tolerantlığın mahiyyətinin çox bəsit anlamı və çözülməsi demək olardı. Əslində, məsələ daha mürəkkəbdir. Tolerantlığın sərhədləri harada bitir və o, dözümsüzlüyə çevrilir. Onun ümumi başa düşülən modeli, yoxsa hərənin öz nisbi tolerantlıq təsəvvürləri mövcuddur.

Bəzi tədqiqatçılar universal tolerantlıq konsepsiyasının, məsələn, kosmopolitik tolerantlığın mövcud olduğunu irəli sürürlər. Digərlərinə görə dinlər və sivilizasiyalararası tolerantlıq konsepsiyasının olması qeyri-mümkündür. Çünki bu çox dərin qatlarda mənəvi-dini amillərlə, sosial arxetip və mentalitetlə əlaqəli surətdə mövcuddur. Yaxud tolerantlığın eyni vaxtda həm univrsal dəyər, həm də qarşılıqlı münasibətlərin həlli vasitəsi kimi qəbul edilməsinin mübahisəli olduğu vurğulanır. Hətta ayrılıqda bir insanın individual tolerantlığa malik olması, bunun sabit konstanta deyil, dinamik məzmunlu bir fenomen olması qeyd olunur. Bütün bu mövqelər relyativizmdən qaynaqlanaraq tolerantlıq anlayışının şərhində bəzən çətin sezilən manipulyativ, cəfəng potensialı görməyə mane olur.

Tolerantlığın həm ümumbəşəri mənəvi dəyər, həm də müasir demokratik cəmiyyətin təməl prinsiplərinin olmasına dair yekdil qənaət mövcuddur. Dözümsüzlüyün sülhün, demokratiya və təhlükəsizlik üçün ən böyük təhlükə mənbəyi olması da birmənalıdır.

Tolerantlığın mənalandırılmasında başqa anlayışlarda

olduğu kimi, ifratçılığa varmaq, hədd və sərhəd ölçülərini unutmaq olmaz. Həddini keçdikdə hər şey öz əksinə çevrilir. Buna görə də tolerantlığın: nihilizm, güzəşt, konformizm, pasifizm, kosmopolitizm, passiv və susmaq mövqeyi tutmaqla səbir etmək kimi başa düşülən mənaları hədd ölçüsünün unudulması ilə bağlıdır.

Tolerantlığın fəlsəfəsində demokratiya, insan hüquqları, vətəndaş cəmiyyəti və sair kimi yalnız liberal dəyərlərdən çıxış etmək də anlayışın bütövlüyünə mane olan amildir. Daha doğrusu, tolerantlıq yalnız müasir dünyəvi (sekulyar) dəyər kimi qəbul edildikdə onun zənginliyi məhdudlaşır. Ədalət, vicdan, əxlaq, həqiqət, kimi anlayışlardan təcrid olunmuş şəkildə, yəni dini (sakral) universal dəyər kimi daha qədim tarixə malik olması unudulanda anlayışın diskreditasiyası baş verir. Dünyəvi, yaxud demokratik dəyər adı altında hər hansı bir xalqın, sivilizasiyanın dəyərləri bütün dünyaya qəbul etdiriləndə bu təbii reaksiya doğurur, sülh üçün böyük təhlükə yaradır.

Bəzən tolerantlığın gerçəkləşməsi üçün identiklik və fərqlərin ləğv edilməsi kimi qorxulu təkliflər də səslənir.

Müasir dünyada insanlar, xalqlar arasında siyasi, ideoloji, iqtisadi, sosial sahədə mövcud olan fərqlərn azalması meyli müşahidə olunur. Belə ki, əksər ölkələr eyni demokratik siyasi quruluşda, eyni liberal bazar iqtisadiyyatı məkanlarında, eyni qlobal cəmiyyət ideyasının səsləndiyi zamanda yaşayırlar. Yəni sadalanan bu sahələrdə insanlar arasında köklü fərqlər mövcud deyildir və burada tolerantlıq problemi o qədər də kəskin durmur.

Bu gün bəşəriyyət bir qlobal zamanda, lakin çeşidli tolerantlıq məkanlarında mövcuddur. İnsanları fərqləndirən başlıca amillər mədəni-etnik, dini-konfessional fərqlərdir. Bu



baxımdan dini tolerantlıq probleminə xüsusi diqqət ayrılmasına real ehtiyac və sosial sifariş mövcuddur. Qlobal sivilizasiyanın formalaşması fərqli dinə mənsub olan insanların bir-birinə hörmət, anlam və dözümlü münasibətindən bilavasitə asılı olacaqdır.

Tolerantlıq hər şey demək deyildir, lakin tolerantlıq olmadan heç nə mümkün ola bilməz. Bütün münaqişə və gərginliklərin səbəbi dözümsüzlükdürsə, deməli, onların həlli yolları da burada axtarılmalıdır. Müxtəlif və fərqli olmaq istəyini qüvvə tətbiqi və savaş siyasəti ilə həll etmək heç bir vəchlə mümkün deyil. Buna görə də toqquşma ssenarilərinin nə elmi əsası, nə də gələcəyi yoxdur. İnsanların şüurunda min illərlə formalaşan stereotiplərin aradan qaldırılması üşün müəyyən zaman keçməlidir. Həm də bu sülh, əmin-amanlıq və davamlı inkişaf zamanı olmalıdlır.

Dözümsüzlüyün təzahürü olan şovinizm, rasizm, separatizm, ksenofobiya, ekstremizm və s. anlayışların mənasına diqqət etsək, maraqlı məqamlar üzə çıxır. Bu anlayışlar "başqa, özgə, fərqli olan"lar qarşısında hər hansı diskomfortluq, qorxu, gərginlik hissinin keçirilməsi və bu hisslərdən azad olmaq istəyi kimi mənaları verir. Yada salaq ki, "fobiya" qorxu deməkdir. Tolerantlığın formalaşması üçün insanların bir-birini tanımasına, ünsiyyət qurmasına imkan yaradan mühit olmalıdır.

Tolerantlıq daimi sülh və əmin-amanlıq, fasiləsiz dialoq, qarşılıqlı tanıma münasibətlərini nəzərdə tutur. Bu yalnız səbir və güzəştə getmək deyil, dinləmək, anlamaq və hörmət ermək, qəbul edə bilmək mədəniyyətidir. Məhz bu baxımdan tolerantlıq münaqişələrin həllinin müasir demokratik vasitəsi kimi çox mühüm əhəmiyyət kəsb edir. Onun başlıca

səbəbi, həm də nəticəsi insanların hüquq və azadlıqlarına hörmət hissidir.

Mövcud olan stereotiplərə müraciət etsək, tolerantlığı "düşmən - rəqib - özgə - dost" kimi anlayışların ictimai şüurda təkamül sırası kimi təsəvvür edə bilərik. Tolerantlıq böyüklüyün, dözümsüzlük isə zəifliyin əlamətidir. Dini tolerantlıq sivilizasion identikliyin sistemyaradıcı faktorudur. Onun prinsipləri tarix boyu yaşayaraq dünyəvi dəyərlərə nüfuz etmiş, insanları vahid bəşəriyyətə çevirən qlobal mədəni hüquqi norma və qaydalara çevirmişdir.

Hər hansı bir dini, onu daşıyan sivilizasiyanı dözümsüz adlandırmaq cəhdləri özü də bilavasitə dözümsüzlüyə nümunədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla əlaqədar qeyd etmişdir: "Biz beynəlxalq terrorizmi islam dini ilə əlaqələndirənlərə qəti etirazımızı bildiririk. Belə bir tezis tamamilə səhvdir, əsassızdır və qəbuledilməzdir".

11 sentyabr hadisələrindən sonra terroru islam dini ilə bağlamaq cəhdlərini prezident C.Kennediyə qəsd edən L.Osvalda görə bütün Amerika xalqını cinayətkar hesab etməklə müqayisə etmək olar. Ümumiləşdirməyə çalışsaq, məsələ dinlərarası dözümsüzlükdə deyil, ifrat mövqelərin tərəfdarlarının dözümsüzlüyündədir.

Tolerantlığı formalaşdırmaq üçün hər bir dində mövcud olan ümumi, ortaq dəyərləri aşkara çıxarmaq lazımdır. Fərqləri mütləqləşdirmək isə daim müasir dövrdə gərginliyin artmasına, antimiqrasion qanunvericiliyin, yeni viza rejimlərinin tətbiqinə rəvac verir. Bəşəriyyət ümumi düşmənə – terrorizmə və digər qlobal təhlükələrə qarşı birləşmək üçün tolerantlıq həyat normasına, əməli fəaliyyətinə çevrilməlidir.

Azərbaycan geostrateji mövqeyinə görə, çeşidli dünyagörüşü, həyat tərzi, mədəni və mənəvi dəyərlərin, dini konfessiyaların qovuşduğu tolerantlıq məkanıdır. Azərbaycan yalnız qlobal inteqrasiya və əməkdaşlıq məkanı deyil, həm də dinlərarası ünsiyyət məkanıdır. Müstəqillik illərində Azərbaycan ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasətinə uyğun olaraq öz tarixi nailiyyəti olan tolerantlığı daha da zənginləşdirmişdir. Bakıda ən müxtəlif təmayüllü dini icmalar, kilsə və sinaqoqlar mövcuddur. Burada müxtəlif mədəniyyətə mənsub olan insanlar üçün bənzərsiz sosial mühit təşəkkül tapmışdır. Polietnik struktura malik olan azərbaycanlılar bir-birinə münasibətdə, sadəcə, dözüm deyil, həm də ünsiyyət ehtiyacı duyurlar.

Xalqımızın mədəniyyət və mənəviyyatının bütün qatlarını özündə cəmləyən "azərbaycançılıq "mükəmməl tolerantlıq konsepsiyası və real inkişaf modelidir. Azərbaycançılıq ideologiyası dini tolerantlığın, polietnik mövcudluğun qarantı kimi çıxış edir. Bugünkü azərbaycanlı burada yaşayan bütün xalqların özünü təsdiqi üçün zəruri olan bütün imkanlardan bəhrələnən, sosial komfortluq və sosial optimizm hissinə malik vətəndaşın obrazıdır. Prezident İlham Əliyev bununla əlaqədar qeyd etmişdir: "Dini tolerantlıq sahəsində Azərbaycanın təcrübəsi örnək ola bilər. Etnik və dini tolerantlıq ölkəmizin ən yüksək tarixi nailiyyətidir. Bu bəlkə iqtisadi nailiyyətlərdən daha vacib elementdir".

Azərbaycanda dözümlü ictimai mühitin formalaşmasını bu gün və gələcəkdə təmin edən tolerantlığın praqmatik konsensus modeli daim inkişafdadır. Tolerantlıq prezumpsiyası insanlar, dinlər və mədəniyyətlərarası ünsiyyətin rəhbər prinsipinə çevrilmişdir.

## § 8. İslam Avropa məkanında

*(J.Klausen The İslamic challenge. Politics and Religion in Western Europe Oxford, 2005, p.26).*

*Qlobal inteqrasiya proseslərində dini-sivilizasion faktorların obyektiv təhlilini verən əsərlər o qədər də çox deyildir.*

Avropaya səfərimiz gedişində tanış olduğumuz tədqiqatçılardan, ingilis alimi Yutt Klausenin "İslam faktoru (Qərbi Avropada din və siyasət)" adlı əsəri, altı Avropa ölkəsində yaşayan (İsveç, Danimarka, Niderland, İngiltərə, Fransa) 300 müsəlman lideri arasında aparılan tədqiqatı əks etdirir.

Tədqiqat obyekti kimi seçilən əsas mövzular: islam Avropada, Avropanın yeni müsəlman Siyasi Elitası (1500-2000 nəfərə yaxın), din və siyasət, münaqişədən mədəniyyətlərin müharibəsinə, xristian və müsəlman Avropası, seksual siyasət və multikulturalizm, nəticə: liberal müsəlmanlar və Avropa islamının təşəkkülü və s. kimi qruplaşdırılmışdır.

Müəllifin fikrincə, son onilliklərdə Şərq və Qərb arasında toqquşma, savaş, mədəniyyətlərin müharibəsi, dəyərlərin qarşıdurması ardıcıl olaraq şüurlara yeridilir. Onun fikrincə, bəşəriyyəti xilas edə bilən bir tələb, çağırış varsa, o da dialoqa, qarşılıqlı anlaşmaya, inteqrasiyaya, tolerantlığa çağırışdır. Savaş məntiqinə əsaslanan apokaliptik bəyanatların əsassız olması problemin bir tərəfidir. Digər tərəf isə "elmi" hesab



olunan bəyanatların siyasi məqsədlərlə istifadə olunması, KİV-lər tərəfindən şişirdilməsidir.

Avropada yeni müsəlman siyasi elitasının formalaşmasında mövcud olan problemləri tədqiq edən alim Y.Klausen, altı Avropa ölkəsinin 300 müsəlman liderləri ilə geniş fikir mübadiləsi və sosial sorğular aparmışdır. "Bu məkanda on beş milyondan çox müsəlmanın yaşamasına baxmayaraq, onlar Avropa Milli parlamentlərində heç otuz yeri tuta bilməmişlər. Bir çox ölkələrdə yalnız 10-15 faiz müsəlman səsvermə hüququna malikdir" *(J.Klausen The İslamic challenge. Politics and Religion in Western Europe Oxford, 2005, p.26).* Əslində deyə bilərik ki, qarşıdurma Qərb, Avropa şüuruna xas olan köhnə və yeni düşüncə tərzləri arasındakı qarşıdurmadır. Ən böyük problem Avropada islama stereotiplərdən uzaq qərəzsiz bir münasibət formalaşdırmaq, "fundamentalist, terrorist" olmayan yəni həqiqi islamın olduğunu dərk etmək problemi var.

"Bəli problemlər var. Bu islam problemi deyil, hər şeydən əvvəl, "islamofobiya", köhnə və yeni azlıqların, miqrantların yaşadıqları cəmiyyətə haqlı inteqrasiyası tələbi, ikili standartlardan azad olmaq problemidir. Hansısa bir dinin qlobal hegemonluq uğrunda iddia etmək problemidir.

Y.Klausen sonra qeyd edir ki, müsəlmanlar Avropaya XX əsrin 50-60-cı illərindən gəlib. İlk öncə, onlar burada qalmır, pul toplayıb çıxıb gedirdilər. Günlərin bir günü, yəni XXI əsrin əvvəllərində onların sayı 15 milyonu aşanda Qərbi Avropa birdən dərk etdi ki, bəli, dövlət bu insanların fundamental haqlarını təmin etməlidir. Müxtəlif fikirlərə görə islam Avropada son onilliklər ərzində qlobal miqrasiya nəticəsində artıb. Ancaq 15 milyon müsəlmanın vur-tut 30 nəfəri Avropa dövlət parlamentlərinin üzvləridir. Bu milyonlarla insanın aktiv

(seçmək) və passiv (seçilmək) hüququnun tapdalanması deyilmi?! Bir çox Avropa şəhərlərində müsəlman əhalisinin yalnız 20-25 faizi səs verə bilər. İki istisna var. Yalnız Niderlandda bu ölkənin vətəndaşı olan türk və mərakeşlilərin 50 faizi səs verə bilər və İngiltərədə, İtaliyada cəmi 10 faizinin seçilmək hüququ var. Almaniyada 3,5 milyon türkün yalnız yarım milyonu səs verə bilər. İngiltərədə müsəlmanların yarısı öz milli identikliyini sənədlərdə ingilis, irland, şotland və s. kimi göstərir". *(p.76).*

Avropa tarixində miqrantlara diqqəti yönəldən ilk sənəd statistikaya görə 1970-ci ildə Danimarka hökuməti tərəfindən qəbul edilmiş "əcnəbi işçi qüvvəsi haqqında" Memorandum hesab olunur. Burada miqrantların öz ənənə və adətlərinin icrası üçün yer təşkil edilməsini nəzərdə tutan maddələr salınmışdır. Avropanın seçkili orqanlarına seçilənlərin 85-90 faizi erkən yaşından burada yaşayan və yaxud burada doğulan müsəlmanlardır. Fransada bir nəfər Milli Assambleyanın, 2 nəfər qadın Senatın üzvü, Almaniyada 2 qadın Bundestaqın, İsveçdə 5 nəfər Riksdaqın, Danimarkada 3 nəfər (müsəlmanlar) Folketinqin üzvüdür. Yüzlərlə müsəlman şəhər sovetlərinin üzvüdür.

"Avropadakı müsəlman siyasi elitası fundamentalist deyil və onların xilafət yaratmaq fikri yoxdur. Onların istədiyi bir şey insan haqları, hörmət və cəmiyyətdə qəbul edilməkdir". *(p.97).*

İnsanlar Qərbin təbliğ etdiyi, ağız dolusu danışdığı imkanlar və insan hüquqlarına dair bəyanatlara qulaq asır və qərar verirlər, bura gəlirlər və burada başqa şeylə üzləşirlər.

Müəllifin verdiyi suallar maraq doğurur. İslamofobiya anlayışı ilk dəfə 1997-ci ildə İngiltərənin məşhur beyin trest-



lərindən birinin apardığı tədqiqat nəticəsində çap edilən kitabın mövzusunu təşkil edir. Bu qurum ilk dəfə islamofobiya anlayışının lüğətlərə salınmasına nail olub, onun gerçək vəziyyətə biganəliyinin nəticəsi kimi səciyyələndirir. "Kim məsuldur?" sualına cavab bu cürdür:

1. Media və KİV-lər vəziyyəti qərəzlə qızışdırır;

2. Siyasi ksenofob yönümlü partiyalar siyasi dividend qazanmaq üçün bu şüardan istifadə edirlər;

"Məsələn, Karikatura qalmaqalı: ilk dəfə deyilənə görə dramatik məqam (KİV-də) 1989-cu ildə A.Homeyninin S.Rüşdüyə qarşı fitvası (şeytan ayələri). Daha sonra Danimarkada karikatura qalmaqalı və s. baş vermişdir" *(yenə orada).*

Helmut Şmit dəfələrlə təkrar edirdi: İslam və xristianlıq arasında dözümlü münasibət ancaq avtoritar dövlətlərdə mümkün ola bilər, başqa cür mümkün deyil. Sosial-mədəni adət-ənənə baxımından doğan narazılıqlara diqqəti cəlb edən müəllif yazır:" Danimarkada 250 min müsəlman yaşayır, lakin ölkədə müsəlman qəbiristanlığı yoxdur. İnsanlar ölüsünü dünyanın o başına – vətənə göndərir. Yeganə Lüteran kilsəsi 5 qəbiristanlıq ayırıb, amma burada müsəlman adəti ilə deyil, kremasiya yaxud tabutla dəfnə icazə verilir. Müsəlman kimi dəfn olunmaq üçün dini işlər üzrə nazirliyə yazmaq və bürokratik əngəlləri keçmək lazım gəlir".

Yaxud İngiltərədə 26 arxiyepiskop avtomatik olaraq Lordlar Palatasına üzv ola bilər, dini təşkilatlar dövlət tərəfindən maliyyələşdirilə bilər. Başqa dinlərə münasibət isə başqadır. Avropa hüquq mütəxəssislərinin fikrincə bu qanunda dini diskriminasiyaya dair boşluqdan irəli gəlir. Sosial yönümlü müsəlman dini təşkilatları dövlət tərəfindən dəstəklənməlidir,

din-dövlət münasibətlərində islahatlar olmalıdır, etnik azlıqlara işləmək hüququnda kvotalar verilməlidir.

Yaxud Almaniyada Qurban bayramı və s. belə bayramlara bir gün də vaxt verilmir, xristianlara isə verilir.

Azərbaycanda bütün bunlara həssas münasibət var. Amerikanın qanunvericiliyindən (*Билл о правах*) fərqli olaraq, Avropada boşluq var. Belə ki, əsasən Avropanın bütün milli dövlətlərində dil haqqında Xartiya əsas olduğu üçün burada ABŞ-dan fərqli olaraq, dini diskriminasiyanı qadağan edən xüsusi maddə vurğulanmır.

Bütövlükdə demək lazımdır ki, müəllifin mövqeyi öz obyektivliyi ilə fərqlənir. Məhz belə tədqiqatlar müasir dövrdə sosial-mədəni inteqrasiyanın inkişafına mane olan problemlərin birlikdə, düzgün həllini mümkün edə bilər.

Sosial-mədəni inteqrasiyanın "postnasional inteqrasiya" kimi adlandırılması ədəbiyyatda yer almışdır. Bu, "ikili identiklik" probleminin, həm ənənəvi mənsub olduğu, həm də daxil olduğu ölkənin mədəniyyətinin daşıyıcısı olmaqdan doğan yeni fenomendir.

Bu identiklik XXI əsrdə qlobal mədəni normaya çevrilməkdədir. Dövlət sərhədlərini aşan transmilli mədəni məkanların formalaşdığı bir dövrdə təşəkkül tapan yeni birliklərin elmi definisiyası mürəkkəb məsələyə çevrilir. "Avroislam" anlayışı və onun ifadə etdiyi proseslərin dəstəklənməsi, mədəni, dini və vətəndaş identikliyinin toqquşmadan, bir araya gəlməsi, yaşadıqları cəmiyyətlə dil tapması və s. bu qəbildən olan məsələlərdir.

Hesab edirik ki, islamın Avropada real, fəlsəfi və sosioloji mənzərəsini təqdim edən bu cür obyektiv tədqiqatların Azərbaycan dilinə tərcüməsi gərəkli məsələdir.



## *Son söz əvəzi*

XXI əsrin yeni məkanında hökmranlıq etmək iddiasında olan hər bir dövlət, artıq yalnız iqtisadi, siyasi, hərbi, geosiyasi məkanların fəthinin yetərli olmadığının fərqindədir. Nəinki bunun, həm də bütövlükdə "fəth" fəlsəfəsinin tarixdə öz dövrünü başa vurduğunu dərk etməyə yaxındır.

Ola bilsin ki, yeni yüzillikdə mədəniyyət və humanitar intellekt dünyanın simasını dəyişəcəkdir. Ola bilər ki, "Kim ən böyük əraziyə malikdirsə, hərbi gücə malikdirsə, dünyaya hökmranlıq edir" şüarını, "Kim ən böyük mədəni məkana malikdirsə....." şüarı əvəz edəcəkdir. Lakin bütün şüarların, formulların dramatizmi məhz ondadır ki, onlar son, mütləq həqiqət olmaq iddiasını heç zaman sübut edə bilməmişlər.

Ancaq bir həqiqət aşkardır: nə qədər ki, dünya və insan mövcuddur, siyasət, iqtisadiyyat və s.-lə yanaşı, mədəniyyətə də həyati ehtiyac mövcud olacaqdır. İnsanların yaradıcı və dağıdıcı energetikasının əbədi savaşı prosesi məhz burada, bu məkanda baş verəcəkdir. Və heç bir mükəməl texnologiya insan ruhunu, qəlbini, mənəvi dünyasını əvəz edə bilməyəcəkdir. İnsanın özünü və dünyanı təkmilləşdirmək əzmi yalnız siyasət və qanunlarla deyil, həm də etik-mənəvi sanksiyalarla müşayiət olunmalıdır. Yalnız bu halda dünyanın gələcəyi, əmin-amanlığı insanların hansı statuslu, fövqəl və ya lider ölkələrə mənsub

olması ilə deyil, hansı bəşəri mədəniyyət məkanına mənsub olması ilə müəyyən olunacaqdır. Bunun da hökmən belə olacağını əminliklə söyləmək olmaz.

Çünki, Y.Lotmanın dediyi kimi: "Olub keçənlər hamısı qanunauyğunluqdur, məlumdur, olacaqlar isə qeyri-müəyyəndir, naməlumdur". Mədəniyyət məkanı naməlum, arzuolunmaz döngələrin birlikdə qət edilməsinə imkan verən tək məkandır.



**Mənbələr:**

*Azərbaycan dilində:*

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 1-13-cü cildlər, Bakı, 1996-2005.
2. Əliyev İ.Ə. Azərbaycanın dünya birliyinə inteqrasiyası daha da sürətlənəcəkdir. // "İpək yolu", 2003, №3.
3. Prezident İlham Əliyev. Elmi redaktor Ə.Həsənov. Bakı, 2004.
4. R.Mehdiyev. Azərbaycan: Qloballaşmanın tələbləri. Bakı, 2004
5. R.Mehdiyev. XXI əsrdə milli dövlətçilik. - Bakı, 2003.
6. Həsənov Ə.M. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996), Bakı, 2000.
7. Xəlilov S.S. Şərq və Qərb: ümumbəşəri ideala doğru. Fəlsəfi etüdlər. Bakı, 2004.
8. Xəlilov S.S. Lider. Dövlət. Cəmiyyət. - Bakı, 2001.
9. Xəlilov S.S. Mənəviyyatın fəlsəfəsi. – Bakı, 2006.
10. Hüseynova H. Azərbaycan Avropaya inteqrasiya prosesləri sistemində (1991-1997), Bakı, 1998.
11. Cəfərov N. Türk dünyası: xaos və kosmos. Bakı, 1998.
12. Y.A.Jdanov. Avrasiyanın günəş çələngi. M., 1999.

*Rüs dilində:*

13.Аль-Газали. Избавляющий от заблуждения. Антология мировой философии. T.I., II ч. 478 s.

14. Артановский С.Н. Историческое единство человечества и взаимное влияние культур. Л., 1977.
5. Ф.Бродель. История цивилизации. 1980.
16. Г.Э. фон Грюнебаум. Основные черты арабо-мусульманской культуры. – М, 1981.
17. Динамика культуры: теоретико-методологические аспекты. М, 1989.
18. Б.С.Ерасов. Культура, религия и цивилизация на Востоке. М, 1990. // М.А.Батунский. Западно-Европейская исламистика и колониализм. М, 1989.
19. Духовная культура и этническое самосознание. М. 1990.
20. Динамика культуры: теоретико-методологические проблемы. М, 1999,
21. Давидович В.Е., Жданов Ю.А. Сущность в культуры. Ростов-на Дону, 1979.
22. Н.Данилевский. Россия и Европа. М, 1991.
23.А.В.Журавский. Христианство и ислам. М, 1990.
24. Б.Ключников. Исламизм, США и Европа. М, 2003.
25. А.Кудрявцев. Мусульмане во Франции. М, 2002.
26. Краткий словарь культурологических терминов понятий и терминов. М, 2000.
26. Культурные ценности: Прошлое и современность. – М, 1988.
27. Китай вступающий в XXI век. // Общество и экономика. 1999, №9.
28. М.С.Каган. Философия культуры. СПб, 1996.
29. Иорданский В.Б. Этнос и нация. 1992.
30. Ислам. Энциклопедический словарь. М, 1991.
31. Э.Кассирер. Опыт о человеке. М, 1993.



32.А.Кребер, К.Клакхон. Култура: Критический обзор концепций и определений. М, 1977.
33. Левада Ю.А. Традиция. //Философская энциклопедия. М, 1970. Том 5.
34. Р.Ланда. Мусульманская диаспора и исламоэкстремизм в Велико Британии. М, 2002.
35. Мир на рубеже тысячалетий, М, 2001.
36.Михеев В.В. Глобализация в понимании зарубежных ученых. // Проблемы Дальнего Востока. 2000, №1.
37. С.М.Михайлова. Социология культуры. М, 1999, 232с.
38. Механизмы культуры. М, 1990.
39.Р.Робертсон.Социальная теория. Глобальная культура. М. 2000, С.1997.
40.Диалоги об идентичности. М., 2005, с.81.
41.Россия и мусульманский мир. 2001, №11,
42.Г.Э.Грюнебаум. Классический ислам. (600-1258-е годы). Баку, 1998,
43.М.Бахтин. К методологии гуманитарных наук. М. 1979..
44.А.Турен. Способны ли мы жить вместе? М., 1999,
45.Теми Браг. Европа, Римский путь. М., 1995,
46.М.С.Каган. Философия культуры. СПб., «Петрополис», 1996.
47.С.Бенхабиб. Притязание культуры. Равенство и разнообразие в глобальнуб эру. Пер. с англ. под ред. В.Л.Иноземцева. М, Логос, 2003,
48. Дж. П. Бьюкенен. Смерть Запада. Как вымирающее население и нашествие иммигрантов угрожают нашей стране и цивилизации. М, 2004,
49. Лапкин В.В., Пантин В.И. Геоэкономическая политика и глобальная политическая история . М, "Олита" , 2004,

50. Михайлов С.Этнические миграционные волны и проблемы социально-политической стабильности. М, 1995 .
51. Наука в культуре.-М, Эдиториал УРСС, 1999,
52.С.Хантингтон. Кто мы? Вызовы Американской национальной идентичности. М., 2004,
53.Доклад о развитии человека. 2004. культурная свобода в современном моногообразном мире. М., 2004,
54.Диалоги об этничности и мультикультурализме. М., 2005, с.38
55.М.Ба-Юнус, К.Конс. Американские мусульмане. Демографичёский отчет. // Мусульмане в публичном пространстве Америки. М., 2005,
56. И.Бэгби. Мечеть и публичное пространство. М., 2004,418;
57. Доклад о развитии человека 2004. Культурная свобода в современном многообразном мире. М., 2004,
58. М.Фуко. Интеллектуалы и власть. Ч. II., М., 2002, 401).
59. Г.Гегель.Политические произведения. М., 1978..
60. Турсунов Акбар. Восточное культуроведение: очерки основоположений // Взаимодействие культур Востока и Запада. Вып.2. М., Наука.1991.
61. Конрад Н.И. Запад и Восток. Статьи. М., 1972.
62. Моль А. Социодинамика культуры. М., 1973.
63. Аш-Шахрастани. Книга о религиях и сектах. Ч.1. Ислам. М., 1984.
64.Q.E. fon. Qrünebaum. Klassik islam (600-1258). B., 1998,.
65. Геллнер Э. Нации и национализм. М. Прогресс. 1991.



66. Ионин Л.Г. Социология культуры. М. Loqos. 1998,
67. Мифологический энциклопедический словарь. М. Инфра. М. 1999,
68. Фильштинский И.М., Шидфар Б.Л. Очерк арабо-мусульманской культуры. М., 1971,.
69. Габриели Ф. Основные тенденции развития в литературах ислама.
70.Арабская Средневековая культура и литература. М. 1978,
71. Роузентал Ф. Торжество знания. Концепция знания в средневековом
исламе. М. 1978,
72. Яковлев Е.Г. Искусство и мировые религии. М. 1985,.
73. Сайид Муджтаба Рукни Мусави Лари. Западная цивилизация глазами мусальманина.Б.,1996.
74. Валлерстайн И. Анализ мировых систем и ситуация в современном
мире. Изд. Университетская книга. С.Петербург. 2001.
75. Левин З.И. Ислам и национализм в странах зарубежного востока. М.,Наука 1988.
76. Махновский Д.М. К постоновке вопроса взаимовлияния религии и культуры (культура и религия). Ленинград, изд. ЛГУ. 1977, с.23.
77. Савельев С.Г. Понятие и место культуры в системе общественных наук. М, 1997.
78. Религия и атеизм в истории культуры. Л. ЛГУ. 1989,
79. Фильштинский И.П. История арабской летературы. М.1985,.

80. Дорошенко Е.А. Шиитское духовенство в Иране. М., 1986.
81. Спиркин А.Г. Человек, культура, традиция (Традиция в истории культуры). М. 1978.
82. Моисеев Н. Новое политическое мышление. М, 2000.
83.Преодолевая барьеры. М, 2002.
84.С.Рубинштейн. Человек и мир. М, 1979.
85.Россия и мусульманский мир. 2002, №12.
86.Современные концепции кризиса. М. 1991.
87.Сравнительное изучение культур. М, 1999,
88. А.Тойнби. Постижение истории. М., 2005.
89. А.Тойнби. Цивилизация перед судом истории. М, 1996.
90. Толерантность. Под. Ред. Хомякова М.Б. – Екатеринбург, 2000.
91. Удовник С.Л. Глобализация: семиотические подходы. М, 2002.
92. Философский энциклопедический словарь. 1993.
93.Ф.А.Хайек. Общество свободных. Лондон. 1990.
94.С.Хантингтон. Кто мы? Вызовы Американской национальной идентичности. М., 2004, с.514
95. С.Хантингтон. Столкновение цивилизаций. М. 2003, 607 с.
96. Яковец Ю.В. История цивилизаций. Изд. 2-ое. М, 1997.

*Ingilis dilində:*

97. M.Edwards. The legacy of Islam. Oxford, 1974.
98. A.Appadurai. Culture and Globalization. 1998.
99.Global Culture: Nationalizm, Globalization and Modernity. London, 1990.



100. M.Edwards. The legacy of Islam. Oxford, 1974.
101. Robertson. Globalization. Sosial Theory and Global Culture. – London, Sage, 1992.
102. A.Appadurai. Culture and Globalization. 1998.
103. Global Culture: Nationalizm, Globalization and Modernity. London, 1990.
104. B.Alvarez-Miranda. Muslim comminities in Europe.
105. Religions difference in Britain, Germany and France. 2005
106. J.Klausen. The islamic challenge. Politics and religion in vestern Europe. Oxford University Press, 2005, p.136
107. A.Camble. Between Europe and America. The future of British Politics. 2003, p.231
108. Brzezinski Z. The Grand Chessboard. New-Üork, 1998;
109. Clover C. Dreams of Eurasian Heartland. Foreign Affairs, 1999, v.78, №2 və s.
110.M.Hansen. The problem of Third Generation İmmiqrant. – Rosk İsland, 1938

*Direktor: professor N.B.Məmmədli*

*Yığılmağa verilmiş 18.02.2007.*
*Çapa imzalanmış 16.04.2007.*
*Şərti çap vərəqi 27,5. Sifariş № 175.*
*Kağız formatı 60x90 1/16. Tiraj 500.*

---

*Kitab «Nurlan» nəşriyyat-poliqrafiya müəssisəsində*
*hazır diapozitivlərdən çap olunmuşdur.*
*E-mail: nurlan1959@yahoo.com*
*Tel: 497-16-32; 050-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*